ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Zəhra Muradova



# Şuşa

## HƏR DAŞI-QAYASI TARİX

BAKI-2022

Azərbaycan Respublikasının Təhsil Nazirliyi
Azərbaycan Respublikası Təhsil İnstitutu

**ZƏHRA MURADOVA**

# ŞUŞA,
# HƏR DAŞI-QAYASI TARİX

*Kitab "Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 2022-ci il tarixli 3096 nömrəli sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı Təhsil naziri Emin Əmrullayev tərəfindən təsdiq edilmiş "Şuşa ili" ilə bağlı Təhsil Nazirliyinin Tədbirlər Planının 4-cü bəndinə əsasən hazırlanmışdır.*

BAKI – 2022

Redaktorlar: Vəli İlyasov
Azərbaycan Jurnalistlər Birliyinin üzvü
İntiqam Cəbrayılov
Pedaqogika üzrə elmlər doktoru, professor

Texniki redaktorlar: Rəhilə Misirxanova
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Məsləhətçi: Vasif Quliyev
Azərbaycan Respublikası Yazıçılar İttifaqı və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, "Şuşa" qəzetinin baş redaktoru

Rəyçilər: Piralı Əliyev
Pedaqogika üzrə elmlər doktoru,
professor

Mahirə İbadova
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent



Müəllifin oxuculara təqdim etdiyi bu kitab Şuşa şəhər-qalasının tikilməsindən, Şuşa şəhərindən və orada yetişən görkəmli elm, sənət və dövlət adamlarından, ictimai xadimlərdən bəhs edir. Müəllifin qarşısına qoyduğu əsas məqsəd Azərbaycan və dünya miqyasında tanınmış şuşalıları bir daha geniş oxucu kütləsinə tanıtdırmaq və yaddaşımızı daha da möhkəmlətməkdir. Oxucular kitabı mütaliə etdikcə qədim və gözəl şəhərimiz olan Şuşanın və Qarabağımızın keşməkeşli tarixindən çox bilgilər öyrənəcəklər.



**DOI https://doi.org/10.36719/2022/405**

# Şərqin gözəli

## Əziz Şuşa, sən azadsan!

İyirmisəkkiz illik həsrətdən sonra Şuşanın işğaldan azad edilməsi ölkəmizdə ümumxalq bayramı kimi qarşılandı. Hətta xarici ölkələrdə yaşayan çoxmilyonlu həmvətənlərimiz sevinclərini bizimlə bölüşdülər. Bu bayramı bizə müzəffər ordumuz və möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev yaşatdı. Rəhbərimiz ermənilərin üç ilə işğal etdikləri şəhəri və digər torpaqlarımızı cəmi 44 günlük ildırımsürətli döyüş əməliyyatları ilə azad etdi.

Şuşada möhkəmlənməyə çalışan erməni qoşunlarının dar-madağın edilməsindən sonra Ermənistanda hamı başa düşdü ki, müqavimət mənasızdır. Mənfur düşmənlərizin keçmiş prezidenti Robert Köçəryan bildirmişdi ki, Şuşa kimdədirsə, Qarabağ onundur. Ancaq o, hələ də başa düşmürdü ki, Şuşanı işğalda saxl amaq onun sahibi olmaq deyil, bir gün bu şəhərin əzəli sahibi gələcək və quldur erməniləri oradan qovub uzaqlaşdıracaq. Elə də oldu... Soyuq payız günündə xüsusi təyinatlı igidlərimizlə bərabər sanki şəhidlərimizin ruhu da düşmən üzərinə hücuma keçmişdi. Belə qüvvənin qarşısında kim dayana bilərdi ki?!

2020-ci il noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Şəhidlər xiyabanından xalqa etdiyi müraciətdə Şuşa şəhərinin Ermənistanın işğalından azad edilməsi xəbərini verdi.

Orada Prezidentimiz ***“Əziz Şuşa, sən azadsan, biz səni dirçəldəcəyik!”*** – dedi. Bəli, Şuşa “Dəmir yumruq” əməliyyatına uyğun olaraq ora bir ağır artilleriya mərmisi atılmadan düşmən caynağından xilas edildi. Prezidentimiz, Ali Baş Komandanımızın əmri də belə idi. Şuşada dağıntıya yol verməmək üçün belə tapşırıq vermişdi. Şuşa yad əllərdə qalmadı.

Şuşa Azərbaycanın həm hərbi-strateji əhəmiyyətli nöqtəsi, həm də ən gözəl şəhərlərindəndir. Təbiətdən və gözəllikdən zövq almaqçün Şuşa unikal məkandır, döyüş meydanı deyil. Bu gün mühafizə olunan qala-şəhərlərimizin sırasında ən önəmli yeri olan Şuşanı həm də "Şərqin gözəli" adlandırmaq olar. Cabbarın, Üzeyirin, Bülbülün, Seyidin, Xanın, Niyazinin, Rəşidin, Fikrətin qəlbimizin ən incə tellərini cilalayan musiqiləri, bənzərsiz ifaları, muğamlarımızın və xalq mahnılarımızın iliyə işləyən zəngulələrinin dalğa-dalğa yayıldığı o dağlarda igidlər at çapıb, ox atıb, qılınc oynadıb. Unutmayaq ki, bütün bunları nəzərə alan dövlət başçımızın xüsusi tapşırığı ilə dağıntı olmadan, bir top mərmisi atılmadan belə, Şuşa azad edil ib. Onu müdafiə edən Qa 1 a da sonadək öz işini gördü. Bu müqəddəs torpağın, yurdun sahibi Qalanı istehkam seçdi. Ermənilərin və onların havadarlarının burnunu əzdi, şəhərdən qovdu, öz yurduna sahib oldu. Qələbə bayrağını Qalanın üzərində ucaltdı. 1920-ci ildə Azərbaycanın üçrəngli bayrağını Şuşa qalasına sancan cümhuriyyət ordusunun zabiti İsrafil bəy İsrafilbəyli idisə, 2020-ci ildə bu missiyanı 39 yaşlı gizir, şəhid qardaşı Yaşar Hüseynov həyata keçirdi. Eşq olsun onun kimi igidlərimizə!

Bu bayr aq bir daha enməz! Şuşa azad edil əndən bu vaxl a qədər Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya dəfələrlə səfər ediblər. Bu, dövlətimiz tərəfindən Şuşaya göstərilən böyük diqqətin parlaq tərənnümüdür. Çünki onların bu şəhərə gəlişi yaddaqalan təməlqoyma mərasimləri və təzə inşa olunan binaların, infrastruktur obyektlərin açıl ışı ilə əlamətdar olur. Onu da qeyd edək ki, şəhərin infrastruktur layihəsi "ağıllı şəhər" qaydalarına uyğun şəkildə reallaşdırılır. Abad yol və içməli su kəmərlərinin çəkilişi sahəsində böyük işlər görülüb. "Baksell" şirkəti orada özünün mobil telefon stansiyasını qurub. Aşağı və Yuxarı Gövhər ağa məscidlərinin, görkəmli şəxsiyyətlərin ev-muzeylərinin təmirinə və bərpasına başlanıb. Molla Pənah Vaqifin məqbərəsi, Bülbülün ev-muzeyi təmir və bərpa olunub. Çörək zavodu şəhər sakinlərini və buranı hər gün ziyarətə gələn çoxsaylı qonaqları bu müqəddəs

nemətlə təmin edir. Dünyanın hər yerindən Şuşanı ziyarət etmək arzusunda olanlar var. Onlar üçün də gözəl şərait yaradılır.

Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. İndiyədək görülən işlər, həyata keçirilən tədbirlər göstərir ki, möhtərəm Prezidentimizin bu vədi də layiqincə yerinə yetirilməkdədir.

Əvvəllər həmişə Şuşada Vaqif poeziya günləri, idman yarışları, muğam festivalları, "Xarı bülbül" müsabiqələri keçirilərdi. Kədərə, yasa bürünmüş Şuşa dağlarında, Cıdır düzündə otuz illik fasilədən sonra bu festivallar yenidən keçirilməyə, gözəl ənənələrimiz bərpa olunmağa başladı. Artıq Xarı bülbülümüz əsarətdən təzəcə qurtulan doğma Vətən torpağımızı və onun əsrarəngiz gözəlliklərini vəsf edir. Bundan sonra Xarı bülbülümüz daha boynubükük olmayacaq, qələbəmizin rəmzi kimi təqdim ediləcək. Xarı bülbülümüz hər yerdə dostlarımızı sevindirəcək, düşmənlərimizi isə xar edəcək. Əbədi olsun!

Bəli, iyirmisəkkiz illik üzücü işğal artıq geridə qalıb, Şuşa şəhərinin bərpasına, abadlaşdırılmasına və yenidən qurulmasına başlanılmışdır. Bütün özəl xüsusiyyətləri saxlanılmaqla Şuşamız yenidən abadlaşır, daha da gözəlləşir.

Qarşıdan yaz fəsli gəlir, bu gözəl məkanımızda yenə çal-çağır məclisləri qurulacaq, "Xarı bülbül" festivalı, Vaqif poeziya günləri, musiqi yarışları keçiriləcək, cıdır yarışları, idman və digər əyləncələr təşkil ediləcək. Cıdır düzü bu tədbirlərin bütün iştirakçılarını yenidən qoynuna alacaq. Məşhur İsa bulağı, Turşsu onlara həsrət qalmış sevimli qonaqlarını yenə də baldan şirin suları ilə məftun edəcək.

Məşhur xanəndəmiz Xan Şuşinskini yada salaq. "Şuşanın dağları" xalq mahnısını tez-tez oxuyurdu: ***"'Şuşada axşamlar yanar ağ şamlar".*** Amma indi Şuşada gur işıqlı elektrik lampaları, çil-çıraqlar, güclü projektorlar şəhərin gecələrini nura qərq edir. Bir sözlə, Şuşa yenidən dirçəlir, şəhər əvvəlki görkəminə qaytarılır və yeni memarlıq üslubunda qurulur. Bütün xüsusiyyətləri

saxlanmaqla doğma şəhərimiz yenidən abadlaşır, gözəli əşir və yüksəl ir. Dünya durduqca var ol, əziz, əvəzi olmayan Şuşamız!



## Mədəniyyətimizin beşiyi Şuşanın yaranma tarixi

Ölkəmizdə elə şəhər və yaşayış məntəqələri var ki, onlar Azərbaycanın varlığını, tarixini və rəmzlərini özündə yaşadır və əks etdirir. Belə şəhərlərdən biri olan Şuşa öz qədim və gözəlliyinə görə şöhrət qazanıb. Tariximizdə Qarabağın paytaxtı olduğu illərdə bu şəhər almmazlıq simvoluna çevrilmişdi. Şuşa şəhərinin və qalasının yaradılmasının maraqlı tarixi var. Bu tarix Qarabağ xanlığının yaradıcısı və ona hakimlik edən Pənahəli xanın adı ilə qırılmaz surətdə bağlıdır.

Pənahəli xan 1693-cü ildə İbrahimxəlil ağanın və Qızlarbəyim xanımın ailəsində, Qarabağın Sarıcalı oymağında anadan olub. Pənahəli xanın əsl-nəsəbi Qarabağın Cavanşir elindəndir. Bu el qədim zamanlarda Türküstandan gəlmişdir. Onların ata-babaları Cavanşir eli arasında məşhur, adlı-sanlı, çörəkli və mal-dövlətli adamlar idilər. Beləliklə, Şuşa şəhərinin yaranma tarixinə dair əlimizdə olan faktlara nəzər salaq.

Tarixi faktlara əsasən, məlumdur ki, 1747-ci il iyunun 19-dan 20-ə keçən gecə Nadir şah sui-qəsd nəticəsində öldürüldü. Nadir şahın ölümündən sonra qardaşı oğlu Əliqulu xan ədalətli olduğu üçün onu Adil şah adı ilə hakimiyyətə gətirdilər. Mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində Azərbaycanda 20 müstəqil xanlıq yaradıldı. Belə əlverişli şəraitdə Pənahəli bəy Qarabağda xanlıq təşkil etdi. O, vaxtilə Xorasanın Sərəxs şəhərinə sürgün edilmiş Kəbirli, Cavanşir, Otuzikilər və başqa tayfaları Qarabağa qaytardı və köçən ailələrə hər cür şərait yaratdı. 1747-ci ildə Pənahəli bəy özünü Qarabağ xanı elan etdi.

Pənahəli xan düşünürdü ki, gələcəkdə xarici və daxili hücumlardan qorunmaq üçün möhkəm qala lazımdır. O, 1748-ci ildə Qarabağda türk tayfalarından birinin adını daşıyan Bayat qalasını inşa etdirdi. Xan bütün ailəsini, qohumlarının və el böyüklərinin əhli-əyalını ora topladı. Ətrafda olan camaat, hətta Pənahəli xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları ailələri ilə birlikdə gəlib, Bayat qalasında yerləşdilər. Lakin Şəki hakimi Hacı Çələbi

xanın Qarabağ üzərinə yürüşü zamanı Pənahəli xan böyük igidliklə qalanı müdafiə etsə də, bu qalanın davamlı, etibarlı olmadığı bilindi. Bayat savaşı eyni zamanda düzən yerdə tikilmiş bu qalanın gələcək tarixi sınaqlara davam gətirə bilməyəcəyini də üzə çıxardı. Hacı Çələbi xan müttəfiqləri ilə geri çəkildi və məqsədinə nail ola bilmədi. Hacı Çələbi geri dönərkən ***"“Pənahəli xan bu vaxtacan bir sikkəsiz gümüş idi, biz gəldik, ona sikkə vurduq və qayıtdıq!”*** – deyə vurğuladı.

Bu qalibiyyətdən sonra Pənahəli xanın igidliyi haqqında dillərə düşən dastan o zaman Qarabağda yaşayan bütün müsəlman tayfalarını müharibəsiz onun təbəəliyinə tabe etdirdi... Adil şah Pənahəli bəyə “xan” rütbəsini qanuni olaraq fərmanla təsdiq edib, rəsmən Qarabağ hakimi təyin etdi.

1748-ci ildə Adil şah öldürüldü və Pənahəli xan Qarabağı tam müstəqil idarə etməyə başladı. Ancaq xan başa düşürdü ki, gələcəkdə yeni hücumlardan qorunmaq üçün daha möhkəm qala lazımdır. Bu məqsədlə xan Şahbulaq (Təpnəküt) qalasını tikdirdi. Bu qal aya yaxından axan gur sulu bul ağın adı verilmişdir. Müdafiə tipli tikili olan qaladan müəyyən bir dövr ərzində yaşayış yeri, sonradan isə gözətçi məntəqəsi kimi istifadə olunub. Elmi ədəbiyyatda “Şahbulaq qəsri” adı ilə tanınan abidə, əslində, iri qəsr kompleksi xanın iqamətgahı olmuşdur. Yığcam quruluşlu bu qala düzbucaqlı biçimdədir və onun bayır divarları dairəvi və yarımsilindrik bürclərlə möhkəmləndirilmişdir. Qala divarları və qüllələr yuxarıya doğru bir qədər incələşib, müdafiə tikililəri üçün səciyyəvi olan mazğal sırası və dişlərlə tamamlanırdı. Divarlar 7, bürclər 8,5 metr hündürlükdədir. Qalanın giriş qapısı şərq divarının ortasında olub, xaricdən ona bitişik ikimərtəbəli qülləvari həcmlərlə qorunurdu. Bu qüllənin üst qatı yəqin ki, xanın otağı olmuşdur. Həmin otağa qəsrin həyətindən daş pilləkən qalxır.

Ancaq zaman keçdikcə Pənahəli xan anladı ki, orada da uzun müddətə təhlükəsiz qalmaq və qalanı qorumaq olmaz, bir sözlə, xanı yalnız alınmaz qala düşündürürdü. Nəhayət, çox axtarışlardan sonra əlçatmaz bir yer tapıldı və burada Pənahəli xanın arzuladığı

qalanın inşasına başlanıldı və möhtəşəm, yenilməz bir qala quruldu, abad şəhər salındı.

Qeyd etməliyik ki, qalanın bünövrəsi təxminən 1750-ci il iyun ayının 20-də qoyulub və ilk çağlarda şəhəri xanın şərəfinə "Pənahabad", ya da "Pənahabad qalası" adlandırıblar. Sonralar el arasında ona sadəcə "Qala" deyiblər. Pənahəli xanın dövründə cəmi 6 məhəllə salınmışdı. Qalanın arxitekturasına hansı memarın rəhbərlik etdiyi məlum deyil.Qala yarandığı ilk onilliklərdə Şuşanı və şuşalıları düşmən hücumlarından etibarlı surətdə qoruyan nəhəng bir alınmaz istehkam idi. Qala divarlarının içərisində strareji əhəmiyyət daşıyan, biri qərbə-İrəvan istiqamətinə, digəri isə şimala-Gəncəyə gedən yola açılan iki qapı vardı. Qapılar eyni memarlıq üslubunda, eyni forma və ölçüdə quraşdırılmışdı. Şəhərə giriş-çıxış yalnız bu iki qapıdan mümkün idi. Şuşalıları düşmən hücumlarından qoruyan bu möhkəm qapılar döyüşlər zamanı müəyyən zədələr almış, lakin sonradan bərpa edilmişdi. İbrahimxəlil xan 1797-ci ildə Şuşa qalasının təhlükəsizliyini artırmaq üçün İrəvan qapısını daşla hördürərək bağlatmışdı. Sonrakı illərdə İrəvan qapısı tədricən dağılmışdı. Lakin tarixin keşməkeşlərindən keçən Gəncə qapısı bu gün də qonaqların üzünə açıqdır. Yenə də şəhərə gələnləri qarşılayır, gedənləri xoş xatirələrlə yola salır.

Sonra qalanın tikintisini İbrahimxəlil xan davam etdirdi, möhkəmlətdi və məhəllələrin sayını 17-yə çatdırdı. Tarixçilərin yazdığına görə, Şuşa qalasının tikintisinə İbrahimxəlil xanın dövründə onun vəziri Molla Pənah Vaqif rəhbərlik edib. Şuşada karvansaralar, bazarlar və 17 məhəllə vardı: Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Dördçinar, Dördlərqurdu, Hacı Yusifli, Çöl qala, Qurdlar, Saatlı, Köçərli, Mamayı, Xocamircanlı, Dəmirçilər, Hamamqabağı, Merdinli və Təzə məhəllə. Hər məhəllədə hamam, məscid və bulaq vardı.

Şuşa Azərbaycanın qədim və gözəl şəhərlərindən biri kimi yarandığı gündən şöhrət qazanıb. Bu məkan sanki təbiətin bir möcüzəsidir: sıldırım qayalarla əhatələnmiş və sərt yamacların üzərində bərqərar olmuşdur. "Pənahabad qalası" şişuclu dağlar,

qayalar üzərində yerləşdiyindən sonralar xalqın dilində "Şişə" sözü ilə əvəz olunmuşdur. Bu isə türk sözü olub iki məna daşıyır. "Şiş" və "saf", yəni bu qala-şəhər həm şiş uclu dağlarda, həm də saf, təmiz havalı məkanda olduğundan ona bu ad verilmişdir. XVIII əsrin sonlarında buradakı yerli əhalinin tələffüzündə və sənədləşmələrdə bu söz Şuşa kimi formalaşıb. Əvvəllər qalaya yalnız bir neçə dar cığırla çıxmaq mümkün idi. Bu cığırlarda duran on beş-iyirmi nəfər bir alayın qarşısını kəsə bilərdi, yəni, qüdrətdən səngərli-qalalı idi. Başı daim dumanlı-çiskinli dağları ağuşuna alan sıx yaşıl meşələr, Cıdır düzü, həsrət rəmzi sayılan Gəlin qayası, əlçatmaz yalçın qayalar, Turşsu, İsa bulağı, saf hava Şuşaya özəl gözəlliklər bəxş edib. Dünyada nadir sayılan xarı bülbül çiçəyi də Şuşanı tanıdan simvollardan biridir.

Qarabağ xanlığının paytaxtı olduğu illərdə tariximizdə alınmazlıq simvoluna çevrilmiş bu şəhər-qala ədəbiyyatımıza, musiqimizə, folklorumuza, incəsənətimizə istedadlı sənətkarlar bəxş etməsi ilə də qürur yerimizə dönüb.

XVIII əsrdə Şuşa Azərbaycanın ən mühüm şəhərlərindən birinə çevrilmişdi. Onun dövrəsində böyük və güclü sədd çəkilib, çoxsaylı sənətkar məhəllələri yaranıb. Şuşalı tacirlər bir çox ölkələrlə ticarət əlaqələri saxlayırdılar. Burada "Pənahabadi" adlanan gümüş sikkə zərb edilirdi. Paytaxtı Şuşa olan Qarabağ xanlığı sürətlə güclü feodal dövlətinə çevrildi.

Bura Azərbaycanın başqa bölgələrindən müxtəlif peşə sahibləri gətirildi. Cənubi Azərbaycandan Qarabağda sənətə göstərilən hörməti eşidən sənətkarlar (ayrı-ayrı şəxslər və sonralar müxtəl if qruplar) gəldi 1 ər. Bu tendensiya XIX və XX əsrin əvvəllərində bir ənənə kimi davam etdi.



Sonrakı araşdırmalar göstərir ki, sənətkarlara və sənətkarlığa Pənahəli xanın olan ehtiramı onun övladları tərəfindən davam etdirilmiş və nəsildən-nəslə səxavətlə ötürülmüşdür. Məhz bu ənənənin nəticəsi idi ki, illər

keçdikcə Qarabağda əziz tutulan şairlər, yazıçılar, jurnalistlər, aşıq və muğam ifaçıları, dramaturqlar, musiqiçilər orada öz sənətlərini inkişaf etdirdilər.

Bu sənətkarlar bəzən fərdi şəkildə çalışsalar da, ədəbi-bədii məclislərlə yanaşı, xüsusi məclislərə, qruplara da rəhbərlik edirdilər. Qarabağda həmçinin xəttat, oyma və memar qrupları da var idi. Xəttatlara Kərbəlayı Səfərəli bəy, oyma ustalarına Mir Möhsün Nəvvab, memar və inşaatçılara memar Kərbəlayı Səfixan Qarabaği rəhbərlik edirdi. Kərbalayı Səfixan Qarabaği 1817-ci ildə Təbriz Əhər qəsəbəsində anadan olmuşdur.

O, Təbrizdə "Şərq Memarlıq Məktəbi"ndə təhsil alıb, 1860-ci ildən isə Qarabağa gələrək memarlıq işləri ilə məşğul olub. Memarlıqda fərqli işləri ilə seçilən Kərbəlayı Səfixan Qarabağa tək gəlməmiş, özü ilə yüksək bacarıqlı ustalar da gətirmişdi.

Bununla da o, Qarabağda öz memarlıq irsinin əsasını qoymuşdu. Şuşanın gözəl mühiti bir çox sənətkarlar kimi Səfixanı da sevindirirdi. Bu, onun şəhəri daha da inkişaf etdirmək cəhdlərinə təsir göstərdi və daimi yaşayış yeri kimi Şuşanı niyə seçdiyini izah etdi. Onun ilk işi Bərdədə Şeyx İbrahim məqbərəsi üzərində ucaldılan İmamzadə Kərbalayı Səfixan Qarabaği məscidi olub.

Şuşanın mərkəzi meydanından təxminən 150 metr şimal-şərqdə binalar kompleksi – Gövhər ağa məscidi, mədrəsə (dini məktəb), yaşayış evləri, mağazalar və digər tikililər Səfixan tərəfindən inşa edilmişdir.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilmişdi. Şuşanı "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırırdılar. XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən, Şuşada musiqi sənəti, ilk növbədə, xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü.

İllər keçdikcə sürətlə inkişaf edən Şuşadan pərvəriş tapmış bir çox görkəmli dövlət xadimləri və elm adamları, maarifçilər,

pedaqoqlar yetişmişdir. Onlar Azərbaycanın ictimai həyatında, Vətən təhsilinin və elminin inkişafında samballı xidmətlər göstərmişlər.

Əsasən, XVIII əsrdən başlayaraq Şuşada anadan olan şairlərimizin əksəriyyəti Azərbaycan dilində yazmaqla, ədəbiyyatımızı, folklorumuzu zənginləşdirdilər. Qasım bəy Zakir, Mir Möhsün Nəvvab, Xurşudbanu Natəvan, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli və bir çox başqaları öz yaradıcılıqları ilə ədəbi xəzinəmizə qiymətli incilər bəxş etmişlər. Görünür, havasının, suyunun, torpağının təsirindəndir ki, Qarabağda, xüsusilə də, Şuşada istedadlı xanəndələr, musiqi xadimləri, incəsənət ustaları yetişmişdir. Onlar təkcə Azərbaycan səhnəsinin, Qafqaz regionunun deyil, bütün dünyanın mötəbər məclislərinin yaraşığıdırlar. Yaşadıqları dövrün görkəmli şəxsiyyətləri olan Hacı Hüsü, Xarrat Qulu, Cabbar Qaryağdıoğlu, Keçəçioğlu Məhəmməd, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Əbülfət Əliyev və başqaları öz gözəl səsləri və təkrarsız ifaları ilə qəlbləri fəth etmişlər. Onlar öz yüksək sənətkarlıqları ilə Şuşanı “Qafqazın konservatoriyası”na çevirmişdilər. Qarabağ xanəndələrinin səsi Yaxın və Orta Şərq ölkələrindən, şahların saraylarından gəlirdi.

Şuşa yalnız incənət xadimləri ilə məşhur olmamışdır. Odur ki, mən bu kitabda öz sənətləri ilə Azərbaycanın adını daha da şərəfləndirən sənətkarlarımız, dövlət xadimlərimiz, hərbçilərimiz, maarifçilərimiz və başqaları barədə məlumat verməklə xalqıma kiçik də olsa, bir xidmət göstərmək istədim.

Qoy gələcək nəsillərimiz mədəniyyətimizin hansı bünövrə üzərində yüksəldiyini bilsinlər. Axı Qarabağın, xüsusilə də, Şuşanın relyefi, dağları, bulaqları, meşələri, sıldırım qayaları və ümumiyyətlə təbiəti, həmin bünövrənin başlıca komponenləridir. Dünyanın hər şəhərinə nəsib olmayan bu ilahi hədiyyə Şusa və onun kimi nadir şəhərlərə nəsib olur. Ona görə də bu qədim ata-baba yurdumuz saysız hesabsız istedadlı, dünya şöhrətli şəxsiyyətlər yetişdirib. Məhz bu səbəbdən də əminik ki, bu torpaq yenə də belə

görkəmli alimlər və sənətkarlar yetişdirəcək. Onlar şöhrətli ata-babaları kimi xalqımıza, dövlətimizə xidmət edəcəklər.



## Şuşa sənətkarlar şəhəridir

Şuşa şəhəri tikiləndən sonra uzun müddət Qarabağ xanlığının paytaxtı olmaqla yanaşı, həm də mühüm iqtisadi mərkəzə çevrildi. Bu şəhər sənətkarlıqla bərabər yaranıb desək, səhv olmaz. Sənətkarlıq isə buranın zəngin flora və faunası, iqlimi və relyefi ilə bağlıdır. Əzəmətli dağlar, başı dumanlı zirvələr, gur çaylar və saf bulaqlar, qartalların qıy vurduğu yalçın qayalar, sıx meşələr, dərin dərələr, dibi görünməyən uçurumlar, göz aparan düzlər və s. burada dünyaya gələnlərə xüsusi qabiliyyət, bacarıq və istedad bəxş edir. Buradakı məşhur xanəndəlik sənəti su ilə, torpaqla və təbii şəraitlə sıx bağlıdır. Xalq arasında belə bir ifadə işlənir: ***“'Filan yerin suyunu içənlər ya şair, ya xanəndə, ya da aşıq olur. ”*** İnamla deyə bilərik ki, Şuşada doğulan hər iki-üç nəfərdən biri məlahətli səsə və ya müəyyən sahə üzrə ist edada mal ik olur. Qəl əmə aldığımız bu kitab dediklərimizin ən inandırıcı sübutudur.

Qeyd etməliyik ki, bu bölgədə xalçaçılıq qoyunçuluğun, dabbaqlıq maldarlığın, mebel və musiqi alətləri istehsalı isə meşəçiliyin inkişafı ilə əlaqəlidir. Şuşa ətrafında bitən ağac, kol və çicəklər rəngkarlığın, boyaqçılığın bazasıdır. Əsas ticarət və sənətkarlıq obyektləri şəhərin mərkəzi rolunu oynayan “Aşağı bazar” və “Meydan” adlandırılan ərazidə cəmləşmişdi. Burada çoxlu ticarət dükanı və sənətkar emalatxanaları ilə yanaşı, bir neçə karvansara və hamam da tikilib istifadəyə verilmişdi.

Şuşa şəhəri XVIII əsrin sonlarından başlayaraq sürətlə inkişaf etdi və bütün Cənubi Qafqazın mühüm ticarət mərkəzlərindən biri oldu. Tacirlər Şuşaya Dərbənddən qızıl, boya, Şəkidən silah, ipək, mahud, Bakıdan neft və zəfəran, Naxçıvandan duz və bez parça, Gəncədən zəy və meyvə gətirirdilər. Şuşadan isə sənətkarlıq məhsulları həmin bölgələrə aparılırdı. Şuşanın ticarət əlaqələrində yaxın Şərq ölkələri, habelə Osmanlı imperiyası, Rusiya, Hindistan və Avropa ölkələri mühüm rol oynayırdılar. Şuşalı tacirlər Almaniyanın məşhur Leypsiq, Rusiyanın Nijni-Novqorod yar-markalarının daimi iştirakçıları idilər. 1872-ci ildə Moskvada

keçirilən politexniki sərgidə Şuşa xalçaçılarından Kərbəlayi Əhməd Dəmir oğlu, Cabbar Hacı Əhməd oğlu və Bayram Məşədi Qurban oğlu yüksək keyfiyyətli və gözəl çeşidli xalçalar nümayiş etdirdiklərinə görə mükafata və qızıl medala layiq görülmüşdülər. Yəni, Şuşa xalçalarının şöhrəti özündən min kilometrlərlə uzaqda olan ölkələrdə belə, yayılmışdı.

Göründüyü kimi, Şuşa şəhəri özünün sənətkarlıq məhsulları ilə də şöhrət qazanmışdı. XIX əsrin əvvəllərində şəhərdə 100-dən artıq sənət sahəsi üzrə ixtisaslaşmış böyük sənətkarlar ordusu fəaliyyət göstərirdi. Onların arasında memarlar, duluşçular, sərraclar, həkkaklar, xəttatlar, silah ustaları, bənnalar, zərgərlər, nəqqaşlar, daşyonanlar, tikmə ustaları, toxucular, papaqçılar, çəkməçilər, dabbaqlar, dərzilər, dülgərlər, həllaclar və s. çoxluq təşkil edirdi. Şəhərdə toxuculuq və xalçaçılıq xüsusilə yüksək inkişaf səviyyəsinə çatmışdı.

XIX əsrin əvvəllərində burada müxtəlif növ parçalar istehsal edən 500 toxucu dəzgahı işləyirdi. Kapitalist münasibətlərinin sürətli inkişafı Şuşada ipəkçiliyin fabrik-zavod istehsalı səviyyəsinə yüksəlməsinə gətirib-çıxardı. Artıq XIX əsrin 60-cı illərində şəhərdə illik istehsal gücü 78 min rubla bərabər olan 16 ipəksarıma fabriki fəaliyyət göstərirdi.

Şuşa Azərbaycanda xalça istehsalının da mühüm mərkəzlərindən biri idi. XIX əsrin sonlarında dünya bazarlarında Azərbaycan xalçalarına tələbatın artması Şuşada xalçaçılığın daha da inkişaf etməsinə səbəb oldu. Bu dövrdə şəhərdə hər il ümumi dəyəri 50 min rubla bərabər olan xalça məmulatı istehsal edilirdi. Şuşa xalçaları bədii xüsusiyyətlərinə görə iki böyük qrupa – ornamentli və süjetli xalçalara bölünürdü. Əsasən, XVIII-XIX əsrlər üçün xarakterik olan ornamentli Şuşa xalçalarında nəbati ünsürlər üstünlük təşkil edirdi.

Şuşada boyaqçılıq, gön-dəri məmulatı istehsalı və metalişləmə sənətləri də yüksək inkişaf səviyyəsinə çatmışdı. Şuşalı boyaqçılar müxtəlif növ bitkilərdən istifadə edərək 50-yə qədər rəng və rəng

çaları almağı bacarırdılar. XIX əsrin sonu – XX əsrin əvvəllərində Şuşada fəaliyyət göstərən 8 boyaqxananın illik istehsal gücü 69500 rubla çatırdı. Elə həmin dövrdə şəhərdə 200 nəfərə yaxın sənətkar gön-dəri məmulatı istehsalı ilə məşğul olurdu. XIX əsrin sonl arında Şu ş ada 78 nəfər zərgər müxləlif növ baş, boyun, sinə, qulaq, bel, qol və barş maq üçün zərgərlik məmulatları hazırlayırdılar.

Azərbaycanlılar tərəfindən salman və uzun müddət əhalisinin mütləq əksəriyyətini Azərbaycan türkləri təşkil edən Şuşa şəhəri XIX əsrin əvvəllərində baş vermiş Rusiya işğalından sonra ciddi demoqrafik dəyişikliklərlə üzləşdi. Azərbaycanın digər yaşayış məntəqələri kimi, Şuşaya da ermənilərin köçürülməsinə başlanıldı, bir çox tanınmış sənətkarlar köçüb ətraf yerlərə, bəziləri isə Gəncəyə, Tiflisə, Təbrizə və başqa yerlərə getdilər. Çar hökumətinin himayəsi ilə Şuşaya müxtəlif xarici ölkələrdən köçürülən ermənilər şəhərin köklü sakinləri olan azərbaycanlıları sıxışdırmağa başladılar. Şuşanın başı üstünü qara buludlar aldı. 1905-1906-cı illərdə çar Rusiyası tərəfindən ermənilərin əli ilə azərbaycanlılara qarşı qanlı terror və soyqırımı təşkil edildi. Ermənilər bu əməllərini 1918-1920-ci illərdə də təkrar etməyə cəhd göstərsələr də, Azərbaycan Xalq Cümhuriyyətinin yenicə təşkil edilən silahlı qüvvələri tərəfindən dəf edildilər.

Lakin Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə Şuşanın fəlakətli günləri başlandı. Qarabağda rəhbər vəzifələri ələ keçirən ermənilər şəhərin azərbaycanlı əhalisinə qarşı fiziki və mənəvi repressiyalara başladılar. 1923-cü ildə DQMV-nin yaradılması və Xan kəndinin onun mərkəzi seçilməsi ilə Şuşa Qarabağın inzibati mərkəzi olmaq funksiyasından məhrum edildi. Bununla da, Şuşa şəhərinin və orada yaşayan azərbaycanlıların vəziyyəti xeyli pisləşdi. Vilayət rəhbərliyinin ögey münasibəti nəticəsində şəhər sürətlə tənəzzül etməyə başladı. Azərbaycan xalqının tarixi-memarlıq abidələrinin bir çoxu uçurulub-dağıdıldı. Əhalinin sayı təxminən 50 il ərzində 3 dəfədən də çox azaldı. Bel ə ki, 1917-ci

ildə Şuşada 43869 nəfər əhali yaşadığı halda, 1970-ci ildə onların sayı azalıb 13664 nəfərə enmişdi.

Bütün süni çətinliklərə baxmayaraq, Şuşa inkişafdan qalmırdı. 1962-ci ildə Sadıqcanm-Sadıq Əsəd oğlunun adını daşıyan Şuşa Şərq Musiqi Alətləri Sexi açıldı. Sonradan bu sex musiqi alətləri fabrikinə çevrildi. Bu alətlərin hazırlanmasında Qarabağ meşələrində bitən bir çox ağaclardan, xüsusən də tut və qoz ağaclarından istifadə olunurdu. Fabrikdə tar, kamança, ud, nağara, saz və digər musiqi alətləri istehsal olunurdu. Onun məhsulları Gürcüstan, Qazaxıstan, Dağıstan, Orta Asiya ölkələrinə, Hindistana və Yaxın Şərq ölkələrinə ixrac olunurdu. Burada istehsal edilən musiqi alətləri o zaman Ümumittifaq və beynəlxalq sərgilərdə yüksək mükafatlara layiq görülürdü. Ona görə sexin istehsal dairəsi də genişləndirildi.

Şuşanın yenidən dirçəlməsi yalnız 1969-cu ildə Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gətirilməsindən sonra mümkün oldu. 1973-cü ildə fabrikin istehsal imkanlarının daha da genişləndirilməsi üçün ora Moskvadan, Leninqraddan və Tbilisidən yeni dəzgahlar gətirilib quraşdırılmışdı. Elə həmin il istehsal sexi ətrafında yeni binalar inşa edilərək böyük bir fabrikə çevrildi. Bütün musiqi alətləri dövlət keyfiyyət nişanı ilə istehsal olunmağa başladı. 1977-ci ildə Azərbaycan
SSR Nazirlər Soveti "Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul etdi. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün mühüm tədbirlər həyata keçirildi. Bütün bu tədbirlər nəticəsində şəhərdə əhalinin sayı artaraq 1989-cu ildə 20579 nəfərə çatdı.

Lakin Şuşada başlanmış bu dirçəliş uzun çəkmədi. 1992-ci il mayın 8-də şəhər erməni silahlı qüvvələri tərəfindən işğal olundu. İşğal prosesində və işğaldan keçən 28 il ərzində Şuşanın tarixi-memarlıq abidələri, o cümlədən, sənətkarlıq inciləri erməni vandalları tərəfindən amansızcasına dağıdıldı.



## Şuşanın mədəniyyət abidələri

Tarixi və coğrafi baxımdan bir çox özəl üstünlükləri olan bu şəhər-qalamız başdan-başa canlı muzeydir desək, səhv olmaz. Burada hər daş, hər divar bir tarixdən xəbər verir.

Bu yerlərin tarixi hələ b.e . ə qədər gedib çıxır. Bu dövrlərdə də burada sənətkarlıq nümunələrinə rast gəlmək mümkündür. Belə ki, tunc dövründə Şuşa şəhərinin şimal-qərbində kurqan, şəhər yaxınlığında yerləşən Şuşa və Şuşakənd daş qutu qəbirləri, Şuşa şəhərinin cənubunda, Daşaltı çayının sol sahilində yerləsən "Şuşa mağara düşərgəsi" abidələri Şuşanın qədim, mədəni tarixini və xalqımızın bu yerlərdə ilk məskunlaşmasını, yaşayıb-yaratmasmı təsdiqləyir.

Qarabulaq kəndi ərazisində yerləşən "Şuşa daş nekropolu", Dolanlar kəndində yerləşən son tunc və ilk dəmir dövrünə aid olan "Nekropol" dəmir dövrə aid olan abidələrdir.

XVIII əsrdə Şuşada bir çox abidələr yaradılmışdır. Bunlardan Şuşa şəhəri, "Şuşa qalası"nı, Heydər türbəsini, Natəvanın evini, Əsəd bəyin evini, Yuxarı Gövhər ağa məscidini (1768- 1769-cu illər), Aşağı Gövhər ağa məscidini, Mehmandarovlarm yaşayış kompleksini (məscid və yaşayış evi), Xanlıq Muxtar karvansarayım, Ağa Qəhrəman Mirsayib oğlunun karvansarayını, Saatlı məscidini, Gəncə qapısını, Əbdürrəhim bəy Haqverdiyevin evini, Yusif Vəzir Çəmənzəminlinin evini, Yuxarı məscid mədrəsəsini, Səfərov qardaşlarının karvansarasını, Tarzən Sadıqcanm evini, Uğurlu bəyin evini, Xan sarayını, Şirin su hamamını, Qasım bəy Zakirin evini, Mədrəsəni, Behbudovlarm evini, Firudin bəy Köçərlinin evini, Mir Möhsün Nəvvabm evim, Hüseyn bəy evini, Karvansarayı, Gəray Əsədovun evini, Cabbar Qaryağdıoğlunun evini, Yaşayış evini, Cəfərqulu ağanın evini, Bulaqı, Türbəni, Alban kilsəsi qalıqlarını, Qız monastrını, Mamay bəyin evini, Məşədi Teymurun evini, Şor bulağı, Lətif İmanovun evini, Hacı Abbas məscidi və karvansarayını, Cahangir xanın evini, Hacı Məmmədin evini, Hacı Yusifli məscidini, Məşədi Salmanın

evini, Hacı Əlibalanın evini, Çöl qala bulağını, Məşədi Süleymanın evini, Musəvinin evini, Məşədi Zeynal Hətəmovun evini, Məşədi Əlinin evini, Məşədi Şəhriyarın evini, Hacı Dadaşın evini, Adil Əzimovun evini, Məşədi İbrahimin evini, Məşədi Cəlalın evini, Meydan Bulağını, Hacı Bəşirin evini, Dərzi Bəhramın evini, Məşədi Hüsünün evini, Məhəmməd Həsən oğlunun evini, Xoca Mərcanlı məscidini, Xoca Mərcanlı Bulağını, Quyuluq məhəlləsini, Seyid Məcidin evini, Seyidli Məscidini, Məşədi Qaranın evini, Məşədi İbişin evini, Hacı Aslanın evini, Hacı Məlik oğlunun evini, Fəyyazovların evini, Seyidli, Hacı Yusifli, Köçərli, Çuxur məhəllələrindəki bulaqları, Daşaltı kəndi ərazisindəki İbrahimxəlil xan sarayını, İbrahim xanın qəsrini, Zarıslı kəndindəki Saxsı bulağı qeyd edə bilərik.

Qədim tarixə və zəngin mədəni irsə malik olan Şuşa şəhərinin XIX əsr tarixinə nəzər yetirərkən bu dövrdə də Şuşada bir çox abidələrin inşa olunduğunu görürük. “Hacı Qulunun mülkü”, “İkimərtəbəli karvansara”, “İsa bulağı”, “Üzeyir Hacıbəyovun ev-muzeyi”, “Zülfüqar Hacıbəyovun evi”, “Qazançı kilsəsi”, “Xanəndə Seyid Şuşinskinin evi”, “Bülbülün evi”, “Firidun bəy Köçərlinin evi”, “Keçəçioğlu Məhəmmədin evi”, “Süleyman Sani Axundovun evi”, “Xəstəxana binası”, “Yaşayış binası”, “Qız məktəbi”, Aslan Qaraşarovun evi, “Məşədi İbrahimin yaşayış evi”, “Məşədi Novruzun evi”, “Həsən ağanın evi”, “Şükür bəyin evi”, “Laçın”su anbarı, Süleyman Vəzirovun evi, Xəlil Məmmədovun evi, Ələkbər bəyin evi, Mərdinli məscidi, Culfalar məscidi, Dəyirman, Kəblə Azadın evi, Hacı Sadığın evi, Hacı Məmmədbağırın evi, Hüsü Hacıyevin evi, Kəlbə Məhəmmədin evi, Bəhmən Mirzənin evi, Bəhmən Mirzənin ərzaq anbarı, Qulam şahın yaşayış evi, Nəcəf bəy Vəzirə'vun evi, Köçərli məscidi, Kəlbə Yusifin evi, Zöhrabbəyəvun evi, Məşədi Zülfüqarın evi, Mir Həsən Vəzirə vun evi, Mamay məscidi, Mamay bulağı, Ağadədəli məhələsindəki Bulaq, Çuxur məhəllədəki Məscid, Malıbəyli kəndi ərazisindəki hamam, Məscid, Nəvlu bulaq, İnzibati bina. Bütün bunlar məhz XIX əsrdə Şuşada tikilmiş abidələrdir.

Şuşada sənətkarlıq bütün dövrlərdə inkişaf etmişdir. Bu səbəbdəndir ki, XX əsrdə də Şuşa şəhərində inşa edilən tarixi- mədəni abidələrə də rast gəlmək mümkündür. Bu abidələrdən Realni məktəbinin binasını, Şair Məlla Pənah Vaqifin türbəsini, Şuşa Pedaqəji Texnikumunu, Mədəniyyət evini, Şuşa Dövlət Musiqili Dram Teatrını, Tarix-diyarşünaslıq muzeyini, üç kənd mədəniyyət evini və iki klubu, musiqi alətləri istehsal edən sexi qeyd etmək əlar.

Bu abidələrin hamısı azərbaycanlıların bu yerin əsl sahibi olduğunu təsdiqləyir. Mənfur düşmənimiz əlan ermənilərin səylərinə baxmayaraq, Şuşanın nə özü, nə də sözü onların olmayıb. Çünki Şuşada nə özləri, nə də izləri var. Bu şəhəri bizim xan babamız tikib və dünya durduqca bizim əlacaq. Biz öz tariximizi bilməli və gələcək nəsillərə də ötürməliyik. Öyrətməliyik ki, qənşuluğumuzdakı namərdlər nə vaxtsa baş qaldıranda bu mötəbər faktlarla ənları yerində əturda bilsinlər. Tarix bizim ən kəsərli silahlarımızdan biridir. Onu heç vaxt yaddan çıxarmamalıyıq.

## Şuşa – Azərbaycan musiqisinin məbədi

Dünyada bir neçə şəhər var ki, musiqi onun hər daşına, qayasına, ab-havasına hopub. Bunlar Avstriyanın Vyana, İtaliyanın Neapol, İraqın Kərkük, Azərbaycanın da Şuşa şəhərləridir. Hətta xalq arasında məşhur bir kəl am var: ***"'Şuşada körpələr muğam üstündə ağlayırlar***Analar bu yerdə beşikdəki körpələrinə həzin səslə muğam üstə layla deyib, igidlərin cənazəsi üstündə bayatı çəkiblər. Şuşa dağlarının başı üstündə çalmaya bənzəyən duman sanki şikəstə oxuyub, göz yaşı tökür, qayalara toxunan küləklər zil səslə muğam oxuyur, bulaqları həzin nəğmə deyir. Özü də elə muğam, elə bayatı, elə nəğmə ki, insanın iliyinə-sümüyünə işləyir.

Şuşa gur yanan sönməz musiqi ocağıdır. Bu, nə sirri-xudadır, heç kim bilmir... Ancaq düşünürsən ki, Allahın sevdiyi bir cənnət guşəyə verdiyi bir hədiyyə və bu yerin sakinlərinə lütfüdür. Bu yerdə anadan olanlar sanki ilahi səslə birgə dünyaya gəlirlər. Sonra həmin səs sahibini ahənrüba kimi çəkib müsiqinin sehrinə qovuşdurur. Xarrat Qulunun, Hacı Hüsünün, Seyidin, Cabbarın, Xanın, Rəşidin, Bülbülün ecazkar səsləri dünyanın ən böyük konsert salonlarını titrətmiş, dinləyənləri heyran etmişdir. Bu səslər okeanın o tayında – Argentinada, uzaq Hindistanda, Yaponiyada, İraqda, Orta Asiya ölkələrində, Cənubi Amerikada, Avropada musiqisevərləri qeybdən gələn ilahi səs kimi təəccübləndirirdi.

Dahi Üzeyir bəyin "O olmasın, bu olsun" və "Arşın mal alan" musiqili komediyaları dünya kinosunun inciləri sırasındadır. Hər iki kinofilm Yer kürəsinin 70-ə qədər ölkəsində tamaşaçılar tərəfindən anşlaqla qarşılanıb.

Şusa şəhəri yuxarıda sadaladıqlarımızdan başqa bir çox görkəmli musiqi xadimlərinin də vətənidir. Bu musiqi dünyanın bütün qitələrində Azərbaycan xalq musiqisini xarici tamaşaçılara böyük ustalıqla təqdim etmişlər.

Şuşalılar həmişə qalalı olmaları ilə fəxr edirlər. Dünya şöhrətli müğənnimiz Rəşid Behbudov Şuşaya həsr edilmiş mahnılardan birində şaqraq səsi ilə oxuyurdu: ***"Qalalıyam ey, qalalı!!!"***

Şuşa – Mir Möhsün Nəvvabın, Xarrat Qulunun, Hacı Hüsünün, Sadıqcanın, Məşədi İsinin, Əbdülbağı Zülalovun, Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məhəmmədin, Məşədi Məhəmməd Fərzəliyevin, İslam Abdullayevin, Seyid Şuşinskinin, Bülbülün, Zülfi Adıgözəlovun, Xan Şuşinskinin, Məşədi Cəmil Əmirovun, Qurban Pirimovun, bəstəkarlardan Üzeyir Hacıbəylinin, Zülfüqar Hacıbəyovun, Fikrət Əmirovun, Niyazinin, Əfrasiyab Bədəlbəylinin, Soltan Hacıbəyovun, Əşrəf Abbasovun, Süleyman Ələsgərovun vətənidir. Bu, əlbəttə, Şuşa musiqiçilərinin tam siyahısı deyil. Şübhəsiz ki, bu mövzu bir məruzənin, hətta bir məqalənin deyil, böyük tədqiqat əsərinin mövzusudur. Şərq musiqisinin məşhur tədqiqatçısı V.Vinoqradov hələ 1938-ci ildə Üzeyir bəy haqqında kitabında yazırdı: ***“Şuşada musiqi çoxdur. Azərbaycanın hər hansı rayonundan daha çox xalq mahnılarını, rəqslərini, xanəndə və sazəndələrini burada eşitmək olar. Şuşa qədim zamanlardan musiqinin beşiyi kimi məşhurdur və bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi şöhrət qazanmışdır. Şuşa musiqiçiləri Azərbaycan musiqisinin tarixini yaratmışlar və onu yalnız vətənlərində deyil, digər Şərq ölkələrində təqdim etmişlər”.***

XIX əsrin ikinci yarısında Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri, cəmiyyətləri, dərnəkləri təşkil olunurdu. Belə ki, Bakıda Məşədi Məlik Mənsurovun məclisi, Şamaxıda Mahmud ağanın, Şuşada isə Xarrat Qulu Məhəmməd oğlunun və Mir Möhsün Nəvvabm musiqi məclislərinin Azərbaycan musiqisinin inkişafında önəmli rolu olub.

Şuşada ilk musiqi məclisi Şərq musiqisinin bilicisi Xarrat Qulu tərəfindən təşkil edilmişdi. Bu məclis dini təbliğat məqsədilə yaranmışdı, lakin burada həm də muğam sənəti öyrənilirdi. Məhərrəmlik qurtarandan sonra xanəndələr bu muğamları artıq toylarda və başqa yerlərdə ifa edirdilər. Xarrat Quludan sonra 80-ci illərdə Şuşada “Məclisi-fəramuşan” (“Unudulmuşların məclisi”) və “Musiqiçilər məclisi” yaranır ki, onların rəhbəri XIX əsrin mütərəqqi xadimi, alimi, şairi, musiqişünası, rəssamı Mir Möhsün Nəvvab idi. Nəvvab Şuşada doğulmuş, yaşamış, yaratmış və orada

da vəfat etmişdi. Ensiklopedik biliyə və nadir istedada malik olan M.M.Nəvvab Azərbaycan elmini, musiqi sənətini, ədəbiyyatını xeyli zənginləşdirmişdir. Onun çoxşaxəli fəaliyyəti, elmi müddəaları və tədqiqatları, müəllifin iyirmidən artıq əsərində öz əksini tapmışdır. Bizim üçün M.M.Nəvvabm musiqi ifaçılığı və musiqi elmi sahəsindəki fəaliyyəti xüsusilə maraqlıdır. Keçən əsrin 80-ci illərində məşhur xanəndə Hacı Hüsü ilə birlikdə yaratdığı "Musiqiçilər məclisi"ndə musiqi sənətinin estetik problemləri, xanəndələrin ifaçılığı, klassik müğamları müşayiət edən şeirlər müzakirə olunurdu. Məclisə öz vaxtının məşhur xanəndə və sazəndələri Hacı Hüsü, Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Seyid Şuşinski və b. daxil idi. Bir çox musiqiçilər özlərinin ilk təhsilini məhz burada almışdılar. Burada müzakirə olunan problemlərdən bəziləri öz əksini və sonrakı inkişafını M.M.Nəvvabm "Vüzuhül-ərqam" risaləsində tapmışdır. Mir Möhsün Nəvvab musiqi sənəti haqqında bu risaləni – "Rəqəmlərin izahı"nı 1884-cü ildə Şuşada yazmışdır.

Böyük tarzən Mirzə Sadıq Əsəd oğlu burada böyüyüb boya- başa çatıb. Xalq arasında o, Sadıqcan kimi məşhur idi. Mirzə Sadıq Azərbaycanda və Zaqafqaziya xalqları arasında böyük şöhrət və məhəbbət qazanmış ustad sənətkar idi. Onun "Sadıqcan" adlanması da görünür, bu məhəbbətin ifadəsi idi. Mirzə Sadıq İran şahının oğlunun toyunda böyük bacarıq və ustalıq göstərdiyinə görə, şah onu "Şiri-Xurşid" qızıl ordeni ilə təltif etmişdi. Mirzə Sadığın musiqimizin tarixində böyük xidmətləri olub. O, çoxəsrlik tarı rekonstruksiya edərək təkmilləşdirmiş beşsimli zəif səslənən tara altıncı simi də əlavə edərək sayını on birə çatdırmışdı. Tarın qolunda olan pərdələrin sayını isə azaldaraq 17-yə endirmişdi. Mirzə Sadıq müasir Azərbaycan tarının yaradıcısı idi. Onu "tarın atası" da adlandırırdılar. Mirzə Sadıq tarla bərabər muğamları da təkmilləşdirmiş, tarın qoluna "Zabul" pərdəsini, "Mirzə Hüseyn Segah"ına isə "Müxalif"i əlavə etmişdir. Sadıqcan iri əllərə, uzun və güclü barmaqlara sahib idi. Deyilənə görə, onun tarda işlətdiyi barmaqları, vurduğu mizrabları heç kəs təkrar edə bilməmişdir. Məşədi Zeynal, Malıbəyli Həmid, Məşədi Cəmil Əmirov, Şirin

Axundov, Qurban Pirimov kimi mahir tarzənlər məhz Sadıqcan məktəbinin gözəl davamçılarıdır.

1897-ci ildə Şuşada yazıçı Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə həvəskar aktyorların ifasında dahi Azərbaycan şairi Füzulinin poeması əsasında "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəcik göstərildi. Məcnun rolunu məşhur xanəndə Cabbar Qaryağdıoğlu oynayırdı. 1902-ci ildə "Fərhad və Şirin" musiqili tamaşası səhnəyə qoyuldu. Fərhad rolunu yenə də Cabbar Qaryağdıoğlu ifa edirdi. O, xalq xanəndəsi və bəstəkarı kimi məşhur idi. Cabbar Qaryağdıoğlu öz sözlərinə çoxlu mahnı, təsniflər üçün isə şeirlər yazmışdı. "Bakı", "Bəsti", "Tiflisin yolları" və bir çox mahnıların müəllifi idi. Cabbar Qaryağdıoğlunun yüksək tessitura və geniş diapazonlu gözəl tenoru var idi. Onun kimi "Mənsuriyyə", "Heyratı", "Kürdi-Şahnaz" oxuyan yox idi. Cabbarın səsini məşhur italyan tenoru Karuzo ilə müqayisə edirdilər. Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır. Hələ 1906-1912-ci illərdə xanəndənin səsi Kiyev, Moskva və Varşavada bir sıra aksioner cəmiyyətlər tərəfindən fonovalikə yazılmışdır. Cabbar Qaryağdıoğlu Azərbaycan vokal sənətinin tarixində yeni səhifə açmışdır. O, Şərq konsertlərində çıxış edərək milli operanın yaranmasında önəmli rol oynadı. Cabbar Qaryağdıoğlundan sonra Şuşa xanəndəlik məktəbinin ən parlaq nümayəndəsi Seyid Şuşinski idi. Cabbar Qaryağdıoğlu onu "Şərq musiqisinin incisi" adlandırmışdı. Seyid Şuşinskinin 1908-ci ildə Şuşanın Yay klubunda keçən ilk uğurlu çıxışından sonra Cabbar səhnəyə çıxıb, Seyidi bağrına basaraq gözləri yaşarmış halda demişdi: ***"'indi mən ölsəm də, daha qəmim yoxdur, çünki məndən sonra Seyid var".*** Sonrakı çıxışlarının birində isə Cabbar Seyidin oxumağından riqqətlənərək öz qavalını ona bağışlamışdı. Şərqdə ilk opera olan "Leyli və Məcnun"u Üzeyir Hacıbəyli 1907-ci ildə yazıb. Amma bu operanın mövzusu bir qədər əvvəl 1897-1898-ci illərdə hələ bəstəkar Şuşada yaşayarkən qəlbində həkk olunmuşdu. Şuşada göstərilən "Məcnun Leylinin məzarı üstündə" mövzusunda səhnəcikdə balaca Üzeyir özü də xorda oxuyurdu.

Azərbaycan musiqisinin klassiki, opera sənətinin banisi, görkəmli alim-musiqişünas, alovlu publisist, istedadlı dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəylinin yaradıcılıq yolu peşəkar Azərbaycan musiqi sənətinin və mədəniyyətinin yaranması və inkişafı tarixinin mühüm dövrünü əks etdirir. Məhz elə buna görə Üzeyir Hacıbəylinin anadan olduğu günü – 18 sentyabr Azərbaycan ictimaiyyəti musiqi bayramı kimi qeyd edir.

Ulu öndər Heydər Əliyev 1995-ci ildə Üzeyir bəyin anadan olmasının 110 illik yubileyi münasibətilə "Üzeyir Musuqi Günü" nün təsis edilməsi haqqında fərman vermişdir: ***"'Dahi Azərbaycan bəstəkarı, Azərbaycan milli operasının banisi, böyük musiqişünas-alim, publisist və pedaqoq Üzeyir Hacıbəylinin Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq böyük sənətkara xalq ehtiramını və məhəbbətini təcəssüm etdirmək məqsədilə qərara alıram:***

***1. Hər il sentyabr ayının 18-də Üzeyir Musiqi Günü keçirilsin.***

***2. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə tapşırılsın ki, hər il sentyabr ayının 18-də Üzeyir Musiqi Gününün keçirilməsini təmin etsin.***

***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev***
***Bakı şəhəri,18 sentyabr 1995-ci il."***

100 ildən artıqdır ki, Ü.Hacıbəyli musiqisi Azərbaycan xalqının canına, qanına sirayət edərək bədii mədəniyyətimizin ayrılmaz hissəsini təşkil edir. Onun yaradıcılığı tək doğma Qarabağın deyil, Azərbaycanın da hüdudlarını aşaraq artıq müasir musiqi mədəniyyətinin bədii hadisəsinə çevrilmişdir. Üzeyir bəy dəfələrlə etiraf etmişdir ki, özünün şedevri olan "Koroğlu" operasını yaradarkən ən əvvəl Bülbülün səsini nəzərdə tutmuşdu. Bülbül Hacıbəylinin ölməz operasında Koroğlu rolunun klassik ifaçısı oldu. Hələ 12 yaşından bu oğlan Qarabağ toylarında və bayramlarda oxuyurdu. Bülbül adıyla çox tez məşhurlaşdı, populyar oldu. Bülbül inqilabdan əvvəl xanəndə kimi, muğamların ifaçısı kimi çıxış edirdi. İnqilabdan sonra yeni Azərbaycan vokal sənətinin banisi olmuşdur. Bakı konservatoriyasındakı illər, İtaliyada ən yaxşı belkanto ustalarından aldığı dərslər, rus, sovet və dünya ustalarının

sənətindən öyrənməsi Bülbülü tamamilə yeni tipli Azərbaycan müğənnisi etmişdir. O, öz sənətində milli məxsusluğu dünyəvi texnika ilə məharətlə birləşdirə bilmişdir. İndi Şuşa azaddır, Cıdır düzündə, İsa bulağında yenə “Qarabağ şikəstəsi” səslənəcək, yenə xalq mahnısı “Qarabağda bir dənəsən” oxunacaq və yenidən yeni “Qarabağ bülbülləri” cəh-cəh vuracaq, inşallah!

## Şuşanın dövlət və ictimai xadimləri

Şuşa Azərbaycanın qədim və gözəl şəhərlərindən biri kimi şöhrət qazanıb. Qarabağın paytaxtı olduğu illərdə tariximizdə alınmazlıq simvoluna çevrilmiş bu şəhər-qala ədəbiyyatımıza, musiqimizə, folklorumuza, incəsənətimizə istedadlı sənətkarlar bəxş etməsi ilə də qürur yerimizə dönüb. Qeyd etmək vacibdir ki, Şuşadan pərvəriş tapmış bir çox görkəmli elm adamları və pedaqoqlar Azərbaycan təhsilinin və elminin inkişafına sanballı xidmətlər göstərmişlər. Bu tarixi şəhərdə bir çox istedadlı dövlət xadimləri də yetişmişdir.

Şuşa təkcə musiqiçiləri ilə deyil, həm də görkəmli alimləri, şair və yazıçıları, rəssam və hərbçiləri ilə də tanınıb. Onların arasında elələri var ki, qardaş Türkiyənin, Rusiyanın, İranın, Tacikistanın və bir çox ölkələrin dövləti vəzifələrində çalışıblar. Xatırladaq ki, ölməz Pənahəli xan Qarabağ xanlığını yaradandan sonra burada dövlət vəzifələrini icra edən rəsmi şəxslər yetişmiş və püxtələşmişlər. Pənahəli xan kiçik dövlət kimi formalaşmış Qarabağda dövlət rəmzi olan bayraq təsis etmiş, pul buraxdırmış, paytaxt şəhəri tikdirmiş, məscidlər, karvansaralar və qalalar inşa etdirmişdir.

Dövrünün görkəmli dövlət xadimi və şairi olan Molla Pənah Vaqif şuşalı olmasa da, diplomatik fəaliyyətinin hamısı, bədii yaradıcılığının isə böyük bir hissəsi məhz Şuşa ilə sıx bağlıdır. Molla Pənah o şairlərdəndir ki, öz ana dilimizdə - Azərbaycan dilində yazıb-yaradırdı. Molla Pənah Vaqif dostu şair Molla Vəli Vidadi ilə məşhur deyişməsindəki "Külli Qarabağın abü-həyatı nərmə-nazik bayatıdır, bayatı" ifadələri ilə Qarabağın gözəlliyini vəsf edirdilər. Vaqif gözəlliklə yanaşı nəcibliyi, humanizmi və səmimiyyəti də misraları ilə tərənnüm etmişdir. Şair şah Qacarın Şuşanı mühasirəyə aldığı günlərdə ona şeirlə kəskin cavab vermişdir. Ona görə Vaqifin bədii yaradıcılığı dövlətçilik fəaliyyətinin davamı kimi qəbul oluna bilər. Beləliklə Qarabağ xanının vəziri olan Molla Pənah dövlət xadimi kimi xarici dövlətlərlə, xüsusilə də, Rusiya, İran və Gürcüstanla danışıqlar aparmış, mühüm diplomatik fəaliyyət göstərmişdir.

Molla Pənah Vaqif müəllim və şair kimi tanınsa da, eşikağası

kimi məşhurlaşmışdı. O, vəzifəsi ilə əlaqədar xarici siyasət məsələlərini dərindən öyrənmiş və xarici dövlətlərlə münasibətdə bu bilgilərindən istifadə etmişdir. Rusiya çariçası II Yekaterina Molla Pənahın Rusiya-Qarabağ münasibətlərinin tənzimlənməsindəki diplomatik fəaliyyətini qiymətləndirərək ona qiymətli hədiyyə də göndərmişdi.

Pənahəli xandan sonra İbrahimxəlil xan Cavanşirin dövründə xanlıq daha da inkişaf etdi, ərazisi bir qədər də genişləndi, Azərbaycanın ən güclü xanlıqlarından birinə çevrildi. Onun dövründə Rusiya imperiyası Azərbaycanı işğal etmək üçün dəfələrlə qoşun yeritdi. Rusiya çarları ilk növbədə, Qarabağ xanlığını hərbi güclə tabe etməyə çalışdılar və buna nail oldular.

İbrahimxəlil xanın üçüncü oğlu Mehdiqulu xan Rusiyanın təbəəliyini qəbul etmək istəmirdi, ona görə də 1822-ci ilin noyabr ayında o Fətəli şah Qacarın yanına getdi və hərbi qüvvə ilə geri qayıdaraq rus qoşununu Şuşadan çıxarmağa çalışdı. Lakin o, rus qoşununu məğlub edə bilmədi və özü geri çəkildi.

Zaman keçdikcə Qarabağda dövlət işlərini bacaran xadimlərin sayı artırdı. Mirzə Camal Cavanşir, Mirzə Adıgözəl bəy, Cəfərqulu xan Cavanşir və başqaları Qarabağ xanlığının görkəmli xadimləri oldular.

Rus ordusunun artilleriya general-leytenantı Səməd bəy Mehmandarov 1917-ci ilə qədər iştirak etdiyi döyüşlərdəki qələbələrinə görə Rusiyanın bütün hərbi ordenləri, eləcə də İngiltərənin, Fransanın və Rumıniyanın bir neçə orden və medalları ilə təltif olunmuşdu. 1918-ci ilin dekabrında Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri təyin olunan Səməd bəy Mehmandarov Azərbaycanın ilk nizami milli ordusunun yaradıcısıdır. O, qısa müddətdə və ölkənin ən ağır məqamında 40 min nəfərlik nizami ordu hissələri təşkil etməyə nail olmuşdu.

Azərbaycanın böyük maarifçilərindən biri Firudin bəy Köçərli maarif sahəsində bir sıra əsərlər yazmaqla bərabər, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini açmağa müvəffəq olmuş və onun ilk müdiri kimi səmərəli fəaliyyət göstərmişdir. Bundan sonra Firudin bəy Qazaxda ilk uşaq evi də açmışdır.

Azərbaycan qadınlarına azadlıq və seçib-seçilmək hüququ verilməsini tələb edən Əhməd bəy Ağaoğlu jurnalist və publisist kimi geniş ictimai iş aparmışdır. O, “Daşnaksütyun»a qarşı “Difai” təşkilatını yaratmışdır. Əhməd bəy Ağaoğlu Türkiyəyə mühacirət etmiş, böyük ictimai-siyasi iş aparmış və 1939-cu ildə orada vəfat etmişdir.

Bəhmən Mirzənin oğlu Əmənulla Mirzə Rusiyada hərbi təhsil alaraq general-mayor rütbəsinə yüksəlmiş, 1917-ci ildə Bakıya qayıtmışdır. Lakin Sovet hökumətinin təzyiqlərinə dözməyən general 1929-cu ildə İrana mühacirət etmiş, İranda nizami ordu təşkil edilməsində səmərəli xidmət göstərmişdir. Əmənulla Mirzə İran Milli Məclisinin üzvü, Sovet-İran Dostluğu Cəmiyyətinin sədri olmuşdur.

Haşım bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Yusif Vəzir Çəmənzəminli və başqaları Azərbaycan ictimai həyatında tanınmış simalar idilər. Cəmil bəy Vəzirov Xalq Poçt-Teleqraf və Rabitə Yolları naziri vəzifəsinə ucalmış ictimai xadim idi. Sovet, partiya və dövlət xadimi olan Bahadır Vəlibəyov Azərbaycan SSR-in Baş prokuroru vəzifəsində işləmişdir.

Şuşalı Süleyman Vəzirov nəinki Azərbaycanın, eləcə də SSRİ-nin müttəfiq respublikalarının neft-qaz sənayesinin inkişafında görkəmli rol oynayıb. O, hələ cavan yaşlarında vəzifədən-vəzifəyə irəli çəkilərək Azərbaycanın ilk neftçıxarma naziri olub. S. Vəzirov SSRİ-nin birinci neftçisi sayılırdı. Haqlı olaraq o, Cənub və Qərb rayonlarının Neftçıxarma Üzrə Baş İdarəsinin və “Türkmənneft»in rəisi təyin edilmiş və ölkənin ən ali mükafatlarına layiq görülmüşdür. Xəzərdə üzən gəmilərdən biri Süleyman Vəzirovun adını daşıyır.

Şuşalı dövlət xadimləri arasında görkəmli yerlərdən birini tutan Bahadır Vəlibəyov hüquqşünas təhsili alsa da, müxtəlif rəhbər vəzifələrdə işləmişdir. O, 1920-1937-ci illərdə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Naxçıvan Ölkə Komitəsinin katibi, Azərbaycan SSR Xalq Maarif Komissarının müavini, ədliyyə komissarı, Naxçıvan MSSR MİK sədri, Vilayət Partiya Komitəsinin birinci katibi, Gürcüstan K(b)P Borçalı Qəza

Komitəsinin katibi, Azərbaycan SSR-in Baş prokuroru, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının sədr müavini vəzifələrini icra etmişdir. Bütün vəzifələrdə xalqına sədaqətlə xidmət göstərən Bahadır Vəlibəyov bəy nəslindən olduğuna görə 1937-ci il iyulin 21-də Vətənə xəyanətdə günahlandırılaraq Dövlət Təhlükəsizlik İdarəsi 4-cü şöbəsinin rəisi, baş leytenant Qriqoryanın imzaladığı qərarla həbs edilmiş, uzun sürən istintaqdan sonra 1940-cı il fevralın 16-da güllələnmişdir.

General Yaqub Quliyev Sovet ordusunun gənc generallarından biri kimi şöhrət qazanmışdı. O, II Dünya müharibəsində Stalinqrad ətrafında döyüşən korpus komandirinin müavini vəzifəsində faşistlərə qarşı vuruşmuşdur. Almaniyanın məşhur feldmarşalı Manşteynin qoşunlarının darmadağın edilməsində şücaət göstərmiş, döyüşlərdən birində ölümcül yaralanaraq qırx iki yaşında qəhrəmanlıqla həlak olmuşdur. Ölümündən sonra SSRİ hökuməti onu ölkənin ən yüksək mükafatı olan Lenin ordeni ilə təltif etmişdir.

Yaddan çıxarmayaq ki, Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda fəal ictimai-siyasi iş aparanlardan biri də Hüseyn Baykara kimi tanınmış soydaşımız Qara Hüseynbəylidir. İxtisasca tarixçi olan Hüseyn Baykara öz qələmi ilə bolşeviklərə qarşı qızğın mübarizə aparmış və bədnam NKVD-nin təqiblərindən yaxa qurtarmaq üçün qardaş Türkiyəyə mühacirət etmişdi. Bu mübarizədə o, vətənpərvər şair Əhməd Cavadla, gizli milli istiqlal komitəsinin rəhbəri Dadaş Həsənzadə və başqaları ilə bir cərgədə addımlayırdı. Lakin təqiblər getdikcə güclənirdi. Odur ki, dəhşətli NKVD-nin əlinə keçməmək üçün Hüseyn Baykara 1927-ci ildə əvvəlcə İrana, oradan isə Türkiyəyə getmişdi. İstanbul Universitetinin hüquq fakültəsini bitirən Hüseyn Baykara əvvəlcə Elazığda hakim işləmiş, daha sonra İstanbulda prokuror vəzifəsində çalışmışdır. Türkiyədəki azərbaycanlıların lideri Məhəmmədəmin Rəsulzadə və onun çap etdirdiyi məcmuələrdə ictimai-siyasi mövzularla çıxış edən hüquqşünas bir an da olsa, ölkəmizin azadlığını unutmurdu. Milli-azadlıq hərəkatının mühacirətdəki liderlərindən birinə çevrilmiş Hüseyn Baykara ömrünün sonunadək mübarizə aparmış və 1984-cü il iyulun 1-də Kayseridə vəfat

etmişdir. Cənazəsi İstanbula gətirilərək Qaraca Əhməd qəbristanlığında dəfn edilmişdir.

1948-ci ildə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirən şuşalı gənc Adil Babayev cəmi altı il ərzində Azərbaycan SSR-in Baş prokuroru vəzifəsində çalışmışdır. O, 1955-ci ildə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

Azərbaycanın Milli Qəhrəmanı Ramiz Qəmbərov nəinki Şuşanın, bütün ölkəmizin fəxridir. O, 1992-ci ildə könüllülərdən ibarət özünümüdafiə taboru yaradaraq erməni işğalçılarına qarşı son damla qanınadək vuruşmuşdur. Ağır döyüşlərdən birində ölümcül yaralanan igid komandir 1992-ci il aprelin 30-da şəhid olmuşdur. Şuşada dəfn edilmişdir. Paytaxtımızdakı küçələrdən biri Ramiz Qəmbərovun adını özündə əbədi yaşadır.

# Şuşanın görkəmli şəxsiyyətləri



***Pənahəli xan Cavanşir, dövlət xadimi, Qarabağ xanı, Qarabağ xanlığının banisi.***

Pənahəli xan İbrahimxəlil ağa oğlu Cavanşir təxminən 1693-cü ildə Sarıcalı elində anadan olub. Uşaqlığı və yeniyetmə çağları Qarabağda gedən müharibələr dövrünə təsadüf edib. O, bu döyüşlərdə igidlik göstərərək, ad-san qazanaraq sərkərdə kimi yetişib. Sonra o, qardaşları Fəzləli ağa və Behbudəli ağa ilə birlikdə Osmanlı-Səfəvi müharibəsində Qarabağ bəylərbəyi II Uğurlu xan Ziyadoğlu Qacarın topladığı qoşunun tərkibində Arazın o tayına keçib. Sonralar İran hökmdarı olmuş Nadir şah Əfşarın ordusunda xidmət etmiş və süvari dəstələrdən birinin başçısı kimi Osmanlı və Əfqan qoşunlarını Səfəvi dövlətindən vurub-çıxarmaqla Gəncə, Naxçıvan, Tiflis, İrəvan ətrafındakı döyüşlərdə fərqlənərək Nadirin gözündə ucalıb.

Müharibələrdən qalib çıxan Nadir xan 1736-cı ildə özünü şah elan etdi və Pənahəli ağa və qardaşı Fəzləli ağanı öz sarayında xidmətə götürdü. Həmin vaxtda Pənahəli ağa Nadir şahın qoşununun tərkibində xidmət edirdi. Ancaq sonradan bəy rütbəsi almış Fəzləli bəy Nadir şahın qəzəbinə gəldi və müəmmalı surətdə öldürüldü. Onun tutduğu eşikağası vəzifəsinə kiçik qardaşı Pənahəli ağanı təyin etdi, ona “bəy” titulu verib, səlahiyyətlərini bir qədər də artıraraq əvvəl carçı, sonra eşikağası vəzifəsini tapşırdı. Az sonra Nadir şah Pənahəli bəyi ordu sərkərdələrindən biri təyin etdi və o, Nadir şahın bütün hərbi səfərlərində, döyüşlərində iştirak edərək

sərkərdə kimi zəngin döyüş təcrübəsi topladı, bir sözlə, Nadir şah məktəbini keçdi. Lakin rəqibləri onu da şahın gözündən salmağa nail oldular. Bunu duyan Pənahəli bəy Nadir şahın Xorasanda olmamasından istifadə edərək altı nəfər yaxın adamı ilə saraydan qaçıb, Qarabağa gəldi.Vətənə qayıtdıqdan sonra başına iki yüz nəfərlik süvari dəstə toplayıb, öz məqsədi uğrunda mübarizə aparmağa başladı. Nadir şah həmin vaxt uzun sürən hərbi səfərdə olduğu üçün Pənahəli bəyin saraydan qaçmasını iki aydan sonra eşitdi. Dərhal fərman verərək onu axtarıb-tapmaq üçün Təbriz və Şamaxı hakimlərinə göndərdi, Pənahəli bəyin tutulub, hüzuruna gətirilməsini əmr elədi. Lakin şahın bu səyləri boşa çıxdı, çünki Pənahəli bəy onun fərmanından xəbər tutaraq tez-tez yerini dəyişir, çox vaxt Kür çayının o tayında Şəki, Şirvan, Qəbələ, Car-Balakən ərazilərində kasıblatrın hüquqlarını müdafiə edir, ara-sıra Nadir şahın dəstələrinə ağır, öldürücü zərbələr endirirdi.

1747-ci ildə Nadir şah sui-qəsd nəticəsində öldürüldü. Bundan istifadə edən Pənahəli bəy ətrafına böyük ordu yığaraq gücünü artırdı və Xorasana, Əfqanıstana köçürülən Qarabağ camaatını geri qaytardı. Pənahəli bəyin kiçik qardaşı Behbudəli ağa, oğlu İbrahimxəlil ağa, qaynı Səhliyəli ağa da qayıdanların arasında idi. Qarabağlılar yenidən öz doğma yurd-yuvalarında məskunlaşdılar. Elə həmin vaxtdan da Pənahəli bəyin həyatının iztirablı və məhrumiyyətlərlə dolu, lakin zəngin dövrü başlandı...

Beləliklə, Pənahəli bəyin müstəqil dövlət yaratmaq niyyətlərinə şərait yaranıb və o da bundan bacarıqla istifadə edib. Pənahəli bəy Cavanşir Nadir şahın sarayında xidmətdə olarkən gələcəkdə özü üçün bitkin bir siyasi proqram hazırlamış, Qarabağın iqtisadi və siyasi cəhətdən dağınıqlığını bərpa etməyi, bir-birilə ədavət saxlayan və düşmənçilik edən tayfalardan vahid, bölünməz bir millət yaratmağı, burda xanlıq təşkil etməyi, müstəqil, Nadir şaha tabe olmayan suveren bir feodal dövləti qurmağı qarşısına məqsəd qoymuşdu. O, yaradacağı dövlətin və hərb sənətinin əsaslarını, dövlətçilik ənənələrini, diplomatiya işini artıq Əfşarlar hakimiyyəti

zamanı mənimsəmişdi. Ona görə də Qarabağa qayıtdığı ilk günlərdən yenilməz iradəsilə bu proqram inadla və ardıcıl şəkildə həyata keçirməyə başladı. İlk növbədə, Qarabağın oymaqlarına səfərə çıxdı, xalqla görüşdü, öz davranışı, güclü məntiqi ilə həmyerlilərində xoşbəxt gələcəyə inam yaratdı, ümumi amal uğrunda mübarizə aparmağın mahiyyətini başa saldı, ağıllı, müdrik məsləhətləri ilə onların qəlbində özünə məhəbbət, sevgi yuvası qurdu.

Çox çəkmədən Qarabağ ellərini Cavanşir bayrağı altında birləşdirdi. Bundan sonra xalq arasında nüfuzu daha da artmağa başladı. Qarabağlılar Pənahəli bəyi özlərinə başçı seçdilər, sədaqət və itaət göstərəcəklərinə and içdilər. Həmin vaxtdan da o, Qarabağ siyasətinin başında durdu, el-obasının bir nömrəli strateji rəhbərinə çevrildi. Ümumiyyətlə, onun Qarabağa dönməsi ilə Qarabağ tarixi üçün yeni bir mərhələ başlandı və həmin illər tarixə Pənahəli xan dövrü kimi yazıldı.

Artıq Qarabağın vahid bir dövlət kimi formalaşmasına, qüdrətli bir xanlığa çevrilməsinə münbit şərait yaranmışdı. Pənahəli xan qısa müddətdə dağınıq yaşayan Qarabağ ellərini bir bayraq altında birləşdirdi. Nəhayət, ətrafda baş verən bütün hadisələri, dəyişiklikləri, ilk növbədə, yaranıb-yetişmiş əlverişli tarixi şəraiti ağılla və düşüncə ilə qiymətləndirən Pənahəli bəy Qarabağı rəsmi olaraq xanlıq, özünü isə xan elan etdi. Bu təyinatı özünün Hülakülər sülaləsindən olan Arqun şahın nəslindən olması ilə əsaslandırırdı. Beləliklə, Pənahəli xan Qarabağda öz hökmranlıq bayrağını qaldırdı. Bu isə cəsur sərkərdənin hünəri, zəkası və qılıncının qüdrəti sayəsində mümkün oldu.

Müstəqil hakimiyyətə başlayan Pənahəli xan, ilk növbədə, xanlığı qoruya bilən bir qala tikdirdi. Pənahəli xan ailəsini, qohum-əqrəbasını, yaxın adamlarını, el ağsaqqallarını, sayılıb-seçilən adamları bura cəmlədi, ətraf vilayətlərdən, xüsusilə də, Təbrizdən və Ərdəbildən sənətkarları öz əhli-əyalı ilə gətirib, qalada məskunlaşdırdı. Bir sözlə, Bayat bir istehkama çevrildi, Pənahəli

xan üçün həm sığınacaq, həm səngər, həm qərargah, həm də qala oldu. Burada mövqeyini möhkəmləndirəndən sonra Bərdədən başlamış Mil düzünə  Beyləqana qədər torpaqları, Sultanbud meşəsini öz ərazisinə qatdı. Sonra Kür və Araz çayları arasındakı ovalığı, Qarabağın dağlıq və dağətəyi hissələrini əhatə edən geniş bir əraziyə də malik oldu. Az müddətdə xanlıq Araz çayının şimalında öz ərazisinə və əhalisinə görə ən böyük feodal dövlətinə çevrildi. 1748-ci ildə tikilən qala uzunmüddətli mühasirəyə etibarlı deyildi.

Nadir şahın öldürülməsi və Pənahəli bəyin yenidən Qarabağa qayıdıb, özünü xan elan etməsi alban məliklərinin kürkünə birə saldı. Onlar xanlığın inkişafına, qüvvətlənməsinə və ərazisinin genişlənməsinə hər vasitə ilə maneçilik törədir, Qarabağ hakiminin əl-ayağına dolaşırdılar. Daha doğrusu, məliklər Gəncə, Şəki xanları və Qanzasar katolikosu tərəfindən qızışdırılır və onlar məlikləri Pənahəli xana tabe olmaqdan boyun qaçırmağa ça;ıHırdılar. Digər tərəfdən də onlar Qarabağ xanına qarşı çıxmaq üçün özlərinə müttəfiq axtarırdılar. Qarabağ məlikləri birləşib, Hacı Çələbi xana məktub yazaraq bildirirdilər ki, əgər Şəki hakimi Pənahəli xanın Qarabağda güclənməsinə vaxtında mane olmasa, gələcəkdə onun qarşısında duruş gətirə bilməyəcək. Ona görə də Hacı Çələbi xan yubanmadan qonşu Car-Balakəndən, Şirvandan, Dərbənddən və başqa ətraf yerlərdən güclü qoşun toplayıb, Qarabağ məliklərinin fitvası ilə 1748-ci ilin yazında Bayat qalasına hücum etdi. Qəfil hücuma hazır olmayan Pənahəli xan geri çəkilərək qüvvə toplamaq üçün Zəngəzurdakı dostu Qara Murtuza bəyin yanına gedir, yaxın adamlarını isə ətraf yerlərə qoşun toplamağa göndərir. Qara Murtuza bəylə birgə hazırlanan qeyri-adi əks-hücum planı əsasında Bayat qalası azad olunur, Hacı Çələbinin qoşunu xeyli itki verərək geri çəkilməyə məcbur olur. Beləliklə, Pənahəli xanın sərkərdəlik istedadı, məharəti hər tərəfə yayıldı. O, min-bir zəhmətlə ucaltdığı Qarabağ xanlığını qorumaq qüdrətini nümayiş etdirdi və bir daha elin hörmətini, etibarını qazandı. Bundan təşvişə düşən Nadir şahın

varisi Əliqulu Mirzə (Adil şah) Azərbaycan vilayətinin hakimi Əmiraslan xan Əfşarı Pənahəli xanın yanına göndərərək şaha tabe olmasını və ya onunla ittifaqa girməsini təklif etdi. Pənahəli xan ikinci şərtə razılıq verdi. Əmiraslan xan Adil şahın adından ona "sultan" rütbəsi verdi, sonra şaha məktub göndərib, Pənahəli xanın xanlıq rütbəsi fərmanının təsdiqini xahiş etdi. Adil şah da öz növbəsində, onun xanlıq rütbəsini təsdiq edən fərmanı imzalayıb, yazılı surətdə Qarabağ xanına göndərdi. Adil şah fərmanla yanaşı, Pənahəli xana xeyli qiymətli hədiyyələr də göndərdi. Beləliklə, 1748-ci ildə Pənahəli xan Cavanşir rəsmi surətdə Qarabağ xanı təsdiq olundu.

Pənahəli xan görürdü ki, xanlığın paytaxtı Bayat qalası strateji cəhətdən o qədər də əlverişli və etibarlı yerdə deyil, həm də aranda yerləşdiyi üçün isti vaxtlarda burda yaşamaq çox çətin və dözülməz olur. Ona görə də o, sarayda məsləhət-məşvərət çağırdı, dağlıq bir yerdə qala tikmək qərara alındı. 1748-ci ilin sonlarında I Şah Abbasın vaxtilə qışlağı olmuş yerdə  Tərnə:üB adlı hündür təpə üzərində və böyük bir bulağın yanında qala-şəhər salındı və Qarabağın ikinci bir müdafiə qalasının əsası qoyuldu.

Qalanın tikintisi zamanı Pənahəli xanla daim düşmənçilik edən qonşuluqdakı məliklər ona hər vəchlə mane olmağa çalışır, Qarabağ xanına meydan oxuyurdu. Pənahəli xan əvvəlcə qan tökmək istəmədi, alban məliklərini intizama dəvət elədi, öyüd-nəsihət verdi. Onları Qarabağ xanının hakimiyyətini tanımağa və onunla birləşməyə çağırdı, Məlik Allahverdiyə başa salmaq istədi ki, burda qala tikməyin onlara heç bir ziyanı yoxdur, nahaq yerdən narahat olmasınlar, əksinə, bu qala onları da xarici düşmənlərdən qoruya bilər. Ancaq bu öyüd-nəsihətlərdən heç bir nəticə hasil olmadı. Alban məlikləri Pənahəli xanın bu sözlərini qorxaqlıq hesab edib, onunla vuruşmaq istədiklərini bildirdilər. Qarabağ xanı gördü ki, onları birdəfəlik yerində oturtmasa, gələcək planlarını həyata keçirə bilməyəcək. Ona görə də Pənahəli xan məlikləri qabaqlayıb, onların üzərinə hücuma keçdi və məğlub olacağını görən Məlik Allahverdi

əllərini qaldırıb, tabe olduğunu bildirdi.

Bu hadisə Şahbulağın tikintisini daha da sürətləndirdi və Pənahəli xan öz iqamətgahını Bayat qalasından Şahbulağa köçürdü. Şahbulaq qalasının tikintisi başa çatandan sonra Qarabağ xanının dostlarının, müttəfiqlərinin, eyni zamanda da düşmənlərinin sayı artdı. İstər qonşu xanlar, istərsə də məliklər onunla yaxınlıq etməyə başladılar. Həmin vaxt Vərəndə məliyi Məlik Şahnəzərlə digər dörd məli: düşmənçilik edirdi. Təklənmiş Məlik Şahnəzər təcili olaraq özünə müttəfiq və Pənahəli xanla normal münasibət qurmaq üçün yollar axtarmağa başladı. Oğlu Cümşüdü də götürüb, xanın yanına yollandı. Onun qarşısında diz çökdü, dil tökdü, ondan kömək istədi, imdad dilədi, bu gündən onun müti qulu olacağını bəyan elədi, ömrünün sonuna qədər Qarabağ xanına itaət edəcəyinə, əhdinə sadiq qalacağına, xanla birlikdə Xəmsə məliklərinə qarşı mübarizə aparacağına söz verdi. Uzaqgörən Pənahəli xan Xəmsə məliklərinin bir-birləri ilə yola getməməsindən diplomatik yolla istifadə etməyə, aralarındakı çəkişmələrin daha da artmasına, münasibətlərinin gərginləşməsinə və onlara ayrı-ayrılıqda qalib gəlməyə çalışırdı. Ona görə də o, Məlik Şahnəzəri bir müttəfiq kimi qəbul elədi...

Şahbulaq qalası Bayata nisbətən əlverişli və möhkəm bir yerdə olsa da, düşmən qoşunları qarşısında uzun müddət davam gətirə bilməzdi. Ümumiyyətlə, qala xanlığın tələbatını artıq ödəyə bilmədiyindən getdikcə artan güclü və məkrli düşmənlərdən Qarabağı müdafiə etmək üçün Pənahəli xan paytaxt kimi başqa bir qüdrətli yeni müdafiə qalası tikmək fikrinə düşdü. Ona görə də xeyli məsləhət-məşvərətdən sonra qərara alındı ki, yeni bir yer axtarılıb-tapılsın. Bu məqsədlə xan öz atlı dəstəsi ilə Qarabağın dağlıq hissəsinə səfərə çıxdı. Hündür, əlçatmaz, təhlükəsiz, üç tərəfi sıldırım qayalarla və dəhşət doğuran dərin uçurumlu dərələrlə dövrələnmiş, yalnız bir tərəfdən gedib-gəlmək mümkün olan, təbii-coğrafi mövqeyinə görə son dərəcə mənzərəli, əlverişli və münasib bir yüksəkliyə rast gəldilər. Bura həm də sıx ağaclarla örtülü meşəlik idi, yalnız az bir hissəsindən otlaq kimi istifadə olunurdu.

Bu yerin hərbi baxımdan misilsiz strateji üstünlüyü göz qabağında idi. Pənahəli xan qəti qərara gəlib, bu sal qaya üzərində qalanın bünövrəsini qoymaq əmri verdi. 1750-ci ildə hündür və sərt dağlıq ərazidə Şuşa qalasının bünövrəsini qoydu və bununla da Qarabağ tarixinin şanlı tarixinin ən şərəfli səhifələrindən biri yazıldı. Dərin dərələrlə və sıldırım qayalarla əhatə olunmuş Şuşa qalası alınmaz idi və orada uzun illər mühasirədə qalmaq olardı. Beləliklə, Şuşa Qarabağ xanlığının paytaxtı oldu. Qarabağ camaatının təklifi və uzun-uzadı təkidindən sonra Pənahəli xan bu qala-şəhərə banisinin, yəni, özünün adının verilməsi ilə razılaşdı.

Həmin vaxtdan bu möhtəşəm qala alınmazlıq simvoluna çevrildi. Neçə-neçə hücumlara sinə gərdi. Qalanın içərisində yaşayış evləri, bazar, məscidlər, xan sarayı, əyanların sarayları, karvansaralar, sikkəxana və s. inşa edildi. Qarabağ xanlığının dövlət rəmzləri təsis olundu.

Qarabağ xanlığı artıq xırda bir dövlət qurumu kimi formalaşmağa başlamışdı. Ona görə də Pənahəli xan yeni paytaxtına yığışandan sonra dərhal zərbxana da açdırdı və burda xanlığın əsas pul vahidi olan gümüş sikkə kəsdirməyə başladı və bu pul xanın şərəfinə şəhərin adı ilə ***“Pənahabadi”,*** yaxud el arasında sadəcə olaraq ***“Pənavat”*** adlanırdı.

Bütün bu müddət ərzində Pənahəli xan qalanı möhkəmləndirir, eyni zamanda düşmənləri ilə də mübarizə aparırdı. O, gah gürcü çarı I Teymurazla, Şəki hakimi Hacı Çələbi xanla, gah digər xanlarla, həmçinin qatı düşmənləri olan məliklərlə döyüşür və onları Qarabağın paytaxtına yaxın buraxmırdı. Beş Xəmsə məliyindən ikisi faktiki olaraq Pənahəli xana tabe oldu. On iki ildən artıq davam edən mübarizədə Qarabağ xanı digər üç məliyi tamamilə özünə tabe edə bilməsə də, onların gücünü müəyyən qədər zəiflətdi, fəaliyyətlərini zərərsizləşdirdi.

Həmin illərdə Məhəmmədhəsən xan Qacarın (Ağa Məhəmməd şah Qacarın atası) hakimiyyət uğrunda mübarizədə düşmənləri üzərində bir-birinin ardınca çaldığı qələbələr, ilk növbədə, Arazın

şimalındakı xanlıqlar üçün də böyük təhlükə yaratmışdı. Ancaq o, gündən-günə qüdrəti və şöhrəti artıq bütün Şərqə yayılan Qarabağ xanlığını gələcəkdə özü üçün böyük bir təhlükə və maneə hesab edirdi. Pənahəli xan özü də digər xanlar kimi Cənubi Azərbaycanda parlaq qələbələr qazanan Məhəmmədhəsən xandan ehtiyatlanırdı. Çünki Məhəmmədhəsən xan bir neçə dəfə Pənahabada elçi göndərib, hədə ilə bildirmişdi ki, əgər Pənahəli xan onun hakimiyyətini qəbul etməsə, böyük bir ordu ilə Qarabağ üzərinə yeriyəcək. Ona görə də Qarabağ hakimi tikintisi hələ tam başa çatdırılmamış yarımçıq qalan müdafiə hasarlarını möhkəmləndirməyə, qoşunlarının sayını artırmağa və paytaxta toplamağa, düşmənə layiqli cavab verməyə, bir sözlə, şəhərin müdafiəsinə hazırlaşmağa başladı.

Pənahəli xanın ürəyinə damdığı kimi, 1758-ci ildə Məhəmmədhəsən xan Qacar Astrabaddan, Mazandarandan, Gilandan topladığı güclü qoşunla Araz çayını keçib, Gəncə hakimi Ziyadoğlu Qacarla birləşərək Muğan tərəfdən sürətlə Qarabağın içərilərinə doğru irəliləməyə başladı. Pənahəli xan düşmənin daha da irəliləməsinə imkan verməyib, Qalanın dörd ağaclığında-iyirmi səkkiz kilometrliyində "Xatun arxı" adlanan yerdə onun qarşısını kəsdi. Məhəmmədhəsən xan təxminən bir ay fasiləsiz döyüşlər aparsa da, Qalaya yaxınlaşa bilmədi. Həmin vaxt Arazın o tayında baş verən yeni ixtişaşlar onun Qarabağdan çəkilib-getməsinə bəhanə oldu. Qalanın mühasirəsindən əl götürüb, təcili olaraq qoşunlarını geri çəkməyə başladı. Lakin Pənahəli xan Məhəmmədhəsən xanı xoşhaxoşluqla buraxmayıb, güclü hücumla onun üzərinə yeridi. Hər iki tərəa arasında sonuncu dəfə ağır və şiddətli döyüş oldu. Pənahəli xan üstün gəlməyə başladı. Məğlub olan Məhəmmədhəsən xan Araz çayının o üzünə adladı. Qarabağ qoşunları düşməni düz Ərdəbilə qədər qovub, şəhəri tutdular. Pənahəli xan yaxın dostu Sarıcalı Dərgahqulu bəyi bura hakim təyin elədi və həmin vaxtdan Ərdəbil xanlığı Qarabağ xanlığına tabe oldu. Pənahəli xan Cavanşir Məhəmmədhəsən xan Qacar üzərində çox

böyük siyasi əhəmiyyəti olan tarixi bir qələbə çaldı.

Məhəmmədhəsən xan Qacar Qarabağa yaxınlaşarkən Pənahəli xana düşmən münasibət bəsləyən bir neçə yerli hakim gəncəli Şahverdi xanın başçılığı ilə qarşı tərəfə keçmişdi. Şahverdi xanın bu xəyanətinə, həmin vaxta qədər başqa xanlarla və məliklər; O birləşib, Qarabağa qoşun çəkməsinə baxmayaraq, Gəncə xanlığını xarici düşmənlərin basqınlarından dəfələrlə qoruyan Pənahəli xana bərk təsir etmişdi. Ona görə də o, Şahverdi xanı cəzalandırmaq üçün Gəncəyə hücum çəkərək şəhəri tutdu və xanlığı öz vassalına çevirdi. Pənahəli xan Gəncə xanlığına və Gürcüstana tabe olan Borçalı, Qazax, Şəmsəddin, Şəmkir ellərindən şahsevənləri, Qazax mahalının Dəmirçi, Qızılhacılı, Salahlı, Cinli, Həsənli, Saatlı, Qaracallı, Səfikürd, Boyəhmədli və başqa kəndlərinin əhalisini Qarabağa köçürtdü. Bu elləri Xonaşendən tutmuş Kür qırağına, cənub-şərqdən Araz çayına qədər ərazilərdə yerləşdirdi. Həmin ərazi sonralar "Dəmirçihəsənli" mahalı adlanmağa başladı.

Artıq Qarabağ xanlığı güclü bir feodal dövlətinə çevrilmişdi və tam müstəqil bir dövlət qurumu kimi sərbəst daxili və xarici siyasət aparırdı. Pənahəli xan ölçüyəgəlməz dərəcədə nizami qoşun hissələri də təşkil etmişdi. O, ilk növbədə, ordusunun sayını və gücünü artırır, hakimiyyətini daha da möhkəmləndirir, ərazisini genişləndirirdi. Pənahəli xan bəzi xanlıqları məktub vasitəsilə, elçi göndərməklə, onlarla qohumluq münasibətləri yaratmaqla, bəzilərini qılınc gücünə itaətə gətirirdi. Bəzi hakimlər isə xanlığın hərbi qüdrəti, əzəməti qarşısında özləri diz çökürdülər. Qarabağ xanı Naxçıvan, İrəvan, Gəncə xanlıqlarında hakimiyyət başına öz tərəfdarlarını gətirmişdi. Çətinliklərlə tez-tez üzləşsə də, bəzən uğursuzluqlarla qarşılaşsa da, addımbaşı sınaqlarla rastlaşsa da, bunlar Pənahəli xanı ruhdan salmır, usandırıb-bezdirmirdi, əksinə, iradəsini daha da möhkəmləndirir, gələcək qələbələrinə inamını daha da artırırdı. Qazandığı parlaq qələbələr isə onun hərbi dühasına, həmçinin diplomatik və sərkərdəlik məharətinə borclu idi.

Qarabağın başı üzərində şimşək kimi çaxan qara buludlar

çəkilməmiş, Pənahəli xan növbəti gözlənilməz bir siyasi fəlakətlə üzləşdi. Adil şah öldürüldükdən sonra xanlıqlar yenidən dirçəldi və Cənubi Azərbaycanda yaranmış hakimiyyət böhranından öz xeyri üçün istifadə etməyə çalışan Urmiya hakimi Fətəli xan Əfşar da (Nadir və Adil şahların əmisi oğlu) şahlıq iddiasında idi. O, Azərbaycan vilayətlərini bir-bir ələ keçirməyə başlamışdı. Hərbi cəhətdən çox qüvvətli olmasına baxmayaraq, Fətəli xanın yeganə qorxusu gündən-günə qüdrətlənən, şöhrətlənən Qarabağ xanlığından idi. Pənahəli xanın bir-birinin ardınca siyasi rəqibləri üzərində qələbə çalması da onu bərk təşvişə salmışdı. Gələcəkdə özü üçün böyük təhlükə olmasın deyə, Fətəli xan, ilk növbədə, Qarabağ xanlığını özünə tabe etmək istəyirdi. Ona görə də itaət etmək tələbi ilə bir çox Azərbaycan xanlarına müraciət elədi və o cümlədən, müraciətnamənin birini də Qarabağa göndərdi. Burada o, Pənahəli xandan itaət etməyi tələb edir, əks təqdirdə, onun üzərinə hücum edəcəyini bildirirdi. Fətəli xanın bu xəbərdarlığından qəzəblənən Pənahəli xan göndərilən elçiyə acı sözlərlə ağır və kobud cavab verərək onu Şuşadan qovdu. Qarabağ xanının rədd cavabından sonra digər xanlıqlar da onun elçilərini əliboş qaytardılar. Fətəli xanı isə ən çox Qarabağ xanının cavabı təsirləndirmişdi. Ona görə də o, qonşu əyalətlərdən əlavə qoşun toplayaraq 1761-ci ilin payızında, Pənahəli xan öz ordusunun əsgərlərini müvəqqəti olaraq evlərinə buraxdığı zaman, vaxtilə Qarabağdan qaçıb, özlərinə Gürcüstanda sığınacaq tapmış Çiləbörd və Talış məlikləri Məlik Hətəm və Məlik Usubun “sifarişləri ilə” 40 min nəfərlik seçmə qoşunla güclü hücuma keçdi. Pənahabadın 6 verstliyinə 17 kilometrliyinə gəlib-çıxdı. Ballıca və Xocalı çayları arasındakı geniş bir düzənlikdə düşərgə saldı, səngərlər qazdırdı. Lakin uzun müddət Qalaya hücum etməməyi qərara aldı.

Fətəli xan ətraf yerlərlə Pənahabadın iqtisadi əlaqələrini kəsmək üçün yaxınlıqdakı kəndləri viran elədi, əhalisini var-yoxdan çıxartdı. Gürcüstandan Qarabağa qayıdan məliklər Fətəli xan Əfşarın yanına gəlib, onun tərəfdarı olduqlarını, onların tərəfindən

Pənahəli xana qarşı vuruşacaqlarını bildirdilər, Fətəli xanın qoşununa ərzaq köməkliyi elədilər, bələdçiliyi öz üzərlərinə götürdülər. Üstəlik, xeyli silahlı qüvvə toplayaraq Fətəli xanla birləşdilər. Urmiya hakimi də məliklərə boyun oldu ki, Pənahabadı tutandan sonra Pənahəli xanı onların ixtiyarına verəcək.

Pənahabadı altı ay mühasirədə saxlayan Fətəli xanın qoşunları, nəhayət, qala üzərinə qəti hücuma keçdilər. Qarqar çayı boyunca çox çətinliklə irəliləyərək dərələrlə, təpələrlə "Qara qaya" yüksəkliyinə və "Kəhər atın yoxuşu»na dırmaşıb, şəhərə yaxınlaşmağa başladılar. Qarabağ qoşunları isə əlverişli məqam gözləyib, əks-hücuma keçərək Fətəli xanın qoşunlarını pərən-pərən saldılar, onları mühasirəyə alıb, darmadağın etdilər. Qarabağ hərb tarixinin şanlı səhifələrindən birinə çevrilən bu döyüşlərdə Fətəli xan Əfşar və məliklər xeyli canlı qüvvə itirdilər. Qarabağlılar qarşı tərəfdən çoxlu süvari və piyada əsir aldılar, xeyli ərzaq və döyüş sursatı ələ keçirdilər.

Bu biabırçı məğlubiyyətdən sonra az qüvvə ilə qalib gəlməyin mümkün olmadığını anlayan Fətəli xan Əfşar Pənahabadın alınmaz bir qala və Pənahəli xanın həqiqətən də, cəsur, yenilməz, məğlubedilməz bir sərkərdə olduğuna tam əmin oldu və hərbi yolu diplomatiya ilə əvəz etməyə üstünlük verdi. Elçi göndərib, Pənahəli xanı barışığa dəvət elədi. Qarabağ hakimi barışığa razı oldu. Hər iki xan sonralar "Ağa körpüsü" adlanan yerdə görüşdü. Barışıq imzalandı, bir-birinə sadiq olmaq şərtilə müqavilə bağladılar. Fətəli xan qızını Pənahəli xanın oğlu İbrahimxəlil ağaya verəcəyini bildirdi. Bu "dostluğ"u daha da möhkəmləndirmək üçün o, "kürəkən"i İbrahimxəlil ağanı düşərgəsinə qonaq çağırdı. Urmiya hakiminin yalan sözlərinə və andlarına inanan Pənahəli xan oğlunu bir neçə nökəri ilə "quad"sının düşərgəsinə yola saldı. Fətəli xan Pənahəli xanı bütün bunlara inandırmaq üçün öz növbəsində, özü ilə Qarabağa gətirdiyi oğlanları Cahangir xanı, Rəşid bəyi və başqa qohumlarını girov kimi Qalaya göndərdi. Sonra yenə hiylə işlədərək həmin adamları və əsir saxlanılanları geri qaytardı.

İbrahimxəlil ağa iki gün Fətəli xan Əfşarın düşərgəsində qaldı. Bu müddətdə Urmiya hakimi vaxt udaraq müəyyən hazırlıq işləri gördü, üçüncü günü səhər tezdən İbrahimxəlil ağanı da özü ilə götürüb, Arazı o taya adladı. .zünü qalib sayan Fətəli xan Urmiyaya çatandan sonra başqa xanların gözünü qorxutmaq üçün hər yana car çəkdi ki, Pənahəli xan döyüşlərdə uduzub, indi onun vassalıdır, oğlu İbrahimxəlil ağa isə girovdur.

Həmin vaxt Arazın o tayında mövcud olan üç güclü xan  Fətəli xan Əfşar, Kərim xan Zənd və Məhəmmədhəsən xan Qacar arasında şah taxtı uğrunda mübarizə gedirdi. Bu mübarizədə Fətəli xan Kərim xan Zəndin üstünə qoşun çəkib, onun torpaqlarının bir hissəsini ələ keçirmişdi. Odur ki, Qarabağ xanının başına gəlmiş əhvalatı eşidən Fətəli xanla ədavət aparan Kərim xan Zənd bu hadisədən diplomatik surətdə istifadə etmək qərarına gəldi və hərbi kömək üçün Pənahəli xana məktub yazaraq elçi göndərdi və Pənahəli xana onunla dost və müttəfiq olmaq, Fətəli xan Əfşara qarşı birgə mübarizə aparmaq istəyini də bildirdi. O, həmçinin, digər xanları da Fətəli xan Əfşara qarşı döyüşə çağırdı. Pənahəli xan isə bu zaman oğlunu necə xilas etmək və Fətəli xanı necə cəzalandırmaq barədə düşünürdü. Ona görə də Kərim xan Zəndin bu müraciəti onun üçün göydəndüşmə oldu, fürsəti fövtə vermədi. İbrahimxəlil ağanı azad etmək, Kərim xan Zəndə qoşulmaq üçün Pənahəli xan döyüş hazırlığına gətirilmiş qoşunlarını, vəziri və baş məsləhətçisi Mirzə Vəli Baharlını da götürüb, Arazın o tayına tələsdi. Fətəli xan Əfşardan narazı olan digər xanlar, o cümlədən, naxçıvanlı Hacı xan Kəngərli, irəvanlı Hüseynəli xan, gəncəli Şahverdi xanın qardaşı Rzaqulu xan, sərablı Əli xan Şəqaqi və başqaları da Kərim xan Zəndlə birləşərək xüsusi döyüş planları tərtib edib, Fətəli xan Əfşarı mühasirəyə saldılar. Fətəli xan başqa çıxış yolu tapmayıb, 1763-cü ilin fevral ayında təslim oldu. Bu döyüşdə birləşmiş xanlar qalib gəldilər. Lakin Kərim xan hiylə işlədərək xanları girov saxladı.

Urmiya xanlığı üzərindəki qələbədən sonra Kərim xan Zənd şah

nəslindən olmadığı üçün özünü şah elan edə bilmədi. Şah titulu üçün ya şahın övladı olmalı və ya şahın vəsiyyətnaməsi əsasında vərəsəlik hüququ almalı idi. Bunlara baxmayaraq, şahın möhürü, sənədləri və ixtiyar səlahiyyətləri hələlik əlində olduğundan ondan kifayət qədər istifadə edərək bir neçə şimal xanlıqlarının oğlanlarına, o cümlədən, Qarabağ xanının oğlu İbrahimxəlil ağaya "xan" rütbəsi fərmanı verib, onları təntənəli surətdə öz vətənlərinə yola saldı. Pənahəli xan oğlu İbrahimxəlil xanı yola salarkən məsləhət verdi:

- ***Oğlum, sən gedirsən, mən qalıram, dünyanın işini bilmək olmaz, bir neçə məsələni yadda saxla:***

- ***Bil, ey oğul, əgər sinəhsalar (ordu başçısı) olsan, ordu və rəiyyətlə yaxşı dolan, həm özün tərəfindən, həm də hökmdarın tərəfindən yaxşılıq elə. Rəiyyətə qarşı xeyirxah ol, həmişə zəhmli görün, ordu təşkil etməyi və döyüş qaydalarını yaxşı bil. Müharibə baş verdikdə sağ və sol cinaha davadan çıxmış, dünyagörmüş, təcrübəli sərkərdələr göndər. Ən şücaətli sərkərdəyə ən yaxşı dəstə ver, ordunun yanlardan və arxadan qorunmasını onlara tapşır.***

- ***Düşmən nə qədər zəif olsa da, sən ona zəif baxma, qüvvətli düşməndən edəcəyin qədər gücsüz düşməndən də ehtiyat elə. Vuruşda çox da dəliqanlılıq eləmə, ordunu bada verərsən, o qədər ağciyər də olma, ordunu məğlubiyyətə uğradarsan.***

- ***Həmişə silahını yaxşı saxla. Casus yollayıb, düşmənin vəziyyətini öyrənməyi unutma, ordu önündə gecə-gündüz kəşfiyyatçı dəstələri göndərməyi yaddan çıxarma.***

- ***Vuruş günü düşmən ordusuna nəzər saldıqda və iki qoşun bir-birinə qarşı durduqda üzügülər ol.***

- ***Ordunun hamısını birdən irəli aparma, bayraq-bayraq, dəstə-dəstə atlılar göndər, hərəsinə bir salar (ordu komandanı, ali rütbəli zabit), bir sərhəng (polk komandiri, polkovnik) təyin et və de " Filankəs, sən öz dəstənlə irəli».***

- ***Yaxşı vuruşana, düşmən öldürənə, yaralayana, əsir tutana, at gətirənə, baş gətirənə, tərifəlayiq xidmət göstərənə artıqlaması ilə***

***hörmət elə, məvacibini artır, xələt ver. Belə hallarda qənimət dalınca qaçma, alçaqtəbiət olma, onda məqsədinə çatarsan.***

***- Bütün bunları görən qoşun vuruşa qalxar, heç kəs döyüşdən boyun qaçırmaz və arzuladığın qələbəni əldə edərsən.***

***- Ancaq sən hövləki olma, öz yerində dur, davaya girişmə, çünki sinərsalahın davaya girişməsi məsləhət deyil. Lakin davaya girişməli olsan, bərk vuruş, qaçmaq ağlına belə, gəlməsin, ölənə qədər vuruş, çünki ölümü gözünə almış adamı yerindən qoparmaq olmaz.***

***- Əgər qalib gəlsən, qaçanların dalınca çox uzaqlara getmə, qayıdanda böyük xatalar baş verə bilər, işlərin nə ilə qurtaracağını bilmək olmaz.***

***- Müharibə olsa, yerin dar olsa, məsələn, arxanda bircə addım yer qalsa, amandır, bir addım da geri qoyma, çünki bircə qarış geri getsən, dərhal səni geri çəkilən hesab edərlər. Həmişə durduğun yerdən irəliləməyə çalış, heç vaxt bir də geriləmə.***

***- Elə etmək lazımdır ki, ordu həmişə sənin canına və başına and içsin. Sən özün də orduya qarşı əliaçıq ol, hədiyyə, ənam, xələt verə bilməsən, heç olmasa, çörəyi, xoş sözünü onlardan əsirgəmə. Bir tikə çörək, bir qurtum suyu da ordusuz içmə. Çörəyin edə biləcəyini qızıl, gümüş və hədiyyə edə bilməz.***

***- Həmişə ordunu ürəyi şad saxla. İstəyirsən, canlarını səndən əsirgəməsinlər, çörəyini onlardan əsirgəmə. Hər şey böyük Allahın zikrinə bağlı olsa da, sən düzgün və lazımi tədbir gör, o şey ki alına yazılıb, o onsuz da olacaq.***

***- Allah sənə mərhəmət göstərib şahlığa çatdırsa, şahlıq şərtlərini yerinə yetir, tərifəlayiq həyat keçir, ali düşüncəli və müstəqil fikirli ol.***

Bütün bu nəsihətlərdən görünür ki, Pənahəli xan "Qabusnamə»ni oxumuşdur və sanki Pənahəli xana başına gələcəyi fəlakət məlum olmuşdur. Belə ki, Kərim xan Zənd Şimali Azərbaycan xanlarını özləri də bilmədən girov götürmüşdü. Kərim xan belə fikirləşirdi ki, gücündən, qüdrətindən həmişə ehtiyat etdiyi Pənahəli xan Cavanşir

əgər Qarabağa qayıtsa, gələcəkdə onun hakimiyyətə gedən yolunda böyük maneə ola bilər, imkan varkən onu aradan götürmək lazımdır. Ona görə də məkrli bir plan hazırladı və Pənahəli xanı aldadıb, özü ilə Şiraza apardı, hətta onu yeni yaratdığı "Ağsaqqallar şurası"na məsləhətçi götürdü və yanında saxladı. Şimali Azərbaycan xanları Pənahəli xana hörmət əlaməti olaraq müraciət edib, artıq öz vətənlərinə qayıtmaq üçün Kərim xandan izn istədilər. Kərim xan Zənd "Siz mənim ömürlük qonağımsınız" cavabını verəndə artıq Pənahəli xan gec də olsa, "dost"unun hiyləsini və niyyətini başa düşdü. Beləliklə, güclü rəqibini aradan götürmək üçün bir də əlinə belə fürsət düşməyəcəyini anlayan Kərim xan Zənd ona Qarabağa qayıtmağa imkan vermədi.

1763-cü il avqust ayının 21-də Pənahəli xan Cavanşir Şirazda Kərim xan Zəndin iqamətgahında müəmmalı şəkildə ömrünü başa vurdu. Kərim xan, guya, "səmimi və yaxın dostluqları»nı nəzərə alıb, onun cənazəsini böyük ehtiramla Pənahabada yola saldı. Qarabağlılar əvəzsiz oğul, böyük qardaş, ata, xilaskar sandıqları əziz övladlarını göz yaşları və böyük kədər içərisində Ağdamda onun ata-babalarının dəfn olunduğu "Barlı bağ»da (sonralar bu ailə qəbristanlığı "İmarət" adlandırılmışdır) dəfn elədilər. Pənahəli xanın qəbri üzərindəki mərmər daşda vəfat ilini göstərən aşağıdakı maddeyi-tarix həkk olundu: ***"Qələm rəhmət dəftərinə onun tarixini belə yazdı. Onun dost-aşnaları xalqın pənahı oldu».***

***Molla Pənah Vaqif,***
***şair və dövlət xadimi.***



M.P.Vaqif 1717-ci ildə Qazax yaxınlığındakı Salahlı kəndində anadan olmuşdur. Belə bir fikir var ki, onun əcdadları Məhəmməd Füzulinin də mənsub olduğu Bayat tayfasından olub.

Pənah yaxşı təhsil görmüşdü. O, fars və ərəb dillərində sərbəst danışır, astronomiya, riyaziyyat, musiqi və poetika üzrə geniş biliyə malik idi.

Vaqif kiçik yaşlarında mədrəsədə alim və müəllim Şəfi Əfəndinin yanında təhsil almış, ərəb və fars dillərini bilməklə yanaşı, həmçinin astronomiya, riyaziyyat, musiqi və poetika üzrə biliklərə də malik idi.

XVIII əsrin ortalarında Gürcüstan sərhədində gərginlik yaranır və bir çox ailələr Qazaxdan Qarabağ və Gəncəyə köçürülür. Vaqifin ailəsi də köçkünlərin arasında idi. Bu ailə Qarabağda Tərtərbasarda sığınacaq tapır. Molla Pənah bu kənddə məktəbdarlıqla məşğul olur. Az sonra Tərtərbasardan Şuşaya köçür. Burda məktəb açan şair tez bir zamanda şəhər sakinləri arasında həm gözəl müəllim, həm də istedadlı şair kimi tanınmağa başlayır. Şairin şöhrəti Qarabağ hakiminə çatır və İbrahimxəlil xan onu saraya dəvət edir. Xanla ilk görüşündən sonra eşikağası vəzifəsinə təyin edilən Molla Pənah ömrünün sonunadək sarayda çalışır. O, əvvəlcə eşikağası, daha sonra isə baş vəzir kimi fəaliyyət göstərir. Özünün yüksək savadı və elmi, biliyi ilə burada da hamının rəğbətini qazanır. Vaqif Mirzə Vəli Baharlı daxil olmaqla bir çox nüfuzlu insanlarla dostluq edirdi.

Qarabağ xanlığının vəziri vəzifəsində Vaqif özünü layiqli dövlət xadimi, müdrik və uzaqgörən bir siyasətçi kimi göstərə bilir. Vəzir vəzifəsinə gəldikdən sonra Şuşada bir çox obyektlərin tikintisində də iştirak edir.

Vaqif astronomiya ilə ciddi məşğul olub, bu sahədəki biliklərini təcrübi olaraq gün tutulmalarının və bu qəbildən olan digər təbii hadisələrin müəyyənləşdirilməsi üçün istifadə edir, astroloji biliklərini isə sarayda özünün münəccim məsləhətləri ilə nümayiş etdirir. Ehtimal etmək mümkündür ki, Vaqif tətbiqi riyaziyyatı da yaxşı bilib. Vaqifin zəngin kitabxanası vardı və o, daim öz biliklərini artırmaqla məşğul olub. Saray əyanları və şəhər ziyalıları içərisində seçilib-sayılması onun özünə ədəbi "Vaqif" təxəllüsünü götürməsi ilə nəticələnib.

Vaqifin yaradıcılığı təkcə azərbaycanlılar arasında deyil, həm də gürcü ictimai mühitində məşhur idi. Məlumdur ki, uzun müddət Azərbaycan dili Qafqazda millətlərarası ünsiyyət vasitəsi olmuşdur və elə buna görə də Vaqifin şeirləri yalnız Azərbaycan əlifbası ilə deyil, həm də gürcü və erməni əlifbaları ilə yazıya alınmışdır. Vaqif Şərq poeziyasının bütün klassik formalarından istifadə edirdi. O, qəzəl, təcnis, müxəmməs, müstəzad, müəşşərə, müşairə, məsnəvi və mərsiyələr yazıb. Ancaq onun yaradıcılığının böyük bir qismi aşıq poeziyasından götürülmüşdü və əsərlərini, əsasən, qoşma növündə yazılmış şeirlər təşkil edirdi. Həmin şeirlərin dili xalqın canlı danışığına çox yaxındır.

Mövcud məlumatlara görə, Vaqifin iki qızı və oğlu Əliağa "Alim" təxəllüsü altında şeirlər yazırdılar. Qızlarından biri Azərbaycan şairi Molla Vəli Vidadinin oğlu ilə ailə həyatı qurmuşdu.

1797-ci ildə Ağa Məhəmməd şah sui-qəsdlə öldürüldü. Onun qoşunu geri çəkildi. Molla Pənah və digər əsirlər İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağanın sarayında zirzəmidə yerləşmişdilər. Şah Qacarın ölümündən sonra İbrahimxəlil xanın kiçik qardaşı Mehrəli bəyin oğlu Məhəmməd bəy hakimiyyəti ələ keçirdi. O, hakimiyyəti əlində saxlamaq üçün əmisinin tərəfdarlarını öldürməyə başladı. Məhəmməd bəy Molla Pənah Vaqifi və onun oğlu Əli bəyi 1797-ci ildə edam etdirir. Vaqifi Şuşada böyük şərəflə dəfn edirlər. Məzarının üstündə kiçik bir

məqbərə də tikilir ki, bura da sonradan ziyarətgaha çevrilir.

1967-ci ildə Şuşada olarkən Heydər Əliyev Vaqifin yaxşı vəziyyətdə olmayan dağılmış məzarını ziyarət etmiş və onun göstərişi ilə yeni bir türbə tikilmiş və 1982-ci ilin yanvar ayında məqbərənin təntənəli açılışı olmuşdur. Muzey məqbərə kompleksi Cıdır düzünə yaxın bir ərazidə şairin məzarı üstündə inşa edilmişdir. Burada M. P. Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid 80-ə yaxın eksponat da sərgilənirdi.

1982-ci ildə Heydər Əliyev Şuşada şairin məqbərəsi ilə yanaşı, eyni zamanda Şuşa Poeziya Evinin də açılışında və orada keçirilən "Vaqif poeziya günləri»ndə iştirak etmişdir. Həmin vaxtdan etibarən hər il avqust ayında "Vaqif poeziya günləri" keçirilirdi. 1992-ci ilin may ayının 8-də bu məqbərə erməni işğalçıları tərəfindən dağıdılmışdır. 2020-ci il Vətən müharibəsindən sonra dahi şairin müzey-məqbərə kompleksində yenidən təmir-bərpa işləri aparıldı və 2021-ci ilin avgustun 29-da təntənəli surətdə açılış mərasimi keçirildi. Eyni zamanda tarixi "Vaqif poeziya günləri" öz fəaliyyətinə yenidən başladı.

Şairin adını xalq uca tutmuş, onun xatirəsini əbədiləşdirmişdir. Balakən rayonunda 1 saylı Tülü tam orta məktəb və Gəncə şəhərində 8 saylı tam orta məktəb şairin adını daşıyır. 2014-cü ildə şairin adına poçt markası buraxılmışdır. Bakı şəhərində Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyinin fasadının lojasında Molla Pənah Vaqifin heykəli yerləşdirilmişdir. Ona həsr edilən roman yazılmış, mənzum dram, opera səhnələşdirilmiş, şeirlərinə mahnılar bəstələnmiş, haqqında film çəkilmişdir. 2016-cı ilin dekabr ayında Şəkidə Türksoy Mədəniyyət Nazirləri Daimi Şurasının 34-cü toplantısında 2017-ci ilin "Molla Pənah Vaqif ili" elan olunması barədə qərar qəbul olunub. Bu qərarda göstərilir ki, dahi şairin adı YUNESKO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin Yubileylər Proqramı»na daxil edilmişdir. 2017-ci il yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Molla Pənah Vaqifin 300 illik yubileyinin

keçirilməsi haqqında sərəncam imzalamış və xalq onu böyük təntənə ilə keçirmişdir.



### *Ibrahimxəlil xan Cavanşir, dövlət xadimi, Qarabağ hakimi.*

Pənahəli xanın böyük oğlu İbrahimxəlil 1721-ci ildə anadan olub. Yeniyetmə və gənclik illərini Qarabağdan kənarda keçirmişdi. Atası ilə birgə Nadir şahın ordusunda xidmət etmiş, İraqdan tutmuş Hindistana qədər neçə-neçə qanlı müharibə meydanı, hərbi səfərlər, üzücü yürüşlər, dəhşətli çarpışmalar görmüş cəsur və igid bir döyüşcü kimi yetişmişdir. 1745-ci ildə atasının Arazın o tayından Qarabağa dönmə xəbərini eşidən kimi Əfqanıstan səfərində hərbi xidmətdə olan İbrahimxəlil ağa da Qarabağda dərhal Pənahəli bəyin yaratdığı süvari dəstənin tərkibinə daxil olaraq onun ən fəal və yaxın silahdaşlarından birinə çevrildi. Çiyinlərini yenicə ucalmaqda olan xanlığın sütunları altına verdi, ana torpağının yadellilərdən müdafiəsində öz gücünü göstərdi. Bayat, Şahbulaq, Pənahabad qalalarının tikintisində yaxından iştirak etdi, elinə, obasına qeyrətli və layiqli övlad olduğunu bir daha təsdiqlədi, adını çox gənc ikən Qarabağın, eləcə də mənsub olduğu sülalənin qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazdı. Sonralar da atasının bütün hərbi əməlyyatlarında, yürüşlərində iştirak etməklə bir sərkərdə kimi Qarabağ qoşunlarının önündə getdi, bəzi qonşu xanlıqların, Vərəndə və Xaçın məliklərinin itaətə gətirilməsində mühüm rol oynadı.

Gürcü çarları I Teymurazın və II İraklinin, Xəmsə məliklərinin, Şəki hakimi Hacı Çələbi xanın Şirvan və ləzgi qoşunları ilə birlikdə basqınlarının, Mazandaran və Astrabad hakimi Məhəmmədhəsən

xan Qacarın (Ağa Məhəmməd şah Qacarın atası), Urmiya hakimi Fətəli xan Əfşarın Qarabağ üzərinə hücumlarının dəf olunmasında İbrahimxəlil ağa atası Pənahəli bəylə bərabər böyük şücaət göstərdi. Lakin 1762-ci ildə Fətəli xan Əfşarın gözləniməz hərəkəti nəticəsində girov götürüldü.

Pənahəli xan oğlunu xilas etmək naminə Arazın o tayına gedib və o taydakı digər xanlıqlarla birləşərək Fətəli xan Əfşarı məğlub etdi. Pənahəli xan şahı əvəz edən Kərim xan Zənddən İbrahimxəlil ağanın Qarabağ xanı təyin olunması barədə xüsusi fərman alıb, onu təntənəli surətdə Pənahabada yola saldı. İbrahimxəlil xan az sonra Şiraz şəhərində vəfat edən atası Pənahəli xanın cənazəsini qürbətdən gətirtdi, Qarabağda dəfn etdi.

İbrahimxəlil ağa xan rütbəsində Qarabağa qayıtdıqdan sonra onunla xanlığı müvəqqəti idarə edən ortancıl qardaşı Mehrəli ağa arasında hakimiyyət davası düşdü. Taxt-taç uğrunda mübarizə getdikcə daha da kəskinləşdi. Nəhayət, İbrahimxəlil xan qardaşına üstün gələrək 1763-cü ilin sonlarında Qarabağ taxtına sahib oldu. Hakimiyyət kürsüsündə yerini bir az möhkəmləndirdikdən sonra İbrahimxəlil xan atasının yarımçıq qalmış işlərini davam etdirməklə məşğul oldu. Onun müdrik və uzaqgörən siyasətini ağılla həyata keçirməyə başladı. Müxtəlif tədbirlər həyata keçirdi. İlk növbədə, ara-sıra baş verən ixtişaşları yatırtdı, narazı olan əyan-əşrəfi aradan götürdü, sarayda vəzifə dəyişiklikləri etdi, xanlıq quruculuğunda bir sıra islahatlar apardı. Beləliklə, o, ordunu yenidən qurdu, onu ən yeni silahlarla, xüsusilə, toplarla təchiz etdi.

İbrahimxəlil xan xanlığın iqtisadiyyatını da xeyli yüksəltdi. Bunun üçün yeni qanunlar tətbiq etdi. Vergiləri və onların toplanmasını nizama saldı. Kəndlilərdən alınan vergilər nisbətən azaldı, əhalinin imtiyazları artırıldı, daimi nizami ordu yaratmaq üçün xalq arasında əsgərliyə muzdlu döyüşçülər yığıldı. Qarabağ ərazisində digər ölkələrə gəlib-gedən ticarət yollarının təhlükəsizliyi təmin olundu. O, xanlıqda idarəetmə mexanizmini yenidən işləyib tənzimlədi. İtaətkarlığı sevməyən və qürurlu bir şəxsiyyət olan İbrahimxəlil xan, hər şeydən əvvəl, elə etmək istəyirdi ki, Qarabağ qonşu xanlıqların heç birindən geri qalmasın,

heç bir halda onlardan asılı olmasın. Onun ölkəsi bütün ölkələrlə sərbəst əlaqə saxlasın, azad ticarət aparsın. Bütün bunlara isə ətrafdaki bəzi xanlıqlar və xəmsə məlikləri mane olmağa çalışırdılar.

Düşmənlərini birdəfəlik susdurmaq, başlarını elə öz yuvalarında əzmək üçün İbrahimxəlil xan onlarla gələcək müharibələrə hazırlaşmağa başladı. Bunun üçünsə güclənmə, çoxlu dost və müttəfiq tapmaq lazım idi.

İbrahimxəlil xan Cavanşir daxili işləri bir qədər qaydaya saldıqdan sonra, yəni, ölkə ərazisində sabitlik yaratdıqdan sonra fəal xarici siyasət aparmağa başladı. Bəzi xanlıqlarla diplomatik münasibətlər müttəfiqliyin əsasını təşkil edən qohumluq münasibətləri yaratdı, özünə böyük hərbi gücü olan dostlar, tərəfdarlar tapdı. Onun hakimiyyətinin ilk onilliyində Qarabağ xanlığının siyasi nüfuzu xeyli artdı, ötən illərdə dağıdılmış iqtisadiyyatı nəzərə çarpacaq dərəcədə dirçəltdi. Ölkəyə xarici hücumlar da xeyli səngidi.

1761-ci ildə Rusiyada hakimiyyət başına gələn II Yekaterina I Pyotrun vəsiyyətinə uyğun olaraq Qafqaza aid planlarını həyata keçirmək üçün Cənubi Qafqaz regionuna xüsusi diqqət yetirməyə başladı, daha doğrusu, çar sarayında bu vəsiyyətə uyğun olan keçmiş marağı yenidən oyatdı, daha dəqiq desək, II Yekaterina digər tərəfdarlarının köməyi ilə Rusiyanın himayəsi altında Zaqafqaziyada güclü bir xristian dövləti yaratmaq niyyətinə düşdü.

II Yekaterina öz arzusuna çatmaq üçün tərəfdarları arasından seçdiyi bir varlı adamı casusluq etmək və təbliğat aparmaq üçün Peterburqdan Qarabağa göndərdi. O, daim Qarabağ xanlarına qarşı mübarizə aparan məliklərlə və onlara həmişə məsləhət verən, yol göstərən tərəfdaşları ilə gizli görüşüb, öz planlarını bildirdi, silah almaq üçün onlara pul verdi.

Qarabağ xanlıqlarına qarşı düşmən mövqedə olan məliklər də rus ordusunun Qarabağa girəcəyi vaxt onu nəinki hər şeylə təmin etməyi, hətta özlərinin bütün silahlı qüvvələrini ruslarla birləşdirməyi vəd etdilər. Atası Pənahəli xanın alban məlikləri ilə bağladığı müqavilənin şərtlərini ilk vaxtlar yerinə yetirən

İbrahimxəlil xan da cızıqlarından çıxmış məliklərin çörəklərinin dizləri üstdə olduqlarına bir daha əminlik yaranmasından sonra onlarla başqa cür, daha ciddi və sərt rəftar etməyə başladı...

Məliklərin həyasız hərəkətlərinə son qoymaq üçün İbrahimxəlil xan 1781-ci ildə Vərəndə məliyi Şahnəzər və Xaçın məliyi Mirzəxanla birlikdə uzun müddət Tuğ qalasını mühasirədə saxladı və Dizaq məliyi İsay təslim oldu.

"Kişi torpaq gətirər, torpaq itirməz" prinsipi ilə Qarabağı idarə edən İbrahimxəlil xan Cavanşir bir tərəfdən, paytaxtı Şuşanı möhkəmləndirərək qalaya çevirir, digər tərəfdən də qonşu torpaqlar hesabına ərazisini genişləndirirdi. O, ilk növbədə, atasının sağlığında Qarabağ xanlığının vassalı olan, indi isə onun asılılığından imtina edən bəzi hakimlərə qulaqburması vermək qərarına gəldi.

1780-cı ildə İbrahimxəlil xanın sərkərdələri Mirzəli bəy və Əbdüssəməd bəy Cavanşirlərin başçılığı ilə Qarabağ qoşunları Xoy xanlığı istiqamətində hərəkət etməyə başladı. Xoylu Əhməd xan Dünbüli Urmiya hakimi İmamqulu xan Əfşardan hərbi yardım istədi. O da tərəddüd etmədən dərhal Xoya kömək göndərdi və müttəfiqlər Qarabağ qoşunlarının irəliləməsinə imkan vermədilər.

Lakin Xoylu Əhməd xan İbrahimxəlil xana təslim oldu və onunla birləşib, Qaradağ xanlığı üzərinə yeriməyi və sonra bu xanlığı öz aralarında da bölməyi təklif etdi. Birləşmiş Qarabağ-Xoy qoşunlarının hücumu nəticəsində Qaradağ xanı Mustafa xan demək olar ki, döyüşsüz təslim oldu. İbrahimxəlil xan onu özü ilə götürüb, Şuşaya gətirdi və zindana atdırdı.

Beləliklə, Qaradağ xanlığı tam şəkildə ondan asılı vəziyyətə düşdü.

Mustafa xanın yerinə onun oğlu taxta çıxdı. Lakin təzə hakimin əmisi onun işlərinə ciddi şəkildə mane olduğundan İbrahimxəlil xan Mustafa xanı həbsdən azad edib, yenidən Qaradağa hakim göndərdi və onun xahişi ilə qardaşı Nəcəfəli xanı tutub, Şuşa qalasında zindana saldırdı. Qaradağ, Naxçıvan və Gəncə xanlıqları artıq İbrahimxəlil xanın həm vassalına, həm də yaxın müttəfiqlərinə çevrilmişdi.

Azərbaycan xanları arasında Kartli-Kaxetiya çarı II İrakliyə ən yaxın İbrahimxəlil xan idi. Onlar həm siyasi, həm də iqtisadi cəhətdən bir-birlərinə qarşılıqlı yardım göstərir, bəzi mürəkkəb məsələlərin həllində birlikdə məsləhət-məşvərət edir, bir çətinliyə düşəndə, xüsusən də, onlar üçün xarici təhlükə yarananda bir-birindən ərklə kömək istəyirdilər. Ümumiyyətlə, İbrahimxəlil xan Cavanşir II İrakli ilə dostluq münasibətləri saxlayırdı. Məktublarının birində Kartli-Kaxetiya çarı Gürcüstanla münasibətləri gərgin olan Türkiyənin, Əfşarların və Dağıstanın hədəflərindən və hücumlarından birdəfəlik yaxa qurtarmaq üçün Rusiyanın himayəsinə keçmək məqsədini ilk dəfə açıb, İbrahimxəlil xana demişdi.

O yazırdı ki, bu çətin vəziyyətdə başqa məqbul çıxış yolu olmadığı üçün Rusiyanın təəbəliyini qəbul etməklə düzgışdır. Bununla o özünə haqq qazandırırdı. 1783-cü il iyul ayının 27-də Şimali Qafqazın Georgiyevsk şəhərində bağlanmış müqaviləyə əsasən Kartli-Kaxetiya çarlığının Rusiya təbəəliyinə qəbul edilməsi münasibətilə Tiflisdə keçirilən təntənələrə məhz bu dostluğun rəmzi kimi Qarabağ xanlığından da nümayəndələr dəvət olunmuşdu.

Nümayəndə heyətinin rəhbəri Qarabağ xanının baş vəziri, şair və görkəmli dövlət xadimi Molla Pənah Vaqif, Kartli-Kaxetiya çarlığında Rusiya hökumətinin nümayəndəsi, polkovnik Stepan Daniloviç Burnaşev və digər rəsmi şəxslər bu təntənəli mərasimdə iştirak edirdilər.

Ümumiyyətlə, Gürcüstan və Qarabağ xanlığı arasındakı mədəni və siyasi əlaqələr günü-gündən daha da artır və daha da möhkəmlənirdi.

Cənubi Azərbaycanda hakimiyyət başına gələn Ağa Məhəmməd şah Qacar 1793-cü ilin əvvəllərində şahzadə Süleyman Qacarı 20 minlik qoşunla Tehrandan Təbrizə göndərib, belə bir tapşırıq verdi ki, Urmiya, Xoy, Marağa, Ərdəbil, Naxçıvan, Gəncə, İrəvan, Qarabağ hakimlərini ora çağırsın, dinc yolla ona itaət etməyi və xərac verməyi təklif eləsin. Əgər Qacarlar tərəfinin təklifini xanlar qəbul etsələr, hərəsi öz yaxınlarından birini girov kimi Tehrana göndərsin. Dəvət olunan xanlardan yalnız İbrahimxəlil xan və

İrəvan hakimi Məhəmməd xan görüşə getmədi. Qarabağ xanı fikrini Ağa Məhəmməd şaha daha sərt şəkildə bildirdi. Ağa Məhəmməd şahın planlarından xəbərdar olan İbrahimxəlil xan yaxşı bilirdi ki, əgər müharibə olarsa, ilk zərbəni ona vuracaqlar, ona görə də dinc sakinlərin döyüş meydanından uzaq olmaları üçün qabaqlayıcı tədbirlər görməyə başladı. Əhalisinin bir hissəsini daha uzaq yerlərə - Gürcüstana, Şirvana, Qarabağın dağlıq hissələrinə, hətta Türkiyə şəhərlərinə, bəzi kəndləri hamılıqla dağa göndərdi və xanlıq divanxanasının ən vacib sənədlərini də qoruyub, mühafizə etmək üçün həmin kəndlərin əhalisi ilə ora apardı.

Eyni zamanda kömək üçün Abdulla Əfəndi Çələbi vasitəsi ilə Osmanlı dövlətinin sədr-əzəminə (baş nazirinə) məktub yazdı. İbrahimxəlil xanın məktubu İstanbulda müzakirə olundu. Lakin İranla sülh şəraitində yaşayan və Rusiya ilə düşmən münasibətdə olan Osmanlı dövləti məktuba müsbət cavab vermədi. Qarabağ xanına hərbi yardım göstərməkdən boyun qaçırdı, yalnız gələcəkdə Qarabağdan müraciət olarsa, onları qəbul etmək üçün fərman verdi. Ağa Məhəmməd şah Qacar İbrahimxəlil xan Cavanşirin hərbi gücünə və siyasi nüfuzuna yaxşı bələd olduğundan onu sülh vasitəsi ilə yola gətirməyə çalışdı.

Lakin Azərbaycanın şimal xanlığının, xüsusilə də, ən çox Qarabağ xanlığının ona qarşı etinasızlığından, saymazlığından qəzəblənən Ağa Məhəmməd şah onları cəzalandırmaq qərarına gəldi. 1794-cü ildə şahzadə Süleyman xanın başçılığı ilə 4000 nəfərlik qoşunu Qarabağ və İrəvan xanlıqları üzərinə göndərdi. Kartli-Kaxetiya çarı II İrakil sözünün üstündə duraraq Aleksandrın başçılığı ilə İbrahimxəlil xana hərbi yardım göndərdi. Müttəfiqlərin birləşmiş qüvvələri Qacar qoşunlarını məğlubiyyətə uğradaraq Araz çayından cənuba çəkilməyə məcbur etdilər.

Ancaq Ağa Məhəmməd şah Qacar bu məglubiyyətlə razılaşmadı. Az müddətdən sonra şahzadə Süleyman xanı on minlik qoşunla yenidən Qarabağ üzərinə göndərdi. İran qoşunları Əsgəran qalası yaxınlığındakı ilk döyüşdə məğlub olub geri qayıtdılar. Şahzadə Süleyman xan İbrahimxəlil xana məktub yazaraq Ağa Məhəmməd şahla barışmağı təklif etdi və onun gələcəkdə müstəqil hakim kimi

qalacağına İran şahı adından söz verdi. İbrahimxəlil xan Cavanşir ona yenə də sərt sözlər dedi. Acı cavabdan sonra şahzadə Süleyman xan qoşunları Şuşaya daha da yaxınlaşdırdı. Qarabağ camaatı bilirdi ki, Ağa Məhəmmət şah kimi zalım, qaniçən bir adama tabe olmaqdansa, boyun əyməkdənsə, döyüş meydanında ölmək min dəfə şərəflidir. Odur ki, şuşalılar silahlanıb qalalarının müdafiəsinə qalxdılar. Ətraf kəndlilər, könüllü döyüşçülər Qarabağın paytaxtına toplaşdılar. 15 min nəfər döyüşçü yığıldı. Şuşanın müdafiəsinə İbrahimxəlil xan özü, Əsgəran qalasının müdafiəsinə isə Həsən bəy başçılıq edirdi.

Şuşanın yaxınlığında düşərgə salan şahzadə Süleyman İbrahımxəlil xanın yanına 9-cu dəfə elçi göndərib, təslim olmağı tələb etdi. Qarabağ xanı qürurunu sındırmadan cavabında elçiyə ***"Süleymana de ki, mən onun dediyinə tabe olmuram, əgər bacarırsa, qoy məni başa salsın"*** - deyə cavab verdi. Belə kəskin cavab alan Süleyman xan şəhəri üç gün aramsız olaraq top atəşinə tutdu və qaranlıqda Daşaltı tərəfdən qalaya hücum etməyi qərara aldı.

Lakin gecə yarısı Əsgərandan özünü çatdıran Həsən bəy 2000 nəfərlik dəstəsiylə arxadan qacarlara sarsıdıcı zərbələr endirdi. Həmin vaxt qala darvazası açıldı və İbrahinxəlil xanın əmrilə bir dəstə döyüşçü ordan çıxıb, ildırım sürətilə şahzadə Süleyman xanın qoşunları üzərinə şığıdı. İranlılar böyük itki verib, geri çəkilməyə məcbur oldular və birbaşa Təbriz istiqamətinə götürüldülər.

Şahzadə Süleyman xanın məğlubiyyətindən qeyzlənən Ağa Məhəmməd şah ona çoxlu sayda qoşun verib, yenidən Qarabağa göndərdi. Qacar şərbazları Arazı keçib qarşılarına çıxan hər şeyi məhv edə-edə Şuşa qalasının lap yaxınına gəlib, çıxdılar. Qacar şahzadəsi qoşunları dörd hissəyə bölüb, qalaya hücüma keçərək onu əhatəyə aldı. İbrahimxəlil xan 30 topdan eyni vaxtda atəş açmağı əmr etdi. Belə güclü müqavimətlə üzləşən şahzadə xeyli itki verib, geri çəkilməyə məcbur oldu. Qarabağlılar onları Araz çayına qədər təqib etdilər.

Bir-birinin ardınca bu döyüş əməliyyatlarını aparmaqla Ağa Məhəmməd şah Qacar İbrahimxəlil xanı bir növ imtahana çəkmək,

dişinə vurmaq istəyirdi.

Qarabağ xanının xoşluqla yola gəlmədiyini görən Qacar şahı məsələni yenə də hərbi yolla həll etmək qərarına gəldi. Ağa Məhəmməd şah İbrahimxəlil xanı yalnız onu Qacar hökmdarı kimi qəbul etmədiyinə və kəskin təhqir etdiyinə görə yox, həm də qatı düşməni II İraklı ilə ittifaqa girdiyinə görə cəzalandırmaq istəyirdi. İbrahimxəlil xan öz növbəsində, onu da yaxşı bilirdi ki, gec-tez Ağa Məhəmməd şah Qarabağa hücüm edəcək. Nəhayət, Ağa Məhəmməd şah Qacar 1795-ci ilin aprel ayında 60 min nəfərlik atlı və piyada qoşunla və 25 ədəd topla Tehrandan çıxıb, Cənubi Qafqaza yürüşə başladı. Bir neçə gün Ərdəbildə dayandı, qoşunlarını üç yerə böldü, sonra Muğan, İrəvan və Qarabağ istiqamətində hərəkət etməyə başladı.

Qarabağa hücum edən qoşunun başında Ağa Məhəmməd şah Qacar özü dururdu. Onun məqsədi Qarabağ, Lənkəran, Şamaxı, Şəki xanlıqlarını tutandan sonra Gürcüstan səmtinə getmək idi. İbrahimxəlil xan bəri başdan bir sıra tədbirlər görmüş, şəhərin müdafiə işləri ilə ciddi məşğul olmuşdu. O, cins Qarabağ at ilxılarını iranlıların əlinə keçməsin deyə, Gürcüstana göndərmiş, muzdlu ləzgi döyüşçülərinin sayını 1000 nəfərdən 3000 nəfərə çatdırmış, silahlı dəstələrinin bir qismini - 3000 Qarabağ əsgərini kömək məqsədilə Şamaxıya, Şəkiyə və Tiflisə göndərmişdi. II İrakli isə öz növbəsində, Şuşanın müdafiəsi üçün 120 min manat pul və oğlu Aleksandrın və Mirzə Rəbinin başçılığı ilə 9 minlik suvari dəstə yollamışdı. Şəkidən və şimaldan da silahlı dəstələr Şuşaya göndərilmişdi. Şuşanın və eləcə də Qarabağ xanlığının taleyində həlledici günlər və şəhərin qəhrəman müdafiəsi başlandı. Sevimli xanlarının çağırışı ilə Qarabağın bütün qeyrətli başı papaqlıları paytaxtlarını yadellilərdən qorumaq üçün ayağa qalxdılar. İbrahimxəlil xan əhalini silahlandırıb, xalq müharibəsi elan etdi. Ağır toplarını döyüş hazırlığına gətitrib, müdafiə mövqeyi tutdu. Düşməni şəhərdən kənarda-dağ yamaclarında qarşılamaq qərara alındı. Qalaya gələn bütün yollar kəsildi. İgid sərkərdələrin təşkil etdiyi xalq qoşun dəstələri Qacar sərbazları arasında fəaliyyət göstərməyə başladı.

İbrahimxəlil xanın iki yolu vardı: ya əllərini qaldırıb, qorxaqcasına təslim olmalı, ya da son damla qanına qədər şərəflə və qəhrəmancasına vuruşmalı idi. Müqavimət göstərməkdən başqa, çıxış yolu görməyən Qarabağ xanı, şübhəsiz, qala divarları arasında kişi kimi ölməyi üstün tuturdu. Çünki düşmən qabağından qaçmaq, yaxud döyüşsüz təslim olmaq dədə-babalarına, o cümlədən də, onun özünə xas olan xüsusiyyət deyildi.

Ağa Məhəmməd şah Qacar Şuşanın bir ağaclığında, Çanaqçı kəndinin yaxınlığındakı Kovaxan adlanan bir yerdə düşərgə salmışdı. O, burda səngərlər qazdırmış, ordunu yerləşdirmiş və qalanı mühasirəyə almışdı. Asanlıqla qələbə çalacağını güman edən Ağa Məhəmməd şah Qacar fikirləşirdi ki, qalanı uzun müddət mühasirədə saxlasa, uğur qazana bilər və ona görə də mühasirəni sona qədər davam etdirməyi qərara aldı. Şuşanın müdafiəçiləri qəhrəmanlıqla vuruşur və düşmənin bütün hücümlarını dəf edirdilər. Hücum edənlər bir neçə dəfə xeyli itki ilə geri çəkildilər və Ağa Məhəmməd şah Qacar atəşin dayandırılmasını əmr etdi.

Əhali meşələrə, dağlara çəkilib, Şuşa qalasından tutmuş Qarabağ silsilə dağları boyunca Araz çayı sahillərinə qədər Ağa Məhəmməd şah Qacara qarşı alovlu partizan müharibəsinə qalxdı. Qisasçılar dağ keçidlərini keçmiş,hündür, əlçatmaz yerlərdə möhkəm müdafiə məntəqələri yaratmışdılar. Xalq qoşun dəstələri tez-tez düşmənə ağır zərbələr vurur, onları qırıb-çatır, əsir götürürdülər. Üçaylıq mühasirədən sonra bunun mənasız olduğunu başa düşən Qacar qoşunlarını geri çəkib qayıtdı.

1797-ci ildəki dəhşətli quraqlıq və onun ardınca 1798-ci ilin əvvəllərindəki ərzaq qıtlığı, bahalıq, hər yerdə baş alıb-gedən kütləvi aclıq, yoluxucu xəstəliklər əhalini tamamilə var-yoxdan çıxarmış, yaşayışını dözülməz etmişdi. Ölüm isə adi hal almışdı.

Qarabağ artıq xarabazara çevrilmiş quru bir səhralığı xatırladırdı. Hər yer viran qalmış, kənd-kəsək boşalmışdı. Hər tərəf acından ölmüş insan cəsədləri ilə dolu idi. Mal-qara ya sürülüb aparılmış, ya da tələf olmuşdu. Camaat əkin-biçinlə məşLul ola bilmirdi, taxıl yox dərəcəsində idi. Olan-qalan yemək ehtiyatı da tamam tükənmişdi. Digər tərəfdən də bəzi qonşu xanlıqlar Qarabağın bu

ağır vəziyyətindən istifadə edərək sərhəd kəndlərinə basqın edir, qarətlə məşğul olurdular. Ona görə də sərhəd zonalarında heç kim qorxu-hürkü içərisində yaşamaq istəmir, bir tikə çörək üçün el-obalarını tərk edir, baş götürüb qürbət ellərə üz tutur, yad torpaqlarda sığınacaq tapırdılar. Həmin vaxt Qarabağın əhalisi 70 faiz azalmış, 300 min nəfərdən 40 minə enmişdi.

Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza hücumu öz təsirini Şərqdə genişləndirməyə çalışan Rusiyanın mənafeyinə güclü zərbə vurdu, onun planlarını alt-üst etdi. Lakin çox çəkmədən ruslar Qafqazda öz nüfuzlarını bərpa etmək üçün yeni yürüşə başlamağı qərara aldılar. Nəhayət, 1796-cı ilin mayında qraf V.A.Zubovun komandanlığı altında 30 minlik rus qoşunu Qarabağ sərhədlərinə yaxınlaşdı. O, İbrahimxəlil xana məktub yazıb, onun özünün, ya da böyük oğlunun hər birinin sərəncamında 1000 nəfər döyüşçü olmaqla 5 məliyin başçılığı ilə qoşun göndərməyi tələb etdi. Əgər İbrahimxəlil xan qoşun göndərməsə, onu məliklərin yaxından köməkliyi ilə hakimiyyətdən kənarlaşdıracaq və Şuşa qalasını tutacaq. İbrahimxəlil xan rus komandanlığının Qarabağa hücuma başlamasına əsas verməmək üçün və onun sərt tədbirlər görəcəyindən ehtiyat edərək oğlu Əbülfət ağanı Şuşanın bir neçə sayılan şəxsləri ilə birlikdə hədiyyə ilə rusların düşərgəsinə göndərdi. II Yekaterinaya yazdığı məktubu da general Zubova çatdırdı. Üstəlik, İbrahimxəlil xan rus qoşunlarının baş komandanına qiymətli daş-qaşlar, cins Qarabağ atları, müxtəlif hədiyyələr də göndərmişdi. Bu siyasi diplomatik hərəkəti ilə o, Rusiya dövlətinə öz qonaqpərvərliyini və sədaqətini bildirdi. General da öz növbəsində, Qarabağdan gəlmiş elçiləri çox yüksək səviyyədə hörmət və məhəbbətlə qarşıladı. Əbülfət ağaya xüsusi ehtiram və mehribanlıq göstərdi. İbrahimxəlil xanın II Yekaterinaya yazdığı məktubu isə dərhal Peterburqa yola saldı və çariçanın adından Qarabağ hakiminə təşəkkürünü bildirərək ona çoxlu hədiyyə və eyni zamanda vəziri Molla Pənah Vaqifə qiymətli daşlarla bəzədilmiş bir əsa göndərdi. Əbülfət ağa hər iki dövlət arasında bir çox vacib məsələləri də uğurla həll edib, Şuşaya qayıtdı. Lakin II Yekaterinanın qəflətən ölümü rus komandanlığına

Qarabağa aid planlarını həyata keçirməyə imkan vermədi.

Rusiya çariçasının yerinə taxta çıxan I Pavel rus qoşunlarını Azərbayçandan geri çağırdı. Bundan istifadə edən Ağa Məhəmməd şah Qacar daha güclü qüvvə ilə Qarabağa yürüşə hazırlaşmağa başladı. Əvvəlcə öz nümayəndəsini İbrahimxəlil xanın yanına göndərdi, onu hədələyərək əgər sağ qalmaq istəyirsə, oğlunu yerində oturdub, Məkkəyə ziyarətə getməyi və günahlarını yumağı təklif etdi.

Qarabağ xanı şah Qacarın elçisinə lazımı və sərt cavablar verib, onu geri qaytardı.

İbrahimxəlil xan Cavanşir bilirdi ki, Ağa Məhəmməd şah Qacar iki il əvvəl Şuşanı ala bilmədiyinə görə qisas almaq üçün Zaqafqaziyaya ikinci yürüşə Qarabağdan başlayacaq, ona görə də, ötən dəfəki kimi yenə də qabaqlayıcı tədbirlər gördü. Qarabağ qoşunları dayanmadan irəlilədi, Qacar ordusunun qarşısına çıxdı. İlk döyüşdə hər iki tərəf böyük tələfat verdi. Qarabağlılardan iki minə yaxın döyüşçü həlak oldu və yaralandı. Ağa Məhəmməd şah Qarabağ qoşununu mühasirəyə alıb axırına çıxmaq istəyirdi. Bunu anlayan İbrahimxəlil xan döyüşçülərinə geri çəkilmək əmri verdi. Şuşada müqavimət göstərməyi qərara aldı, çünki birinci muhasirə sübut etmişdi ki, Şuşa qalası alınmazdır.

Ağa Məhəmməd şah Qacar Şuşaya yaxınlaşarkən gördü ki, qala müdafiəyə tam hazırdır. İki dəfə dalbadal arasıkəsilmədən şəhərə hücum etdi, bir nəticə olmadığından Qalanı mühasirədə saxlamaq fikrinə düşdü. Qəzəbini cilovlaya bilməyən Ağa Məhəmməd şah Qacar İbrahimxəlil xanı müxtəlif vasitələrlə diz çökdürməyə çalışdı. Qarabağ xanına belə bir sifariş göndərdi ki, o, şəhərlə müharibə etməyəcək, burda öz taxtını quracaq, adamlar acından bir-birlərini yeyənə qədər şəhəri mühasirədə saxlayacaq, onda camaat öz xoşu ilə təslim olmağı məndən xahiş edəcək. Qarabağ xanı və onun camaatı isə od-alov içində, hər cür ağır şəraitə dözərək təslim olmur, ciddi müqavimət göstərərək doğma qalalarını mətanətlə qoruyurdular. Şah Qacar isə göndərdiyi hədə-qorxuların və verdiyi vədlərin faydasiz olduğunu görüb, bütün qüvvəsi ilə şəhərə hücumu davam etdirirdi. İbrahimxəlil xanın döyüşçüləri isə tez-tez qaladan

çıxıb, Qacarların üzərinə hücum edir, onlara böyük tələfat verərək yenə də geri çəkilirdilər. Ağa Məhəmməd şah Qacar Qarabağ xanının özünün qaladan nə vaxtsa çıxacağına inanırdı. Və nəhayət, onun fikirləşdiyi kimi də oldu. İbrahimxəlil xan 200 nəfər secmə igidlə düşmən arxasına keçərək şəhəri aramsız atəşə tutan Qacarların topxanası üzərinə hücum etdi. Az bir vaxtda düşmənin topçu dəstəsini darmadağın etdi və özü itki verməmək üçün sürətlə geri çəkildi. Şəhərə dönəndə yolların bağlandığını gördü. İbrahimxəlil xan, az qala, tələyə düşmüşdü. O, sürətlə manevr edərək istiqamətini dəyişib, Çar-Balakən tərəfə üz tutdu. İbrahimxəlil xanın məqsədi qoşun toplayıb, yenidən Qarabağa qayıtmaq, Qacarları öz ərazisindən çıxarmaq idi.

Ağa Məhəmməd şah Şuşanı tutub onun müdafiəsinə rəhbərlik edən bir neçə şəxsi, o cümlədən, Molla Pənah Vaqifi, İbrahimxəlil xanın qardaşı oğlu Batmanqılınc Məhəmməd bəy Cavanşiri edam etdirmək əmrini verdi. Lakin həmin gecə bir neçə nəfər sui-qəsdçi onu yataq otağında öldürdü. Qacar qoşunları az müddətdən sonra çəkilib-getdi. Hakimiyyətə Fətəli şah gəldi və Qarabağa elçi göndərdi.

İbrahimxəlil xan Qacar elçisinin gəlişindən diplomatik surətdə istifadə edərək Fətəli şahın tələblərini yerinə yetirməli oldu. üşmənciliyi aradan qaldırmaq, münasibətləri yoluna qoymaq və Qarabağa yenidən hücumların qarşısını almaq məqsədilə Ağa Məhəmməd şah Qacarın tikə-tikə edilmiş cəsədini zər-zibaya bükərək müsəlmanlara xaş olan xüsusi bir təntənə, izzət və ehtiramla Tehrana yolladı. Üstəlik, qan bahası olaraq oğlu Əbülfət ağanı girov kimi Fətəli şaha göndərdi.

Fətəli şah Qacar İbrahimxəlil xan Cavanşırın bu ehtiramından çox razı qaldı, ona qiymətli xəncər və xələt göndərdi, üstəlik, mükafat kimi Qaradağ xanlığının gəlirindən istifadə etmək hüququ da verdi. Şah hər il Qarabağ xanına və onun vəliəhdi Məhəmmədhəsən ağaya hörmət əlaməti olaraq at, qızıl suyuna çəkilmiş yəhər, qılınc, xələt və başqa hədiyyələr göndərirdi. İbrahimxəlil xan bu qarşılıqlı hörmətdən istifadə edərək Qacarlarla əlaqələrini nizamladı. Fətəli şahla münasibətlərini normal hala

saldı. Eyni zamanda qızı Ağabəyim ağanı Fətəli şaha ərə verməklə qohumluq əlaqəsi yaratdı və 1795-ci ildən 1805-ci ilə qədər Qarabağ xanlığı ilə Qacarlar arasında zahirən də olsa, dostluq əlaqələri davam etdi. Bu cür əlaqə saxlamaqla da gələcəkdə Fətəli şahın məqsədi Qarabağ xanlığını özünə tabe etmək idi.

1804-cü ilin yanvarında Gəncənin işğalından bir həftə keçməmiş rus generalı Pavel Dmitriyeviç Sisianov Azərbaycanın şimal hakimlərinə, o cümlədən, Qarabağ xanına hədə-qorxu ilə dolu məktub göndərib, Rusiyanın hakimiyyətini qəbul etmələrini tələb etdi. İbrahimxəlil xana göndərdiyi məktubunda qazandığı qələbə münasibətilə rus komandanlığını təbrik etmədiyinə görə o, Qarabağ xanını təhqiramız şəkildə qınayırdı.

Rus ordusunun Azərbaycan ərazisində apardığı müharibələr və strateji əhəmiyyətli bir çox məntəqələri tutması Fətəli şahı narahat edirdi. Odur ki, 1804-cü ilin mayında o, rus komandanlığına ultumatum verdi ki, rus qoşunları qəti surətlə Azərbaycan və Gürcüstan ərazilərindən çıxarılsın.

Lakin P. Sisianov bu tələbə rədd cavabı verdi. İyunun 10-dan etibarən İranla Rusiya arasındakı bütün diplomatik münasibətlər pozuldu və l Rusiya-İran müharibəsi başlandı. Digər tərəfdən də Qarabağı ələ keçirməyə çalışan və diplomatiya ilə heç nəyə nail ola bilməyəcəyini anlayan Fətəli şah məsələni zor gücünə həll etməyi üstün tutdu və Qarabağa yürüşə hazırlaşmağa başladı. Bir tərəfdən ruslara, o biri tərəfdən isə qarabağlılara kəskin və barışmaz nifrət bəsləyən Qacarlardan təhlükə gözləyən İbrahimxəlil xan odla su arasında qaldı. Ona görə də yubanmadan Tiflisə elçi göndərib, Rusiyanın təbəəliyinə dəvət edən P.D. Sisianovun yanına nümayəndələr göndərdi və bildirdi ki, onların himayəsinə girməyə hazırdır. Həm də generala görüşməyi təklif etdi və təbəəliyinə hansı şərtlə qəbul olunacağını soruşdu. P.D. Sisianov qarabağlı elçilərə İbrahimxəlil xanla gələn ilin yayında görüşmək fikrində olduğunu bildirdi.

İbrahimxəlil xanla Sisianov 1805-ci ilin mayında Gəncədən 20 verst aralıda Kürəkçay sahilində görüşdülər və ayın 14-də təntənəli şəkildə “Kürəkçay müqaviləsi” kimi tarixə düşən himayə

müqaviləsini imzaladılar. Beləliklə də, Qarabağ xanlığı Rusiya təbəəliyinə keçdi. 1806-cı il fevralın 8-də P.D. Sisianov Bakıda öldürüldükdən sonra Zaqafqaziyada siyası təbəddülatlar yenidən başladı. Azərbaycan xanları tərəddüd içərisində qalmışdılar. Bir tərəfdən də İran qoşunları Qarabağ sərhədlərinə yenidən yaxılnaşırdılar. İbrahimxəlil xanın oğlu Əbülfət xan və qızı Ağabəyim ağa sifarış göndərərək atalarına Qacarlarla dostluq əlaqələrini bərpa etməyi məsləhət görürdülər. İbrahimxəlil xan qəti fikrə gələndən sonra ruslardan üz çevirməyə, Fətəli şahla münasibətlərini yoluna qoymağa, şahzadə Abbas Mirzə ilə yazışmağa başladı. Fürsəti fövtə verməyən Qacar hökmdarı təcili olaraq Əbülfət xanın başçılığı ilə Qarabağa iki min nəfərlik qoşun göndərdi. Həmin vaxt Şuşada lövbər salan rusların Qarabağ üzrə müşaviri rolunu oynayan məliklərdən Məlik Cümşüd rusların casusu kimi qalanın komendantı, mayor Lisaneviçin sağ əlinə çevrilmişdi və İbrahimxəlil xanı rusların gözündən salmaq üçün onunla rus komandanlığının arasını vururdu. O, İbrahimxəlil xanın Fətəli şahla gizli əlaqə saxladığını və müharibə olarsa, Qacaelar tərəfə keçəcəyini də mayora çatdırmışdı. O, Qacar qoşunlarının Qarabağ sərhədlərinə gəlib-çıxdığını da demiş, bildirmişdi ki, bu günlərdə ya xan Qacarlar tərəfə keçəcək, ya da Qacarlar gəlib onunla birləşəcək. Ona görə də mayor Lisaneviç dərhal İbrahimxəlil xanın imarətinə gəldi, bildirdi ki, ona üç saat vaxt verir, əgər qalanı tərk etməsə, bütün ailəsi ilə birlikdə qətlə yetiriləcək. Naəlac qalan İbrahimxəlil xan ailəsini və yaxın adamlarını da götürüb, şəhərdən çıxdı, axşam düşdüyündən To?xana yaxınlığında çadırlar qurdurdu, hər ehtimala qarşı ərtafda səngərlər qazdırıb, səhərin açılmasını gözləməyə başladı. O, bilirdi ki, Qacar qoşunları səhərə yaxın gəlib-çıxacaq. Bütün bunlar haqqında Məlik Cümşud mayora məlumat verdi. Mayor Lisaneviç gecə vaxtı hücüm edib onu diri tutmaq qərarına gələrək 100 nəfərlik bir dəstə göndərdi və 1806-cı il iyunun 12-də bu dəstə İbrahimxəlil xanı, onun ailəsini və yaxınlarını qətlə yetirdi. Bu qətldən yalnız Mehdiqulu xan və onun bacısı Gövhər ağa xilas ola bildi.



***Mehdiqulu xan Cavanşir, Qarabağ xanı***

Mehdiqulu xan Cavanşir 1772-ci ildə anadan olmuşdu. İbrahimxəlil xanın arvadlarından biri, gəncəli Cavad xanın bacısı Xurşud bəyimdən olan qızı Xurşudbanu Natəvanın anasıdır. Mehdiqulu saray mühitində böyümüş, elmlərin əsaslarına yiyələnmiş, tanınmış alimlərdən dərs almışdı.

Mehdiqulu ağa gənc yaşlarında xanlıqda baş verən icyimai-siyasi hadisələrin içində olmuş, hərbi səfərlərdə iştirak etmişdir. O, Qacarların Qarabağa hücumları zamanı qardaşları və əmisi oğlanları ilə bərabər Şuşanın müdafiəsində iştirak etmişdir.

İbrahimxəlil xan 1797-ci ilin yayında Ağa Məhəmməd şah Qacarın Şuşaya növbəti hücumu zamanı məcburiyyət qarşısında qalaraq ailə üzvləri ilə bərabər Car-Balakənə getdi. Qacarın sui-qəsd nəticəsində öldürülməsindən sonra Qarabağda hakimiyyəti Batmanqılınc Məhəmməd bəy Cavanşır ələ keçirmişdi. İbrahimxəlil xan qardaşı oğlunu hakimiyyətdən uzaqlaşdırmaq üçün canlı qüvvə götürərək Şuşaya qayıtdı. Bu məqsədlə əvvəlcə Mehdiqulu ağanı Şuşaya danışıqlara göndərdi. İbrahimxəlil xan Şuşaya qayıdandan sonra vəziyyətin gərgin olduğunu görən Məhəmməd bəy xanlığın ləl-cəvahiratını götürərək Şirvan xanlığına getdi və orada öldürüldü. Mehdiqulu ağa 1797-1804-cü illərdəki dinc quruculuq dövründə böyük qardaşı Məhəmmədhəsən ağa ilə əl-ələ verərək Şuşanın iqtisadi, ictimai və mədəni həyatını yenidən dirçəltmək üçün çalışırdı.

1805-ci il mayın 14-də Qarabağın Rusiyanın təbəəliyinə keçməsi üçün Kürəkçayda bağlanan müqavilədə Mehdiqulu ağa da iştirak etdi. Müqavilənin şərtlərinə görə İbrahimxəlil xana general-leytenant, Məhəmmədhəsən ağaya və Mehdiqulu ağaya general-mayor rütbəsi verildi. Həmin ilin payızında rus qoşunları Qubanı,

Dərbəndi və Bakını işğal etmək üçün Qarabağ və Gəncə xanlarından hərbi qüvvə tələb etdi. Mehdiqulu ağa 1500 nəfərlə rus qoşunuyla birləşdi. Bu ərəfədə Məhəmmədhəsən ağa vəfat etdi. Lakin Qarabağın təhlükəsizliyini təmin etmək məqsədilə general Pavel Sisianov Mehdiqulu ağanı qoşunu ilə geri qaytardı. 1806-cı il fevralın 24-də İbrahimxəlil xan oğlu Mehdiqulu ağanı rəsmən öz varisi elan etdi və bunu çar I Aleksandrla razılaşdırdı.

İbrahimxəlil xanın Qacarlara tərəf meylləndiyini duyan Şuşa qarnizonunun rəisi mayor Lisaneviç xanı ailəsi ilə birlikdə güllələdi. Həmin vaxt Mehdiqulu xan şəhərdə yox idi. Hadisədən sonra o, Şuşaya qayıtdı.

Şuşaya qayıdan Mehdiqulu xan qazandığı zəngin təcrübədən bacarıqla istifadə edərək xanlıqda sabitlik yaratdı və təsərrüfat həyatının inkişafına çalışdı. Ancaq həmin dövrdə Qacar şahzadəsi Abbas Mirzə 20 minlik qoşunla Qarabağa hücum etdi. Rusiya hərbi komandanlığı general Pyotr Nebolsinin ümumi komandanlığı və polkovnik Pavel Karyaginin başçılığı ilə Şuşa istiqamətinə qoşun yeritdi. Mehdiqulu xan bir dəstə suvari ilə gəlib, Əsgəranda düşərgə salmış rus qoşununyla birləşdi. İyulun 15-də birləşmiş qüvvələr Qacarların Xonaşen çayı istiqamətində toplaşan qoşununa ağır zərbə vuraraq onu darmadağın etdilər. Xeyli əsir alındı, sağ qalanlar qaçıb Arazı keçdilər. Ancaq Şuşaya komendant təyin edilən mayor Fyodor Kotlyarevski Mehdiqulu xandan xoşu gəlmədiyi üçün xana təzyiq etməyə başladı. Mayor rus hökumətinə Mehdiqulu xandan donosbazlıq edərək raportlarında vurğulayırdı ki, guya, Mehdiqulu xan Qacarlarsn tərəfinə keçmiş qardaşı Əbülfət ağa ilə əlaqə saxlayır, guya, gələcəkdə onlar qüvvələrini Qacarlarla birləşdirib, Rusiyaya təhlükə yarada bilərlər. Bununla əlaqədar olaraq Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı Filip Pauliççi təcili Şuşaya gəldi. O, verilən məlumatları araşdırarkən faktların tamamilə doğru olmadığını gördü və düşmənlərin çirkin niyyətləri boşa çıxdı.

1806-cı ildə qraf İvan Qudoviç Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı təyin edildi. O, Mehdiqulu xana məktub göndərərək bir həftəyə qədər Tiflisə gəlməyini bildirdi.

Tiflisdə general Qudoviç təntənəli surətdə çarın onu Qarabağ xanı təyin etməsi ilə bağlı fərmanını təqdim etdi. Bunun qarşılığında isə general Mehdiqulu xandan Rusiya dövlətinə sədaqətlə xidmət etməsini tələb etdi. Çar I Aleksandrın adından Mehdiqulu xana qiymətli daşlarla bəzədilmiş qılınc hədiyyə edildi. Bundan sonra Mehdiqulu xan dövlət xadimi kimi tanındı. General İvan Qudoviç Şuşanın komendantı, polkovnik Pyotr Kotlyarevskiyə məktub yazaraq göstəriş verdi ki, Mehdiqulu xana hər ehtiram göstərilsin, xanlığın daxili işlərinə heç kim qarışmasın.

Mehdiqulu xan müharibələr nəticəsində Arazin o tayına və ətraf vilayətlərə dağılmış əhalinin geri qayıtması üçün lazımi tədbirlər gördü və bunlar öz bəhrəsini verdi. Xanın silahlı dəstələri Rusiya tərəfdən Qacarlara qarşı döyüşlərdə iştirak edirdi. Döyüşlərdən birində rus qoşunu məğlubiyyətə uğradı və bunun səbəbini Mehdiqulu xana bağladılar. Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı, general Filip Pauliççi xanı Rusiyanın quberniyalarından birinə sürgün etmək qərarına gəldi. Xan nəzarət altında saxlanıldı.

Qacar hökmdarı Fətəli şah daim Mehdiqulu xanı öz tərəfinə çəkməyə çalışırdı. Bu ərəfədə Qarabağ əhalisini ağır vergilərlə ac qoyan rus hökuməti Mehdiqulu xanın gözündən düşür, ruslara inamı azalırdı. Çünki xan öz rəiyyətinin yaxşı yaşamasına tərəfdar idi. Xan həm də Qarabağa xaricdən köçürülüb gətirilən ermənilərin sayının artmasına, qarabağlıların azalmasına dözmürdü. Milliyyətcə erməni olan polkovnik Vasili Bebutov bu xəbəri rus qoşunlarının Qafqazdakı baş komandanına çatdırdı. Məktubda o yazırdı ki, Mehdiqulu xan çarın siyasətinə qarşı gizli işlər görür.

1813-cü il oktyabr ayının 12-də bağlanan Gülüstan sülh müqaviləsi ilə Rusiya- Qacar müharibəsi dayandırıldı. 1816-cı ildə Aleksey Yermolov Qafqazdakı rus qoşunlarının baş komandanı təyin olundu. Mehdiqulu xan əhalini ağır vergidən azad etmək üçün öz ilxısından iki yaraşıqlı at seçib, Ağalar bəylə canişinə göndərdi. Canişin atları geri qaytarıb, yalnız onların yüyənlərini və qamçılarını götürdü. Canişin xana minnətdarlıq dolu məktub da göndərdi.

Gülüstan müqaviləsindən keçən üç il ərzində dörd minə qədər qarabağlı yad ellərdən öz yurdlarına dönmüşdü. 1817-ci il siyahıya alınmasında göstərilirdi ki, Qarabağda 7872 ailə yaşayır.

Vergilər əhalini sıxdığına görə Mehdiqulu xan Qafqaz canişininə məktub yazaraq xahiş etdi ki, onların bu çətinliyini çara bildirsin və əhalinin vergilərinin bağışlanmasını istəsin.

Nəhayət, imperator qarabağlıların vergi borclarını bağışladı. Çar I Aleksandr Azərbaycanda xanlıqları ləğv etmək, onları mərkəzi hakimiyyətə tabe etmək kimi məkrli planlar cızmış və Yermolovu bu məqsədlə Qafqaza göndərmişdi. Ona görə də xanların hüquqları və ixtiyarları getdikcə məhdudlaşdırılırdı. Hətta general Yermolov Mehdiqulu xanı yanına çağıraraq Qarabağı ona verməyi tələb etmişdi. Təbii ki, xan bu həyasız tələbi qəbil etmədi. Bundan sonra rus generalları Azərbaycanda özlərini mütləqi-hakim kimi aparmağa, özbaşına yeni və sərt qayda-qanunlar tətbiq etməyə başladılar. Onlar xanların daxili işlərinə qarışır, onlara təzyiq göstərirdilər. Bütün bunlara dözməyən Şəki hakimi Səlim xan, Lənkəran hakimi Mir Həsən xan, Şamaxılı Mustafa xan və Bakı hakimi Hüseynqulu xan baş götürüb İrana qaçmışdılar. Ancaq Mehdiqulu xan hələ dözürdü.

General Madatov Qarabağda at oynadır, sıxışdırılmış Mehdiqulu xan buna dözməli olurdu. Nəhayət, günlərin birində xan Madatovdan şikayət etmək üçün bir neçə yaxın adamı ilə Tiflisə yollandı. Tərtərdə general Madatovun dəstəsi gəlib ona çatdı və məlik Van8 dedi ki, general ondan geri qayıtmağı tələb edir. Xan həbs ediləcəyini hiss edərək əvvəlcə İrəvana, sonra Naxçıvana, oradan da Təbrizə-Azərbaycan hakimi Abbas Mirzənin yanına getdi. Bu hadisədən bir qədər sonra, 1822-ci ildə Yermolov Qarabağ xanlığını ləğv etdi. Əvəzində Şuşada rus hərbi komendantlığı yaradıldı.

1826-cı ildə ikinci rus-İran müharibəsi başlananda Mehdiqulu xan Abbas Mirzənin sərkərdələrindən biri kimi döyüşə getdi. İran ordusu məğlub olandan sonra Mehdiqulu xan altı min nəfərlik Qarabağ elatını götürüb, Arazın o tayına keçdi. Abbas Mirzənin tapşırığı ilə onlara lazımi həyat şəraiti yaradıldı. Lakin Rusiya

hökuməti Mehdiqulu xanı və qarabağlıları öz tərəflərinə çəkmək üçün siyasi gediş etdi. Qafqaz canişini İvan Paskeviç General Madatovun yerinə təyin etdiyi polkovnik Abxazova, o da Mirzə Adıgözəl bəyə tapşırıq verdi ki, Mehdiqulu xanla əlaqə yaradıb, onu xanlığa gətirsinlər.

Mirzə Adıgözəl bəy Arazın o tayına keçərək Mehdiqulu xanla danışıqlar apardı. Söhbət zamanı xanın təhlükəsizliyinə zəmanət verdi və bildirdi ki, Rusiya hökuməti onu bağışlayır, general rütbəsini özünə qaytarır, ayda 4000 çervon maaş verir. Qərib yerdə yaşamaqdan bezən xan razılıq verdi və özü ilə gətirdiyi ailələri də götürüb Şuşaya qayıtdı. Lakin bir müddətdən sonra ruslar Mehdiqulu xanı yenə də sıxışdırmağa başladılar. Onun bütün idarəetmə hüquqları əlindən faktiki olaraq alındı.

Xan yenidən İrana qayıtmaq istəsə də, 1828-ci ildə Türkməncay müqaviləsinin bağlanması ilə əlaqədar olaraq bu fikirdən daşındı. Bundan sonra vəzifələri əlindən alınmış xan hökumətdən ona məxsus olan torpaqların və mülklərin geri qaytarılmasını tələb etdi. Uzun mübarizədən sonra torpaqlarının, rəiyyətinin və mülklərinin yalnız bir qismini ala bildi və həyatını beləcə davam etdirdi.

Mehdiqulu xan 1795-ci ildə Qacarın Qarabağa hücumu zamanı Ağdamda dağıdılmış dədə-baba qəbiristanlığını abadlaşdırdı, ətrafında böyük bir bağ saldırdı. Qalan həyatını Qarabağın mədəni və təsərrüfat quruculuğuna həsr etdi. Mehdiqulu xan 1845-ci ilin mayında Aşağı Qarabağa təsərrüfat işlərinə baş çəkməyə gedərkən yolda atdan yıxılaraq vəfat etdi.

## *Mirzə Adıgözəl bəy, dövlət məmuru və tarixçi.*



**Mirzə Adıgözəl bəyin ailə türbəsi**

Mirzə Adıgözəl bəy Qarabaği 1780-ci ildə Şuşa şəhərində anadan olub. O, ibtidai təhsilini bu şəhərdə alıb. Uşaqlıq dövrü

köçkünlükdə keçib. Ağa Məhəmməd şah Qacarın Qarabağa yürüşü zamanı ailəsi ilə birlikdə Gürcüstana sığınıb, rus ordusunda qulluğa başlayıb.

Mirzə Adıgözəl bəy Qarabaği savadlı olduğuna görə “Mirzə” adı daşıyırdı. Qarabağa qayıdan Mirzə Adıgözəl bəy Mehdiqulu xan Cavanşirə xidmət edib. Xan İrana qaçandan sonra komendant tərəfindən mahala naib təyin edilib. Tərcümeyi-halında o yazır: ***“Məçkur xan sərhəddin o tərəfinə getdikdə dövlət başçıları məni Iyirmidörd mahalına naib təyin etdilər.***

Mirzə Adıgözəl bəy və qardaşlarının əsas mülkləri İyirmidörd mahalının ərazisində yerləşirdi. Onların mal-mülkləri rus-İran savaşlarında talan olunmuşdu. Qardaşlar özlərini barışdan sonra düzəldə bildilər. Mirzə Adıgözəl bəy isə əsirlik həyatı yaşamışdı. Qayıdandan sonra naib vəzifəsini yenidən icra etməyə başladı.

1828-ci ildən sonra Mirzə Adıgözəl bəyin mahal ərazisində xeyli mülkü vardı. Boyəhmədli, Cinli-Borun, Qazax-Nəsibli obaları, Varvara, Alpout, Rəhimli və başqa kəndlər onun özəl mülkü sayılırdı. Bunlardan başqa, Balçılı obası, Manik, Şamabad, Divararxı mülkləri ona məxsus idi. Kabablı, Şütur, Baldaşin, Goran, Talış, Qaraçinar, Sarov kəndlərində torpaqları vardı. Goran çayı boyunca bütün yataql ar onun idi. O, xeyl i yaylaqlara, qışlaqlara, ayrı-ayrı yerlərdə yataqlara, zavod ərazisinə və saysız torpaq sahələrinə yiyələnmişdi.

Mirzə Adıgözəl bəy rus ordusunda podporuçik, poruçik və kapitan rütbələrində xidmət etmişdi. Təqaüdə çıxandan sonra əyalət məhkəməsində çalışmışdı.

O, 1736-cı ildən 1828-ci ilədək Qarabağın siyasi hadisələrinə güzgü tutan “Qarabağnamə” adlı tarixi əsər yazmışdır.

Mirzə Adıgözəl bəy 1848-ci il sentyabrın 9-da vəfat etmiş, özəl mülkü Rəhimlidə dəfn edilmişdir.



***Ağabəyim ağa, ictimai xadim, şair.***

Bir sıra gözəl əsərlər müəllifi Ağabəyim ağa 1782-ci ildə Şuşada anadan olub. O zaman qarışıq ill ər idi. Ağa Məhəmməd şah Qacar 1797-ci ildə Şuşada qətlə yetiriləndən sonra qardaşı oğlu Baba xan Fətəli şah adı ilə İran taxt-tacına sahib oldu. Dərhal da ən yaxın adamlarından biri Hüseynəli xan İzzədinli Qacarı İbrahimxəlil xanın yanma göndərib, əmisinin cəsədini tələb elədi. Qarabağ xanı da bu haqlı tələbdən diplomatik surətdə istifadə eləməyi qərara alıb, iranlı qonağı çox yüksək alicənablıqla və özünəməxsus qonaqpərvərliklə qarşıladı. Şahın cəsədini müsəlman qaydası ilə zər-zibaya büküb, oğlu Əbülfət ağanın başçılığı altında böyük hörmət və ehtiramla Tehrana göndərdi. İbrahimxəlil xanın bu cür insani hərəkəti Fətəli şahı olduqca məmnun elədi, bunu o özü üçün böyük şərəf və xoşbəxtlik sandı. Qarabağdan Ağa Məhəmməd şah Qacarı dəfn eləməyə göndərilmiş adamları xələt və bəxşişlə geri yola saldı, İbrahimxəlil xanın özünə isə hədiyyə kimi xüsusi xələt, qılınc və qızıl suyuna çəkilmiş yəhər göndərib, üstəlik, Qaradağ mahalını bütün mədaxili ilə ona bağışladı.

Əmisini dəfn edəndən sonra Fətəli şah bir neçə mötəbər və nüfuzlu xanı Şuşaya yolladı, onlar vasitəsilə qohum olmaq istəyini bildirib İbrahimxəlil xana belə bir namə göndərdi: ***“'Hər iki tərəfin xatircəmliyi üçün əziz və möhtərəm qızınız Ağabəyim ağanı bizim hərəmxanaya layiq bilməlisiniz. O bizim hərəmxanamızın xanımı olmalıdır”.***

Artıq yaşa dolmuş və qanlı müharibələrdən təngə gəlmiş İbrahimxəlil xan bilirdi ki, Fətəli şah Qacar gec-tez əmisinin qanını qarabağlılardan alacaq. İbrahimxəlil xan iranlıların gözlənilən hücumunun qarşısını almaq və Qarabağı növbəti döyüş meydanı

olmaqdan xilas etmək üçün nə qədər ağır olsa da, gözünün nuri-didəsi, istəkli qızı Ağabəyim ağanı qərib yerə ərə vermək, bu təklifi yerinə yetirmək məcburiyyətində olduğunu dərk edirdi. Başqa bir zaman olsaydı, bu işə qətiyyən qol qoymazdı. Bir də ki İbrahimxəlil xan özü də müxtəlif vaxtlarda sülh bağlamaq üçün o dövrə görə məqbul sayılan bu üsuldan dəfələrlə istifadə eləmişdi. Çıxılmaz vəziyyətdə qalan İbrahimxəlil xan bu nigaha qol qoydu və öz sevimli qızını İran hökmdarı Fətəli şaha ərə verməyə razı olduğunu bildirdi.

Fətəli şaha xəbər çatdı ki, İbrahimxəlil xan onunla qohum olmağa razılıq verib. İran şahı da öz növbəsində, adına layiq tədarük görərək Ağabəyim ağanı İrana aparmaq üçün Təbriz hakimi Hacı Mirzə Zaman xan Əbuməhəmməd xan oğlunun başçılığı ilə adamlarını Şuşaya göndərdi. Dədə-baba qaydası ilə kəbin kəsildi və yola hazırlıq görülməyə başlandı.

...Ağabəyim ağa İbrahimxəlil xanın ikinci qızı, Gəncə hakimi Cavad xanın bacısı Tutubəyimdən olan övladı idi. O, sarayda çox yüksək səviyyədə təlim-tərbiyə almışdı. Zehinli, hər şeyə marağı olduğu üçün hələ körpəlikdən ərəb və fars dillərini mükəmməl öyrənmiş, Quranı əzbərləmişdi. Poeziyaya böyük həvəsi olduğuna görə bütün Azərbaycan şairlərini mütaliə eləmiş, ürəyinə yatdığı parçaları bəyazına köçürüb, əzbərləmişdi. Bu şairlər içərisində ən çox sevdiyi isə qəlb və məhəbbət şairləri Məhəmməd Füzuli və Molla Pənah Vaqif idi. Sarayda bir çox söz ustalarını dəfələrlə dinləməsi onun şeirə, sənətə məhəbbətini daha da artırmış, poeziyaya məftun eləmişdi. Və özü də gizlicə olaraq ara-sıra şerlər yazmağa başlamışdı.

İbrahimxəlil xanın onu Fətəli şaha vermək qərarına gəlməsi xəbərini eşidən Ağabəyim ağa özünə yer tapa bilmirdi. Ürəyində sevimli atasını qınayırdı da. Lakin sonra başa düşdü ki, İbrahimxəlil xan bu işə məcburiyyət qarşısında razılıq verib.

Ağabəyim ağa qabiliyyətli, bacarıqlı və gözəl olmaqla bərabər, həm də çox vətənpərvər bir qadın olub. Ağabəyim ağa atasının

vəziri Molla Pənah Vaqifin yetirməsi idi. O, ərəb, fars, rus və fransız dillərində sərbəst danışır və yazırdı.

1798-ci ilin mart ayında, Novruz bayramı ərəfəsində Fətəli şahın tacqoyma mərasimi ilə əlaqədar İbrahimxəlil xan on altı yaşlı sevimli qızını təntənəli surətdə zəngin və qiymətli cehizlərlə Tehrana yola saldı. Onu keşikçibaşı Məlik bəy, baş mühafizəçi Ağa Bəhram Qarabaği başda olmaqla iki yüz nəfərədək adlı-sanlı bəylər və xidmətçilər müşayiət edirdi. Ağabəyim ağa kənizi, daha doğrusu, ən yaxın rəfiqə hesab elədiyi Alagöz xanımı da özü ilə aparırdı.

Fətəli şah Ağabəyim ağa üçün qırx gün, qırx gecə toy çaldırdı...

Hələ uşaqlığında və gəncliyində çox müdrik və ağıllı qız olan Ağabəyim ağa haqqında həqiqətə bənzər neçə-neçə əfsanə, rəvayət yaranmış və bütün Yaxın Şərq ölkələrinə də yayılmışdı. Deyirlər ki, toyun ilk günü Fətəli şah təsvir edilə bilinməyəcək dərəcədə şahanə gəlin otağı bəzətdirmişdi. Zifaf gecəsi şah gəlin otağına daxil olanda bu qarabağlı xanımın üzündə rübənd, belində isə quran ayələri yazılmış enli kəmər ayaq üstə dayandığını görüb deyir:

- Xanım, sənin ayaq üstə dayanmağın və kəmərin üzərindəki Quran ayəsi məni çox təəccübləndirir. Hüzurumda elə durmusan ki, elə bil sənin üçün naməhrəm bir adamam. Əcəba, mən sənin halal, kəbinli ərin deyiləmmi?!

Ağabəyim ağa isə özünəməxsus tərzdə deyir:

- Qibleyi-aləm sağ olsun! Əvvəla, məni sənə məcbur veriblər, ürəyim başqasındadır. Əgər şah qürurun və dinimiz yol verirsə, buyur, qarşındayam, Quran ayəli kəmərimi aça bilərsən. Bir də bizim Qarabağ xanımları təsəvvür etdiyiniz qədər mədəniyyətsiz və ədəbsiz deyillər ki, sizin rüxsətiniz olmadan hüzurunuzda ədəbazlıq eləyib, üzlərindəki örpəyi götürsünlər.

Ağabəyim ağa sözünü elə bir hazırcavablıqla dedi ki, şah bu qızın ağlına, zəkasına heyran qalıb, əlini onun çiyninə qoyaraq dedi:

- Sən mənim ancaq bacım ola bilərsən! Mən bundan sonra sənə övr ət yox, bacı gözü ilə baxacağam. Və bu gündən də ancaq sən mənim hərəmlərimə böyüklük edəcəksən. Ömrünün sonunadək burada yaşayacaqsan və sarayda hər kəs bizi ər-ar vad bi lə cək.

Ağabəyim ağa Fətəli şahın sayca on ikinci zövcəsi oldu. Bu vaxta qədər şahın dörd kəbinli arvadı olduğu üçün müsəlman qaydasına uyğun o, əvvəlcə siğə edildi. Lakin çox çəkmədi ki, Fətəli şahın kəbinli arvadlarından biri, Məhəmməd xan Qacarın qızı Asiya xanım Mazandaranda vəfat elədi. Ağabəyim ağa şahın daimi kəbinli arvadı hesab olundu və onun baş hərəminə çevrilərək "şahbanu" adını aldı. Fətəli şah isə dediyi kimi sözünün üstündə durub, ömrünün sonuna qədər ona əl vurmadı. Şah sarayına xüsusi bir yaraşıq verən, oranı zinətləndirən, zənginləşdirən uzunboylu, xurmayı saçlı, zərif, çox gözəl olan Ağabəyim ağa şirin, duzlu, məntiqli söhbətləri, son dərəcə mədəni rəftarı ilə az müddətdə Fətəli şahın ən istəkli hərəmi oldu.

İlk günlər Ağabəyim ağa vər əni üçün, Şuşası üçün çox darıxırdı, Fətəli şah isə şahbanunu bu darıxdırıcı fikirlərdən yayındırmaq üçün onun bütün arzu və diləklərini yerinə yetirir, istəklərinə etinasız qalmırdı. Ağabəyim ağa üçün tikdirdiyi saray da Qarabağ üslubunda bəzədilmiş, yan-yörəsində bağça-bağlar salınmış, hər tərəfdə su arxları, bulaqlar, fəvvarələr düzəldilmişdi. Lakin bunların heç biri Qarabağın yerini verə bilmirdi. Onun kövrək ürəyi həmişə Şuşa ilə döyünürdü. Bir dəfə Fətəli şah Ağabəyim ağanın ürəkləri riqqətə gətirən bədahətən dediyi kədərli bir bayatısını eşidir:

**Mən aşiqəm, Qarabağ,**
**Şəki, Şirvan, Qarabağ.**
**Tehran cənnətə dönsə,**
**Yaddan çıxmaz Qarabağ.**

Fətəli şah bayatını eşidib, bərk tutulur, incik halda üzünü Ağabəyim ağaya tutub soruşur:

- Bəyim, Tehranda sənin nəyin əskikdir, nəyin çatışmır? Şükür Allaha, topdağıtmaz sarayın, qulluqçuların, bağ-bağatın, mənim kimi ərin, daha nəyin, nəyin?!

Ağabəyim ağa şahın xətrinə dəydiyini hiss eləyib, onun könlünü almaq üçün deyir:

- Şahim, mən elə demədim, istəyirsiniz təkrar edim, qulaq asın, – deyə bayatını başqa şəklə salaraq deyir:

**Mən aşiqəm, Qarabağ,**
**Şəki, Şirvan, Qarabağ.**
**Tehran cənnətə döndü,**
**Yaddan çıxdı Qarabağ.**

Bu sətirlərin ani olaraq düşünülüb dilə gətirilməsi bir daha onun dərin zəkasının təzahürünü göstərir.

Yad bir diyarda ömür-gün sürən Ağabəyim ağa Fətəli şahdan xahiş edir ki, Tehranda elə bir bağ saldırsın ki, Şuşada bitən bütün ağac, meyvə, gül kolları bu bağda bitmiş olsun. Ağabəyim ağa bununla da doğma yerlərin ab-havasını, qoxusunu bu bağdan almaq istəyirmiş. Onun xahişi uca tutulur, belə bir bağ salınır. Ağabəyim ağa bağbanı da Şuşadan gətizdirir və bağın adını "Vətən bağı" qoyur. Burda özünə təkcə Şuşa torpağını vətən seçmiş xarı bülbüldən savayı, bütün ağaclar, güllər bitir. Gülün bağda bitməməsinə məyus olan şair kədərli bir şeir də yazır:

**"Vətən bağı" al-əlvandır,**
**Yox içində xarı bülbül.**
**Nədən hər yerin əlvandır,**
**Köksün altı sarı, bülbül.**

**Bülbül, sənin işin qandır,**
**Aşiqlər odlara yandı.**
**Nədən hər yerin əlvandır,**
**Köksün altı sarı, bülbül.**

Qərib yerdə yazılmış el-oba həsrətli, sızıltılı bu şeir az bir vaxtda ürəkl ərə yol tapdı, kök sal ıb yaşadı. Xalq bu sözlərə nəğmə qoşdu, şer ağızdan-ağıza keçib, dildən-dilə düşərək şair ruhunu, xalq ruhunu yaşada-yaşada bugünümüzə gəlib-çıxdı. Naməlum müəllifin şeirə bəstələdiyi bu mahnını Ağabəyim ağanın kədərli həyatı barədə musiqili hekayət də adlandırmaq olar.

Ağabəyim ağa öz fitri istedadı, ağlı, dərin zəkası, biliyi, geniş məlumatı, hazırcavablığı, gözəl tərbiyəsi ilə ölkədə, xüsusilə də, saray əhli arasında böyük hörmət-izzət sahibi olmuşdu. O, İranın ictimai-siyasi, mədəni həyatında çox fəal iştirak edirdi. Fətəli şah çox vaxt dövlət əhəmiyyətli müəyyən məsələlərdə Ağabəyim ağanın da fikirlərini nəzərə alır və onunla hesablaşırdı. Ağabəyim ağa Fətəli şahın bəzən məktublaşma, danışıqlar aparılması istiqamətində də ona yardımçı olurdu. Həmçinin Ağabəyim ağa dustaqların zindandan azad olunması, əsirlərin buraxılması, ölüm hökmü ilə məhkum edilmişlərin əfv olunmasına da şaha təsir etməklə nail olurdu.

Mənbələr göstərir ki, Ağabəyim ağa fransız dilində avropalılarla sərbəst danışmış, dövrün bir sıra şəxsiyyətləri ilə məktublaşmışdır. Ağabəyim ağa çox az müddətdə o vaxtlar Avropada aparıcı dillərdən sayılan fransız dilini də öyrənmiş, xarici ölkələrin xanımlarından özünə yaxın rəfiqələr tapmış, görkəmli şəxsiyyətlərlə tanış olmuşdu. Və onlarla da məktublaşır, müntəzəm əlaqə saxlayırdı. 1811-ci ildə o, Fransa imperatorunun arvadı ilə görüşmüş, onun vasitəsilə imperator Napoleon Bonaparta məktub göndərmişdi. Ağabəyim ağaya Qarabağı çox sevən, öz torpağının həsrəti ilə yaşayan, ermənilərin xəyanətinə nifrət edən bir ictimaiyyətçi də demək olar. Digər bir mənbənin yazdığı kimi, İrəvan xanı “Sarı Aslan” ləqəbli Həsən xana da Ağabəyim ağa köməkçi olmuş, onu əsirlikdən qurtarmışdı. Ağabəyim ağa günahsız yerə tutulan adamların həbsdən azad olunmasında, ölüm cəzasına məhkum edilənlərin əfvində də böyük rol oynayır, kasıb-kusubu, həyatda bəxti gətirməyənləri sevindirməyə çalışırdı. Qan tökməyə, insanları gözü yaşlı qoymağa nifrət eləyən sülh carçısı 1804-1813-cü illərdəki birinci rus-İran müharibəsi başlananda atası İbrahimxəlil xanla Fətəli şahı barışdırmağa böyük səy göstərmiş və qismən də olsa, buna nail ola bilmiş, sonralar, yəni, 1813-cü ildə rus-İran müharibəsinin sülhlə başa çatmasında müəyyən rolu olmuşdur. O, müharibənin tezliklə qurtarmasını arzulayırdı. Çünki bir tərəfdən doğma yurdu Qarabağ torpağı müharibə meydanına

çevrilmişdi, digər tərəfdən isə minlərlə həmyerlisi həlak olurdu. Ona görə də o, həmişə rus-İran münasibətlərinin yaxşılaşmasına çalışırdı. Bütün bu sülhsevər keyfiyyətlərinə görə rus çariçası Ağabəyim ağaya göndərdiyi məktubunda yazırdı: ***“Ey bəyim, Siz öz müdrikliyinizlə mərhəmətli şahın Zöhrəsi, tale ulduzu oldunuz***

İranın rəsmi “məlaikə”si, yəni, “əvvəlinci xanımı” titulunu qazanan və bu adı bütün ömrü boyu şərəflə daşıyan Ağabəyim ağa Fətəli şahın göstərişi ilə xarici ölkələrdən gələn rəsmi nümayəndələrə və qonaqlara bu cür təqdim olunurdu. Tehrandakı səfirlərin və diplomatların xanımlarını qarşılayıb yerləşdirmək, dost dövlətlərin imperatriçələrinə məktub yazmaq və təbriknamələr göndərmək vəzifəsi də bilavasitə onun öhdəsinə düşürdü. Ümumiyyətlə, Ağabəyim ağa İrana gələn xarici ölkə səfirlərinin nəzər-diqqətini dərhal cəlb edirdi. 1811-ci ildə İngiltərənin İrana yeni təyin olunmuş fövqəladə səfiri ser Qor Özli və onun arvadı Fətəli şaha səfirliyin məktubunu təqdim edərkən Ağabəyim ağa ilə də görüşmüşdülər. Görkəmli İran yazıçısı Şadrəvan Abbas Xəlili bu görüşü son dərəcə maraqla təsvir etmişdir. Onun qeydlərini oxucularımıza çatdırmaq elə bilirik ki, bu yazının təsir gücünü daha da artırar.

İki il Tehran yaxınlığında yaşayandan sonra Ağabəyim ağa bəzi Qacar şahzadələrinin vasitəçiliyi ilə Fətəli şaha sifariş göndərdi ki, madam, sən mənə bacı gözü ilə baxırsan, onda qoy sənin hərəmxananda yox, başqa bir yerdə yaşayım. Fətəli şah da onun arzusunu yerinə yetirib, müqəddəs dini mərkəz hesab olunan Qum şəhərində onun üçün gözəl bir saray tikdirdi. Ağabəyim ağa xidmətçilərini və nökər-naibini də götürüb, ora getdi və ömrünün sönunadək bu şəhərdə yaşadı. Fətəli şah bu “ərköyün” qarabağlı qızının daha yaxşı, daha təmtəraqlı yaşaması üçün ətraf yerlərin gəlirindən ona böyük bir məbləğ də ayırdı.

Həmin dövrdə birinci ingilis səfirinin xanımı İranın məlaikəsini görmək üçün Fətəli şahın sarayına gedib. Fətəli şahın bir neçə kəbinli arvadı olduğu halda, səltənət şurası üzvləri onunla məhz Böyük xanımın görüşməsini məsləhət bilib. Bu, İbrahimxəlil xan Cavanşirin qızı idi ki, o, “məlaikə” adı ilə tanınırdı.

Hacı İbrahim xanın oğlu Hacı Mirzəni bu işin icrası üçün seçildiyindən bir dəstə ilə səfirin xanımını qarşılamaq üçün getdi... Hərəmxanaya çatdıqda ingilis xanımı özü atdan düşdü. Orda tərtibat belə idi ki, şah səfiri qarşıladığı kimi məlaikə də onun xanımını qarşılamalı idi. Sonra sədr-əzəmin xanımı əvvəlcə ayağa durub, səfirin xanımını qarşılamağa getdi.

Hacı Əlirza hədiyyəni özü götürüb, məlaikənin yanına qoydu və ordan uzaqlaşdı. Səfirin xanımı bu görüşdən məmnunluğunu belə ifadə edib: ***"Xoş o şahənşahın halına ki, onun belə həmsəri var... Mən çalışırdım ki, sizə ən yaxşı yadigar gətirim. Fikrimə bu gəldi ki, bu şəkil qabını sizə təqdim eləyim".*** Qab cəvahirə tutulmuşdu və son dərəcə nəfis idi. O, əli ilə qabı götürüb, məlaikəyə verərək dedi: ***"Bu hədiyyə çox kiçikdir. Mən sizi görməmişdən qabaq inanırdım ki, iran məlakəsi gözəl olmalıdır ki, şahın həmsəri ola bilsin. Elə ki, sizi gördüm, başa düşdüm ki, mənim təsəvvür və fikirlərim sizin gözəlliyiniz qarşısında çox zəifdir***İran məlaikəsi də öz növbəsində, səfirin xanımına qiymətli qaş-daşlarla bəzədilmiş xeyli hədiyyələr verdi. Rəsmi təqdimat və hədiyyə təqdimatından sonra görüşlər başlandı. Məşhur rus səyyahı P.Kovalevski özünün "Gürcüstan haqqında qeydlər"ində yazır ki, 1814-cü ildə İngiltərə kralı I Georq İrana səfər edərkən Ağabəyim ağanın görüşünə getmiş və o da əcnəbi qonağı yüksək ədəb və nəzakətlə qarşılamışdı. Bu görüş kralda unudulmaz təəssürat yaratmış və o, Ağabəyim ağanı yüksək dərəcədə mükafatlandırmışdı.

Ömrünün sonuna kimi bakirə qalan Ağabəyim ağanın təbii ki, övladı da yox idi. O, Fətəli şahın iyirmi yeddinci oğlu Keykavus Mirzəni və otuzuncu qızı Məsrə xanımı rəsmi şəkildə övladlığa götürdü. Sonra isə bacısı qızını Keykavus Mirzəyə verdi, Məsrə xanımı isə qardaşı Əbülfət xanın oğlu Abbasqulu Mötəmüddövləyə aldı.

Ağıllı, tədbirli, zəkalı, diplomat bir qadın olmaqla yanaşı, Ağabəyim ağa həm də incə təbli, şirin zövqlü bir şair idi. Hər iki dildə – həm azərbaycanca, həm də farsca "Ağabacı" və "Məluli" təxəllüsləri ilə bədii cəhətdən qüvvətli, lirik, aşiqanə, həm də eyni zamanda Vətən həsrətli, Vətən nisgilli şerlər yazırdı. Onun

poeziyasının canını Vətən sevgisi, ayrılıq əzabı, uğursuz ailə həyatı, acı tale təşkil edir, şeirlərində saf arzular, diləklər tərənnüm olunurdu. Ağabəyim ağa Ağabacı İranda yaşadığı vaxtlarda fars ədəbiyyatı öz çiçəklənmə, tərəqqi dövrünə qədəm qoymuşdu. O da bu inkişaf prosesindən geri qalmır, tez-tez ədəbi məclislərə gedir, şeirləri ilə çıxış edirdi.

Ağabəyim ağa öz sarayında tez-tez poeziya məclisləri keçirirdi və özü də bu ədəbi yığıncaqlarda pərdə arxasında oturub, müzakirələrdə fəal iştirak edirdi. Ağabəyim ağanın sarayda özünün xüsusi iş otağı, katibi, Məlik bəy adlı vəziri, xeyli qulluqçusu və xidmətçisi vardı. O, dünya malından qəni olsa da, həyatı, yaşayışı nisgilli və kədərli keçirdi. Və nəhayət, bu üzücü həyat əlli yaşında Ağabəyim ağa Cavanşiri xalqına çox gördü (1782-1832). O, xanədan sahiblərinə məxsus qəbristanlıqda dəfn olundu. Onun həyat və yaradıcılığı indiyə qədər arayıb-araşdırılmayıb, toplanılıb çap edilməyib. Şairin bir neçə şeri və beyti ağızdan-ağıza keçərək və bəzi mənbələr sayəsində bugünümüzə qədər gəlib-çatıbdı:

***O kəs bəxtəvərdir ki, xoşbəxtdir ki, ey canan,***
***Özünə mənzil salıb yaxın yerdə bağından.***

***Sənin o gül bağçanın ətirlidir havası,***
***Mənim də bu könlümün yalnız odur davası.***

***O səfərə çıxanda mən qüssəyə dalaram,***
***Dəvəsinin boynunda özüm bir zəng olaram.***

Ağabəyim ağa 1832-ci ildə Tehranda vəfat edib və Qum şəhərində dəfn olunub. O, ömrü boyu Qarabağ həsrəti ilə yaşayıb və bu həsrəti məşhur bayatısında da yaşadıb:

***Əzizinəm Qarabağ,***
***Şəki, Şirvan, Qarabağ,***
***Tehran cənnətə dönsə,***
***Yaddan çıxmaz Qarabağ.***



***Qasım bəy Zakir,***
***şair***

Qasım bəy Zakir 1784-cü ildə Şuşa şəhərində doğulmuşdur. O, Qarabağda məşhur olan Cavanşirlər nəslindəndir.

Zakir ilk təhsilini Şuşada mollaxanada almış, ərəb, fars dillərini öyrənmişdir. Bu dilləri bilməsi ona Yaxın Şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi məşhur söz ustalarının əsərləri ilə tanış olmaq imkanı vermişdir. Şairin yeniyetməliyi və gəncliyi Qarabağda baş vermiş gərgin siyasi-hərbi hadisələr dövrünə təsadüf edir.

Zakirin satiraları əsas etibarı ilə çar hakimləri və çarizmin müstəmləkəçi qanun və qaydaları əleyhinə çevrilmişdir. Zakirin satirasında ən amansız tənqid olunanlar gücsüzlərin və acizlərin hüquqlarını tapdalayanlardır.

Qasım bəy Zakirin müxtəlif mövzularda yazılan "Məlikza- də və Şahsənəm", "Əmirzadə, məşuq və cavan aşiq", "Aşiqin təam bişirməyi", "Aşiq və məşuq haqqında", "Zövci-axər", "Tərlan və elçi", "Dəvəsi itən kəs", "Dərviş ilə qız", "Həyasız dərviş", "Əxl aqsız qazi", "Xalqa vəz deyən, özü fisqü – fücurdan çıxan biəməl alim" kimi mənzum hekayələri var.

Zakirin mənzum hekayələrində məhəbbət insanın ülvi və nəcib hissi kimi təsvir olunur. Realist yaradıcılığında təmsillərinin əhəmiyyəti müstəsnadır. Onun nəşr olunmuş :"Əsərləri"ndə: "Asl an, Qurd və Çaqqal", "Dəvə və Eşşək", "Tülkü və Qurd", "Xain yoldaşlar haqqında", "İlan, Dəvə, Tısbağa", "Tülkü və Şir",

“Sədaqətli dostlar haqqında”, “Tısbağa, Qarğa, Kəsəyən, Ahu” təmsillərində dövrünün ictimai-siyasi məsələlərini əks etdirirdi.

Zakir təmsillərini yazarkən, birinci növbədə, şifahi xalq yaradıcılığında geniş yayılan nağıllardan və məşhur hind abidəsi “Kəlilə və Dimnə” əsərindən, həmçinin klassik poeziyadakı təmsillərdən, Nizami, Cəlaləddin Rumi, Füzuli təmsillərindən də istifadə etmişdir.

Qasım bəy Zakir 1857-ci ildə Şuşada vəfat etmiş və Mirzə Həsən qəbiristanlığında dəfn olunmuşdur.

***Cəfərqulu xan Cavanşir(Nəva), general-mayor, şair.***



Cəfərqulu xan Cavanşir 1787-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Saray təlim-tərbiyəsi almışdı. Lələsi Səfərəli bəy Əli bəy oğlu Kəbirli idi.
Atası Məhəmmədhəsən ağa Cavanşir Qarabağ xanlığının vəliəhdi olduğundan babasından sonra hakimiyyətə keçəcəyini güman edirdi.

Mirzə Fətəli Axundzadəyə görə İbrahimxəlil xanın ruslar tərəfindən öldürülməsindən sonra onun yerinə Qarabağ xanlığına ən real namizəd 19 yaşlı nəvəsi Cəfərqulu ağa imiş. Lakin İbrahimxəlil xanın ikinci oğlu Mehdiqulu ağa Tiflisdə – qraf Qudoviçin sərəncamında olan Cəfərqulu xan Xoyski ilə gizli danışıqlar aparır və özünün xan təyin ediləcəyi təqdirdə Cənubi Qafqaz gözəli hesab edilən bacısı Gövhər ağanı ona – 60 yaşlı Cəfərqulu xana ərə verəcəyini bildirir. Cəfərqulu xan Xoyski isə Gövhər ağanın gözəlliyinə görə bu təklifdən boyun qaçıra bilmir və qraf Qudoviçi Mehdiqulu xanı xan təyin etməyə razı salır.

Mehdiqulu xan Cavanşir taxta əyləşəndən sonra Cəfərqulu xan ona qarşı mübarizəyə başladı. Lakin uduzub, Sibirə sürgün olundu.

Sürgündən dönəndən sonra artıq xanlıq yox idi. O, Qarabağ atlı alayının komandiri oldu. Cəfərqulu xan comərd, alicənab bir şəxsiyyət idi. Sözçüləri, sənətkarları özünə dost tutardı. Süfrə açanda ətrafına alimlər, aydınlar əyləşərdi.

Cəfərqulu xan 1867-ci ildə vəfat edib. Ailə gorgahları olan İmarətdə dəfn olunub.



***Abbas Mirzə, dövlət xadimi, vəliəhd.***

Şuşanın işğaldan azad edilməsi uğrunda vuruşan Abbas Mirzə Fətəli şah oğlu (anası Asiyabəyim xanım Fətəli xan qızı Dəvəli) 1788-ci ildə Larican mahalının Nəva qəsəbəsində anadan olmuşdur. Mükəmməl ailə təlim-tərbiyəsi və təhsili almışdır. Ağa Məhəmməd şahın göstərişi ilə vəliəhd seçilmişdi. Naibüssəltənə ləqəbi daşıyırdı. Abbas Mirzə dörd yaşında ikən bilinməz xəstəliyə tutulmuşdu. Onun müalicəsi üçün atasının əmisi Ağa Məhəmməd şah ölkənin dörd bir tərəfindən məşhur həkimləri saraya dəvət etmişdi. Həkimlər onun xəstəliyinin çarəsini tapa bilmədilər. Şahzadə idman və bədən tərbiyəsinin köməyi ilə yeniyetmə yaşında xəstəliyini dəf etdi. Ancaq 30 yaşından sonra əsəbi gərginlik, psixoloji durğunluq onu yenidən əski xəstəliyinə qaytardı.

Abbas Mirzə 1799-cu ildən Cənubi Azərbaycanın, 1831-ci ildən Kirmanın və Xorasanın valisi olmuşdu.

Abbas Mirzə hələ uşaq yaşında ikən, Quba xanı Fətəli xan onu Bakıya gətirmiş və təlim-tərbiyəsi ilə məşğul olmuşdu. Uşaqlıq dövrünü Bakıda – Fətəli xanın himayəsi altında keçirən Abbas Mirzə İran taxtına Fətəli xanın hazırladığı namizədi idi. Hətta Fətəli xan onu İrana aparıb, şah elan etmək fikrinə də düşmüşdü.

Gürcüstanın birləşdirilməsi, Gəncənin tutulması və Rusiyanın getdikcə Azərbaycanın içərilərinə doğru irəliləməsi İranı qəti tədbir görməyə məcbur etdi. 1804-cü ilin mayında İran rus qoşunlarının Transqafqazdan çıxarılmasını tələb etdi. Rusiya bu tələbi rədd etdi və 1804-cü il iyunun 16-da savaş başlandı.

Cənubi Azərbaycan hakimi şahzadə Abbas Mirzənin 50 minlik ordu ilə İrəvana yaxınlaşması Sisianov üçün gözlənilməz olmadı. O, bütün qışı qoşun hazırlamaq və səfər tədarükü görməklə keçirmişdi. İrəvan hakimi Məhəmməd xanın onu "vaxt itirmədən" İrəvana çağırması nəzərə alındı, 1804-cü il iyunun sonunda 3600 piyada, 3 eskadron atlı və 300 kazakdan ibarət olan rus qoşunu 12 top ilə artıq İrəvan yaxınlığında idi. Üçkilsə (Eçmiədzin) və Qəmərlidə olan ilk döyüşlərdə Sisianov üstünlük qazandı. İrəvan şəhərini mühasirəyə aldı. Gənc oğlunun (Mirzə Adıgözəl bəy Abbas Mirzəni bu zaman "kiçik bir uşaq" adlandırır) uğursuzluğunu eşidən Fətəli şah özü də bura gəldi və rus əsgərləri geri çəkildilər.

1805-ci il mayın 14-də İbrahimxəlil xan Cavanşir mövcud şəraitlə əlaqədar olaraq Rusiyanın hakimiyyətini qəbul etdi. Bu xəbər tezliklə Fətəli şahın qulağına çatdı.

Bir tarixi mənbədə yazılır ki, Abbas Mirzənin göstərişilə ismayıl bəy öz qoşunu ilə daha tez Araz çayına tərəf irəl il ədi. ismayıl bəy qabaqdan döyüşə girdi və az qalmışdı ki, məğlub olsun. Lakin Abbas Mirzənin gəlişi ilə İran qoşunları onları qovdu. Bu döyüş Cəbrayıllı bağlarında baş verdi və axşamçağı Məhəmmədhəsən ağa Şuşaya qayıtdı.

Tarixçi Mirzə Rəşid Ədibəşşüara bu yürüş haqqında yazır: ***"Urmiya hakimi Hüseynqulu xan Qasımlı Avşar qoşununun başında, ismayıl xan Qacarla Gəncə və Tiflis yürüşlərinə qatılmışdı. Abbas Mirzə onlara əmr vermişdi ki, Gəncəni alandan sonra Tiflisə yollanıb oranı qaydaya salsınlar.***

***Rus komandanı Şaft Tiflis şəhərində əyləşib, iran qoşunlarına qarşı təxribat yaradırdı. Hüseynqulu xangil Tiflis şəhərinin iki mənçilliyinə çatırlar. Bu qoşunun hərbi taktikası və strategiyası Əsgər xan və qardaşı Əbdüssəməd xan tərəfindən tətbiq olunurdu.***

***Onlar qoşunu yoxlayıb sahman yaratdılar. Avşar qoşunu hücum edib, rus qoşunlarını darmadağın etdi. Rus toplarını ələ keçirib, öncə Gəncəyə, Gəncədən İrəvana, oradan da irana apardılar".***

Əbülfət xan Tuti qonşu Çulundur, Qapanat, Bərgüşad mahallarını ələ keçirib, Dizaq mahalına girdi. Dizaq mahalının Qızılqışlaq kəndində düşərgə qurdu. Bütün ətraf mahalların adlı-sanlı adamları, el-oymaq camaatı Əbülfət xanın başına yığıldı. Hacılı camaatının bəyləri və əhalisi də onun yanına toplandı. Tarixçi Mir Mehdi Xəzani yazır: ***"Həmin vaxt idi ki, Əbülfət xan gəlib, Tuğ kəndinin iki ağaclığında Qızılqışlaq mənzilinə varid olmuşdu. Yanında külli və çox olan cəmiyyət və qoşun ki, o vaxtda məcmu, Qapan və Bərgüşad və Dizaq mahallarının kəndlərinin əhli və Dizaq-Cavanşir və Hacılı xalqı və hətta Cəbrayıllı bəyləri və əhliləri tamam ehtiyat və xofdan ki, məbada Əbülfət xan çapıb və qarət edə məcmusu onun yanında idilər".***

İbrahimxəlil xanın oğlanları Məhəmmədhəsən ağa və Mehdiqulu ağanın başçılığı ilə Qarabağ qoşunları Əbülfət xanın üzərinə hücuma keçirlər. Xanın yan-yörəsinə yığılan qarabağlılar dağılırlar.

Fətəli şah bu məğlubiyyətdən sonra İbrahimxəlil xanla aranı düzəltmək üçün məiyyətindən Kərim xanı və Abdulla xanı İbrahimxəlil xanın yanına göndərdi. Onlara verdiyi məktubda yazırdı ki, rusları Şuşa qalasına buraxmasın. Xudafərin körpüsünün mühafizəsini onlara tapşırmasın. Tərnəküt və Əskəran qalalarını İran qoşunlarına öz xərci ilə versin. Bundan əlavə, oğlu Abbas Mirzəni böyük qoşunla ona köməyə göndərər ki, bütün qonşu xanlıqları alıb, öz torpağına qatar və Qarabağdan qaçan oba və kənd camaatlarını yerlərinə qaytarıb, ölkəsini abadlaşdırar. Daha bu kimi vədlərlə İbrahimxəlil xanı öz tərəfinə çəkmək istəyirdi. İbrahimxəlil xan elçilərə bildirdi ki, mən Rusiyanın himayəsini qəbul etməmişəm. Yalnız böyük dövlətin nümayəndəsinə hörmət və ehtiramımı bildirmişəm.

Fətəli şah yenidən İbrahimxəlil xanın yanına elçilər göndərdi. Elçilər Kərim xan, Abdull a xan və Rəhim xan idil ər. Onların

gətirdiyi məktubun məzmunu keçən dəfəkinin eyni idi. Şah vədini bir az artırıb, quran və qəsəmlə möhkəmləndirmişdi.

İbrahimxəlil xan elçiləri buraxmayıb, qalada gözdustağı saxladı. Az sonra həmin adamları Sisianova təslim etdi. Fətəli şah Qarabağın rusların əlinə keçməsinə tablamayıb, oğlu Abbas Mirzəyə savaş əmrini verdi. Abbas Mirzə xeyli qoşunla 1806-cı ildə Qarabağa girib savaşa başladı. Mehdiqulu xan rus generalı P.F.Nebolsinlə görüşüb savunmanı təşkil elədi. Abbas Mirzə ilk çarpışmada uğur qazansa da, getdikcə qızışan döyüşdə basılıb geri çəkildi.

Tarixçi Əminə Pakrəvan yazır: ***"Şah baharın sonlarında təkrar Sultaniyyəyə, Abbas Mirzə isə yeni görəvləri ilə Qarabağa gəldi. Bu dəfəki səfərində Azərbaycanın digər yerlərini də görsün deyə, yolunu Qaradağdan saldı. Xudafərin körpüsündən keçərək Qarabağa vardı. Abbas Mirzə hər şeydən öncə, əski İrəvan xanı kimi onu rahatsız edən bir xanla hesablaşmaq fikrində idi.***

***Ruslarla iş birliyi içində olan İbrahimxəlil xan Cavanşirin rəftarı onu rahatsız etməkdə idi. İbrahim xan Qarabağda əsgəri birlik toplayaraq kiçik bir ordu düzəltmiş və ruslardan da yardım istəmişdi. Amma ruslar ona tam kömək verməmiş, sadəcə, neçə yüz eyitilmiş, ancaq kazak olmayan süvarilərlə onun istəyinə cavab vermişdi.***

***Rusların eyitilmiş əsgəri birliklərinə kazak deyirdilər. Ancaq rusların kazaklardan başqa tam eyitilməmiş birlikləri də var idi. İbrahimxəlil xan Cavanşirin oğlu bu birliklərin başını çəkirdi. O, Abbas Mirzənin yolunu Xudafərindən keçərkən kəsib, onunla savaşmaq istəyirdi. Abbas Mirzə Xudafərin körpüsündən keçər-keçməz savaş başladı. Ancaq Abbas Mirzə bu zəif ordunu dərhal məğlub edib, dağıtdı. Bu zəif birlik dağıldıqdan sonra Abbas Mirzə öz ordusunu iki sütun şəklində Şuşaya doğru yönləndirdi. Bu on il sürən savaş sürəsincə və sonralar da bütün savaş yolları Şuşadan keçir və bəzən də Gəncəyə yönəlirdi. Bu savaş da bir irəliləyiş olmadan davam edirdi. Yəni, ormanlığın içində pusquya durub və uyğun zamanlarda qarşı tərəfə zərbə endirilirdi".***

1806-cı ildə Fətəli şah İbrahimxəlil xanın oğlu, İrana tabe olan Mehri mahalının başçısı Əbülfət xanı 5 min nəfərlik qoşunla

Qarabağa göndərdi. Əbülfət xanın yeznəsi Fərəculla xan Şahsevənlini də ona yardımçı təyin etdi. İranın adlı-sanlı sərkərdələri, o cümlədən, qəzvinli sərdar Hüseynəli xan Qacar, Damğanlı ismayıl xan, Xəmsəli (Zəncanlı) Əmənulla xan Avşar və başqaları Əbülfət xanın başçılığı altında idi. Onlar Qarabağa çatanda artıq ruslar İbrahimxəlil xanı öldürmüşdülər. Əbülfət xan Cavanşir məsələdən xəbərdar olub, öldürülmüş insanların parçalarını kəfənə tutub, dəfn etdirdikdən sonra buranın rəhbərliyini Mehdiqulu xanın öhdəsinə qoyub, özü qalan başçılarla naibüssəltənənin yanına tələsdi. O, şahzadəni ruslar tərəfindən törədilmiş bu faciəli əməldən xəbərdar etdi.

Abbas Mirzə Şuşa qalasına tərəf irəlilədi. Sisianov əvvəlcədən Tiflisdən kömək istəmişdi. General, qraf ivan Vasilyeviç Qudoviç Qafqaz rus qoşunlarının komandanı general Nebolsini Sisianova köməyə göndərdi.

İran tarixçiləri yazırlar ki, Abbas Mirzə Şuşaya tərəf gedərkən İbrahimxəlil xan öləndən sonra pis vəziyyətdə güzəran keçirən Qarabağın əksər elatı xahiş etdi ki, onların arzusunu nəzərə alıb, Qarabağa köçürsünlər.

Rzaqulu xan Hidayət "Rövzətül-səfa"da bu barədə yazır: ***"Gizli qalmasın ki, şahzadə naibüssəltənə Həsən və Hüseyn bulağı üstündə dayanarkən təsadüfən baş vermiş hadisələrdən biri Qarabağın xoşbəxt şəhidi, mərhum Ibrahimxəlil xanın oğlu Əbülfət xan tərəfindən elatın köçürülməsi üstündə Rusiya ilə Qarabağ arasında baş verən müharibə idi.***

***Hadisənin icmalı budur ki, Qarabağ elatını köçürmək üçün getmiş Ətaulla xan Şahsevən elat hərəkət etdikdən sonra Əbülfət xanla onları Irana gətirirdilər. Cəbrayıllı tayfasından birisini gizli yanlarına çağırdılar, çətin keçilən Qapan mahalına çatdılar. Gündüz saat ikidən gün batana kimi şiddətli döyüşlər getdi, tüfəngçilərin barıt-qırması qurtardı və onlar məğlub oldular. Elə ki, naibüssəltənə Nəvvab bundan xəbər tutdu, Ismayıl xan və Həsən xan sərdarı ora göndərib, özü də Qapandan Aslandüz yolu ilə aslanları yandıran şir kimi, yola düşdü. Bu dəhşətli xəbər rus***

***generalının ürəyini sıxdı və kiçik bir dəstəni Pənahabad qalasına göndərib, özü isə Gəncəyə tərəf yollandı."***

1809-cu ilin baharında şahzadə Abbas Mirzə Gülənbər çəmənində dayanarkən mərhum İbrahimxəlil xan Qarabağinin oğlu Əbülfət xanı öz başının adamları ilə Qarabağ elatına, Qapan və Mehriyə göndərdi ki, onları itaətə gətirsin. Bir qrup Şahsevən atlılarını ayırdılar ki, Bakı ətrafına gedib ruslardan bir xəbər gətirsinlər. Onlar gecə qəflətən ruslarla qarşılaşdılar, igidliklə vuruşub, bütün rus qoşunlarını qıraraq onların başlarını kəsib şah sarayına göndərdilər. Onlar şaha layiq ənam aldılar.

1811-ci ildə Abbas Mirzə yenidən Qarabağa dava açdı. Qırçı qışlağında rusların bir taqımını dağıdıb Qarabağa girdi. Mehdiqulu xan savunmaya qalxdısa da, rus qoşun başçıları xanın savaşa qatılmasına icazə vermədilər. Fürsətdən istifadə edən Abbas Mirzə Qarabağ ellərinin çoxunu İrana, Qaradağ vilayətinə köçürdü.

General P.F.Nebolsin Şuşaya gəlib, Mehdiqulu xanı taqımın dağıdılmasıyla bağlı suçladı. Mehdiqulu xan müəyyən sənədlər təqdim edib, özünü duruya çıxardı.

1811-ci il sentyabrın 22-də rus qoşunlarının komandanı, general Pauluççi Qafqaza daxil oldu. Bu zaman Qarabağ yaxşı vəziyyətdə deyildi. Elat narahat idi və Qarabağ xanlığının hakimi Mehdiqulu xan Cavanşirin qardaşı oğlu Cəfərqulu xanla ixtilafı var idi. Çünki o, özünü Qarabağın həqiqi xanı hesab edirdi. Digər tərəfdən, İran sərdarları Qarabağı çapıb talayırdılar. Qaradağ hakimi Hacı Məhəmməd xan Mustoufi öz məmurlarını Gəncə və Qarabağa göndərib rus komandirlərinin bir-birinə yazdıqları məktubları ələ keçirdi. O, Qaradağa mühacirət etmiş Qarabağın Imirli tayfasından olan bir neçə nəfərə tapşırdı ki, Şuşa qalasında olan sursat anbarlarını yandırsınlar. Onlar gecə vaxtı xəlvətcə Şuşaya çatdılar və sursat anbarı, ələf anbarı və bir neçə evi yandırdıl ar. Rusl ar be 1 ə güman etdilər ki, bu iş Mehdiqulu xan vasitəsilə həyata keçirilib. Şuşa şəhərinin əhalisi üsyana qalxdı və bu səbəbdən qalanı topa tutdular.

1813-cü ildə ruslarla iranlılar arasında barış imzalandı. Mehdiqulu xan asudə nəfəs alıb, arxayınlıqla idarə işlərinə

başlamaq istədikdə ruslar yenidən ona imkan vermədilər. Hər cür siyasətlə onun idarəsini məhdudlaşdırdılar.

Tarixçi Əminə Pakrəvan yazır: ***““Rusların ən önəmli gücləri Arazın üç ağaclığında yerləşən Kərsi (Qırcı) adında bir yerdə idi. Rusların iki alayı temmuz ayında kəşfiyyat xarakterli əməliyyata başladı. Onlar bütün Qarabağda partizan savaşları edən birimlərlə qarşılaşacaqlarını sanırdılar, lakin qarşılarında Azərbaycan ordusunu gördülər.***

***Azərbaycan ordusu olduğunu da topların səsindən anladılar. Bu şəkildə səliqəli top savaşı və intizamlı ordu bütün Qacariyyədə Azərbaycan ordusuna məxsus idi. Bunlar Abbas Mirzənin ordudakı refor malarının və modernizasiy onunun ürünü idi.***

***Azərbaycan ordusunun topxanası düşmənin irtibat sistemini pozmuş və arxadan gələn yardımı əngəlləmişdi. Azərbaycan topxanası düşmənin arxa cəbhəsindəki hədəfləri atəş altına almışdı. Bu da rus piyadaları ilə savaşda üstünlüyün Azərbaycan ordusunda olmasını saxlamaqda idi. Digər şahzadələr də Fətəli şahın komandanlığı altında müxtəlif yerlərdə savaşa başlamışdılar. Azərbaycan ordusu irəliləməyə başladı. Abbas Mirzə əmr etmişdi ki, əsirlərlə pis davranılmasın. Lakin bir neçə Azərbaycan ordusu mənsubları həyəcana qapılıb rusların başını kəsmişdilər. Abbas Mirzə qəti şəkildə bildirdi ki, bundan sonra kim əsir başı kəsəcək olsa, güllələnəcək. Eyni gün min rus əsgəri əsir alındı.***

***Bu savaş uzun sürmədi. Çünkü rus birlikləri də bu tərəflərdə az idi. Bu ərazilər rahat ələ keçirildi. Abbas Mirzə öz oğlanlarını da bu savaşa qatmışdı. Buna görə də sevinirdi. Çünkü onları hər zaman savaşçı olaraq görmək istəmişdi. Eyni gün bir çapar sürətlə Ərdəbilə varıb və Azərbaycan ordusunun irəliləməsi haqda şaha bilgi verdi. Abbas Mirzə əsirlərlə nə qədər xoş rəftar etsə də, onların Ərdəbilə göndərilməsini əngəlləyə bilmədi. Şah əsirlərin Ərdəbilə göndərilməsini istəmişdi və yenə də onların başları kəsilə bilərdi.***

***Abbas Mirzə rusların buraxıb, qaçdıqları iki qəbzə topu gördüyündə çox sevinmişdı. Mükəmməl imkanı olan bu topların ağzını düşmənə təraf çevirdilər ".***

Tarixçi Əminə Pakrəvan yazır: ***"Şahzadə bir tərəfdən şahın iradəsi üzrə, digər tərəfdən çevrəsinin təlqini nədəni ilə öncə Şuşaya hücum etməklə razılaşdı. Ordu Şuşaya doğru hərəkət etdi. Şuşanın mühasirəsinin uzun sürəcəyi düşünüldüyü üçün böyük sursat və ərzaq daşınmaqda idi. Heç şübhəsiz ki, bu hərəkətlilik Şuşada bulunan rus ordusunun gözündən qaçmırdı. Günlər keçdi, ancaq möhkəm qalalarla qorunan bu şəhərdəki ruslardan Azərbaycan ordusuna qarşı heç bir hərəkət və top atəşı görünmədi.***

***Şahzadə Şuşaya hücum etmək üçün tələsmirdi. Düşünürdü ki, Şuşa əhalisinin də daxildə uyğun zamanda ayaqlanması şəhərin fəthini asanlaşdıracaq. Bu səbəbdən də dayısı Əmir xan Sərdarı gözləməkdə idi. Şuşanın fəthindən sonra ona qatılacaq olan dayısının başçılığındakı Xoydan gələn ordu ilə bərabər Gəncəyə hücum etməyi planlaşdırmışdı. Böyük oğlunu səkkiz min nəfərlik piyadanın sərkərdəsi olan Əmir xanın yardımçılığına təyin etdi. iki min ordu ilə şahzadəyə qatılan Mərənd hakimi Nəzərəli xana Gəncəyə hücum etmək üçün hazır bəkləməsinə əmr etdi. Ruslardan qalmış doqquz qəbzə topun dərhal təmir edilib işləkliyinin saxlanmasını istədi".***

***Bu üç kişini önəmli postlara təyin etməsi müxtəlif səbəblər üzündən yaxşı nəticə verməyəcəkdi. Lakin bu sonuçlar haqda şahzadə öncədən təsbitdə bulunmazdı. Digər tərəfdən, tərcih ediləcək başqa güvəniləcək şəxslər yox idi.***

***Hacı Bəylərin (Ağaların) yaratdığı Şuşa əhalisinin üsyan umudu yavaş-yavaş suya düşürdü, əhalinin ayaqlanma məsələsindən heç əsər-əlamət yox idi. Şuşanın tam mühasirəsinin gerçəkləşməsi amacıyla şəhərin çevrəsində xəndək qazılmasına əmr etdi".***

Çox döyüşlər oldu, lakin Abbas Mirzə ruslara qalib gələ bilmədi və Azərbaycanın bir hissəsi Rusiyanın işğalı altında qaldı.

Abbas Mirzə 1832-ci ildə vəfat edib. Onu Məşhəddə Əli ibn Museyi-Rzanın məqbərəsinin yaxınlığında dəfn ediblər.

***Fərhad bəy,***
***hərbçi***



Fərhad bəy haqqında ətraflı məlumat əldə edə bilmədik. Böyük rus şairi Aleksandr Sergeyeviç Puşkinin qeydlərindən yalnız onu öyrəndik ki, Fərhad bəy Şuşada təxminən 1790-çı illərdə anadan olub.

Hərbi təhsil alaraq rus ordusunda zabit kimi xidmət edib. O, Rusiya- ' Türkiyə müharibəsinin iştirakçısı . olub.

Puşkin Fərhad bəyin portretini çəkib və ona şeir həsr edib. Şair "İz Qafiza" adl ı şeirinin əlyazmasında bu əsərini Fərhad bəyə həsr etdiyini yazıb. Görünür, Fərhad bəy həm igid l iyi, həm də şəx s iyyəl i ilə böyük şairin məhəbbətini qazanıbmış.

Şairin təsvirindən aşkar görünür ki, Fərhad bəy simaca gözəl imiş. Aşağıda həmin şeiri dərc edirik:

**...Uzaqlaş, vuruşma, şan-şöhrətindən**
**Sən ey gözəl cavan, ey gözəl cavan!**
**Qarabağ dəstəsi arasında sən Qanlı**
**döyüşlərə girmə, atma can!**

**Bilirəm ki, ölüm rast gəlməz sənə,**
**Qılınclar içində Əzrayıl görcək.**
**Hayıfı gələcək belə bir hüsnə,**
**Ölüm caynağından nicat verəcək.**

**Ancaq döyüş vaxtı qorxuram ki, mən**
**İtsin sadəliyin, cəld hərəkətin!**

**Sənin əbədilik çıxsın əlindən Bu gözəl camalın, abrın, ismətin.**

***Məşədi Ocaqverdi (Ocaqverdiuşağı), mirzə***

Məşədi Ocaqverdi XVIII əsrin sonlarında dünyaya gəlmiş və böyük bir sülalənin banisi olmuşdur. Gənclik illərindən mirzəliklə məşğul olmuş, kitab, sənəd üzü köçürməklə ailəsini dolandırmışdır. Şərəf adlı qadınla ailə qurmuş, iki oğlanları olmuşdur: Haqverdi və Həsən.



Böyük oğul Haqverdi 1807-ci ildə Şuşada doğulub. Mükəmməl mədrəsə təhsili alıb. Savadlı olduğuna görə ona mirzə deyirdilər. Mirzə Haqverdinin gözəl xətti vardı. O, Mehdiqulu xanın mirzəsi olmuşdu. Atası kimi kitab üzü köçürməklə məşğul olurdu.

Akademik Feyzulla Qasımzadə "Abbasqulu ağa Bakıxanov Qüdsinin şeirləri" məqaləsində yazırdı: ***"Abbasqulu ağa Bakıxanovun birinci dövrdə yazdığı mühüm əsərlərindən biri "Rəyazülqüds" əsəridir. Bu əsərin Nizami adına Dil və Ədəbiyyat institutunda kamil bir əlyazma nüsxəsi var. Bu nüsxənin üzü şairin sağlığında, 1841-ci ildə Məşədi Ocaqverdi oğlu Haqverdi Qarabaği tərəfindən köçürülüb".*** Məhəmməd Füzuli adma Əlyazmalar İnstitutunda da Mirzə Haqverdinin xətti ilə yazılmış kitablar saxlanılır.

Mirzə Haqverdi Fatmanisə ilə ailə qurmuş, Abbas, Ələkbər, Ələsgər, Qasım, Hüseyn, Səməd adlı oğlanları, Mina və Səkinə adlı qızları olmuşdur.

Abbas 1834-cü ildə Şuşada doğulmuşdur. Mədrəsə və qəza məktəblərini bitirdikdən sonra dövlət idarələrində işləmişdir. Göyçay qəzasının məhkəmə pristavı vəzifəsində çalışmışdır. Quberniya katibi, kollec qeydiyyatçısı mülki rütbələri vardı.

Mirzə Abbas bəy Şuşa ziyalılarından biri kimi tanınırdı. Onun Qasım və Xurşud adlı övladları vardı. Qasım bəy təhsil almış, Şuşa qəza idarəsində polis pristavı işləmişdi.

Xurşud xanım təhsil almış mədəni bir xanım idi. O, Dağıstanın Teymurxan-Şura şəhərində progimnaziya bitirmiş, Azərbaycan mədəniyyətinin inkişafına xidmət göstərən övladlar yetişdirmişdir. Xurşud xanım Nəcəf bəy Vəzirovun əsərlərinin oxucusu və ilk tənqidçisi olmuşdur.

Xurşud xanım Nəcəf bəy Fətəli bəy oğlu ilə ailə qurmuşdu. Şamil, Sara və Sürəyya adlı övladları olmuşdur.

Mirzə Haqverdinin ikinci oğlu Ələkbər 1836-cı ildə anadan olub. Molla dərsi alıb və ticarətlə məşğul olub. Məkkəni ziyarət edib. Hacı Ələkbərin Yusif, Hüseyn, Zeynal adlı oğlanları, Zibeydə adlı qızı olub. Yusif gənc yaşında vəfat edib. Hüseyn molladan dərs alıb, ticarətlə məşğul olub, Məşhədi ziyarət edib. O, ərəb və fars dill ərini bil irmiş. Onun saatsaz emalatxanası olub. Ağcabədidə vəfat edib. İki oğul, dörd qız atası idi.

Hacı Ələkbərin üçüncü oğlu Zeynal molladan dərs alıb. Ticarətlə məşğul olub, Xorasanı və Məşhədi ziyarət edib. Əliheydər, Rəhilə, Sara, Fatma, Qənirə, Ulduzə adlı oğul və qızları olub. Əliheydər 1949-cu ildə Bakıya gələrək ADU-nun hüquq fakültəsinə daxil olub. Bir müddət məhkəmə eksperti və kriminalisti kimi çalışıb, Mərdəkan Xüsusi Milis Məktəbində müəllim işləyib. Sonra yenidən məhkəmə ekspertizası institutuna qayıdıb. Respublikanın tanınmış ekspertlərindən biri olub. O, 1956-cı ildə Firəngiz Mütəllimova ilə ailə qurub. Niyazi və Azər adlı oğlanları olub. Niyazi uzun illərdir ki, Moskvada yaşayır, bir oğul atasıdır. Azər 2009-cu ildə vəfat edib, Nigar və Tamerlan adlı övladları var.

Qənirə Məşədi Zeynal qızı 1924-cü ildə Ağdamda dünyaya gəlib. Azərbaycan Tibb İnstitutunun pediatriya fakültəsini bitirərək Xaldanda, Qərvənddə və Ağdamda işləyib. 1962-ci ildə Bakıya köçərək 2,5 və 13 saylı uşaq poliklinikalarında pediatr kimi çalışmışdır. Əri Hilalla üç qız böyüdüb-Pərivəş, Şəfəq və Reybə. Qənirə xanım 2004-cü ildə vəfat edib.

Məşədi Zeynalın beşinci qızı Ulduzə 1931-də Ağdamda anadan olub. 1948-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olub. Universiteti başa vurandan sonra Ağdamda çıxan "Lenin yolu" qəzetində ədəbi işçi kimi çalışıb. "Azərbaycan gəncləri" qəzetində işlədiyi illərdə dünya kinosunun ulduzu Rac Kapur Bakıya gələrkən onu qarşılayanlar arasında Ulduzə Haqverdiyeva da vardı. Həyat yoldaşı hüquqşünas olduğu üçün Lənkəran, Füzuli və Şərur rayonlarına getməli olub və o, işindən ayrılıb. 1969-cu ildə Bakıya gəldikdən sonra Azərbaycan Jurnalistlər İttifaqında məsləhətçi işləmişdir. 20 il "Müxbir" jurnalında çalışdıqdan sonra 1991-ci ildə təqaüdə çıxıb. Ulduzə xanımın üç qızı var: Səadət, Kəmalə, Sevinc, dörd nəvəsi: Rəşad, Orxan, Leyla, Abbas.

Hacı Ələkbər Haqverdi Qarabağinin ikinci övladı Məşədi Züleyxa xanımdır. O, 1879-cu ildə Şuşada anadan olub. Gözəl xalçaçı və təkəlduz ustası olub. 1897-ci ildə şuşalı Heydər Axundovla ailə qurub. Dörd övladı-üç oğlu, bir qızı olub. Mahmud iqtisadçı idi, gözəl qarmon çalırdı. Xalq rəssamı Lətif Kərimov söyləyirmiş ki, Mahmud kimi qarmon çalanı ömrü boyu görməmişdir.

Göyçək evdar qadın olub, yaxşı əl qabiliyyəti vardı. O, 1994-cü ildə Amerikanın Boston şəhərində dünyasını dəyişib.

Rza şərqşünas idi. Azərbaycan radiosunda İran verilişləri şöbəsinin müdiri işləyirdi. 1945-ci ildə Məşhəddə Üzeyir bəyin "Leyli və Məcnun" operasını, "O olmasın, bu olsun" və "Arşın mal alan" operettalarmı tamaşaya qoymuşdu. 1930-cu ildə Rahilə xanımla ailə qurmuşdu. O, 1983-cü ildə Bakıda vəfat etmişdir.

Rüstəm 1914-cü ildə Şuşada anadan olub. İqtisadçı idi, 2001-ci ildə Bakıda vəfat edib. Haqqında başqa məlumat əldə edə bil mə dik.

Züleyxa xanım 1943-cü ildə Məşhəddə vəfat edib.

Məşədi Zeynal Hacı Ələkbər oğlu Haqverdiyevin övladları:

Rahilə – 1916-cı ildə Şuşada anadan olub. Bibisi oğlu Rza Axundovla ailə qurub. 4 övladı olub: Rayibə, Adil, Raqibə, Aydın. Rahilə xanım 2003-cü ildə Bakıda vəfat edib.

Sara – 1918-ci ildə Şuşada dünyaya gəlib. Səhiyyə işçisi idi. Cərrah Qurban İbrahimovla ailə qurub. Elmira və Elman adlı övladları olub. O, 2005-ci ildə Bakıda vəfat edib.

Fatma – 1922-ci ildə Ağcabədidə anadan olub. 1940-cı ildə hüquqşünas Bəbir Allahverdiyevlə ailə qurub. Üç oğul anasıdır – İntiqam, Ərəstun, Göyüş. 2006-cı ildə Bakıda vəfat edib.

Mirzə Haqverdinin üçüncü oğlu Ələsgər 1839-cu ildə Şuşada anadan olub. Molladan dərs alıb. Ticarətlə məşğul olub. Xorasanı və Məşhədi ziyarət edib.

Mirzə Ocaqverdinin üçüncü oğlu Şirin 1858-ci ildə Şuşada anadan olub, molladan dərs alıb. Ticarətlə məşğul olub.

Mirzə Haqverdinin dördüncü oğlu Qasım 1844-cü ildə dünyaya gəlib. Molladan dərs alıb. Tacirlik edib.

Mirzə Haqverdinin beşinci oğlu Hüseyn 1846-cı ildə doğulub. Molla yanında təhsil alıb. Tacirlik edib.

Ailənin altıncı oğlu Səməd 1855-ci ildə dünyaya gəlib. Molladan dərs alıb, tacirlik edib.

Səməd Yunis oğlu Haqverdiyev 1921-ci ildə anadan olub. Bakı Rəssamlıq Məktəbini bitirib. Mənzərəçi rəssam idi. 1945-ci ildə Moskvada keçirilən Ümumittifaq sərgilərində və xarici ölkələrdə əsərləri nümayiş etdirilib. Rəssam Şuşa, Şamaxı, Qəbələ, İsmayıllı, Kəlbəcər, Abşeron, Zaqatala rayonlarında yaradıcılıq ezamiyyətlərinə gedir, doğma vətənin gözəlliklərini kətan üzərinə “köçürürdü.”

1967-ci ildə Oktyabr inqilabının 50 illiyinə həsr edilmiş Ümumittifaq rəssamlıq sərgisində “Şumlanmış torpaq”, “Doğma meydanlarda”,”Sülh meydanlarında” peyzajlar silsiləsi onun şöhrəl ini daha da artırmışdı. Rəssam 1972-ci ildə “SSRİ bizim vətənimizdir” sərgisində Azərbaycan təbiətinə həsr olunmuş yeni əsəri əri ilə iştirak edib. Onun əsərləri Almaniyada, Rumıniyada və Ərəbistanda nümayiş etdirilib. O, doğma yurdu Şuşaya bir neçə silsilə peyzaj həsr edib. Bunlar “Şuşada küçə”, “Üçmıx”, “Qızıl qaya”, “Daşaltı” və “Turşsu” tablolarıdır.

***Gövhər ağa Cavanşir,***
***Ibrahimxəlil xanın qızı, xeyriyyəçi.***



Gövhərnisə ağa İbrahimxəlil xan qızı Cavanşir 1796-cı ildə Şuşada anadan olub. Gövhər ağa lələsi Əmiraslan bəydən və görkəmli alimlərdən yüksək saray təhsili aldıqdan sonra şəxsi mütaliə ilə geniş bilik qazanmış, musiqini sevmiş, dörd xarici dildə sərbəst yazıb-oxumağı öyrənmişdi.

1806-cı il iyunun 14-də İbrahimxəlil xan qəddarlıqda ad çıxarmış mayor Lisaneviçin batolyonu tərəfindən Şuşa yaxınlığında, sonradan “Xan ölən” səngər adlandırılan yerdə mühasirəyə alınaraq ailəsi ilə birlikdə öldürüldü. Möcüzə sayəsində bu qəti iamdan Gövhər ağa və onun lət əsi Əmirasi an bəy sağ çıxa bildilər. Əmiraslan bəy İbrahimxəlil xanın qızıl qəlyanını və Gövhər ağanı özü ilə götürərək xan qızının təhlükəsizliyini qorumaq üçün müəyyən müddətdə gizli bir yerdə saxladı və özü ona xidmət etdi. Qeyd edək ki, lələ Əmiraslan bəy məşhur alim və mütəfəkkir Mir Möhsün Nəvvabm ana babası idi. Uzun ili ər Gövhər ağanın təh f it i ilə məşğul oh muşdu. Təhlükə sovuşandan sonra o, Gövhər ağanı öz evinə apar dı.

Qarabağı sarsıdan bu qanlı hadisə varislər arasında böyük ixtilafa səbəb oldu. Hiyləgər Lisaneviç İbrahimxəlil xanın böyük nəvəsi Cəfərqulu ağa ilə onun əmisi Mehdiqulu ağanı qarşı-qarşıya qoydu. Halbuki Mehdiqulu ağanın əlində İbra- himxəlil xanın sağlığında verdiyi vəsiyyətnamə vardı. Mehdiqulu ağa çapar göndərib, şah Qacardan qaçıb ruslara sığınan və Tiflisdə olan xoylu Cəfərqulu xan Dünbülidən atasının taxtına çıxmaq üçün dəstək istədi, əvəzində on beş yaşlı bacısı Gövhər ağanı ona ərə verməyə söz verdi. “Qafqaz gözəl i” adını almış, Gövhər ağaya sahib olmaq üçün Cəfərqulu xan Dünbüli Qafqazdakı rus qoşunlarının komandanı qraf Qudoviçdən Mehdiqulu ağanı xan təyin etməyi xahiş etdi. Bu minvalla Mehdiqulu ağa Qarabağ xanı oldu.

Cəfərqulu xan Dünbüli çox zəngin adam idi. Çar ona general rütbəsi vermiş və o da ruslara sədaqətlə xidmət edirdi. Bir müddət sonra Cəfərqulu xan Şəkiyə hakim təyin olundu. Bir neçə ildən sonra Cəfərqulu xan öldü. Gövhər ağa onun böyük varidatını da götürüb Şuşaya qayıtdı. Çar hökuməti Cəfərqulu xanın dul xanımı kimi ona min rubl təqaüd kəsmişdi. Atasından qalma böyük mülklər də Gövhər ağanın ixtiyarına keçmişdi. Bir fakt deyək ki, Zəngəzur meşələrinin on min desyatin ərazisi də onun mükiyyətinə daxil idi.

Gövhər ağa çox gözəl və zəngin olduğu üçün ətrafdakı bəylərin, xanların marağını cəlb edirdi.Ona görə də elçilər qapıda sıralanır, onun razılığını almağa çalışırdılar. Qohumlarının məsləhəti ilə Gövhər ağa Xankişi bəyə ərə gedir. Xankişi bəy qaba, kobud, lakin hədsiz varlı idi. O, şah Qacarın qətlini təşkil edən Batmanqılınc Məhəmməd bəyin kiçik qardaşı idi. Gövhər ağanın elmdən, mərifətdən uzaq bir adama qismət olması çoxlarını məyus edirdi.

Ancaq Gövhər ağanın Xankişi bəydən də övladı olmadı və bəy cavan yaşında vəfat etdi. Beləliklə, Xankişi bəyin də varidatı Gövhər ağaya qaldı. Gövhər ağaya yenidən elçilər düşməyə başladı. Gövhər ağa isə bir daha ərə getməyəcəyini qəti şəkildə bildirdi.

Salnaməçi M.Baharlı "Əhvalati-Qarabağ" əsərində yazırdı ki, Gövhər ağa hər gecə yanınca bir neçə nökər götürüb, kasıbların evini gəzər, onları pul və baratla təmin edərdi. Durumu ağır olanlara vaxtaşırı bağlama göndərərdi. Getdiyi evlərdə onun gəlişini gizli saxlamağı tapşırırdı. Dövrünün elm adamlarını, yoxsul düşmüş nəcib adamları himayə edərdi. Gövhər ağa təkcə Qarabağda deyil, Qafqazda yaşayan və ehtiyacı olan iyirmidən çox alimə və ədibə ömürtük maaş kəsmişdi.

M.Bahartı yazırdı ki, Şuşanı su ilə təmin edən iki quyudan birini Gövhər ağa qazdırmışdı və quyu el içində "Gövhər ağa quyusu" adlanırdı. Şuşadakı Gövhər ağa məscidi şəhərin ilk ibadət ocaqlarından biridir. 1832-34-cü illərdə Gövhər ağa yeni iki munarəli məscid tikdirdi. Tikiliyə mədrəsə və kitabxana da əlavə edildi. O vaxtdan qala əhalisi buranı, "Yuxarı Gövhər ağa məscidi" adlandırdı. 1880-ci illərdə məscid daha da abadlaşdırılaraq indiki

görkəmə salınmışdır. XIX əsrin əvvəllərində Şuşa qalasında hakim olan rus idarəetməsinin təsiri ilə tez-tez İslam dininin iki təriqəti- sünni və şiələrin arasında dava düşür və əhali arasında düşmənçilik yaranırdı. Vəziyyəti dərk edən və irsi mənsubiyyətini yetərincə daşıyan Gövhər ağa bu ixtitafı aradan qaldırmaq üçün ikinci bir məscid tikdirir və bu "Aşağı Gövhər ağa məscidi" adlandırılır. Hər iki məscid – "Yuxarı Gövhər ağa məscidi" və "Aşağı Gövhər ağa məscidi" o dövrün məşhur memarı Kərbəlayi Şəfixan tərəfindən inşa edilmişdir. Burada olan "Gövhəriyyə mədrəsəsi" isə Sovet hakimiyyətinə qədər fəaliyyət göstərmiş və tanınmış alimlər yetişdirmişdir.

Yüksək dünyəvi təhsilə və geniş dünyagörüşə malik olan Gövhər ağa dindar idi. O, "İslam qanunlarının inkişafı, dinin elmi nəzəriyyəsi, eləcə də xalqın tərəqqisi naminə" böyük əmlakının demək olar ki, çoxunu – Maqsudlu, Qaradağlı, Evoğlu, Şelli kəndlərini, Daruğəli malikanəsini ətraf nahiyələrdəki dağları, təpələri, meşələri, su mənbələrini, 11 dükanı, "Divanxana qabağı" deyilən yerdə böyük karvansaranı və ona aid dükanları "Yuxarı Gövhər ağa" və "Aşağı Gövhər ağa" məscidlərinə və onların nəzdində olan mədrəsələrinə ianə etmişdi.

Gövhər ağanın böyük dəftərxanası – davamlı çalışan katibləri, münşiləri, qəyyumları, vəkilləri vardı. Bu adamlar onun ucu-bucağı görünməyən mülkiyyətini idarə edirdi. İdarəetmənin başında isə özü dururdu.

Gövhər ağa titul suz xan idi. Xalq aras mda böyük nüfuzu vardı. Onun hökumət idarələrinə yazdığı məktublar və aldığı cavablar indi mühüm sənədlərə çevrilib. Həmin sənədlər göstərir ki, o, bütün ömrü boyu camaatın vəkili kimi davranmış, haqsızlığa qarşı olmuş, yoxsullara əl tutmuş, körpü salınmasına, su çəkilməsinə, mədrəsə, kitabxana tikilməsinə vəsait xərcləmişdi. O, öz evində ədəbi məclislər qurmuş, sənət adamlarma, alimlərə kömək etmişdir. Gövhər ağa çoxlu qəzəllər və fəxriyyələr yazmışdı. Müasirləri onu qiymətləndirir, şeirlərində mərdanəliyini vəsf edirdilər. Şair Mirzə Haqverdi Şəfa farsca yazdığı bir mədhiyyədə Gövhər ağanı söz

gülşəninin şeyda bülbülü, ürək mülkünün tacidarı adlandırırdı. Böyük şairimiz Qasım bəy Zakir yazırdı:

**Ey Gövhər-pakizeyi-dəryayi lətafət,**
**Vey kani-həqayiq,**
**Öfsatü sifatin məni-məddailə nə hacət,**
**Aləm sənə aşiq.**

1841-ci ildə Şuşa qalasında rus-erməni idarəetməsinə qarşı narazılıq baş qaldırır. Narazılara Gövhər ağanın oğulluğa götürdüyü Süleyman xan rəhbər olduğu üçün bu məsələdə Gövhər ağanın da adı hallanır. Süleyman xan tutularaq Rusiyaya – Voronej şəhərinə sürgünə göndərilir. Ancaq Xurşudbanu Natəvanın nüfuzu Gövhər ağanı qoruyur. Hətta bir neçə ildən sonra Gövhər ağanın hökumətə müraciət edərək yazdığı dərin məzmunlu məktub çar məmurlarını belə, heyrətə salmış və bu müraciət əsasında Süleyman xan azad olunaraq Şuşaya qayıtmışdı.

Göhər ağanın həyat tarixçəsi təmtəraqlı, keşməkeşli, həm könülaçan, həm də ürəksıxan, eyni zamanda qürurverən bir Qarabağ dastanıdır. 1868-ci ildə vəfat edib və orada adını daşıdığı məscidin həyətində dəfn olunub. Az müddət sonra nəşi zəvvar dəstəsi ilə Kərbəlaya aparılaraq İmam Hüseynin məzarının ayaq tərəfində torpağa tapşırılıb.



***Bəhmən Mirzə Qacar,***

***Fətəli şahın nəvəsi, Abbas Mirzənin oğlu, Azərbaycan hakimi və taxt-tacın varisi.***

Bəhmən Mirzə Qacar 1811-ci il oktyabrın 11-də Təbrizdə anadan olub.

1847-ci ildə saray çəkişmələri nəticəsində Qafqaza qaçaraq ruslardan sığınacaq istəyir. Rus hökuməti şahzadəni şərəf və dəbdəbə ilə qarşılayaraq ona şaha layiq təqaüd kəsir və Rusiyanın hər hansı bir yerində yaşamaq hüququ verir. Bir qədər tərəddüddən sonra Bəhmən Mirzə əvvəlcə Tiflisdə, sonra isə Şuşada yaşamaq istədiyini bildirir. Onu öz hərəmləri, uşaqları və yaxın əhatəsi ilə birlikdə ora göndərirlər, kitabxanasını və xəzinəsini də Şuşaya köçürürlər.

Bəhmən Mirzə Rusiyanın ən yaxşı imtiyazlı məktəblərində oğlanlarına və nəvələrinə Avropa təhsili verdirir, özü isə siyasətdən uzaqlaşaraq Azərbaycan tarixinə dair əsərlər yazır. Onun 31 oğlunun əksəriyyəti hərbçi olur. Birinci Dünya müharibəsi ərəfəsində onların arasından altı general və bir neçə zabit çıxmışdı.

Bəhmən Mirzənin uşaqları Oktyabr inqilabını qəbul etmir və bu yolda bir çoxl arı, hətta cani arını da qurban verir. Bəhmən Mirzənin törəmələrinin Qafqaz budağı faktiki olaraq sıradan çıxır. İstedadlı siyasi xadim, sərkərdə və alim Bəhmən Mirzənin xatirəsi onun öz əsərlərində, Azərbaycan, Rusiya, Ukrayna və Gürcüstanın muzey və kitabxanalarına səpələnmiş əlyazmalarında, habelə onun zəngin kolleksiyasına məxsus tətbiqi sənət əşyalarında yaşamaqdadır.

Bəhmən Mirzə Qacarın dövrümüzdə məlum olan ən önəmli əsəri "Şükürnameyi-şahənşahi" tarixi salnaməsidir. Kitab 1871-ci ildə Şuşa şəhərində fars dilində işıq üzü görmüşdür. Əsərdə Rusiya işğalından sonra Azərbaycandakı vəziyyətdən, iqtisadiyyat və mədəniyyət sahələrində baş verən dəyişikliklərdən bəhs edilir.

Bəhmən Mirzənin törəmələrinin bəziləri Bəhmənov soyadını daşıyır. Bəhmən Mirzə Mələk sultan xanım Məhəmmədtağı Mirzə qızı Qacarla, Püstə (Afərim) xanımla, Bərdə xanım Qurban qızı ilə, Xəndan xanımla evlənmişdi. Bəhmən Mirzə altmış üç övladının çoxuna ali təhsil verdirmişdi. 31 oğlu, 32 qızı vardı.

**Oğlanları**

**Tofiq Mirzə**
**Ənuşirəvan Mirzə**
**Cəlaləddin Mirzə**
**Rzaqılıı Mirzə**
**Əmir Kazım Mirzə – general**
**Məhəmmədəli Mirzə – general**
**Səməd Mirzə – general**
**Mahmud Mirzə – general**
**Əmənulla Mirzə – general**
**Sədrəddin Mirzə – polkovnik**
**Şahrux Mirzə – polkovnik**
**Xanbaba Mirzə – polkovnik**
**Xosrov Mirzə – polkovnik**
**Seyfulla Mirzə – polkovnik**
**Nəsrulla Mirzə – polkovnik**
**Əbdüssəməd Mirzə – polkovnik**
**Seyfülmülk Mirzə**
**Xancan Mirzə**
**Əliqulu Mirzə**
**Heydərqulu Mirzə**
**Keyqubad Mirzə**
**Məmmədqulu Mirzə**
**Allahverdi Mirzə**
**Əbdürrəhim Mirzə**
**Elxan Mirzə**
**Sultan Məhəmməd**
**Mirzə Qaflan Mirzə**
**Sahibqran Mirzə**
**Hüseynqulu Mirzə**
**Ərdəşir Mirzə**

**Qızları**

**Məlik Afaq xanım**
**Bədiyəcamal xanım**
**Tacülmülk xanım**
**Nüsrətülmülk xanım**
**Zəri xanım**
**Xurşud xanım**
**Qızxanım xanım**
**Səbiyyə xanım**
**Azərhümayun xanım**
**Rəxşəndə Sultan xanım**
**Abbasə xanım**
**Nəvvab ağa**
**Turə xanım**
**Nurcahan xanım**
**Firuzə xanım**
**Əşrəf xanım**
**Mənzər xanım**
**Behcət xanım**
**Nurəleyn xanım**
**Mələksifər xanım**

Bəhmən Mirzə Qacar 1884-cü il fevralın 11-də Şuşada rəhmətə gedib.

***Mirzə Məmmədqulu bəy Qayıbov, həkim***



1818-ci ildə Şuşa şəhərində dünyaya göz açmışdır. İbtidai təhsilini atasından almışdır. Atasının vəfatından sonra anasının və əmisinin himayəsində böyümüşdür.

Anası oxumağa həvəsini görüb, onu İsfahana göndərir. İsfahanda Məmmədqulu bəyi yer olmadığını bəhanə gətirib mədrəsəyə qəbul etmək istəmirlər. Bunu görən Məmmədqulu bəy su ilə tam do lu piyal əyə bir gül yarpağı atır, bunun nə demək olduğunu soruşan müəllimlərə Məmmədqulu bəy belə cavab verir: ***"Görürsünüzmü, bir gül yarpağı, dolu piyaləni daşırtmadı, məgər bir adam belə böyük bir mədrəsə üçün artıq ola bilərmi?"*** Uşağın bu fərasətini görən rəhbərlik onu mədrəsəyə qəbul edir.

Məmmədqulu bəy təhsilini müvəffəqiyyətlə başa vurub, tibb elminə dərindən yiyələnir. Onu yüksək savadına görə şah sarayında həkim vəzifəsində saxlamaq istəyirlər. Lakin vətənə, doğma yurda, ailəyə olan məhəbbəti onu dəbdəbəli saray həyatını qoyub doğma Qarabağa çəkib-gətirir. Mirzə Məmmədqulu bəy Gövhər ağa İbrahimxəlil xan qızı Cavanşirin şəxsi həkimi və vəqfinin mütəvəllisi idi. Gövhər ağa ona Darğalı mülkündə xeyli torpaq ayırmışdı. Mirzə Məmmədqulu bəy sonra Xurşudbanu bəyim Cavanşirin və Bəhmən Mirzə Qacarın yanında həkim kimi çalışmışdı. O, Qarabağda böyük hörmət qazanmışdı.

Mirzə Məmmədqulu bəyin Məsum bəy, Cavad bəy adlı oğlanları vardı.

Mirzə Məmmədqulu şair idi. "Həkim" və "Təbib" təxəllüsləri ilə şeirlər yazırdı.

Mirzə Məmmədqulu Təbib 1875-ci ildə vəfat edib.

*Xarrat Qulu, musiqi xadimi*




Şuşada musiqi məktəbinin yaradıcısı məşhur musiqişünas Xarrat Qulu Məhəmməd oğlu idi. O, 1823-cü ildə Şuşada doğulub. Mir Möhsün Nəvvab təzkirəsində yazır:

***“Qulunun atası Məhəmməd Ibrahimxəlil xan Cavanşir dövlətinin nağara çalanı olub. Mən onu görmüşəm. Eyş məclislərində nağara çalardı, oyunbaz idi, bazarda car çəkərdi.***

***Ancaq oğlu Kərbəlayı Qulu Yusifi (şeir yazdığına görə – “Yusifi” onun təxəllüsü idi) xoş görünüşlü bir kişi idi. Farsca savadı var idi... Məşğuliyyəti dülgərlik idi. Axır vaxtlar şəbihgərdanlıq edirdi (dini dramlarda rejissorluq)”.***

Firidun bəy Köçərli isə “Azərbaycan ədəbiyyatı” kitabında yazır: ***“Kərbəlayı Qulunun sənəti xarratlıq idi. Çox dəqiq və əhlizövq, şirinkəlam bir şəxs idi ki, cümlə Şuşa əhli onu əziz, mehriban tutardı. Oz sənətində artıq məharəti olduğu kimi, elmi musiqidən də xəbərdar idi”.*** Beləliklə, Qulu həm bacarıqlı xarrat, həm gözəl səs li muğam ustası, həm də istedadlı şair idi. Bu sənətkar hər üç sahədə uğurlar qazanmışdı. “Yusifi” təxəllüsü ilə əsasən, həm dini mövzuda, həm də lirik aşiqanə şeirlər, həcvlər, mərsiyələr, qəzəllər yazardı. Onun müasirləri ilə şeirləşməsi də məlumdur.

Xarrat Qulunun təşkil etdiyi məktəbdə 70-ə qədər sazəndə fəaliyyət göstərirdi. O, bir müəllim kimi öz məktəbinə gözəl səsi olan gəncləri cəlb edərək onlara muğamı oxumaq qaydalarını öyrədirdi. O zaman bu məktəb, əslində, dinə xidmət məqsədilə yaradılsa da, Azərbaycanda vokal və çalğı musiqisinin inkişafında mühüm rol oynayırdı. Danılmaz faktdır ki, Xarrat Qulunun musiqi məktəbi bir sıra ustad sənətkarların yetişməsinə səbəb olub. Azərbaycanın görkəmli xanəndələri Hacı Hüsü, Məşədi İsi, Şahnaz Abbas, Dəli İsmayıl, Bülbülcan, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu və məşhur tarzən Sadıqcan Xarrat Qulunun yetirmələridir. Xanəndəlik sənətinin inkişafı ilə əlaqədar olaraq

Şuşada musiqinin nəzəri məsələlərinə dair əsərlər də yaranırdı. Bu sırada məşhur alim və şair Mir Möhsün Nəvvabın xidməti mütləq qeyd edilməlidir.

O dövrdə Şuşada məhərrəmlik təziyəsinin keçirilməsi xüsusi hazırlıqla qeyd edilirdi. Bu mərasimə demək olar ki, Şuşada çox ciddi hazırlaşırdılar. Dini mərasim on gün davam edirdi. Bütün sənətkarlar, tacirlər öz emalatxana və dükanlarını bağlayaraq bu işə cəlb olunurdu. Dini tamaşaların hazırlanmasında Xarrat Qulunun özü və şəyirdləri iştirak edirdi. Xüsusilə, o dövrdə Molla Pənah Vaqifin dini şeirləri oxunurdu. Bu təziyə ilə əlaqədar bir çox maraqlı hadisə və rəvayətlər də bugünümüzə gəlib, çatıb. Əslində, şəbihgərdanlığın xanəndəliyin inkişafına müəyyən təsiri olub. O səhnələri həm də ilk teatr tamaşaları adlandırmaq olar. Xarrat Qulu, adətən, şəbih rollarını öz adamları arasında bölürdü. Bu barədə Firudin Şuşinski yazır: ***"Şümür rolunu oynamağa heç kəs razı olmazdı. Çünki Şuşada kim Yezid, Haris və Şümür rolunu oynasa, şəhər əhli həmin adamları bu adla çağırarmış. Təsadüfi deyil ki, Şuşada Qurdlar məhəlləsində yaşayan Cavad kişiyə Yezid Cavad, Köçərli məhəlləsində yaşayan Sarı Bəşirə Haris Bəşir deyərdilər ".***

Bu səbəbdən də Xarrat Qulu əlacsız qalaraq bazarda kartof satan bir erməni kişisinə on manat qızıl pul verərək Şümürün rolunu oynamasına razılıq alıb. Xarrat Qulu onunla məşq edib və tapşırıb ki, səndən kim su istəsə, verməyəcəksən. Erməni öz "rejissorumun tapşırığını yerinə yetirəcəyinə söz verib. Su istəyənlərə isə sonda be 1 ə deyib: ***"Mən sizə su verə bilmərəm. Xarrat Qulu pulumu kəsər".*** Tamaşaçılar da gülüşüb, şəbih də pozulub.

Kərbəlayı Xarrat Qulu 1883-cü ildə 60 yaşında Şuşada vəfat etmiş və orda da dəfn olunmuşdur. Ölümündən sonra Kor Xəlifə adlı bir musiqişünas onun yolunu davam etdirərək Şuşada musiqi məktəbi açıb. Kor Xəlifədən sonra isə məktəb fəaliyyətini dayandırıb. Buna baxmayaraq, Azərbaycanın bir sıra şəhərlərində musiqi məclisləri, dərnəklər yaranmağa başlamışdır. Xarrat Qulunun musiqi məktəbindən, Mir Möhsün Nəvvabm, Xurşudbanu Natəvanın Qarabağdakı məclislərindən sonra təkcə Şuşada deyil,

bütün Azərbaycanda silsilə şəklində məktəblər çoxaldı, mədəni həyatın inkişafı öz axarı ilə getməyə başladı. Bütün bunlara rəğmən, Azərbaycan musiqi dünyasının ilk təməli məhz Şuşada qoyulub. Onun əsas yaradıcılarından biri də haqqında danışdığımız Xarrat Qulu olub.

Onun Mir Möhsün Nəvvabm təzkirələrində rübailəri, qəzəlləri bizə yadigar qalıb. Eləcə də müasirləri olan şairlərlə apardığı deyişmələrin də poetik mətni günümüzə qədər gəlib, çatıb. O, rübailərinin birində deyirdi:

**Hər nakəsə veribdi xuda pulun ağını,**
**Ancaq rəva görübdü bizə qəm qalağını.**
**Küfr olmasa, bu qismətə mən bəhs eylərəm,**
**Çün bilməyibdi xəlqə qismət səyağını.**

### *Əsəd bəy Cavanşir, hərbçi*


**_Ştabs-kapitan_**

Əsəd bəy Cavanşir 1830-cu ildə Şuşa şəhərində dünyaya göz açmışdır. Mükəmməl savad almışdır. Rus və Şərq dillərini bilirdi. Çar ordusunda xidmət etmişdi. 1860-cı ilə bağlı bir qaynaqda poruçik, 1886-cı ilə bağlı qaynaqda isə ştabs-kapitan rütbəsində olduğu göstərilir. Xan kəndində yerləşən alayda qulluq edirdi.

Əsəd bəy kapitan rütbəsində ordudan tərxis olunmuşdur. Sonra İşıqlı obasında məskən salmışdı. Abadlıq işlərilə, əkin-biçinlə məşğul olmuşdu.

Əsəd bəy Cavanşirin törəmələri Əsədov soyadını daşıyır. O, Şərəfcahan xanımla ailə qurmuşdu. Mehrəli bəy, Mehdi bəy, Cavad bəy adlı oğlanları, Ziba bəyim adlı qızı vardı.

Əsəd bəy 1917-ci ildə vəfat edib. Son mənzili İşıqlı qəbristanlığındadır.



***Xurşudbanu Natəvan, şair, ictimai və dövlət xadimi.***

Xurşudbanu Mehdiqulu xan qızı 1832-ci il avqustun 15-də Şu ş ada anadan olmuşdur. Mehdiqulu xan qızına öz anası Xurşudbanunun adını vermişdir. Gözəl şeirlər yazan Xurşudbanu özünə "Natəvan" təxəllüsü götürmüşdür. Onun anası Gəncə hakimi Cavad xanın nəslindən olan Bədircahan bəyimdir, ailənin yeganə övladı, həm də Qarabağ xanının sonuncu vərəsəsi olduğu üçün onu sarayda "Dürrü yekta" -"Tək inci", el arasında isə "Xan qızı" çağırmışlar.

Balaca Xurşudbanunun ilk tərbiyəçiləri sarayın təcrübəli dayə və mürəbbiləri olmuşdu. Məktəb yaşına çatdıqda isə evdə dövrün alim və sənətkarlarından dərs almağa başlamışdır. Məşğələ zamanı o, "Quran" ayələrini və dini ehkamları əzbərləməklə yanaşı, dünyəvi elmlərlə də tanış olmuşdur.

XIX əsrdə kübar ailələrin uşaqlarına, bir qayda olaraq, doğma dili ilə bərabər, ərəb və fars dili, onun sərfi-nəhvi təl im edildiyindən Xan qızı da bu dilləri öyrənmiş, onların vasitəsilə klassik şeirin qayda və qanunlarını mənimsəmişdir. O, lazımi dərəcədə bilik əldə etdikdən sonra müntəzəm surətdə mütaliə ilə məşğul olmuşdur. Dahi Şərq şairlərinin ələ düşən nadir kitabları, qiymətli əlyazmaları Xurşudbanunu klassik ədəbiyyata bağlamışdır.

Natəvanın dünyagörüşünün, bədii zövqünün formalaşmasında yaxın və uzaq qohumlarının əməyi az olmamışdır. Qasım bəy Zakir, Mirzə Camal Cavanşir Qarabaği, Mirzə Adıgözəl bəy, Əhməd bəy Cavanşir kimi hörmətli və tanınmış şəxsiyyətlər öz yaradıcılıqları, ədəbi söhbət və mübahisələri, eləcə də ağıllı məsləhətləri ilə

Xurşudbanuda şeirə və sənətə olan şövq və həvəsi qüvvətləndirmişlər.

Xan qızının həyatı çətin dövrə düşmüşdü.Tarixçilərin ehtimalına görə, bu dövrdə xarici və daxili vəziyyətin ciddi surətdə gərginləşməsi ilə əlaqədar xan ailələri üzərində nəzarət gücləndirilmiş, bir çox hüquqları əlindən alınmışdı. Atası Mehdiqulu xan rəhmətə gedəndə onun 13 yaşı vardı. Odur ki, Mehdiqulu xanın bütün torpaqları və imarətləri həyat yoldaşı Bədircahan bəyimin adma keçirilmişdi. Həmin vaxtdan, yəni, 15 yaşından sonra onun elçiliyinə xan, bəy nəsillərindən gəlirdilər. Lakin nə Natəvan, nə də anası hələlik heç kimə "hə" demirdi. Qarabağ əhalisi öz xanlarına və onların varislərinə çox etibarlı olduğundan onları idarə etmək o qədər də asan deyildi. Bu baxımdan da Natəvanın kimlə evlənməsi mühüm məsələ idi. Odur ki, rus hakumiyyəti mütləq Natəvanın çar hökuməti nümayəndələrindən biri ilə evlənməsini məqsədəuyğun bilirdilər. Çar çinovnikləri çalışırdılar ki, yetkinlik yaşma çatmiş xan qızı Rusiya çarına yaxın bir şəxslə ailə qursun. Bunun üçün Qafqaz canişini Vorontsovun yavəri general- mayor Xasay xan Usmiyevlə onun evlənməsini məqsədəuyğun hesab edirlər. Bu məqsədlə bir neçə dəfə Şuşaya elçi göndərilir, lakin Natəvan həmişə rədd cavabı verir.

Natəvanla anası Qarabağ nümayəndələri kimi Tiflisə rus çarı ilə görüşə gəvət alırlar. Bu görüşdən sonra onlar Vorontsova yaxınlaşıb, torpaq və mülklərinin sənədləşmə işlərini aparmaq istədikdə Vorontsov Xurşudbanuya Xasay xan Usmiyevlə izdivac təklif edir. Onlar razılaşmadıqda Vorontsov Natəvanla anasını qazamata salaraq Xasay xanla evlənməsi üçün çox narahatçılıqlar yaradır. Bu hərəkətlərə dözə bilməyən Natəvan razılaşmağa məçbur olur. Bundan sonra Vorontsovun şəxsi yavəri Xasay xan Tiflisdə onlara mülk iddialarında kömək göstərir və Xurşudbanuya evlənməyi təklif etdikdə o razılaşır.

1850-ci ilin payızında Xasay xan Şuşaya gəlib toy etmiş və Xurşudbanunu Dağıstana – öz doğma kəndinə, oradan da Tiflisə aparmışdı.

Həyatının çiçəkləndiyi bir dövründə Xurşudbanu Tiflisdə yaşamalı olmuşdur. Şəhərin səfalı yerləri, təbii mənzərələri ona xoş gəlsə də, burada yaşamağa məcbur olduğu və çox vaxt tək qaldığı üçün darıxmış, sıxılmış, qəriblik çəkmişdir. Natəvan bu şəhərdə rus, gürcü mədəni cəmiyyətlərinə qoşulmuş, özü də milli ənənəsi, kübarlara məxsus davranışı və üç dildə sərbəst danışması ilə cəmiyyətdə maraq oyatmışdır.

Lakin tənhalıq, elindən-obasından uzaqda yaşamaq ona ağır gəlir, eyni zamanda, buranın havası da ona düşmür və xəstələnir. Həkimin məsləhəti ilə vətəninə-Şuşaya qayıdır. Sağaldıqdan sonra Xasay xanla bir sıra vilayət və şəhərlərə səyahətə çıxır. Bu səfərlər onun təfəkkür dairəsinin genişlənməsinə, dünyagörüşünün artmasına təkan verir. Vladiqafqaza, Dağıstana, Şirvana, Bakıya, Gəncəyə və Naxçıvana səfəri zamanı o, yüksək rütbəli dövlət qulluqçuları, yazıçı, alim və səyyahlarla görüşür.

Natəvanın Xasay xan Usmiyevlə evliliyindən 2 övladı – 1855-ci ildə oğlu, 1856-cı ildə isə qızı dünyaya gəlir. Oğlunun adını Mehdiqulu, qızının adını isə Xanbikə qoyur.

1858-ci ildə xoş bir təsadüf Bakıda məşhur fransız yazıçısı Aleksandr Düma ilə Xurşudbanunu rastlaşdırır. Bakı şəhər rəisi Piqulyevskinin evində qonaq olarkən Düma ilə görüşür. Natəvanın həyat yoldaşı, fransız dilini yaxşı bilən Xasay xan onların arasında gedən dialoqa tərçüməçilik edir. Bu da onlarda dostluq telləri yaradır. Xan qızının dünyagörüşünə heyran olan Düma Natəvanla söhbətdən sonra başa düşür ki, bu qadın dövrünün yüksək intellektə malik olan xanım mütəfəkkirlərindən biridir. Onlar Bakıda birgə gəzintiyə çıxmış, ayrılarkən bir-birinə qiymətli hədiyyələr bağışlamışlar. O, Natəvanın övladlarına qiymətli daşlardan fiqurları olan şahmat bağışlayır. Lakin bu görüşdə oğlu Mehdiqulunun kəmərinə taxılmış xəncərə təəccüb edir və ***"Fransız qadın xəncəri heç vaxt uşağın əlinə verməz"*** – deyir. Natəvan isə öz dərrakəli cavabı ilə onu heyrətləndirir ***"Bizim uşaqlar o xəncərin mahiyyətini bilirlər"*** – deyir və Dümaya öz toxuduğu arxalığı və pul kisəsini hədiyyə verir, yazıçı bu zərif tikişə, incə naxışa heyranlığını bildirir. Sonralar A.Düma özünün "Qafqaza səyahət" kitabında bu ailənin

adını hörmətlə çəkir: ***“Azərbaycan qadını örpək altında belə geniş dünyagörüşünə, dərrakəyə malikdir. ”*** Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi haqqında ilk məlumat da “Qafqaza səyahət” kitabında öz əksini tapmışdır.

Uzun müddət evlilikdən sonra 1864-cü ildə Xasay xan Natəvana Şuşada yaşamaq istəmədiyini bildirir və ona Dağıstana öz kəndinə getməyi təklif edir, lakin Natəvan razılaşmır. Be lə lik lə, bu cüt lük ay rı lır.

Natəvan 1868-cu ildə ikinci dəfə Seyid Hüseyn adlı bir şuşalıya ərə getmiş, bu hərəkəti ilə bəy və mülkədarları qəzəbləndirmişdir. Onlar Natəvanın ailə üzvləri arasına təfriqə salaraq oğlu Mehdiqulu xanın evdən baş götürüb-getməsinə səbəb olmuşlar. Şair ömru boyu qınaq və töhmətlərdən yaxa qurtara bilməmişdir. Onun Seyid Hüseynlə evliliyindən beş övladı – iki oğlu və üç qızı olur.

Xurşudbanu Natəvan zəmanəsinin görkəmli şəxsiyyətlərindən olmuş, təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada xeyirxahlığı və mesenatlığı ilə tanınmışdır. O, kasıblara əl tutmuş, 1873-cü ildə “Sarı baba”dan saxsı borularla Şuşaya su kəməri çəkdirib, orada çarhovuz tikdirib, eyni zamanda bulaq saldırıb. Bu bulaq indi də “Xan qızı bulağı”adlandırılır. Bununla yanaşı, Xan qızı Araz çayından Mil düzünə də su kəməri çəkdirməyə təşəbbüs göstərmişdi. Eyni zamanda Bakıdan Şıx kəndinə gedən baş yolun çəkilməsinə, neçə-neçə gəncin xarici ölkələrdə təhsilini davam etdirməsinə maddi yardım göstərmiş, xeyli vəsait sərf etmişdir.

Natəvan eyni zamanda dövrünün biznesmen xanımı olub. Onun aran yerlərdə olan böyük əkin sahələri, mal-heyvan sürüləri, at zavodu olub.Yəni, o, atasından qalan varidatını inkişaf etdirib və əldə etdiyi gəlirin çox hissəsini xalqından əsirgəməyib, xeyriyyəçilik işlərinə sərf edib. Bütün bunlar onun xeyirxahlığının bariz nümunəsidir.

Natəvan həm də ruhən güclü idi. O, gözəl şeir və qəzəllər müəllifidir. Yaradıcılıqla yanaşı, ictimai və idarəetmə fəaliyyəti də güclü idi. Rəhbəri olduğu “Məclisi-üns” (Dostluq məclisi) Şuşanın bir qrup şairini bir araya gətirmiş, aralarında ünsiyyət yaradılmış, yaradıcılıq fəaliyyətlərinin inkişaf etməsində mühüm rol

oynamışdır. Bu məclisdə yazılan şeirlər, nəzirələr dinlənilir, cavan şairlərə məsləhətlər verilirdi. Şəraiti və imkanı olmayan ziyalıların xahişi ilə Xan qızının qısa müddət ərzində yaratdığı bu məclisdən çox məmnun olmuşlar. Bu məclisə rəhbərliyi və onun bütün xərclərini Xan qızı öz üzərinə götürmüşdü.

"Məclisi-üns"də tanınmış Qarabağ şairləri ilə yanaşı, məşhur xanəndə və sazəndələr də iştirak etmişlər. Bunlardan Hacı Hüsü, Məşədi İsi, Molla Vəli, Molla Abbasqulu, Məşədi Dadaş, Məşədi Əbdülqəni, Sadıqcan (Sadıq Əsəd oğlu) və digərlərinin adlarını çəkə bilərik. Məşhur tarzən Qurban Pirimov yazırdı: ***"Xurşudbanu nəinki şeir, eləcə də musiqini çox sevirdi. Xanəndələrdən Hacı Hüsü və Məşədi isi onun məclisində oxuyardılar. Bu xanəndələr oxuyarkən Natəvanın qəzəllərindən tez-tez istifadə edərdilər. Son vaxtlara qədər Cabbar onun qəzəllərini öz repertuarında saxlardı".*** Məhəmməd Füzuli adma Respublika Əlyazmalar İnstiututunda saxlanılan Mir Həsən Ağamirovun "Natəvan haqqında xatirələri"ndə qeyd olunur ki, onun hər bir məclisində musiqiçilər iştirak edirdilər, Natəvanın bəzi məclisləri isə sırf musiqi məclisi hesab olunurdu və burada şairin qəzəlləri də oxunurdu.

Natəvanın əsas yaradıcılığı da bu illərə təsadüf edir. Natəvanın qəzəllərində məhəbbət, təbiət gözəllikləri tərənnüm olunmuşdur. Şeirlərindən "Bənövşə", "Qərənfil" və s. təbiətlə bağlı idi:

**Səni kimdir sevən bica, qərənfil?**
**Sənə mən aşiqi-şeyda, qərənfil!**
**Səni gülşən əra aşuftə gördüm,**
**Yəqin bildim tutub sevda qərənfil!**
**Belə pəjmürdə hal ilə durubsan,**
**Düşər güllər əra qovğa, qərənfil!**
**Üzündən pərdeyi-nazın kənar et!**
**Unutma aşiqi, haşa qərənfil!**

Onun bu şeirinə tanınmış bəstəkar Vasif Adıgözəlov mahnı-romans bəstələmişdir.

Lakin Natəvanın oğlu Mir Abbas 15 yaşında qəfil rəhmətə gedir. Oğlunun ölümündən sonra o, bədbin şeirlər yazmağa başlayır. Şeirlərindən “Sənsiz”, “Ölürəm”, “Ağlaram”, “Getdi” və s. göstərmək olar:

**O sərvi-nazdan ayrı baxarmı sərvə gözüm,**
**Hilal tək qəddimi eylədi kəman getdi.**

**Unutdu güllərini, qıldı xaniman tərkin,**
**Nə baxdı yarlərə, çəkdi əlaman getdi.**

**Nə oldu ariz əya, bağiban, bu gülşəndə,**
**Açılmadı bu bazar gülləri, xəzan getdi?**

**Nə tapdı ləzzəti-işrət, nə gördü gülzarı,**
**Bahar fəslində, yaran bu novcavan getdi.**

**Məni bu möhnət əra qoydu didəsi giryan, Bəlayi-**
**hicrə salıb, qoydu bağrı qan, getdi.**
**Məzarın üstə gəlib əylənim dəmadəm, oğul,**
**Deyərmisən ki, nə növ ilə Natəvan getdi.**

Demək olar ki, Natəvan Füzuli ənənələrini davam etdirmiş və əsasən, qəzəllər yazmışdır. Onun əsərlərinin ideyasında insanlıq, xeyirxahlıq, səmimi ülfət, dostluq kimi fikirlər dururdu. Onun dillər əzbəri olan “Eylər”, “Mən idim”, “Sən idin”, “Bənzətdim”qəzəlləri Azərbaycan şairlərinin şeirləşmələrinə səbəb olmuşdur.

Oğlunu vaxtsız itirməsi, digərinin ondan ayrı düşməsi, anabir ataayrı övladların mal-mülk üstündə bir-birinə düşmən kəsilməsi, Şuşanı azadlığa çıxara, həyata keçirmək istədiyi işləri başa çatdıra bilməməsi, zalımların sitəmi, dövranın haqsızlığı – bütün bunlar onun çevrəsində bir natamamlıq yaratmışdı. Odur ki, özünə “Nataman” təxəllüsü götürmüşdü, yəni, əslində, onun təxəllüsü “Nataman” idi. Sonradan o, xalqın dilində “Naləvan” sözü ilə əvəz olunub ki, bu da məna baxır mmdan fars sözüdür, iqtidarsız, gücsüz, zəif deməkdir. Ona çox təsir edən bütün bu məsələlər şairin xəstələnməsinə səbəb olur. Ağlamaqdan gözlərinin nuru gedir, bədəni taqətdən düşür.

Xurşudbanu Natəvan 1897-ci ildə 65 yaşında Şuşada vəfat edib və Ağdamın “İmarət”qəbirstanlığmda dəfn olunub.

Ağdam işğaldan azad olunandan sonra məlum olmuşdur ki, ermənilər Natəvanın məqbərəsini dağıtmış, qəbri isə təhqir etmişlər, qazıb sümüklərini də çıxarıb-aparmışlar. Bu haqda məşhur fransız fotojurnalisti Rza Diqqəti məlumat dərc etmiş, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi də bu faktı təsdiqləmişdir.

Natəvan haqqında M.F.Axundzadə və Q.B.Zakir şeirlər yazmış, M.M.Nəvvab məktublar, Mirzə Məmmədqulu qəsidə, Vasif Adıgözəlov romans və opera, İlyas Əfəndiyev isə “Xurşudbanu Natəvan”dramını yazıb. Şeirlərinə mahnılar bəstələnib.

Bir çox xarici ölkə mətbuatında Natəvan haqqında məlumatlar verilmişdir. Rus şərqşünası, qafqazşünas Adolf Beryenin “Qafqaz və Azərbaycanda məşhur olan şüəranm əşarma məcmuyə” (Leypsiqdə alman dilində nəşr olunub, 1868), Ziyəddin İbn Fəxrəddin “Məşhur xatunlar təşkirəsi” kitabında onun haqqında geniş məlumat verib (Orenburqda nəşr olunub, 1904).

Bir çox tanınmış şəxsiyyətlər onun haqqında dəyərli fikirlər söyləmişlər. Xalq yazıçısı İlyas Əfəndiyev: ***“Natəvan ürəyi Vətən və xalq məhəbbəti ilə döyünən, xalqın rifahı və mənafeyi yolunda hər cür çətinliklərə dözən və bu yolda yorulmaq bilməyən şairdir”.*** Görkəmli Azərbaycan maarifçisi Firudin bəy Köçərli: ***“Xüsusən, Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində məskən salaraq, öz fövqlərindən poeziyaya fon vermişlər. Natəvan da bu şairlərdəndir”.*** Filologiya elmlər doktoru Məsud Əlioğlu: ***“Natəvanın insana məhəbbəti, həqiqətə inam və xeyirxah əməllərə ümid dolu poeziyası həmişə təzədir. Onun şeirləri öz mayasını və qaynaqlarını təbiətin munis gözəlliklərindən, baharın həyat qoxulu nəfəsindən, torpağın ətrindən götürmüşdür”.***

Xurşudbanu Natəvan parlaq istedada və qabaqcıl ideallara malik olan şəxsiyyət olmuşdur. O, Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuşdur. Bu fenomenin meydana gəlməsinin bir neçə əsas səbəbi vardı. Bunlardan biri şairin soy

köküdür. Yəni, Natəvanda iki böyük nəslin – Cavanşirlərin və Ziyadoğlu Qacarların qanı vardı. Adlarını çəkdiyimiz bu iki böyük və şərəfli nəslin hər biri dünyaya bir çox şair bəxş etmişlər (məsələn, Cavanşir nəslindən Əbülfət xan Tutinin, Qasım bəy Zakirin, Ziyadoğlu Qacar nəslindən isə bir sıra şairlərin adlarını çəkmək olar). Qacarlar nəslindən olan Ziyadi Qarabaği və Musahib Gəncəvi vaxtilə Qarabağ bəylərbəyi olmuşlar. Natəvan yaradıcılığının böyük tədqiqatçısı Bəylər Məmmədov "Natəvanın şair qohumları" kitabında bu məsələni geniş açıqlayır. Eyni zamanda Ziyadoğlu Qacar nəslindən çıxan şairlərdən başqa kitablarda da söz açılır. M.Füzuli adına Respublika Əlyazmalar İnstitutunda Müsahib Gəncəvinin şeir divanı saxlanılır və bu əsərin üzərində institutun əməkdaşları elmi tədqiqatlar aparırlar.

Natəvanın qızı Xanbikə xanım da anasının yolunu davam etdirərək qəzəllər və rübailər yazıb. Onun bir neçə qəzəli Vasif Quliyevin "Dünənə uzanan cığır" kitabında çap olunub. Bu kitabda göstərilir ki, Xanbikə xanım "Məclisi-üns"ün üzvlərindən biri olub.




Xurşudbanu Natəvanın adına küçə, klub, kitabxana, məkt əb və s. obyekt l ər var. Xan qızının əlyazmaları, şəxsi geyim və əşyaları nadir eksponat kimi arxiv və müzeylərimizdə saxlanılır.

Bakıda heykəli, Şuşada büstü, Ağdamda qəbirüstü abidəsi qoyulmuşdu.

2016-cı il fevralın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə Belçika Krallığının Vaterloo şəhərində Xurşudbanu Natəvanın abidəsinin açılış mərasimi keçirilib. Abidənin müəllifi heykəltəraş İmran Mehdiyevdir. Şairin şərəfinə 2014-cü ildə Azərbaycan poçt markası buraxılıb.

Natəvan yaradıcılığa təxminən XIX əsrin 50-ci illərindən başlamışdır. İlk vaxtlar onun "Xurşud" imzası ilə yazdığı şeirlərin əksəriyyəti itib-batmış, yalnız cüzi bir hissəsi bizə gəlib-çatmışdır.

Onun şeirləri hələ sağlığında dildən-dilə düşmüş, əlyazma şəklində yayılmışdır. Xurşudbanunun şeirlərini məzmun cəhətdən şərti olaraq dörd qismə ayırmaq mümkündür: aşiqanə şeirlər, təbiət gözəlliklərinə həsr edilmiş şeirlər, müasirlərinə yazdığı mənzumələr, hüznlü şeirlər.

Natəvanın fitri istedadının üzə çıxması və çiçəklənməsinin səbəblərindən biri Şuşanın təkraredilməz yaradıcı ab-havası və mühiti olmuşdur. Natəvanın poeziyası Azərbaycan xanəndələrini də ruhlandırırdı. Böyük sənətkarımız Seyid Şuşinski Natəvan haqqında danışarkən qeyd edirdi ki, o, şairin qəzəllərini "Segah" üstündə oxuyarmış. O vaxtdan bəri demək olar ki, bu günə kimi tanınmış Azərbaycan xanəndələri şairin qəzəllərini oxuyurlar.

M.M.Nəvvab, S.Ə.Şirvani və başqaları ona şeir həsr etmişlər.

Natəvan həm də istedadlı rəssam olmuşdur. Onun bədii tikmələri, "Gül dəftəri" (1886) adlı albomundakı rəsmləri buna sübutdur. Həmin albom hal-hazırda "Əlyazmalar institutumda saxlanılır.

Natəvanın şəxsiyyət kimi özünü təsdiqləməsində, vətənə, doğulduğu torpağa bağlı olmasında həm də mənsub olduğu soyun, kökün, nəslin böyük təsiri vardı.

Azərbaycanın bir çox tanınmış sənət adamları Xurşudbanu Natəvan haqqında qiymətli sənət əsərləri yazmış, qəzəllərinə nəğmələr bəstələmişlər. Bunlardan Məmməd Rahimin "Natəvan" poeması, Ə.Cəfərzadənin "Natəvan haqqında hekayələri", B.Məmmədovun "Xurşudbanu Natəvan", "Natəvanın şair qohumları", H.Əliyevanın "Natəvanın tikmələri", İ.Əfəndiyev "Xurşudbanu Natəvan", B.Məmmədov "Xurşudbanuya" əsərlərini göstərmək olar.



***Seyid Hüseyn Agamirov, maarifçi, xeyriyyəçi.***

Seyid Hüseyn Ağamirov 1833-cü il dekabr ayının 2-də Şuşada anadan olmuşdur. O, ibtidai təhsilini Molla Əli Molla Kəlbəli oğlunun məktəbində almış, türk və fars dillərini mükəmməl öyrənmişdir. 1868-ci ildə Xan qızı Xurşudbanu bəyimlə ailə həyatı qurmuş, beş övladı olmuşdur. Şuşa şəhərinin əsil-nəsəbli adamlarının siyahısına salınmışdır. On beş il müddətinə Yelizavetpol gimnaziyasına fəxri hami təyin edilmişdir. Hər il gimnaziyanın fonduna 720 manat (ilk 15 il ərzində 11000 manatdan çox) pul keçirmiş, bu tədris müəssisəsi üçün müxtəlif cihaz və aparatların, mebel və dərs vəsaitlərinin alınmasına, təmir işlərinə xeyli vəsait sərf etmiş, 1886-cı ilin fevral ayında isə gimnaziya binasının yeni tikintisinin başa çatdırılması üçün əlavə olaraq beş min manat da vermişdi.

Seyid Hüseyn Ağamirov Qarabağın iri mülkədarlarından biri sayılırdı. Şuşa, Zəngəzur, Cavanşir və Yelizavetpol qəzalarında 56 kənd və oba ona məxsus idi. Şuşada daşdan tikilmiş üçmərtəbəli evi, karvansarası, iki hamamı, dükanları, Ağdamda karvansarası, Şuşa qəzasında böyük tut və üzüm bağları, Araz çayından çəkilmiş su arxı və sair ona məxsus idi. Qafqaz Təhsil Dairəsi müdiriyyətinin təşəkkürünə (1869), müxtəlif fərqlənmə nişanlarına layiq görülmüş, kollec qeydiyyatçısı(1875), quberniya katibi (1879) mülki rütbələri almış, III dərəcəli "Müqəddəs Anna" (1880) və IV dərəcəli "Müqəddəs Vladimir" (1886) ordenləri ilə təltif edilmişdir.

Seyid Hüseyn Ağamirov 1891-ci il mart ayının 1-də Şuşada vəfat etmişdir.



***Mir Möhsün Nəvvab,***
***rəssam, xəttat, musiqişünas.***

Mir Möhsün Nəvvab 1833-cü ildə Şuşada Hacı Seyid Əhmədin ailəsində doğulmuş və bütün ömrü boyu doğma şəhərindən kənara çıxmamışdır. İlk təhsilini ruhani məktəbində alan Mir Möh sün ərəb, fars, türk dili ərini mükəmməl mənimsəmiş, sonra isə Molla Abbas Cavanşirin mədrəsəsində astronomiya, kimya, riyaziyyat və digər elmlərin əsaslarına yiyələnmişdir.

Mir Möhsün Nəvvabın məşhur musiqi traktatı "Vüzuhül-ərqam" ilk dəfə 1913-cü ildə Bakıda nəşr olunmuşdur. Həmin risaləsində Mir Möhsün ayrı-ayrı muğamların, bəzi dəsgahların mənşəyi və onların adlarının kökü haqqında məsələləri araşdırır, muğamların şeir mətnləri ilə əlaqəliliyi, ifaçı ilə dinləyicinin qarşılıqlı münasibətləri, akustika baxımından onların optimal yerləşməsi problemlərinə toxunur.

Nəvvab ilk dəfə olaraq dəsgah terminindən istifadə edir, o vaxt Qarabağda məlum olan altı dəsgahın adını çəkir: "Rast", "Mahur", "Şahnaz", "Rahab", "Çahargah" və "Nəva". Alim həmin əsərində Qarabağ musiqiçiləri tərəfindən ifa olunan 82 mahnı və muğam haqqında məlumat verir. O, həm də gözəl rəssam olmuşdur. Nəvvab 1918-ci ildə Şuşa şəhərində dünyasını dəyişəndə artıq Azərbaycanda və onun hüdudlarından kənarlarda da yaxşı tanmırdı.



***Hacı Hüsü, xanəndə***

Hacı Hüsü 1839-cu ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini molla yanında almışdır. Sonra mədrəsədə təhsilini davam etdirmişdir. Gözəl səsi olduğundan müğənniliyə başlamışdı. Şuşa vokal sənətinin ən görkəmli nümayəndələrindən biri Xarrat Qulunun yetişdirməsi olan Hacı Hüsü şuşalılar qarşısında ilk dəfə Xandəmirovun teatrında xeyriyyə gecəsində tarzən Sadıqcanın müşayiətilə "Çahargah"ı elə oxumuşdur ki, onun şöhrəti hər yerə yayılmışdır. Hacı Hüsü tək Azərbaycanın toylarına deyil, Yaxın və Orta Şərqin bir sıra şəhərlərinin məclislərinə də dəvət olunurdu. Məsələn, 1880-cı ildə şah Nəsrəddin Hacı Hüsünü Təbrizə öz oğlunun toyuna dəvət etmişdi. Hacı Hüsünü həmin məclisdə müşayiət edən tarzən Sadıqcan və kamançaçı Bağdagüloğlu Ata idi. Bu toyda Hacı Hüsü məşhur İran musiqiçiləriylə bərabər çıxış etmişdi. Lakin toyun sonunda şah tərəfindən verilən birinci mükafata məhz Hacı Hüsü layiq görülmüşdü.

Hacı Hüsü XIX əsrin 80-ci ill ərində M.M.Nəvvab ilə birlikdə Şuşada "Musiqiçilər məclisi" təşkil etmişdi. Bu məclisdə muğam sənəti müzakirə olunurdu. Məşədi Cəmil Əmirov, İslam Abdullayev, Sadıqcan kimi tanınmış incəsənət nümayəndələri bu məclisin iştirakçıları idilər. Hacı Hüsü gözəl xanəndə olmaqla bərabər, həm də Şərq və Azərbaycan muğamlarını əla bilən musiqişünas və müəllim kimi də məşhur idi. O, bir sıra muğamları təkmilləşdirmiş, onların yeni variantlarını yaratmışdır. Məsələn, "Kürdü" muğamına "Şahnaz" əlavə etmiş və yeni "Kürdü-Şahnaz" muğamını yaradıb oxumuşdur. Cabbar Qaryağdıoğlunun yazdığına

görə, Hacı Hüsü Sadıqcanla birlikdə "Qatar" muğamının da yaradıcısıdır.

Hacı Hüsü Xan qızı Natəvanın sevimli xanəndəsi olmuş, onun məclislərində iştirak etmişdi. O, şamaxılı Mahmud ağanın və bakılı Məşədi Məlik Mansurovun məclislərinə tez-tez dəvət olunardı. Deyilənə görə, məşhur Qaçaq Nəbi də Hacı Hüsünün səsinə qulaq asmaq üçün xüsusi olaraq onun oxuduğu toy məclislərinə gələrmiş.

Hacı Hüsünün həyatının son illəri çox da uğurlu olmamışdır. O, Ərəbistandan qayıtdıqdan sonra mollaların təzyiqi altında Şuşada Gövhər ağa məscidində minacat verməyə məcbur olmuşdur. Şuşanın ətraf yerlərindən belə, onu dinləmək üçün axışıb məscidə gələrdilər. Bu barədə C. Bağdadbəyov xatirələrində yazır: ***"Qış mövsümündə belə, yüzlərlə adam gəlib bu cazibəli səsə qulaq asardılar. Hacı Hüsünün uzun nəfəsi olmaqla bərabər, zənguləsinin misli-bərabəri də yox idi".***

Hacı Hüsü 1898-ci ildə Aşqabad şəhərində vəfat etmişdir.

***Abdulla bəy Asi, şair***



Abdulla bəy Əli bəy oğlu Fuladov dövrünün tanınmış ziyalısı, şairi və mütəfəkkir idi. Əli bəy Fuladovun oğlu, görkəmli Azərbaycan şairi Qasım bəy Zakirin nəvəsidir. Abdulla bəy Asi 1841-ci ildə Şuşada anadan olmuş, təhsilini orda almışdır. Ərəb, fars, rus dillərini, məşhur özbək şairi Nəvainin əsərlərini oxumaqla çığatay dilini də gözəl bilmiş, hətta bu dildə bir neçə qəzəl də yazmışdır.

"Məclisi-fəramuşan"ın üzvü olmuşdur. Əsərlərinin az bir hissəsi qalmışdır. Seyid Əzim Şirvani ilə dostluq etmişdir. 1874-cü ildə həyatdan köçmüşdür.

***Fatma xanım Kəminə, şair***



XIX əsr qadın şairlərindəndir. 1841-cı ildə Şuşada dünyaya gəlib. Fatma xanım kiçik yaşlarından etibarən şeirə maraq göstərib. Atası Mirzə Bəybaba da şair olub və "Fəna" təxəllüsü ilə şeir yazıb. Fatma xanım fars dilini mükəmməl bilib və bu dildə şeirlər yazıb. Təhsilini Şuşada alıb. XIX əsr təzkirələrində şairin şeirlərinə rast gəlinir. O dövrdə Fatma xanım Azərbaycanın ən məşhur üç-beş qadın şairindən biri olub.

Şair onunla eyni dövrdə yaşayan bir çox şairlərin şeirlərinə nəzirələr yazmışdır. Amma dövrümüzə onun, əsasən, klassik şəkildə yazılmış şeirləri gəlib-çatmışdır.

Firudin bəy Köçərli Fatma xanım Kəminəni "nadireyi zəmanə" saymış, onun ölümünü ağır itki kimi dəyərləndirmişdir.

Fatma xanım Kəminə 1898-ci ilin sentyabrında Şuşada vəfat etmişdir.

Fatma xanımın həyat və yaradıcılığı haqqında XIX əsr təzkirələrində az da olsa, məlumat var. Məsələn, Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" əsərində onun haqqında məlumat verərkən bildirmişdir ki, şair dörd yüzə yaxın şeir yazmış, Şuşada fəaliyyət göstərən "Məclisi-fəramuşan"da yaxından iştirak etmişdir. Fatma xanım Kəminə Natəvanın başçılıq etdiyi "Məclisi-üns"ədəbi məclisinin üzvləri ilə də yaxın olmuş, onlarla şeirləşmişdir.

***Hacı Abbas Agah,***
***şair***



Hacı Abbas Hacı Məhərrəm oğlu 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini atasından almışdır. Sonra mədrəsədə təhsilini davam etdirmişdir. Ticarətlə məşğul olmuş, II gildiya dərəcəsini almışdır.

Hacı Abbas Şuşa ədəbi mühitində tanınmış şairlərdən idi. “Agah” təxəllüsü ilə ruhsal şeirlər qələmə alırdı. Şəhərdə fəaliyyət göstərən “Məclisi-üns” ədəbi yığmcaqı onun evində keçirilirdi. Əli adlı oğlu vardı. O da “Mühərrir” təxəllüsü ilə şeirlər yazmışdır.

Hacı Abbas Agah 1892-ci ildə vəfat etmişdir.

***Mirzə Rəhim bəy Fəna,***
***şair***



Rəhim bəy Mirzə Məmmədbağır oğlu Mirzəyev 1841-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Onun atası Mirzə Məmmədbağır Mehdiqulu xanın saray mirzəsi olmuş, xanlığın mədaxil-məxaric işlərinə baxmışdır,
Mirzə Məmmədbağır öləndən sonra, yəni, 1872-ci ildən onun vəzifəsini oğlu Mirzə Rəhim yerinə yetirmişdir.

Rəhim bəy ibtidai təhsilini molla yanında almış, sonra mədrəsədə Mirzə Əbülqasim Mirzə Əli oğlunun yanında oxumuşdur. Savadlı olduğuna görə “mirzə “ adı daşıyırdı.

Mirzə Rəhim bəy "əvvəllər "Aşiq", sonralar "Fəna" təxəllüsü ilə Azərbaycan və fars dillərində şeirlər yazmışdır. Klassik poeziyanın hər növündə şeirləri olmuş, lakin əsərlərinin coxu itib-batmışdır.

Mirzə Rəhim Fəna "Ağlaram" qəzəlini gizli məhəbbət bəslədiyi Natəvanı nəzərdə tutaraq yazmışdır:

**Hicran edibdi könlüm evin qarət, ağlaram,**
**Çün ağlamaq olubdu mənə adət, ağlaram.**
**Ta var idi fəraqına tabım, səbur idim,**
**İmdi yoxumdu səbr, nedim taqət, ağlaram.**
**Qəddim fəraqı başıma gətdi qiyaməti,**
**Ta həşr olunca hər dəmu hər saət, ağlaram.**
**Zülfü ruxun xəyalına sərf oldu ruzü şəb,**
**Ömrümdə ruzü şəb olmamışam rahət, ağlaram.**

Xan qızı Natəvan Mirzə Rəhim bəyin xətrini çox istəyirdi. Həmin dövrdə Şuşa qəza rəisi Dubrovskinin qardaşı Mirzə Kərimi vəzifəsindən azad etməsi Rəhim bəyə çox pis təsir etdiyindən o, Dubrovskiyə nifrətini belə, gizlədə bilmirdi. Bir gün Şuşada "Bazar başı" deyilən yerdə Mirzə Rəhim bir dəstə adaml a əyi əşib, söhbət edərkən qəza rəisi ora gəl ir, hamı durub ona təzim etsə də, Rəhim bəy təzim etmir və hətia arxasını ona çevirir. Rəhim bəyin bu hərəkətindən özündən çıxan qəza rəisi yoldan keçən bir kəndlinin əlindən ağacını alıb, Rəhim bəyi döyməyə başlayır. Mirzə Rəhim bəy onun əlindən canını birtəhər qurtararaq Xurşudbanu bəyimin həyətinə girir. Qəza rəisi də onun ardınca gələrək Rəhim bəyi yerə yıxıb yenə döyməyə başlayır. Səs-küyə Xurşudbanu bəyim çölə çıxır və hirslənərək nökərlərə qəza rəisinin döyülməsi tapşırığını verir. Sonra Xan qızı möhkəmcə əzişdirilən qəza rəisinə yaxınlaşıb, onun çiynindən paqonlarını dartıb qopardır, özünü də həyətdən qovur. Üz-gözü yaralanmış halda idarəsinə dönən Dubrovskini həmin vaxt şəhərə gələn Qafqaz valisi bu halda görür və bunun səbəbini öyrənir.

Hadisədən bir neçə gün sonra Xurşudbanu bəyimin görüşünə gələn Qafqaz valisi Natəvana xitabən: ***"Rəisə əl qaldırmağınıza etiraz etmirəm, lakin paqonları qoparmaq dövlətə hörmətsizlikdir".*** Xurşudbanu bəyim isə cavabında deyir: ***"Dövlətin***

***təbəələrini suçsuz incitməyə heç kimin haqqı yoxdur, hətta rəisin də".*** Bundan sonra vali heç bir cavab vermir və Dubrovskini işdən çıxarmaqdan başqa çarəsi qalmır...

Rəhim bəyin "Məclisi-üns" haqqında dəyərli xatirələri ikicildlik "Azərbaycan ədəbiyyati" əsərində əlavə şəklində çap edilmişdir. Şeirlərindən nümunələr XX əsrin əvvəllərində dövri mətbuatda, "Təzkireyi-Nəvvab", "Riyazül-aşiqin" əsərlərində çap olunmuşdur.

Tarixə və ədəbiyyata böyük marağı olan Mirzə Rəhim Fəna "Tarixi-cədidi Qarabağ" adlı əsər də qələmə almışdır.

Mirzə Rəhim bəyin başqa bir qəzəli:

**Nə məlamət əsər etmiş, görəsən, dildarə**
**Ki, çəkib yardan əl, uydu yenə əğyarə?**

**Hansı məşuqə deyir aşiqinə eşqi unut?**
**Hansı tacirdi rəvac istəmədi bazarə?**

**Bivəfa yari-cəfakarım urub səngi-cəfa,**
**Şişeyi-xatiri məhzunum olub sədparə.**
**Məni aşufta edən qeyrilə yar olmağıdır,**
**Cövri-hicrilə könül gəlməz idi zinharə.**
**Nə bileydim ki, səri-zülfi giriftarı olub,**
**Qalar axırda qara günlü könül avarə.**

Şairin Əsəd bəy adlı oğlu vardı.

Mirzə Rəhim bəy 1931-ci il fevral ayının 11-də Bakı şəhərində vəfat edib.

***Sadıqcan, tarzən***



Mirzə Əsəd oğlu (Sadıqcan) 1846-cı ildə Şuşada anadan olub.

O, Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar idi.

Sadıqcan Azərbaycanın tanınmış tarzənlərindən sayılır. O, tarı təkmilləşdirərək bu alətdə virtuoz çalğıların imkanlarını genişləndirmişdir.

Məşhur tarzən tara cingənə və kök simləri əlavə edib, simlərin sayını 5-dən 11-ə çatdırıb. O, həmçinin tarın boyunlarına tutma sistemini tamamilə dəyişdirib, onların sayını 27-28-dən 23-ə endirib. Sadiqcan Azərbaycan muğamına əhəmiyyətli yeniliklər gətirərək "Segah", "Mirzə Hüseyn Segahı" və "Mahur" muğamlarını təkmilləşdirdi. Azərbaycan muğamında "Mahur-Hindi", "Orta Mahur", "Zabul Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Yetim Segah", "Çoban Bayatı"nın yaranması Sadıqcanın yaradıcılığı və Azərbaycan tarı ilə bağlıdır.

1890-cu illərdə Sadıqcanın rəhbərliyi altında Şuşada ansambl yaranmışdı. Ansamblın tərkibinə o dövrün tanınmış müğənniləri və musiqiçiləri daxil idi. Tarzənin şagirdlərindən Qurban Pirimov, Məşədi Cəmil Əmirov, Məşədi Zeynal Haqverdiyev, Şirin Axundov, Mərdi Canıbəyov, Malıbəyli Həmid və digərlərini qeyd etmək olar.

Mirzə Əsəd oğlu Sadıqcan 1902-ci ildə Şuşada rəhmətə gedib və orada dəfn olunub.



***Həsənəli xan Qaradaği, müəllim, şair.***

Görkəmli Azərbaycan maarifpərvəri, şair, pedaqoq, teatr xadimi Həsənəli xan Qaradaği 1848-ci il yanvarın 28-də Şuşada hərbçi ailəsində anadan olub. Öz dövrü üçün mükəmməl təhsil alıb.

Qaradaği istedadlı bir şair kimi şöhrət tapmaqla yanaşı, 60-cı illərin sonlarından müəllimlik fəaliyyətinə başlayıb. Evində uşaqlara dərs deyən Həsənəli xan Qaradaği şagirdlərinə dərsi özünün tərtib etdiyi sadə üsulla: təbaşir və yazı lövhəsi ilə, parta arxasında və ana dilində keçirdi. Dərs zamanı yazı lövhəsi və partadan ilk olaraq istifadə edən məhz Həsənəli xan Qaradaği olub. Həsənəli xan məşhur "Məclisi-fəramuşan" dərnəyinin fəal üzvlərindən biri idi. Çoxlu tanınmış musiqi və ədəbiyyat xadimləri yetişdirib.

Həsənəli xan Qaradaği 1929-cu ildə vəfat edib.

***Cəmil bəy Xazalanski, xeyriyyəçi***



**Şuşa. Poladlı kəndi**

Cəmil bəy Səfi bəy oğlu Xazalanski 1850-ci ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini mollaxanada almış, sonra Şuşa şəhər məktəbində oxumuşdur.

Cəmil bəy xeyriyyəçilik işləri ilə məşğul olur, dullara, yetimlərə, imkansız ailələrə əl tutur, yol çəkdirir, arx qazdırırdı. O, Şuşa

qəzasının Poladlı kəndində kəhriz vurdurmuş, rəiyyətə yardım göstərmişdir.

Cəmil bəyin Bəhram bəy, Cabbar bəy adlı oğlanları vardı.

***Əmir Kazım Mirzə Qacar, hərbçi, general.***



Əmir Kazım Mirzə Bəhmən Mirzə oğlu 1853-cü il may ayının 1-də Şuşa şəhərində anadan olmuşdur. İlk təhsilini Tiflis gimnaziyasında almış, 20 yaşında isə Peterburqdakı Nikolayev süvari məktəbini bitirmişdir.

1873-cü ildə kornet-zabit rütbəsində Əmir Kazım hərbi xidmət üçün Qafqaz Əlahiddə Ordusunun 44-cü Nijeqorod alayına göndərilmişdir. Ən yaxşı süvari zabitlər sırasinda mayor Əmir Kazım Mirzə 1881-ci ildə imperator III Aleksandrın tacqoyma mərasimində iştirak etmişdir.

Podpolkovnik Əmir Kazım Mirzə 1895-ci ildə eskadron komandiri təyin olunub. XX yüzilin ikinci ilində alay komandirinin birinci müavini kimi yüksək vəzifəyə təyin edilən polkovnik Əmir Kazım Mirzə 1910-cu ildə general -mayor rütbəsinə yüksəlmişdir.

Əmir Kazım Mirzə Gövhər xanımla ailə qurmuşdu. Darab Mirzə, Davud Mirzə adlı oğlanları, Mənicə xanım, Ziba xanım, Leyla xanım və Aliyə xanım adlı qızları vardı.

Əmir Kazım Mirzə təkcə hərbçi deyildi. O, xalqımızın maariflənməsində də yaxından iştirak etmiş, Tiflisdə və ayrı-ayrı qəzalarda ibtidai məktəblərin açılmasına maddi cəhətdən kömək göstərmiş və kasıb balalarını öz xərci ilə oxutmuşdur. 1910-cu ildən Qafqaz Müsəlmanları Xeyriyyə Cəmiyyətinin fəxri üzvü seçilmişdir. Onun həyat yoldaşı Gövhər xanım Ağa Ələkbər qızı İsmayılova-Qacar (1862-1927) 1905-ci ildə yaradılmış xeyriyyə cəmiyyətin sədri idi.

Əmir Kazım Mirzənin ən böyük xidmətlərindən biri 1912- ci ildə Tiflisdə Azərbaycan dram cəmiyyətinin təsisi və tamaşa binasinin açılmasinda yaxından iştirakı olmuşdur. 1911-ci ildə dramaturq M.F.Axundovun yüzillik yubileyi də general-mayor Əmir Kazım Mirzə Qacarın sədrliyi ilə keçirilmişdi. 1913-cü ildə "Molla Nəsrəddin" jurnalı daha bir məhkəməyə çəkiləndə onun müdafiəsinə qalxanlar arasında Əmir Kazım Mirzə Qacar da vardı.

Əmir Kazım Mirzə 25 il orduda qüsursuz xidmət etdiyinə görə imperiyanın müxtəlif yüksək orden və medalları ilə təltif olunmuşdu.

Cumhuriyyət qurulandan sonra 1918-ci ildə o da, bir çox vətənsevər hərbçi kimi vətənin ağır vaxtında ordu quruculuq işlərində iştirak etmiş, Gəncənin komendantı təyin olunmuşdu. Aprel çevrilişindən sonra Əmir Kazım Mirzə Qacar Gəncə üsyanında fəal iştirak edir, əsir düşür və 1920-ci ildə Gəncə şəhərində öldürülür.

***Nəcəf bəy Vəzirov, yazıçı-dramaturq***



Nəcəf bəy Vəzirov Azərbaycan dramaturgiyasının inkişafında, onun ideya-estetik məzmun, bədii sənətkarlıq keyfiyyətlərinin zənginləşdirilməsində, milli teatrın yaradılmasında və inkişafında müstəsna rolu olan yazıçı idi.

Bütün ictimai fəaliyyəti və ədəbi yaradıcılığı ilə milli azadlıq hərəkatına yaxından kömək göstərən Nəcəf bəy Vəzirov Azərbaycan ədəbiyyatında faciə janrının əsasını qoymuş, Azərbaycanda feodal-patriarxal quruluşa qarşı çevrilmiş maarifçilik hərəkatının genişlənməsində yaxından iştirak etmişdir.

Nəcəf bəy Vəzirov 1854-cü il aprel ayının 2-də Şuşa şəhərində anadan olmuşdur. Bakı Realnı Məktəbində oxuyarkən böyük

Azərbaycan alimi, o zaman məktəbdə dərs deyən Həsən bəy Zərdabi ilə tanışlığı onun fikri inkişafına qüvvətli təsir göstərir. Rusiya Kənd Təsərrüfatı Akademiyasında təhsil alaraq bir müddət Dilicanda meşəbəyi işləmişdir. Nəcəf bəy Vəzirov 1895-ci ildə Bakıya köçür. Burada lazımi imtahanları verib, vəkillik vəsiqəsi alır və məhkəmələrdə çalışır. O, burada uzun müddət ayrı düşdüyü bədii yaradıcılığını davam etdirir, “Yağışdan çıxdıq, yağmura düşdük”, “Müsibəti-Fəxrəddin”, “Pəhlivani-zəmanə” kimi klassik əsərlərini yaradır. N. Vəzirov 1903-cü ildə Bakı dumasına katib seçilir. Az sonra isə şəhər maarif şöbəsi müdirinin müavini təyin edil ir və keçmiş müəllimi Həsən bəy Zərdabi ilə birlikdə doğma xalqının maariflənməsi üçün yeni məktəblərin, müxtəlif tərbiyə ocaqlarının açılması işində yaxından iştirak edir.

1905-ci il inqilabı N. Vəzirovun ədəbi-ictimai fəaliyyətinin genişlənməsi üçün münbit zəmin yaradır. Maarifpərvər ədib bir tərəfdən Bakıda çıxan “Həyat”, “İrşad”, “Tazə həyat”, “Açıq söz” və s. qəzetlərdə “Dərviş” imzası ilə “Balaca mütəfərriqələr” başlığı altında burjua-mülkədar cəmiyyətinin içtimai eyiblərini açan felyetonlar yazır, digər tərəfdən dram dərnəklərinə rəhbərlik edir, Azərbaycanda teatr sənətinin inkişafı, aktyor nəslinin yetişməsi üçün yorulmadan fəaliyyət göstərir.

Görkəm 1 i dramaturq 1926-cı il iyul ayının 9-da Çuxuryurd yaylağında ürək tutmasından vəfat etmişdir.



***Məşədi İsi, xanəndə***

Məşədi İsi Azərbaycan şairlərinin qəzəl və qoşmaları ilə yanaşı, Hafizin və Sədinin əsərlərini də ilhamla oxuyardı. Cəlil bəy Bağdadbəyovun yazdığına görə, Azərbaycan şairlərinin şeirlərini ilk dəfə məclislərdə oxuyan Məşədi İsi olmuşdur.

Məşədi İsi təkcə Qarabağda deyil, Azərbaycanın bir çox şəhərlərində – Gəncədə, Ağdaşda, Şamaxıda, Bakıda dəfələrlə toy məclislərinə, şənliklərə dəvət edilmişdi. O, şamaxılı Mahmud ağanın məclislərində aylarla oxumuş və İran hökmdarı Nəsrəddin şah tərəfindən bir neçə dəfə Tehran şəhərinə çağırılmışdı.

Şah sarayında İran müğənniləri ilə olan bir müsabiqədə qələbə qazanan Məşədi İsi "Şiri-Xurşud" ordeni ilə təltif edilmişdi.

Məşədi İsi XIX əsrin 90-cı illərində tarzən Sadıqcan ilə birlikdə Orta Asiyanın Aşqabad, Səmərqənd, Daşkənd və digər şəhərlərində xalq şənliklərində iştirak etmişdir. Məşədi İsinin böyük muğam ustası olmaqla yanaşı, həm də bir təsnifxan kimi klassik Azərbaycan xanəndələri arasında xüsusi yeri olub. Onun "Rast" və "Mahur" təsnifl əri çox məşhur idi. Təsniflərdə el ədəbiyyatı nümunələrindən, Vaqifin, Zakirin bir çox müxəmməs və qoşmalarından istifadə edirdi. Məsələn, xanəndə Qasım bəy Zakirin "Dilbər" rədifli gəraylısından istifadə edərək "Rast" təsnifini bəstələyib:

**Bir bağda bülbül olmasa,**
**Gülün nə miqdarı, dilbər.**
**Dal gərdənə tökülməsə,**
**Telin nə miqdarı, dilbər.**

Görkəmli ədəbiyyatşünas Salman Mümtaz yazırdı: ***"Bu gəraylını qarabağlı məşhur xanəndə Məşədi isi Aşqabadda təsnif məqamında oxuduğunu şəxsən eşitmişəm***

Görkəmli musiqişünas Firudin Şuşinski özünün "Azərbaycan xalq musiqiçiləri" kitabında yazırdı: "Əlbəttə, Məşədi İsinin Hacı Hüsü, Bülbülcan kimi çox zil səsi olmamışdı. Lakin o, muğamatın texnikasına dərindən bələd olduğundan xoş səsi ilə öz dinləyicilərini heyran etmişdir. Məşədi İsi kamil bir sənətkar idi. Onun ustad bir xanəndə olması haqqında müasiri, şuşalı Çıraq Məhəmməd oğlu söyləyirdi:

***Məşədi isinin səsi çox çil deyildi. Amma bütün muğamları çox ustalıqla oxuyardı. Dünyada Məşədi isi kimi "Osmanlı " oxuyan çətin tapılar.***

**Şuşanın "Çöl qala məhəlləsi"ndə Səlim bəyin qardaşı oğlu Rüstəm bəyin toyu idi. Adamları toya dəvətnamə ilə buraxırdılar. Mənim 17-18 yaşım olardı. Dayım, dəllək Kərbəlayı Hüseyn Zeynal oğlu toya bir dəllək kimi dəvət olunduğundan məni də özü ilə aparmışdı.**

**Səlim bəyin böyük salonu altı arşınlıq Qarabağ xəlisi ilə döşənmişdi. Qaz lampasının işığı adamın gözünü qamaşdırırdı. Ha mı mil li ge yim də idi.**

**Toya iki xanəndə dəstəsi – Gülablı aşıqları və qarmonçalan dəvət edilmişdi. Toyun padşahı şair Növrəs Mirzə Ələsgər, fərraşı isə Lotu Qulu idi. Xanəndə Məşədi İsi, tarçalan Qulu (Xəstə Qasımın qardaşı) ilə salonun görkəmli yerində əyləşmişdi. Salonun başında isə Hacı Hüsü ilə Sadıqcan oturmuşdu. Ayaq tərəfdən Gülablı aşıqları (Abbasqulu, Nəcəfqulu, Həşim, Heydər) əyləşmişdilər. Aşıqlar ilə qabaq-qabağa qarmonçu İsi bəy qarmonu əlində hazır saxlamışdı.**

**Toyun padşahı Növrəs əmr etdi ki, Hacı Hüsü bir dəstgah başlasın. O, saat yarıma "Şüştər" oxudu. Hacı Hüsü oxuyandan sonra toyun padşahı əmr etdi ki, Məşədi İsi dəstgah başlasın. Yadımdadı, tarzən Qulu Məşədi İsiyə dedi:**

**- Hacı Hüsüdən sonra hansı dəstgahı başlayacaqsan?**

**Məşədi İsi:**

**- Mən dəstgah başlamayacağam. Hacı Hüsü camaatı yatırdıb, mən isə oyadacağam.**

**Qulu:**

**- Nə ilə oyadacaqsan?**

**Məşədi İsi:**

**- "Osmanlı" ilə.**

**Məşədi İsi qavalı əlində oynadıb ağzını açdı:**

**Sübhi tezdən oyandım,**
**Dərdi-qəmə boyandım.**
**Daş olsaydım, əriyərdim,**
**Torpaq idim, dayandım.**

**Məşədi İsi oxuyub qurtaranda salonu sürəkli alqış bürüdü. Məclisi şən keçirdiyinə görə, o gecə Məşədi İsiyə qızıl suyuna çəkilmiş gümüş padnosun üzərində məndülədən bir paltarlıq və 500 manat qızıl pul hədiyyə verildi".**

Görkəmli xanəndə Məşədi İsi 1905-ci ildə Ağdamda vəfat edib.

***Səməd bəy Mehmandarov,***

***hərbçi, artilleriya general-leytenantı.***



Səməd bəy Mehmandarov rus ordusunun artilleriya generalı, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, sovet hərb xadimi kimi tanınıb.

Səməd bəy Mehmandarov 1855-ci il oktyabrın 16-da Şuşada doğulub. Bakıda gimnaziya təhsili alıb, 16 yaşında Peterburq II Konstantin Artilleriya Məktəbinə daxil olub. 1875-ci ilin dekabrında podporuçik rütbəsi alıb və şücaətlərinə görə III dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilib. 1890-cı ildə kapitan, 1898-ci ildə podpolkovnik, 1901-ci ildə polkovnik, 1904-cü ildə general-mayor rütbəsi alıb. Rus-yapon müharibəsində böyük rəşadət göstərib, ona 1908-ci ildə tam artileriya general-mayoru rütbəsi verilib.

I Dünya müharibəsi başlanarkən Varşava ətrafında xidmət edən general S. Mehmandarovun komandir olduğu 21-ci piyada diviziyasının tərkibində dörd alay var idi. Diviziya komandiri S. Mehmandarov Lodz istiqamətində aparılmış döyüşdə alman generalı Makenzonun ordusu üzərində qələbə çalmışdır.

1915-ci ildə general S. Mehmandarov korpus komandiri təyin edilmişdir. 1917-ci ilin əvvəllərində Rusiyanın bütün, eləcə də İngiltərənin, Fransanın, Rumıniyanın bir neçə hərbi ordenləri ilə təltif edilmişdir.

1917-ci il Fevral Burj ua Demokratik İnqil abı baş verərkən S.Mehmandarov Qafqazda idi. General S.Mehmandarov Azərbaycan Xalq Cümhuriyyəti hökümətində 1918-ci il dekabrın 25-dən hərbi nazir vəzifəsini tutmuş və müstəqil Azərbaycanın qısa müddətdə 40 minlik ordusunu yaratmağa nail olmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra Nəriman Nərimanovun şəxsi zəmanəti əsasında hərbi fəaliyyətini davam etdirmiş və 1921-1928-

ci ill ərdə Birləşmiş Azərbaycan Komandirlər Zaqafqaziya Hərbi Hazırlıq məkləblərində müəllimlik etmişdir.

General Səməd bəy Mehmandarov 1931-ci il fevralın 12-də Bakıda vəfat etmişdir.

### *Mehdiquluxan Vəfa, hərbçi*



Mehdiquluxan Vəfa 1855-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Anası ona babasının – Mehdiqulu xan Cavanşirin adını vermişdir. Ailə təlim-tərbiyəsi almış, çar ordusunda xidmət etmişdir. O, məşhur şair Xurşudbanu Natəvanın böyük oğludur. Mehdiquluxan Xasay xan oğlu Usmiyev 1895-ci il fevralın 26-da podpolkovnik rütbəsinə yüksəlir.

1874-cü ildə Peterburqdakı zadəgan balalarına məxsus Paj hərbi korpusunda təhsil alıb. Rus-türk müharibəsi (1877-1878) illərində Dunay ordusunun sıralarında süvari alayın komandiri olmuşdur. 1999-cu ildə Gürcüstan Dövlət Arxivindən əldə edilmiş fotoşəklinin altında “1877-ci il, Dunay” yazılmışdır. İki il cəbhəl ərdə böyük şücaət və igidlik göstərdiyinə görə, knyaz Mehdiquluxan Usmiyev dörd dəfə ordenlə təltif edilmişdir. O, IV dərəcəli “Müqəddəs Anna” (igidliyə görə),III dərəcəli “Müqəddəs Stanislav” (qılınc və bantla birgə), üçüncü dərəcəli “Müqəddəs Anna “ (qılınc və bantl a birgə) və IV dərəcəli “Müqəddəs Vladimir” ordenlərinə layiq görülmüşdür.



***Mehdiquluxan anası Xurşudbanu Natəvan və bacısı Xanbikə ilə***

Mehdiquluxan həm də şair idi, “Vəfa” təxəllüsü ilə şeirlər yazırdı.

O, 1897-ci il fevral m 17-də Şu ş ada öz vəsaiti hesabına Azərbaycan əhalisi üçün qiraətxana açmışdır.

Mehdiquluxan Səltənət bəyim Kərim ağa qızı Cavanşirlə ailə qurmuşdu. Onların Xasay xan adlı oğlu,
Ağabikə, Bilqeyisbikə və Əzizbikə adlı qızları vardı.

Mehdiquluxan 1900-cü ildə Tiflis şəhərində Mixaylovsk küçəsindəki mülkündə vəfat etmişdir.

Öz vəsiyyətinə görə Ağdamdakı imarətdə, ata-babalarının yanında dəfn olunub.



***Əli bəy Novruzov,***
***hüquqşünas***

Əl i bəy Bəyl ər bəy oğlu 1859-cu ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini molla yanında almışdır. Sonra şəhər məktəbini bitirmişdir.

Tiflis şəhər gimnaziyasında oxumuşdur.

Sonra Rusiyada Xarkov Universitetinin hüquq fakültəsinə qəbul olmuşdur.

Əl i bəy Bəy l ər bəy oğlu ilkin olaraq ali məkr əbdə oxuyan şuşalılardan biridir.

Universiteti tamamlayandan sonra hüquq dairələrində çalışmışdır. Sonra vəkil işləmişdir.

Haqqında başqa məlumat yoxdur.



***Cabbar Qaryağdıoğlu, xanəndə***

Cabbar Qaryağdıoğlu. Bəstəkar, musiqi xadimi, Azərbaycanın xalq artisti (1935). Azərbaycan xanəndəlik sənətinin ən görkəmli nümayəndələrindən biridir.

Cabbar Qaryağdıoğlu 1861-ci ildə Şuşada Seyidli məhəlləsində anadan olmuşdur. Cabbargilin evi şəhərin ən səfalı yeri olan Cıdır düzünə yaxın idi. Uşaqlıqdan məhəllə uşaqları ilə “Qaya baş”ında, “Qırx pilləkən”də, “Ağzıyastı kaha”da quzu otaran Cabbar saatlarla “Dəlikdaş”m üstündə oturaraq zümzümə edərdi. Sonralar bu zümzümələr XIX əsrin ən böyük xanəndəsinin yetişməsinə səbəb oldu.

Azərbaycanda opera sənətinin meydana gəlməsində də onun rolu böyükdür. Opera səhnəmizin ilk aktyoru məhz Qaryağdıoğlu olmuşdur.

O, həm böyük sənətkar, həm də qayğıkeş müəll im idi. Bu gün Azərbaycanın musiqi tarixində Cabbar Qaryağdıoğlunun adı böyük məhəbbətlə çəkilir. Onun sənətinin sirləri gənc xanəndələrə öyrədilir.”Şahnaz”ı, “Qatar”ı, “Heyratı”sı musiqi xəzinəmizin ən qiymətli inciləridir. Şərqin ən qüdrətli xanəndələrindən biri kimi sevilir.

***Bəhram bəy Axundov,***
***həkim***



Bəhram bəy Mirzə Cəfər bəy oğlu 1861-ci ildə Şuşa şəhərində doğulmuşdur. Şəhər Realnı Məktəbini, sonra gimnaziyanı bitirmişdir.

1893-cü ildə Fransanın Lill Akademiyasının qarışıq elmlər (fizika, kimya, biologiya) fakültəsinin aspiranturasına qəbul olunmuşdur. 1896-cı ildə aspiranturanı başa vuran B.Axundov həmin akademiyanın tibb fakültəsində təhsilini davam etdirmiş və tibb doktoru diplomuna sahib olmuşdur.

1904-cü ildə Xarkov universitetinin tibb fakültəsində yoxlama imtahanından uğurla çıxan Bəhram bəyin həkimliyi təsdiq olunmuşdur.

Bəhram bəy Axundov Azərbaycan Xalq Cümhuriyyəti Milli Məclisinin üzvü idi. O, inqilabdan qabaq Bakı tibb müəssisələrində həkim işləmiş, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Nazirlər Kabinetində həkim, 1920-1925-ci illərdə Dövlət Sığorta Komitəsinin inanılmış həkimi olmuşdur.

Bəhram bəy Axundov 1932-ci ildə vəfat edib.

***Əmənulla Mirzə Qacar,***

*general-mayor.*



Əmənulla Mirzə Bəhmən Mirzə oğlu 1862-ci il yanvarın 8-də Şuşa şəhərində anadan olmuşdur. Sankt-Peterburqdakı hərbi kadet korpusunu bitirmişdir. On yeddi yaşında poruçik rütbəsi alan Əmənulla Mirzə 1879-cu il iyulun 19-dan xidmətə başlamış, doqquzuncu Kuban piyada-kazak divizionunda komandir olmuşdur. 1900-cu il mayın 6-da nizami kazak batalyonundakı nümunəvi xidmətinə görə Əmənulla Mirzə Bəhmən Mirzə oğluna yasavul (mayor) rütbəsi verilmişdir.

1915-ci ildə üçüncü Kuban kazak-piyada divizionuna komandirlik edən Əmənulla Mirzəyə həmin il aprelin 25-də polkovnik rütbəsi verilmişdir. Güclü döyüşlər zamanı ayağından ağır yaralanan Əmənulla Mirzə arxa cəbhəyə göndərilsə də, hərbi fəaliyyətini dayandırmamışdır.

Kuban kazak nizami hissələrindəki nümunəvi xidmətlərinə görə Əmənulla Mirzə Qacar 1917-ci ildə general-mayor rütbəsi almışdır.

Fevral Burjua Demokratik İnqilabından sonra Qafqaza qayıdan Əmənulla Mirzə bir müddət Tiflisdə və Şuşada yaşamışdır. Bolşevik təzyiqinə dözməyən və bolşevik təhlükəsini əvvəlcədən hiss edən Əmənulla Mirzə 1929-ci ildə İrana mühacirət etmişdir.Tehranda hərbi məktəbdə işləmiş, İran nizami ordusunun yaradılmasında yaxından iştirak etmişdir.

Əmənulla Mirzə Nəvvab bəyim Hacı Hüseynəli bəy qızı ilə ailə qurmuşdu. Səyavuş Mirzə, Xosrov Mirzə adlı oğlanları, Səfiyyə xanım adlı qızı vardı.

Birinci Dünya müharibəsi illərində Avstriya cəbhəsində vuruşan igid süvari komandirin döyüş fəaliyyəti III dərəcəli "Müqəddəs

Vladimir", II dərəcəli "Müqəddəs Anna" və III dərəcəli "Müqəddəs Stanislav" ordenlərinə layiq görülmüşdür.

İran Milli Məclisinin üzvü, İran-Sovet dostluğu cəmiyyətinin sədri, general-mayor Əmənulla Mirzə Qacar 1937-ci ildə Tehranda vəfat etmişdir.



***Firidun bəy Köçərli, maarifçi, ədəbiyyatşünas.***

Firidun bəy Köçərli 1863-cü il yanvarın 26-da Şuşa şəhərində anadan olub. 1872-1876-cı il 1 ərdə Şuşada Mirzə Kərim Münşinin mədrəsəsində təhsil alır. Daha sonra 1876-cı ildə Şuşa şəhər məktəbinə daxil olur. 1878-ci ildə Aleksey Çernyayevski Zaqafqaziya Müəllimlər Seminariyasına tələbə toplamaq məqsədi ilə bu məktəbə gəlir, Firidun bəyi də təhsil almaq üçün Qoriyə aparır. 1879-1885-ci illər ərzində o, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında təhsil alır. Təhsil illərində müəllimləri A.O.Çernyayevski və M.Kipiani ilə yaxın münasibət saxlayır.

1885-ci ildə seminariyanı bitirdikdən sonra İrəvan gimnaziyasına təyinat alır. 1885-1890-cı illərdə gimnaziyada ana dili, hüsnxətt fənlərini tədris etmiş, pansion mürəbbisinin köməkçisi vəzifəsini daşımışdır. Pedaqoji sahədə müvəffəqiyyətlərinə görə dəfələrlə mükafatlandırılmışdır. Ona kollec katibi, titulyar müşavir və mülki müşavir rütbələri verilmişdir. 1893-1894-cü illərdə yenidən İrəvan gimnaziyasında fəaliyyət göstərir. 1895-ci ildə isə İrəvan şəhərini tərk edir. Elə həmin ildə Zaqafqaziya Müəllimlər Seminariyasının "Tatar şöbəsi"nə Azərbaycan dili və şəriət müəllimi təyin edilir. 1918-ci ilə qədər Qoridə pedaqoji fəaliyyətini davam etdirir. 1897-ci ildə Vəkilovlar nəslindən olan Badisəba xanımla ailə həyatı qurur. 1910-cu ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan

şöbəsinə müvəqqəti təlimatçı, sonradan isə inspektor vəzifəsinə təyin olunmuşdur.

1916-1917-ci illərdə seminariyanın Azərbaycana köçürülməsi üçün təşəbbüs göstərmiş, təkliflər irəli sürmüşdür. Siyasi proseslərə qoşularaq “Müsavat” partiyasına üzv olmuşdur.

1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini tədris ləvazimatı və avadanlığı ilə birlikdə öz xərci ilə Qazax şəhərinə köçürüb, bunun əsasında Qazax Müəllimlər Seminariyasını yaradıb. Firidun bəy Köçərli seminariyanın direktoru təyin olunur. Sentyabrın 17-dən ilk dərslər başlayır. Sonradan Qazaxda ilk uşaq evi açır.

Firidun bəy 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının üzvü seçilir və “İstiqlal bəyannaməsi”ni imzalayır, 1918-ci il fevralın 1-də Müsavat Partiyasının Səyyar Bürosu Mərkəzi Komitəsinin təşəbbüsü ilə təşkil edilmiş Qazax şöbəsinə sədr seçilir. Sovet işğalına qədər Qazax Müəllimlər Seminariyasına rəhbərlik edir.

Qori seminariyasında təhsil alarkən 1884-cü ildə “Təlimi-Sokrat” əsərini yazıb. İrəvan gimnaziyasında çalışdığı illərdə Zöhrabzadə ilə birlikdə “Təlimi-lisani-türkü” adlı dərslik tərtib etmişdir. 1886-cı ildə ilk teatr tamaşası hazırlayır. 1890-cı ildə isə “Müsyö Jordan və dərviş Məstəli şah” komediyasını tamaşaya qoyur.

1891-ci ildə “Təlimi-Sokrat” adlı kitabı Bağçasarayda “Tərcüman” mətbəəsində, 1892-ci ildə isə A.S.Puşkindən tərcümə etdiyi “Torçu və balıq” mənzum nağılı İrəvan şəhərində kitab halında çapdan çıxmışdır. M.Y.Lermontovun “Üç xurma ağacı” və A.Koltsovun “A kişi, niyə yatmısan?” şeirlərinin tərcüməsindən ibarət kitabı Şuşada çap edilmişdir. “Tatar komediyaları” adlı ilk elmi məqaləsi “Novoye obozreniye” qəzetində, 1898-ci ildə isə “Ərəb əlifbası və onun qüsurları” silsilə məqaləsi “Qafqaz” qəzetində dərc olunmuşdur.

1900-cü ildə Qori Müəllimlər Seminariyasının Ümumdünya Paris sərgisində nümayiş etdirilən eksponatları sırasına F.Köçərlinin kitabları da daxil edilir.

1903- cü ildə Tiflisdə “Azərbaycan tatarlarının ədəbiyyatı” kitabı rus dilində çap edilir. Elə həmin ildə M.F.Axundzadənin (Axundov) “Aldanmış kəvakib” povestini rus dilinə çevirir.

1904- cü ildə A.P.Çexovun “At familiyası” hekayəsini tərcümə edib, kiçik bir müqəddimə ilə “Şərqi-Rus” qəzetində dərc etdirir. 1906-cı ildə “Molla Nəsrəddin” jurnalının nəşrə başlamasını təqdir edərək jurnalın birinci üç aylıq fəaliyyəti barədə icmal hazırlayıb “Tiflisskiy listok” qəzetində dərc etdirir. “İrşad” qəzetində “Bir darülmüəllimin kifayətdir” adlı məqalə ilə çıxış edərək Azərbaycanda müstəqil müəllimlər seminariyasının yaradılması məsələsini qaldırır.

Cəlil Məmmədquluzadənin “Usta Zeynal” kitabçası haqqında eyni adlı məqaləni “Znaniye” qəzetində çap etdirir. 1911-ci ildə M.F.Axundzadənin anadan olmasının 100 illik yubileyi münasibətilə Tiflisdə keçirilən təntənəli yığıncaqda məruzə ilə çıxış edib. “Mirzə Fətəli Axundov” adlı kitabı çap olunub.

1912-ci ildə uşaqlar üçün yazdığı “Balalara hədiyyə” kitabı Bakıda “Kaspi” mətbəəsində çap olunur. 1913-cü ildə yazdığı “Azərbaycan ədəbiyyatı tarixi” adlı üçcildlik əsərini tamamlamışdır. 1920-ci ildə “Vətən dili”nin I hissəsinin yenidən işlənməsində xidmətləri olmuşdur. Onlarla dərsliyə düzəliş etmiş, nəzəri materialı, hekayələri artırmış, metodika və stilistikasmı zənginləşdirmişdir.

Ölümündən sonra 1925-ci ildə “Azərbaycan ədəbiyyatı tarixi materialları” kitabının I hissəsi, 1926-cı ildə isə kitabın II hissəsi çap edilmişdir. Uşaqlar üçün yazdığı “Balalara hədiyyə” kitabı isə 1967-ci, 1972-ci və 2013-cü illərdə çap edilmişdir.

1920-ci ilin mayında Qazax kommunistləri F.Köçərlini və digər “Müsavat” funksionerlərini “xalqa xəyanətdə”, “milli nifaq törətməkdə”, “torpaq və mülk zəbt etməkdə”, general-qubernator Ə. Xoyskinin etibarlı şəxsləri olmaqda ittiham etdilər. Qazax İnqilab Komitəsinin Gəncə Fövqəladə Komitəsinə təqdimatına əsasən ədib həbs olunmuş, 20-ci diviziyanın 7-ci xüsusi bölməsi xüsusi şöbəsində şahidlər dindirilmədən, verilmiş izahatlar nəzərə

alınmadan güllələnməsi haqqında qərar çıxarılmışdır. Qərar 7-ci xüsusi bölmənin rəisi Liberman və fövqəladə komissar Həmid Sultanov tərəfindən təsdiq edilmiş, hökm yerinə yetirilmişdir.

***Keçəçioğlu Məhəmməd,***
***xanəndə***



Keçəçioğlu Məhəmməd 1864-cü ildə Şuşa şəhərində anadan olmuşdur. O, Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi rol oynamışdır. Xanəndəlik sənətini Şuşada Xarrat Qulunun məktəbində və məşhur xanəndə Məşədi İsidən öyrənmişdir.

Qastrol səfərləri də onun yaradıcılığında geniş yer tutur. Xanəndəliklə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur.

1926-cı ildə Ü. Hacıbəyli tərəfindən Azərbaycan Dövlət Filarmoniyasına dəvət olunmuş və gənc xanəndələr yetişdirmişdir.

Keçəçioğlu Məhəmməd 1940-cı il noyabrın 20-də Qubada vəfat etmişdir.



***Haşım bəy Vəzirov, ictimai xadim, yazıçı-jurnalist.***

Haşım bəy Vəzirov 1867-ci ildə Şuşa şəhərində anadan olmuş və ilk təhsilini də orada almışdır. Onun ulu babası Mirzə Əliməhəmməd ağa Qarabağ xanının vəziri olmuş, övladları xanlıqda bəyzadələr kimi məşhurlaşmış, "vəzir" ifadəsini özlərinə soyad seçərək Vəzirovlar adlanmışlar. Haşım bəy Vəzirov öncə molla yanında, müdərrislərdən Molla Həmid və Molla Əlidən dərs almışdı. Sonra şəhər məktəbində oxumuşdu. İrəvan Müəllimlər Seminariyasını bitirmiş, sonra Cavanşir qəzasının Alpout, Şəki qəzasının Kiçik Köynük, Cavanşir qəzasının Bərdə kəndlərində müəllimlik etmişdir. Bir müddət isə məktəb müdiri işləmişdir.

İmperator II Nikolayın tacgüzarlığı ilə bağlı Şuşada "rus- tatar" məktəbi yaradılır. Mir Haşım bəyi bu məktəbə direktor vəzifəsinə dəvət edirlər. Məktəbdə işləməklə bərabər, şəhər bələdiyyə idarəsinə qlasnı seçilmiş, ictimai işlə qızğın məşğul olmuşdur. Şuşa Realnı Məktəbinin hazırlıq sinfində ana dilindən dərs demişdir.

H.Vəzirov 30 il jurnalistika sahəsində fəaliyyət göstərmişdir. "Tazə həyat" (1907-1908), "İttihad" (1908-1909), "Səda" (1909-1911), "Kavkazets" (1911, rus dit ində), "Sədayi- vətən" (1911), "Sədayi-həqq" (1912), "Sədayi-Qafqaz" (1915-1916) qəzetlərini və "Məzəli" (1914-1915) jurnalını nəşr etdirmişdir.

Mir Haşım bəy təəssübkeş bir millətçi idi. 1905-1906-cı illərdə erməni quldurlarına qarşı mübarizə aparmışdı. 1906-cı ildə hökumət tərəfindən tutulub sürgün edilməsinə qərar verilmişdi. Onun sürgün olunması barədə artıq hökm çıxarılmışdı. Lakin xəstə olduğundan sürgünə göndərilməsi təxirə salınsa da, qubernatorun razılığı ilə sağalan kimi Şuşadan Stavropola sürgün edilmişdir. Onun sürgün həyatı uzun çəkmir. Artıq 1906-cı ilin ortalarında sürgündən azad

olunan Mir Haşım bəy Şuşaya, sonra Bakıya qayıdır və ömrünün axırmadək Bakını özünə daimi məskən seçir. Bakıya qayıtdıqdan sonra Əhməd Ağaoğlunun "İrşad" qəzetilə əməkdaşlıq edən Mir Haşım bəy sonra bir müddət qəzetin müvəqqəti redaktoru olub. "İrşad"m on beş nömrəsi onun redaktorluğu ilə çıxıb. "İrşad"dakı fəaliyyəti ilə Mir Haşım bəyin peşəkar mühərrirlik dövrü başlayıb. Bundan sonra o, özü müstəqil bir qəzet yaratmaq fıkrinə düşür və 1907-ci il aprel in 1-də "Tazə həyat" qəzetini nəşr etdirir. Bu qəzet tərəqqipərəst mövqe tutduğundan uzun müddət yaşaya bilmir, 1908-ci il oktyabrın 7-də qapanır. Sonra Haşım bəy "İttifaq" qəzetini nəşr etdirir. "İttifaq" da 1909-cu ildə bağlanır. Həmin ildə o, "Səda" qəzetini nəşrə başlayıb. Bu qəzet Haşım bəyin nəşr etdiyi qəzetlər içərisində ən çox yayılanlardandır.

1911-ci ildə Bakıdakı bir çox mühərrirlərlə bərabər, Haşım bəy Vəzirov da həbs olunur. Sonra həbsdən çıxmağa müvəffəq olur. "Səda" qəzeti qapandıqdan sonra rus dilində "Qafqazest" "Sədayi-vətən", "Sədayi-həqq", nəhayət, "Sədayi- Qafqaz" qəzetlərini nəşr edir. Bu axırıncı qəzet 180 nömrə çıxdıqdan sonra hökumət tərəfindən rəsmən qapanmışdır. Haşım bəy məşhur məzhəkə jurnalı olan "Məzəli"nin də mühərriri idi. Bu jurnal "Molla Nəsrəddin"dən sonra mətbuat tarixində ən görkəmli məzhəkə jurnalıdır. Burada günün siyasi həyatı kəskin bir qələm ilə əks olunur.

"Məzəli" yalnız ümumi məsələlərdən yox, ölkənin daxili vəziyyətindən, şəhər həyatından da bəhs edirdi. Burada köhnəpərəstlər, avamlar, maarif və mədəniyyət düşmənləri, rüşvətxorlar, yalançı ruhanilər şiddətlə tənqid olunurdular. "Məzəli"də Əli Nəzmi, Məmməd Səid Ordubadi, Əlağa Vahid,
Cənnəti və s. qüvvətli qələm sahibləri iştirak edirdilər. Haşım bəy Vəzirov həm də yaxşı yazıçı idi. O, "Döymə qapımı, döyərlər qapını", "Evlənmək su içmək deyil", "Xan-xan" adlı komediyalar yazmışdır. Bu komediyalarında köhnə adətlərə, ailə-məişət məsələlərində xəstə əhvali-ruhiyyələrə gülmüşdür. Onun "Döymə qapımı, döyərlər qapını" və "Evlənmək- su içmək deyil" komediyaları Bakıda (1899, 1906, 1907) səhnəyə qoyulmuşdur. "Döymə qapımı, döyərlər qapını" komediyası "Səda" mətbəəsində

(1922) kitabça şəklində çap olunmuşdur. 1913-cü ildə Haşım bəy şəhər bələdiyyə idarəsinin fəaliyyətindən bəhs edən "Uprava xalanın qızı Tramvay xanımın toyu" adlı birpərdəli məzhəkə də yazmışdır.

Haşım bəyin rus dilindən Azərbaycan türkcəsinə bir neçə tərcüməsi də var. Bunların içərisində V.Şekspirin məşhur "Otello" əsərinin tərcüməsini göstərmək olar. Əsər 1904-cü il avqustun 22-də Şuşada yerli həvəskarlar tərəfindən tamaşaya qoyulmuş, Otello rolunu H.Vəzirov özü oynamışdır.

Haşım bəy "İrşad"m əməkdaşları ilə ixtilaf aparmışdır. Üzeyir bəy Hacıbəyli "İrşad"çmm savabı" məqaləsi ilə ona kəskin cavab vermişdir. H.Vəzirov 1914-1915-ci illərdə redaktoru olduğu "Məzəli" jurnalında Üzeyir bəy Hacıbəylini dəfələrlə tənqid etmişdir. "Leyli və Məcnun" operası haqqında ilk rəyin müəllifidir. H.Vəzirov Molla Pənah Vaqifin şeir məcmuəsini də çap etdirmişdir (1908).

Haşım bəy Vəzirov 1916-cı ildə vəfat edib.



***Əhməd bəy Ağaoğlu,***
***ictimai xadim, jurnalist.***

Əhməd bəy Ağayev (Ağaoğlu) 1869-cu ildə Şuşada məşhur ziyalı və zadəgan ailəsində dünyaya gəlib. Kiçik yaşlarında babası Mirzə Həsəndən ərəb, fars, rus dillərini və xəttatlıq öyrənir. Təhsilini artırmaq üçün 1888-ci ildə Parisə gedən Əhməd bəy orada tanınmış fransız şərqşünasları Ernest Renan və professor Ceyms Darmestete ilə tanış olur. O, həmin illərdə Sankt-Peterburq, sonra isə məşhur Sorbonna universitetlərində təhsil alır. Beş dilə mükəmməl yiyələnən Əhməd bəy o zaman həm yerli, həm də digər əcnəbi mətbuatlarda maraqlı məqalələri ilə çıxış edir. 1894-cü ildə fransız dil ini tədris etmək məqsədi ilə vətənə qayıdır. Tezliklə ictimaiyyətdə tanınmağa başlayır. 1907-ci ildə neftxuda və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev "Kaspi" qəzeti ilə əməkdaşlıq üçün Əhməd bəyi Şuşadan Bakıya çağırır. Bakıya köçən istedadlı jurnalist Əlimərdan bəy Topçubaşovla birgə "Kaspi"nin həmmüəlliflərindən biri kimi fəaliyyət göstərir. Tiflis senzura komitəsinin senzorları Qaraxanov və Kişmişov kimi şovinistlərin düşmən təbliğatı nəticəsində yuxarı dairələrə anti-islamist kimi tanıdılır. Hər tərəfdən təqiblər və mənəvi zərbələr onu göz açmağa qoymurdu. Ancaq Əhməd bəy geri çəkilmir, bilirdi ki, zülmətdə inləyən Azərbaycanın ümidi yalnız onun kimi ziyalı lar dır.

Əhməd bəy Ağaoğlu Bakının neftli torpaqlarının xaricilərə verilməsinin qarşısını almaq məqsədilə 1905-ci ildə Sant-Peterburqa gedir, çar II Nikolayla görüşərək ona qəti etirazını bildirir. O, öz əsərlərində milli qurtuluşa gedən yolun cəmiyyətin mədəniyyətindən və təhsilinin inkişafından keçdiyini vurğulayırdı. Qadın azadlığı ideyalarını yayan və bunu azadlıq mücadiləsinin əsas faktoru kimi göstərən Ağaoğlu Azərbaycan ziyalıları arasında

qadına kişilərlə bərabər hüquqların verilməsinə çağıran ilk ziyalılardan idi. 1901-ci ildə çapdan çıxan "İslam dünyasında qadın" adlı kitabında "azad qadınsız milli inkişaf ola bilməz" fikrini faktlarla sübuta yetirir. Çox keçmədən Əhməd bəyin bu arzu və cəsarətli ideyaları həyata keçir.

1906-cı ildə Tiflisdə Qafqaz canışmi Vorontsov-Daşkovun sədrliyi ilə erməni-azərbaycanlı münasibətini qaydaya salmaq üçün sülh danışıqları aparılırdı. Danışıqlarda iştirak edən Əhməd bəy azərbaycanlılara olan ədalətsiz münasibətə qarşı üsyan edir. Yazıçı M.S.Ordubadi "Qanlı sənələr" əsərində bu barədə yazır: ***"...Söz bura yetişəndə cənab Əhməd bəyin başı əsəbdən gicəllənib yerə oturur. Onu sarayın bir otağına aparırlar. Çox keçmədən Ağaöğlu özünə gəlir və qayıdıb iclasda oturur. Cənab Əhməd bəyin milləti uğrunda bu qədər cidd-cəhdlə çalışdığını görüncə onun nə dərəcədə millətsevər olduğu görünür..."***

1918-ci ildə Şərqdə qurulmuş ilk demokratik cümhuriyyət-Azərbaycan Xalq Cümhuriyyətində o dövrdə nəinki Şərqin, hətta Qərbin ABŞ və Böyük Britaniya kimi qabaqcıl dövlətlərinə nümunə olacaq bir hadisə-Azərbaycan qadınına seçkilərdə səsvermə hüquqlarının verilməsi ilə Əhməd bəyin ideyaları gerçəkləşir.

Ə.Ağaoğlu Transqafqaziya Seyminə keçirilən seçkilərdə müsəlman fraksiyasından üzv seçilir və bu müddətdəki fəaliyyəti ilə 1905-ci ildə etnik erməni-müsəlman qırğınlarının qarşısının alınmasında böyük rol oynayır. Bir qədər sonra onun millətçi fikirlərindən İnqilabi düşüncələrindən təşvişə düşən erməni daşnaklarının təhdidlərinə cavab olaraq "Difai" adlı özünümüdafiə təşkilatı yaradır. Birinci Dünya müharibəsinin axırında ingilislər tərəfindən Maltaya sürgün olunur.

Malta sürgünündən Türkiyəyə dönən Əhməd bəy 1920-ci ildə Atatürk ideyalarını yayan "Hakimiyyəti-milliyə" qəzetinin baş redaktoru olur. Atatürk Əhməd bəyə inanırdı, ona görə ki, Ağaoğlu fövqəladə türkçülük və milliyət duyğusu daşıyırdı. Atatürkün arzusu ilə Beynəlxalq Anadolu Agentliyi yaradılır və rəhbərlik Əhməd bəyə tapşırılır. O isə mühüm tapşırığı qısa müddətdə şərəflə yerinə yetirir və beləliklə, Beynəlxalq Anadolu Agentliyinin səsi

dünyaya yayılır. Bu səs imperiyanın yerində gənc bir cümhuriyyət yaratmaqda Türkiyənin sabahlarına geniş üfüqlər açır, atatürkçülərin mücadiləsini dünyaya tanıdır.

1918-ci ilin iyununda Əhməd bəy Nuru Paşanın komandanlığı altında Qafqaz Türk İslam Ordusunun tərkibində Azərbaycana gəlir. On illik ayrılıqdan sonra Bakıda qalmağa qərar verir. Həmin il müstəqillik qazanmış Azərbaycanın Parlamentinə üzv seçilir. Lakin 1920-ci ilin aprelində bolşeviklər Bakıda sovet hakimiyyətini qururlar. Xaricdə olan Əhməd bəy bolşevikləri görmək istəmədiyindən İtaliyadan Türkiyəyə gedərək ömrünün sonuna qədər orada yaşayıb, yaradır. 1921-ci ildən 1925-ci ilədək yaratdığı Beynəlxalq Anadolu Agentliyinin və bir neçə qəzetin baş redaktoru olur. Böyük mütəfəkkir 1939-cu ildə İtanbulda vəfat edir və oradakı Feriköy qəbristanlığında dəfn olunur.

Əhməd Ağaoğlunun xatirəsi ölkəmizdə həmişə böyük ehtiramla yad edilir. 2019-cu ildə Azərbaycan Prezidenti İlham Əliyev Əhməd Ağaoğlunun 150 illiyinin təntənəli surətdə qeyd edilməsi üçün Sərəncam imzalayıb və yubiley ictimaiyyət tərəfindən görkəmli ictimai xadimin ruhuna böyük hörmətlə keçirilib.

***Malıbəyli Həmid,***
***xanəndə, tarzən.***



Həmid İmamqulu oğlu Qurbanov 1869-cu ildə Şuşa yaxınlığındakı Malıbəyli kəndində anadan olmuşdur. O, bir müddət arabaçılıq etmiş, sonralar isə Hacı Hüsünün təşkil elədiyi "Xanəndələr məclisi"nə daxil olaraq, burada Hacı Hüsü və Məşədi İsidən klassik Şərq və Azərbaycan muğamlarını öyrənmişdir.

Həmid xanəndəliklə yanaşı, eyni za-manda tar çalmağı da öyrənmişdi. Onun ilk tar müəllimi Sadıqcan olmuşdur.

Həmid Şuşa məclislərində xanəndə kimi tanmırdı. Onun Şuşada ilk çıxışı Hacı Hüsü, Məşədi İsi, Sadıqcanla birlikdə Nəcəfqulu ağanın məclisində olmuşdu. Bu məclisdəki çıxışından sonra Həmidi tez-tez xalq şənliklərinə dəvət edirlər. O, uzun müddət toy şənliklərində və xalq məclislərində tarzənlər Cavad bəy Xənəzəyski, Məşədi Zeynal, sonrakı dövrlərdə isə Məşədi Cəmil Əmirov və Qurban Pirimovla birlikdə çıxış etmişdir.

Malıbəyli Həmid xanəndə və tarzən olmaqla yanaşı, aktyor kimi də fəaliyyət göstərmişdir. Onun adma Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", Məşədi Cəmil Əmirovun "Seyfəl-Mülk" kimi opera tamaşalarının afişalarında rast gəlinir.

Malıbəyli Həmid məclislərdə çox vaxt özü həm tar çalmış, həm də oxumuşdur. O, tarda bütün muğamları ifa etsə də, əslində, məcl is xanəndəs i idi. Onun oxuduğu "Rast" və "Segah" muğamları bütün Zaqafqaziyada dinlənilirdi. Onun ifasındakı "Segah" müasirlərindən fərqlənirdi. O, "Segah"ı bir neçə versiyada oxumuş, "Yetim Segah"ı və "Orta Segah"ı özünəməxsus formada ifa etmişdir. Malıbəyli Həmid "Segah" muğamına gətirdiyi yeniliyə görə həmin muğama xanəndələr arasında "Həmid Segah" da deyirdilər.

Həmid XX əsrin əvvəllərində ailəsi ilə Gəncə şəhərinə köçmüşdür. O, burada Məşədi Cəmil Əmirovla uzun müddət əməkdaşlıq etmişdi. Məşədi Cəmil tarda Həmidi, Malıbəyli Həmid də Məşədi Cəmili müşayiət etmişdir. Onlar birlikdə Gəncə, Şəmkir, Qazax və Tiflis şəhərlərinə və ətraf rayonlarda keçirilən toy məclislərinə getmiş, orada çıxış etmişdilər.

Malıbəyli Həmid dəfələrlə İranın Rəşt, Ənzəli şəhərlərinə dəvət olunmuşdur.

O, qardaşı Əsgər Qurbanov və kamançaçı Böyükkişi Əliyevlə bir yerdə çıxışlar edib.

1910-cü ildə "Qramafon" şirkətindən dəvət alan Malıbəyli Həmid Riqa şəhərinə getmiş və burada səsini qramofon valına yazdırmışdır. O, "Şur", "Rast", "Yetim Segah", "Hümayun" və təsniflər, el mahnılarını oxumuş, tarı özü çalmışdı. Qardaşı Əsgər Qurbanov da bir neçə muğamı onun müşaiyəti ilə oxumuşdu.

Sonralar Malıbəyli Həmidin səsi batmış və tar çalmaqla daha çox məşğul olmağa başlamışdır. Qarabağ və Gəncə məclislərində, Tiflis şəhərində keçirilən konsertlərdə Malıbəyli Həmid Keçəçioğlu Məhəmmədi, Zabul Qasımı, Musa Şuşinskini, İslam Abdullayevi, Məşədi Məmməd Fərzəliyevi, Məmmədqulu Şuşinskini, Bülbülü tarda müşayiət etmişdir.

Musiqi sahəsində 40 il fəaliyyət göstərmiş Malıbəyli Həmid 1922-ci il martın 22-də Ağdamda vəfat etmişdir.

***Darab Mirzə Qacar,***
***hərbçi***



Darab Mirzə Şahrux Mirzə oğlu 1869-cu il mayın 9-da Şuşa şəhərində anadan olmuşdur. Mükəmməl ailə təhsili almışdır. Tiflis kadet korpusunda oxumuşdur. Sonra Pavlov Hərbi Məktəbində təhsilini davam etdirmişdir.
Oranı da 1-ci dərəcə ilə tamamlamışdır.

Hərbi xidmətə 1889-cu il sentyabrın 1-də başlamışdır. Zabitlərin atıcılıq məktəbinin kazak bölməsində hərb sənətini tamam-kamal əxz etmişdir.

1891-ci il avqustun 15-də xorunji rütbəsi almışdı. 1895-ci il iyunun 1-də yüzbaşı (sotnik) rütbəsinə ucalmışdı. 1903-cü il iyunun 1-də podyasavul rütbəsinə keçirilmişdi. 1906-cı il mayın 6-da yasavul rütbəsinə layiq görülmüşdür.

O, Birincı Dünya müharibəsində iştirak etmişdir. Savaş zamanı qılınc yarası almışdı. Darab Mirzə Qacar 1915-ci il aprelin 2-də qoşun starşinası təyin olunmuşdu. 1915-ci il iyulun 7-də Qafqazda fəaliyyət göstərən 3-cü xətt alayına dəyişilmişdi. 1917-ci il fevralın 23-də Kuban kazak alayına göndərilmişdi. 1917-ci il oktyabrın 5-də polkovnik rütbəsi almışdı.

Darab Mirzə Qacar III dərəcəli "Müqəddəs Stanislav" (23.01.1901), III dərəcəli "Müqəddəs Anna" (6.5.1908), II dərəcəli

“Müqəddəs Anna” (19.11.1916) ordenləri, qılınc, Georgi xaçı (11.10.1914) və başqa təltiflərə layiq görülmüşdür.

Darab Mirzə Əhməd şah Qacarın dəvəti ilə İrana getmişdi. 1925-ci ildə Qacar sülaləsinin süqutundan sonra Rza şah Pəhləvinin (1925-1941) əmri ilə tutulmuşdu. O, Tehran şəhərində vəfat etmişdir.

***Əbdürrəhim bəy Haqverdiyev, ictimai xadim, yazıçı-dramaturq.***



1870-ci il mayın 17-də Şuşa şəhərində doğulmuşdur. İbtidai təhsilini 1880-ci ildə Şuşada Yusif bəyin müvəqqəti yay məktəbində almış, sonra Şuşa Realnı Məktəbində oxumuşdur (1881-1890). Tiflis Realnı Məktəbini bitirəndən sonra Peterburq Yol Mühəndisləri İnstitutunda təhsil almışdır (1891-1899). Fransız dilini mükəmməl öyrənmişdir. Onda ədəbiyyata güclü meyl oyanmışdır. "Yeyərsən qaz ətini, görərsən ləzzətini” (1892) və “Dağılan tifaq” (1896) əsərlərini yazmışdır. “Dağılan tifaq” (1899) Peterburqda nəşr edilmişdir. Ali təhsil alıb Şuşaya qayıtmış, burda tamaşalar təşkil etmiş və ilk hekayələrini də (“Ata və oğul”, “Ayın şahidliyi”) burda yazıb, “İki hekayət” adı ilə çap etdirmişdir.

1905-ci il inqilabından sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyasından nümayəndə seçilmiş, Peterburqa getmişdir (Azərbaycanın ilk diplomatlarından hesab olunur). Burda dövlət kitabxanasında yeni əsərinə (“Ağa Məhəmməd şah Qaçar”) materiallar toplamışdır. “Leyli və Məcnun” operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulduğu zaman ilk Azərbaycan dirijoru kimi xor və orkestri idarə etmişdir. “Ceyranəli”, “Xortdan”. “Həkimi-nuni-səqir”. “Lağlağı”. “Mozalan”, “Süpürgəsaqqal” və s. imzalarla “Molla Nəsrəddin” jurnalında hekayələr, felyetonlar çap etdirmişdir. Həştərxanda yaşadığı müddətdə şəhərin mədəni-

ictimai həyatında ciddi çalışmışdır. Sonra Ağdama köçüb, orda yaşamışdır. (1911-1915). Tiflisdə "Şəhərlər ittifaqının Qafqaz şöbəsi xəbərləri" aylıq məcmuəsinin müdiri olmuş (1916-1917), Fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilmişdir (1917). Həmin ilin martında Borçalı qəzasına müvəkkil göndərilmişdir (1918). Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra dövlət teatrlarına müfəttiş təyin olunmuşdur. Bədii tərcümə ilə ardıcıl məşğul olmuş, rus və Qərbi Avropa ədəbiyyatından bir sıra qiymətli tərcümələr etmişdir. Onun əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

1933-cü il dekabrın 11-də Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.



***Çarıqçı Bahadır, xanəndə***

Çarıqçı Bahadır 1870-ci ildə Şuşada anadan olmuşdur. Kiçik yaşlarından çarıqçılıq sənətini öyrənən Bahadır Şuşa şəhərində kiçik dükan açmış, burda işləmişdir. Buna görə də o, "Çarıqçı" ləqəbi ilə tanınmışdır.

Gənc yaşlarından şəhərin qış klubuna – "Xandəmirovun teatrı"na getmişdir. Burdakı musiqiçilərin çıxışlarını dinləyən Bahadır bir müddət sonra özünə qramofon almış, vallardan bir sıra Azərbaycan muğam və təsniflərini öyrənərək ifa etmişdir. Çarıqçı Bahadırın səsini eşidən tarzən Bala Qrikor onu Daşaltıya toy məclisinə aparmış, bununla Bahadırın xanəndəlik fəaliyyəti başlamışdır.

Çarıqçı Bahadır 30 il xanəndə kimi fəaliyyət göstərmişdir. Bu illər ərzində o, Qarabağ və Şuşa məclislərində çıxış etmişdir. Bahadır həyatının son illərində tarzən Abbasqulu ağa və qarmonçu Kərbəlayı Lətif ilə əməkdaşlıq etmişdir.

Bahadır 1930-cu ildə Şuşada vəfat etmişdir.



***Əbülfət Vəli,***
***aktyor, rejissor, teatr xadimi.***

Əbülfət bəy Məhəmmədhəsən bəy oğlu Vəliyev 1871-ci ildə Şuşa şəhərində anadan olub. Şuşa Realnı Məktəbini bitirib. O, yüksək istedadlı, mütərəqqi düşüncəli bir aktyor, bacarıqlı rejissor və təşkilatçı idi, xalq arasında teatr sənətinin təbliği sahəsində böyük əhəmiyyətə malik iş görürdü.

XIX əsrin sonlarından başlayaraq 1918-ci ilə qədər Azərbaycan teatrının göstərdiyi tamaşaları Əbülfət Vəlisiz təsəvvür etmək qeyri-mümkündür. Həmin illərin dövri mətbuatı məlumat verir ki, Əbülfət Vəl i teatr truppasının demək olar ki, bütün tamaşalarında iştirak etmiş, müxtəlif, bir-birindən həm janr, həm də xaraktercə fərqlənən obrazlar yaratmış, gənc, həvəskar aktyorların yetişməsində böyük zəhmət çəkmiş, eyni zamanda da bir rejissor kimi gərgin fəaliyyət göstərmişdir.

Məşhur faciə aktyorumuz Hüseyn Ərəblinskinin istedadının üzə çıxarılmasında, onda mütərəqqi ideyalara meylin güclənməsində Əbülfət Vəlinin böyük xidməti olmuşdur. H.Ərəblinskinin bir sənətkar kimi yetişməsində Əbülfət Vəlinin təsiri həmişə duyulmuşdur.

Əbülfət Vəli və Hüseyn Ərəblinski həmişə yekdil olmuşlar. Qəzet səhifələrində “Ərəblinski, Ə.Vəli... cənabları “Nicat” cəmiyyətindən üz döndərib yeni teatr truppası yaradıblar”, "... ***Ə.Vəliçadə, Ərəblinski birgə tamaşa göstərdilər”, “'Bu tamaşada Ərəblinski və Ə. Vəli yerli həvəskarlarla birlikdə çıxış etdilər”*** və s. Yazılar, tamaşalar haqqındakı məqalələr, xatirələr sübut edir ki, Azərbaycan səhnəsinin bu iki görkəmli sənətkar həmişə birgə fəaliyyət göstərmişlər. Ancaq sonralar onlar bir-birindən ayrılmışlar.

H.Ərəblinskinin həyatı, yaradıcılığı və sənəti haqqında bir sıra tədqiqatlar aparıldığı, məqalələr yazıldığı halda, Əbülfət Vəlinin fəaliyyəti nədənsə tamamilə unudulmuşdur. Halbuki bu iki peşəkar aktyor arasındakı fikir və sənət birliyini görkəmli dramaturq və teatr xadimi Ə.B.Haqverdiyev də görmüş, özünün “Sənət qurbanı” və “Ac həriflər” adlı əsərlərində onların surətini yaratmışdır.

Əbülfət Vəli faciə aktyoru idi. Rolları rəngarəngliyi ilə seçilirdi. O, qısa bir vaxt ərzində Xəlil (“Hacı Qara”), Cahangir bəy (“Müsibəti-Fəxrəddin”), Şah Təhmas, Cavad, Ədhəm və Heydər, Şahmar bəy (“Ev tərbiyəsinin bir şəkli”), Dəli Şizavat, Dobçinski (“Müfəttiş”), II İrakli və Murtuzaqulu xan (“Ağa Məhəmməd şah Qacar”), Əbudiyab (“Əbül-üla”), Cənnətəli (“Dəmirçi təbib”), Cəfər (“Qaranlıqla işıq”), Gavə (“Dəmirçi Gavə”), Abdulla (“Dağılan tifaq”), Dayı (“Bahadır və Sona”), (“Bəxtsiz cavan”), Dağıstan qəhrəmanı (“Qafqaz gülü”), Məşədi Kərim (“Pulsuzluq”), fon Moor (“Qacaqlar”), Niyaz bəy (“Dilin bəlası”) və s. kimi rəngarəng rollar oynamışdır.

Sənətşünaslıq doktoru Cəfər Cəfərovun dediyi kimi, Əbülfət Vəli çox yaraşıqlı bir aktyor idi. Tamaşalarda əsas rollarla yanaşı, ikinci, hətta bəzən üçüncü dərəcəli rollarda da çıxış edər, həmişə də bəyənilərdi.

1911-ci ildə göstərilmiş “Nadir şah” tamaşası (Nadir şahı Ərəblinski, Cavadı isə Cahangir Zeynalov oynamışlar) Əbülfət Vəlinin ən yaxşı quruluşlarından sayılır. Burda onun aktyor sənətkarlığı daha çox fərqlənirdi. Təsadüfi deyil ki, həmin tamaşadan sonra mətbuat səhifələrində Əbülfət Vəli “Qafqazın ən müqtədir aktyorlarından biri” kimi qeyd edilir, onun “bacarıqlı oyunu”, “istedadlı ifası”, “qüvvətli çıxışı” haqqında yazılar verilirdi. Ə. Vəlinin “parlaq oynadığı Gavə”, “yaxşı ifa etdiyi Həsən” (“Qəzavət”), Xəlil bəy (“Bəxtsiz bala”), “nümunəvi artist kimi səmimiyyətlə yaratdığı “Murtuzaqulu” (“Ağa Məhəmməd şah Qacar”) rolları və digər obrazları haqqında tez-tez müsbət rəylər eşidilirdi. “Azərbaycan” qəzeti yazırdı: ***“Gavə rolunda tamaşaçıların vücudunu Vəli kimi lərzəyə salan hansı artistdir? “Əlmənsur”dakı Həsən rolunu oynayan artistlərin hamısı yenə də***

***Vəlini təqlid etmirlərmi? Nadir şahın Ədhəm və Heydər kimi hiyləgər vəzirlərini Vəli kimi yaradan kimdir? Şillerin qoca qraf Maksimilyan rolunda hansı artist Vəli qədər təsir bağışlayıb?"***

Azərbaycan aktyorlarının Lənkarana ilk qastrolu zamanı Əbülfət Vəli truppanın rejissorluğunu etmişdir. Sonrakı qastrol tamaşalarında da truppanın müdiri, rejissoru olmuş, teatrın yaradıcı və təşkilati işində çalışmışdır.

Əbülfət Vəli "Dilin bəlası" əsərinin tamaşasındakı Niyaz bəy rolunda da böyük müvəffəqiyyətlə çıxış etmişdir. Aktyor öz yaradıcılıq üslubuna uyğun olaraq obrazın müsbət cəhətini şişirtməkdən qorxmamış və bu yolla mütərəqqi ideyalarla tərbiyələnmiş namuslu, təvazökar, xeyirxah bir insan surəti yaratmışdı.

Nəriman Nərimanovun "Nadir şah" əsərində Cavad rolunu oynayan Əbülfət Vəlinin yaratdığı obraz əsərin müəllifi tərəfindən bəyənilmiş, ona heyran olduğunu bildirmişdi. Sonralar N.Nərimanov Tiflis səhnəsində Cavad rolunu oynamağa hazırlaşan M.Mərdanova obrazın xarakter xüsusiyyətlərindən danışarkən Ə.Vəlinin bu roldakı ifa tərzini nəzərdə tutmuş, aktyora bir sıra məsləhətlər vermişdi. Ə. Vəlinin qüvvətli, yapışıqlı ifasını alqışlayan "İrşad" qəzeti (26 noyabr 1906-cı il) yazırdı: ***"Cavad-Əbülfət Vəli cənabları layiqincə rollarını bilmələri ilə binöqsan oynadı***

Ə.Vəlinin "Nadir şah" əsərinin tamaşasında yaratdığı Nadirin dayısı Cavad obrazı bu baxımdan diqqəti daha çox cəlb etmişdi. Həcmcə kiçik olan bu rol Əbülfət Vəlinin ifasında məzmunu və mahiyyəti etibarilə çox əhəmiyyətli idi. Aktyor obrazın ifasında tamaşanın ideyasını, mübarizə pafosunu xeyli qüvvətləndirirdi.

1907-ci ildə Ə.Haqverdiyev və H.Ərəblinskinin rejissorluğu ilə göstərilmiş "Ağa Məhəmməd şah Qacar" əsərinin tamaşasında Əbülfət Vəli əvvəl Murtuzaqulu xan rolunu, sonrakı tamaşalarda isə II İrakli surətini yaratmışdır. İlk dəfə 1907-ci il dekabrın 3-də göstərilmiş "Ağa Məhəmməd şah Qacar" tamaşası görünməmiş bir müvəffəqiyyətlə keçmişdi. Əbülfət Vəli H.Ərəblinski ilə birlikdə

tamaşanın tam hazırlıqla keçməsi üçün çalışmışdı. O, özü qrimlənir, digər aktyorların da qrimlənməsinə, geyiminə kömək edir, səhnənin qaydaya salınmasına nəzarət edirdi. Tamaşanın üstün cəhətlərindən biri qüvvətli aktyor ifası idi ki, burda Əbülfət Vəlinin Murtuzaqulu xan rolundakı çıxışı xüsusi qeyd edilməlidir.

Sənətşünas İnqilab Kərimov Əbülfət Vəli haqqında yazdığı "Realist və humanist sənətkar" adlı məqaləsində ("Ədəbiyyat və incəsənət" qəzeti, 1 fevral 1969-cu il) göstərmişdir: ***"Bu vaxta qədər Ə. Vəlinin vəfat etdiyi il məlum deyildi, onun "harda isə itkin düşdüyü"fikri söylənilirdi. İndi isə dəqiqləşdirilmişdir ki, Ə. Vəli 1918-ci il dekabr ayının 3-də Göyçay şəhərində vəfat etmişdir. "Azərbaycan" qəzeti artistin vəfatı münasibəti ilə həmin tarixli nömrəsində nekroloq -məqalə vermişdir".***

***Əmir bəy Nərimanbəyov,***
***ADR dövründə Bakı qubernatoru.***



Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin əvəzi, general-mayor M.S.Ağabəyzadənin 2 sentyabr 1919-cu il tarixli əmri ilə Əmir bəy Nərimanbəyov 1-ci dərəcə üzrə aylıq məvacibi 3.600 manat olmaqla Bakının qubernatoru, Əmir xan Xoyski (1881-1954) isə (2-ci dərəcə üzrə 2.700 manat aylıq əmək haqqı ilə) böyük köməkçisi (birinci müavini) vəzifəsinə təyin edilmişdi.

Ə.Nərimanbəyov Bakının qubernatoru vəzifəsinə Rəşid bəy Axundzadənin istefasından sonra gəlmişdi. O, bu vəzifədə 1920-ci ilin aprelinədək xidmət etmişdir.



***Həmidə xanım Cavanşir, ictimai xadim, yazıçı.***

Həmidə xanım Cavanşir-Məmmədquluzadə 1872-ci il dekabrın 24-də Tiflisdə anadan olub. O, "Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi vəziyyətinə dair" əsərinin müəllifi, tarixçi Əhməd bəy Cavanşirin qızıdır. Mütərəqqi düşüncəyə malik olan Əhməd bəy qızının təhsili, təlimi və tərbiyəsi ilə özü məşğul olmuşdur. O deyirdi ki, mənim qızım Qarabağın yüksək intellektual səviyyəyə ucalan ilk mədəni xanımı olacaq.

Həmidə xanım ilk təhsilini evdə atasından, eləcə də rus, fransız dayələrindən almış, sonra rus pedaqoqu Qavrilovanın Ağdamda açdığı pansionatda oxumuşdur. Biliyini şəxsi mütaliə ilə daha da zənginləşdirmişdir.

Həmidə xanım gənc yaşlarında Qarabağın tanınmış şəxslərindən biri olan hərbçi İbrahim bəy Davatdarovla ailə quraraq bir müddət ərinin komendant olduğu Brest və Qars qalalarında yaşamış və həmin dövrdə həndəsəyə, tibbə və fəlsəfəyə dair biliyini artırmışdır. O illərdə iki övladı dünyaya gəlmişdir-Mina xanım və Müzəffər. On illik evlilikdən sonra İbrahim bəy ürək iflicindən vəfat etmiş və Qarsda dəfn olunmuşdur. Dul qalmış Həmidə xanım atasının təkidi ilə Kəhrizliyə qayıdaraq mülklərini idarə etməli olub. Çünki o, qayıdandan sonra artıq Əhməd bəy də rəhmətə getmişdi. İki azyaşlı övladı ilə tək qalan Həmidə xanım atasının başladığı aqrar islahatları həyata keçirir, maarifçilik və xeyriyyəçiliklə məşğul olur. O, sahibi olduğu Kəhrizli kənd əhalisinin bütün qayğıları ilə yaşayıb, yoxsullara, xəstələrə, toy-düyün edənlərə, təhsil almaq istəyən gənclərə daim yardım edir. Hətta yoxsul ailələrdən ərə gedən hər qıza özü cehiz verər, mil li və dini bayramlarda hər evə pay göndərərdi. Kəndin ümumi işləri, camaatın güzəranı, sağlamlığı Həmidə

xanımın diqqətində olurdu. Kənd əhlinin təsərrüfat işlərinin aparılmasını asanlaşdırmaq üçün kəndin yeganə dəyirmanını təmir etdirmiş, iki kəhriz qazdırmış, kənd yollarını abadlaşdırmışdı.

1903-cü ildə Qarabağda çiçək epidemiyası yayılmışdı. Xəstəlik uşaqları və yeniyetmələri kütləvi surətdə qırırdı. Həmidə xanım əhalini epidemiyadan xilas etmək üçün Tiflisə gedir, orada həkim Aqapyevdən peyvənd etməyi öyrənir və özü ilə Qarabağa lazımi qədər vaksin alıb gətirir. Xurafatçılar buna mane olmaq istəsələr də, ***"Allahın işinə qarışmaq şeytan əməlidir"*** desələr də, bacarmırlar. Həmidə xanım təmənnasız olaraq kütləvi peyvəndləmə işləri aparır və minlərlə uşağı, yeniyetməni dəhşətli epidemiyadan xilas edir. Sonralar xatirələrində bu işi uzun illər davam etdirdiyini də yazıb.

Əhməd bəyin vəsiyyətinə görə Həmidə xanım onun əsərlərini çap etdirmək üçün 1905-ci ildə Tiflisə gedir. Rəfiqəsi Sofiya (Səkinə) xanım Şahtaxtinskayanm məsləhəti ilə Cəlil Məmmədquluzadənin mətbəəsində atasının kitabını nəşr etdirir. Tanışlıqdan iki il sonra Həmidə xanımla Cəlil Məmmədquluzadə evlənirlər. Bu evlilikdən iki oğlu dünyaya gəlir-Midhət və Ənvər. Həmidə xanım satirik "Molla Nəsrəddin" jurnalının yaşamasında mühüm rol oynayıb. Bir maarifçi xanım kimi "Molla Nəsrəddin" jurnalının əhəmiyyətini dərk edən Həmidə xanım öz sərvətindən onun yaşamasına xeyli məsrəf etməyi əsirgəməyib. O öz fəaliyyəti ilə ictimai xadim səviyyəsinə yüksəlmişdir. 1905-ci ildə Tiflisdə "Müsəlman Qadınları Xeyriyyə Cəmiyyəti"ni yaratmış, geniş xeyriyyəçilik işləri görmüşdür. Həmidə xanım Qafqaz şeyxülislamına müraciət edərək ondan Tiflisdəki Qafqaz Nəcib Qızlar İnstitutunda türk-müsəlman qızlarının da təhsil almasına icazə almışdı. O, azərbaycanlı qızlar üçün həmin instituta müəllim ştatı alaraq müəllimin məvacibini də özü ödəyirdi.

Həmidə xanım Çavanşir Qarabağda oğlanlarla qızların birgə təhsil aldığı ilk məktəbin qurucusudur. O, ata vəsiyyətinə əməl edərək Kəhrizli kəndində oğlan-qız məktəbi üçün ayrıca bina tikdirmiş, məktəb üçün lazım olan bütün əşyaları, dərs ləvazimatlarını almış və məktəbə uşaqların gəlib təhsil almaları ilə bağlı kənd sakinlərinin yığıncağını keçirmişdi. Bunun nəticəsi olaraq məktəbə 30 oğlan, 10

qız top 1 aya bilmişdi. İlk vaxtl ar məktəbdə Mirzə Cə lil də dərs deyib. Həmidə xanım Tiflisdən Kəhrizliyə həmin məktəbə rus dili müəllimi dəvət edir, onun aylıq maaşını və digər xərclərini özü ödəyir. Kəhrizli kənd məktəbində M.S.Axundov və Qori seminariyasının məzunu Salman bəy Əlibəyov da dərs demişlər.

Həmidə xanım məktəbində oxutduğu bütün şagirdlərin ehtiyaclarını qarşılayır, şagirdlərə paltar və ayaqqabı pulu verirdi.

Kəhrizli məktəbi 1909-1918-ci illərdə fəaliyyət göstərib və bu illər ərzində yüzlərlə uşaq-oğlan və qız bu məktəbdə ibtidai təhsil almışdır. Həmidə xanım bu məktəbin məzunlarına, xüsusilə, kasıb ailələrin uşaqlarına müxtəlif peşə məktəblərində, texnikumlarda təhsilini davam etdirmək üçün maddi yardım etmişdi.

Qarabağda baş-alıb gedən qırğınların və ondan törəyən aclığın, yoluxucu xəstəliklərin qarşısının alınması üçün Bakıda Əhməd bəy Ağaoğlunun və Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə qurultay çağırılır və Həmidə xanım Qarabağın vəziyyətini yaxşı bilən bir ekspert kimi qurultaya dəvət olunur. Qurultayın məqsədi Qarabağda əhalinin ehtiyaclarını öyrənmək, varlılardan ianə toplamaq, aclıq çəkənlərə maddi yardım etmək və ermənilərlə azərbaycanlıları barışdırmaq idi. Qadınların belə məclisə çağırılması o zaman üçün qəribə sayılırdı və beləliklə, ilk dəfə Həmidə xanım Cavanşir buna imza atmışdı.

1910-cu ildə Həmidə xanım böyük şairimiz Mirzə Ələkbər Sabirin ağır xəstə və imkansız olduğunu eşidir. Mirzə Cəlilə ***“Şairi evimizə gətirək, müalicəsi ilə ciddi məşğul olaq”*** – deyir. Onlar şairin müalicəsi ilə bağlı bütün xərcləri öz üzərlərinə götürürlər. Həkim çağırırlar, lazımi dava-dərmanlar alırlar. Sabir iki ay onların evində qalıb, müalicə olunur. Ancaq şairin xəstəliyi ağır olduğu üçün bir il sonra vəfat edir.

Dahi bəstəkarımız Üzeyir Hacıbəyli Həmidə xanımın bu himayəsini yüksək qiymətləndirərək əsərlərində nümunə göstərir. Yazır ki, bəzi varlı kişilərdən Həmidə xanım səxavətli və rəhmli çıxdı.

1912-ci ildə Həmidə xanım Tiflisdə Qafqaz pambıqçılarının XIII qurultayına Qarabağ nümayəndəsi kimi dəvət olunmuş və orada ilk dəfə olaraq Qafqaz türk-müsəlman qadını kimi çıxış etmişdi. Onun

çıxışı böyük hərarətlə qarşılanmış və həmin qurultayın materiallarının 1912-ci ildə nəşr olunan "Pambıqçıların XIII Qurultayı" adlı ikicildlik kitabda verilmişdir.

1918-ci ildə, ilk cumhuriyyət dövründə o, Şuşada yun və pambıq parça toxunan Nikolay dövründən qalma dağıdılmış tikiş karxanasını işə salmaq üçün Tiflisdən toxucu dəzgahları qətirmiş və qadınları işlə təmin etmişdi. Həmidə xanım bolşevik rejimi dövründə – 1923-cü ildə toxuculuq işlərini daha da canlandırmışdı.

Lakin dövrün amansızlıqları onun da üzərindən keçdi və Azərbaycanda iqtisadi terror, sahibkarların məhvi başlandığından onun bu fədakar əməyi yarımcıq galdı. Beləliklə, Sovet hakimiyyəti illərində Həmidə xanımım bütün mülkləri əlindən alındı və hətta sahibi olduğu Kəhrizlidə yaşamaq belə, ona qadağan olundu.

Həmidə xanım atası Əhməd bəy Cavanşir və Cəlil Məmmədquluzadə haqqında xatirə yazmışdır. Onun Məhəmməd Füzuli adma Respublika Əlyazmaları İnstitutunda yüzdən çox dəftərdə rusca yazılmış memuar-xatirə, hadisələr, etnoqrafik qeydlər, folklor nümunələri, mifoloji hekayələr, mətbu çıxışları, özünə, atasına və Mirzə Cəlilə aid çoxsaylı sənədləri saxlanılır. Ümumiyyətlə, bu qadının ömür tarixçəsinə qısa bir nəzər salınsa, dərhal aydın görmək olur ki, o, Azərbaycanın maarifçi, xeyriyyəçi və ictimai həyatda öncül kübar xanımlarından biri kimi həmişə öz missiyasını böyük istəklə və şərəflə yerinə yetirmişdir. Onun xeyriyyəçi əməlləri saysız-hesabsız olmuşdur və xalqımızın yaddaşında da həmişəlik qalmışdır.

Həmidə xanım Cavanşir 1955-ci ildə Bakıda vəfat etmiş, Fəxri xiyabanda Mirzə Cəlillə yanaşı dəfn olunmuşdur.

***Məcid Behbudov, xanəndə***



Məcid Behbudov 1873-cü il aprelin 18-də Şuşada anadan olub. Cəlil bəy Bardadbəyovun verdiyi məlumata görə, Məcid xanəndəliyə 1904-cü ildən başlamışdır.

O, əvvəllər tarzən Tatevos və kamançaçı Makiçlə Qarabağ və Gəncə məclislərində, sonralar isə Zaqafqaziyanın kənd və şəhərlərində oxumuşdur.

Məcid Behbudov uzun illər Tiflisdə tarzənlərdən Məşədi Zeynal, Rzabala və kamançaçı Ruben Qaraxanov ilə "Dvoryanski klub"da xanəndəlik etmişdir.

1910-cu ildə "Qramofon" şirkəti xanəndənin səsini vala yazmaq üçün onu Riqaya dəvət edir. Məcid "Mirzə Hüseyn Segahı", "Şüştər" və "Çahargah" muğamlarının, bir çox xalq mahnılarının mahir ifaçısı sayılırdı. M.Behbudov həmçinin, musiqili tamaşalarda da çıxış etmiş, Təbriz, İstanbul və s. şəhərlərdə konsertlər vermişdir.

Məcid Behbudov Azərbaycanda opera teatrının inkişafına da yaxından kömək göstərmişdir. O, hələ 1911-ci ildə Saşa Oqanezaşvilinin "Fərhad və Şirin" operasında Xosrov rolunu oynamışdır. Məcid Behbudov Üzeyir Hacıbəylinin opera və operettalarmda, Məşədi Cəmil Əmirovun "Seyfəl-Mülk" operasında da çıxış etmişdir.

Məcid Firuzə Vəkilovanm həyat yoldaşıdır. Məşhur müğənni Rəşid Behbudovun, rejissor Ənvər Behbudovun və aktrisa Nəcibə Behbudovanm atasıdır.

Məşhur xanəndə 1945-ci il sentyabrın 6-da Qazaxda vəfat etmişdir.



***Hüseyn bəy Mahmuäbəyov, dövlət məmuru***

Hüseyn bəy Behbud bəy oğlu Mahmudbəyov 1874-cü ildə Şuşada imtiyazlı, əsilli ailədə anadan olmuşdur. İbtidai təhsilini molla yanında almış, sonra şəhər məktəbində oxumuşdur. Şuşa qəza idarəsində II dərəcəli dəftərxana xidmətçisi kimi işə başlamış, tərcüməçi olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə əvvəlcə Zəngəzur və Cəbrayıl-Karyagin (indiki Füzuli rayonu) qəzalarında böyük köməkçi, sonra isə qəza rəisi vəzifəsində çalışmışdır.

1919-cu il yanvarın 15-də Qarabağ General-Qubernatorluğu yaradılan zaman, general-qubernator Xosrov bəy Sultanovun köməkçisi (müavini) vəzifəsinə təyin olunmuşdu. H.Mahmudbəyov bu vəzifədə AXC-nin süqutunadək xidmət etmişdir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra vəzifədən kənarlaşdırılaraq bir müddətdən sonra həbs olunan Hüseyn bəy Mahmudbəyov naməlum şəraitdə güllələnmişdir.



***Məşədi Cəmil, tarzən, xanəndə, bəstəkar.***

Məşədi Cəmil Əmiraslan oğlu Əmirov SSRİ xalq artisti, böyük bəstəkarımız Fikrət Əmirovun atasıdır. O, 1875-ci ildə Şuşada doğulmuşdur. İlk təhsilini mədrəsədə almış, kiçik yaşlarından dərziliklə məşğul olmuşdur. Tar çalmağa da uşaqlıqdan başlamış, klassik Şərq muğamlarını dövrünün görkəmli musiqişunas-alimi Mir Möhsün Nəvvabdan öyrənmişdir. Şuşa məclislərində ilk dəfə xanəndə Qaragöz Zülfüqarla çalıb-oxumuş, Qarabağda həm tarzən, həm də xanəndə kimi tanınmışdır. O, Sadıqcan tar məktəbinin ən görkəmli davamçılarından biri idi.

1907-ci ildə Gəncəyə köçən Məşədi Cəmil Əmirov şəhərin mədəni həyatında mühüm rol oynamışdır. Gəncə məclislərində məşhur xanəndələr Məşədi Məmməd Fərzəliyevi, Malıbəyli Həmidi, Malıbəyli Əsgəri və sonralar isə Seyid Şuşinskini, Musa Şuşinskini, Bülbülü və başqalarını tarda müşayiət etmişdir. Çox zaman o, Malıbəyli Həmidi və Malıbəyli Həmid də onu tarda müşayiət etmişdir. İstedadlı tarzən həm də bir xanəndə kimi "Şur", "Rast", "Segah" muğamlarının mahir ifaçılarından olmuşdur. 1910-cu ildə o, "Qramofon" şirkəti tərəfindən Riqa şəhərinə dəvət olunmuş, bir çox muğam və xalq mahnılarını vala yazdırmışdır.

Gəncədə yaşadığı illərdə Məşədi Cəmil Əmirov qarmon, kamança, skripka və piano çalmağı da öyrənmişdir. Musiqi təhsili və not savadı almaq üçün 1911-ci ildə Türkiyəyə getmiş, iki il İstanbul şəhərində həm musiqi təhsili almış, həm not savadına yiyələnmiş, həm də Avropa musiqisi ilə tanış olmuşdur. O, Türkiyədə təhsil aldığı dövrdə Azərbaycan musiqisini qızğın təbliğ etmiş, verdiyi konsertlər böyük rəğbətlə qarşılanmışdır. Konsertlərdə, bir qayda olaraq, klassik Azərbaycan muğam və təsniflərini oxumuş, tarda isə solo çalmışdır.

Məşədi Cəmil Əmirov İstanbul ictimaiyyəti qarşısında Azərbaycan musiqisi və onun məşhur nümayəndələri haqqında dəfələrlə məruzə etmişdir. Türkiyədə tarı sinəsi üstə ilk dəfə o çalmışdır. Azərbaycan musiqisi tarixində ilk dəfə muğamları nota salanlardan biri də Məşədi Cəmil Əmirov olmuşdur. O, hələ 1912-ci ildə "Heyratı" ritmik muğamını nota salmış, "Şəhbal" jurnalında çap etdirmişdir. Burada ud və kanon çalmağı öyrənmək istəyən müsiqiçi Azərbaycana qayıdarkən özü ilə hər iki musiqi alətini də gətirmişdi.



***Ərdəşir Mirzə,***
***polis məmuru***

Şahzadə Ərdə şir Mirzə Bəhmən Mirzə oğ lu 1875-ci il sentyabrın 2-də Şuşa şəhərində əsilzadə ailəsində anadan olmuşdur. Şahzadə Ərdəşir Mirzə xüsusi ailə tərbiyəsi almışdı. Anasının adı Bərdə xanım idi.

Şahzadə Ərdəşir Mirzə 1908-ci il avqustun 11-də II dərəcəli dəftərxana xidmətçisi kimi Şuşa Qəza Polis İdarəsində fəaliyyətə başlamışdı. 1912-ci il aprelin 18-də Yelizavetpol qubernatorunun əmri ilə Şuşa qəza Polis İdarəsinə tərcüməçi təyin edilmişdir.

1914-cü il mayın 27-də şahzadə Ərdəşir Mirzə Şuşa qəzasının Kirs, Fingə və Sarıbaba ərazilərində yerləşən yaylaqlara dağbəyi vəzifəsinə göndərilmişdi. 1916-cı il mayın 21-də o, Şuşa qəzasının Qırxqız və Meydan ərazilərində yerləşən yaylaqlara həmin vəzifəyə təyin edilmişdi. Şahzadə Ərdəşir Mirzə 1919-cu ildən əvvəlcə Şuşa şəhərinin 1-ci hissəsinin, 1918-ci ildə isə 2-ci hissəsinin polis pristavı vəzifəsinə təyin olunmuşdur.

Haqqında başqa məlumat yoxdur.



***Bddəl bəy Bədəlbəyli, müəllim, aktyor.***

Bədəl bəy Bəşir bəy oğlu 1875-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Əfrasiyab və Şəmsi Bədəlbəylilərin atasıdır. İbtidai təhsilini molla yanında almışdır. Sonra şəhər realnı məktəbində oxumuşdur. Bədəlbəylilər nəslinin qocaman nümayəndəsi Bədəl bəy Bədəlbəyli maarifçi idi. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirdikdən sonra o, bir müddət Şuşada müəllimlik etmişdir.

Lakin Bədəl bəyin pedaqoji fəaliyyəti XX əsrin əvvəllərindən Bakı şəhəri ilə bağlı olub. O, 35 il fasiləsiz rus-tatar məktəblərində müdir vəzifəsində çalışmış, xalq kütlələri arasında maarifin, təhsilin vacibliyini və gərəkliyini təbliğ etmişdir.

Bununla bərabər, Bədəl bəy "Nicat" cəmiyyətinin ən fəal üzvlərindən olmuşdur. Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin xalası oğlu Bədəl bəy özünü aktyor kimi də dəfələrlə sınamışdır. O, "Leyli və Məcnun" operasında Məcnun və İbn Salam obrazlarını böyük məharətlə oynamışdır.

Bədəl bəy Bədəlbəyli 1932-ci il sentyabrın 12-də vəfat etmişdir.

***Süleyman Sani Axundov, maarifçi, yazıçı, dramaturq.***



1875-ci il oktyabrın 3-də Şuşa şəhərində anadan olmuşdur. O, uşaq yaşlarında atasını itirdiyi üçün dayısı Səfərəli bəy Vəlibəyovun himayəsində böyümüşdür.

Süleyman Sani Axundov 1885-1894-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil aldıqdan sonra rus-tatar məktəblərində işləmişdir.
O, ömrünün sonuna kimi pedaqoji fəaliyyətlə məşğul olmuş, yazıçı, jurnalist kimi tanınmışdır.

Süleyman Sani Axundovun ilk əsəri "Tamahkar" komediyasıdır. O, bu əsərini Mirzə Fətəli Axundzadənin "Hacı Qara" əsərinin təsiri ilə 1899-cu ildə yazmışdır.

1907-ci ildə qələmə aldığı "Dibdat bəy", "Türk birliyi" adlı komediyaları ilə Azərbaycan teatr səhnəsinə siyasi-ictimai mövzu gətirmişdir. "Laçın yuvası", "Qaranlıqdan işığa", "Şahsənəm və Gülpəri", "Səadət zəhmətdədir", "Molla Nəsrəddin Bakıda", "Eşq və intiqam" və s. pyeslərin müəllifidir.

Süleyman Sani Axundov 1906-cı ildə Bakıda çağırılmış Azərbaycan müəllimlərinin I qurultayında iştirak etmişdir. 1920-1921-ci illərdə Qarabağ vilayətinin maarif şöbəsinin müdiri, 1922-1930-cu illərdə Bakıda məktəb müdiri vəzifələrində çalışmışdır. 1922-ci ildə Azərbaycan Ədib və Şairlər İttifaqının ilk sədri seçilmişdir.

Ədəbi və pedaqoji fəaliyyətinə görə 1932-ci ildə ona "Əmək qəhrəmanı" adı verilmişdir. 1921-ci ildən 1930-cu ilədək fasiləsiz Bakı şəhər Sovetinin, Bakı şəhər İcraiyyə Komitəsinin və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü olmuşdur. "İkinci il" adlı dərs kitabının müəllifidir.

Süleyman Sani Axundov 1939-cu il martın 29-da 63 yaşında vəfat etmişdir.



***İldırım xan Şərifov,***
***ictimai xadim***

İldırım xan Qasım bəy oğlu Şərifov Şuşa qəzasının Seyidli kəndində anadan olmuşdur. O, ata tərəfdən Şərifli, ana tərəfdən Qazılılar nəslindəndir.

İldırım xan uşaq yaşlarında olarkən atası vəfat etmişdir. O və qardaşı Çərkəz bəy ilk təhsillərini yaxın qohumu Seyid Həşim Seyid Qara Məhəmməd oğlundan almışdır. Sonralar Ağdam məktəbində oxumuşdur.

İldırım xan Şərifov qardaşı Çərkəz bəy və əmisi oğlu Fərhad bəy ilə Şuşada vəhşiliklər törətmiş ermənilərə qarşı uzun illər silahlı mübarizə aparmışlar. Daha doğrusu, erməniləri himayə edən çarizmə qarşı ciddi narazılıqlarını bildirmişlər.

İldırım xan Şərifov Səttarxan hərəkatında fəal iştirak etdiyi üçün xan tituluna layiq görülmüşdür. Səttarxan hərəkatına aid tədqiqat əsərlərində onun adma rast gəlinir.

İldırım xan Şərifov çar Rusiyası və Azərbaycan Demokratik Respublikası dövründə Ağdam nahiyə pristavı vəzifəsində çalışmışdır. O, pristav işlədiyi illərdə ondan əvvəl pristav olmuş Bəhram bəy Kazımbəyovu öldürən şəxsi Ağdam bazarında camaatın gözü qarşısında cəzalandırmışdır.

İldırım xan Şərifov Ağdamda pristav işlədiyi dövrdə sakinlər adından Azərbaycan parlamentinə Fətəli xan Xoyskinin təşkil etdiyi sayca üçüncü hökumət kabinetinin yaradılması münasibətilə təbrik məktubu göndərmişdir. İldırım xan Şərifov başda olmaqla bir qrup hörmətli sakinin imzaladığı təbrik məktubu Azərbaycan parlamentinin 1919-cu il yanvarın 8-də keçirilmiş VII iclasında oxunmuşdur.

İldırım xan Şərifov şuşalı Rüstəm bəyin qızı Mənzər xanımla ailə qurmuş, lakin övladları olmamışdır.

İldırım xan Şərifov 1925 ildə Seyidlidə dünyasını dəyişmiş, "Qarğacı" qəbiristanlığında torpağa tapşırılmışdır.



***Əliş bəy Vəliyev, hərbçi***

Əliş bəy Məşədi Ələsgər bəy oğlu Vəliyev 1876-cı ildə Şuşa qəzasının I Baharlı kəndində anadan olmuşdur.

Əliş bəy Vəliyev Baharlı tayfasının nümayəndəsidir. Ulu babaları Bayram xan Abdulla xan oğlu Baharlı, onun oğlu Mirzə Vəli Baharlı Qarabağ xanlığının ictimai-siyasi, mədəni həyatında çox əhəmiyyətli xidmətlər göstərmişlər.

Qarabağ xanı İbrahimxəlil xanın vəziri Mirzə Vəli Baharlının Tehranda Ağa Məhəmməd şah Qacar tərəfindən qətlə yetirilməsindən sonra onun nəvələri babalarının adını yaşatmaq üçün Vəlibəyov, Vəliyev, Vəlizadə soyadlarını daşımışlar. Mirzə Vəli Baharlının Haşım bəy, İbrahim bəy, Həsənəli bəy, İmamverdi bəy adlı oğlanları olmuşdur.

Əliş bəy Vəliyev Mirzə Vəli Baharlının kötücəsi, İbrahim bəyin nəticəsi, Rzaqulu bəyin nəvəsidir. O, hələ gənc yaşlarında ikən öz yaşıdları, tay-tuşları arasında qoçaqlığı ilə seçilirdi. Uzun illər öz silahdaşları ilə Şuşada vəhşiliklər törədən ermənilərə qarşı döyüşlərdə iştirak etmişdir. Onun silahdaşlarından biri də şuşalı Həmzə bəy idi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Əliş bəy işğalçı hökuməti tanımaq istəməmiş, sona qədər silahlı mübarizə aparmışdır. Bir neçə dəfə Arazın o tayına keçməyə məcbur olsa da, İranda uzun müddət qala bilməmişdir. İranda yaşadığı vaxtlar Əliş bəy xəstələnir. Həmin vaxt mühacirət həyatı yaşamış məşhur xalq qəhrəmanı Sultan bəy onun ziyarətinə gəlib.

Əliş bəy vətənini tərk edib, bəzi varlı adamlar kimi sona qədər xaricdə də sığınacaq tapa bilərdi. Ancaq o, yad ölkələrdə yaşamadı. Əliş bəy uzun illər qaçaq kimi Sovet hökumətinə qarşı döyüşdü. Lakin növbəti döyüşlərin birində mühasirəyə düşdü, ailəsini qorumaq üçün təslim olmağa məcbur oldu. Bu hadisə 1932-ci il martın 12-də baş vermişdir.

Əliş bəy Vəliyev 1932-ci il sentyabtın 28-də Azərbaycan SSR CM-nin 72-ci və 79-cu maddələri ilə günahkar hesab edilərək Azərbaycan SSR Dövlət Siyasi İdarəsinin Məhkəmə Kollegiyasının qərarı ilə cəzasını islah-əmək düşərgəsində çəkməklə on il müddətinə azadlıqdan məhrum edilmişdir. 1933-cü il noyabr ayının 14-də o, məhkəmə kollegiyasının qərarı ilə Qazaxıstana sürgünə göndərilmişdir. Əliş bəy Vəliyev 13 il sürgün həyatı yaşamışdır. 1946-cı ildə qoca vaxtında sürgündən Azərbaycana qayıtmışdır.

Əliş bəy Vəliyev 1964-cü ildə Goranboy da vəfat etmişdir. Gəncədə imamzadə qəbirstanlığında dəfn olunmuşdur.

***Əliş bəy Gülməmmədov, ictimai xadim***



Əliş bəy Abbas bəy oğlu 1878-ci ildə Şuşa şəhərində Merdinli məhəlləsində anadan olmuşdur. İlk təhsilini Şuşa Realnı Məktəbində almışdır. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasında təhsilini davam etdirmişdir.

Əliş bəy Gülməmmədov Şuşaya qayıtdıqdan sonra Şuşa şəhər Dumasına üzv seçilmiş və duma komissiyalarından birinə rəhbərlik etmişdir.

İmperator II Nikolay tərəfindən “Xidmətlərinə görə” medalı və digər mükafatlara layiq görülmüşdür.

Azərbaycan Demokratik Respublikasının fəal tərəfdarlarından olmuşdur.

Əliş bəyin İskəndər adlı oğlu və Zümrüd adlı qızı vardı.

Əliş bəy Gülməmmədov 1920-ci ildə vəfat edib.



***Məşədi Abbas Rzayev,***
***ictimai xadim***

1878-ci ildə Şuşada Məşədi Həşim Rzayevin ailəsində dünyaya gələn körpənin adını Abbas qoyurlar. Məşədi Həşim dörd qızdan sonra oğlunun doğulmasına çox sevinir. O, Ağdam və Şuşa bazarlarında bal satır, ailəsini çox çətinliklə dolandırırdı.

Uşaqlıq illərində varlıların mal-qarasını otaran Abbas sonra dərzi yanında şagirdlik eləyir. Ancaq altı nəfərlik ailə yenə sıxıntı içində yaşayırmış.

Həşimin qardaşı Məşədi Səlim varlı nəsildən olan Molla Dadaşın qızı Məxmərlə ailə qurduğundan heç nəyə ehtiyacı yoxmuş. Amma qardaşına və onun ailəsinə heç bir kömək etmirmiş.

Vəziyyətdən çıxış yolu kimi Abbas Bakıya getməyə qərar verir. 1905-ci ilə təsadüf edən bu gəl işində o, inqil ab ab-havasıyla rastlaşır.

Bakı o illərdə inqilabi şəhər sayılırdı. Sankt-Peterburqda baş vermiş "qanlı bazar günü"nün əks-sədası Bakıya da çatmışdı. Şəhərdə sol cərəyanların, o cümlədən, "Hümmət" təşkilatının gücü durmadan artırdı. Rus bolşevikləri də Bakını nəzərdən qaçırmırdılar. Lenin partiyanın "vuran əli" Stalini Bakıya göndərmişdi. O, ətrafına quldur dəstəsi yığaraq bankları və varlı adamları soyurdu. Bolşeviklər bunun hesabına xəzinələrini doldurarkən Quzey Azərbaycanın solçuları qonşu İranda baş qaldırmış xalq inqilabına necə yardım etmək barədə düşünürdülər.

İran şahı bütün vasitələrlə azərbaycanlıların üsyanını yatırmağa çalışır, amma Güney Azərbaycan demokratik hərəkatının lideri

Səttarxanla heç cür bacara bilmirdi. Çünki o, milli azadlıq və ədalət uğrunda savaşa başladığından əhali arasında tərəfdarları günü-gündən çoxalır, onun mübarizəsi, hətta Arazın bu tayında da geniş əks-səda doğururdu.

O illər Nəriman Nərimanovun rəhbərliyi ilə Azərbaycanın müxtəlif bölgələrindən ən cəsur adamlar Səttarxana kömək məqsədilə güney Azərbaycana göndərilirdi. Onların arasında Abbas da vardı.

Bakıda qazandığı inqilabi təcrübədən yararlanan Abbas Rəşt şəhərində mücahidlərdən ibarət silahlı dəstə toplayır. Onun dəstəsi Rəşt, Ənzəli, Ərdəbil, Qəzvin, Girman və Mazandaran şəhərlərində şah qoşunlarına qarşı qızğın savaşlarda ad qazanır. Nəhayət, bu dəstə döyüşə-döyüşə Təbrizə gəlib-çıxır.

Təbrizin Əmirxiz məhəlləsində Abbası bir mücahid qarşılayıb, Səttarxanm mənzil-qərargahına aparır. Səttarxanın “hardan gəlmisiniz” sualına Abbasın cavabı qısa olur: ***“Abbaş Həşim oğlu. Bakı komitəsinin göstərişi ilə gəlmişəm, dəstəm də özümlədir”.***

Elə ilk təmasdan Səttarxan bu şuşalı balasıyla dostlaşır və çox keçmir ki, mühafizə dəstəsində ona vəzifə verir. Bu dəstə ən mühüm tapşırıqları yerinə yetirir. Abbas öz dəstəsiylə barrikadalarda vuruşur, digər dəstələr arasında əlaqə yaradır. Beləcə, Məşədi Abbas Səttarxanla çiyin-çiyinə savaşır.

İran şahı xalq üsyanını yatırmaq məqsədilə 1909-cu ildə Təbrizə 40 minlik qoşun yollayır. Burda inqilabçılar ölüm-dirim savaşına girişirlər. Abbasa və onun dəstəsinə Tehran polisinin rəisi Yefremxanın hərbi birlikləri ilə döyüşmək üçün tapşırıq verilir. Bu tapşırığı böyük məharətlə yerinə yetirdiyinə görə ona “Mücahid Abbas” ləqəbi verirlər. Amma İranda ona “Abbas xan” deyənlər də az deyildi. İnqilabın əfsanəvi liderlərinin-Səttarx anın və Bağırxanın adlarına bənzədərək Məşədi Abbasın (məşrutə inqilabı illərində o, bir neçə dəfə Məşhədə getmişdi) şücaəti haqqında xəbərlər İran şahının da qulağına çatır. Bir gün o, Səttarxana namə göndərib, onunla görüşmək istədiyini bildirir. Səttarxan bu görüşə Məşədi Abbası göndərir. Məşədi Abbasın oğlu, Böyük Vətən müharibəsi iştirakçısı Surxay Rzayevin xatirələrindən: ***“Atam ordakılara***

***Azərbaycan xalqının şərəfinə badə qaldırmağı təklif edir. Bir anda məclisə sükut çökür, şah və qonaqları badələrini yerə qoyurlar, atamsa şərabı axıra kimi içib qonaqlığı yarımçıq tərk edir".*** İran şahı bərk qəzəblənir, onun dirisini və ya ölüsünü gətirənə başı ağırlıqda qızıl vəd edir.

Elə milli hərəkat da şahın qurduğu hiylələrin qurbanı olur, Səttarxan yatağa düşür, onu məşəqqətli ölümə məhkum edirlər.

Məşədi Abbas geri qayıtmağa qərar verir, amma Bakıda çox qalmayıb doğulub boya-başa çatdığı Qarabağa yollanır. Ağdamda quruculuq işləri onun adıyla bağlı olmuşdur.

Məşədi Abbas vəfat etdiyi 1954-cu ilə qədər mühüm vəzifələrdə çalışmışdır.

***Cavad bəy Məlik-Yeqanov, dövlət xadimi***



Cavad bəy Rza bəy oğ lu 1878-ci ildə Şuşa qəzasının Tuğ kəndində anadan olmuşdur. İbtidai təhsilini məşhur maarifçi və tarixçi Mir Mehdi Xəzaninin ev məktəbində almış, sonra texniki məktəb bitirmişdir.
Rus, fars, alman, gürcü, erməni dillərini bilirdi. 1909-cu ildə çar hakimiyyətinə qarşı mübarizə apardığına görə həbs olunaraq Bakıdan sürgün edilmişdir.

1914-cü ildə yenidən Bakıya qayıtmış, neft mədənlərində işləmişdir. 1917-ci ildə "Müsavat" partiyasının üzvü olmuş və partiyanın I qurultayında fəal iştirak etmişdir.

Cavad bəy Məlik-Yeqanov Zaqafqaziya Seyminin müsəlman fraksiyasının üzvü olmuş, 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurasının üzvü kimi Azərbaycanın müstəqilliyi haqqında "İstiqlal Bəyannaməsi"nə imza atmış, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri olmuşdur.

Cavad bəy Məlik-Yeqanov 1919-cu ildə Lənkəranın general-qubernatoru təyin edilmiş, denikinçilərə qarşı mübarizə aparmışdır. O, Türk Fəhlə Konfransının təşkilatçılarından olmuş, Mərkəzi Həmkarlar İttifaqının sədri vəzifəsində çalışmışdır. 1920-ci il mayın 11-də həbs edilmiş, itl iham akl ı sübuta yetirilmədiyindən iyulun 19-da azad olunmuş, sonra yenidən həbs edilərək 1921-ci il yanvarın 21-də azadlığa buraxılmışdır.

Aprel işğalından sonra o, ümumiyyətlə, altı dəfə həbs edilmişdir. Gizli "Müsavat" partiyasının üzvü olduğuna görə 1931-ci ildə həbs edilərək 10 il müddətinə sürgün edilmişdir. Sovet hakimiyyətinin repressiya qurbanlarından biri olmuşdur.

***Qəmər bəyim Şeyda,***
***şair, dramaturq, ictimai xadim.***



Qəmər bəyim Ata xan qızı Əbrəxanova 1881-ci ildə Şuşada doğulub.

O, Qarabağın iri mülkədarlarından olan Ata xan Əbrəxanovun qızıdır. Qəmər bəyim on iki kəndin sahibi olmuşdur. Kiçik yaşlarında atasını itirmiş, qardaşı Məhəmməd ağanın himayəsində böyüyərək əvvəlcə ev təhsili almış, sonra Şuşa qız gimnaziyasında oxumuşdur.

1924-cü ildə ailəsi ilə birlikdə Bakıya köçən Qəmər bəyim Əbrəxanova bir müddət corab fabrikinin müdiri vəzifəsində
çalışmışdır.

1928-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən çadra əleyhinə mübarizə aparmaq üçün 17 nəfər qadınla Naxçıvana göndərilmişdir. Əvvəlcə Baş Noraşen Dairə İcraiyyə Komitəsi yanında qadın müvəkkili olmuş, 1929-cu ildə Naxçıvanda toxuculuq artelində müdir, sonra Ordubad qız cocuqlar yurdunda tərbiyəçi və 1930-cu ildə Azərbaycanın 10 illiyi naminə Ordubad corab arteli heyət idarəsinin sədri vəzifəsində çalışmışdır. Naxçıvanda yaşadığı illərdə muxtar respublikanın ictimai-siyasi həyatında fəal rol oynamış, qadınlar arasında geniş təbliğat-təşviqat işləri aparmış, onları çadralarını atmağa səsləmişdir.

1930-cu ildə Bakıya qayıtmış, corab artelində müdir müavini işləmiş və 1931-ci ildə Tərtərdə mədəni tələbat cəmiyyətində çalışmış, 1933-cü ildə Bakıya qayıtmışdır.

Qəmər bəyim Əbrəxanova 13 yaşından "Məclisi-üns" ədəbi dərnəyinin üzvü olmuş, "Şeyda" təxəllüsünü də ona Xurşudbanu Natəvan vermişdir. Gənc şair bu məclisdə püxtələşib, formalaşaraq Natəvan üslubunda və əruz vəzninin ən oynaq, ahəngdar

bəhrlərində yazıb-yaratmışdır. Şeirlərində nəcib insani hisslər, sədaqət, məhəbbət, səmimiyyət, eyni zamanda, hüzn, kədər, şikayət motivləri öz dərin ifadəsini tapmışdır. XIX əsrin sonlarında onun "Ləli" təxəllüslü şair Ziba xanım Ərdəbili ilə deyişməsi ədəbi hadisə kimi ədəbiyyat tarixinə yazılmışdır.

Qəmər bəyim Şeyda istedadını dramaturgiya janrında da sınamışdır. 1918-ci ildə yazdığı altı pərdəli "Zülmün daşqını" pyesində dövrünün varlı və harın bəyləri arasında gedən qan davasını, ədavəti, düşmənçiliyi və bunların nəticəsində baş verən faciələri, eyni zamanda həmin dövrdəki ictimai-siyasi hadisələri, milli qırğınları və sair təsvir etmişdir. Burda həmçinin kəndlilərin mülkədarlara qarşı mübarizəsi də öz əksini tapmışdır. Əsər hazırda Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Bədii yaradıcılığının çox hissəsi itib-batmışdır.

Qəmər bəyim Şeyda 1933-cü il aprelin 15-də Bakida vəfat edib.



***Ələsgər bəy Bəylərbəyov, mühəndis, məmur.***

Ələsgər bəy Rəhim bəy oğlu Bəylərbəyov 1882-ci ildə Şuşa şəhərində anadan olmuşdur.

Şəhər realnı məktəbində və gimnaziyada oxumuş, Varşava Politexnik İnstitutunu bitirmişdir.

Bakı Sovetində və Azərsu təsərrüfatında mühəndis işləmişdir. 1922-ci ildən Azərbaycanın şose yolları idarəsinə rəhbərlik etmişdir. Bakı Texniki Məktəbində elektrik və maqnetizm müəllimi (1.XI.1919-CU ildən), Azərbaycan Sənaye İnstitutunda müəllim işləmişdir. Bəy nəslindən olduğuna görə bolşeviklər tərəfindən 1937-ci ildə tutulmuşdur.

Ələsgər bəy Sürəyya xanım Vəlibəyova ilə ailə qurmuşdu. Çingiz bəy adlı oğlu, Xurşud xanım, Validə xanım adlı qızları vardı.

Ələsgər bəy 1949-cu ildə vəfat etmişdir.



***Zülfüqar Hacıbəyov, bəstəkar***

Zülfüqar Hacıbəyov 1884-cü il aprelin 17-də Şuşada anadan olub. Zülfüqarm kiçik qardaşları Üzeyir Hacıbəyli və Ceyhun Hacıbəylinin incəsənətdə formalaşmasında çox böyük rolu olmuşdur. Zülfüqar Hacıbəyovun təsir göstərdiyi digər sənətkarlar arasında Müslüm Maqomayev, Hüseyn Ərəblinski də var.

Zülfüqar Hacıbəyov ilk Azərbaycan operettalarmdan olan – “50 yaşında cavan” (1910) əsərinin müəllifidir. Operetta Azərbaycan səhnəsində komediya janrının ilk nümunəsi sayılır. Həm mətni, həm də musiqisi Zülfüqar Hacıbəyov tərəfindən yazılan əsər sadə və əyləncəli məzmuna malik üçpərdəli və dördşəkillidir. Əsərin ilk tamaşası 1911-ci ilin aprel ayında Tiflis şəhərində Gürcü Zadəganları Teatrında olmuşdur.

Sonralar operetta Bakıda, Naxçıvanda, İrəvanda və Şuşada göstərilmişdir. Zülfüqar Hacıbəyovun əsərləri Azərbaycanın musiqi sənətində mühüm rol oynamışdır. Azərbaycan bəstəkarlarının yaradıcılığına yeni bir cərəyan gətirən “Aşıq Qərib” operasında xalq rəvayətindən istifadə olunmuşdur. O, 1917-ci ildə “Üç aşiq və ya Məlikməmməd” adlı fantastik süjetə malik bir operanın səhnəyə qoyulması üçün xüsusi geyimlər də hazırlatmışdır. Buna baxmayaraq, Sovet hökumətinin təzyiqi nəticəsində əsər tamaşaya qoyulmamışdır.

XX əsrin birinci rübündə məşhurlaşan “Kənd qızı”, “Çoban qızı” və “Əsgər nəğməsi” bəstəkarın ilk mahnıları sayılır.

Azərbaycan klassik musiqisinin formalaşmasında da Zülfüqar Hacıbəyovun rolu böyükdür.

Bəstəkar 1932-ci ildə “Kölə qadınların rəqsi” adlı simfonik pyes bəstələmişdir. Bundan başqa, Zülfüqar Hacıbəyov bir sıra kantatalar da yaratmışdır. 1935-ci ildə oğlu Niyazi ilə birlikdə Cəfər Cabbarlının eyniadlı pyesi əsasında çəkilən ilk səsli Azərbaycan filminə “Almaz”a musiqi yazmışdır. Zülfüqar Hacıbəyovun son əsəri 1950-ci ildə Zakir Bağırovla birlikdə yazdığı kantata olub.

Musiqili komediyaları: “Əlli yaşında cavan” (1909), “On bir yaşl ı arvad” (1911), “Evi iykən subay” (1911), “Aşıq Qərib” (1915) eyniadlı dastan əsasında librettosu Zülfüqar Hacıbəyovundur.



***Üzeyir Hacıbəyli, bəstəkar***

Üzeyir Hacıbəyli 1885-ci il sentyabrın 18-də Şuşada doğulmuşdur. Üzeyirin atası Əbdülhüseyn Molla Məhəmməd oğlu Hacıbəyli öz dövrünün savadlı, ziyalı şəxslərindən biri idi. O, XIX əsrin tanınmış dövlət xadimi və şairi, Qarabağ xanlarının varisi Xurşudbanu Natəvanın mirzəsi olmuşdur. Üzeyirin anası Şirinbəyim xanım Qarabağda məşhur Əliverdibəyovlar nəslindən idi. Üzeyirgil ailədə üç qardaş, iki bacı olublar. Oğlanları Zülfüqar, Üzeyir və Ceyhunun gələcəkdə ədəbi və musiqi istedadının formalaşmasında ailənin böyük rolu olmuşdur.

Üzeyir Hacıbəyli 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. Onun dünyagörüşünün formalaşmasında seminariya böyük rol oynamışdır. Üzeyir bəy seminariya illərində qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olmuşdur.

O, burda Avropa musiqi klassiklərinin əsərlərini mənimsəmiş, skripka və baritonda çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür. Qori seminariyasında Üzeyir bəy gələcəkdə Azərbaycan opera musiqisində öz sözünü deyəcək Müslüm Maqomayev ilə tanış olmuşdur. Seminariya illərindən başlanan dostluq sonralar həm də qohumluğa çevrilmişdir. Üzeyir Hacıbəyli və Müslüm Maqomayev Terequlovlar ailəsi ilə qohum idilər. Üzeyir bəy Məleykə xanımla, Müslüm Maqomayev isə Badigülcamal xanım Terequlova ilə ailə həyatı qurmuşdu.

Üzeyir bəy 1904-cü ildə seminariyanı bitirdikdən sonra Hadrut kənd məktəbinə müəllim təyin edilmişdir. O, burda rus dili, hesab, tarix və musiqidən dərs demişdir.

Üzeyir bəy 1905-1907-ci illər inqilabı ərəfəsində Bakıya gəlmiş, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demişdir. O, Bakıda ədəbi-publisistik fəaliyyətə başlayaraq "Həyat" qəzetində tərcüməçi işləmiş, "İrşad" qəzetinin əməkdaşı olmuşdur. 1907-ci ildə Bakıda Azərbaycan türkcəsində "Hesab məsələləri" və "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti"ni nəşr etdirmişdir. Rus yazıçısı H.B.Qoqolun "Şinel" povestini Azərbaycan dilinə çevirmişdir.

1911-ci ildə o, musiqi təhsili almaq üçün Moskvaya getmiş, Moskva Filarmoniya Cəmiyyəti nəzdində Aleksandr İlyinskinin (1859-1920) xüsusi musiqi kursunda təhsil almışdır. Moskvadan göndərdiyi satirik hekayə və felyetonlar "İqbal" qəzetində dərc olunmuşdur.

Maddi ehtiyac üzündən Üzeyir bəy Moskvada musiqi təhsilini yarımçıq qoyub, Bakıya qayıtmış, burda yaradıcılıq fəaliyyətini davam etdirərək yazdığı operaları səhnəyə qoymaqla məşğul olmuşdur.

Üzeyir bəylə Məleykə xanım Terequlova 1910-cu ildə ailə həyatı qurmuşlar. İxtisasca rus dili müəllimi olan Məleykə xanım həyat yoldaşının sənətinə yaxın olmaq üçün konservatoriyanın musiqi nəzəriyyəsi şöbəsinə daxil olmuşdur. Adətən, gecələr işləyən Üzeyir bəyi Məleykə xanım heç vaxt tək qoymamışdır. Bu insanlar 38 il qoşa ömür sürmüşlər.

Ölümün bir addımlığında 1918-ci ildə ermənilərin Azərbaycanda törətdiyi mart qırğını zamanı daşnaklar Üzeyir bəyin evini güllələbaran edirlər. Ermənilər evin divarlarını, damını güllə yağışına tuturlar. Bu qəlpələr 1975-ci ildə bəstəkarın ev-muzeyinin açılışı ərəfəsində təmizlənib.

Sovet hakimiyyətinin ilk illərində Üzeyir Hacıbəylinin adı tez-tez xalq düşmənləri sırasında hallanmağa başlayır. 1920- ci ildə bəstəkarı güllələmək istəyirlər. Bu təhlükə sırf təsadüf nəticəsində sovuşur. Onun qaynı Hənəfi Terequlov kommunist idi. O, təhlükəsizlik idarəsi şöbə müdirlərinin birinin masasının üstündə təsadüfən haqqında güllələnmə hökmü çıxarılan 59 nəfərin siyahısında Üzeyir Hacıbəylinin də adını görür. Başılovlu Nəriman Nərimanovun yanma gedərək vəziyyəti danışır. Nəriman Nərimanov müvafiq orqanlardan həmin siyahını tələb edir. Onları tələm-tələsik qərar çıxarmaqda günahlandıran Nərimanov bu siyahını cırıb-atır. Beləliklə, Nəriman Nərimanov Üzeyir bəyi qatillərin caynağından xilas edir.

Üzeyir bəy bədii yaradıcılığa publisistika ilə başlamışdır. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni iqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs", "Behmankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir. "Molla Nəsrəddin" jurnalında məzəli imzalardan çox istifadə etmişdir: "Adı bəy, özü Filankəs", "Anaş Qurbağa", "Tısbağa", "Qatilov", "Behmankəs", "Cin", "Xoca Lələ", "Bızbıza", "Çoban", "Əqrəb" (ehtimal olunur), "Qaf", "Beş", "İdarədən", "Lal uşaq", "Bala uşaq", "Gendən baxan", "Gendən qulaq asan", "Yalançı" və s. Gülüş, yumor onun həm insan kimi təbiətinin, həm də ədəbi yaradıcılığının, o cümlədən, publisistikasının başlıca keyfiyyətlərindən idi. XX əsrin əvvəllərində Azərbaycan mətbuatının aparıcı janrlarından olan felyeton Ü.Hacıbəylinin də publisistik fəaliyyətində əhəmiyyətli yer tuturdu. Bədii və publisist tarazlığı saxlamaq etibarilə onun felyetonları, oçerk və parodiyaları böyük dəyəri olan əsl sənət əsərləridir.

Üzeyir Hacıbəylinin dövri mətbuat səhifələrində “Ordan-burdan” ümumi başlığı altında dərc etdirdiyi yazılar xüsusi yer tutur. Onun “Bazar söhbəti”, “Məzhəkə”, “Təhsil” kimi əsərləri aşkar seçilən komponentləri ilə satirik hekayə; “Rəfiqimdən məktub”, “Üçüncü dəllək”, “Məclisimizin duzu” “O, heç!”, “Tərəqqi və geril ik”, “Ha fikir edirəm, başa düşmürəm!” kimi yazıları öz publisistik əlamətləri, ictimai-siyasi məzmunu və bədii dəyəri ilə felyetondur. Müəllif əsərlərində, əsasən, Bakı şəhər Dumasının fərsiz deputatlarını rüsvay edir, tutduqları siyasi mövqeyə layiq olmadıqlarını nümayişkaranə açıqlıqla onların uzlərinə vurur, fəaliyyətsiz “qlasnıları” barsız ağaclara bənzədir. Qaravəlli və satirik miniatürlərini (məsələn, “Dövlət Duması”, “Ata və oğul”, “Moizə” və s.) böyük komedioqrafm sonrakı səhnə əsərlərinə səmərəli müqəddimə hesab etmək olar.

Bütün ömrü boyu Üzeyir bəy Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən bu unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salmış, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor əsərlərini yazmışdır. Bəstəkar həm Azərbaycan Xalq Cümhuriyyətinin, həm də Sovet Azərbaycanının himnlərinin müəllifi olmuşdur.

Üzeyir Hacıbəyli xalqda musiqili səhnə əsərlərinə maraq oyatmaq məqsədilə Azərbaycan dilində milli opera yaratmaq qərarına gəlir. Bu işdə qardaşları Zülfüqar və Ceyhun, seminariya dostları, dövrün maarifçi ziyalıları, aktyorlar Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Əbdürrəhim bəy Haqverdiyev, Hənəfi Terequlov və başqaları ona yaxından kömək edirlər.

Üzeyir Hacıbəyli 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən “Leyli və Məcnun” operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur. Bəstəkar operanın librettosunu Füzulinin eyniadlı poeması əsasında yazmışdır. İlk tamaşaya istedadlı aktyor və rejissor Hüseyn Ərəblinski quruluş vermişdi. Dirijor isə yazıçı-dramaturq Əbdürrəhim bəy Haqverdiyev idi. Məcnun rolunda Hüseynqulu Sarabski, Leyli rolunda isə çayçı şəyirdi Əbdürrəhim Fərəcov çıxış etmişlər. Sonrakı tamaşalara isə

Üzeyir bəyin özü və onun yaxın dostu və məsləkdaşı Müslüm Maqomayev dirijorluq etmişdir.

Bəstəkarın fikrincə, Füzuli poemasının ruhu, lirikası, "Leyli və Məcnun" poemasının romantizmi məhz muğam kimi möhtəşəm bir musiqi ilə təcəssüm oluna bilər. Operanın musiqisi, əsasən, muğam və təsniflər üzərində qurulmuşdur.

"Leyli və Məcnun" ilə musiqi tarixində operanın yeni növü- muğam operası meydana gəldi. Üzeyir Hacıbəylinin məhz Füzulinin poemasına müraciətinin səbəbi ondan ibarət idi ki, bu əsər Azərbaycan dilində yazılmış və Şərq ədəbiyyatının inkişafına böyük təsir göstərmişdi. Bu əsərdən parçalar peşəkar xanəndələr tərəfindən muğamlarda çox ifa olunaraq xalq arasında geniş yayılmışdı.

İlk opera olan "Leyli və Məcnun" xalq tərəfindən çox sevildi və bu günə kimi də Azərbaycan opera və balet teatrının səhnəsində oynanılır. Azərbaycan operasının məhz Füzulinin poeması əsasında yazılması təsadüfi deyil. Üzeyir yaradıcılığında Füzuli poeziyasına çox dərin bir məhəbbət hökm sürürdü. Səməd Vurğun çox doğru olaraq Üzeyirə ***"Ey Füzuli şerinin bir bəstəkar qardaşı!"*** – deyə müraciət edirdi.

Məcnun rolunun ilk ifaçısı Hüseyinqulu Sarabski olmuşdur. Daha sonra Sidqi Ruhulla, Xanlar Haqverdiyev, Əlövsət Sadıqov, Şirzad Hüseynov, Gülağa Məmmədov, Mais Salmanov, Qulu Əsgərov, Bakir Haşımov, Əli Mehdiyev, Arif Babayev, Baba Mirzəyev, Canəli Əkbərov, Səfa Qəhrəmanov, Alim Qasımov və Mənsum İbrahimov bu rolu ifa etmişlər.

Yarandığı gündən sevilən, musiqisi və sözləri dillər əzbəri olan "Leyli və Məcnun" operası milli mədəniyyətimizin şanlı salnaməsinə çevrildi. Operanın səhnələşdirilməsində əsas problem qadın rolunun ifaçısını tapmaq idi. Leyli rolunu çayçı Əbdürrəhim Fərəcov ifa edir. İkinci tamaşada isə Fərəcov rolu oynamaqdan imtina edir.

Sonralar Əhməd Ağdamski, Hüseynağa Hacıbababəyov və nəhayət, qadınlardan Sona Hacıyeva, Məhbubə Paşayeva,Yavər Kələntərli, Gülxar Həsənova, Cahan Talışinskaya, Sima xanım, Simuzər Hətəmova, Rübabə Muradova, Sara Qədimova, Zeynəb

Xanlarova, Rəsmiyyə Sadıqova, Flora Kərimova, Nəzakət Məmmədova, Səkinə İsmayılova, Qəndab Quliyeva, Yaqut Abdullayeva, Gülyaz Məmmədova, Nəzakət Teymurova, Gülüstan Əliyeva və Aygün Bayramova Leylinin ifaçıları olmuşlar.

Bəstəkar 1909-1915-ci illərdə bir-birinin ardınca "Şeyx Sənan" (1909), "Rüst əm və Söhrab" (1910), "Şah Abbas və Xurşudbanu" (1912), "Əsli və Kərəm" (1912), "Harun və Leyla" (1915) muğam operalarının librettolarının xalq dastanları və rəvayətləri və Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında yazmışdır. "Leyli və Məcnun"dakı üslub xüsusiyyətlərini və estetik sənət prinsiplərini sonrakı operalarında da davam etdirmişdir. "Əsli və Kərəm" operasında muğamla bərabər, aşıq musiqisindən də istifadə etmişdir.

1937-ci il aptet in 30-da Azərbaycan Opeta və Balet Teatrmda ilk dəfə tamaşaya qoyulan "Koroğlu" operası (librettosu H.İsmayılov və Məmməd Səid Ordubadinindir) bəstəkarın yaradıcılığının zirvəsini təşkil edir. Azərbaycan opera sənətinin incisi sayılan bu operada Üzeyir bəy ilk dəfə klassik opera formasına riayət edərək bitkin ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri, reçitativlər yaratmışdır.

O, "Koroğlu" operasında simfonik orkestrin tərkibinə Azərbaycan xalq musiqi alətlərini daxil edərək orkestrin rəngarəng səslənməsinə nail olmuşdur. Üzeyir bəy Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. O, XIX əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini Qərbi Avropa bəstəkarlıq məktəblərinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirmiş, Azərbaycan və ümumiyyətlə, Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir.

1937- ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti dekadasında "Arşın mal alan" və "Koroğlu" böyük maraqla qarşılanır. Hər iki əsərə baxan Stalin bəstəkarın yaradıcılığına yüksək qiymət verir. "Koroğlu"nu vaxtında yazılan opera hesab edən Statin Üzeyir bəyə məstəhət götür ki, bir yox, iki belə opera yaratmaq lazımdır.

Stalinin göstərişi ilə Azərbaycandan gələn nümayəndə heyətinin şərəfinə ziyafət təşkil edilir. Deyilənə görə, həmin məclisdə Üzeyir

bəyə yuxarı başda Stalinlə Mircəfər Bağırovun yanında yer göstərilir. Stalin onunla xeyli söhbət edir və söhbət əsnasında "Arşın mal alan"a hələ Gürcüstanda olarkən baxdığını bildirir, operettadan parçalar da oxuyur.

Bəstəkar həyatının son illərində "Firuzə" operası üzərində işləmişdir. Bu bitməmiş operadan təkcə Firuzənin ariyası qalmışdır.

Üzeyir bəy Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. O, XIX əsrin əvvəllərinədək şifahi xalq musiqi sənəti şəklində mövcud olan Azərbaycan milli musiqisini Qərbi Avropa bəstəkarlıq məktəblərinin nailiyyətləri, forma və janrları ilə zənginləşdirmiş, Azərbaycan və ümumiyyətlə, Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir.

Bəstəkar həm də böyük musiqişunas-alim idi. O, müasir Azərbaycan elmi musiqişünaslığının əsasını qoymuş, musiqiyə dair çoxlu məqalələr yazmış, tədqiqatlar aparmışdır.

Şərqdə ilk operetta da Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Bəstəkarın ilk musiqili komediyası üç pərdədən ibarət "Ər və arvad"dır. Bu əsər Azərbaycanda musiqili komediyanın ilk nümunəsidir. Əsərin ilk tamaşası 1910-cu ildə olmuşdur. Rollarda H.Sarabski (Mərcan bəy), Ə.Ağdamski (Minnət xanım) və başqaları çıxış etmişlər. Komediyaların mətnini də Üzeyir bəy özü yazmışdır.

1910-cu ildə bəst əkar "Ər və arvad"dan sonra ikinci operettasını yazır. İlk tamaşa 1911-ci il aprelin 25-də Bakıda, Mayılov qardaşlarının teatrında olmuşdur. Əsərin musiqi partiyası ənənəvi xalq mahnı-rəqs havalarına əsaslanan orijinal parodiya uzərində qurulmuşdur. "Uzundərə" lirik xalq rəqsinin bir qədər dəyişdirilən melodiyasından istifadə olunmuş və Məşədi İbadın ilkin xarakteristikasını verən ***"Mən nə qədər, nə qədər qoca olsam da"*** mahnısı bu yöndəmsiz, çirkin tacirin ifasında ifrat mubaliğəli təqdim edilmişdir. Əsərin sonuncu pərdəsində təkrarlanan bu mahnı Məşədi İbadın mənəvi məğlubiyyətini göstərir.

Sonralar "O olmasın, bu olsun" musiqili komediyası müxtəlif dillərə tərcümə olunaraq Qafqazyanı ölkələrdə, eləcə də Türkiyədə, Bolqarıstanda, Yəməndə və digər məmləkətlərdə tamaşaya qoyulmuşdur.

Üzeyir Hacıbəylinin üçüncü və sonuncu musiqili komediyası "Arşın mal alan"dır. "Arşın mal alan" musiqili komediyasında inqilabdan əvvəlki Azərbaycan məişəti, xalq adət və ənənələri əksini tapmışdır. Bəstəkar 1911-ci ildə musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il burda filarmonik cəmiyyətin musiqi kurslarında, 1913-cü ildə isə Peterburq konservatoriyasında oxumuşdur. Peterburq dövrü Hacıbəylinin yaradıcılığında mühüm rol oynamış, o, "Arşın mal alan" musiqili komediyasını məhz burda yaratmışdır. Üzeyir bəyin yazdığı bu operetta 70-ə yaxın xarici dilə tərcümə edilmiş, 100-dən çox teatrın səhnəsində oynanılmışdır. "Arşın mal alan" beş dəfə ekranlaşdırılmış, dəfələrlə qramofon valına yazılmışdır:

"Arşın mal alan" musiqili komediyası əsasında ilk bədii film 1916-cı ildə çəkilmişdir. Bu, səssiz film idi.

İkinci dəfə 1917-ci ildə Sankt-Peterburqdan gəlmiş Q.Beyyatov "Arşın mal alan"ı yenidən ekranlaşdırmışdı. Lakin o bu işi görərkən nə müəllifdən icazə almış, nə də onunla məsləhətləşmişdi. Bu səbəbdən də cəmi iki gün nümayiş etdirilən film ekrana buraxılmamışdır.

1937-ci ildə üçüncü dəfə ABŞ-da yaşayan R.Mamulyan adlı bir erməni rejissor "Arşın mal alan"ı Üzeyir Hacıbəylidən icazə almadan, ekranlaşdırmışdır və filmdə Azərbaycan bəstəkarının adını göstərməmişdir.

1945-ci ildə isə dördüncü dəfə "Arşın mal alan" Bakı kinostu-diyasmda ekranlaşdırılmış və bu musiqili film dünyada geniş şöhrət qazanmışdır. Baş rolda Rəşid Behbudov çəkilib. Lakin əsərlərinə kimlərinsə düzəliş etməsi ilə heç cür barışmayan Üzeyir bəy filmdən narazı qalmışdı. Filmə baxış sona yetəndən sonra Üzeyir bəy söz alaraq deyib: ***"Mənim övladım yoxdur. Əsərlərim mənim övladlarımdır. Heç kimin onlara toxunmağa haqqı yoxdur".***

1965-ci ildə isə "Arşın mal alan" Bakıda yenidən ekranlaşdırıldı. Bu rəngli, musiqili filmin rejissoru Tofiq Tağızadə, musiqi redaktoru Fikrət Əmirov idi. Bu film uğurlu alınmışdı. Baş rolun ifaçıları Həsən Məmmədov, Murad Yegizarov, Nəcibə Məlikova, Leyla Şıxlinskaya tamaşaçıları valeh etməkdə idi. Onun "Arşın mal

alan” musiqili komediyası isə ingilis, alman, çin, ərəb, fars, polyak, ukrayna, belorus, gürcü və s. dillərə tərcümə edilmişdir.

Üzeyir bəy bir çox musiqili komediyaların da müəllifidir: “Ər və arvad” (3 pərdədə), “O olmas m, bu ol sun”, “Arş m mal alan” (4 pərdədə).

Üzeyir bəyin instrumental müşayiətli xor əsərləri də cəlbedicidir, onlardan bir neçəsinin sözləri özünə məxsusdur. Xor və orkestr üçün: “Azərbaycan” (sözləri Əhməd Cavadındır), “Milli marş” (Sözləri Üzeyir Hacıbəylinindir).

Xor və simfonik orkestr üçün: “Himn” (sözləri Üzeyir Hacıbəylinindir),”Kantata” (Ə.Firdovsinin 1000 illiyinə həsr olunub).

Onun solist, xor və fortepiano üçün işlədiyi “Qızıl əsgər marşı” (sözləri Məmməd Səid Ordubadinindir) çox qürurvericidir.

“Süvari marşı”,”Piyadalar marşı”, “Kantata” (1938 – sözləri Süleyman Rüstəmindir), həmçinin, “Ölməz sənətkar Mirzə Fətəli Axundzadənin anadan olmasının 125 illiyi münasibətilə” (sözləri H. Natiqindir), “Ey Vətən” (sözləri Səməd Vurğunundur) əsərləri vətənpərvərlik mövzusundadır.

Üzeyir Hacıbəylinin “Azərbaycan xalq mahnılarının xor üçün işləmələri” xalq çalğı alətləri ansamblı və ya fortepianonun müşayiəSi ilə xor üçün “Ay bəri bax”, “Gedək gəzək bağçada”, “Aman nənə”, “Nə gözəldir”, “Lolo”, “Sən gözəl”, “Ləli” xalqın tarixi keçmişindən xəbər verir.

Bəstəkarın solist, xor, simfonik orkestr və rəqs qrupu üçün də bir çox əsərləri var:

“Kantata”, “Vətən və cəbhə” kantatası (sözləri Üzeyir Hacıbəylinindir), “Azərbaycan SSR Dövlət himni” (sözləri Səməd Vurğun və Süleyman Rüstəmindir), “Zəfər himni” (sözləri Səməd Vurğunundur), “Stalinə salam”(sözləri Süleyman Rüstəmindir), 1947, “Kantata”, Nizami Gəncəvinin 800 illiyinə həsr olunmuşdur (sözləri Süleyman Rüstəmindir).

Üzeyir bəy 1928-1933-cü illər ərzində bir çox orkestr əsərləri bəstələmişdir. Xalq çalğı alətləri orkestri üçün “Kolxoz çöllərində”, “Fantaziya N1”, ”Fantaziya N2”, “Cəngi”. Simfonik orkestr üçün isə “Arazbarı”, “Təntənəli marş”.

1925-1945-ci illər arasında isə kamera-instrumental əsərləri bəstələmişdir:

- "Aşıqsayağı", skripka, violonçel və fortepiano üçün.
- "Uşaq albomu", fortepiano üçün.
- "Sonatina", fortepiano üçün.
- "Uşaq pyesləri", fortepiano üçün.

1939-cu ildə Üzeyir Hacıbəyli şəkər xəstəliyinə tutulur. Uzun illər onun şəxsi katibi işləmiş yaxın qohumu Ramazan Xəlilovun dedyinə görə, bəstəkar bu xəstəliyi bədnam qonşularımızın ucbatından tapmışdı. 1939-cu ildə Moskvada İttifaq miqyasında milli musiqi alətləri ifaçılarının müsabiqəsi keçirilir. Stalinin göstərişi ilə münsiflər heyətinə Üzeyir Hacıbəyli başçılıq edir. Müsabiqə zamanı bəstəkar bərk əsəbiləşir. Təbiətcə sakit insan olan Üzeyir bəy uzun müddət sakitləşə bilmir. Azərbaycanı təmsil edən ifaçılar arasında ermənilərin olmasına baxmayaraq, Bakı erməniləri Moskvaya məktub yazırlar və bildirirlər ki, Üzeyir Hacıbəyli millətçilik edərək qeyri-millətlərin müsabiqədə iştirakına əngəl törədir. 30-cu illər üçün bu ittiham ən ağır ittiham idi. Molotov ona ünvanlanan ərizəyə dərkənar qoyaraq bəstəkara göndərir: ***"Özünüz həll edin".*** Başdan-ayağa böhtan olan bu ərizə bəstəkarın əsəblərinə ciddi təsir göstərir və o, həmin vaxtdan şəkər xəstəliyinə tutulur.

Xəstəlik ağırlaşanda Üzeyir bəy "Leçkomissiya" adlanan xəstəxanada yerləşdirilir. Həmin xəstəxananın həkimi erməni Osipyanın əlinə "yaxşı fürsət" keçir və bilərəkdən onu səhv yolla müalicə edir. Hətta sonralar Azərbaycan SSR və SSRİ dövlət rəhbərlərinin tapşırığı ilə Moskvaya aparılıb, məşhur həkimlər tərəfindən müayinə edildikdə onun səhv müalicə olunduğu haqqında məlumat verilir. Bir müddət müalicələrdən sonra öncə dedikləri kimi yanlış aparılan müalicə səbəbindən onun sağala bilməyəcəyi bəyan edilir.

Üzeyir Hacıbəyli 1948-ci il noyabrın 23-də vəfat etmişdir. Dünya şöhrətli, xalqın sevimli oğlu bəstəkar Üzeyir bəy Hacıbəyli ölümü ilə ölümsüzlüyə qovuşdu.

***Həsən bəy Fətəlibəyov, hərbçi***



1886-cı ildə Şuşa qəzasının Ətyeməzli obasında zadəgan ailəsində anadan olmuşdur. Şuşada ibtidai təhsil aldıqdan sonra Qori Müəllimlər Seminariyasına daxil olmuşdur. Onun müəllim kimi fəaliyyət göstərməsi barədə məlumat yoxdur.

Arxiv sənədlərindən məlum olur ki, o, 1917-ci oktyabrın 29-da Tatar-Azərbaycan süvari alayının ehtiyat bölməsinə könüllü qəbul olunmuşdu. İki aydan sonra zabit rütbəsi almışdır. 1918-ci il yanvarın dördündə uryadnik rütbəsi verilmişdir. Həmin il, həmin tarixdə müsəlman korpusunun komandiri, general-leytenant Əliağa Şıxlinskinin əmrilə oboz (hərbi araba karvanı) komandiri təyin edilmişdi.

1939-cu il yanvarın 4-də ailə vəziyyətinə görə hərbi xidmətdən tərxis olunub. Ancaq qısa vaxtdan sonra hərbi xidmətə qayıdan Həsən bəy Fətəlibəyov hərbi xidmət müddətində vəzifə pillələrində sürətlə irəliləmişdir. Sənədlərdə bildirilir ki, Azərbaycan Demokratik Respublikasının əks-kəşfiyyat idarəsinin rəis müavini işləmişdi. O, bu işə 1920-ci il aprelin 10-da təyin olunmuşdu. Bəzi sənədlərdə rəis olduğu da göstərilir.

XI Qızıl Ordu Bakını işğal edəndən sonra başqaları kimi o da bolşeviklərin təqibinə məruz qalaraq tutulub həbs olunmuşdur. Bolşeviklər onu təhlükəli düşmənlərindən biri hesab edərək hətta həbsxanada belə uzun müddət saxlamaq istəməmiş, 1920-ci ildə naməlum şəraitdə məhkəməsiz və hökmsüz güllələmişlər.

***Hidayət bəy Tarverdiyev, ictimai xadim, mühəndis.***



*Hidayət bəy Tarverdiyev dostu Şükür bəy Ağayevlə*

Hidayət bəy Zülfüqar bəy oğlu Tarverdiyev 1887-ci ildə Şuşa şəhərində doğulmuşdur.

Şuşa Realnı Məktəbində oxumuş, sonra gimnaziya bitirmiş, Kiyev universitetinə daxil olmuşdur. Mühəndislik fakültəsinin məzunu olmuşdur.

Şükür bəy Ağayev, Yusif Vəzir Çəmənzəminli və başqaları ilə həmyerlilər cəmiyyəti yaratmışdır. Azərbaycanın ictimai həyatında tanınmış sima idi.

Hidayət bəyin Murad bəy adlı oğlu, Leyla xanım adlı qızı var dı.

***Cəmil bəy Vəzir ov, mühəndis, jurnalist, dövlət xadimi.***



1888-ci il martın 5-də Şuşada anadan olmuşdur.

Bakı Realnı Məktəbini bitirəndən sonra Kiyev Politexnik İnstitutuna daxil olmuş, kimya şöbəsini mühəndis-texnoloq ixtisası üzrə bitirmişdir. Burada əməli mübarizə məktəbi keçmiş və inqilabçı kimi yetişmişdir.

Cəmil bəy 1917-ci ildə Bakıya gəlmiş, burada inqilabi fəaliyyətlə məşğul olmuşdur. Eyni zamanda şəhər ərzaq komitəsində manufaktura şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

1918- ci il iyul ayının 31-də Cəmil bəy keçmiş vəzifəsindən azad olunub, şəhər telefon şəbəkəsində müfəttiş vəzifəsində işləmişdir.

1919- cu ildə bir-birinin ardınca Azərbaycan və rus dillərində leqal və qeyri-leqal qəzetlər nəşr olunmağa başladı. Cəmil bəy də bu mətbuat orqanlarının yaranmasında və nəşrində yaxından iştirak

edirdi. 1919-cu ilin axırlarında "Novıy mir" qəzetinin ilk nömrəsi çapdan çıxdı. Cəmil bəy bacarıqlı və alovlu bir publisist kimi qəzetin redaktoru vəzifəsinə irəli çəkildi.

1920- ci il aprelin 28-də Nəriman Nərimanov başda olmaqla Azərbaycan milli hökumətinin ilk heyəti təsdiq edildi. Cəmil bəy xalq poçt-teleqraf və rabitə yolları komissarı vəzifəsinə təyin olundu.

1921- ci ildə Cəmil bəy vəzifəsindən azad edildi. 1922-ci ildə o, Azərbaycanın iqtisadiyyat üzrə daimi nümayəndəsi təyin edilmişdi. 1923-cü ildə Tiflisdə Zaqafqaziya Dövlət Ticarəti İdarəsində işləmişdi. 1928-ci ildən Bakıya dönərək "Azərxalça" İstehsalat birliyində çalışmışdır.

1938-ci ilin sərt yel i Cəmil bəyin üstündən də əsdi. Tutulub Oryol şəhərinə sürgün olundu.

Cəmil bəy 1943-cü ildə Oryol şəhərində ömrünü başa vurdu.

***Cəlil Məmmədzadə, görkəmli ziyalı, repressiya qurbanı.***



Cəlil Məhəmməd oğlu Məmmədzadə 1888-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Şuşa Realnı Məktəbini, Kiyev gimnaziyasını bitirmiş, sonra Kiyev Politexnik İnstitutuna daxil olmuşdur. Burada o, mühəndis-texnoloq ixtisasına yiyələnməklə yanaşı, həm də fərdi dərslər verməklə pul qazanırdı. Onun 9 illik gimnaziya, 5 illik ali təhsili vardı.

Kiyevdə yaşayarkən ictimai-siyasi fəallığı ilə də seçilib. Kiyev şəhəri Müsəlman Tələbələr Təşkilatının fəal üzvlərindən biri olub. O, çox gənc ikən böyük şöhrət sahibi olmuş, eyni vaxtda Xalq Maarif Komissarının müavini, ali pedaqoji institutun direktoru, "Maarif və mədəniyyət" jurnalının redaktoru, "Azərnəşr"in direktoru, teatr idarəsinin sədri vəzifələrində çalışmışdır. Rus və

ukrayna dillərini mükəmməl bilən C.Məmmədzadə partiya siyasi kurslarında inqilabi hərəkatın tarixindən, siyasi iqtisadın əsaslarından mühazirələr oxuyurdu.

C.Məmmədzadə 1920-ci ildə bolşevik partiyası sıralarına qəbul edilir. Həmin ildən 1921-ci ilə kimi Xalq İctimai Təminat Komissarının şəxsi katibi olub. 1921-ci ilin fevralında Rusiya ilə ictimai təminatla bağlı əlaqələri genişləndirmək məqsədilə Moskvaya, ordan isə ailəsini Bakıya gətirmək üçün Kiyevə ezam olunur. Anasının Kiyevdə xəstələnməsi ilə əlaqədar olaraq üç ay orada qalmalı olur. Burda da siyasi fəaliyyətdən ayrılmır, əksinə, bu sahədəki fəaliyyətini daha da genişləndirir. 1921-ci ildə Dadaş Bünyadzadənin başçılığı ilə Əlifba Komitəsi yaradıldı.

1922-ci ildə N.Nərimanovun başçılıq etdiyi xüsusi komissiya geniş müzakirələrdən sonra latın qrafikalı yeni Azərbaycan əlifbasının layihəsini hazırladı. 1922-ci ildə latın qrafikalı ilk yeni türk əlifbası işıq üzü gördü. Əlifbanın hazırlanmasında C.Axundzadə, F.Ağazadə ilə yanaşı, Cəlil Məmmədzadə də işt irak edirdi. 1923-cü ildə Azərbaycan K(b)P MK-nın Bakı şöbəsi katibinin müavini təyin edilir. Bir müddət Xalq Komissarları Sovetində işlər idarəsində çalışır. 1923-1928-ci illər Cəlil Məmmədzadənin həyatının ən məhsuldar dövrüdür.

1922-cü ilin dekabrında o, Azərbaycan Xalq Maarif Komissarının müavini təyin olunur və 1928-ci ilə kimi həmin vəzifədə çalışır. Həmin dövrdə xalq maarif komissarı onunla birlikdə Kiyevdə təhsil alan Mustafa Quliyev (o,Kiyev Müqəddəs Vladimir Universitetində oxumuşdu) idi.

I türkoloji qurultayda çıxışı zamanı C.Məmmədzadə yeni türk əlifbasının (latın qrafikalı əlifbanın) üstünlüklərindən bəhs edir, "əcdadlarımızdan, ulu babalarımızdan miras qalan ədəbiyyatı itirməmək, kənara atmamaq" şərti ilə yeni əlifbanın qəbul edilməsinin vacibliyini əsaslandırır. AXC-nin süqutundan sonrakı dövrdə məhvedici repressiya maşını qətiyyən onu sağ buraxmazdı. Onu repressiyadan, Sibirin qarlı-çovğunlu çöllərindən yalnız ölüm qurtara bilərdi. Bu, belə də oldu. Böyük vəzifə sahibi olmasına baxmayaraq, tale üzünə gülməmiş, həyatının ən qaynar, ən

məhsuldar dövründə dünyasını dəyişmişdir. Repressiya olunmasa da, ölümündən sonra heç vaxt adı çəkilməmiş, zəngin fəaliyyəti haqqında yazılmamış, unudulmuş, bəlkə də, unutdurulmuşdur.

Cəlil Məmmədzadə 1934-cü il iyunun 8-də Bakı şəhərində vəfat edib. Cəlil Məmmədzadənin dəfninin təşkili ilə bağlı xüsusi komissiya yaradılmış, 26 Bakı Komissarı adına sarayda onunla vida görüşü keçirilmişdir.

***Mirhəsən Vəzir ov, dövlət xadimi***



Mirhəsən Seyid Kazım oğlu Vəzirov 1889-cu ildə Şuşa şəhərində anadan olmuşdur. İbtidai təhsilini atasından almışdı. Sonra Şuşa Realnı Məktəbində oxumuş, 1907-ci ildə Bakı Realnı Məktəbinə dəyişilmişdir. Bir müddət burada oxuduqdan sonra Novoçerkassk Politexnik İnstitutunun kimya fakültəsinə daxil olmuşdur. Maddi problemlər və xəstəliyi üzündən Politexnik İnstitutunu bitirə bilmədiyindən 1915-ci ildə Kiyev Ticarət İnstitutuna qəbul edilmişdir. Bir neçə ay burada oxuyandan sonra Bakıya qayıtmış, Bakıda müəllimliklə məşğul olmuşdur.

Sol eserlər qrupunun üzvü olan M.Vəzirov 1917-ci ildən bolşeviklərlə birlikdə işləmişdir. 1917-ci il iyulun 14-də Bakı müsəlman ictimai və siyasi təşkilatları icraiyyə komitəsinin katibi seçilmişdir.

M.Vəzirov 1917-ci il noyabrın 2-də Bakı Sovetinin yeni icraiyyə komitəsinə üzv, Bakı qəza Kəndli Deputatları Sovetinin 1918-ci ilin mayında keçirilən birinci qurultayında icraiyyə komitəsi sədrinin müavini seçilmişdir. 0,1918-ci ilin mayından Bakı Xalq Komissarları Sovetinin xalq torpaq komissarı idi.

M.Vəzirov Bakı Xalq Komissarları Sovetinin torpaq haqqında dekretini imzalamış, dekretin həyata keçirilməsində, qəzalarda

kəndli qurultaylarının təşkilində fəal iştirak etmişdir. Mirhəsən Vəzirov 1918-ci ildə 26 Bakı komissarları ilə birlikdə ingilislər tərəfindən Ağcaqum çölündə güllələnmişdir.



### *Seyid Şuşinski, xanəndə*

Onun əsl adı Mir Möhsün ağa Seyid İbrahim oğludur. O, 1889-cu il aprelin 12-də Şuşa qəzasının Horadiz kəndində doğulub. Atasını erkən itirən Seyid Qarabağ toylarının qadın xanəndələrindən biri olan xalası Məşədi Hürzadın ümidinə qalır. O, ilk təhsilini Horadiz mədrəsəsində alır və ərəb, fars dillərini, klassik ədəbiyyatı mükəmməl öyrənir və xalasıyla toy məclislərinə getməyə başlayır. 1907-ci ildə belə toylardan birində onun səsini məşhur xanəndələrdən Keçəçioğlu Məhəmməd eşidib, Seyidin əmisinə məsləhət görür ki, uşağın musiqi təhsili ilə ciddi məşğul ol sun. Əmi də uşağı Şu ş aya öz evinə aparır. Bu ev Cabbar Qaryağdıoğlunun qonşuluğunda idi. Bu minvalla balaca Seyidə Cabbar əminin canlı səsini eşitmək nəsib olur.

Onun Şuşada ilk konserti 1908-ci ildə olur. Yay klubunda keçirilən konsertə bütün məşhur Qarabağ xanəndələri qatılıb. Deyilənə görə, Seyid "Bayatı-Şiraz"m "Xavəran" şöbəsindən "Qatar" muğamına elə keçir ki, hamını mat qoyur. Məşhur xanəndə İslam Abdullayev həmin konserti belə xatırlayır: ***"Biletlər bir həftə qabaq satılıb qurtarmışdı. Axşam saat 9-da konsert başlandı. Cabbar, Qasım, Məşədi Məmməd, Həmid və Keçəçioğlu oxuduqdan sonra Azad bəy Əmirov gənc Seyidin "Mani" oxuyacağını elan etdi. Sonra Seyidə "Bayatı-Şiraz" oxutdular. Seyid "Bayatı-Şiraz"ın "Xavəran" şöbəsindən "Qatar"a keçəndə nəinki dinləyiciləri, hətta məşhur xanəndələri belə, heyran etdi. Çünki "Xavərən"dən "Qatar"a keçmək xanəndədən zil səsdən***

***başqa həm ustalıq, həm də cəsarət tələb edir. Gənc Seyidin ustalıqla bir muğamdan başqa muğama keçməsi, doğrusu, mənə möcüzə kimi göründü. Seyid tarın son pərdələrindən aşağı enərək təkrar zəngulələr vuranda Cabbar əlindəki qavalı kənara qoyub, böyük bir heyrət içərisində Seyidə tamaşa edirdi***

Seyid dəstgahı qurtarıb ayağa qalxdıqda salondakı tamaşaçılar uzun zaman gənc xanəndəni alqışladılar. Camaat sakitləşmirdi. Nəhayət, xan sarayında xidmət etmiş, şəhərdə hörmətli şəxslərdən biri Xanlıq Muxtar iki dəfə göyə göllə atdıqdan sonra tamaşaçılar sakit oldular. Keçəçioğlu Məhəmməd əlini göyə qaldırıb dedi: ***"İlahi, şükür yaratdığına!.."*** Seyidə üçüncü dəfə "Şəkəroğlu şikəstəsi"ni oxutdular.

Sonra Cabbar Qaryağdıoğlu səhnəyə qalxıb, Seyidi bağrına basaraq gözləri yaşarmış halda dedi: ***"Camaat! İndi mən ölsəm də, qəmim yoxdur, çünki məndən sonra Seyid var".*** Sonrakı çıxışlarının birində isə Cabbar Seyidin oxumağından riqqətlənərək öz qavalını ona bağışlamış və onu ***"Şərq musiqisinin incisi"*** adlandırmışdı. Məşhur musiqi araşdırıcısı Firüdun Şuşinskinin Seyid Şuşinskini Cabbar Qaryağdıoğlundan sonra "ikinci xanəndə" adlandırması bu baxımdan təsadüfi deyil.

Seyid Şuşinski 1911-ci ilədək Şuşada yaşayır. Bir gün o, toy məclislərinin birində məşhur bəstəkar Fikrət Əmirovun elə onun qədər də məşhur atası Məşədi Cəmil Əmirovla tanış olur. Məşədi Cəmil onu özü ilə Gəncəyə aparır. İki sənətkar arasında yaranan xoş münasibət sonralar Fikrət Əmirovla münasibətlərdə davam edir. "Kürd-Ovşarı" və "Şur" simfonik muğamlarını yaradanda dahi bəstəkar bu məşhur xanəndənin məsləhətlərindən bəhrələnir və onu böyük məhəbbətlə həmişə ***"xalq musiqimizin çırpınan ürəyi"*** adlandırardı. Gəncədə "Tehran" otelində yaşayan xanəndə o qədər məşhurlaşır ki, onu o dövrdə Qafqazın paytaxtı Tiflisə dəvət edirlər və o, bu dəvəti qəbul edir.

1919-cu ilədək Tiflisdə yaşayan xanəndə şəhərin mədəni həyatına həvəslə qatılır: teatrlara gedir, tamaşalararası fasilələrdə konsertlər verir, burdakı soydaşlarına maddi yardımlar göstərir. 1912-ci ildə "Molla Nəsrəddin"in naşiri Mirzə Cəlil və

həmfikirlərinin təşəbbüsü ilə Tiflisin azərbaycanlılar yaşayan məhəlləsində – Şeytanbazarda “Auditoriya” adlı bir klub açılır və onun nəzdində fəaliyyət göstərən Müsəlman Dram Cəmiyyətinin aktyorlarına Seyid Şuşinski daim yardım göstərir, özü də İbn-Salam, Əsgər, Sərvər kimi bir-birindən maraqlı obrazların ifaçısına çevrilir və buna görə qonarar istəmir.

O vaxtlar Bakının teatr truppaları tez-tez Tiflisə qastrola gələrdi. Belə səfərlərin birində Seyid Azərbaycan səhnəsinin əfsanəsi Hüseyn Ərəblinski ilə tanış olur. Bu tanışlıq sonradan böyük dostluğa çevrilir. Bununla Tiflisdə ənənəyə çevrilən məşhur “Şərq konsertləri”nin əsası qoyulur. Seyid Şuşinski bu konsertlərə xüsusi geyimdə çıxırmış. Firudin Şuşinski yazır ki, Seyid Şuşinski ilk dəfə əynində frak kostyum, ağ ipək köynək, əllərində ağ əlcək, cibində ağ ipək dəsmal, döşündə qızıl medalyon, boynunda qara bant səhnəyə çıxanda tamaşaçıları heyrət bürümüşdü. Hüseyn Ərəblinskinin təşəbbüsü ilə Seyid Şuşinski belə konsertlərdə ilk dəfə fortepianonun müşayiətiylə ayaq üstündə tarsız, kamansız “Bayatı-İsfahan” oxuyub.

Seyid Şuşinski “Molla Nəsrəddin”in nəşrinə daim maddi yardım göstərərdi. Mirzə Cəlil 1913-cü ildə aktyor Hacağa Abbasovla söhbətində demişdi: ***“'Hacağa, son iki ayda jurnalımız çıxmırdı. Yaxşı ki, Seyid Batumdan gəldi və “'Molla Nəsrəddin ”in pulunu verdi...Dübarə, mənə 200 manat da qızıl pul göndərdi”.*** Bundan başqa, Bakı aktyorları da pulsuzlayanda Tiflisə gələr və “Ağa”nm səxavətindən yararlanardılar. O, paltarı olmayana geyim alar, qarnını doyurar, Bakıya qayıdanda da hər birinə hədiyyə və yolxərci verərdi. Şahidlərin söylədiyinə görə, Tiflis məclislərində Seyidin başına daş-qaş yağdırılarmış. Onun oxumağından bayılan gözəllər brilyant üzüklərini, qızıllarını çıxarıb, Seyidin qavalına atarmışlar. Deyilənə görə, Seyidin Tiflisdə şəxsi restoranı və oteli, hətta “Mersedes” markalı avtomobili də varmış.

Seyid Şuşinski Hafizin, Füzulinin, Seyid Əzim Şirvaninin qəzəlləri ilə yanaşı, Cavidin və Sabirin şeirlərinə də müraciət edərdi. Sabirin “Millət necə tarac olur-olsun, nə işim var” şeirini “Müxalif’də oxuyardı. Seyid Şuşinski siyasi-ictimai mövzuda şeir

və qəzəl oxuyan, xalqı mübarizəyə səsləyən ilk xanəndələrdən idi. O dövrdə “Ayıl, ey millət”, “Mən bir türkəm”, “Millət istərsə” və s. mahnılar onun repertuarında mühüm yer tutardı. Seyid Şuşinski Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid kimi böyük ziyalılarla dostluq edərdi. Hüseyn Caviddən oxuduğu bu misralar o dövrdə dillər əzbəri idi:

**Rəqsi təlim ediyor axsaqlar,**
**Əzəmət düşkünüdür alçaqlar.**
**Yurdu sarmış qabalıq, yaltaqlıq,**
**Yüksəliş varsa, səbəb – alçaqlıq!..**

Seyid Şuşinski 1919-cu ildə Bakıya gəlir və ömrünün sonuna – 1965-ci ilədək burada yaşayır. Bakıya ilk gəlişi 1916-cı ilə təsadüf edir. Həmin il Tağıyev teatrında “Ölülər” tamaşası gedirmiş. Fasilədə Seyid “Qatar”ı elə ustalıqla oxuyub ki, hamını heyran edib, hətta belə tədbirlərdə şuluqluq salmağa vərdiş etmiş qoçular belə, deyilənə görə, “quzuya dönüblər”.

Firudin Şuşinski yazır ki, o, kommunistlər dövründə də qürurunu qoruyub-saxladı: ***“Əynində indiqodan tikilmiş paltar, qara ipək köynək, başında gümüşü papaq (“heyvaçiçəyi”), əlində ağ əlcək və fil sümüyündən hazırlanmış əsa olurdu”.*** O, tutha-tutun, repressiyanın şıdırğı çağlarında – 1933-1938- ci illərdə Füzuli rayon Dövlət Dram Teatrının bədii rəhbəri kimi çalışıb. Sonra filarmoniyada solistlik, pedaqoji fəaliyyət və məsləhətçilik dövrü başlanıb. Həyatında bir solğunluq, səssizlik duyulsa da, həm mənlik və duruşunu, həm də sənətkar əzəmətini son nəfəsinəcən qoruya bilib. Xalq artist Fikrət Verdiyev Seyid Şuşinskinin xidmətlərindən danışarkən qeyd edir: ***“Görkəmli bəstəkarımız Əfrasiyab Bədəlbəyli muğamın elmi tərəfindən bütün yazılarını yazıb, hamısını çərçivəyə alıb. Amma onun ortaya çıxmasında Seyid Şuşinskinin böyük zəhməti olub. Demək olar ki, muğamlarımız bir az dağınıq idi, Seyid Şuşinski bunları çərçivəyə saldı”.***

Son ifa “Heyratı” – 74 yaşın heyrəti. O, “Çahargah”dan başqa “Mahur”, “Nəva”, “Məsnəvi”, “Mani”, “Arazbarı” kimi

muğamların əvəzsiz ifaçısı idi. Ömrünün sonlarında – 74 yaşında bir daha "Heyratı" oxudu. İndinin özündə də o səsə və ondakı yanğıya biganə qalmaq mümkün deyil. Bu, onu həmişə heyrətdə saxlayan dünyaya vida nəğməsi idi. Elə bizlərə də. Nə yaxşı ki, bu ömür yolunda hər birimizin yanında olacaq bir səs və bir söz var – iki Seyidin ruhundan doğulub onlar: ***"Seyyida, ölmərəm, aləmdə səsim var mənim... "***

O vaxt "Kommunist" qəzeti Seyid Şuşinski – bu korifey sənətkar haqda nekroloqda belə yazırdı: ***"Qocaman xanəndəmiz, qayğıkeş müəllim, son dərəcə təvazökar bir insan Seyid Şuşinski vəfat edib. O, ömrünün 60 ilini Azərbaycan musiqi mədəniyyətinin inkişafına həsr edib, gözəl səsi ilə xalqımızın sevimli müğənnisi olub, Yaxın və Orta Şərqdə şöhrət tapıb".***

Seyid Şuşinski 1965-ci ildə Bakıda vəfat etmişdir.

### *Həbib bəy Köçərli, teatr xadimi*

Həbib bəy Kər im bəy oğl u 1890-cı ildə Şuşa şəhərində anadan olub. Şuşa Realnı Məktəbini bitirib. Tiflisdə 1-ci gimnaziyaya daxil olub, oranı 1913-cü ildə tamamlayıb. Sonra Almaniyanın Leypsiq şəhərində kommersiya institutunda təhsilini davam etdirib.



***Ailə üzvləri arasında***

Həbib bəy Köçəri i teatr həvəskarı idi. Həm Tifl is, həm də Şuşa teatrına öz töhfəsini vermişdi.

Teatrşünas Abbas Hacıyev onun haqqında yazır: ***"'Həbib bəy Köçərli Tiflisdə aktyor və rejissor kimi böyük şöhrət tapmışdı. O, savadlı, dünyagörüşünün genişliyi, həyata, bədii əsərə, onun səhnə təcəssümünə orijinal baxışı, incə zövqü və həssaslığı ilə Tiflisdəki Azərbaycan artistlərinin çoxundan fərqlənirdi. O, rus, gürcü, tatar aktyorları ilə əlaqə saxlayır, realist-romantik***

***təcrübəni yayır, müxtəlif səpkili əsərlərdə bacarıqla, özünəməxsus üslubla oynaya bilir və onun təbi, səhnə istedadı ədəbi mühit tərəfindən qiymətləndirilirdi”.***

Abbas Hacıyev Həbib Köçərlinin Tiflisdəki teatr fəaliyyətinin 1905-ci ildən başlandığını yazır: ***“1905-ci il inqilabından sonra Tiflis Azərbaycan Teatrı mündəricəsi, hər hansı əsərin təcəssümünü verə bilmək imkanının genişliyi ilə Zaqafqaziya teatrlarının çoxundan fərqlənirdi. Çünki bu teatrda güclü aktyorlar-Mirzəli Abbasov, Əşrəf Yüzbaşov, Mir Seyfəddin Kirmanşahlı, Həbib Köçərli, Mustafa Mərdanov, ibrahim isfahanlı, Göyərçin xanım, Əli Şahsabahlı, Əli Qurbanov, Ələkbər Seyfi, Əhməd Salahlı, Möhsün Sənani və onlarca başqa səhnə vurğunları fəaliyyət göstərirlər. Onlar faciə, dram, komediya və musiqili operettalarda eyni müvəffəqiyyətlə çıxış edir, ümumxalq məhəbbəti qazanırdılar”.***

Həbib bəy Köçərlinin Tiflisdəki teatr fəaliyyəti 1911-ci ildən başlanır. O, Tiflis teatrının səviyyəsini qaldırmaq üçün teatrda həm reyissor, həm də aktyor kimi çalışırdı. Gənc rejissor teatrın tarixinə qızıl hərflərlə yazılan tamaşalar hazırlamış, teatrın şöhrətini ölkə hüdudlarından kənara yaymışdı. Bu fenomen söz dünyasının bələdçisi kimi tamaşaçı ilə görüşürdü.

H. Köçərli aktyor sənətini, rejissor əməyini dərindən duyurdu. Gənc yaşlarında özünü təcrübəli sənətkar kimi tanıtmışdı.

Həyatının məna və məzmununu səhnədə tapan Həbib bəy Köçərli qələmini bədii yaradıcılıqda da sınamışdır. 1911-ci ildə “Yeni həqiqət” onun bir opera yazdığını xəbər vermişdir: ***“Tiflis müsəlman səhnəsində oynayan, “'Səadət” dram cəmiyyətinin baş artisti məşhur Köçərlinski bütün varidatı cəmiyyətinin xeyrinə olmaqla bu yaxın zamanda bir müsəlman operası yazıb qurtarmışdır. Opera “'Mehr və Mah ” adlanır. Rusca “Ruslan və Lyudmila” operasından iqtibas etmişdir. Səhnədə oynanılmasına senzor icazə vermişdir”.***

Mirzə Ələkbər Sabir, Həmidə xanım Cavanşir-Məmmədquluzadə onun tamaşaçıları olmuşdu. Abbas Hacıyev yazır: ***“Tiflisə gələndə, 1911-ci ildə M.Ə.Sabir də xəstəliyini “unutmuş”, ilk***

***növbədə, Tiflis Azərbaycan teatrı ilə maraqlanmış, Məmmədəli Sidqi ilə bərabər yerli artistlərin ifasında "Otello" faciəsinin yeni quruluşda tamaşasına baxmışdır. Tamaşada əsas rolları teatrın güclü, nisbətən təcrübəli artistləri- Mirzəli Abbasov (Otello), Həbib Köçərli (Yaqo),Tərlan xanım (Dezdemona) Əşrəf Yüzbaşov (Barabanisio) və Mir Seyfəddin Kirmanşahlı (Rodriqo) aparırdılar.***

***M.Ə.Sabir tamaşaya xəstəxanadan çıxıb gəlmişdi. Salondakıların bir çoxunun özünü yaxşı aparmaması, artistlərə ehtiram göstərməməsi şairin xəstə qəlbini incidirdi. Gördüm ki, Sabir çox əsəbiləşir, aparıb səhnə arxasında əyləşdirdim. Xəstə olmağına baxmayaraq, axıra kimi qalıb tamaşa etdi. Tamaşadan çox razı qaldı, hətta ayrı-ayrı aktyorları qucaqlayıb öpdü də. Otello rolu barədə böyük şair dedi: Otellonu Mirzəli Abbasov çox yaxşı oynayır, amma bir cəhətə daha artıq fikir verməlidir. O da Şekspirin Otello surətinə münasibətidir. Şekspir qara irqə mənsub olan Otellonu sevir, onu ağ irqə mənsub olan alçaq Yaqodan yüksək tutur. Otellonu oynayan bir aktyor rolun bu cəhətinə fikir verməlidir".***

Həbib bəyin səhnə yaradıcılığının çoxu Tiflis teatrı ilə bağlıdır. Bu teatr onun aktyorluq qabiliyyətinin daha da inkişaf etməsində mühüm rol oynamışdı.

Şan-şöhrəti burda tapmışdı. Abbas Hacıyev yazır: ***"H.Minasayov, E.Sultanov və H.Şirvanski Tiflisin rus mətbuatına teatrın müvəffəqiyyət və qüsurlarından yazır, onun inkişafına mane olan əngəlləri aradan qaldırmağa çalışırdılar. Üzeyir və Zülfüqar Hacıbəyovların, Əbülfət Vəli və Həbib Köçərlinin, Mirzəli Abbasov və Mir Seyfəddin Kirmanşahlının ayrı-ayrı əsərə verdikləri quruluşlar qonşu xalqların ziyalılarında belə, maraq doğurur***

Abbas Hacıyev yazır ki, ***"1912-ci ildə (əslində, 1913-cü ildə) Tiflis Azərbaycan Teatrının kollektivində müəyyən qədər dəyişiklik yarandı. Hüseyn bəy Mirzəcamalovla Həbib Kərimov (Köçərli) Tiflis Azərbaycan teatrından ayrıldılar, ali təhsil almağa getdilər... "***

Teatrşünas İnqilab Kərimov yazır: ***"1913-cü ilin iyun ayında Şuşadakı "Obşestvennoe sobranie" dəyerli həvəskarlar Ə.Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" dramını tamaşaya hazırlamışdılar. Avqust ayında isə əsər yenidən Həbib bəy Köçərlinskinin bədii rəhbərliyi ilə oynanılmışdır. "***

Həbib bəy Köçərli 1972-ci ildə vəfat etmişdir.



***Bəhram Mirzəyev,***
***ilk ali təhsilli azərbaycanlı fizik***

Rüstəm bəyin dördüncü oğlu Bəhram bəy 1891-ci il aprel in 16-da Şuşa şəhərində dünyaya gəlmişdir. Bəhram bəy haqqında tədqiqatçı-jurnalist Vasif Quliyev araşdırma aparıb. Həmin araşdırmanı yazımızda verməyi gərəkli bildik.

Vasif Quliyev yazır: ***"Bütün ziyalılar kimi rus ordusunun polkovniki Rüstəm bəy Mirzəyev də oğlu Bəhram bəyi orta təhsil almaq üçün Şuşada dövrün ən nüfuzlu təhsil müəssisələrindən sayılan realnı məktəbə qoymuşdu. O, oğlunu da özü kimi hərbçi görmək istəyirdi. Ona görə də tətillərdə, istirahət günlərində, xüsusilə də, yay aylarında Bəhram bəyi özü ilə Xan kəndində xidmət etdiyi qərargaha aparır, oğlunu hərbi işə alışdırmağa çalışırdı".***

Bəhram bəy hələ lap balacaikən artıq at minməyi, silahla davranmağı, güllə atmağı bacarırdı. Lakin sinifdən-sinfə keçdikcə onda dəqiq elmlərə, xüsusən də, fizika və riyaziyyat fəni ərinə meyl daha da artırdı. Bu meylin də əsas səbəbi bir tərəfdən müəllimlərinin maraqlı dərs keçməsi, digər tərəfdən də məktəbdə müasir avadanlıqla və cihazlarla təchiz olunmuş fizika və riyaziyyat kabinələri idi. Bəhram bəy dəqiq elmləri xoşlayan digər sinif yoldaşları ilə dərsdənkənar vaxtlarda bu kabinələrdə müəllimlərinin və yuxarı sinif şagirdlərinin birlikdə apardıqları təcrübələri, sınaqları diqqətlə izləyir, onlardan görüb-götürməyə, nəsə öyrənməyə çalışır, evdə fizikaya aid əlavə kitabl ar da oxuyurdu. Ona götə də o, həl ə realnı məktəbin birinci sinfində oxuyarkən gələcəkdə tutacağı yolu müəyyənləşdirmişdi.

Lakin 1905-1906-cı illərdə Şuşada baş verən erməni-müsəlman davası realnı məktəbdə oxuyan bütün azərbaycanlı uşaqlar kimi Bəhram bəyə də oranı bitirməyə imkan vermədi. Məktəb şəhərin ermənilər yaşayan hissəsində olduğu üçün azərbaycanlı ailələr öz övladlarını məktəbdən çıxarırdılar, çünki bilirdilər ki, çörəkləri dizləri üstündə olan murdar ermənilər onların uşaqlarına hər cür sədəmə toxuya bilərlər. Bəhram bəy də məktəbi yarımçıq qoydu və təhsilini davam etdirmək üçün bir çox həmyerliləri kimi Bakı Realnı Məktəbinə dəyişildi.

Bəhram bəy Mirzəyev Bakıda da Şuşadakı kimi eyni həvəslə, eyni şövqlə oxudu, fizika fənnindən biliyini daha da zənginləşdirdi, ümumiyyətlə, bütün fənlər üzrə uğur qazandı, adı əlaçı şagirdlər siyahısına yazıldı. Nəhayət, 1909-cu ildə o,
Bakı Realnı Məktəbini başa vurub, ali təhsil dalınca getməyə hazırlaşdı.

1911-ci ildə Bəhram bəy Mirzəyev arzularının qanadında Rusiyanın paytaxtına yola düşdü. İmtahanlarını uğurla verib, Peterburq universitetinin fizika-riyaziyyat fakültəsinə daxil oldu. Valideynlərinin varlı olmasına, vaxtlı-vaxtında pul göndərməsinə baxmayaraq, onlara maddi zərər vurmaq istəmədi, oxuya-oxuya gah şəhər bələdiyyə idarəsində kömrük qəbulçusu, gah kəndli bankında mühasib, gah da Fyodorovanın məşhur qız gimnaziyasında müəllim işlədi. 1916-cı ildə ali təhsilini başa vuran Bəhram bəy gimnaziyada qalıb, pedaqoji fəaliyyətlə məşğul olmağa başladı.

O vaxtlar Rusiyada siyasi çarpışmalar artıq son həddə çatmışdı. Peterburqda aləm bir-birinə qarışmışdı, hərc-mərclik baş alıb-gedirdi. Bu çarpışmalar da Oktyabr inqilabı ilə başa çatdı və nəticədə bir çox müəssisələr, o cümlədən də, Fyodorovanın qız gimnaziyası bağlandı. Bəhram bəy Mirzəyev də məktəbdəki fəaliyyətini dayandırdı və 1917-ci ilin oktyabr ayında Donetsk şəhərinə üz tutdu. Ukraynalı həmkarları bu azərbaycanlı mütəxəssisin savadına, bilik və bacarığına bələd olandan sonra onu Donetsk vilayətinin Drujkovski şəhərindəki zavodların nəzdində məktəb kombinatının təşkilatçı-müdiri vəzifəsinə layiq bildilər. Bəhram bəy həmkarlarının etimadını doğrultmaq və özünün

təşkilatçılıq qabiliyyətini göstərmək üçün necə deyərlər, əl-qolunu çırmalıyıb işə başladı, tapşırılan vəzifəni qısa müddətdə uğurla yerinə yetirdi. Üç ayın içərisində, 1918-ci ilin yanvarında o, artıq üç məktəb açmağa nail oldu.

Lakin Rusiyada başlanan vətəndaş müharibəsinin qara tüstülü alovu Ukraynanı da bürüdu. Yenə də hərc-mərclik, özbaşınalıq başladı. Bolşeviklər artıq müəllimləri də, mühəndisləri də, həkimləri də, ümumiyyətlə, sənətindən asılı olmayaraq hamını səfərbərliyə alırdılar. 1919-cu ildə Bəhram bəy Mirzəyev də orduya çağrıldı, XIII Qızıl ordu hissələri tərkibində xidmətə başladı, əlinə silah alıb, ağqvardiyaçılara qarşı döyüşdü. Və nəhayət, vətəndaş müharibəsi başa çatandan sonra bu gənc azərbaycanlı müəllim-döyüşçü də ordudan buraxılaraq özünün əvvəlki iş yerinə qayıtdı.

Azərbaycanda Sovet hakimiyyətinin ikinci ili idi. Yenicə qurulmuş gənc respublikada universitetlə bərabər, müxtəlif institutlar, texnikumlar da fəaliyyətə başlamış və təhsil ocaqları öz qapılarını hamının üzünə taybatay açmışdı. Lakin xalq maarifinin yenidən qurulduğu bir dövrdə ali təhsilli mütəxəssislərə böyük ehtiyac duyulurdu. Milli kadrların çatışmazlığı üzündən elmlər rus dilində tədris olunur, mütəxəssislər başqa yerlərdən dəvət edilirdilər. Tədrisin Azərbaycan dilində aparılması qarşıda duran əsas vəzifələrdən idi. O vaxtlar isə ikicə nəfər ali təhsilli azərbaycanlı fizik vardı: Biri Rəhim bəy Məlikov, o biri isə Bəhram bəy Mirzəyev. Kazan universitetinin fizika-riyaziyyat fakültəsinin məzunu Rəhim bəy Məlikov Pyatiqorsk şəhərində birinci dərəcəli nümunəvi məktəbdə müəllim işləyirdi, Bəhram bəy Mirzəyev isə hələlik Ukraynada idi. Onların ikisini də Bakıya dəvət etmək lazım idi. Lakin Bəhram bəy 1921-ci ildə özü dəvətsiz-filansız Bakıya döndü.

1922-ci ilin yazında Bəhram Mirzəyev Bakı Xalq Maarif Şöbəsinin 2 nömrəli məktəbinə göndərildi. Bir il burda şagirdlərə fizika və riyaziyyat elmlərinin sirlərini öyrədən gənc müəllim eyni zamanda fəhlə fakültələrində və texnikumlarda da dərs deməyə başladı. Sonra isə Azərbaycan Dövlət Universitetinə göndərildi. Bu vaxt Rəhim bəy Məlikov da respublikaya dəvət olundu. Onlar 1923-

cü ildən Azərbaycan Ali Pedaqoji İnstitutunda fizika və riyaziyyat elmlərinin tədrisi işinin təşkili və təkmilləşdirilməsi ilə məşğul olmağa başladılar.

Bəhram bəy Mirzəyev Azərbaycan Dövlət Universitetinin fizika kafedrasında tələbə laboratoriyaları təşkil elədi, fizika-riyaziyyat fakültəsində optikaya dair ilk dəfə olaraq Azərbaycan dilində mühazirələr oxumağa başladı. Məhz bu mühazirələrin nəticəsində də o, ana dilində təcrübi məşğələlər üzrə azərbaycanca tədris vəsaiti hazırlayıb 1930-cu ildə nəşr etdirdi və bu işinə görə ona dosent vəzifəsi verildi. Bəhram bəy Mirzəyev elə həmin il Azərbaycan Dövlət Tibb İnstututuna göndərildi. Burda o, çoxlaboratoriyalı fizika kafedrası təşkil elədi. Eyni zamanda Azərbaycan Politexnik İnstitutu üçün molekulyar fizikaya, Azərbaycan Dövlət Universiteti üçün dalğalara və rəqslərə aid dərsliklər yazdı və bu dərsliklərdən digər ali məktəblərdə də istifadə olunmağa başladı. 1935-ci ildə Bəhram bəy Mirzəyev yenidən Azərbaycan Dövlət Universitetinə qayıtdı, 1936-193 8-ci illər ərzində burada yeni laboratoriyaların təşkili işinə başladı, böyük zəhmət bahasına xüsusi laboratoriyalar, nümayiş müzeyi, fizika kabinəsi yaratdı. Bu barədə elmi məqalələri mətbuat səhifələrində və elmi jurnallarda dərc olundu, elmi ədəbiyyatda təcrübi işlərinin nəticələri və fizika nəzəriyyəsinə aid üç dərs vəsaiti nəşr edildi. Elə həmin il elm sahəsində qazandığı uğurlara görə ona fizika elmləri namizədi alimlik dərəcəsi verildi. 1941-ci ildə isə təcrübi fizika kafedrasına müdir vəzifəsinə irəli çəkildi. İstedadlı alim bundan sonra tədqiqatlarını daha da genişləndirməyə, yarımkeçiricilər sahəsində araşdırmalar aparmağa başladı. 1942-1946-cı illər arasında onun elmi-tədqiqat işlərinin həcmi daha da genişləndi. Kafedranın on beş nəfər üzvü Bəhram bəy Mirzəyevin rəhbərliyi altında namizədlik dissertasiyası müdafiə elədi. Qayğıkeş alimin səyi və köməyi nəticəsində yüksək ixtisaslı kadrlar hazırlanması məqsədilə neçə-neçə aspirant Moskva, Leninqrad, Kiyev və SSRİ-nin digər böyük elmi mərkəzlərinə oxumağa göndərildi.

Əllinci illərdə Bəhram bəy Mirzəyevin bilavasitə təşəbbüsü ilə təcrübi fizika kafedrasında yarımkeçiricilər fizikası üzrə elmi-

tədqiqat işləri daha da genişləndi və 1960-cı ildə yarımkeçiricilər fizikası kafedrası təşkil olundu və o, kafedra müdiri vəzifəsinə seçildi. Elə həmin vaxtdan da universitetin fizika fakültəsində zəhmətkeş alimin rəhbərliyi ilə yarımkeçiricilər fizikası problemləri elmi-tədqiqat laboratoriyası fəaliyyətə başladı. 1969-cu ildə Bəhram bəy Mirzəyevə professor vəzifəsi verildi.

Əllidən çox elmi əsərin, iki ixtiranın, Böyük Vətən müharibəsi illərində iki səmərəli hərbi təklifin müəllifi olan Bəhram bəy Mirzəyev Azərbaycan elmi qarşısında xüsusi xidmətlərinə görə 1954-cü ildə Lenin ordeninə layiq görülmüş, 1969-cu ildə ona əməkdar elm xadimi adı verilmiş, bir neçə medalla və Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir. Onun adı elm tarixində Azərbaycanın ilk ali təhsilli fiziki və fizika elmimizin yaradıcısı kimi daxil olmuşdur. Həyatı və yaradıcılığı hər bir adam üçün böyük bir məktəb olan Bəhram bəy Mirzəyevin xatirəsi həmkarları və onu tanıyanlar tərəfindən həmişə uca tutulur, daim yad edilir. 1991-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsində görkəmli fizikin anadan olmasınının 100 illiyinin qeyd olunması onun adının yaddaşlardan silinmədiyinin, daim ürəklərdə yaşadığının bir daha əyani sübutudur.

***Cahangir bəy Nəsirbəyov, hərbçi, maarifçi.***



Cahangir bəy Zeynal bəy oğlu 1892-ci ildə Şuşada varlı zadəgan ailəsində anadan olmuşdur. İlk təhsilini doğulduğu şəhərdə almışdır.

Məlum olduğu kimi, çar Rusiyasında yaşayan müsəlmanlar, o cümlədən, azərbaycanlılar orduya çağırılmırdılar. Yalnız zadəganlar istisna təşkil edirdilər. Birinci Dünya müharibəsi başlayanda Cahangir bəy Nəsirbəyov hərbi xidmətə çağırılmış, əvvəlcə podporuçik, sonra isə poruçik rütbəsində Qafqaz cəbhəsində vuruşmuş, orden və medallarla təltif olunmuşdur.

O, hələ Azərbaycan Xalq Cümhuriyyəti yaradılmamışdan əvvəl, Azərbaycan Zaqafqaziya Seyminin tərkibində olarkən milli hərbi kadrların yetişdirilməsində iştirak etmişdir. 1918-ci il martın 1-də Zaqafqaziya Seymi Cahangir bəy Nəsirbəyovu müvəqqəti olaraq Tiflisdə yerləşən unter zabit məktəbinin – “Müsəlman Praporşiklər Məktəbi”nin rəisi təyin etdi. Hərbi rütbəsi də artırıldı: əvvəlcə ştabs-kapitan, sonra isə kapitan oldu. Xalq cümhuriyyəti elan edildikdən sonra hərbi məktəb Gəncəyə köçdü, türkiyəli hərbçilərin köməyi ilə fəaliyyətini bərpa etdi və statusu artırılaraq “Praporşiklər məktəbi”nə çevrildi.

Türkiyəli zabit Atif bəy məktəbin rəisi təyin olundu. C.Nəsirbəyov isə məktəbdə tərcüməçi və rəisin köməkçisi kimi xidmət etməyə başladı. Cahangir bəy 1918-ci ilin noyabrınadək burada çalışdı. Türklər Azərbaycandan gedəndən sonra o, hərbi xidmətdən azad olundu və 1920-ci ilin aprelinədək heç yerdə xidmət eləmədi.

XI ordu Bakını işğal etdikdən sonra C. Nəsirbəyov bu ordunun sıralarına daxil oldu. Lakin burada da xidməti uzun sürmədi. 1920-

ci il dekabrın 5-də Azərbaycan Fövqəladə Komissiyasının orderi əsasında C. Nəsirbəyovun evində axtarış aparıldı, şəhərdən çıxmamaq barədə dilindən iltizam alındı. Başının üstünü ölüm təhlükəsi aldığını görən Cahangir bəy bir neçə gün sonra Azərbaycanı tərk edib, Türkiyəyə köçdü. İkinci Dünya müharibəsi başlananadək burada yaşadı. Bu illərdə müxtəlif məktəblərdə rus, alman, fransız və italyan dillərini tədris etdi. Sonra ticarətlə məşğul oldu, Sivasda "Vətən" fabrikini yaratdı. Oğlu Baykal və qızı Maral dünyaya gəldi.

Cahangir bəyin Türkiyədə yaşayan azərbaycanlı mühacirlər arasında çoxlu dostları var idi. Sonralar onların bəziləri Avropaya və Amerikaya köçdülər. Cahangir bəy də bir neçə dostu ilə bərabər Almaniyaya köçdü və burada "Könüllülər ordusu"nun sıralarına daxil oldu.

Cahangir bəy Almaniyada olarkən ailəsinə göndərdiyi məktubların birində yazırdı ki, tezliklə Azərbaycan azad olacaq, müstəqilliyini qaytaracaq və biz hamımız birlikdə Vətənimizə dönəcəyik. Amma onlar bir daha görüşə bilmədilər. Cahangir bəy 1944-cü ildə müəmmalı şəraitdə Almaniyada vəfat etdi.

***Əmir bəy Aslanov,***
***həkim, alim.***



Əmir bəy Asl anov 1892-ci ildə Şuşada doğulub. 1900-cü illərdə Bakıdakı rus-tatar məktəbində oxuyub. 1910-cu ildə Bakı Realnı Məktəbini, 1916-cı ildə Kiyev Universitetinin tibb fakültəsini bitirib. Dəri-zöhrəvi xəstəliyi üzrə həkim idi. Vətənə qayıdan Əmir bəy Bakı qradonaçalnikliyinin həkimi olmuşdur.

Sovet dövründə bir çox mühüm vəztfələrdə, o cümlədən, Azərbaycan SSR Səhiyyə Nazirliyi Klinik İnstitutunun direktoru (1930-1933) vəzifəsində çalışmışdır.

1938-dən ömrünün sonunadək ATİ-də dəri-zöhrəvi xəstəliklər kavedrasmda assistent işləyib. Nigar xanım Aslanova-Vəlibəyovanm əridir.

Əmir bəy Aslanov 1942-ci il iyun ayının 10-da Bakı şəhərində rəhmətə gedib.



***Həsən İxfa Əlizadə, mollanəsrəddinçi şair, jurnalist, dramaturq.***

Mollanəsrəddinçi şair, dramaturq, nasir Həsən İxfa Əlizadə 1893-cü ildə Şuşada anadan olmuşdur. İbtidai təhsilini burda almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir.

Ötən əsrin onuncu illərindən bədii yaradıcılıqla məşğul olmuş və bir sıra həcv, şeir, felyetonlar yazmış, ədəbi fəaliyyətə 1910-cu ildə "Molla Nəsrəddin" jurnalında başlamışdır. Ömrünü Şuşada keçirmiş, uzun müddət müəllimlik etmişdir. 1927-ci ildə pedaqoji institutu bitirmişdir. "Namərdi-ruzigar", "Ələsgər", "Məkri-zənan", "Balaxanım" və başqa əsərləri yerli səhnədə göstərilmişdir. Eyni zamanda xeyli hekayələri və şeirləri də var. Həsən İxfanın maraqlı yazılarından biri də "Şuşanın tarixi"dir.

Həsən İxfa həmçinin – "Kəlniyyət" (1911-ci ildən), "Mazəli", "Tuti", "Babayi-Əmir", (1914-1915) jurnallarında və müxtəlif qəzetlərdə "Həmən-hümən", "Sahir-bəy", "Sahir Əyyari", "Səyyar", "Qoşunəli", "Mirzə Qoşunəli", "Mirzeyi-Səncanı" (1916-1918) gizli imzaları ilə çıxış etmişdir.

Onun həm də N.Gəncəvinin "Fərhad və Şirin" poeması əsasında yazdığı 4 pərdəli, 8 şəkilli musiqili komediyası (1914), "Namərdi-

ruzigar, yaxud mal yeməzin malını yeyərlər"^ 916), "Məmmədəli şah, Sultan Həmid və Nikolayın taxtdan salınması" (1917), "Məkrizənan"(1918), "Eşqin səmərəsi" (1919) operettaları səhnədə oynanılmış, müəllif özü də bu tamaşalarda aktyor kimi iştirak etmişdir. "Südabə və Səyavuş", "Balaxanım" və "Ələsgər" əsərləri tamaşaya hazırlansa da, müxtəlif səbəblərə görə səhnəyə qoyulmamışdır. 1917-ci ildə Şuşada təşkil olunan "Rəşad" və "Ulduz" cəmiyyətlərində çalışmışdır.

Həsən İxfa Əlizadə 1927-ci ildə antisovet fəaliyyətdə təqsirləndirilmiş və beş il həbs cəzası almışdır. Sonra uzun illər pedaqoji fəaiyyətlə məşğul olmuş, respublikanın bir sıra şəhər və kəndlərində müəllim işləmişdir. Firudin bəy Köçərli, Cabbar Qaryağdıoğlu, Nəriman Nərimanov, Əbrürrəhim bəy Haqverdiyev, İslam Abdullayev, Üzeyir bəy Hacıbəyov, Müslüm Moqamayev, Seyid Şuşinski, Bülbül, Xan Şuşinski və başqa sənətkarlar haqqında xatirələri var.

"Şuşa şəhərinin tarixi " və "Şuşa şəhərində olan tarixi abidələr" elmi əsərlərinin müəllifidir.

Yaradıcılığının müəyyən hissəsi Azərbaycan Respublikası Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət arxivindəki şəxsi fondunda saxlanılır.

Həsən İxfa Əlizadə 1972-ci ildə Şuşada rəhmətə gedib.

### *Əli Zülalov, opera müğənnisi*



Əli Zülalov 1893-cü il sentyabrın 13-də Şuşa şəhərində anadan olmuşdur. Atası Əbdül Zülalov 1898-ci ildə vəfat etdikdən sonra onu və qardaşı Qəmbəri əmisi Əbdülbağı Zülalov (Bülbülcan) himayəsinə götürmüşdür. Şuşa Realnı Məktəbini bitirmişdir. 1917-ci ildə həvəsi onu teatra gətirmişdir.

Bülbülcanla dostluq edən Üzeyir Hacıbəyli Əli Zülalovun incəsənətə olan

marağını duymuşdu. Onunla söhbət zamanı gəncin gur, xarakterik səsi bəstəkarın diqqətini çəkmişdi. Elə bu səbəbdən də onu birillik sınaq müddətində özünün rəhbərlik etdiyi opera və operetta truppasının xoruna işə götürmüşdü. Beləliklə, Əli Zülalov səhnədə ilk addımlarını Üzeyir və Zülfüqar Hacıbəyov qardaşlarının truppasında atdı.

Əhməd Ağdamskidən sonra qadın rollarının ilk ifaçılarından biri də Əli Zülalov olub. Sonralar təhsilini davam etdirən Əli Zülalov Bakı Musiqi Texnikumunu və Azərbaycan Dövlət Konservatoriyasını bitirib. O, həyatda da, sənətdə də Üzeyir Hacıbəylidən dərs alıb.

1952-ci ildə M.F.Axundov adma Opera və Balet Teatrında çalışmağa başlamışdır. İstedadlı aktyorun opera səhnəsində yaratdığı rollar: Ehsan paşa və Fələli xan ("Koroğlu"), Leylinin atası və Zeyd ("Leyli və Məcnun"), Keşiş ("Əsli və Kələm"), Şahvələd ("Aşıq Qərib"), Molla Mütəllim ("Nərgiz"), Süleyman ("Arşın mal alan"), Ərəbzəngi ("Şah İsmayıl") və onlarla digər obrazları maraqla izlənilib.

Əməkdar artist fəxri adma layiq görülən Əli Zülalov opera səhnəmizin inkişafında xidməti olan mədəniyyət xadimlərindən biri idi.

1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyü çərçivəsində Müslüm Maqomayevin "Nərgiz" operasmdakı Molla Mütəllim roluna görə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. İslam dininin adət-ənənələrini yaxşı bilən Ə.Zülalov bu obrazı xüsusi bir məharətlə yaratmışdır. Bu da Stalinin diqqətindən yayınmamışdır. Görkəmli bəstəkar Fikrət Əmirov Ə.Zülalov haqqında xatirələrində belə yazıb: ***"...Azərbaycan Dövlət Opera və Balet Teatrının aparıcı aktyoru, solist Əli Zülalov gözəl səsi, səhnə mədəniyyəti və davranışı ilə hər zaman gənclərə nümunə olmuşdur ".***

O, 1963-cü il fevralın 18-də Bakıda vəfat edib.



***Bahadır Vəlibəyov, dövlət xadimi***

1894-cü ildə Şuşada anadan olmuşdur.

Bəy nəslindən olmasına baxmayaraq, kəndlilərə və aşağı təbəqədən olan insanlara xüsusi rəğbət bəsləmişdir. 1912-ci ildə Bakıda gimnaziyanı bitirdikdən sonra Kiyev universitetinin hüquq fakultəsinə daxil olmuş və burda da inqilabi fəaliyyətə başlamışdır.

1913-cü ildə inqilabi hərəkata qoşulduğu üçün universitetdən xaric edilmiş, sonradan sosial-demokrat partiyasının III dumasının tələbinə əsasən hüquq fakultəsinə bərpa olunmuşdur.

1918-ci ildən Rusiya Kommunist (bolşeviklər) Partiyasının sıralarında olmuş, Oktyabr inqilabından sonra Minsk quberniyasının milis komissarı, Minsk vilayət Soveti İcrayyə Komitəsinin üzvü, Smolensk Qızıl qvardiya qərargahı hərbi-təsərrüfat idarəsinin komissarı işləmişdir. Bahadır bəy Tambov quberniyasında qolçomaq qiyamçılara qarşı vuruşmuş, 1919-cu ildə RK(b)P Qafqaz Ölkə Komitəsinin tapşırığı ilə Batum, Gəncə və Qarabağda partiya işi aparmışdır.

1920-1937-ci illərdə AK(B)P Naxçıvan Ölkə Komitəsinin katibi, Azərbaycan SSR Maarif Komissarının müavini, ədliyyə komissarı, Naxçıvan MSSR MİK sədri, Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi, Gürcüstan K(b)P Borçalı Qəza Komitəsinin katibi, Azərbaycan SSR-in baş prokuroru, SSRİ Elmlər Akademiyası Azərbaycan filialının sədr müavini olmuşdur.

Bahadır Vəlibəyov Vətənə xəyanətdə günahlandırılaraq 1937-ci ildə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarının müavini, Dövlət Təhlükəsizlik İdarəsi 4-cü şöbəsinin rəisi,
DTK-nın baş leytenantı Qriqoryanın imzaladığı qərarla həbs olunmuşdur.

B. Vəlibəyovun həbs olunmasına səbəb Azərbaycan XDİK DTK-nın 4-cü şöbəsinin arayışı idi. Arayışda göstərilirdi ki, Vəlibəyovun milli əksinqilabi təşkilatın üzvü olması bu təşkilatın fəal iştirakçısı Böyükağa Talıblmm izahatı ilə təsdiq edilmişdir. Bahadır Vəlibəyov istintaq müddətində 4 dəfə dindirilmiş, 3 nəfərlə üzləşdirilmişdir, (Talıblı, Səfərov, Bünyadzadə), 1938-ci il dekabrın 8-də istintaqın başa çatması elan olunarkən o, yenə də təkidlə bildirmişdir ki, özünü günahkar hesab etmir. Belə olan halda B.Vəlibəyovun işi 1938-ci il dekabrın 25-də sona çatmış, Atakişiyev və Markaryan tərəfindən imzalanmış ittihamla və Azərbaycan SSR prokurorunun müavini Seliverstovun qərarı ilə SSRİ XDİK-nm nəzdindəki xüsusi müşavirəyə göndərilmişdir.

Beləliklə, 1939-cu il iyunun 21-də SSRİ XDİK Xüsusi Müşavirəsi Vəlibəyovun işinə baxıb qərara almışdır: ***"'B. Vəlibəyovun işi müzakirədən çıxarılsın və əlavə istintaqa verilsin. Məhbus Vəlibəyov SSRİ XDİK istintaq hissəsinin sərəncamına göndərilsin***

1940-cı fevral ın 16-da il SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qapalı iclasında B.Vəlibəyov ən ağır cəzaya-ölüm hökmünə məhkum edilmiş və hökm dərhal icra edilmişdir.

Bahadır Vəlibəyovun həyat yoldaşı Xədicə Əhmədcan qızı Vəlibəyova 1904-cü ildə Həştərxan şəhərində anadan olmuşdur. Xədicə xanımın digər bacısı Arifə xanım görkəmli Azərbaycan sovet partiya və dövlət xadimi Qəzənfər Musabəyovun həyat yoldaşı idi.

Bahadır Vəlibəyov güllələndikdən sonra Xədicə Vəlibəyova da SSRİ XDİK Xüsusı i Müşavirəsinin 11 iyun 1940-cı il qərarına əsasən sosial-təhlükəli ünsür kimi cəzasını İslah-əmək düşərgəsində çəkməklə 5 il müddətinə azadlıqdan məhrum edilmişdi. Sonradan o, Azərbaycan SSR Ali Məhkəməsi Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının 7 yanvar 1956-cı il qərarına əsasən bəraət almışdır.

### *Hüseyn bəy Mamayev, alim*



*Əbdürrəhim bəy arvadı Tükəzban xanım və bacısı oğlu Hüseyn Mamayevlə*

Hüseyn bəy Məşədi Məhəmməd oğlu 1894-cü il dekabrın 17-də Şuşa şəhərində anadan olmuşdur. Şuşa Realnı Məktəbini və İrəvan gimnaziyasını bitirmişdir.

Hüseyn bəy Moskvada ali məktəb qurtarmışdır. Kənd təsərrüfatı elmləri namizədi elmi adını almışdır. Bir sıra vəzifələrdə işləmişdir.

Hüseyn bəy həmçinin həvəskar aktyor idi. Əbdürrəhim bəy Haqverdiyevin əsərlərinin ilk tamaşalarında oynamışdı.

Hüseyn bəy Məşədi Məhəmməd oğlu 1963-cü ildə vəfat edib.

### *Cəlil Xudiyev, ictimai xadim*



Cəlil Muxtar oğlu Xudiyev 1895-ci ildə Şuşa şəhərində zadəgan ailəsində anadan olmuşdur.

Cəlil Xudiyev rus-tatar məktəbini, sonralar isə Sankt-Peterburqda hərbi məktəb bitirmiş, uzun müddət çox mühüm dövlət vəzifələrində çalışmışdır. O, 1918-ci il erməni-müsəlman qırğınının ən fəal iştirakçılarından olmuşdur.

Cəlil Xudiyev 1918-1920-ci illərdə general Səməd bəy Mehmandarovun rəhbərlik etdiyi Azərbaycan ordusunda çox mühüm vəzifədə çalışmış, ermənilərin qiyamının yatırılmasında və onların Əsgəran qalasından, Laçından,

Dağlıq Qarabağdan çıxarılmasında iştirak edən hərbi hissənin rəhbərlərindən biri olmuşdur.

1967-ci ildə Xan kəndində ermənilər əhalinin gözü qarşısında üç nəfər azərbaycanlını qətlə yetirdikdən sonra Cəlil Xudiyevlə DTK-nın sədri vəzifəsində çalışan Heydər Əliyevin görüşü olmuşdur. Heydər Əliyev bu zaman general kimi ilk dəfə Xan kəndinə gəlmişdi. O, Cəlil Xudiyevin evində onunla və digər şəxslərlə görüşmüşdü və ondan həm yerli sakin kimi, həm də uzun müddət mühüm dövlət vəzifələrində çalışmış bir şəxsiyyət kimi məsləhət almışdır. Xan kəndi Vilayət Partiya Komitəsində SSRİ Baş Prokurorluğunun və Azərbaycanın yüksək vəzifəli şəxslərinin iştirakı ilə böyük iclas keçirilmişdir. Cəlil Xudiyev iclasda qətli törədən şəxslərin adları ilə bağlı açıqlama vermiş, iclasdan sonra isə 39 erməni həbs edilmişdir.

Cəlil Xudiyev qeyd edirdi: ***""Həmin illərdə ermənilər azərbaycanlıları Xan kəndindən qovmaq üçün qapılarına yazıb yapışdırırdılar ki, 24 saat ərzində evlərinizi boşaldın, Xan kəndindən çıxın. Əks təqdirdə bizi ailəliklə evlərində yandırmaqla hədələyirdilər. Təkcə Xan kəndində deyil, azərbaycanlılar yaşayan digər kəndlərdə – Xocalıda, Daşbulaqda, Cəmillidə və digərlərindəki insanlar da vahimə və qorxu içərisində idilər".*** Azərbaycan SSR Ali Sovetinin sədri Məmməd İsgəndərov Cəlil Xudiyevlə hansı addımların atılması barədə məsləhətləşdikdən sonra ermənilərin növbəti qiyamının qarşısı alınmışdır.

Cəlil Xudiyev 1988-ci ildə Xan kəndində ermənilər tərəfindən diri-diri yandırılmış, yaşadığı evə də od vurulmuşdu.

2002-ci il martın 15-də Azərbaycan Respublikası Xocalı rayon Məhkəməsinin qərarı ilə Cəlil Xudiyevin şəhidliyi rəsmi sənədlərlə təsdiq olunmuşdur.

*Nəzirə Qacar, musiqiçi*



Nəzirə Qacar 1895-ci il yanvarın 28-də Tiflis şəhərində Qulamşah Mirzənin ailəsində anadan olmuşdur. Əslən şuşalıdır, Azərbaycanın ilk musiqi təhsili almış peşəkar pianoçu qızlarından biridir.

Gürcüstan SSR-nin əməkdar həkimi, poliqlot, 8 dil – Azərbaycan, fars, ərəb, rus, gürcü, ingilis, fransız və alman dillərini bilirdi. Musiqi ilə yeddi yaşından məşğul olmağa başlamışdır. İbtidai təhsilini "Müqəddəs Nina" qız məktəbində almış və onu birbaşa yeddinci sinfə qəbul etmişlər. Qeyri-adi musiqi qabiliyyəti müəllimlərinin diqqətini cəlb etmiş və onlar Nəzirə Qacarın valideynlərinə ona musiqi təhsili verməyi məsləhət bilmişdilər.

1910-cu ildə o, Tiflis musiqi məktəbinə daxil olmuş və məşhur pedaqoq Şveyqerin sinfində oxumuşdur. Təhsil illərində bir çox konsertlərdə, ədəbi-bədii gecələrdə iştirak etmişdir. Nəzirə Qacar təhsilini artırmaq üçün 1914-cu ildə Sankt-Peterburqa gedərək həm konservatoriyaya, həm də Anna Nikolayevna Osipovanm şagirdi, professor Vladimir Nikolayeviç Drozdovun sinfində oxumuşdur. Burda oxuyarkən o, müntəzəm olaraq "Qafqaz Həmyerlilər Cəmiyyəti"nin konsert meydançasında çıxış etmişdir. Hər iki ali məktəbi əla qiymətlə bitirib, Tiflisə qayıdan gənc mütəxəssis müəllim, pianoçu və həkim kimi fəaliyyətə başlamışdır. Həmin illərdə o, "Qafqaz Müsəlman Xeyriyə Cəmiyyəti"nin üzvu kimi Tiflis şəhərinin ictimai-mədəni həyatında fəal iştirak etmişdir.

Görkəmli pianoçu Sovet hakimiyyətinin ilk illərində Tiflisdə Nəriman Nərimanov adma klubda tez-tez konsertlər verir, ayda iki dəfə öz evində Azərbaycan və gürcü ziyalılarının iştirakı ilə axşam görüşləri keçirirdi.

O, 1924-1925-ci illərdə musiqidən əl çəkmiş, tibb sahəsində çalışmışdır. Ötən əsrin iyirminci-otuzuncu illərində Nəzirə Qacar

Tif! is Türk Tibb Texnikumunda dərs demiş, qırx ildən çox Zaqafqaziya Dəmir Yolu İdarəsinin xəstəxanasında işləmişdir.

Nəzirə Qacar 1990-cı ildə vəfat etmiş, Tiflis şəhərində dəfn olunmuşdur.

***Mirzə Ələsgər Növrəs, şair, tərcüməçi.***



Mirzə Ələsgər Növrəs 1836-cı ildə Şuşada anadan olub. O, burada dini təhsil almış, sonra Xan kəndində hərbi məktəb bitirmişdir.

Ərəb, fars, rus dillərini mükəmməl öyrənmiş, Şərq musiqisini gözəl bilmiş, tarda və sazda çalmağı baçarmış, uzun illər Qarabağ toylarında "padşahlıq" etmişdir.

Hərbi məktəbi başa vurduqdan sonra Şuşa şəhər idarəsində kargüzar, hüquqşünas və tərcüməçi vəzifələrində çalışmışdır. Gəncliyində savadlı olduğuna görə "Mirzə" adı qazanmışdır. Füzuli ədəbi məktəbinin istedadlı davamçılarından olan Mirzə Ələsgər Şuşada fəaliyyət göstərən "Məclisi-üns" və "Məclisi-fəramuşan" ədəbi məclislərinin üzvü olmuş və şairlərin arasında yaşca ən cavan olduğuna görə Mir Möhsün Nəvvab ona "Növrəs"("Yeniyetmə") təxəllüsü vermişdir.

Mirzə Ələsgər Növrəsin yaradıcılığı hələ sağlığında ədəbi ictimaiyyətin diqqətini cəlb etmişdir. Seyid Əzim Şirvani həmkarına mənzum məktub yazmış, Firudin bəy Köçərli onun həyat və yaradıcılığı barədə ilk dəfə yazılı məlumat vermiş, Mir Mövsüm Nəvvab Qarabaği isə bir neçə qəzəlini özünün "Təzkireyi-nəvvab" əsərində vermişdir (1913). Maarifpərvər yazıçı Sultan Məcid Qənizadənin köməkliyi ilə şairin 1899-cu ildə Tiflisdə "Pəndi-əhval" ("Uşaqlara nəsihət") adlı kitabı nəşr olunmuşdur.

Mirzə Ələsgər Növrəs bədii tərcümə sahəsində də qələmini sınamış, böyük rus şairi İvan Andreyeviç Krılovun bir neçə təmsilini Azərbaycan dilinə çevirmişdir.

Dövlət idarəsində işdən azad edilən Mirzə Ələsgər Növrəs sonralar ağır borca düşmüş, evini girov qoyaraq bir müddət Ağdam və Şuşa məscidlərinin hücrələrində yaşamağa məcbur olmuşdur. Yalnız 1911-ci ildə oğlu Camal atasının borclarını ödəmiş və evini özünə qaytartmışdır.

1985-ci ildə "Yazıçı" nəşriyyatında şairin "Şeirlər" kitabı nəşr olunmuşdur. Şuşada rəhmətə getmiş və Mirzə Həsən qəbristanlığmda dəfn olunmuşdur.



***Hüsü Hacıyev,***
***dövlət xadimi***

Hüsü Hüseynəli oğlu Hacıyev 1897-ci ildə Şuşada tacir ailəsində anadan olub. Şuşa Realnı Məktəbini qurtarıb.

Oxuduğu müddət ərzində bacarığı və idarəçilik qabiliyyəti ilə fərqlənirdi.

Hüsü Hüseynəli oğlu Hacıyevin ağlı və idarəçilik qabiliyyətinə malik olması onun Qubadlı, Füzuli, Ağdam, Ağdaş rayonlarında, bir sıra məsul dövlət vəzifələrində işləməsinə səbəb olmuşdur. Bakı şəhərində və Şuşada Hüsü Hacıyev adma küçə var. 1931-ci il mayın 18-də Ağdaş rayonunda ona qəsd edilmişdir. Fəxri xiyabanda dəfn edilmişdir.

***Cəmil bəy Musayev, əməkdar inşaatçı.***



Cəmil bəy İbrahim oğlu 1897-ci il martın 14-də Şuşa şəhərində anadan olmuşdur. Şuşa Realnı Məktəbini, sonra gimnaziyanı müvəffəqiyyətlə bitirmişdir. Yüksək yaradıcılıq qabiliyyətinə malik olduğundan İstanbula bədii sahə üzrə təhsil almağa göndərilmişdir.



***Baba bəy Behbud, türk ordusunun alay komandiri, polkovnik.***

Baba bəy Behbud Mustafa bəy oğlu 1897-ci ildə Şuşada anadan doğulmuşdur. Atası Mustafa bəy Behbudov Qarabağda sayılıb-seçilən şəxslərdən olmuşdur. Baba bəyin anasının adı Mina, bacılarının adı Afər və Ağca idi.

O, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Gəncədə yaradılan hərbi məktəbdə təhsil almışdır. Azərbaycan Cümhuriyyəti ordusunda xidmətə Qarabağ süvari alayında zabit kimi başlamışdır.

1918- ci ilin sonlarından etibarən Qarabağda erməni separatçılarının zərərsizləşdirilməsi, Şuşada və ətraf bölgələrdə asayişin bərqərar olunmasında böyük xidmətlər göstərmişdir.

1919- cu ilin yanvar ayında keçirilən baxış yoxlaması zamanı Baba bəyin xidmət etdiyi süvari alayı göstərdikləri xidmətə görə hərbi nazirin şəxsi təşəkkürünü almışdır.

1919- cu il martın 21-də Novruz bayramı gecəsində silahlanmış erməni-daşnak qüvvələri Qarabağın bir sıra məntəqələri ilə bərabər, Əsgəranda yerləşən Cavanşir piyada alayının mövqelərinə qəflətən hücum edib, postlarda olan azsaylı qüvvələri məhv edərək Əsgəran yolunu bağlayırlar. Bununla da Xan kəndi və Şuşada yerləşən hərbi qarnizonlar çətin vəziyyət ə düşür. 1920-ci il mart m 26-da general-mayor Həbib bəy Səlimov Ağdama gəlir.

Martın 29-dan etibarən Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun və general-mayor Həbib bəy Səlimovun başçılığı ilə Azərbaycan ordusu Əsgəran istiqamətində general Dronun qoşunlarına qarşı genişmiqyaslı hücuma başlayır. Milli ordunun gənc zabiti Baba bəy Behbud da Qarabağ süvari alayının tərkibində bu döyüşlərdə iştirak edərək böyük şücaət göstərir.

1920-ci il aprelin 28-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra ölkədə olduqca acınacaqlı bir vəziyyət yaranır. Mayın 29-da Gəncə üsyanı başlayır. Üsyan amansızcasına yatırıldıqdan sonra 1920-ci il iyunun 5-də Nuru Paşanın komandanlığı ilə Qarabağda bolşeviklərə qarşı ikinci bir üsyan dalğası başlanır. Baba bəy Behbud da Qarabağ süvari alayının tərkibində üsyana qatılır. Nuru Paşanın çağırışı ilə Dağıstan üsyançıları da Qarabağ üsyançılarına qoşulur. Üsyançılar iyunun 6-da Şuşada Sovet hakimiyyətini devirib, Qarabağ İnqilab Komitəsinin üzvlərini həbs edirlər. XI Qızıl Ordunun 2-ci süvari korpusu və 32-ci atıcı diviziyasının hissələri iyun ayının 10-da Qarabağ üsyançılarının üzərinə hücuma keçirlər. Gəncədə düşmən tərəfdən 8 min, milli qüvvələr tərəfdən 13 min nəfər insanın həlak olmasıyla nəticələnən üsyan Qarabağda da böyük amansızlıqla yatırılır. Düşmən qüvvələri iyunun 10-da Bərdə və Tərtəri, 11-də Ağdamı, 14-də Xan kəndini və Şuşanı ələ keçirirlər.

Baba bəy Behbud Azərbaycan Cümhuriyyəti Ordusunun süvari və piyada alaylarının sağ qalan əsgərləri ilə birgə polkovnik Nuh bəy Sofiyevin komandanlığı altında Qaryagin və Cəbrayıl

istiqamətində geri çəkilərək Araz çayını keçib, İran ərazisinə daxil olurlar. Burada polkovnik Nuh bəy Sofiyev komandanlığı polkovnik Səməd bəy Rəfibəyliyə verib, ordudan ayrılır.

1920-ci il iyun ayının sonlarında Baba bəy Behbudun da sıralarında olduğu Azərbaycan birlikləri Türkiyə ordusunun böyük ehtiyac duyduğu səhra topları ilə Həsənqala istiqamətində hərəkət edirlər, iyunun 31-də Həsənqalaya, daha sonra isə Ərzuruma daxil olub, Soyuq Cermik bölgəsində qərargah qururlar. Burada bir müddət qaldıqdan sonra Türkiyə Böyük
Millət Məclisinin qərarıyla 56 nəfəri (və yaxud 65 nəfəri) zabit olmaqla 1200 nəfərlik süvari və piyada alayı Kazım Qarabəkir paşanın komandanlıq etdiyi Şərq ordusunun sıralarına qəbul olunurlar.

Qarabağ süvari alayının bölük komandiri olan gənc zabit Baba bəy Behbud bir müddət 12-ci tümənin, daha sonra isə Qarsın mühasirə hərəkatında iştirak edəcək 9-cu tümənin tərkibinə verilir. 15-ci süvari alayının bölük komandiri vəzifəsini icra edir. 1920-ci ilin payızından başr ayaraq, 1921-ci ilin əvvəllərinə qədər Şərqi Anadolunun ermənilərdən təmizlənməsi ilə sona çatan Doğu hərəkatında igidliklə vuruşur. Sarıqamışm, Qarsın, Gümrünün geri alınmasında iştirak edir. Şərqi Anadolunun ermənilərdən təmizlənməsi ilə başa çatan Doğu Hərəkatından sonra Baba bəy Azərbaycan birliklərinin tərkibində Batı cəbhəsinə göndərilir. Burda İzmirin yunan işğalından azad edilməsi ilə nəticələnən böyük savaşda Azərbaycan birlikləri böyük qəhrəmanlıqlar göstərir. Bu döyüşlərdə Baba bəy Behbudun süvari bölüyü düşmənin arxasına keçərək ona ağır zərbəl ər vurur. Baba bəy Behbud İzmirə ilk daxil olan süvari birliyin tərkibində olur. Qurtuluş savaşında göstərdiyi igidliklərə görə Baba bəy Behbud Mustafa Kamal Atatürk tərəfindən “İstiqlal” ordeni ilə təltif edilir. Savaşdan sonra 1925-ci ilin fevral ayında Türkiyənin Güney doğusunda başlayan “Şeyx Səid” üsyanının, daha sonra isə 1926-cı ildə kürd aşirətlərinin başladığı 1-ci Ağrı, 1927-ci ildə 2-ci Ağrı üsyanının yatırılmasında iştirak edir.

1928-ci ildə Türkiyə vətəndaşlığına qəbul edildikdən sonra İstanbulda Ali Hərbi Akademiyaya daxil olur. Təhsilini başa vurub, Azərbaycan Xalq Cümhuriyyəti ordusunda birgə xidmət etdikləri bir neçə zabitlə orduda qalaraq hərbi xidmətlərini davam etdirirlər. Sonralar həmin zabitlərdən Səməd Sayqın (Rəfibəyli), Cahangir Berker (Novruzov), Hüseyn Turqut general, Yunis Xəzərli (Şəkərov), Məhəmməd Ağpolad, Aslan Berkan, Firudin bəy Daryalı, Saleh Aksoy (Sultanzadə) polkovnik rütbəsinədək yüksəlirlər.

Gənc zabit Baba bəy Behbudun hərbi xidməti boyunca rütbələri artır. 1933-cü ildə kapitan, 1940-cı ildə mayor, 1944-cü ildə polkovnik-leytenant rütbəsi ilə təltif olunan Baba bəy Behbud 1948-ci ildə xidmətləri nəzərə alınaraq Türkiyə Silahlı Qüvvələrinin komandanlığı tərəfindən polkovnik rütbəsinə layiq görülür və Ankarada süvari alayının komandiri vəzifəsinə təyin olunur. 1955-ci ildə təqaüd yaşına çatdığı üçün ehtiyata buraxılır.Türkiyədə yaşadığı müddətdə azərbaycanlı mühacirlərlə sıx əlaqədə olur.

Məhəmmədəmin Rəsulzadənin yaxın silahdaşlarından olan polkovnik Baba bəy Behbud Azərbaycan Kültür Dərnəyinin qurulmasında və fəaliyyətində yaxından iştirak edir. 1957-ci və 1958-ci illərdə azərbaycanlı mühacirlərin çıxardığı "Azərbaycan" dərgisində silahdaşları general Cahangir Berkerin və polkovnik Aslan Berkanın vəfatı ilə bağlı məqaləsi dərc olunur.

Polkovnik Baba bəy Behbud İstanbulda Ekinci ailəsindən Belkıs xanımla ailə həyatı qurur. Bu nikahdan övladları olmur. Belkıs xanımın kiçik bacısı Günay xanımı övladlığa götürürlər. Günay xanım Ankara şəhərində yaşayır. Ömər, Mustafa adlı oğlu, Pıtırcık adlı qızı var.

Polkovnik Baba bəy Behbud 1970-ci il iyulun 10-da İstanbulda vəfat etmişdir. Mərhumun cənazə namazı Şişli məscidində qılındıqdan sonra xüsusi mərasimlə İstanbulda Feriköy məzarlığında dəfn edilmişdir.

***Bülbül,***



***SSRİ xalq artisti***

Murtuza Məşədi Rza oğlu Məmmədov Azərbaycanın opera müğənnisi, mahir təsnif ifaçısı, musiqi folkloru tədqiqatçısı, Azərbaycan professional vokal sənətinin banisi, SSRİ xalq artisti, Stalin mükafatı laureatıdır. Bülbül adı ona xalq tərəfindən qeyri-adi dərəcədə məlahətli səsinə görə verilmişdir. Bülbül 1897-ci il iyunun 22-də Şuşada anadan olmuşdur. Səhnə fəaliyyətinə 1916-cı ildən başlamışdır.

1920-ci ildən Azərbaycan Opera və Balet Teatrının solisti olmuşdur. Fəaliyyətinin ilk illərində Üzeyir Hacıbəylinin "Ley -i və Məcnun" (İbn Sat am), "Əsli və Kərəm" (Kərəm), Ç. Hacıbəyovun "Aşıq Qərib" (Qərib) operalarında oynamışdır. 1927-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.

Təhsilini davam etdirmək üçün dövlət xətti ilə İtaliyanın Milan şəhərinə göndərilmişdir. 1931-ci ildə Milan konservatoriyasını bitirib, Azərbaycana dönmüş və konservatoriyada dərs deməyə başlamışdır.

1938-ci ildə SSRİ xalq artisti adma layiq görülmüşdür. 1940-cı ildə professor vəzifəsinə seçilmişdir. 1950-ci ildə SSRİ Dövlət mükafatı laureatı almışdır. Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. İki Lenin, iki Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı", İtaliyanın "Qaribaldi" ordenlərinə layiq görülmüşdür.

Murtuza Məşədi Rza oğlu Məmmədov 1961-ci il sentyabrın 27-də Bakı şəhərində vəfat etmişdir.



***Əmir Hacıyev,***
***rəssam, əməkdar incəsənət xadimi.***

Əmir Hacıyev 1899-cu il mayın 17-də Şuşada anadan olmuşdur. Yaradıcılığa 1918-ci ildə Şuşada afişa və portretlər yaratmaqla başlamışdır.

Rəsmə olan həvəsi onu rəssamlıq təhsili almağa yönəltmişdir. 1923-cü ildə isə Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə daxil olmuşdur.

İyirminci illərin ikinci yarısından Əmir Hacıyev "Azərbaycan qadını", "Həmkarlar ittifaqı" kimi jurnallara illüstrasiyalar çəkir, plakatlar yaratmağa başlayır.

Əmir Hacıyev eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olub.

Tələbələrindən biri olan Kazım Kazımzadənin də tanınmış rəssam kimi formalaşmasında Əmir Hacıyevin rolu əvəzsizdir. Həmin dövrdən başlayaraq, rəssam tanınmış yazıçıların əsərlərinə illüstrasiyalar çəkir. "Xavər" (Mehdi Hüseyn, 1930), "Nəhənglər ölkəsi" (Mirzə İbrahimov, 1932), "Leyli və Məcnun" (Füzuli, 1953), "Poçt qutusu" (Mirzə Cəlil, 1960) və sair.

Ə.Hacıyevin ən yaxşı kitab təsvirləri Süleyman Sani Axundovun "Qaraca qız" (1924), Əbülhəsən Ələkbərzadənin "Yüksəliş" (1931), Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı" (1934), Mirzə Fətəli Axundzadənin "Hekayəti Molla İbrahimxəlil kimyagər" (1938), Nizami Gəncəvinin "Yeddi gözəl" (1941), Füzulinin "Leyli və Məcnun" (1953) əsərlərinə çəkilmiş illüstrasiyaları hesab olunur.

1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə istedadlı rəssam təbliğat elanları yaratmağa başlayır. O, eyni zamanda bir sıra bəzək və süjet xalçaları üçün eskizlər vermiş, miniatür silsilələrə ("Azərbaycan", 1961; "Şuşa", "Şamaxı", "Bakı", 1964) müəlliflik etmişdir.

1943-cü ildə rəssama Azərbaycan SSR əməkdar incəsənət xadimi adı verilmişdir. 1945-ci ildən isə Sovet İttifaqı Kommunist Partiyasının üzvü olmuşdur.

Görkəmli rəssam 1972-ci il avqustun 21-də Bakı şəhərində vəfat etmişdir.

***Əyyub bəy Köçərli, hərbçi.***



**1918-ci il ADR ordusunun üzvdəri**

Əyyub bəy Köçərli 1900-cü il avqustun 22-də Şuşa şəhərində zadəgan ailəsində anadan olmuşdur. Vladiqafqaz realnı məktəbini bitirmişdir.

1918-ci il sentyabrın 15-də Bakının daşnak-bolşeviklərdən azad olunmasında iştirak etmişdir. ADR ordusunda xidmət etmişdir. Poruçik rütbəsi vardı.

1920-ci ildə baş vermiş "Aprel işğalı" qurbanlarından biridir.

***Əli Yusifzadə,***
***ictimai xadim.***



Əli Cəlal oğlu Yusifzadə 1900-cü il yanvarın 1-də Şuşa şəhərində doğulub. Yusifzadələr ailəsi Şuşanın sayılıb-seçilən nəsillərindən olub. Soyadlarını da İbrahimxəlil xanın sarayında işləmiş Mirzə Yusifin adından alıblar.

Mirzə Yusifin oğlu Mirzə Əliqulu, Mirzə Əliqulunun oğlanları Mirzə Ələkbər və Mirzə Abbas şair və alim kimi tanınıblar. Mirzə Ələkbərin Cavad, Cəlal, Camal, Cabbar, Səttar, Münəvvər və Sitarə adlı övladları olub. Onlardan Cəlal, Camal, Səttar müəllimlik edib.

Əlinin atası Cəlal qardaşlarından bədii, elmi yaradıcılıqda, pedaqoji və ictimai-siyasi işlərdə fəallığı ilə seçilib.

Əli Yusifzadənin ziyası Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra daha da parlayır. Atası-hamının hörmət etdiyi maarifçi-ziyalı Mirzə Cəlal onu uşaqlıqdan çox savadlı şəxs kimi yetişdirmişdi. 18 yaşına çatana qədər artıq bir neçə dildə sərbəst yazıb-oxuya bilirdi. Amma yenə də Qərb təhsilini əsas görürdü.

Əli Yusifzadə 1917-ci ildə Şuşa Milli Komitəsinin üzvü olmuş, yerli əhalinin erməni millətçilərinin təxribatlarından qorunmasında fəal iştirak etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra ailələri Bakıya köçüb. Əli Yusifzadə "Yaşıl qələm"in, "Ədəbiyyat cəmiyyəti"nin işində fəal iştirak edib, "Azərbaycan", "İstiqlal", "Bəsirət", "Qurtuluş yolu" qəzet və jurnallarında müstəqillik, azadlıq ideyalarını tərənnüm edən məqalələr və şeirlər nəşr etdirib.

1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılış günü münasibətilə "Azərbaycan" qəzetinin xüsusu buraxılış nömrəsində Əli Yusifzadənin "Prometey" məqaləsi dərc olunur. Məqalədə bu qədim yunan mifi Apollon

mənzuməsindən əsatiri bir ilahə olan Prometeyin cəsarətlə ilk dəfə alovu göydən yer üzünə alıb-gətirdiyi üçün çarmıxa çəkilməsi, qartallar tərəfindən ciyərinin para-para qoparılıb yeyilməsi salnaməçi tərəfindən həm məsəl, həm də bir millətin, bir ölkənin tarixinə yazılan bir tale kimi göstərilir.

Əli Yusif imzası ilə tanınan müəllif Prometeyin yenidən dirildiyini, Azərbaycanın qayalarında parə-parə ciyərindən həqiqət alovu saçdığını, o atəşgahdan nur doğduğunu yeni istiqlaliyyət qazanmış türk xalqları arasında, həmçinin bütün İslam Şərqi aləmində ilk müstəqil dövlət olan Azərbaycanın taleyi ilə bağlayır.

***"Bir zamanlar Şərqin atəşpərəstləri ziyarət üçün Azərbaycanın "Suraxanı" atəşgahlarına gəlir, onu təvaf edirdisə, indi də yenə həmin Şərqin bütün əsir, zəlil millətləri Azərbaycanın hürriyyət və istiqlalını, cümhuriyyətini təqdisə gələcəkdir. Iştə bu gün o cümhuriyyət bütün mənasilə başlıyor. "***

Əli Yusif milli istiqlal ideyalarının bütün çətinliklərə baxmayaraq, parlayacağı, böyüyəcəyi, yüksələcəyi, həmçinin müstəqil olmağın bütün kiçik millətlərin şüar və arzusu olduğunu əzmkarlıqla vurğulayır. Ədib "Milli qayəmiz" məqaləsində yazır: ***"Qafqasiya millətləri də xətt-hərəkətlərini bu bina üzərində qurmaq istiyorlar, hələ Gürcüstan bu xüsusda bəzi müvəffəqiyyətlər də qazanaraq müstəqil yaşamaq istədiyini hər an sübuta qalxışıyor. istiqlal dedikdə artıq bütün mənsubiyyətlər, siyasi məsləklər ortadan qalxaraq yalnız müstəqil Azərbaycan qalırkən onu yaşatmağa həpimiz namusumuzla borcluyuz... Bir millətin səsini kəsmək, onu susdurmaq əsla qəbul degil. istiqlal fikri bu gün bir neçə nəfərə məxsus olmayıb, ümummillətin tələb etdiyi, çalışdığı bir amaldır... Vətənimizi Balkan xarabalarına müşabe etməmək, onu yabançı ayaqlara tapdağ etməmək üçün mütləqa müstəqil olmalıyız. Idealsız bir millət, bir hökumət yaşamaz diyorlar. İştə yeni doğmuş Azərbaycanımızın idealı: istiqlaliyyət və bunun hüsulu yolunda səbat!"***

O, Bakıda yaşadığı dövrdə Məmmədəmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Əhməd Cavad, Mirzəbala Məmmədzadə, Cəfər Cabbarlı, Dadaş Həsənov və başqaları ilə tanış olub.

Əli Yusifzadənin adı Azərbaycan parlamentinin 1919-cu il 1 sentyabr tarixli qərarı ilə xarici ölkələrə oxumağa göndərilən tələbələrin siyahısına salınıb. Lakin texniki səbəbdən tələbələrin göndərilməsi gecikdirilib.

1920-ci il yanvarın 12-də "İstiqlal" qəzetində Əli Yusifzadənin "Əlvida" şeiri dərc olunub. Yanvarın 14-də isə cümhuriyyət rəhbərlərinin, tanınmış xeyriyyəçilərin, din xadimlərinin və valideynlərin iştirakı ilə tələbələrin təntənəli yolasa- lınma mərasimi təşkil edilib. Fevralın 11-də Parisə çatan tələbələri sülh konfransında iştirak edən Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyəti qarşılayıb. Əlimərdan bəy Topçubaşov tələbələr qarşısında çıxış edərək onlara nəsihətlər edib və uğurlar arzulayıb. Sonra tələbələr təhsil almaq üçün Avropanın müxtəlif şəhərlərinə yola salınıb. Əli Yusifzadə Parisdəki Ali Siyasi Elmlər Akademiyasmmm diplomatiya fakültəsinə daxil olub.

1926-cı ilin fevral-mart aylarında Bakıda keçirilən Ümum-ittifaq Birinci Türkoloji Qurultayda Əli Yusifzadə katib, atası Mirzə Cəlal tərcüməçi kimi iştirak edib. Qurultay başa çatandan üç gün sonra, yəni, mart ın 8-də Azərbaycan Fovqəl adə Komissiyasının əməkdaşı Vasinin əmri ilə Əhməd Hacmski, Dadaş Həsənov və Əli Yusifzadə evlərində axtarış aparılmaq- la həbs ediliblər.

Əli Yusifzadənin evindən bir qovluq sənəd götürülüb. Həmin dövrdə Azərbaycanda rəhbər vəzifədə işləyənlərin bir qismi onların həbs olunmasının qarşısını almaq istəsələr də, bacara bilməyiblər. Azərbaycan Dövlət Siyasi İdarəsinin qərarı dəyişməz olub.

İstintaqı aparan Vasini Əli Yusifzadənin ***"Türkoloji qurultay keçirilən salona daxil olmaları üçün neçə nəfərə və hansı əsasla sənəd verilməsi, xaricdən dəvət olunmuş alimlərin siyahısını hardan alması"*** maraqlandırıb. Qurultayın katibi, 8 dildə danışmağı və yazmağı bacaran Əli Yusifzadənin istintaqını 1927-ci il fevralın 28-də başa çatdırılıb.

Azərbaycan Dövlət Siyası İdarəsinin istintaqına görə Dadaş Həsənov, Mövsüm İbrahimov, Cavad Axundov, Mir Bağır Se-yidrzayev, Əli Yusifzadə, ümumiyyətlə, 14 nəfər güllələnməli olub.

Onlara güllələnmə hökmü oxunur da. Lakin sonradan Əli Yusifzadənin və bəzi məhbusların güllələnmə hökmü 10 il həbs cəzası ilə əvəzlənib.

1927-ci il martın əvvəllərində Əli Yusifzadənin, İsfəndiyar Vəkillinin, Niyazi Muinin, Mehdi Sultanzadənin, Sadıq İma- nənin, Nəsrulla İsrafilzadənin, Muhsin bəy Bəkdəmirzadənin və b. daxil olduğu azərbaycanlı məhbuslar qrupu Solovkiyə, Şimal Buzlu okeanda, Ağ dənizin Oneqa körfəzindəki adalardakı həbs düşərgələrinə gətiriliblər. Bu qrupda, əsasən, zabit və maarifçi ziyalılar olub. Onları Baltik-Amur Kanalının çəkilişində işlətməyə başlayırlar. Əli Yusifzadə onlardan əvvəl gətirilmiş araşdırıcı, şair Əbdürrəhman Dai, Cabbar Kələntər- li, B.Səfizadə, Muradxan Naxçıvani, Abbasqulu, B.Həmid Kəngərli, Səlimzadə və başqaları ilə görüşüb. İlik donduran şaxtada işləməkdən, qurd düşmüş balıqdan hazırlanmış xörəkləri yeməkdən çox onları cinayətkarlarla bir yerdə saxlanması rahatsız edib. Buna görə də Əli Yusifzadə həbs düşərgəsinə gəldikdən sonra siyasi dustaqlar arasında təbliğat işi aparmağa başlayıb.

Bolşeviklərin qəddarlıqlarına qarşı duran, canilərlə bir həbsxanada qalmaq istəməyən, onlara siyasi məhbus statusu verilməsini tələb edən azərbaycanlı məhbuslar ilk dəfə siyasi tələblərlə kütləvi ölüm aclığı elan ediblər. Əli Yusifzadə Sovet Sosialist Respublikaları İttifaqında ilk dəfə siyasi məhbusların aclıq aksiyasını təşkil edənlərdən olub.

1927-ci ildə keçirilən aclığın 53-cü günü hərbçi, gəncəli İbrahim Axundzadə, Qori Müəllimlər Seminariyasının məzunu, şəkili Əlövsər (Əfsər) Nəcəfov aclıq zamanı, hərbçi Xasay Kərimzadə, həkim Cahangir Ağayev aclığın doğurduğu xəstəlikdən dünyasını dəyişiblər. Şəhid olan dustaqların vəsiyyəti ilə aclıq aksiyası 56-cı gün dayandırılıb. Sovet Sosialist Respublikaları İttifaqının həbsxanalarındakı ilk siyasi aclıq aksiyasının xəbəri Bakıya da gəlib-çatıb. Aclıq aksiyasının təşkilatçılarından olan Əli Yusifzadənin atası Mirzə Cəlal Yusifzadə 1931-ci ildə, 72 yaşında Bakıda oğul həsrətilə dünyasını dəyişib.

Solovki adalarında olan həbs düşərgələrindəki vəziyyətlə tanış olmağa getmiş Maksim Qorkiyə (Peşkov) və xanımına siyasi məhbuslar həbsxana nəzarətçilərindən gizli məktub ötürə bilib. Onlar bu məktubu Sovet İttifaqı Kommunst Partiyasının rəhbərlərinə və Stalinə çatdırıblar. Bundan sonra həbsxanadakı siyasi məhkumlara qarşı sərt rejim nisbətən yumşaldılıb.

1935-ci ilin yanvarında Əli Yusifzadə həbsdən azad edilib. Lakin onun Azərbaycana dönməsinə icazə verilməyib. O, Özbəkistana sürgün edilib.

1937-ci ildə Əli Yusifzadə Daşkənddə yenidən həbs edilib. Uzun və işgəncəli istintaqdan sonra, yəni, 1937-ci il avqustun 18-də həbsxanada güllələnib və cəsədi də gizlədilib. Əli Yusifə bəraət ölümündən 54 il sonra -1992-ci ilin mayında verilib.

Əli Yusifzadə uşaqlığında dərslərini yaxşı oxumaqla yanaşı, bədii yaradıcılıqla da məşğul olub. “Balıq və pişik” təmsili, “Anaların təfavütü” hekayəsi, “Vətənim” şeiri nəşr olunub. Yazdıqlarını qəzet və jurnallarda çap etdirməklə yanaşı, müsabiqələrdə də gücünü sınayıb. 1915-ci ildə Bakıdakı “Qurtuluş” jurnalında “Qürub çağı bir yetimin məhkumluğu” mövzusunda müsabiqə elan edilib. Əli Yusif də müsabiqəyə yazı göndərib. Qaliblər sırasında Cəfər Cabbarlı, Ümbülgül- sümlə yanaşı, Əli Yusifzadə də olub.

Yaradıcılığında azadlığını, müstəqilliyini əldə etmiş xalqına, millətinə, yenicə qurulan azad, müstəqil, suveren dövlətinə məhəbbət ana xətt kimi keçir. Onun “Azərbaycan”, “Qurtuluş”, “İstiqlal” kimi mətbuat orqanlarında dərc olunan şeir və publisistik məqalələrində ürəyində vətənin bugünkü azadlığından doğan hiss və duyğuları, gələcəyə inamlı baxışları, yüksək əzmkarlıq, mübarizlik qabarıq şəkildə öz əksini tapır. Şair “Vətənim” şeirində Vətənə “valideyi-möhtərəməm” deyə müraciət edir, vətənə olan məhəbbətini ana-oğul arasında olan sevgiyə bənzədir:

**Uca dağlar, dərələr səd oluyor,**
**Kim bənimlə sənə sərhəd oluyor?!**
**Bilmirəm kimdi bizə fərq qoyan.**
**Ana ilə oğulu ayrı salan?!**

Vətəndən, torpaqdan ötrü ölümə hazır olduğunu bildirən şair:

**Sən gedərsən, gedərəm əvvəl bən,**
**Ölərəm getsə bu namus, vətən!**
**Vətəni mən sevərim artığaraq**
**Necə öz validəsin sevən uşaq!**
**Vətənim, valideyi-möhtərəməm!**
**Səni artıq, yenə artıq sevərəm.**

Əli Yusifin Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan bir ay əvvəl, aprel ayında yazdığı "Qarabağ xəyanətlərinə" ("Qurtuluş" jurnalı, 1920, N2) şeiri o xəyanətlərin qurbanı olan doğma Qarabağımızın bu günü ilə səsləşir. Azərbaycanın baş tacının qiymətli qaşı olan Qarabağ diyarını – qəhrəmanlıq, şeir, sənət ocağını, musiqi beşiyini, dahilərin son məskənini özünəməxsus şəkildə şeir dili ilə təqdim edir və bir rəssam fırçası kimi oxucunun gözləri qarşısında "Qarabağ" tablosunu canlandırır.



***Yaqub Quliyev, hərbçi, general-mayor***

Yaqub Allahqulu oğlu Quliyev 1900-cu il yanvarın 25-də Şuşa şəhərində dünyaya gəlib. 1942-ci ilin dekabr ayında 61-ci süvari diviziyanın ön döyüş xəttində qəhrəmanlıqla vuruşan general-mayor Yaqub Quliyev Stalinqrad ətrafındakı döyüşlərin birində ölümcül yaralanmışdır. Ölümündən sonra Lenin ordeni ilə təltif olunmuşdur.

Süvari korpus komandirinin müavini öz döyüşkənliyi ilə fərqlənən Yaqub Allahqulu oğlu Quliyevin komandanlığı altında olan 222-ci süvari alayı faşist feldmarşalı Manşteynin tank ordusunun darmadağın edilməsində qeyri-adi döyüş məharəti göstərmişdir.

1942-ci ildə gərgin döyüşlərdən birində həlak olmuşdur.



***Xan Şuşinski, xanəndə***

Xan Şuşinski (İsfəndiyar Aslan oğlu Cavanşir) 1901-ci il avqust ayının 20-də Şuşa şəhərində anadan olmuşdur. 16 yaşında olarkən ustadı İslam Abdullayevlə birgə iştirak etdiyi məclisdə təbrizli xanəndə Əbülhəsən xanın yolu ilə "Kürdü-Şahnaz" muğamını heyrətamiz bir tərzdə ifa etdiyinə görə müəllimi ona "Xan" adını vermişdir.

1920-ci illərdə Xan Şuşinski Bakıya gələrək öz ifaçılıq fəaliyyətini genişləndirmişdir. Xanın repertuarında "Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" muğamları, "Qarabağ şikəstəsi", "Arazbarı",

“Heyratı” zərbi muğamları ilə yanaşı, xalq mahnıları və təsniflər böyük yer tuturdu. Xan Şuşinski xalq mahnılarını xüsusi bir şövqlə oxuyur, onlara yeni çalarlar aşılayırdı.

1934-cü ildə Xan Şuşinski Tiflis şəhərində keçirilən Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiadasında böyük müvəffəqiyyət qazanaraq birinci mükafata layiq görülüb.

Xan 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində “Muğam studiyası” yaratmış və burda gənc xanəndələrə muğamın sirlərini öyrətmişdir.

O, həmçinin Azərbaycan Dövlət Musiqi Məktəbində dərs demiş, muğam ifaçılarının yeni nəslini yaratmışdır. Onun “Qəmərim”, “Şuşanın dağları”, “Dilbərim”, “Ay gözəl”, “Dağlarda çiçək” və s. mahnıları dillər əzbəri olmuşdur.

Xan Şuşinski 1979-cu il martın 18-də vəfat etmişdir.

### *Hüseyn Baykara, yazıçı və ictimai xadim*



Qara Hüseynbəyli (Hüseyn bəy Şirinbəyovun oğlu) 1904-cü ildə Şuşada məşhur Şirinbəyovlar ailəsində anadan olub. Anası Mina xanım Həsən bəy Şirinbəyovun qızıdır. Ulu babası isə Şirin bəy Ənnağıoğlu olub.

1830-cu ildə rus mənbələrinə görə, Şuşada 56 bəy ailəsi olub. Bunlardan biri də Şirinbəyovlar idi.

Nəsir bəy Şirinbəyovun 3 oğlu, 5 qızı olub. Böyük oğlu Bahadur 1918-ci ildə rus-türk müharibəsində türklər tərəfdə vuruşaraq həlak olub. İkinci oğlu Surxay filoloq olub, Qazax seminariyasında işləyib. Qızlarının adları Firəngiz, Uruh, Teyxu, Rəna, Sərəncam olub.

Məhəmmədəmin Rəsulzadənin baş redaktoru olduğu və İstanbulda yayımlanan “Odlu yurd” jurnalının 19-cu nömrəsində “Bu

il məzun olanlar" başlıqlı xəbər yayımlanıb. Xəbərdə 1930-cu ildə Türkiyədə təhsil alan tələbələr haqqında qısa məlumat verilib: ***"'Bu il azərbaycanlı gənclərdən Baykara Hüseyn bəy Ankara hüquq fakültəsindən, Rüstəmbəyli Şükrü, Tofiq Rahim Bəylər istanbul oğlan litseyindən və Zeynalzadə Hakimə xanım istanbul qız litseyindən məzun olublar. Məzunlardan Baykara bəy Diyarbəkir vilayəti Osmaniyyə qəzası prokurorluğuna təyin edilib. Şükrü bəy də yaxınlarda təhsil üçün Avropaya gedəcək. Hakimə xanımın hökumət hesabına Avropaya göndəriləcəyi söylənməkdədir. Məzun vətəndaşlarımızı bu münasibətlə təbrik edir, müvəffəqiyyətlər diləyirik".***

Hüseyn Baykara 1927-ci ildə mühacirətə getdiyi ildə Bakı Dövlət Universitetinin tarix fakültəsində oxuyurdu.

Hüseyn Baykara bolşeviklər əleyhinə mübarizəyə gənclik illərindən başlamışdı. O, 1923-cü ilin sonlarında həbs edilmiş və həbsxanada şair Əhməd Cavadla məhbəs yoldaşı olmuşdur: ***"'Şeirlərini oxuduğum və sevdiyim bu şairi "Çeka" tərəfindən tutulduğum 1923-cü ilin sonunda Bakının Staro-Politseyski küçəsində yerləşən həbsxanada tanıdım. O da həbs edilmişdi. Onuna bir neçə ay hücrə dostu oldum. Orda bizə kitab, dəftər, qələm vermirdilər. Necə oldusa, mənim əlimə üç santimetr. ölçüdə bir qələmin ucu keçdi. Bu qələmlə Ə. Cavadın "Çeka" şeirlərini divara yazır, əzbərləyirdim. Bir gün nəzarətçi Nikolay məni pəncərənin deşiyindən güdmüş, divara nəsə yazdığımı görmüşdü. Bir də gördük ki, qapını açdı, divara yazılan yazıları bir taxta parçasıyla sildi. Cavadın 4-5 şeiri beləcə unuduldu və itdi. Bu hadisədən sonra yazdığı iki şeirini əzbərlədim. Bu şeirlər "Ay ellər" və "Neyləyim" başlıqlı idi".***

Qara Hüseynbəylinin həbsi haqqında məlumat mühacirətdə çap olunan "Yeni Kafkasya" jurnalında da qeyd olunmuşdur. Jurnalın 45-ci nömrəsində yayımlanan "Azərbaycan həbsləri haqqında yeni təfsilat" adlı xəbərdə həbs olunanlar siyahısında onun da adı var.

Həbs hadisəsindən bir neçə il sonra Hüseyn Baykara dostlarına mühacirətə getməyi təklif etmiş, lakin bu təklif etirazla qarşılanmışdır. Bu hadisəylə bağlı o, kitabında yazır:

***"Bu həbsdən sonra Əhməd Cavad Azərbaycan kommunistlərinin müdaxiləsi ilə, mən isə bir təsadüf nəticəsində qurtuldum (Ə.Cavadın çıxarılmasına kömək edən kommunistlər sonradan Stalin tərəfindən güllələndi). Mən bəzən onu evində ziyarət edirdim. Bir gün təsadüfən Əhməd Cavadla, gizli milli istiqlal komitəsinin rəhbəri Dadaş Həsənzadə və liderlərdən Rəhim bəy Vəkili ilə görüşdük. Uzun söhbətdən sonra mən gizli komitənin tanınmış üzvlərindən bir qisminin Azərbaycanın xaricinə çıxmasını təklif etdim. Azərbaycan istiqlal mücadiləsinin hər üç lideri də mənim bu təklifimə qarşı çıxdılar və dedilər: "Mən xarici ölkəyə gedim, sən get, o biri də getsin, bəs bu bədbəxt və talesiz günləri bu millətlə kim paylaşsın?"***

Mühacirətdə olduğu illər Hüseyn Baykaranm tələbələr qarşısında tez-tez Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda çıxış etməsi bolşeviklərin xoşuna gəlməmiş və o, təqiblərə məruz qalmışdı. 1927-ci ildə dostlarından biri Hüseyn Baykaraya universitet tələbələrinin Novruz bayramı ilə keçiriləcək tədbirdə bolşevik casuslarının onu tutacaqlarmı xəbər vermiş, Hüseyn Baykara da NKVD-nin əlinə keçməmək üçün əvvəlcə İrana, sonra isə Türkiyəyə getmişdir.

Hüseyn Baykaranm qardaşı Surxay Şirinbəyov da fəal mübarizlərdən olmuşdur. O, o zamankı Azərbaycan Pedaqoji İnstitutunu bitirmiş və Qazax seminariyasında dərs demişdir. Siyasi düşüncələrinə görə Surxay bəy 10 illiyə "SLON"a (Solovki xüsusi təyinatlı düşərgəsi) göndərilib. Solovki düşərgəsindən dönəndən sonra ona Bakıda məskunlaşmağa icazə verilmədiyindən Qazaxıstana köçüb. Surxay bəy dəfələrlə qardaşını tapmağa cəhd etmiş, lakin alınmamışdır.

Surxay Şirinbəyov 1956-cı ildə yük maşınının altında qalaraq həlak olmuşdur. O, Alma-Atada dəfn edilmişdir.

İstanbula gələn Qara Hüseynbəyli burada "Hüseyn Baykara" adı ilə yaşamış və İstanbul Universitetinin hüquq fakültəsini bitirmişdir. Universiteti bitirdikdən sonra bir müddət Elazığda hakim işləmiş, İstanbula döndükdən sonra isə prokuror vəzifəsində çalışmışdır.

Mühacirətdə olduğu illərdə hüquqşünaslıqla yanaşı, ədəbi fəaliyyətini də dayandırmamış, mətbuatda elmi, publisistik məqalələrlə çıxış etmişdir. Onun “Azərbaycanda erməni basqısı və Naxçıvan məsələsi”, “Azərbaycan istiqlalının 50 illiyi dolayısı ilə”, “Azərbaycan cümhuriyyətinin iki hərbi zəfəri”, “Azərbaycan renessansını yapanlardan Abbasqulu Ağa Bakıxanov”, “Azərbaycan istiqlal mücadiləsinin iqtisadi təməli”, “Dədə Qorqud kitabı üzərinə notlar” və s. kimi yazılarında ölkə və xalqın vəziyyəti əks olunmuşdur.

Hüseyn Baykara İstanbulda M.Ə.Rəsulzadənin çap etdirdiyi “Yeni Kafkasya” jurnalı ilə əməkdaşlıq etmişdir. Onun “Yeni Kafkasya”da “Ailə faciələri”, “Doktor Dadaş Həsənzadə” adlı yazıları çap olunmuşdur. Baykara Dadaş Həsənzadə ilə bağlı yazdığı məqaləsində onun tərcümeyi-halını, onunla bağlı xatirələrini qeyd etmişdir. O, həmçinin “Azəri- Türk”, “Odlu Yurd” və başqa qəzet-jurnallarda Azərbaycan xalqının mədəniyyəti, ədəbiyyati və onun ziyalıları ilə bağlı elmi-publisistik məqalələr dərc etdirmişdir.

Hüseyn Baykaranm fikrincə, Qafqaz müsəlmanlarını “ümmətçilik”dən “millətçiliy”ə yönəldən, onları “türkçülük-millətçilik”, “Azərbaycan” ideyası ətrafında birləşdirən və “Açıq söz” qəzetində bunu təbliğ edən “Müsavat”m lideri M.Ə.Rəsulzadə olmuşdur. O qeyd edir ki, ilk dövrlərdə sosial-demokratlarla eyni cəbhədə çalışmış M.Ə.Rəsulzadə 1911-1913-cü illərdə Ş.C.Əfqaninin yazılarının təsiri altında türkçülük hərəkatına qoşulmuş və Azərbaycanda bu ideyanın əsas ideoloqu olmuşdur:

M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir.

H.Baykara mühacirətdə “Odlu yurd”, “Azərbaycan”, “Türk kültürü” jurnalları ilə əməkdaşlıq edib, Azərbaycanla bağlı müxtəlif yazılar yazmışdır. “Türk kültürü” jurnalının Azərbaycana həsr edilmiş xüsusi buraxılışında Baykaranın “Çar Rusiyasının Azərbaycanda apardığı istila savaşları” adlı yazısı dərc edilmişdir.

Hüseyn Baykaranın mühacirətdə üç kitabı çap olunmuşdur. “Azərbaycanda yeniləşmə hərəkatı. XIX əsr” 1966-cı ildə

Ankarada, "Azərbaycan istiqlal mübarizəsi tarixi" 1975-ci ildə İstanbulda və "İran inqilabı və azadlıq hərəkatları" isə 1978-ci ildə İstanbulda nəşr edilmişdir. "İran inqilabı və azadlıq hərəkatları" kitabında Güney Azərbaycanında baş verən Səttarxan və Xiyabani inqilablarından bəhs olunur. Kitabın girişində yazılmışdır:

***"Bu kitabımı iran inqilabı və azadlıq hərəkatları uğrunda canlarını verən, adları bilinən və bilinməyən əziz şəhidlərə və indi iranda şahların şahı Məhəmməd Rzanın zindanlarında inləyən azadlıq savaşçılarına ithaf edirəm***

Hüseyn Baykara yazılarında Azərbaycanın milli azadlıq hərəkatına xüsusi yer vermişdir. O yazırdı ki, "Azərbaycan mədəniyyəti tarixi" ilə "Azərbaycan istiqlal mübarizəsi tarixi" kitabları Azərbaycanın azadlıq mübarizəsinin əlifbasıdır.

Hüseyn Baykaranın dörd övladı olub: Orxan, Surxay, Mina, Gülqənd. Orxan jurnalist, Surxay inşaatçı-mühəndis, Mina uşaq həkimi, Gülqənd isə mühəndis olmuşdur.

Hüseyn Baykara 1984-cü il iyulun 1-də Kayseridə vəfat etmiş, nəşi İstanbula gətirilərək iyulun 4-də Qaraca Əhməd məzarlığında dəfn edilmişdir.



***Məhbubə Paşayeva, opera müğənnisi, pedaqoq.***

Məhbubə Məmməd qızı Paşayeva 1905-ci il may ayının 28-də Şuşada anadan olmuşdur. O, Üzeyir bəy Hacıbəylinin bacısı Sayad xanımım qızıdır. A. Zeynallı adma Bakı Orta İxtisas Musiqi Məktəbini (1941) və Azərbaycan Dövlət Konservatoriyasının hazırlıq şöbəsini (1943) – Rudolf Viktoroviç Karvengin sinfini bitirmiş, Cabbar Qaryağdıoğlundan və Seyid Şuşinskidən muğam dərsi almışdır. Atası erkən vəfat etdiyindən (1908) Üzeyir

bəy bacısını və onun dörd kiçik uşağını Bakıya gətirmiş, himayəsində böyütmüşdür.

Gözəl və məlahətli səsə malik olan Məhbubə Paşayeva səhnə mədəniyyətinə yiyələnməyə hələ kiçik yaşlarından başlamış, bacısı Seyran və qardaşı Camalla birlikdə dayısı Zülfüqar bəy Hacıbəyovun "Əlli yaşında cavan"operettasmda səhnəyə çıxmış (1915), oxuduqları musiqi parçaları "Sport-Rekord"qramofon şirkəti tərəfindən vala yazılmışdır.

1918-ci ildə Bakıda şəhər məktəbini bitirən Məhbubə Paşayeva ümumtəhsil məktəblərində nəğmə və bədən tərbiyəsi dərslərini demək üçün açılmış kursda (1919-1922) və 1922-ci ildən isə Üzeyir bəyin təşəbbüsü və rəhbərliyi ilə açılmış musiqi texnikumunda oxumuşdur. O, 1920-ci ildə dövlət dram teatrı nəzdindəki opera teatrında işləməyə başlamış, eyni zamanda Əbilov adma 38 nömrəli birinci dərəcəli türk şura məktəbində nəğmə dərsi demişdir (1920-1924). Teatrda gənc aktrisa səhnə xadimləri Əhməd Bədəlbəyov-Ağdamski, Zülfüqar Sarıyev, Qəmbər Zülalov, Əli Zülalov, Hüseynağa Hacıbababəyov kimi opera müğənnilərindən dəyərli məsləhətlər almış, onların zəngin səhnə təcrübəsini mənimsəmişdi.

İstedadlı müğənni Qaraca qız ("Şah Abbas və Xurşudbanu"), Ərəbzəngi ("Şah İsmayıl"), Şahsənəm ("Aşıq Qərib"), Ənbər ("Nərgiz"), Leyli ("Leyli və Məcnun"), Əsli ("Əsli və Kərəm"), Gülçörhə ("Arşın mal alan"), Gülnaz ("O olmasın, bu olsun") rollarını ifa etmiş, Hüseynqulu Sarabski, Hüseynağa Hacıbababəyov, Xanlar Haqverdiyev, Əlövsət Sadıqov, Şirzad Hüseynov kimi müqtədir sənətkarlarla tərəf-müqabil olmuşdur. 1938-ci ildə Moskvada keçirilən birinci Azərbaycan incəsənəti ongünlüyündə "Koroğlu" operasında Xanəndə qızın mahnısını əla ifa etdiyinə görə Üzeyir bəy Hacıbəyli operanın klavirini, eyni zamanda 1934-cü ildə bəstəkarın "Komsomolçu qız" mahnısını yüksək məharətlə oxuduğuna görə mahnının not yazısını Məhbubə Paşayevaya hədiyyə etmişdir.

Müğənninin repertuarında xalq və bəstəkar mahnıları, habelə xarici ölkə bəstəkarlarının əsərləri geniş yer tutmuşdur. O, Böyük Vətən müharibəsi illərində əsgərlər qarşısında, çağırış

məntəqələrində, qospitallarda, opera teatrının bir çox yerlərdə təşkil etdiyi konsertlərdə çıxış etmişdir. Onun ifa etdiyi “Koroğlu” operasında Xanəndə qızın mahnısı (1947), Gülçöhrənin, Nigarın ariyaları, Üzeyr bəyin məktəblilər üçün yazdığı “Qarabağın şikəstəsi”, “Yar bizə qonaq gələcək” xalq mahnısı (1967) lentə alınmışdır.

1948-ci ildə opera səhnəsi ilə vidalaşan Məhbubə Paşayeva M. Magomayev adına Azərbaycan Dövlət Filarmoniyasının xor kapellasında, mahnı və rəqs ansamblında (19481953), Azərbaycan Radio Komitəsi nəzdindəki xor kollektivində (1953-1963) çalışmışdır.

Məhbubə Paşayeva fərdi təqaüdçü olmuş, “Əməkdə fərqlənməyə görə” medalı, bir neçə dəfə Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı və döş nişanları ilə təltif edilmişdir.

Məhbubə Məmməd qızı Paşayeva 1970-ci il yanvar ayının 6-da vəfat etmişdir.



***Mehdi Usmiyev,***
***memar***

1905-ci ildə Şuşada dünyaya gəlib. Uşaqlıqdan rəssamlığa həvəs göstərib. Bakıda yaşayarkən boyakarlıq sənətinin sirlərinə dərindən bələd olub. Çəkdiyi natürmortlar, portretlər və mənzərə janrında rəsm əsərləri diqqət çəkib.

Tikib-qurmağa marağı 1925-ci ildə onu Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsinə gətirib. İnstitut illərindən sonra gənc memar əmək fəaliyyətinə başlayıb. Bakının Qaraşəhər və Montin adlanan hissələrində onun layihələri əsasında binalar tikilib, küçələr və prospektlər salınıb. Otuzuncu illərin sonlarında Mehdi Usmiyev Tiflisə dəvət olunub.

On ildən artıq orada çalışan memar şəhəri bəzəyən yaşayış binaları, dəmiryol stansiyaları, sənaye obyektləri və sanatoriya binalarının layihələrini hazırlayıb.

Mehdi Usmiyevin şöhrəti Moskvaya da çatıb. Orada tanınmış memarlarla, xüsusən, akademik Aleksandr Vesninlə işləyib. O, SSRİ-nin bir çox iri şəhəri ərində böyük obyekt 1 ərin layihəsini çəkib. Onun sonuncu əsəri özünün yaşadığı bina olub.

Mehdi Usmiyev nənəsi Natəvanın, babası Mehdiqulu xanın, bir çox klassiklərimizin qiymətli əlyazmalarını toplayıb, zəngin kitabxana yaratmaqla Azərbaycan mədəniyyətinə də sanballı töhfə verib.



***Bəylər Ağayev, alim***

1906-cı ildə Şuşada dünyaya gəlib. İlk təhsilini rus-tatar məktəbində almış, Şuşa pedaqoji məktəbini bitirmişdir. 1932-ci ildə ADPİ-nin fizika-riyaziyyat fakültəsini qurtararaq elmi-pedaqoji fəaliyyət göstərib.

1949-cu ildə namizədlik, 1966-cı ildə doktorluq dissertasiyalarını müdafiə edib. Minlərlə ixtisaslı kadr hazırlanmasında böyük elmi əmək sərf edib.

Görkəmli alim bir sıra xarici ölkələrdə elmi mühazirələr oxumuşdur. Professor Bəylər Ağayev 6 monoqrafiyanın, 100-dən artıq elmi-metodiki məqalənin müəllifidir.

Bəylər Ağayev 1987-ci ildə vəfat etmişdir.

### *Lətif Kərimov, xalçaçı rəssam*



Lətif Huseyn oglu Kərimov 1906-cı ildə Şuşa şəhərində anadan olmuşdur. 1912-ci ildə onların ailəsi İranın Məşhəd şəhərinə köçmüşdür.

Xalça sənətinə məhəbbəti Lətifi burada Mirzə Ələkbər Hüseynzadənin emalatxanasına gətirib-çıxarmışdı. Gənc Lətif Təbriz, Ərdəbil kimi məşhur xalça mərkəzlərini gəzib, hər sənət kardan, hər toxucudan bir təkrarsız ilmə vurmaq, bir naxış salmaq öyrənmişdir.

Şuşa şəhərində – Qarabağ xalça artelində 1928-ci ildə təlimatçı kimi fəaliyyət göstərən Lətif Kərimov başqa rayonlarda da yerli xalçatoxuma işinin sirlərini öyrənirdi. O, 1930-cu ildən xalça sənəti mütəxəssisi kimi "Azərxalça" birliyində rəssam-təlimatçı vəzifəsində fəaliyyət göstərmişdir.

Bakıda və Qubada (1932-1936) xalça məktəblərinin açılmasında Lətif Kərimovun böyük zəhməti olmuşdur. O, təkcə xalçaçılıq sahəsində deyil, dekorativ tətbiqi sənətin başqa sahələrində də fəaliyyət göstərməyə başlamışdır.

Lətif Kərimov min illərdən başlayaraq Azərbaycan xalçalarının müxtəlif növlərinə aid kompozisiya və naxışları toplamış və beləliklə, Quba, Şirvan, Bakı, Qazax, Gəncə, Qarabağ, Təbriz və Borçalı xalça qruplarına daxil olan 150-dən artıq xovlu və xovsuz xalça məmulatı çeşidlərini yığıb, onların rəngli reproduksiyasını hazırlamışdır.

Görkəmli sənətkar Lətif Kərimov 1991-ci ildə Bakı şəhərində vəfat etmişdir.

***Əliş Həsənov, alim.***



Əliş Mehdi oğlu Həsənov 1906-cı ildə Şuşada anadan olub. O, ilk təhsilini Quzanlı kənd orta məktəbində almişdır. Sonra Şuşa pedaqoji məktəbində təhsilini davam etdirmişdir.

O, 1934-cü ildə Azərbaycan Pedaqoji İnstitutunu bitirərək ali təhsilə yiyələnmişdir.

Əliş Həsənov uzun illər Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda bir sıra vəzifələrdə işləmişdir. Baş müəllim, dosent olmuşdur.

15 kitabın, 100-ə qədər elmi məqalənin müəllifidir.

Pedaqoji elmimizə töhfələr verən alim 1985-ci ildə vəfat etmişdir.



***Hətəm Quliyev,***
***dövlət məmuru.***

Hətəm Musa oğlu Quliyev 1908- ci il noyabrın 8-də Şuşa şəhərində müəllim ailəsində anadan olmuşdur.

Hətəm Bakı Realnı Məktəbində oxuduqdan sonra Tərtər Mexanizasiya Texnikumunu bitirir.

Bir müddət kolxozda mühasib-iqtisadçı vəzifəsində işlədikdən sonra yenidən Bakıya gələrək ali iqtisadiyyat kursunda təhsil alır.

Hətəm Quliyev komsomol və partiya işlərində, kolxoz quruculuğunda fəal iştirak edir. 1927-28-ci illərdə Azərbaycan LKGİ

özək təşkilatının katibi işləyir, banditizmə qarşı mübarizənin ön sıralarında olur.

1930-cu ildə partiya sıralarına daxil olan H. Quliyev 1933- 35-ci illərdə Laçın rayon Partiya Komitəsində təlimatçı (şöbə müdiri yazıçı Əli Vəliyev olub) işləyir. 1935-ci ildə Tərtər elmi-tədqiqat seleksiya bazasının müdiri vəzifəsinə təyin olunur. Burda o, kənd təsərrüfatı məhsullarının, xüsusən, məhsuldar pambıq və taxıl növlərinin yetişdirilməsi işinə öz töhfəsini verir, təşkilatçılıq qabiliyyəti diqqəti cəlb edir.

1938-ci ildə Tərtər Maşın-Traktor Stansiyası (MTS) müdirinin müavini vəzifəsinə göndərilir. İki il sonra MTS-in direktoru vəzifəsinə təyin edilir və 1942-ci ilədək bu vəzifədə çalışır.

Hətəm Quliyevə 1942-ci ildə daha məsul vəzifə Bərdə rayon Siyasi Şöbəsinin rəisi vəzifəsi tapşırılır.

Hətəm Quliyevin xidmətləri "Şərəf nişanı" (1945), "Qırmızı Əmək Bayrağı" (1966) ordenlərinə, onlarca medala, SSRİ və Azərbaycan SSR Ali Sovetlərinin, İttifaq və respublika nazirliklərinin çoxsaylı Fəxri fərmanlarına və digər mükafatlara layiq görülüb.

O, 1993-cü il fevralın 23-də dünyasını dəyişib. Tərtərin yaşlı sakinləri indi də Hətəm Quliyevin xeyirxahlığından danışır, ona Allahdan rəhmət diləyirlər.



***İsfəndiyar Vəlixanlı,***
***pedaqoq***

1909-cu ildə Şuşada dünyaya gəlib. İbtidai təhsilini Şuşada aldıqdan sonra orta məktəbi Bakıdakı 77 nömrəli məktəbdə başa vurub.

ADPİ-nin fizika-riyaziyyat fakültəsində ali təhsil alıb. Şəhər və rayonlarda məktəb direktoru, xalq maarif şöbələrində inspektor vəzifələrində çalışıb.

1949-cu ildən ömrünün sonunadək Azərbaycan ETPEİ-də baş müəllim, dosent, fakültə dekanı vəzifələrində səmərəli fəaliyyəti olub.

İsfəndiyar Vəlixanlı şagirdlərin yetişdirilməsinə aid elmi iş yazaraq alimlik dərəcəsi alıb.

Tanınmış alim 10 kitab, 25 elmi məqalə və 138 elmi-pedaqoji, publisist məqalənin müəllifidir.

İsfəndiyar Vəlixanlı 1975-ci ildə dünyasını dəyişib.



***Məhərrəm Əlizadə,***
***yazıçı-dramaturq***

1909-cu ildə Şuşada dünyaya gəlmişdir. İlk təhsilini Şuşa şəhər I dərəcəli məktəbində almış, 1923-1927 illərdə Şuşa seminariyasında oxumuşdur.

Məhərrəm Əlizadə Ağdamın Keştazlı kəndində, Şuşada, 1930-1937-ci illərdə isə Bakıda pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Məhərrəm Əlizadə 1932-1936 illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almış, oxuduğu təhsil ocağının aspiranturasında saxlanılmışdır.

O, 1939-cu ildən 1941-ci ilə qədər Azərbaycan Dövl ət Pedaqoji İnstitutunda ədəbiyyat metodikası fənnindən dərs demişdir.

Məhərrəm Əlizadə 1934-cü ildən bədii yaradıcılıqla məşğul olmuşdur. Onun sağlığında "Dostlar" (1934), "Qonaq" (1941) adlı iki kitabı işıq üzü görmüşdür.

"Dostlar" və "Qonaq" kitablarındakı hekayələr 1930-cu illər Azərbaycan həyatının bir çox cəhətlərini əks etdirir.

Bu hekayələrin mövzusu Azərbaycan qadınının ictimai həyatdakı rolundan, müəllim-tələbə münasibətlərindən və başqa mövzulardan ibarətdir.

Məhərrəm Əlizadə cəbhədə vuruşduğu üçün 1941-ci ilin sonlarında çapdan çıxmış "Qonaq" kitabını görə bilmədi. Onun ölümündən sonra ilk kitabı 1962-ci ildə nəşr olunan "Kədər və sevinc" kitabıdır. Bu kitaba müəllifin 9 hekayəsi daxil edilmişdir.

Məhərrəm Əlizadə 1942-ci ildə Krasnodar diyarının İndyuk kəndindəki döyüşdə həlak olmuşdur.



***Məmmədəli Məhərrəmov, alim***

1909-cu ildə Şuşada anadan olub. Şəhərdəki I dərəcəli "Nərimaniyyə" və II dərəcəli Mustafa Quliyev adına məktəblərdə oxuyub. Azərbaycan Dövlət Universitetinin pedaqoji fakültəsini bitirdikdən sonra universitetin aspiranturasına qəbul olunub. 1947-ci ildə "Səciyyə haqqında psixoloji nəzəriyyələr" mövzusunda müdafiə edərək alimlik dərəcəsi alıb. O, universitetdə məntiq və psixologiya sahələri üzrə müəllimlikdən baş müəllim, kafedra müdiri, professor vəzifələrinədək yüksəlmişdir. Görkəmli alim 6 dərsliyin, 100-ə qədər elmi məqalənin müəllifidir.

Məmmədəli Məhərrəmov 1970-ci ildə vəfat edib.

### *Əmir Rüstəmov, general-mayor*



Əmir Məmməd oğlu Rüstəmov 1909-cu il dekabrın 5-də Şuşa şəhərində doğulmuşdur. Kiçik yaşlarından ailəsi ilə birlikdə Aşqabada köçmüşdür. İnşaat texnikumunu bitirdikdən sonra (1931) SSRİ Baş Pambıqçılıq Komitəsinin Tacikistan SSR tikinti trestində mühəndis işləmişdir. 1932-ci ildən Sovet Ordusunda xidmət etmişdir. 1937-ci ilə qədər Orta Asiyada müxtəlif hərbi dəstələrin tərkibində basmaçıların qalıqlarına qarşı mübarizə aparmışdır.

Əmir Rüstəmov 1941-ci ildə V.V.Kuybışev adma Hərbi Mühəndislik Akademiyasını bitirmişdir. 1942-1943-cü illərdə Rostov yaxınlığında, Qafqaz uğranda gedən vuruşmalarda fəal iştirak etmişdir.

Böyük Vətən müharibəsindən sonra quru qoşunlarının mühəndis xidməti qərargahı əməliyyat söbəsinin rəisi təyin olunmuşdur. 1952-ci ildə K. J. Voroşilov adma Hərbi Akademiyanı bitirmişdir. Almaniyada Sovet qoşunları qrupunun tərkibində ordu mühəndis qoşunlarının rəisi (1952-56), Sibir Hərbi Dairəsinin mühəndis qoşunlarının rəisi (1956-66), V. V. Kuybışev adma Hərbi Mühəndislik Akademiyasında kafedra rəisi (1966-69) işləmişdir. 1969-cu ildə ehtiyata buraxılmışdır. “Qırmızı bayraq”, “Qırmızı ulduz” ordenləri və medallarla təltif olunmuşdur.

General Əmir Məmməd oğlu Rüstəmov Bakıda 73 yaşında vəfat etmişdir.

***Ələsgər Rizvan,***
***opera müğənnisi***



Təbriz teatrının aparıcı səhnə ustalarından olub. Bəzi mətbuat səhifələrində soyadı “Rizvani” kimi yazılıb. “Təbai” təxəllüsü ilə də çıxış edib.

Ələsgər Rizvan 1909-cu ildə Şuşa şəhərində doğulub. Üç-dörd yaşlarında ailəsi Ağdama köçüb. İbtidai təhsilini Ağdamda alıb.

Onun ürəyəyatımlı, muğam ifaçılığma uyğun gələn səsi və güclü yumor bacarığı olub. Səhnə sənətinə marağı orta məktəbdə oxuyanda başlayıb.

Onun şaqraq və cingiltili səsini eşidən aktyor Qaflan Muradov bu gənci özünün aktyor işlədiyi Ağdam mədəniyyət klubunun dram dərnəyinə dəvət edib. Səhnəyə ilk dəfə Üzeyir bəy Hacıbəylinin “Leyli və Məcnun” operasında qadın rolunda çıxıb. Sonra başqa opera və operettalarda da qadın rolları oynayıb.

Ələsgər Rizvan 1923-cü ildə Ağdam şəhərinə qastrola gəlmiş məşhur opera artisti Hüseynqulu Sarabskinin hazırladığı “Leyli və Məcnun” operasında Leyli rolunu ifa edib. Məcnun rolunda isə səhnəyə Sarabski çıxıb. Operanın göstərilməsi tamaşaçılar tərəfindən yüksək səviyyədə qarşılanıb. Elə həmin gündən 1929-cu ilə qədər Ağdam teatrında opera artisti kimi səmərəli fəaliyyət göstərib. Müğənni-aktyor “Əsli və Kərəm”, “Leyli və Məcnun”, “Şah İsmayıl” operalarında Kərəmin, Məcnunun və Şah İsmayılın partiyalarını ifa edib. 1930-cu illərin əvvəllərində Azərbaycan Dövlət Filarmoniyasında məşhur sənətkarlarla birgə konsertlər verib. Muğam və təsniflərin, xalq mahnılarının ecazkar ifaçısı olub.

Ələsgər Rizvan 1930-cu illərin ikinci yarısında İrana köçüb. Tezliklə Təbrizdəki “Ariyen” dram dəstəsinin heyətinə daxil olub. Böyük sənət təcrübəsi olan Ələsgər Rizvan az müddət ərzində

Təbriz teatrında opera və operetta rollarının mahir ifaçılarından sayılıb.

O, öz sənətini həvəs və səylə gənclərə də öyrədib. Aktyor həm ayrı-ayrı teatr dəstələrində və həm də Dövlət Dram Teatrında Məcnun, Kərəm, Şah Abbas, Əsgər, Sərvər ("Leyli və Məcnun", "Əsl i və Kərəm", "Şah Abbas və Xurşudbanu", "Arşın mal alan" və "Məşədi İbad", Üzeyir bəy Hacı ı bəyli), Aşıq Qərib ("Aşıq Qərib", Zülfüqar bəy Hacıbəyov) rollarının mahir ifaçısı kimi ad çıxarıb və şöhrət qazanıb.

Ələsgər Rizvan teatrda işləməklə yanaşı, Təbriz Dövlət Xalq Çalğı Alətləri Orkestrinin solisti olub. Bu orkestrlə Üzeyir bəy Hacıbəylinin "Koroğlu", Müslüm Maqomayevin "Şah İsmayıl" operalarında Koroğlunun və Şah İsmayılın mürəkkəb partiyalarını şövqlə oxuyub. İfa etdiyi Cahangir Cahangirovun "Təbrizim" mahnısı (sözləri M. Etimadındır) Cənubi Azərbaycanda milli himn kimi şöhrət qazanıb.

Onun Leyla Möhsünpurla oxuduqları duetlər konsert proq-ramlarının bəzəyi kimi qiymətləndirilib.

Aktyorun yaradıcılıq salnaməsində Çoban Qəmbər ("Anamın kitabı", Cəlil Məmmədquluzadə), Sağdış ("Namus", Aleksandr Şirvanzadə), İbad ("Eşq və intiqam", Süleyman Sani Axundov), Dönməz ("Od gəlini", Cəfər Cabbarlı) kimi dramatik rollar da var.



***Süleyman Vəzirov,***
***neftçi, Sosialist Əməyi Qəhrəmanı.***

Süleyman Azad bəy oğlu Vəzirov 1910-cu ildə Şuşada dünyaya gəlib. Onun atası Azad bəy Vəzirov Peterburqda hərbi təhsil almış və xüsusi tapşırıqlar üzrə polkovnik, anası Zəhra xanım isə dövrünün məşhur həkimi Əbdülkərim bəy Mehmandarovun qızı idi.

Süleyman Vəzirov Bakı sənaye-iqtisad texnikumuna daxil olub.

Texnikumda oxumaqla bərabər o, həm də kinomexanik köməkçisi işləyib. Texnikumu bitirdikdən sonra İliç buxtasında – mədəndə "zamerşik" vəzifəsində çalışmağa başlayıb.

Neft mədənində çalışmaq və "Azneft" Birliyinin baş mühəndisi olan qohumu Fətulla Rüstəmbəyovla olan söhbətlər onun sonrakı sənət seçimini təyin edib.

1928-ci ildə Süleyman Vəzirov Azərbaycan Politexnik İnstitutunun dağ-mədən fakültəsinə daxil olur və oranı 1932-ci ildə müvəffəqiyyətlə başa vurur. Süleyman Vəzirov yüksək ixtisaslı bir mühəndis kimi Pirallahı, Lokbatan, Qaraçuxur kimi neft-qaz yataqlarının çalışmaqla yetişmişdir. Bir neçə il ərzində o, ixtisasının bütün pillələrini keçərək mühəndis, böyük mühəndis, trestin baş mühəndisi vəzifələrində çalışaraq kamil mütəxəssisə çevrilmişdi.

S.Vəzirov 1935-1937-ci illərdə "Molotovneft" trestində, sonra Əmirov adma Neft-qazçıxarma İdarəsində mədən müdirinin müavini, 1937-1940-cı illərdə "Kaqanoviçneft" trestinin indiki Suraxanı Neft-qazçıxarma İdarəsinin baş mühəndisi vəzifələrində çalışmışdır.

Özünə və tabeliyində olanlara qarşı tələbkarlıq, əməksevərlik, insanlarla iş görmək qabiliyyəti onun 1940-cı ildə o vaxt bütün geoloji-kəşfiyyat işlərini, qazma, neftçıxarma və emal, habelə iri tikinti təşkilatlarını özündə birləşdirən Azneftkombinata baş mühəndis vəzifəsinə irəli çəkilməsinə səbəb olmuşdur.

Otuz yaşlı S.Vəzirovun tutduğu vəzifənin məsuliyyətini başa düşmək üçün Azneftkombinatm yerinə yetirdiyi işləri bilmək lazımdır. Burda geologiya, quyularm qazılması, neft hasilatı, emal, neft maşınqayırması, neft iqtisadiyyatı, yəni, indi bir neçə nazirliyin gördüyü işlər həyata keçirilirdi.

Azneftkombinat nəinki Azərbaycanın neft-qaz sənayesində aparıcı rol oynayırdı, eləcə də Sovet İttifaqının neft sənayesində həyata keçirilən işlərin 75 faizi bu struktur ilə əlaqədar idi.

O illərdə neftçilər çox çətin bir şəraitdə işləyirdilər. İstehsalatdakı istənilən səhv mütəxəssisin həyatı bahasına başa gələ bilərdi. Amma S.Vəzirov özünü layiqincə göstərə bildi. 1941-ci ildə

Azərbaycan maksimum, yəni, 23,5 milyon ton neft hasil etdi və kombinatın baş mühəndisi kimi S.Vəzirov Lenin ordeni ilə təltif olundu.

1942-ci ildə S.Vəzirov "Azneftkombinat"a rəhbər təyin edildi. O, "Azneftkombinat"m ilk azərbaycanlı rəhbəri idi. Bu isə çox şey demək idi. Müharibənin ağır ill ərində dahi
neftçi və təşkilatçı olmaq lazım idi ki, qarşıya çıxan və eləcə də çıxa biləcək çətinliklərin öhdəsindən gələ biləsən.

Bu çətin dövrdə ön və arxa cəbhənin yanacağa və sürtgü yağlarına olan ehtiyacının ödənilməsi, arxa cəbhədə zavod və fabriklərin istehsal profilinin dəyişdirildiyi səbəbindən vəziyyətdən çıxmaq üçün yeni sahələrin yaradılması, kadrların qorunması kimi müxtəlif məsələlərin həll edilməsi lazım gəlirdi.

Müharibənin alovları içində yanan ölkədə Bakı neftinin cəbhəyə çatdırılması lazım idi. Yanacaq və neft məhsullarının daşındığı yollar düşmənin əlində idi. Neft və neft məhsullarının daşınması üçün yalnız bir yol qalırdı, o da Bakıdan Xəzər dənizi ilə Krasnovodska – indiki Türkmənbaşıya.

Lakin Krasnovodskda neftin saxlanılması üçün çənlər yox idi. Süleyman Vəzirov Bakıda mövcud neft çənlərini, dənizdə tankerlərin yedəklərində Krasnovodska aparılması təklifi ilə bu məsələni çox sadə bir yolla həll etdi.

"Azneftkombinat'Tn rəisi gecə və gündüz səfərlərdə idi: onu gah neft mədənlərində, gah maşınqayırma zavodlarında, gah da Türkmənistanın Krasnovodsk limanı ilə əsas nəqliyyat dəhlizi olan limanda tapmaq olardı. Amma bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan neftçiləri 1941-1945-ci illərdə 75 milyon ton neft, 22 milyon ton benzin və digər neft məhsulları istehsal edərək plan tapşırığını xeyli üstələmişdilər.

Bu rəqəmlər indi sadə görünür. Lakin bu göstəricilərin mütəxəssislərin çatışmadığı, lazımi avadanlığın olmadığı, üstəlik də, Stalin-Bağırov rejiminin hökm sürdüyü bir vaxtda əldə edildiyini bildikdə onların mənası dəyişir. Bunun öhdəsindən yalnız böyük bilik və təşkilatçılıq bacarığına sahib, lazım gəldikdə sərt, yeri gəldikdə isə mülayim olan, insanların rəğbətini qazanan, mürəkkəb

və ekstremal şəraitdə düzgün qərar vermək qabiliyyətinə malik şəxs gələ bilərdi ki, bu keyfiyyətlərin hamısı Süleyman Vəzirovda toplanmışdı. Bütün bu keyfiyyətlərin olması onun dəfələrlə Bağırovdan ***"Vəzirov, sən ömrünü qazamatda başa vuracaqsan"*** ifadəsini eşitməsinə mane olmurdu. Çətin müharibə şəraitində neft sənayesinin inkişafı sahəsində göstərdiyi xüsusi xidmətlərinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 yanvar 1944 tarixli sərəncamı ilə S.Vəzirov Sosialist Əməyi Qəhrəmanı, Lenin ordeni və "Oraq və çəkic" qızıl medalı ilə təltif olunmuşdu.

S.Vəzirov 1945-ci ildə "Azneft" Birliyinin rəisi vəzifəsində çalışmışdı. Sülh dövrünün başlanması bir sıra yeni zəngin neft yataqlarının işlənilməsinə imkan yaratdı ki, bunlardan biri də S.Vəzirovun aktiv əməyi ilə işlənilməyə daxil edilən Buzovna-Maştağa yatağı idi. Lakin Bağırov-Vəzirov münasibətləri mürəkkəbləşməyə başlamışdı. Bağırov heç bir səbəb göstərmədən onu vəzifədən azad edir və sonda ***"mən öz düşmənlərimə Bakını tərk etməyə 48 saat vaxt verirəm, sənin kimi simpatiyam olanlara isə 24 saat"*** məcazi ifadəsini işlətmişdi.

Süleyman Vəzirovu Bakıdan Moskvaya yola salmağa demək olar ki, bütün neftçil ər gəlmişdi. 1946-cı ildə Sü 1 eyman Vəzirov SSRİ Nazirlər Sovetinin təsdiqi ilə ölkənin Cənub və Qərb rayonlarında neft hasilatı üzrə Baş İdarənin rəisi vəzifəsinə təyin edilir.

Bu təyinatdan sonra SSRİ-nin neft yataqlarının yarısı-Qroznı, Kuban, Ukrayna onun fəaliyyət dairəsinə daxil oldu. SSRİ-nin neft sənayesinin məhz bu hissəsi müharibə zamanı tam dağıdılmışdı. S.Vəzirovun başçılığı və bilavasitə iştirakı ilə çox qısa müddətdə mədənlər bir-birinin ardınca bərpa edildi, yataqların işlənilməsi davam etdirilməyə başladı.

XX əsrin 40-cı illərində geoloqlar Türkmənistanda Qumdağ yatağını kəşf etmişdilər. Neft sahəsinə nəzarət edən Beriya Nikolay Konstantinoviç Baybakova yeni yatağın işlənilməyə daxil edilməsini tapşırmışdı və çox ciddi nəzarətdə saxlayırdı.

Nikolay Baybakov təşkilatçılıq bacarığına və neft sənayesindəki təcrübəsinə bələd olduğu Süleyman Vəzirova Qumdağ yatağının

mənimsənilməsini tapşırır. 1949-cu ilin mart ayında şəxsən Stalinin imzaladığı əmrə əsasən Süleyman Vəzirov "Turkmənneft" Birliyinin rəisi təyin edilir.

Qumdağ sahəsi qum barxanları arasında yerləşmişdi və yatağın işlənilməsi üçün burda nə infrastruktur, nə də yol var idi. Vəzirov, birinci növbədə, Qumdağa Nebitdağdan yolun çəkilməsindən başlayaraq su, elektrik təchizatını təmin etməklə işçilər üçün yaşayış məntəqəsinin tikintisini həyata keçirdi. İnanmaq çətindir, lakin 1949-cu ilin sonuna Qumdağ sahəsində qazma işlərinə başlandı. Onu da qeyd edək ki, burda qazma işləri müharibə vaxtı köçürülmüş "Əzizbəyovneft" qazma kontorunun işçiləri tərəfindən aparılırdı. Onun insani keyfiyyətləri işin ağırlığından, yaşayış şəraitindən və eləcə də idarəetmə sistemindən asılı olmayaraq həmişə özünü ən yüksək şəkildə göstərirdi.

Vəzirov Türkmənistana təyin olunduğu ilk günlərdə eşidir ki, Nebitdağ düşərgəsində azərbaycanlı keçmiş neftçi siyasi dustaqlar saxlanılır. O, ixtisaslı kadrların çatışmazlığını səbəb gətirərək onları azad etdirməyə başlayır. Nəhayət, onların ailələri ilə birlikdə Nebitdağda yaşamasına icazə alır. O vaxtlar "xalq düşməni" damğası vurulan adamların müdafiəsinə qalxmağın nə qədər təhlükəli olmasını bilən adamlar Vəzirovun bu hərəkətinə qiymət verə bilərlər.

Söz yox ki, qazılan birinci quyunu hamı intizarla gözləyirdi, xüsusilə də, Nikolay Baybakov. Növbəti zənglərdən birində Türkmənistanda quyunun böyük hasilatla fontan vurması xəbəri gəldi. Nebitdağ şəhəri uzun müddət "Türkmənneft" Birliyinin balansında olduğundan Süleyman Vəzirov bu şəhərin meri sayılırdı və onun yaradıcısı hesab edilməyə tam haqqı var.

Qumdağ yatağının kəşf edilməsinə və mənimsənilməsinə görə Süleyman Vəzirov SSRİ Dövlət mükafatına layiq görüldü. Bu dövr ərzində-onun işlədiyi dörd il yarımda "Türkmənneft" Birliyinin neft hasilatı iki dəfə artdı. 1953-cü ilin yayında Beriya-Bagirov dövrü sona yetdi.

Respublika hökumətinin zəmanəti ilə SSRİ Nazirlər Soveti 1954-cü ildə Azərbaycan SSR Neft Sənayesi Nazirliyini yaratdı.

Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi İmam Daşdəmir oğlu Mustafayev onu yenidən respublikaya dəvət etdi və 1954-cü ildə Azərbaycanın birinci neft sənayesi naziri Süleyman Vəzirov oldu.

Vətənə geri qayıdan S.Vəzirov işinə Azərbaycanda kəşfiyyat işlərinin genişləndirilməsindən başladı. O həm quruda, həm də dənizdə kəşfiyyat işlərinin həcmini artırdı. Çox qısa bir zamanda quruda Qaradağ, Kürovdağ, Mişovdağ, Zirə, Qalmaz və dənizdə Qum adası və Palçıq pilpiləsi yataqları kəşf edildi. İş yalnız yeni yataqların açılmasında və onların abadlaşdırılmasıda deyildi. Süleyman Vəzirov neft sənayesinin inkişafı üçün prinsip etibarı ilə yeni proqram təklif etdi.

Süleyman Vəzirov 1958-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifəsinə irəli çəkilir, 1959-cu ildə isə Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri təyin edilir. Bu vəzifədə o, bir çox problemlərlə, ən əsası isə kimya sənayesinin yaradılması problemi ilə qarşılaşdı.

Sumqayıt şəhərinin salınması, burda zavod və fabriklərin tikintisi, orda çalışan əhalinin yaşayış və məişət tələblərinin təmin edilməsi və bu kimi müxtəlif məsələlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi lazım gəlirdi.

Tutduğu vəzifə ilə əlaqədar Süleyman Vəzirov respublikada həyata keçirilən bütün işlərlə məşğul olmasına baxmayaraq, o heç bir zaman özünün neftçi olduğunu və neftçiləri unutmurdu. Neft sənayesi ilə bağlı işlərdə, problem məsələlərin həllində bilavasitə iştirak edirdi. Süleyman Vəzirov neft sənayesinin ayrı-ayrı sahələrini – geologiya, qazma, neft yataqlarının işlənilməsi və ya neft işinin digər sahələrini həmin sahələrin mütəxəssislərindən daha yaxşı bilirdi.

Nikolay Baybakovun sözləri ilə desək, keçmiş Sovet İttifaqında Vəzirov bir nömrəli neftçi idi. SSRİ-nin neft sənayesində onu tanımayan yox idi. O, SSRİ-nin neft sənayesi naziri olanda həmişə təkrar edərdi ki, bura Süleyman Vəzirovun yeri dir.

İstər Azərbaycanda, istərsə Türkmənistanda və Moskvada işləyərkən o özünün fenomenal qabiliyyətinə və çox səmərəli

fəaliyyətinə görə həmişə birincilər sırasında olmuş, başçılıq etdiyi kollektivin mənafeyini qorumuş, işçilərə atalıq və müəllimlik etmişdir. Süleyman Vəzirovun əziz xatirəsi onu tanıyanların ürəyində həmişə əziz olaraq qalacaq, keçdiyi şərəfli əmək yolu isə gələcək nəsillərə örnək olacaq.

Neft və qaz kəmərlərinin sualtı hissəsinin çəkilişində istifadə olunan borudüzən gəmilərdən biri Süleyman Vəzirovun adını daşıyır.



***Səttar Əsədov,***
***akademik***

Səttar Məcid oğlu Əsədov 1910-cu il mart ayının 15-də Şuşada dünyaya gəlib.

İxtisasca zooloq-parazitoloq, biologiya elmləri doktoru(1961), professor (1969), Azərbaycan SSR Elmlər Akademiyasının akademiki idi.

O, Şuşada pedaqoji təmayüllü II dərəcəli məktəbi bitirdikdən sonra (1929) respublikanın bir sıra kəndlərində müəllim, kolxozçu-gənclər məktəbinin direktoru, Kəlbəcər rayon Xalq Maarif Şöbəsində inspektor, metodist müəllim işləmişdir (1929-1934). S. M. Kirov adına Azərbaycan Dövlət Universitetində oxuyarkən (1934-1939) zoologiya kafedrasında əvvəlcə kiçik, sonra baş laborant vəzifəsində çalışmış, eyni zamanda, orta məktəblərdə dərs demişdir. Ali təhsilini əla dərəcəli diplomla başa vurandan sonra həmin kafedrada saxlanılmış, assistent və baş müəllim olmuşdur.

Elmi fəaliyyətə hələ tələbə ikən başlayan Səttar Əsədov SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı olan Zoologiya İnstitutunun helmintologiya ixtisası üzrə aspiranturasına daxil olmuş (1940), professor P.P.Popovun rəhbərliyi ilə neştərə oxşar

itibığlının-kövşəyən heyvanların dikroseliozunun törədici mikroblarının biologiyasını öyrənməyə başlamışdır.

Böyük Vətən müharibəsinin ilk illərindən cəbhəyə gedən gənc aspirant ordudan qayıdandan sonra (1943) elmi tədqiqatlarını başa çatdıraraq namizədlik dissertasiyasını müdafiə etmiş (1945) və Azərbaycan SSR Elmlər Akademiyası Zoologiya İnstitutunun helmintologiya laboratoriyasının rəhbəri təyin edilmişdir. Akademik Konstantin İvanoviçlə şəxsi tanışlığı gənc alimin helmintologiya sahəsində elmi-tədqiqat fəaliyyətinin gələcək inkişafını müəyyənləşdirmiş, 1946-cı ildən gövşəyən vəhşi və ev heyvanlarının helmintofaynasının öyrənilməsi ilə məşğul olmuşdur. O, ilk dəfə olaraq Qafqaz maralının, Avropa cüyürünün, Qafqaz dağ keçisinin, Dağıstan dağ keçisinin, birhorgüclü və ikihorgüclü dəvələrin helmintofaynasının növ tərkibini müəyyənləşdirmiş, başqa ev heyvanlarının-qoyunun, keçinin, iribuynuzlu mal-qaranın, camışın və zebunun helmintofaynası haqqında məlumatları xeyli artırmışdır. Səttar Əsədov yumru qurdların on bir yeni növünü təsvir etmiş, Ümumittifaq Helmintologiya Muzeyində trixonstrongilidin məlun növlərinin morfologiyası və təsnifatının araşdırılması zamanı isə Buryatiya-Monqolustandan olan qoyunlardan bir növünü başqa cinsin təzə növü kimi təsvir etmişdır.

1954-cü ildə Səttar Əsədov SSRİ Elmlər Akademiyasının helmintologiya laboratoriyasına ezam olunmuş, üç il burada işləyəndən sonra Bakıya qayıdaraq (1957) gələcəkdə helmintologiya elminə böyük töhfə verən və landşaft-ekoloji helmintologiyanın inkişafı kimi qiymətləndirilən “SSRİ-nin gövşəyən ev heyvanların helmintofaynası” adlı monoqrafiya üzərində işləməyə başlamışdır. Bu elmi əsər SSRİ Elmlər Akademiyası helmintologiya laboratoriyasının Azərbaycan SSR Elmlər Akademiyası Zoologiya İnstitutunun birgə nəşri kimi çap olunmuşdur.

Kitabda müəllif maraqlı nəzəri ümumiləşmələr apararaq yeni nəticələrə gəlmiş, ətraf mühitin helmintləri və amilləri arasında qarşılıqlı əlaqələrin öyrənilməsi əsasında ölkənin müxtəlif iqlim-ekoloji zonalarında helminotofaynisitika komplekslərinin

formalaşmasına təsir göstərən bir sıra qanunauyğunluqları müəyyənləşdirmiş, coğrafi və ekoloji helmintologiya haqqında akademik K.U. Skryabinin təlimini inkişaf etdirərək yerli və təbii ağacların helmintlərinin və onların qarşılıqlı əlaqələrinin genişlənməsində yerli ağacların təvsirini vermiş, eyni zamanda müəyyən landşaft-ekoloji zonalar və sahələr üçün helmintlərin xüsusiyyətlərini göstərmişdir.

Səttar Əsədov gövşəyən heyvanların helmintoloji faunistika kompleksinin formalaşmasının öyrənilməsi üzrə ilk dəfə olaraq Azərbaycanı üç ekoloji-helmintoloji zonaya ayırmışdır: aşağı, dağətəyi və dağlıq zonalara. Sonralar isə rəhbərlik etdiyi laboratoriyanın və onunla əməkdaşlıq edən bir çox helmintoloqların gələcək tədqiqatları sayəsində görkəmli alimin on bir yarımzonaya böldüyü Azərbaycan ərazisininin ekoloji-helmintoloji rayonlaşdırılması mümkün olmuşdur ki, bu da respublikanın heyvandarlıq rayonlarında və təsərrufatlarında helmintoza qarşı tədbirləri daha dəqiq planlaşdırmağa və daha səmərəli həyata keçirməyə imkan verir.

Səttar Əsədovun əsas tədqiqatı parazitologiyanın mühüm nəzəri məsələlərinə, ərazilərə və landşafta görə parazitlərin spesifikliyinə, onların təbii və məhəlli ocaqlarına həsr edilmişdir. Akademik Azərbaycanın ərazisini ekoloji-helmintoloji rayonlara ayırmış və bu məqsədlə xəritələr tətbiq etmişdir. İşlədiyi institutda onun fəal köməyi və iştirakı ilə yeni struktur vahidləri, protistologiya laboratoriyası, Mingəçevir nümunə bazası yaradılmış, Xəzər dənizində bioloji stansiyanın təşkili barədə məsələ qaldırılmış, birhüceyrəli faunanın az öyrənilmiş qruplarını, bir sıra xərçəngkimilərin, gənələrin, həşəratların (qansoran yarasaların, entamafoqların və s.), yerüstü malyüslərın və sair öyrənilməsi üzrə tədqiqatlar genişləndirilmişdir.

Akademik Səttar Əsədov Çexoslovakiya parazitoloqlarının birinci qurultayının iştirakçısı olmuş və "Azərbaycan SSR-də ekolojı zonalar üzrə gövşəyən heyvanların helmintlərinin təsnifati" mövzusunda çıxış etmişdir (1957). Respublikada zooloji, o cümlədən, helmintoloji tədqiqatların inkişafı üçün geniş və səmərəli

elmi, təşkilati iş aparan (1947-1960) yorulmaz alimin müəllifliyi və məsul redaktorluğu ilə “Azərbaycanın heyvanlar aləmi” adlı əsaslı məlumat və “Azərbaycanda kənd təsərrüfatı bitkilərinin ziyanvericiləri və onlarla mübarizə tədbirləri” kitabı nəşr olunmuş, “Azərbaycanın faunası” ümumi başlığı ilə on cildlik nəşrin planı işlənib hazırlanmış, onurğalı heyvanların zoologiyası üzrə ali tədris müəssisələri üçün dərsliyi rus dilindən (Y. A. Əbdürrəhmanovla birlikdə) tərcümə etmiş (1940), zoologiya üzrə 6-7-ci siniflər üçün dərslik tərtib etmiş, rusca-azərbaycanca terminologiya lüğətini çap etdirmiş (1961), bütün SSRİ-də ensiklopedik xarakter daşıyan, zooloji adları və terminləri əhatə edən göstəricilərlə və cədvəllərlə birlikdə “Zoologiya soraq kitabçası” hazırlamışdır. O, həm də “SSRİ-nin gövşəyən ev heyvanlarının helmintofaynası və onun ekoloji-coğrafi təhlili” (1960) və iki elmi populyar broşuranın müəllifidir.

Səttar Əsədov Azərbaycan SSR Elmlər Akademiyası Zoologiya İnstitutunda direktor müavini (1948-1950), direktor (1950-1960), ekoloji parazitologiya laboratoriyasının rəhbəri (1960-1974) Zoologiya İnstitutu elmi şurasının, Azərbaycan Helmintoloqlar Cəmiyyətinin sədri (1948-1974), Azərbaycan SSR Elmlər Akademiyası biologiya şöbəsi, S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti biologiya fakültəsinin elmi şuralarının, zoologiya problemi üzrə Azərbaycan SSR Elmlər Akademiyası əlaqələndirmə şurasının, Azərbaycan SSR Elmlər Akademiyası yanında Terminologiya Komitəsinin, Azərbaycan SSR Elmlər Akademiyası yanında Təbiəti Mühafizə üzrə komissiyanın, Azərbaycan Sovet Ensiklopediyası redaksiyasında biologiya üzrə elmi şuranın, Zaqafqaziya Respublikalarının fauna komissiyasının, Ümümittifaq Helmintoloqlar Cəmiyyəti Mərkəzi Şurasının üzvü olmuşdur. O, uzun illər respublika “Bilik” cəmiyyətinin biologiya bölməsinə rəhbərlik etmiş, Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin fauna bölməsinin sədri, Azərbaycan Helmintoloqlar Cəmiyyətinin sədri, S.M.Kirov adma Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsi həmkarlar təşkilatının sədri, Zoologiya İnstitutunun yerli komitəsinin sədri, institut partiya təşkilatı bürosunun üzvü idi.

Akademik Azərbaycan SSR Elmlər Akademiyası partiya komitəsinin tərkibinə seçilmiş, büro üzvü, 26 Bakı komissarı rayon partiya konfransının nümayəndəsi olmuşdur. O, "Şərəf nişanı" ordeni, "Böyük Vətən müharıbəsində şərəfli əməyə görə", " Şərəfli əməyə görə", "Lenin" yubiley medalları ilə təltif edilmişdir.

Akademik Səttar Məcid oğlu Əsədov 1974-cü il fevral ayının 11-də vəfat etmiş və Bakıda dəfn olunmuşdur.



***Sürəyya Qacar, müğənni***

Sürəyya Qacar 1910-cu il may ayının 4-də Şuşada anadan olmuşdur.

O, opera müğənnisi (metso soprano) kimi fəaliyyət göstərmişdir. 1927-ci ildə Bakı Pedaqojı Texnikumunu bitirmişdir. Səhnə fəaliyyətinə həmin il məşhur opera artisti Hüseynqulu Sarabskinin dəvəti

ilə M.F.Axundov adına Azərbaycan Dövl ət Opera və Balet Teatrında başlamışdır (1927-1939).

Burda o, Üzeyir bəy Hacıbəylinin “Leyli və Məcnun” (Leyli), “Əsli və Kərəm” (Əsli), “O olmasın, bu olsun” (Gülnaz), “Arşın mal alan” (Asya), Zülfuqar Hacıbəyovun “Aşıq Qərib” (Şahsənəm) opera və operettalarında çıxış etmişdir. Azərbaycan səhnəsində Leylini (“Leyli və Məcnun”) oynayan ilk azərbaycanlı qadınlardandır. 1940-cı ildən M. Magomayev adına Azərbaycan Dövlət Filarmoniyasında solist (fasilələrlə), 1968-ci ildən vokal üzrə məsləhətçi müəllim idi. Böyük Vətən müharibəsi illərində İranda işləmişdir. 1954-cü ildə Azərbaycan SSR-in və Ermənistan SSR-in xalq artisti adını almışdır. 1946-1957-ci illərdə Ermənistan Dövlət Filarmoniyasının solisti olmuş, sonra yenidən Bakıya qayıdaraq filarmoniyada fəaliyyətini davam etdirmişdir.

Sürəyya Qacarın repertuarında Azərbaycan xalq mahnıları, muğamlar, eləcə də dünya xalqlarının və bəstəkarlarının mahnıları əsas yer tutmuşdur. Sovet İttifaqının bir çox şəhərlərində və İranda qastrol səfərlərində olmuşdur. O, “Şərəf nişanı” ordeni və medallarla təltif edilmişdir.




***Ənvər Tutayuq,***
***müəllim, repressiya qurbanı.***

1910-cu ildə anadan olub. 1925-ci ildə orta məktəbi bitirdikdən sonra pedaqoji fəaliyyətə başlayıb. Bir müddət Şuşadakı “Nərimaniyyə” məktəbində dərs deyib.

1937-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olub. Lakin həmin vaxt həyat yoldaşı, Şuşa

Pedaqoji Texnikumunun müəllimi Əyyub Hacıyev müsavatçı kimi həbs edilib. Onu əksinqilabçılıqda, antisovet təbliğat aparmaqda təqsirləndiriblər.

Ərinin antisovet təşkilatının üzvü olduğu barədə çıxarılan hökmə görə Ənvər xanımı da xalq düşməninin arvadı kimi həbs edərək Bayıl həbsxanasına göndəriblər. 1938-ci ilin aprelində Ənvər xanıma səkkiz il iş kəsilib və cəzasını çəkmək üçün Mordova Muxtar Sovet Sosialist Respublikasının Temnikov şəhər islah-əmək düşərgəsinə göndərilib. Ənvər Tutayuq tutulan vaxt hamilə olduğundan sürgün yerinə çatmazdan əvvəl-1938-ci ilin may ayında Moskva vilayəti Potma rayonunun Yava qəsəbəsindəki 15 nömrəli həbs düşərgəsində saxlanılıb. Burda onun oğlu dünyaya gəlib. Lakin zalımlar iki aylıq körpəni onun əlindən alaraq uşaq evinə, özünü də sürgünə göndəriblər.

Başına gələn bu haqsızlığa və zülmə dözə bilməyən Ənvər Tutayuq 28 yaşında həbsxanada geniş ürək infarktı keçirərək vəfat edib.



***Əsəd bəy Rüstəmbəyov, mühəndis, alim.***

Əsəd bəy Fətull a bəy oğlu Rüstəmbəyov 1911-ci il sentyabrın 2-də Şuşada anadan olmuşdur. Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir (indiki Azərbaycan Respublikası Dövlət Neft Sənaye Universiteti). Ə.Rüstəmbəyov dərin və çox dərin qazımanm texnologiya məsələlərinə dair tədqiqat işləri aparmışdır.

Azərbaycanda, Başqırdıstanda yüksək məhsuldar yeni yataqların kəşfində və işə salınmasında fəal iştirak etmişdir.

Texnika elmləri namizədi (1972), Azərbaycan SSR-nin əməkdar mühəndisi (1960), SSRİ-nin fəxri neftçisi (1971) adlarını almışdır.

Əsəd bəy Rüstəmbəyov Qazaxıstan, Özbəkistan, Qırğızıstan, həmçinin Azərbaycan rayonlarının mütəxəssislərinə yeni texnika və texnologiya tətbiqi işində kömək göstərmişdir. Bir sıra elmi əsər və ixtiranın müəlifidir. 8 orden və medallarla təltif olunmuşdur.

Əsəd bəy Rüstəmbəyov 1982-ci il oktyabrın 17-də Bakıda vəfat etmişdir.

***Ənvər Həsənov, neftçi-mühəndis***



Ənvər Xanlar oğlu Həsənov 1912-ci il aprel ayının 12-də Şuşada anadan olmuşdur. Repressiya ilə əlaqədər olaraq onun Şirinbəyov soyadı Həsənov soyadına dəyişdirilmişdir. O, M. Əzizbəyov adına Azərbaycan Sənaye İnstitunun dağ-mədən fakultəsini bitirmişdir (1935). Əmək fəaliyyətinə Bakıdakı V. İ. Lenin adma toxuculuq fabrikində anbardar vəzifəsində başlamış (1927-1929), sonra Azərbaycan radiosunda diktor və baş redaktor vəzifələrində çalışmışdır (1929-1933). Hərbi xidmətdən sonra Orconikidze neft trestində mühəndis, baş mühəndis, şöbə müdiri və müdir vəzifələrində işləmişdir.

Böyük Vətən müharibəsi (1941-1945) başlananda ordu sıralarına çağırılmış, Şimali Qafqazın və Krım yarımadasının faşistlərdən azad olunması uğrunda döyüşlərdə iştirak etmişdir. 1942-ci ilin yazında ağır yaralanaraq əsir düşmüş, Ukraynanın Mariupol, Melitopol, Polşanın Kelts və Almaniyanın Berlin şəhərlərində əsirlik həyatı yaşamışdır. Almaniyanın paxtaxtında fəaliyyət göstərən Azərbaycan Milli Komitəsinin üzvü olmuşdur. 1945-ci ildə əsirlikdən qaçmış, sovet əsgərlərinə qoşularaq faşizmə qarşı

mübarizəsini davam etdirmişdir. Qələbədən sonra Bakıya qayıdan gənc zabit həbs olunaraq 10 illik həbs cəzasına məhkum edilmişdir. Vorkuta şəhərində cəzasını çəkəndən sonra Bakıya qayıtmış, neft trestlərinin birində çalışmışdır.

Ənvər Şirinbəyov-Həsənov "Qırmızı ulduz" ordeni, "Varşava uğrunda", "Berlin uğrunda", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilmişdir. Mehdi Hüseyn "Yeraltı çaylar dənizə axır" və Süleyman Vəliyev "Düyünlər" romanlarında onun bədii obrazını yaratmışlar.

Ənvər Şirinbəyov-Həsənov 1993-cü ildə Bakıda rəhmətə getmişdir.

***Şamil Əliyev, tarixçi, şərqşünas-alim.***



Şamil Əliyev 1912-ci ilin dekabrında Şuşada anadan olub. Əvvəlcə Şuşa şəhərindəki I dərəcəli məktəbdə oxuyub, sonra təhsilini müəllimlər seminariyasında davam etdirib.

Ali təhsil almaq məqsədilə Bakıya gələn Şamil Əliyev 1928-1931-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix və eyni vaxtda şərqşünaslıq fakültələrində oxuyub.

İnstitutu bitirdikdən sonra Ağdam Pedaqoji Texnikumuna müəllim kimi göndərilən Şamil Əliyev bir neçə il burda fəaliyyət göstərib.

Elmə olan marağı onu yenidən paytaxta gətirib. Aspiranturada təhsil alan Şamil Əliyev 1936-cı ildə ipəkçi 1 ik üzrə namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi alıb. Akademik Fuad Qasımzadə yazırdı: ***"'Şamil Əliyev respublikamızda namizədlik dərəcəsi almış ilk alimlərimizdən idi. Ozü də 24 yaşında***

1939-cu ildə Azərbaycan hökumətinin qərarı ilə Şamil Əliyev Moskvaya ali partiya məktəbində oxumağa göndərilib. 1941-ci ildə həmin məktəbi bitirən Şamil Əliyev bir müddət Ümumittifaq Radio Komitəsində Yaxın və Orta Şərq ölkələri üçün verilişlər şöbəsinə başçılıq edib. Hərtərəfli və geniş biliyə malik Şamil Əliyevin əsas tədqiqat sahəsi siyasi iqtisad olsa da, onun başqa elmlərə də marağı var idi. Təkcə fəlsəfəyə həsr etdiyi əsərlərinin sayı 50-ni ötmüşdü. Digər tərəfdən tərcümə ilə də məşğul olurdu.

Böyük Vətən müharibəsinin qəflətən başlanması ilə əlaqədar Şamil Əliyev Azərbaycana dönməli olub. Elə həmin ilin payızında 29 yaşlı gənc alim Azərbaycan Dövlət Universitetinin rektoru təyin edilib. Belə ağır bir şəraitdə Şamil Əliyevin təşkilatçılıq qabiliyyəti Azərbaycan Dövlət Universitetinin üzərinə düşən məsuliyyətli işin öhdəsindən şərəflə gəlməsinə imkan yaratdı. Şamil Əliyev xatirələrində deyirdi: ***"'Müharibənin ilk günlərindən dövrün tələblərinə uyğun universitetin elmi və tədris işlərinin yenidən qurulması üçün təcili tədbirlər həyata keçirdik. Müharibə başlanandan yaranmış ağır şərait: ali məktəb müəllimlərinin çox hissəsinin cəbhəyə getməsi, maddi və maliyyə imkanlarının məhdudlaşması və s. respublikanın bir sıra ali məktəblərini müvəqqəti olaraq universitetin tərkibinə birləşdirmək zəruriyyətini yaratmışdır. Biz bütün fəaliyyətimiz boyu müdafiə və bədən tərbiyəsi işinə xüsusi diqqət yetirirdik. Bu illərdə tam qüvvə ilə işləmək üçün xüsusi dərnək və aksiyalar təşkil edirdik: snayper, atıcılıq, pulemyotların təmiri, süngü döyüşü, qumbara atıcılığı üzrə və yanğınsöndürmə, özünümüdafiə qurumlarının işi təşkil olunurdu. Müharibə şəraitində işimiz də onun tələblərinə uyğun getməli idi. Mühazirə planlarında da müharibə ilə əlaqədar mövzuların sayı artırılmışdı. Müharibə şəraiti üçün işlənmiş planda 21, hərbi müdafiə əhəmiyyətli 14 mövzu müəyyənləşdirdik***

***ki, bunlar da kompleks xarakter daşıyırdı. Uzun müddət nəzərdə tutulmuş müdafiə və elmi təsərrüfat əhəmiyyətli mövzular yenidən qurulurdu. Tələbələrdə vətənpərvərlik, beynəlmiləlçilik hisslərini daha da gücləndirmək üçün pedaqoji, tarix və ədəbiyyat fakültələri öz iş planlarına müvafiq mövzular daxil etmişdilər. ”***

Müharibə illərində Şamil Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunda siyasi iqtisad fənnindən dərs deyib. Professor Hidayət Cəfərov yazırdı: ***“Müharibənin ağır illərində beş müxtəlif istiqamətli ali məktəbi öz tərkibində birləşdirmiş Azərbaycan Dövlət Universitetinə rəhbərlik etmək asan iş deyildi. Nəzərə almaq lazımdır ki, Şamil Əliyev həmin dövrdə çox gənc idi. Belə məsul vəzifəni aparmaq ondan son dərəcə ciddi məsuliyyət, bilik və bacarıq tələb edirdi. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, Şamil Əliyev rektor vəzifəsinə təsadüfən seçilməyib. Müxtəlif istiqamətlər üzrə yüksək ixtisaslı kadrlar hazırlanması ilə yanaşı, həmin illərdə universitetin laboratoriyalarında döyüşən ordunun tələblərinə uyğun elmi-tədqiqat işləri aparılır, dəyərli elmi-praktik nailiyyətlər əldə edilirdi”.***

O, 1944-cü ilin sonuna qədər bu ali təhsil müəssisəsinin rektoru vəzifəsində çalışıb. 1943-cü ildən 1953-cü ilə qədər də Azərbaycan Sənaye İnstitutunda siyasi iqtisad kafedrasının müdiri olub. 1945-1947-ci illərdə AK(b)P Bakı Komitəsində təbliğat və təşviqat şöbəsinin müdir müavini və müdiri vəzifələrində çalışan Şamil Əliyev eyni zamanda “Təbliğatçı” jurnalının baş redaktoru idi.

1955-ci ildə Şamil Əliyev Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna rektor təyin olunub. Bununla bərabər, 1959-cu ildən ömrünün sonunadək Azərbaycan Dövlət Universitetinin siyasi iqtisad kafedrasının dosenti kimi pedaqoji fəaliyyətini davam etdirib. Müxtəlif məsul vəzifələrdə işləməklə yanaşı, elmi-tədqiqat işləri ilə məşğul olan Şamil Əliyev siyasi iqtisad elminin nəzəri problemlərinin tədqiqi ilə bağlı maraqlı araşdırmalar aparıb. Quruluşun tələbinə görə bir sıra siyasi xadimlərin əsərlərinin Azərbaycan dilinə tərcüməçisi olub. Azərbaycanda siyasi iqtisad fənninin formalaşmasında, eyni zamanda onun bir elm sahəsi kimi təşəkkül tapması və inkişafında Şamil Əliyevin böyük xidmətləri

var. Keçmiş ittifaq miqyasında seçilən və əməyi yüksək qiymətləndirilən mütəxəssislərdən sayılan Şamil Əliyev müharibədən sonrakı illərdə bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, müxtəlif orden və medallarla təltif olunmuşdur.

Şamil Əliyev 1969-cu ildə 57 yaşında dünyasını dəyişmişdir.

***Ənvər Behbudov,***
***rejissor***



Ənvər Məcid oğlu Behbudov 1912-ci il mart m 20-də Şu ş a şəhərində anadan olmuşdur.

Ümumittifaq Dövlət Teatr Sənəti İnstitutunun rejissorluq fakültəsini bitirmiş (1942), Ulyanovsk (1944-1946), Xabarovsk (19461948), Novosibirsk (1948-1954) teatrlarında rejissor və bədii rəhbər olmuşdur. V. Kaçalov adma Böyük Dram Teatrında (Kazan,
1954-1959) və M.Qorki adma Dram Teatrında (Rostov, 19591964) baş rejissor işləmişdir. “Tüfəngli adam” (N.Poqodin), “Oyanmış torpaq” (M.Şoloxov), “Ölü canlar” (N.Qoqol), “Məhəbbət haqqında 104 səhifə” (E. Radzinski) və s. tamaşaların quruluşunu vermişdir.

1966-cı ildən Azərbaycan Opera və Balet Teatrında baş rejissor işləmiş, “Koroğlu” operasını tamaşaya qoymuşdur.

1969-cu ildən Azərbaycan Rus Dram Teatrının baş rejissoru olmuşdur; Ə. Behbudov burda "Altı iyul" (1970, M.Şatrov), "Kənar adam" (1972, M.Dvoretski), "Öz yolunla" (1973, R.İbrahimbəyov), "Sən yanmasan" (1974, N.Xəzri), "Ötən yay Çulimskdə" (1975, A.Vampilov), "Bir iflasın protokolu" (1976, A.Gelman) və s. əsərləri tamaşaya qoymuşdur.

Ənvər Behbudov Qırmızı Əmək Bayrağı və "Şərəf nişanı" ordenləri, həmçinin medallarla təltif edilmişdir.



***Niyazi Hacıbəyov, dirijor, bəstəkar.***

Niyazi Zülfüqar oğlu Hacıbəyov-Tağızadə 1912-ci il avqustun 20-də Tift is şəhərində dövrünün tanınmış bəstəkarı Zülfüqar Hacıbəyovun ailəsində anadan olmuşdur. Əslən şuşalıdır. O, uşaqlıq illərində ilk təhsilini Bakı Musiqi Texnikumunda alır, lakin sonra təhsilini davam etdirmək üçün Moskva və Leninqrad şəhərlərinə gedir.

"Xosrov və Şirin" operasının (1942), "Çitra" baletinin (1961), "Zaqatala süitası" (1934), "Qaytağı" (1939), "Konsert valsı" simfonik əsərlərinin, "Rast" simfonik müğammm (1949), "1920-ci ildə" opera-kantatasmm, simfonik orkestr üçün "Rəqs süitası"nm, hind yazıçısı Rabindranat Taqorun əsərləri əsasında yaratdığı "Çitra" baletinin (1962) və s. musiqi əsərlərinin müəllifidir. Niyazi Z. Hacıbəyovun "Aşıq Qərib", Ü. Hacıbəylinin "Arşın mal alan" və s. əsərlərin yeni redaksiyalarını hazırlamış, Azərbaycan xalq mahnılarını ("Xumar oldum", "Qaragilə", "Ay bəri bax", "Küçələrə su səpmişəm" və s.) simfonik orkestr üçün işləmiş, 1935-ci ildə "Rast" və "Şur" muğamlarını nota salmışdır.

Niyazi 1934-cü ildə “Zaqatala süitası”nı yazmış, 1944-cü ildə iki hissəli “Qəhrəmanlıq” simfoniyası üzərində işini bitirmişdir. Azərbaycan musiqisində ilk simfonik əsərlərin müəlliflərindən olan Niyazi milli simfonizmin təşəkkülü və inkişafında əhəmiyyətli rol oynamışdır. 1951-1952-ci illərdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru işləmiş Niyazi SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Azərbaycan milli dirijorluq məktəbinin formalaşması Niyazinin adı ilə bağ 1 ıdır. 1959-cu ildə SSRİ xalq artist i adına layiq görü 1 ən Niyazi 1961-ci ildə S. M. Kirov adına Leninqrad Opera və Balet Teatrının baş dirijoru təyin olunmuşdur. SSRİ-nin ən məşhur teatrlarından birinə rəhbərlik etmək o dövrdə onun bir musiqiçi kimi böyük nüfuzundan xəbər verirdi. İfaçılıq sənəti tanınmış sənətkarlar D. Şostakoviç. Ş. Q. Şarayev, K. Sekki, B. Tarcan, V. Dobiaş və b. tərəfindən yüksək qiymətləndirilən Niyazi vətənə qayıdaraq Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının bədii rəhbəri və baş dirijoru təyin edilmişdir. Niyazinin “Konsert valsı” və s. simfonik əsərləri, fortepiano ilə orkestr üçün konserti klassik musiqi əsərləri hesab olunur. O, “Təbrizim”, “Dağlar qızı”, “Vətən haqqında mahnı”, “Arzu” mahnılarının müəllifidir.

Niyazi Ə. Haqverdiyevin “Dağılan tifaq”, C. Cabbarlının “Almas”, S. Vurğunun “Vaqif”, A. Korneyçukun “Polad qartal” dram tamaşalarına, həmçinin “Almas”, “Kəndlilər”, “Fətəli xan” və s. kinofilmlərə yazılmış musiqilərin müəllifidir.

Niyazi 1984-cü il avqustun 2-də Bakı şəhərində vəfat etmişdir.

***Tahirə Tahirova,***
***ictimai xadim***



Əslən Şuşadan olan Tahirə Əkbər qızı Tahirova 1913-cü il noyabr ayının 7-də Rusiya Federasiyasının Zakaspiysk vilayətinin (indiki Türkmənistan) Mərv qəzasında, Bayraməli kəndində ziyalı ailəsində anadan olmuşdur. 1935-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirmiş və bununla da neft sənayesi üzrə ali təhsil alan ilk azərbaycanlı qadın-mütəxəssis olmuşdur.

Əmək fəaliyyətinə 1936-cı ildən elmi işçi kimi başlamış, daha sonra 1940-cı ildə Azərbaycan Neft Elmi-Tədqiqat İnstitutuna direktor təyin olunmuşdur.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində çalışdığı 1942-ci ildən etibarən II Dünya müharibəsi illərində cəbhənin fasiləsiz neft təchizatına cavabdeh idi. 1949-cu ildə isə partiya işindən Azərbaycan Sənaye İnstitutunun "Neft yataqlarının istismarı kafedrası"nda elmi-pedaqoji fəaliyyətinə qayıdaraq 1953-cü ildə texnika elmləri namizədi elmi dərəcəsini alıb. 1959-cu ildə SSRİ XİN-in Diplomatik Akademiyasını bitirmişdir.

1954-1957-ci illərdə Azərbaycan Həmkarlar İttifaqı Şurasının sədri, 1957-1959-cu illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Elm və Texnika Komitəsinin sədri, Azərbaycan SSR Nazirlər Soveti Dövlət Elmi-Tədqiqat İşlərini Əlaqələndirmə Komitəsinin sədri, 1959-1983-cü illərdə Azərbaycan SSR xarici işlər naziri və paralel olaraq 1963-1968-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini işləmişdir.

1968-ci ilədək olan dövrdə o, SSRİ-nin müttəfiq respublikalarında (BMT-də öz nümayəndəlikləri olan Ukrayna SSR və Belorusiya SSR istisna olmaqla) mövcud olmuş qaydaya əsasən xarici işlər naziri vəzifəsini digər vəzifələrlə yanaşı, icra etmişdi. Lakin T.Tahirovanın uğurlu səyləri nəticəsində Azərbaycan Ukrayna və Belorusiyadan sonra ilk müttəfiq respublika oldu ki, bu vəzifə digər nazir vəzifələri kimi ayrıca icra olunmağa başladı. O, 1968-ci ildə öz xahişi ilə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsindən azad olunaraq bütün gücünü diplomatik fəaliyyətə həsr etdi.

O, nazir işlədiyi müddətdə Azərbaycan diplomatlarının SSRİ-nin xarici ölkələrdəki səfirliklərində işləməsinə, diplomatik akademiyalarda oxumalarına diqqət yetirmişdir.

Bundan əlavə, o, Sovet hökuməti və parlament nümayəndə heyətlərinin üzvü kimi BMT Baş Assambleyasının iclaslarında iştirak edərək, eləcə də Azərbaycan SSR-ə səfər edən yüksək səviyyəli qonaqları qəbul edərək Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə çalışırdı. 1976-cı ildə Tahirə Tahirova diplomatik fəaliyyətdə xüsusi xidmətlərinə görə SSRİ Xarici İşlər Nazirliyinin təqdimatı ilə "Xalqlar dostluğu" ordeni ilə təltif olunmuşdur. SSRİ Ali Sovetinin 4-cü çağırış, Azərbaycan SSR Ali Sovet inin 3, 5 və 7-ci çağırışlarının deputatı olmuşdur. Türk, ingilis və rus dillərini bilirdi.

Tahirə Əkbər qızı Tahirova 1991-ci ilin oktyabr ayında dünyasını dəyişmişdir.

***Çingiz Hacıbəyov,***
***dirijor,mədəniyyət xadimi.***



1913-cü ildə Şuşada anadan olub. 1921-ci ildə Bakıda fəaliyyət göstərən türk musiqi məktəbində skripka sinfində təhsil alıb. Çingiz Hacıbəyov 1932-ci ilin noyabrından Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında skripkaçı kimi fəaliyyətə başlayıb. Müxtəlif vaxtlarda Azərbaycan Xalq Komissarları Soveti nəzdində Radio Komitəsinin simfonik orkestrində, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, Üzeyir Hacıbəyov adma Dövlət Simfonik Orkestrində işləyib. Həmçinin A. Zeynallı adma Bakı Musiqi Məktəbində pedaqoji fəaliyyətlə məşğul olub.

Çingiz Hacıbəyov 1931-ci ildən M.F.Axundov adma Azərbaycan Dövlət Opera və Balet Teatrının orkestrində Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin rəhbərliyi ilə skripkaçı kimi fəaliyyət göstərmişdir.

Çingiz Hacıbəyovun əsas fəaliyyəti Azərbaycan Musiqili Komediya Teatrı, Dövlət Radio və Televiziya Verilişləri Komitəsinin simfonik orkestri, Ü.Hacıbəyli adma Dövlət Simfonik Orkestri ilə bağl ı idi. 1938-1953-cü il 1 ərdə baş dirij or olmuşdur. 1953-cü ildən 1960-cı ilədək Azərbaycan Dövlər Radio və Televiziya Verilişləri Komitəsində baş dirijor, 1960-cı ildən ömrünün sonunadək Üzeyir Hacıbəyli adma Dövlət Simfonik Orkestrində dirijor vəzifəsində çalışmışdır.

Əməkdar incəsənət xadimi Çingiz Hacıbəyov 1971-ci il yanvarın 18-də Bakıda vəfat edib. Məzarı II Fəxri xiyabandadır.



***Bəbir Məmmədzadə,***
***şair***

Əslən şuşalı olan Bəbir Bəyməmməd oğlu Məmmədzadə 1914-cü ildə Bakı yaxınlığında Şağan kəndində xarrat ailəsində doğulmuşdur. İbtidai təhsilini kənddə almış, 1930-1931-ci tədris illərində M.Əzizbəyov adına Şuşa Pedaqoji Texnikumunda təhsilini davam etdirmişdir. Şuşa və Bakıda yeddiillik məktəbdə müəllim işləmişdir. 1935-ci ilin mayından Azərbaycan Dövlət Dram Teatrında aktyorluq etmişdir. Bədii yaradıcılığa 1928-ci ildən başlamış, ilk şerlərini “Kommunist”, “Ədəbiyyat qəzeti”, “Gənc işçi”, “Yeni yol” qəzetlərində, “Pioner” jurnalında çap etdirmişdir. Onun “Nizami”. “Göyərçin”, “Otto Şmidt”, “Puşkin”, “May səhəri”, “Şota Rustaveli”, “Şairin səsi”. “Sərhəddə” və s. şerləri ilə yanaşı, “Muğan”, “Mirzə Fətəli”, “May şərqisi”, “Rəhbərə səs veririk” birpərdəli mənzum dramları da rəğbətlə qarşılanmışdır. Bir müddət Azərbaycan Yazıçılar İttifaqında folklor bölməsinə rəhbərlik etmişdir. O, satirik şerlər, felyeton və hekayələr də yazmışdır.

Bəbir Bəyməmməd oğlu Məmmədzadə 1942-ci ildə vəfat etmişdir.



***Barat Şəkinskaya, kino aktrisası***

Barat Həbib qızı Şəkinskaya 1914-cü il iyun ayının 28-də Şuşada anadan olmuşdur. O, Gəncə Pedaqoji Məktəbini bitirdikdən sonra bir müddət Sərkar kəndində müəllim işləmişdir. Səhnə fəaliyyətinə hələ tələbə ikən Gəncə İşçi Klubunun dram dərnəyində başlayan gənc aktrisanın ilk debütü 1929-cu ildə rejissor Adil İsgəndərovun tamaşaya qoyduğu Cəlil Məmmədquluzadənin "Ölülər" pyesindəki Nazlı rolu olmuş və həmin vaxtdan o, həvəskarların bütün tamaşalarında iştirak etmişdir.

Gəncə Dram Teatrı təşkil edilərkən (1933) teatra işə dəvət olunan Barat Şəkinskaya Ağasadıq Gəraybəyli, Fatma Qədri, Ələsgər Ələkbərov kimi müqtədir sənətkarlarla birlikdə professional səhnədə çiyin-çiyinə çalışmış, əsasən, müasir repertuarda çıxış edərək bir sıra yaddaqalan obrazlar yaratmışdır. Pəricahan ("Laçın yuvası", S. S. Axundov), Süsən ("Namus", A. Şirvanzadə) obrazlarını böyük uğurla yaradan aktrisa az vaxt içərisində istedadlı və ümidverici bir sənətkar kimi tanınmışdı. Onun C.Cabbarlının əsərlərindəki çıxışları diqqəti daha çox cəlb edir. Barat Şəkinskaya həmin dövrdə Gültəkin ("Aydın"), Firəngiz ("Oqtay Eloğlu"), Gülüş ("Sevil"), Yaqut ("Yaşar") obrazlarının ən yaxşı ifaçıları sırasında dururdu. Ümumiyyətlə, aktrisanın səhnə sənətinin sirlərinin dərindən öyrənilməsində, kamilləşməsində və realizm ənənələrinə yiyələnməsində bu teatrın rolu böyük olmuşdur.

1936-cı ildə Barat Şəkinskaya Adil İsgəndərovun dəvəti ilə Bakıya M. Əzizbəyov adma Azərbaycan Dövlət Dram Teatrına dəyişildi. Burada onun üçün geniş yaradıcılıq imkanları açıldı. Bakı səhnəsində aktrisanın ilk rolu Aleksandr Korneyçukun "Polad qartal" əsərindəki Şəfiqə rolu oldu və bu obraz onu paytaxt

tamaşaçılarına daha çox sevdirdi. Sonralar Barat Şəkinskaya bir-birinin ardınca Azərbaycan və dünya klassiklərinin ən nadir inciləri hesab olunan əsərlərin gözəl və mürəkkəb xarakterli qadın obrazlarını böyük məharətlə canlandırdı. Ziba (“Lənkaran xanının vəziri”), Solmaz (“Od gəlini”), Gülüş (“Sevil”), Şirin (“Fərhad və Şirin”), Xuraman (“Vaqif”), Mehriban (“Xanlar”), Afaq (“Nizami”), Yeganə (“İldırım”), İntizar (“Vəfa”), Zeynəb (“Məhəbbətin hökmü”), Hürü (“Məhəbbət”), Səbahət (“Kor”), Əntiqə (“Əcəb işə düşdük”), Səadət (“Əliqulu evlənir”), Mənsurə (“Bağlı qapılar”), Aida (“Madrid”), Lyuba Şevtsova (“Gənc qvardiya”), Meriner (“Amerikanın səsi”), İruçinina (“Günahsız müqəssirlər”), Anna Markovna (“Zikovlar”), Donna Rezina (“Çarəsiz dələduz”), Jivka (“Nazirin xanımı”), Anuş (“Bahdasar dayı”), Cülyetta (“Romeo və Cülyetta”), Tiltil (“Göy quş”), Dezdemona (“Otello”), Lyuza (“Məkr və məhəbbət”), Kordeliya (“Kral Lir”), Florela (“Rəqs müəllimi”), Mirandolina (“Mehmanxana sahibəsi”), Viola (“On ikinci gecə”) və sair rollar onu kamil bir səhnə ustası kimi püxtələşdirmişdir. Ümumiyyətlə, aktrisanın bütün yaradıcılığı boyu repertuarı zəngin və rəngarəng olmuşdur. Həm müasir, həm də klassik əsərlərin tamaşalarında bacarıqla və məharətlə çıxış edən Barat Şəkinskaya bir sənətkar kimi öz yaradıcılıq imkanlarından və realist xadimlərin gözəl ənənələrindən həmişə yerli-yerində istifadə etmiş, temperamenti ilə fərqlənən obrazlarının daxili aləmini bütün incəlikləri ilə tamaşaçılara çatdıra bilmişdir. Aktrisanın yaradıcılığında diqqəti cəlb edən xüsusiyyətlərdən biri də müxtəlif səpkili rollarda eyni dərəcədə uğur qazana bilməsidir. Böyükluyündən-kiçikliyindən asılı olmayaraq Barat Şəkinskaya hər hansı bir rola ciddi yanaşmış, onu yaradıcı əməyin gözəl bəhrəsi kimi dolğun şəkildə yaratmış, mənalandırmağı bacarmışdır.

Barat Şəkinskaya lirik, dramatik rollarla yanaşı komik xarakterli surətlərin gözəl ifaçısı kimi tanınmışdır. Yetər (“Yağışdan çıxdıq, yağmura düşdük”), Zərifə (“Nişanlı qız”), Gülər (“Xoşbəxtlər”), Dilşad xanım (“Atayevlər ailəsində”) obrazlarını yüksək səviyyədə yarada bilmişdir.

Böyük Vətən müharibəsinin ilk günlərində Barat Şəkinskaya vətənpərvərlik və qəhrəmanlıq mövzularına həsr edilmiş tamaşalarda çıxış etmişdir. O, Nataşa ("İntiqam"), Nina ("Aslan yatağı"), Valya ("Bizim şəhərli oğlan") kimi müxtəlif xarakterli obrazların özunəməxsus təbiətini, xüsusiyyətlərini təbii boyalarla, real vəziyyətlərlə tamaşaçılara çatdırmışdır.

1943-cü ildə aktrisa yaradıcı kadrlara böyük ehtiyac hiss edilən doğma Gəncə Dövlət Dram Teatrına qayıtmış və iki il burda həm aktyor, həm də rejissor kimi fəaliyyət göstərmişdir. O, rus dramaturqu Lyubimovun "Partizan Kostya" əsərini Gəncə teatrında tamaşaya qoymuş və özü də Kostya rolunu uğurla oynamışdır.

Barat Şəkinskaya bir müddət Cəfər Cabbarlı adma "Azərbaycanfilm" kinostudiyasının kino aktyoru (1956-1960) və H.Ərəblinski adma Sumqayıt Dövlət Dram Teatrında (19701971) da çalışmışdır. İstedadlı aktrisanın yaradıcılığı teatr çərçivəsində qalmamışdır. O, "Görüş", "Telefonçu qız", "Qızmar günəş altında", "Kölgələr sürünür", "Fövqəladə hadisə", "Onun bəlalı sevgisi" və sair filmlərə çəkilmiş, radio və televiziya verilişlərində uğurla çıxış etmişdir. "O olmasın, bu olsun" filmindəki yaratdığı Sənəm rolu isə onu bacarıqlı və məharətli bir kino aktrisası kimi də məşhurlaşdırmışdır.

Barat Şəkinskaya "Şərəf nişanı" ordeni və bir sıra medallarla təltif olunmuşdur. O, 1940-cı ildə əməkdar artist, 1949-cu ildə isə Azərbaycan SSR xalq artisti adma layiq görülmüşdür.

Barat Şəkinskaya 1999-cu il yanvar ayının 14-də Bakıda vəfat etmiş və I Fəxri xiyabanda dəfn olunmuşdur.



***Validə Tutayuq, akademik.***

1914-cü ildə Şuşada doğulmuşdur. 1930-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Bağçılıq və bostançılıq fakültəsinə qəbul olunmuşdur. 1932-ci ildə institutda preparator vəzifəsinə qəbul edilən V.Tutayuq elə həmin vaxtdan etibarən axşam təhsili ilə yanaşı, əmək fəaliyyətinə başlamışdır.

1934-cü ildə aspiranturaya qəbul olunmuşdur. K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasına ezam edilmiş, sonralar doğma institutuna qayıtmışdır. 1939-cu ildən botanika kafedrasına başçılıq etmişdir. 1949-cu ildə doktorluq dissertasiyası müdafiə etmiş, 35 yaşında biologiya elmləri doktoru elmi dərəcəsini alan ilk azərbaycanlı qadın olmuşdur.

1957-ci ildə Azərbaycan SSR EA Botanika İnstitutuna direktor təyin olunmuşdur.

O, geniş profilli botanika və biologiya üzrə milli kadrların hazırlanması üçün Azərbaycan dilində ilk dərsliklərin müəllifidir. 1968-1972-ci illərdə V.Tutayuqun rəhbərliyi ilə Azərbaycanın qış və yay otlaqlarının geniş geobotaniki tədqiqi aparılmışdır.

V.Tutayuq 250-dən artıq elmi əsərin, o cümlədən, 10 dərsliyin, 9 monoqrafiyanın müəllifidir. 1939-1980-ci illərdə AKTİ-nin botanika kafedrasının müdiri, dekan, prorektor, Azərbaycan EA Botanika İnstitutunun anatomiya və morfologiya laboratoriyasının müdiri, direktoru vəzifələrində çalışmışdır. Elmi-tədqiqatı, əsasən, Azərbaycan dendroflorasının, çiçəyin teratologiyasının öyrənilməsinə həsr edilmişdir. AKP MK üzvü olmuşdur (1956-1960). Botaniklərin IX Beynəlxalq konqresində (Monreal, 1950) məruzə etmişdir. O, “Şərəf nişanı” ordeni (1943), “1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyə görə” medalı

(1945), SSRİ Ali Təhsil Nazirliyinin qərarı ilə “B.Miçurinin anadan olmasının 100 illiyi xatirəsi” yubiley medalı (1955), respublikanın xalq təsərrüfatı və mədəniyyətinin inkişafı sahəsindəki xidmətlərinə görə Fəxri fərmanla (1960) təltif edilmiş, “Əməkdar elm xadimi” adma (1974) layiq görülmüşdür.

***Cavanşir Məmmədov, kinooperator, kinorejissor.***



Məmmədov Cavanşir Musa oğlu 1915-ci il oktyabr ayının 17-də Şuşada anadan olmuşdur. O, xanəndə Musa Məmmədovun ailəsində doğulmuşdur.

C. Məmmədov Aşqabad Kino Texnikumunu bitirdikdən (1937) sonra sənədli-xronikal kinematoqrafiya sahəsində çalışmış, əvvəlcə Aşqabad kinostudiyasında operator assistenti işləmiş, müstəqil surətdə kiçik surətlər çəkməyə başlamışdır.

Böyük Vətən müharibəsinin ilk günlərindən Mərkəzi Sənədli Filmlər Studiyasının operator qrupunun tərkibində cəbhəyə yollanmış, 416-cı Azərbaycan atıcı Taqanroq diviziyasının döyüşçüləri ilə Avstriyaya qədər gedib-çıxmışdır. Operator-döyüşçü həyatını təhlükə qarşısında qoyaraq əsgərlərlə birlikdə hücuma keçir, od-alov içərisində müxtəlif hadisələri, maraqlı epizodları, ən çətin döyüş səhnələrini lentə köçürür, igid döyüşçülərin canlı surətlərini yaradaraq real hadisələr əsasında odlu illərin kino salnaməsinin yaradılmasında fəal iştirak edirdi. Döyüş meydanlarında əsl cəsurluq məktəbi keçən istedadlı operatorun müharibə səngərlərində lentə aldığı epizodlardan “Böyük Vətən müharibəsi” epopeyasının yaradılmasında gen-bol istifadə olunmuşdur. Onun həmin illərdə lentə aldığı “Vyana” sənədli filmi isə Avstriyanın milli kinematoqrafiya nümunəsi kimi həmişəlik tarixə yazılmışdır. 1941-1945-ci illər Böyük Vətən müharibəsində

Bakının qəhrəmancasına müdafiəsinə həsr olunmuş "416-cı" (1942), "Xəzərlilər" (1944), "Əbədi odlar diyarı" (1945), "Günün yenilikləri" üçün külli miqdarda kinolentlər və sair filmlər Azərbaycanın qiymətli kinojurnallarından hesab olunur. Məhz bu filmlərdəki ən çətin döyüş epizodlarının çəkilişi zamanı göstərdiyi igidliyə və cəsarətə görə gənc operator "Qırmızı ulduz" ordeninə layiq görülmüşdür.

Böyük Vətən müharibəsi başa çatdıqdan sonra cəbhəçi kinooperator Azərbaycana qayıtmış və Bakı kinostudiyasında işləməyə başlamışdır. O, sənətinin dərin bilicisi kimi illərlə topladığı təcrübəsini gənclərə öyrətmiş, kino sənəti üçün mütəxəssislər yetişdirmək sahəsində çalışmış, milli kinomuzun inkişafına təkan vermişdir. Respublikada xronika və sənədli filmlərin əsasını qoyanlardan biri Cavanşir Məmmədovu istedadlı bir operator və rejissor kimi tanıdan 1957-ci ildə çəkdiyi dünyanın ən məşhur qoruqlarının birində məskən salmış qanadlı sakinlərin həyatından lirik səpkidə söhbət açan "Qızılağac körfəzi" sənədli filmidir. Bu film İtaliyanın Venetsiya şəhərində keçirilən ənənəvi bədii-sənədli filmlərin beynəlxalq festivalında (1957) xüsusi diploma layiq görülmüş və dünya ekranlarında nümayiş etdirilmək üçün bir çox xarici ölkələrə göndərilmişdir.

Azərbaycanlıların dünyada birinci olaraq dənizin dibindən qara qızıl çıxarmasından, Bakı neftçilərinin son illərdəki əmək nailiyyətlərindən bəhs edən "Xəzər neftçiləri haqqında dastan"(1953) və "Dənizi fəth edənlər"(1959) filmləri sənədli kinopublisistikamızın böyük yaradıcılıq nailiyyəti kimi bədii-sənədli kinematoqrafiyamızın tarixinə həmişəlik yazılmışdır. Hər iki film 1959-cu ildə Moskvada keçiri 1 ən Azərbaycan incəsənəti ongünlüyünün açılışı zamanı ekranlara buraxılmış və qəhrəman neftçilərə (əsas qəhrəmanları Qurban Abbasov, Xanoğlan Bayramov, Akif Cəfərov, Bəhman Hacıyev və başqal arı) həsr edilmiş ən yaxşı əsərlər kimi qiymətləndirilmişdir. Bu filmlərə görə Cavanşir Məmmədov rejissor Roman Karmen və operator Serqey Medınski ilə birlikdə Lenin mükafatı laureatı adına layiq görülmüş, eyni zamanda Azərbaycanın əməkdar incəsənət xadimi adını

almışdır. O, 1950-1960-cı illərdə Bakı kinostudiyasında pambıqçı əməyindən bəhs edən “Görüş” (1955), “Mahnı belə yaranır”, “Azərbaycan mədəniyyətinin baharı” (1960) və sair filmlərin operatoru olmuşdur.

Cavanşir Məmmədovun yaradıcılıq yolunun böyük bir dövrü (1960-cı ildən) Mərkəzi Elmi-Kütləvi Filmlər Studiyası ilə bağlı olmuşdur. O, kino səyahəti almanaxının yaradıcılarından idi. Azərbaycan elminin nailiyyətlərindən bəhs edən “Axtaran tapar”, Azərbaycan torpağını əks etdirən “Əbədi odlar diyarı”, “Azərbaycan zeytunu”, “Azərbaycan çinarları”, “Azərbaycan mədəniyyətinin baharı”, “Təbiətin dostları”, “Keçmişin şahidləri”, “Şuşa”, “Qobustan”, “Zaqatala etüdləri”, “Kür boyunca”, “Şamaxı buludlar altında şəhərdir” və sair onun ötən əsrin 60-70-ci illərində çəkdiyi filmlərdir. “Ulan-Bator”, “Birma”, “Tümen”, “Bakuriani”, “Msbeta”, “Dərbənd”, “Bir il Ryazanda” filmləri isə xarici ölkələrə və SSRİ-nin şəhərlərinə olan səfərlərindən yaranmışdır. “Qovunun yeni sortları”, “Torpaqşünaslıq”, “Qoyunların qırxılmasında ustalıq”, “Hidroliz zavodu”, “Qaraqum kanalı”, “Pambıqçı Manaf Cəlalov” və sair məhsuldar kinooperatorun filmlərinin və kinojurnallar üçün seçdiyi süjetlərin bir hissəsidir.

Ümumiyyətlə, o, 130 xronikal-sənədli, elmi-populyar və bədii film,1000-dən artıq süjetin müəllifidir. Pamir dağlarının buzlaqlarından söhbət açan və insanın təbii fəlakətə qarşı mübarizəsini göstərən “Ayı buzlağı”, mavi qızıl çıxaran adamlar barəsində “Sarı alov”, təbiətin nadir hadisələrinin birindən – Azərbaycan ərazisində püskürən palçıq vulkanlarından danışan “Palçıq vulkanları diyarında” elmi-kütləvi filmləri onun yaradıcılıq xüsusiyyətlərinin və misilsiz istedadının məhsuludur. Onların bir çoxu sənədli kinomuzun qızıl fonduna daxil edilmişdir.Cavanşir Məmmədov 1948-ci ildə Türkmənistan SSR, 1959-cu ildə Azərbaycan SSR əməkdar incəsənət xadimi və həmin ildə eyni zamanda Lenin mükafatı laureatı fəxri adlarına layiq görülmüşdür.

Tanınmış kinorejissor Moskva şəhərində vəfat etmişdir.

***Əkbər Məmməd oğlu Ağayev, tənqidçi, ədəbiyyatçünas.***

Əkbər Məmməd oğlu Ağayev



1914-ci il mart ayının 21-də Şuşada doğulub.

Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat şöbəsini bitirmişdir. 1940-1941-ci illərdə SSRİ Elmlər Akademiyası Azərbaycan filialının aspiranturasında təhsilini davam etdirmişdir. Həmçinin Moskva Ali Diplomatiya Məktəbində təhsil almışdır.

Ək bər Ağayev Mosk va da Ali Diplomatiya Məktəbində təhsilini başa vurduqdan sonra "İzvestiya" qəzeti və Sovet İttifaqı Teleqraf Agentliyi redaksiyalarında işləmişdir. Daha sonra Bakıda bir sıra mətbuat orqanlarında ədəbi işçi, məsul katib, şöbə müdiri və redaktor vəzifələrində çalışmışdır.

Əkbər Ağayev tənqidçi, ədəbiyyatşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1939), Azərbaycanın əməkdar ali məktəb işçisi (1981), filologiya elmləri doktoru (1972) və professor olmuşdur.

Əkbər Ağayev eyni zamanda elmi-pedaqoji fəaliyyəti dövründə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda, xarici dillər institutunda, Azərbaycan Dövlət Universitetində müəllim, kafedra müdiri və fakültə dekanı, Azərbaycan SSR Elmlər Akademiyası Nizami adma Ədəbiyyat İnstitutunda "İnkişaf etmiş sosializm dövrü ədəbiyyatı" şöbəsinin müdiri vəzifələrində işləmişdir.

Ədəbi fəaliyyətə hələ 1935-ci ildə başlamış Əkbər Ağayevin "Nizami və dünya ədəbiyyatı"(1964), "Şeirimizin yeni nəsli", "Lirikanın qüdrəti", "Dramaturgiyanın bəzi məsələləri", "Ədəbiyyat tarixi haqqında qeydlər" və sair ədəbiyyatşünaslıq və ədəbi tənqidə həsr olunmuş məqalələri məlumdur ki, onların arasında rus və dünya ədəbiyyatına həsr olunmuş "Anri Barbüs", "Höte Nizami haqqında", "Fransız xalqının böyük oğlu", "Humanist sənətkar", "Xalq nəğməkarı", "Səhər şəfəqləri" kimi əsərlər də var. "M.Y.Lermontov və Azərbaycan" (1941), "A.İ.Gertsen"(1962), "Sənətkarlıq məsələləri" (ədəbi-tənqidi məqalələr) (1962), "Nizami və dünya ədəbiyyatı" (1964), "Sənətkara töhfə" (1978), "Əsrin tərənnümü" və s. kitabları işıq üzü görmüşdür.

Tərcümə sənəti ilə də yaxından məşğul olan Ə.Ağayev dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərini dilimizə tərcümə etmişdir.

A.S.Puşkin, M.Y.Lermontov, A.A.Çexov, L.N.Tolstoy, Belinski, Dobrolyubov, Qorki, Dikkens, Bualo və başqa rus ədiblərindən tərcümələri var.

Əkbər Məmməd oğ lu Ağayev 1989-cu il mart ayının 2-də Bakıda rəhmətə getmişdir.

***Rəşid Behbudov,***
***müğənni, SSRİ xalq artisti.***



Rəşid Məcid oğlu Behbudov 1915-ci il dekabrın 14-də Tiflisdə xanəndə Məcid Behbudalı oğlunun ailəsində dünyaya gəlmişdir. Əslən şuşalıdır.

Uşaq yaşlarından məktəb xorunda oxuyan Rəşid 1933-cü ildə dəmiryolu texnikumuna daxil olmuşdur.

Hərbi xidməti zamanı ordu ansamblının solisti olan R. Behbudov əsgəri xidmətdən sonra Tbilisi estrada qruplarından birində solistlik etmişdir.

1943-cü ilin sonunda Bakı kinostudiyasında Üzeyir Hacıbəylinin eyni adlı operettasının motivləri əsasında çəkilən “Ar r m mal alan” filmində baş rol a dəvət alıb. 1945-ci ildə film efirə çıxıb və çox tez bir zamanda nəinki Azərbaycanda, bütün Sovet İttifaqında böyük populyarlıq qazanıb. 1946-cı ildə bu filmdəki Əsgər roluna görə Rəşid Behbudov Stalin mükafatı ilə təltif olunub.

1946-1956-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının, 1953-1960-cı illərdə fasilələrlə M. F. Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, 1957-1959-cu illərdə Azərbaycan Dövlət Konsert Birliyi Ansamblının təşkilatçısı və rəhbəri olmuşdur. 1966-cı ildən musiqi və estrada sənətinin caz, balet, pantomim kimi müxtəlif janrlarını üzvi surətdə birləşdirən Azərbaycan Dövlət Mahnı Teatrını təşkil etmiş və ömrünün sonunadək onun solisti və bədii rəhbəri olmuşdur.

1959-cu ildə ona SSRİ xalq arl isli, 1980-ci ildə Sor ial ist Əməyi Qəhrəmanı adı verilmişdir. Lenin, Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu ordenləri ilə təltif olunmuş, bir sıra xarici ölkələrin dövlət mükafatlarına layiq qörülmüşdür.

Dahi sənətkar 1989-cu il iyunun 9-da Moskva şəhərində vəfat edib. Bakıda I Fəxri xiyabanda dəfn edilmişdir.

***Cəlal Qaryağdı,***
***heykəltəraş, xalq rəssamı.***



Cəlal Məhərrəm oğlu Qaryağdı 1915-ci il iyu lun 15-də Şuşa şəhərində anadan olmuşdur. Məşhur Qaryağdılar nəslinin nümayəndəsi, böyük xanəndə Cabbar Qaryağ- dıoğlunun qardaşı oğludur. Erkən yaşlarında ata-anasını itirib, onu xalası ilə nənəsi böyüdüb. 1927-ci ildə Cəlal Bakıya gəlib. Burda Rəssamlıq Məktəbinə qəbul olunub. Sonra təhsilini Tbilisi Rəssamlıq Akademiyasında (1932-1935) davam etdirib, lakin maddi imkansızlıq ucbatından təhsilini yarımçıq qoyaraq Bakıya qayıdıb. 30-cu illərdə qəzetlərdə rəssam, həm də rəssamlıq məktəbində müəllim kimi çalışıb. 40-cı illərdə heykəltəraşlıq əsərlərini yaratmağa başlayıb.

Böyük Vətən müharibəsi illərində cəbhə qəzetlərində siyasi karikaturalarla çıxış etmiş, müharibədən sonra insanların bədii obrazları üzərində işləmişdir. Heykəltəraşlığın müxtəlif janrlarında əsərləri var. Monumental-dekorativ heykəltəraşlıq onun yaradıcılığında əsas yer tutur. Əsərləri üçün obrazların yığcamlığı və milli kolorit səciyyəvidir. İçərişəhərin qala divarlarının yaxınlığında görkəmli satirik şair M.Ə.Sabirin heykəli (memar Ə.İsmayılov və Q.Əlizadə, 1958-ci il) Cəlal Qaryağdının ilk böyük işlərindən biridir. C.Qaryağdının monumental-dekorativ heykəltəraşlıq əsərləri bədii ifadəliyi və dinamikliyi ilə diqqəti cəlb edir. Nəriman Nərimanovun heykəli (1972), Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanovun abidəsi (1983, Lənkəran) Azərbaycan heykəltəraşlığının qiymətli nümunələri sırasına daxildir.

Bakıda N.Nərimanovun, vaxtilə Lenin (indiki Azadlıq) meydanında qoyulmuş V.İ.Leninin heykəllərini də C.Qaryağdı yaratmışdır. Sənətkar həmçinin Qara Qarayevin, Fikrət Əmirovun,

Bülbülün, Niyazinin, Cahangir Cahangirovun və başqalarının büstlərini düzəltmişdir.

***Xəlil Məmmədov,***
***Sovet ittifaqı Qəhrəmanı, general-mayor.***



Xəlil Məmməd oğlu Məmmədov 1916-cı ildə Şuşa şəhərində anadan olmuşdur. 1938-ci ildə Şuşa RHK-dan orduya çağrılmışdır. Müharibədə rütbəsi mayor olub. Krım, Donbas, Ukrayna uğrunda aparılan döyüşlərdə iştirak edib. Rumıniya şəhərciyi Merqurada hitlerçilər tərəfindən güclü müdafiə sistemi yaradılmışdı. Məmmədovun batalyonuna müdafiəni yararaq şəhərin digər başında yerləşən körpünü düşmən keçə bilməsin deyə, partlatmaq əmri verilmişdi. Gecə həmləsi zamanı mayor Məmmədovun tankları beton pilləkənlərdən ibarət maneə ilə qarşılaşdı. Belə bir maneəni keçib getmək qeyri-mümkün idi. Tankçılar dəmir troslarla maneəni yox edərək mina meydançasını keçdilər və şəhərə daxil oldular. Tapşırıq yerinə yetirilmişdi.

Rumın torpağında 15 günlük mübarizə ərzində mayor Məmmədovun batalyonu düşmənin 4 tankını, 2 özüyeriyən topunu, 64 artilleriya silahını, 191 avtomaşınını, 108 pulemyotunu, 1375 əsgər və zabitini məhv etmişdi. Həmçinin 3 dəmiryol eşalonu, 350 avtomaşını məhv etmiş, 4 min hitlerçini əsir tutmuşdur.

SSRİ Ali Sovetinin 24 mart 1945-ci il tarix 1 i fərmanı ilə Xəlil Məmməd oğlu Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Müharibədən sonra İctimai Asayişi Mühafizə İdarəsində və Nazirlər Sovetinin Sovet orqanları şöbəsinin müdiri işləmişdir.

Xəlil Məmmədov 21 fevral 1989-cu ildə vəfat edib. II Fəxri xiyabanda dəfn edilmişdir.

***Azad Şəmsiyev,***
***neftçi alim.***



Azad Əhməd oğlu Şəmsiyev 1916-cı il mayın 7-də Şuşa şəhərində anar dan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutuna daxil olmuşdur. 1941-ci ildə neft və qaz quyularının qazılması ixtisası üzrə sənaye institutunda neft-mədən fakültəsini bitirmişdir.

Azad Şəmsiyev neft və qaz quyularının qazılması, dağ süxurlarının dağıdılmasının mexanikası sahəsində tanınmış alim idi.

Azad Şəmsiyev Kirovneft trestində qazma ustası köməkçisi vəzifəsində əmək fəaliyyətinə başlamışdır. Böyük Vətən müharibəsi iştirakçısıdır. 1945-1949-cu illərdə Avstriyanın Vyana şəhərində Sovet neft idarəsində böyük mühəndis, şirkətin direktoru işləmişdir. 1949-cu ildən Azərbaycan SSR EA Neft Prosesləri İnstitutunda fəaliyyətə başlamışdır.

1954-cü ildə Azərbaycan SSR EA-da aspirant olarkən "Qazmada uçmaların səbəblərinin təhlili" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Daha sonra Az.ETNÇİ-də və Azərbaycan SSR EA Azərbaycan Neft və Qaz Yataqlarının İşlənilməsi İnstitutunda böyük elmi işçi işləmişdir. 1961 -1968-ci illərdə Azərbaycan SSR EA DNQYPİ-da "Dağ süxurlarının

mexanikası" laboratoriyasının rəhbəri olmuşdur. 1962-ci ildə "Neft və qaz quyularının qazılması zamanı süxurların uçması və alət tutucularmm təbiətinin tədqiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Elmi-tədqiqatlarının sahəsi: quyularda müxtəlif mürəkkəbləşmələrin yaranması səbəblərinin aşkar edilməsi, quyu qüllələrində qum tıxaclarının ləğv edilməsi məsələləri, mürəkkəbləşmiş şəraitlərdə quyularm qazılmasının nəzəriyyəsi praktikasının tədqiqi; hidromonitor pərli və saroşkalı baltaların öyrənilməsi; dağ süxurlarının dağıdılması. 30-dan artıq elmi məqalənin və bir monoqrafiyanın müəllifi olub. O, Qırmızı Ulduz ordeni və medallarla təltif edilmişdir.

Azad Şəmşiyev 1967-ci il oktyabrın 21-də Bakı şəhərində vəfat edib.

***Alim Yusifzadə, alim***



Alim Mirzə Camal oğlu Yusifzadə 1917-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Bakı pedaqoji məktəbini qurtardıqdan sonra şəhərdəki 4 saylı məktəbdə müəllim işləmişdir. ADPİ-nin pedaqogika fakültəsində (1932-1937) ali təhsil almışdır. 1938-1940-cı illərdə hərbi xidmətdə olmuşdur. 1941-cı ildə uşaq psixi xəstəxanasında müəllim işləmişdir. Böyük Vətən müharibəsinin (1941-1945) iştirakçısı olmuşdur. Azərbaycan Xarici Dillər İnstitutunda müəllim, baş müəllim (1953), direktor müavini (1958-1959), dosent (1959-1999) vəzifələrində çalışmışdır. "İbtidai sinif şagirdlərində mədəni davranış tərbiyəsi" mövzusunda namizədlik dissertasiyası müdafi etmişdir.

Alim Yusifzadə 1999-cu ildə vəfat etmişdir.



***Məhluqə Sadıqova, aktrisa***

Məhluqə Ələsgər qızı Sadıqova 1917-ci il aprelin 28-də Şuşa şəhərində doğulub. Beş il buradakı 1 nömrəli qız məktəbində oxuyub. 1930-cu ildə ailəsi Bakıya köçüb və 6 nömrəli şəhər məktəbində yeddinci sinfi bitirib. O, 1936-cı ildə Bakı Tibb Texnikumunun diş texniki fakültəsini qurtarıb. Tibb təhsili alanda rəqs və dram dərnəklərində məşğul olub.

Məhluqə Sadıqova 1936-cı il sentyabr ayının 27-də Azərbaycan Akademik Milli Dram Teatrının truppasına götürülüb. Aktrisa 54 il bu teatrda çalışıb. 1992-ci ildə yenicə yaradılan Bakı Bələdiyyə Teatrında aktrisalıq edib.

Üslub və forma, məzmun və mahiyyət, estetik dəyər və psixoloji tutum baxımından bütün janrlarda hazırlanmış tamaşalarda iştirak edib. Lakin əsas uğurlarını daha çox xarakterik səhnə surətlərinin ifasında qazanıb. Aydın və səlis diksiyası, ifadəli səhnə danışığı aktrisanın oynadığı rollara dolğunluq və bütövlük gətirib.

Qırx ildən çox radionun "Bulaq" folklor-etnoqrafik verilişinin əvəzsiz ifaçılarından biri olub.

Öz oyununda xarakterik ifadə vasitələrinə üstünlük verən Məhluqə Sadıqova AMDT-də Nadya, Pəri, Yaxşı, Gülüş, Turac, Sona ("Oqtay Eloğlu", "Solğun çiçəklər", "Almaz", "Sevil", "Dönüş" və "1905-ci ildə", Cəfər Cabbarlı), Süd ("Göy quş", Moris Meterlink), Qiasinta ("Skapenin kələkləri", Jan Batist Molyer), Sayad, Səlimə, Şamama cadu və Zərnigar ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Hərəmxana qarısı, Fitnə, Mehriban ("Vaqif", "Fərhad və Şirin" və "Xanlar", Səməd Vurğun), Qalçixa və Anuşka ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Zəhra ("Şeyx Sənan", Hüseyn Cavid), Paulina ("Qış nağılı", Vilyam Şekspir), Sofiya ("Vanya dayı", Anton Çexov), Missis Daycen ("Şeytanın

şagirdi", Bernard Şou), Nata xanım ("Nazirin xanımı", Branislav Nuşiç), Pəri xanım ("Fənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Dolores ("Qadın faciəsi", Federiko Qarsiya Forka), Güllü xala ("Yalan", Sabit Rəhman), Zabitə ("Atayevlər ailəsi", İlyas Əfəndiyev), Ana ("Şöhrət və ya unudulan adam", Nazim Hikmət), Sofiya ("Daş qartal", Pavel Malyarevski), Klavdiya Vasilyevna ("Şadlıq sorağında", Viktor Rozov) rollarını ifa edib.

Aktrisa 2003-cü il avqust ayının 15-də Bakıda vəfat edib.

***Mehdi Məmmədov,***
***rejissor, aktyor, sənətşünaslıq doktoru.***



Mehdi Əsədulla oğlu Məmmədov 1918-ci il may ayının 22-də Şuşada doğulmuş, orta təhsilini Bakıda almışdır. Yeddinci sinifdən Bakı Türk işçi Teatrının tamaşalarında kütləvi səhnələrə çıxan Mehdi Məm mə dov Bakı Teatr Məktəbini bitirib (1935), həmin il Moskvada ali rejissor təhsili almağa getmişdir.

1940-cı ildə Gəncə Dövlət Dram Teatrında Məmmədhüseyn Təhmasibin "Bahar" dramını diplom işi kimi tamaşaya hazırlayıb. Təyinatla Gəncəyə göndərilən gənc rejissor 1945-ci ilin yay mövsümünün sonunadək burada işləmiş, sentyabrda Bakıya gəlmiş, müxtəlif sənət ocaqlarında, əsasən, monumental səpkili tamaşalar hazırlamışdı.

Mehdi Məmmədov səhnə sənətinə aktyorluqla başlayıb. Teatr məktəbində Karl Moor ("Qaçaqlar", Şiller), Hacı Əhməd ("Almaz", Cəfər Cabbarlı), Moskvada Lunaçarski adma Ali Teatr Sənəti İnstitutunda Evstiqneyko ("Günəş övladları", Maksim Qorki), Neznamov ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski) rollarını oynayıb. İşçi teatrında Süleyman Rüstəm və Hacıbaba Nəzərlinin "Yanğın", Seyid Hüseynin "Kölgə" dramlarmdakı Gənc aqronom

və Bəxtiyar, Gəncə teatrında Səməd Vurğunun “Vaqif”, “Xanlar”, Mirzə İbrahimovun “Madrid”, Məmmədhüseyn Təhmasibin, “Bahar”, Mehdi Hüseynin “Nizami” pyeslərinin tamaşalarında Eldar, Söhbət, Karton, Qaya və Əbdək rollarında səhnəyə çıxıb. Akademik teatrda isə “Alov”da Kamalov, “Canlı meyid”də Protasov, “Xəyyam”da Xəyyam, “Meşşanlar”da Terenti Teterov rollarında çıxış edib.”Azərbaycanfilm”in 1959-cu ildə istehsal etdiyi “Onu bağışlamaq olarmı?” filmində Qaya roluna çəkilib. Radio teatrında Şekspirin “Hamlet” faciəsində baş rolu səsləndirib.

Ayrı-ayrı illərdə Gəncə Dövlət Dram Teatrında (19421945), Milli Dram Teatrında (1960-1963), Opera və Balet Teatrında (1956-1960), Azərbaycan Dövl ət Rus Dram Teatrında (1978-1982) baş rejissor kürsüsünü tutub. Sıravi quruluşçu rejissor kimi ən çox Milli Dram Teatrında quruluşlar vermişdir.

Gəncə teatrında “Bahar” (Məmmədhüseyn Təhmasib), “Madrid” (Mirzə İbrahimov), “İntiqam” və “Qatır Məmməd” (Zeynal Xəlil), “Məşədi İbad” (Üzeyir bəy Hacıbəyov), “Od gəlini” və “Oqtay Eloğlu” (Cəfər Cabbarlı), “Toy” (Sabit Rəhman), “Vaqif” (Səməd Vurğun), “Nə yardan doyur, nə əldən qoyur” (Lope de Veqa), “İntizar” (İlyas Əfəndiyev və Mehdi Hüseyn), “Nizami” (Mehdi Hüseyn), “Partizan kostya” (Nadejda Filippova), “Vasvası xəstə” (Jan Batist Molyer) dramlarının quruluşçu rejissoru olub.

Milli dram teatrında ilk işi 1946-cı ildə Şekspirin “On ikinci gecə” komediyasının tamaşası olub. Müəyyən fasilələrlə bu sənət ocağında Cəfər Cabbarlının “Yaşar” (1947), Aleksandr Fadeyevin “Gənc qvardiya” (1948), Sabit Rəhmanın “Aydınlıq” (1949), “Əliqulu evlənir” (1961), Lope de Veqanın “Rəqs müəllimi” (1949), Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq” (1950), Məmmədhüseyn Təhmasibin “Çiçəklənən arzular” (1951), Nikolay Qoqolun “Müfəttiş”, Karlo Haldoninin “Mehmanxana sahibəsi” (1952), Yuri Yanovskinin “Prokurorun qızı” (1954), Nəcəf bəy Vəzirovun “Yağışdan çıxdıq, yağmura düşdük” (1955), İmran Qasımovla Həsən Seyidbəylinin “Uzaq sahillərdə” (1956), Viktor Rozovun “Şadlıq sorağında” (1961), Mehdi Hüseynin “Alov” (1961) Mirzə İbrahimovun “Kəndçi qızı” (1962), Lev Tolstoyun

“Cani ı meyid” (1968), Hüseyn Cavidin “Xəyyam” (1970) və “İblis” (1983), Səməd Vurğunun “İnsan” (1974), Maksim Qorkinin “Meşşanlar” (1975), Cəlil Məmmədquluzadənin “Dəli yığıncağı” (1978) əsərlərinə müxtəlif janrlarda səhnə həyatı verib.

Opera və Balet Teatrında Fikrət Əmirovun “Sevil” (1953 və 1959), Leo Delibin “Lakme” (1957), Cahangir Cahangirovun “Azad” (1957), Üzeyir bəy Hacıbəylinin “Leyli və Məcnun” (1958 və 1978), “Koroğ lu” (1959), Cakomo Puççininin “Toska” (1960) operalarına quruluş verməklə bu teatrda fəlsəfi-monumental teatrın imkanlarına genişlik açıb. Rus dram teatrında MaksİmQorkinin “Həyatın dibində” və Mixail Şatrovun “Mənim Nadejdalarım” dramlarının quruluşçu rejissoru olub.

Mehdi Məmmədov həm romantik, həm də realist səpkili tamaşalara quruluşlar verib. O, rejissor-pedaqoq kimi aktyorun rol-obraz üzərində analitik təhlilini əsas, mühüm prinsip kimi götürürdü. 1945-cı ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Teatr İnstitutunda aktyor və rejissor sənətindən dərs deyib, kafedra müdiri vəzifəsində işləyib. Sənətşünaslıq doktoru (1968), professor (1960) Mehdi Məmmədov 1958-ci ildə Azərbaycan SSR xalq art ist i, 1974-cü ildə SSRİ xalq art ist i, 1984-cü ildə isə Azərbaycan SSR Dövlət mükafatı laureatı adma layiq görülüb.

1968-ci ildə “Azəri dramaturgiyasının estetik problemləri” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1960-cı ildən professor vəzifəsini tutan, sənətşünaslıq doktoru Mehdi Məmmədov “Azəri dramaturgiyasının estetik problemləri”, “Teatr düşüncələri”, “Teatrlar, Aktyorlar, Tamaşalar”, “Hüseyn Ərəblinski”. “Onun sənət ulduzu”, “Moskva Akademik Bədaye Teatrı”, “Aleksandr Tuqanov” (rus dilində), “Rejissor sənəti”, “Sabit Rəhman” və digər kitabların müəllifidir.

Zəngin elmi təfəkkürə malik olan Mehdi Məmmədov milli teatrşünaslıq elmimizin inkişafında, resenziya janrının formalaşmasında səmərəli fəaliyyət göstərib. 1971-1976-cı illərdə Azərbaycan Teatr Cəmiyyətinin (hazırkı Teatr Xadimləri İttifaqı) sədri seçilmişdi. Görkəmli alimin yazdığı və dərslik kimi keçilən

“Rejissor sənəti”, “Həyat və sənət yollarında” kitabları elmi dəyərlərini bu gün də saxlamaqdadır.

Mehdi Məmmədov 1985-ci il yanvarın 8-də qəflətən vəfat etmiş və I Fəxri xiyabanda dəfn edilmişdir.



***Əli Fərzəliyev,***
***hərbi həkim***

Əli Fərzəliyev 1918-ci ildə Şuşa şəhərində doğulmuşdur. Orta təhsil aldıqdan sonra N.Nərimanov adma Azərbaycan Tibb İnstitutuna qəbul olunmuşdur. 1941-ci ildə 90 nəfər məzunu olan institutun ilk məzunlardan idi. Ə.Fərzəliyev Böyük Vətən müharibəsinin ilk günlərindən ordu sıralarına səfərbərliyə alınmış, Cənub-Qərb cəbhəsinə göndərilmişdir.

1971-ci ilə kimi müxtəlif yerlərdə hərbi-həkim vəzifələrində işləmişdir. Hərbi xidmətinin son illərində Azərbaycan SSR Hərbi Komissarlığında ikinci şöbə rəisinin müavini olmuşdur.

Ə.Fərzəliyev Sovet ordusu sıralarından tərxis olunduqdan sonra Bakıda müxtəlif müalicə ocaqlarının rəhbəri olmuş və 1989-cu ildən öz şəxsi təşəbbüsü ilə yaratdığı Azərbaycan Təbabət və Səhiyyə Tarixi Muzeyində direktor işləmişdir.

Xatırladaq ki, Ə.Fərzəliyev ilk dəfə 1942-ci ilin iyul ayında Don çayı yaxınlığında, Svoboda şəhərində Voronej Cəbhəsinin 6-cı Ordusunun tərkibində döyüşüb. Diviziya 1942-ci ilin avqustunda Şkatrs sahəsində döyüşə-döyüşə Donu keçmək və sonra hücuma başlamaq üçün bir döyüş meydanı kimi qərb sahilini ələ keçirmək tapşırığı alır. Bu ağır döyüşlərdə həkim Ə. Fərzəliyev öz tabeliyində olanlarla düşmənin yağış kimi yağan güllələri və top atəşi altında qorxu bilmədən, az qala, canını fəda edərək yaralılara ilk tibbi

yardım göstərib, onlarla yaralı əsgər və zabiti ölümün pəncəsindən alıb həyata qaytarıb.

1943-cü ildə Dnepr uğrunda döyüşlərdə yaralılara xidmət göstərmək üçün düşmən aviasiyasının fasiləsiz atəşi altında olduqca ağır döyüş şəraitində tibb briqadası yaradır. Əli Fərzəliyev briqadanın ən fəal və cəsur tibb işçilərindən sayılırdı. O, bu döyüşlərdə "İgidliyə görə" medalı və Qırmızı Ulduz ordeni ilə təltif edilmişdir. Ə.Fərzəliyev cəbhədə döyüşdüyü müddət ərzində yaralıları döyüş meydanından nəyin bahasına olur-olsun tez çıxarmağı, onlara əsl peşəkarlıqla tibbi yardım göstərməyi özünün müqəddəs vəzifəsi sayır və tabeliyində olanları da bu ruhda tərbiyə edirdi.

1945-ci ilin fevral ayında düşmənin Oder çayı sahilində Breslau şəhəri ətrafında olan qoşun dəstələrini məhv etməklə böyük qəhrəmanlıq göstərmiş 309-cu atıcı diviziya II dərəcəli Kutuzov ordeni ilə təltif olunmuşdur. Breslau rayonunda yüzlərlə yaralı qəbul edilir, onlara operativ tibbi yardim göstərdiyinə görə Ə.Fərzəliyev II dərəcəli Vətən müharibəsi ordeni ilə təltif edilir.

Ə.Fərzəliyev qulluq etdiyi 309-cu atıcı diviziyası döyüşən ordu ilə birlikdə 2200 kilometrdən artıq odlu-alovlu döyüş yolu keçmiş, 22 şəhər və iri yaşayış məntəqəsini azad etmişdir.

Ə.Fərzəliyev müharibədən sonra 1971-ci ilədək hərbi xidmətdə olmuşdur.

O, "SSRİ səhiyyə əlaçısı", "Azərbaycanın əməkdar həkimi" adlarına layiq görülmüş, 5 orden, 20-yə yaxın medalla təltif olunmuşdur.



***Soltan Hacıbəyov, bəstəkar, incəsənət xadimi, Xalq artisti.***

Soltan İsmayıl oğlu Hacıbəyov 1919-cu il may ayının 8-də Şuşada anadan olmuşdur. O, Üzeyir bəyin əmisi nəvəsidir. 1930-cu ildə ailəsi ilə birlikdə Bakıya köçmüş, 1936-cı ildən Üzeyir bəyin himayəsində yaşamış və tərbiyə olunmuşdur.

Soltan Hacıbəyov Bakı Musiqi Texnikumunun truba sinfində (A.P.Kolpinskinin sinfində) oxumuş, eyni zamanda Bakı Musiqili Komediya Teatrında dirijor vəzifəsində çalışmışdır. Burada işləyərkən ilk əsərləri – "Pioner” kantatasını və “Qızıl gül” musiqili komediyasını (1940-cı ildə Musiqili Komediya Teatrında tamaşaya qoyulmuşdur) yazmışdır.

1946-cı ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsini bitirmiş, Üzeyir Hacıbəylidən, B. İ. Zeydmandan, N. S. Çumanovdan dərs almışdır. Gənc musiqiçi Azərbaycan Dövlət Konservatoriyasında oxuduğu illərdə seçdiyi sənətin texnikasına daha dərindən yiyələnmək üçün müxtəlif janrlara müraciət etmiş, iki prelüd və piano üçün sonata, “Çiçəklərin söhbəti”, “Neft haqqında nəğmə” mahnılarını, “Quşcuğaz”, “Tənha yelkən aparır” romanslar, simli kvartet, simfonik variasiyalar, Böyük Vətən müharibəsində qəhrəmanlıq göstərən əsgərlərimiz haqqında bir sıra kütləvi əsərlər (“Döyüşçülər nəğməsi”, Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov və Kamal Qasımov haqqında nəğmələr, 416-cı

atıcı Taqanroq Azərbaycan diviziyasına həsr olunmuş xalq çalğı alətləri orkestri üçün marş və sair) yazmışdır. O, həmçinin Moskva konservatoriyasında D.D.Şostakoviçin sinfində (1947) təcrübə keçmişdir.

Soltan Hacıbəyovun yaradıcılığı xalq sənəti və Üzeyir bəy Hacıbəylinin musiqisi, eləcə də dünya klassik musiqi təcrübəsi zəminində formalaşmışdır. Onun musiqisi üçün epik vüsət, təbiət lövhələrinin zərif təsviri, həlim lirizm səciyyəvidir. Bəstəkarın yaradıcılığında simfonik musiqi janrı əsas yer tutmuşdur. Birinci (1944, ilk Azərbaycan simfoniyalarından biri) və ikinci (1946) simfoniyaları Böyük Vətən müharibəsi mövzusuna həsr olunmuşdur. Birinci simfoniyası 1944-cü ilin dekabr ayında Tbilisi şəhərində keçirilən Zaqafqaziya respublikalarının musiqi ongünlüyündə səslənmiş, müəllifinə böyük şöhrət gətirmişdir.

Soltan Hacıbəyov 1945-ci ildə Türkmənistan Opera və Balet Teatrının sifarişi ilə yazdığı "Kəminə və Qazi" operasının simfonik parçasını "Karvan" adlandırmışdır. Bu simfonik lövhədə o, əlvan musiqi vasitələri ilə dinləyicilərdə konkret mənzərə haqqında təsəvvür yarada bilmişdir. Sonralar bəstəkar bu parçanı yenidən işləmiş və Azərbaycan Dövlət Simfonik Orkestri Niyazinin idarəsi ilə onu ifa etmişdir. 1952-ci ildə müəllif "Karvan"ın orkestr dili üzərində bir qədər də işləmiş, onu Üzeyir bəyə ithaf edərək 1955-ci ildə nəşr etdirmişdir.

Soltan Hacıbəyov ilk yaradıcılıq illərindən başlayaraq uşaqlar üçün musiqi əsərləri yazmışdır. "İsgəndər və Çoban" operası (1947), "Oynaq Topum", "Laylay", "Bənövşə", "Bahar gəldi", "Yolka", "Pioner marşı" (1953) mahnıları milli uşaq musiqi ədəbiyyatına gözəl bir töhfə olmuşdur. Bəstəkar vokal musiqisi sahəsində də çalışmış, 1950-1953-cü illərdə bir sıra xalq mahnı və muğamlarını tərtib etmişdir. Xalq çalğı alətləri orkestrinin müşayiətində səs üçün yazdığı "Sarı bülbül", "Leyla", "Qarabağ şikəstəsi"ni misal göstərmək olar.

1954-cü ildə onun “Ukraynaya salam” (sözləri Zeynal Cabbarzadənindir) mahnısı müsabiqədə üçüncü mükafata layiq görülmüşdür. Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı üçün də bir çox musiqi əsərləri (“Vətən” süitası, 1955; “Məzəli rəqs”, “Yumoristik səhnəcik”, 1956) yazmışdır. Bəstəkar 1956-cı ildə Naxçıvan və Zaqatala rayonlarına musiqi folkloru toplamaq məqsədi ilə getmiş və bir sıra işləmələr -”Mənim gözəlim”, “Ceyran bala” (1957) və sair vokal miniatürlər yaratmışdır.

Soltan Hacıbəyovun simfonik orkestr üçün yazdığı “Üvertura” (1956) ən qüvvətli və görkəmli əsərlərindən biri kimi qiymətləndirilmişdir. O, Azərbaycan, rus və sovet musiqi klassiklərinin ənənələrini öz fərdi, xüsusi yaradıcılıq süzgəcindən keçirərək müasir milli koloritli bir əsər yaratmışdır. Mövzuların aydın və qabarıq şəkildə inkişaf etməsi əsərdə proqramlılıq cəhətlərini təzahür etdirir. Üverturanm musiqisi güclü, xalq ruhu, həm də onun səciyyəsi, yaradıcı enerjisi kimi dərk olunur. Əsərin məzmununu açmaq üçün bəstəkar üvertura üçün ənənəvi olan sonata-alleqoro formasına müraciət etmişdir. Bu formanın dərindən dərk olunan musiqi-dram qanunauyğunluğu əsərin əsas ideyasını yaratmaq və təsbit etmək işinə kömək göstərir. Bu da baş və köməkçi mövzuların musiqi obrazlarında qarışdırma üsulu ilə yaradılmışdır. “Uvertura”nı Niyazi, Anosov, Qayk, Paridiz kimi dirijorlar öz repertuarlarına daxil etmişlər. 1961-ci ildə bu əsəri Çexoslovakiyanın Morava şəhər filarmoniyasının orkestri, bir ildən sonra Amerika Birləşmiş Ştatlarının Çikaqo şəhərindəki Evanston orkestri ifa etmişdir.

Görkəmli bəstəkarın 1950-ci ildə yazdığı “Gülşən” baletində (libretto müəllifləri, Q. Almaszadə və P.Abolimov) sosializm quruculuğu, sovet adamlarının mənəvi keyfiyyətləri tərənnüm olunmuşdur. Ümumiyyətlə, Azərbaycan milli balet sənətində müasir mövzunun ilk dəfə işıqlandırılmasında Soltan Hacıbəyovun böyük xidmətləri var. “Gülşən” musiqi-xoreoqrafiya janrı vasitəsi

ilə müasir gerçəkliyi, həqiqi təsvirin qanunauyğunluğunu bir daha sübut edir.

Əsərin musiqi səhnə kompozisiyası aydın və lakonikdir. Sevgi və məişət səhnələri ilə əmək mövzuları bir-biri ilə sıx birləşmişdir. Baletdə kollektiv əmək pafosunu tərənnüm edən kütləvi stillər əsas yer tutur. Musiqi dramatikliyinin əsas canlı xətti, aparıcı qüvvəsi xalq obrazıdır. Əsərin musiqi dili melodikliyi, plastik təravəti, ritmin müxtəlifliyi, milli səciyyənin dərin və parlaq ifadəliliyi ilə fərqlənir.

Ötən əsrin əllinci illərinin ikinci yarısında Bolqarıstana və Çexoslovakiyaya səfər edən bəstəkar bu ölkələrin musiqi mədəniyyəti ilə dərindən tanış olmuş, vətənə qayıtdıqdan sonra öz təəssüratlarını xalq çalğı alətləri orkestri üçün yazdığı "Bolqar suitası" və "Çex rəqsi" əsərlərində əks etdirmişdir. 1964-cü ildə Hindistanda olan Soltan Hacıbəyov sonralar simli kvartet üçün üç bölmədən ibarət "Hind mövzuları üzərində suita"smı (1965) bəstələmişdir. Bəstəkarın bir çox kvartet ansamblı üçün yazdığı əsərləri də var. Bunlardan birinci və ikinci skertso (1949), pyeslər (1962), adajio və fuqa instrumental miniatür janrına aiddir. Onun orkestr üçün "Konsert"i (1964) kontrast kəskinliyi, fəallığı, dərin müasir musiqi, müstəsna, qeyri-adi, parlaq koloritli orkestri ilə fərqlənir. Müəllif böyük bir orkestr ustası kimi öz əsərini mahiranə instrumentləşdirmiş və çalğı alətlərinin ifaçılıq imkanlarından səmərəli istifadə etmişdir. Soltan Hacıbəyovun partiturasmda incə, şəffaf tembr rəngləri güclü səs koloriti ilə uyğunlaşır. Konsert SSRİ-nin böyük şəhərlərində, eləcə də Avropanın Varşava, Buxarest, Paris, Brüssel kimi iri mərkəzi şəhərlərində görkəmli dirijorların rəhbərliyi ilə ifa olunmuş və böyük şöhrət qazanmışdır.

Soltan Hacıbəyovun yaradıcılığının parlaq səhifələrindən biri də dram teatrı üçün yazdığı musiqidir. Müxtəlif vaxtlarda o, M. Əzizbəyov adma Azərbaycan Akademik Dram Teatrının səhnəsində tamaşaya qoyulan pyeslər üçün ("Məhəbbət", "Kəndçi qızı", M. İbrahimov; "İnsan", S. Vurğun; "Eşq və İntiqam", S. S.

Axundov; “Qatır Məmməd”, Z. Xəlil; “Aşnalar”, “Əliqulu evlənir”, S.Rəhman; “Alov”, M.Hüseyn; “Aydın”, C. Cabbarlı və sair) musiqi bəstələmişdir. Görkəmli bəstəkar Azərbaycan musiqisində özünəməxsus yol açmış, fərdi xüsusiyyətləri ilə digər bəstəkarlardan fərqlənmiş, yüksək bədii zövqə malik bir sənətkar olmuşdur.

Soltan Hacıbəyov Azərbaycan Musiqili Komediya Teatrının dirijoru (1938-1940), “Sazçı” qızlar ansamblı (19401942) və Azərbaycan Dövlət Filarmoniyasının (1948-1958) bədii rəhbəri və direktoru (1955-1962), Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətini katibi (1953-1968) və SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin (1958-ci ildən) üzvü olmuşdur. O, 1948-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyət göstərmiş, 1964-cü ildən professor olmuş, 1969-1974-cü illərdə isə rektor vəzifəsində işləmişdir. Qırmızı Əmək Bayrağı ordeni və bir sıra medallarla təltif edilmişdir. Sumqayıt şəhər Orta İxtisas Musiqi Texnikumu onun adını daşıyır. O, 1952-ci ildə SSRİ Dövlət mükafatı laureatı, 1958-ci ildə Azərbaycan SSR əməkdar incəsənət xadimi, 1960-cı ildə respublikanın Xalq artisti, 1970-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı, 1973-cü ildə SSRİ xalq artisti kimi adlara layiq görülmüşdür.

Soltan İsmayıl oğlu Hacıbəyov 1974-cü il sentyabr ayının 19-da Bakıda rəhmətə getmiş və I Fəxri xiyabanda dəfn olunmuşdur.



***Əşrəf Abbasov, bəstəkar***

Əşrəf Cəlal oğlu Abbasov 1920-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Orta məktəbi Şuşada başa vurmuşdur. 1948-ci ildə Azərbaycan Konservatoriyasını, 1952-ci ildə isə Moskva Dövlət Konservatoriyasının aspiranturasını bitirmişdir.

Əşrəf Abbasovun fəaliyyətinin bir sahəs i də mu s iqi elmi ilə bağl ı olmuşdur. Azərbaycan musiqisinin nəzəri problemlərini araşdıran tədqiqatçı-alim 1952-ci ildə Moskvada "Üzeyir Hacıbəyov və onun "Koroğlu" operası" mövzusunda dissertasiya müdafiə edərək, sənətşünaslıq namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

O, 1953-1957-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının rektoru olmuşdur. 1957-1972-ci illərdə bəstəkarlıq kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Əşrəf Abbasov 1965-ci ildə ilk Azərbaycan uşaq baleti "Qaraca qız"ı yazmışdır. O, fortepiano və orkestr üçün konsertin (1946), simfonik orkestr üçün "Konsertino"nun (1948), "Şuşa" (1945), "Gələcək gün" (1952), "Dramatik" (1953) simfonik poemalarının, "Səndən mənə yar olmaz" (1963), "Dağlar qoynunda" (1970) operettalarmm, bir çox instrumental əsərlərin, xor, mahnı, romansın müəllifidir.

Musiqi sahəsindəki xidmətlərinə görə 1963-ci ildə bəstəkar "Azərbaycanın əməkdar incəsənət xadimi" fəxri adı almışdır. 1968-ci ildə Əşrəf Abbasova professor elmi rütbəsi verilmişdir.

Əşrəf Abbasov 1992-ci ildə Bakıda vəfat etmişdir.

***Adil Babayev,***
***hüquqşünas***



Adil Salman oğlu Babayev 1921-ci il oktyabrın 14-də Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1939-cu ildə Bakı şəhərinin 1 saylı orta məktəbini bitirdikdən sonra, N.E.Bauman adına Moskva Mexanika- Maşınqayırma İnstitutunun silah-sursat fakültəsinə daxil olmuşdur.

Ali təhsil aldıqdan sonra Moskva şəhərinin 530 saylı silah- sursat zavodunda usta və planlaşdırıcı vəzifələrində çalışmış, bununla yanaşı, partiya və komsomol orqanlarında da müxtəlif vəzifələrdə işləmişdir.

1944-cü ildə Adil Babayev Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş və 1948-ci ildə oranı bitirmişdir.

Adil Babayev 1954-cü il aprelin 30-da Azərbaycan SSR baş prokuroru vəzifəsinə təyin olunmuş, 1958-ci il iyulun 8-dək həmin vəzifədə işləmişdir. 1955-ci ildə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.



***Saleh bəy Qarabağlı,***
***alim***

Saleh bəy Novruz oğlu Hacıyev 1921-ci il iyun ayının 17-də Şuşada anadan olmuşdur. O, 1939-cu ildə Ağdam Kənd Təsərrufatı Texnikumunu və 1948-ci ildə S.M.Kirov adma Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Universitetdə oxuyarkən Böyük Vətən müharibəsinə yollanmış (1942), Tiflis şəhərində ehtiyat polkunda rabitə kursunu bitirdikdən sonra Ukrayna cəbhəsi tərkibində 51-ci ordunun xüsusi rabitə rotasmda xidmətə başlamışdır. Ukraynanın, Şərqi Prussiyanın, Polşanın faşistlərdən azad olunmasında iştirak etmişdir.

İki dəfə yaralanmış, ikinci qrup müharibə əlili kimi ordudan tərxis olunmuşdur (1945).

Saleh Hacıyev 1946-cı ildən universitetdə təhsilini davam etdirmiş, oranı bitirdikdən sonra kimya fakültəsinin aspiranturasında oxumuş (1949-1951), lakin naməlum səbəblərə görə üzərində işlədiyi dissertasiya mövzusu ləğv olunduğundan müvəqqəti olaraq elm sahəsindən uzaqlaşmışdı.

Bir müddət Neft Daşları Dəniz Mədənində korroziya əleyhinə kontorda sahə rəisi və mühəndis vəzifələrində işləmişdir (1952-1955), yenidən elm sahəsinə qayıtmış, Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmışdır (1956-1974). Elmi jurnalların birində dərc olunmuş "Selen oksidinin əmələgəlmə entalpiyasmm təyini" məqaləsi (1959) və alman alimi, Kettingen Universitetinin professoru Q.Qattovla elmi mübahisəsi onu dünya termokimyasında və SSRİ-də ən görkəmli termokimyaçı kimi tanıtmışdı.

Ötən əsrin altmışıncı illərində tanınmış alim tədqiqatlarında element üzvi birləşmə – bərk raket yanacaqlarının yanma effektini, yəni, dartma qüvvəsinin təyinetmə metodikasını ilk dəfə olaraq işləyib-hazırlamış, bu mövzuda məqalələr yazaraq Nyu-York, Vaşinqton, London, Amsterdam, Berlin, Kembric, Stokholm, Moskva kimi iri elmi mərkəzlərdə nəşr olunan nüfuzlu beynəlxalq jurnallarda dərc etdirməyə başlamış, Kemerovo və Kalinin şəhərlərində əsərlərinin tətbiqi ilə məşğul olmağa başlamışdır. 1972-ci ildə doktorluq işini müdafiə edərək kimya elmlər doktoru, 1979-cu ildə isə professor adını almışdır. 1975-ci ildən Rusiyada elmi fəaliyyətini davam etdirən görkəmli alim Kemerovo Yeyinti Sənayesi Texnologiyası İnstitutunda (1975-1976) və Kuzbass Politexnik İnstitutunda (1977-1982) ümumi kimya kafedralarının müdiri, eyni zamanda xüsusi materialların – kosmik raket yanacaqlarının, kompozisiya və raketin üst səthinin müdafiə örtüyü maddələrinin öyrənilməsi elmi-tədqiqat laboratoriyasının müdiri, Tümen Dövlət Universitetinin qeyri-üzvi kimya kafedrasının müdiri (1983-1990) vəzifələrində çalışmışdır.

Bu illər ərzində o, Kemerovada elmi-istehsalat birliyinin sifarişi ilə raket yanacaqlarının yaradılması sahəsində böyük elmi işlər aparmış,bomba kalorimetriyası, termokimya və digər müasir dəqiq elmlər sahəsində rastlaşdığı bütün məsələləri və metodları yenidən nəzərdən keçirmiş, hər şeyi onun istədiyi tərzdə həll edərək onları tam səviyyəsinə çatdırmış, bu yeni üsulların, qurğuların, vasitələrin tətbiqi sahəsində fundamental elmi problemlərin həllində ən yaxşı, çox hallarda isə tam qəbul olunan nəticələrə nail olmuşdur. Bu nəticələr dünya elmi ictimaiyyəti tərəfindən düzgün müzakirə edilmiş, yüzə qədər isnadda "mötəbər" və "ən mötəbər" nəticələr kimi qiymətləndirilmişdir. Bir çox müəlliflər bu azərbaycanlı alimin nəticələrinə əsaslanaraq öz nəticələrinin mötəbərliyini təsdiq etmişlər.

Görkəmli alim bir çox ümumdünya konfrans və simpozium-larının fəal iştirakçısı olmuş, Almaniya Federativ Respublikasının

Heydelberq şəhərində keçirilən I Beynəlxalq termodinamika simpoziumunda (1967) məruzə ilə çıxış etmişdir.

Saleh Hacıyev 1990-cı ildə təqaüdə çıxaraq Azərbaycana qayıtmışdır. "Saleh bəy" təxəllüsü ilə yazıb-yaradırdı. Bəşəriyyətin ən kəskin problemlərindən bəhs edən " Əllər "Ermənilik" (rus dilində), "Dünyanın taleyi" (Azərbaycan və rus dillərində), "Göyçə ştab", "Azərilər" və sair kitabların müəllifidir.



***Naib Şirinov, alim***

Naib Şirin oğlu Şirinov 1922-ci il noyabr ayının 22-də Şuşa rayonunun Malıbəyli kəndində anadan olmuşdur.

Xalqımızın bir sıra qeyrətli oğulları kimi Naib Şirinovun atası da repressiya qurbanı olmuşdur. Atasına "xalq düşməni" adı verilməklə ölüm hökmünə məhkum edilməsi onun gələcək həyatına ən böyük zərbə olmuşdur.

1939-cu ildə Ağdam Pedaqoji Məktəbində təhsil alan gələcəyin görkəmli alimi Naib Şirinov 1941-ci ildə 19 yaşında Böyük Vətən müharibəsinə yollanır. 1942-ci ildə xəstəliklə əlaqədar olaraq ordudan tərxis olunan "xalq düşməni"nin oğlu 1943-cü ildə yenidən könüllü olaraq cəbhəyə qayıdaraq, Berlinin alınmasına qədər uzun bir döyüş yolu keçmişdir.

Ordudan qayıtdıqdan sonra kəndlərində bir müddət pedaqoji fəaliyyətini davam etdirən Naib Şirinov təhsilini davam etdirmək üçün 1950-ci ildə Moskvaya yol a düşür. Qəbul imtahanlarını müvəffəqiyyətlə verərək M.Lomonosov adına Moskva Dövlət Universitetinin coğrafiya fakültəsinə daxil olur.

Təhsilini başa vurduqdan sonra o, vətənə qayıdır,Azərbaycan SSR EA Coğrafiya İnstitutunda işə düzəlir. 1960-cı ildən

respublikamızda yeni sahə olan geomorfologiyanın inkişafında mühüm rol oynayan Naib Şirinov gərgin əməyi sayəsində coğrafiya elmləri namizədi alimlik dərəcəsi alır.

Naib Şirinovun Azərbaycanın müxtəlif sahələrinin geomorfoloji xəritələrinin iri miqyasda tərtib olunmasında kifayət qədər əməyi olmuşdur. O, "Abşeron neftli vilayətinin geomorfologiyası" (1965), "Kür-Araz depressiyasının geomorfoloji quruluşu (morfoskulpturlar)" (1973), "Kür-Araz depressiyasının yeni tektonikası və relyefin inkişafı" (1975) kimi sanballı monoqrafiyaların müəllifidir. Gərgin əməyinin nəticəsi olaraq 250-dən çox elmi işi çap olmaqla yanaşı (70-i xaricdə), bir sıra atlas, xəritə və dərslikləri də işıq üzü görmüşdür.

Yeni tektonik hərəkətlərin geomorfologiyanın əsasını təşkil etməsini nəzərə alaraq, Naib Şirinov elmi fəaliyyətini, əsasən, bu istiqamətə yönəltmişdir. Onun respublika ərazisində yayılmış Dördüncü dövr çöküntülərinə aid "Azərbaycanın Dördüncü dövr çöküntülərinin xəritəsi" Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

Əsas müəllif olduğu "Xəzərin, onun sahillərinin təbiəti və ekologiyası" adlı dərs vəsaiti, "SSRİ-nin cənubunun yeni tektonik xəritəsi", "SSRİ-nin neftli-qazlı vilayətlərinin çökmə qatının yeni tektonik deformasiyası xəritəsi" kimi monoqrafik xəritələrin tərtib olunması Naib Şirinovun iştirakı ilə böyük zəhmət bahasına başa gəlmişdir.

1991-ci ildə isə geomorfoloqlar arasında öz dəsti-xətti ilə seçilən alim “İnsan və relyef” əsərini tətbiqi geomorfologiyaya həsr etmişdir. Onun Kür-Araz ovalığı və Abşeron yarımadasının geomorfoloji xəritələri əsasında meliorativ və irriqasiya işləri həyata keçirilmişdir. O, həmçinin Kiçik Qafqazda qızıl və civə axtarışlarında istifadə olunması üçün tərtib olunmuş irimiqyaslı xəritələrin tamamlanmasında yaxından iştirak etmişdir.

Professor Naib Şirinov elmi-tədqiqat işləri ilə yanaşı, Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində və bir sıra özəl universitetlərdə pedaqoji fəaliyyətini davam etdirmişdir.



***Fikrət Əmirov,***
***bəstəkar***

Fikrət Məşədi Cəmil oğlu Əmirov əslən şuşalı olub, 1922-ci il noyabr ayının 22-də Gəncə şəhərində doğulub.

Azərbaycanın görkəmli bəstəkarı, musiqi xadimi, Azərbaycan Dövlət Opera və Balet Teatrının direktoru (1956-1959), Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri (1947), II dərəcəli Stalin mükafatı (1949), Azərbaycan SSR əməkdar incəsənət xadimi (1955), Azərbaycan SSR Xalq artisti (1958), Azərbaycan Bəstəkarlar İttifaqının katibi (1959-cu ildən), Azərbaycan SSR Ali Sovetinin IV-IX çağırış deputatı, SSRİ xalq artisti (1965), Azərbaycan SSR

Lenin komsomolu mükafatı laureatı (1967) olmuş, iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni (1967, 1971) Azərbaycan SSR Dövlət mükafatı (1974), Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü (1980-ci ildən). SSRİ Dövlət mükafatı (1980), Sosialist Əməyi Qəhrəmanı (1982), fəxri adlarına layiq görülmüş, iki dəfə Lenin ordeni (1959, 1982) ilə təltif edilmişdir.

Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir Hacıbəylinin və Boris Zeydmanm sinfində təhsil alıb. Səhnə musiqisi sahəsində fəaliyyətinə "Ürəkçalanlar" və "Gözün aydın" musiqili komediyaları ilə başlayan Fikrət Əmirovun ən uğurlu əsərlərindən biri simli orkestr üçün yazdığı "Nizami" simfoniyasıdır. Bu simfoniya dünyanın ən məşhur dirijorlarının rəhbərliyi ilə ifa olunub.

1948-ci ildə "Şur" və "Kürd-Ovşarı" simfonik muğamlarını yazıb. Bu simfonik muğamlar Bolqarıstanın, Belçikanın, Fransanın, ABŞ-m konsert salonlarında səsləndirilib.

1950-ci ildə dördhissəli "Azərbaycan" simfonik süitasını bəstələyən Fikrət Əmirov onun ardınca müasir mövzuda milli musiqi tarixinə ilk milli lirik opera kimi daxil olan "Sevil" operasını yazıb. Operaya ictimai baxış 1953-cü il oktyabrın 8-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında keçirilib.

Bəstəkarın geniş çeşidli yaradıcılığında vokal janrının da özünəməxsus yeri var. O, üç romans və müxtəlif janrda iyirmi beşdən artıq mahnının müəllifidir.

1970-ci illərdə "Nəsimi" vokal xoreoqrafik poemasını, simfonik orkestr üçün "Azərbaycan qravürləri" əsərini, "Gülüstan-Bayatı-Şiraz" simfonik muğamını, "Min bir gecə" nağılları əsasında eyniadlı balet yazıb.

1984-cü ilin yanvarında "Nizami" baletini tamamlayıb.

Fikrət Əmirov 1984-cü il fevralın 20-də Bakıda vəfat edib. I Fəxri xiyabanda dəfn olunub.

***Lətif Imanov, alim***



Lətif Muxtar oğlu İmanov 1922-ci ildə 0uşada anadan olmuşdur.

O, 1944 ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin fizika fakultəsini bitirmişdir. Əmək fəaliyyətinə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Fizika və Riyaziyyat İnstitutunda kiçik elmi işçi kimi başlamışdır. Sonra M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasına daxil olmuş, burada görkəmli alim Vladimir Vasilyeviç Miçulinin rəhbərliyi altında zəngin elmi məktəb keçmiş və namizədlik dissertasiyasını müdafiə etmişdir.

O, 1950-1954 illərdə Azərbaycan SSR Elmlər Akademiyası Fizika İnstitutunda baş elmi işçi, 1954-cü ildən ömrünün sonuna kimi həmin institutda özu yaratdığı radiofizika laboratoriyasının rəhbəri olmuş, Azərbaycanda radiospektroskopiya sahəsində ilk doktorluq dissertasiyası müdafiə etmişdir.

Lətif İmanovun molekulyar qaz radiospektraskopiyası, dielektrik reklasasiya, elektron paramaqnit rezonans və nüvə-maqnit rezonans spektroskopiyaları sahəsində əsaslı elmi nəticələri var. Onun rəhbərliyi ilə murəkkəb qaz radiospektrometr qurğuları yaradılmiş, müxtəlif molekulların və onların izotop formalarının mikrodalğa spektrləri öyrənilmiş, spirt və merkapdan molekullarının yeni dönmə izomerləri aşkar edilmişdir. Lətif İmanov yaratdığı yeni elektrik ölçü üsulları vasitəsilə üzvi maye və bərk maddələrin tədqiqi sahəsində mühüm nəticələr almış, şüşələrin elektron-paramaqnit rezonans spektrini və elektrik xassələrini öyrənmişdir.

O, SSRİ Elmlər Akademiyasını “Spektroskopiya” Elmi Şurasının, SSRİ Ali və Orta İsxisas Təhsil Nazirliyi Elmi-Texniki Şurasının “Maye halı fizikası” bölməsinin və Azərbaycan Sovet Ensiklopediyasının elmi redaksiya şurasının üzvü idi (1966).

Lətif İmanov bir çox elmi məqalələrin müəllifidir (xeyli hissəsi xaricdə nəşr olunmuşdur). Yuksək ixtisaslı kadrlar hazırlanmasında onun böyük xidməti var. O, İnqiltərədə (1970) və Çexoslovakiyada (1972) mikrodalğa spektroskopiyasma aid beynəlxalq müşavirələrdə məruzələr etmişdir.

Akademikin qaz radiospektroskopiyası üsulu ilə molekulun quruluşu və ionformer formalarının tədqiqi üzrə aldığı nəticələr kimyəvi rabitə nəzəriyyəsinə dəyərli əlavələrdir. Onun spiratlarm, merkonitonlarm, onların deyitləri və başqa uzotoplu molekullarmm quruluşu, dipol momenti, daxili hərəkət parametrləri və ionformerlərə dair ümumiləşdirmələrin isə dünya miqyasında özünəməxsus yeri var. O, radiospektroskopik tədqiqatlarla molekullarm energetik və quruluş xarakteristikalarını, kondensə olunmuş mühitlərdə molekulyar hərəkət və qarşılıqlı təsir proseslərini də öyrənmişdir. Görkəmli alim ilk dəfə olaraq bir molekulun (propanal) üç qeyri-ekvivalent rotamer halda olduğunu müəyyən etmişdir.

Lətif İmanov birləşmələr sinfində lokal nizamlanma dərəcəsinin dielektrik kriteriyalarmı tapmış, sirkə turşusunun və amin turşularının sulu məhlullarının dinamik quruluş modelini yaratmışdır. O maddənin quruluşunun və mümkun istilik hərəkəti formalarının öyrənilməsində istifadə olunan radiospektroskopiya üsuluna xeyli yenilik gətirmişdir. Akademikin yaratdığı yeni ölçü üsulları kompleks maddənin dielektrik xassələrini daha geniş intervalda öyrənməyə imkan vermişdir. Bununla da bir çox maddələrin dielektrik parametirləri geniş temperatur və tezlik intervallarında ilk dəfə onun rəhbərlik etdiyi laboratoriyada öyrənilmişdir.

Lətif İmanovun rəhbərliyi altında mürəkkəb qaz radiospektrometr qurğuları yaradılmış, müxtəlif molekulların və onların izotop formalarının spektrləri öyrənilmiş, spirt və rontametrləri aşkar edilmişdir.

Ötən əsrin altmışıncı illərində onun yaratdığı yeni qurğular maddənin spektrlərini radiodianozondan başlayaraq millimetrlik dianozonları izləməyə imkan vermişdir. Akademik elektronparamaqnit və nüvə – maqnit rezonansları üsulları ilə aparılan tədqiqatlarda da diqqətəlayiq nəticələr almışdır. Onun yarımkeçirici, polimer maddələrin və maye kristalların dielektrik xassələrinin tədqiqinə dair maraqlı təcrübələr apararaq sanballı nəticələr almış, selenin dielektrik xassələrini öyrənməklə amorf selenin alınması üçün təcrübi üsullar hazırlamış, böyük bir problemin həllinə müəyyən əlavələr etmişdir.

Akademik yüz əllidən çox elmi məqalənin və bir neçə müəlliflik şəhadətnaməsinin müəllifidir. O, Moskva, Kiyev, Xarkov, Minsk və başqa şəhərlərdə keçirilən elmi məclislərin fəal iştirakçısı olmuşdur.

Lətif İmanov elmi işlə yanaşı, məhsuldar pedaqoji fəaliyyət də göstərirdi. O, 1950-ci ildən S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin fizika fakultəsində və Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun elektronika kafedrasında professor vəzifəsində çalışmış və uzun illər müasir kvant radiofizikasının müxtəlif sahələrinə aid mühazirələr oxumuşdur. Lətif İmanov “Elm və həyat” jurnalının redaksiya heyətinin üzvü, “Radiospektroskopiya” problemi üzrə respublika elmi şurasının sədri olmuşdur.

Lətif Muxtar oğlu İmanov 1980-ci il mart ayının 1-də Bakı şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

***Nazim Axundov,***
***ədəbiyyatşünas-alim***



Nazim Fərrux oğlu Axundov 1924-cü il iyun ayının 20-də Şuşa şəhərində müəllim və həkim ailəsində anadan olmuşdur. İbtidai təhsilini Tərtər rayonunda aldıqdan sonra 1937-ci ildə Bakı Pedaqoji Məktəbinin filologiya fakültəsinə daxil olan N. Axundov 1940-cı ildə oranı bitirir.

N.Axundov 1940-1944-cü illərdə kənd məktəblərində müəllimlik etməklə yanaşı, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsində təhsilini davam etdirir. 1945-ci ildə isə həmin institutun Azərbaycan ədəbiyyatı tarixi ixtisası üzrə aspiranturasına daxil olur.

1948-ci ilin oktyabrında Azərbaycan Dövlət Universitetinin elmi şurasında N.Axundov "Molla Nəsrəddin jurnalının nəşri tarixinə aid tədqiqlər" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmlər namizədi adını alır. N. Axundov 1966-cı ildə "Azərbaycan satira jurnalları" mövzusunda doktorluq dissertasiyasını müdafiə edir.

N. Axundov əmək fəaliyyətinə Tərtər rayonunun Azad Qaraqoyunlu və Qaynaq kənd məktəblərində müəllim, dərs hissə müdiri və məktəb direktoru kimi başlamışdır. 1948-1950-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1950-ci ilin mart ayından 1952-ci ilə qədər Quba Pedaqoji İnstitutunun direktoru, eyni zamanda Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, 1953-1956-cı illərdə isə H. Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun tədris-elmi işlər üzrə prorektoru, kafedra müdiri, rektoru olmuşdur.

1953-cü ildə Elmi-Tədqiqat Pedaqogika İnstitutunda baş elmi işçi, 1958-ci ildən isə Azərbaycan SSR Elm 1 ər Akademiyası

Mərkəzi Elmi Kitabxanasının direktoru vəzifəsində çalışmışdır. 1961-ci ilin iyunundan N.Axundov Nizami adma Dil və Ədəbiyyat İnstitutunun dövri mətbuat və biblioqrafiya şöbəsinin müdiri işləmişdir. Xan kəndi Dövlət Pedaqoji İnstitutunda Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri olmuş, 1971-ci ildən XX əsr Azərbaycan ədəbiyyatı şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır. 1988-ci ildən vəfatınadək Şuşa Pedaqojı İnstitutunun professoru vəzifəsində işləmişdir.

N. Axundovun ilk mətbu əsəri – "Cəfər Cabbarl ı" 1947-ci ildə çap olunmuşdur. "Mirzə Fətəli Axundov" (1948), "Səməd Vurğun" (1949), "Mirzə Ələkbər Sabir" (1958) və s. biblioqrafik kitabçalarını, "Ədəbiyyat" (8-ci siniflər üçün), "Ədəbiyyat müntəxabatı" (9-cu siniflər üçün) dərsliklərini və bir sıra metodik vəsaitləri, digər müəlliflərlə "Azərbaycan sovet ədəbiyyatşünaslığı (1920-1965)" adlı biblioqrafiyasını tərtib etmişdir. Eyni zamanda o, "Azərbaycan satira jurnalları (1906-1920)" adlı tədqiqatın müəllifidir.

1952-1956-cı illər Azərbaycan Yazıçılar Birliyi Gəncə filialının rəhbəri, 1958-1963-cü illərdə Sovet-Bolqar Cəmiyyəti Azərbaycan şöbəsinin üzvü və digər elmi və müdafiə şuralarının üzvü kimi fəaliyyət göstərmişdir. 1951-1954-cü illərdə yerli Sovetlərə deputat olan N. Axundov 1953-1956-cı illərdə Azərbaycan KP Gəncə şəhər Komitəsinə üzv seçilmişdir.

1994-cü il martın 10-da Bakıda vəfat etmişdir.



***Teymur Əliyev, şair, dövlət xadimi.***

Teymur Süleyman oğlu Əliyev 1924-cü ildə Şuşa şəhərində anadan olmuşdur. 1931-ci ildə ailəsi ilə Bakıya köçmüş, burada 132 saylı şəhər orta məktəbini bitirmişdir. 1941- 1948-ci illərdə ADU-nun filologiya fakültəsində təhsil almışdır.

Eyni zamanda "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi, 1941- 1942- ci illərdə Azərbaycan Radio Komitəsində İctimai-siyasi verilişlər baş redaksiyasında ştatdankənar müxbir, 1942- 1943- cü illərdə diktor, redaktor, məsul redaktor, 1945-1946-cı illərdə APİ-nin komsomol komitəsinin katibi, Azərbaycan LKGİ Bakı şəhər komitəsinin birinci katibi (1946-1948), Azərbaycan LKGİ Bakı komitəsinin katibi (1949-1950), "Azərnəşr"in siyasi-ictimai ədəbiyyat şöbəsinin müdiri (1950-1952), Azərbaycan Nazirlər Soveti yanında Radio Məlumat Komitəsi sədrinin müavini (1952-1953), Azərbaycan Nazirlər Soveti nəşriyyat qrupunun rəisi, katibliyin müdiri (1953-1955), Azərbaycan KP MK elm və mədəniyyət şöbəsinin, təbliğat və təşviqat şöbəsi müdirinin müavini (19551957), Azərbaycan Televiziya və Radio Verilişləri Komitəsinin sədri (1957-1964), Azərbaycan KP MK təbi iğat və təşviqat şöbəsinin müdiri (1964-1975), Azərbaycan mədəniyyət nazirinin müavini (1975-1988) vəzifələrində çalışmışdır.

Ədəbi fəaliyyətinə kiçik yaşlarından başlamış, ilk şeirlərini məktəb şənliklərində oxumuşdur. Onun ilk mətbu əsəri Bakı Mərkəzi Pionerlər Evinin 1938-ci ildə nəşr etdiyi "Şeirlər məcmuəsi"ndə dərc olunan "Azərbaycan" şeiridir. Bundan sonra məktəb illərində onun dövri mətbuatda "Kommunist", "Yeni yol" və "Azərbaycan pioneri" qəzetlərində dərc edilən yazıları "Teymur Əlizadə" imzası ilə çıxmışdır.

Şairin bir sıra siyasi, lirik, əmək və uşaq şeirlərinə mahnılar bəstələnmişdir. “Qar qız” mənzum pyesi M.Qorki adma Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur (1983). Əsərləri keçmiş SSRİ, həmçinin xarici ölkə xalqlarının dillərində çap olunmuş, bədii tərcüməyə də xüsusi diqqət yetirmişdir.

Xidmətlərinə görə “Qırmızı Əmək Bayrağı”, “Şərəf nişanı” ordeni (1979), yeddi medal və üç dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə, həmçinin ÜİLKGİ MK və Azərbaycan LKGİ MK-nın Fəxri fərmanları ilə təltif edilmişdir.

Görkəm f i şa f r, pubf isist Teymur Elçin 1992-ci il mart ayının 19-da vəfat etmişdir.



***Süleyman Ələsgərov,***
***bəstəkar***

Süleyman Əyyub oğlu Ələsgərov 1924-cü il fevfaf m 22-də Şuşada doğulub. 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib.

Azərbaycan musiqi sənətinin inkişafı naminə yaradıcılıq səlahiyyəti geniş və çoxşaxəli olmuşdur. Respublika Radio Verilişləri Komitəsində xalq çalğı alətləri orkestrinin dirijoru (1943), Azərbaycan Dövlət Musiqili Komediya Teatrının baş dirijoru, musiqi hissə müdiri (19441948), kinematoqrafiya komitəsinin kinoteatr orkestrlərinin bədii rəhbəri (1949-1951), M.Maqomayev adma Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının bədii rəhbəri (1951-1952), A.Zeynallı adına Bakı Musiqi Texnikumunun direktoru (1952-1954), Azərbaycan Mədəniyyət Nazirliyinin İncəsənət İşləri İdarəsinin rəisi (1954-1956), Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru və baş dirijoru (1960-1971), Ü. Hacıbəyli adına Azərbaycan Dövlət

Konservatoriyasında xalq musiqisi, xalq çalğı alətləri kafedrasının müdiri, professoru (19711998) vəzifələrində çalışmışdır. Yaradıcılığında operetta janrı əsas yer tutur. "Məhəbbət gülü" (1945), "Ulduz" (1948), "Özümüz bilərik" (1962), "Olmadı elə, oldu belə" (1964), "Milyonçunun dilənçi oğlu" (1966), "Hardasan, ay subaylıq" (1968), "Sevindik qız axtarır" (1970), "Həmişəxanım" (1971), "Subaylardan görəsiz", "Gurultulu məhəbbət" operettaları Azərbaycan Musiqili Komediya Teatrının səhnəsində bu gün də oynanılır. Onun "Bahadır və Sona", "Solğun çiçəklər" operaları, bir neçə kantatası, "Gənclik" və "Vətən" simfoniyaları, "Bayatı-Şiraz" simfonik muğamı, simfonik poema və süitaları, 3 tar konserti, 200-ə qədər mahnı və romansı (22 sözsüz mahnı), "Tarantella", "Rəqs-tokkata","Rondo", "Aşıqvari", qanun aləti üçün yazdığı "Poema" ("Rapsodiya") və digər əsərləri Azərbaycan musiqisinin inciləridəndir.

1972-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının Qarabağ filialının rəhbəri olmuşdur.

Süleyman Ələsgərov 2000-ci il yanvarın 21-də dünyasını dəyişib.



***Firudin Şuşinski, musiqişünas-tədqiqatçı***

Firudin Məhəmməd oğlu Həsənov 1925-ci ildə Şuşa şəhərində anadan olmuşdur.

Şuşada ticarət və sənətkarlıq inkişaf etsə də, bu şəhər Zaqafqaziyada dini mərkəz kimi tanınsa da, o, daha çox musiqiçilərin vətəni kimi məşhur idi. Təsadüfi deyil ki, Şuşanı "Zaqafqaziyanın konservatoriyası" adlandıranda bu şəhərdə doğulan məşhur bəstəkarlar, ifaçılar, xanəndələr – Üzeyir Hacıbəyli, Cabbar Qaryağdıoğlu, Bülbül, Qurban Pirimov, Hacı Hüsü, Bülbülcan, Məşədi Məhəmməd, Zabul Qasım, Segah İslam, Xan Şuşinski, Seyid Şuşinski, Rəşid Behbudov və başqaları kimi nəhəng ustadlar nəzərdə tutulur.

Körpəliyindən evlərində musiqi səsi eşidən, ustad sənətkarları böyük həvəslə dinləyən Firidun bəyin musiqiyə məhəbbəti daha da artırdı. Deyilənlərə görə, o, bəzi tay-tuşlarından ayrılıb özünü sakit bir yerə verər, ağac budağını sinəsinə sıxıb "dınqıldadar" və pəsdən Cabbar əminin oxuduğu muğamların sözlərini zümzümə edərdi. Görünür, həmin vaxtlardan da muğam ifaçılığmm korifeyi Cabbar Qaryağdıoğluna hədsiz məhəbbəti qəlbinə hakim kəsilmişdi. Lakin o, hələ bilmirdi ki, qəlbini fəth etmiş bu böyük sənətkarlar haqqında neçə-neçə məqalə və kitablar yazacaq.

Oğlunda musiqiyə hədsiz sevgi görən Məhəmməd kişi 1931-ci ildə Firidunu Şuşa musiqi məktəbinə qoyur. Üç il burada oxuyandan sonra yüksək musiqi istedadına baxmayaraq, orta məktəbi əla qiymətlərlə bitirib, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olur. Hələ universitetin II kurs təl əbəsi olarkən SSRİ Ali Məkt əb və Elmi Müəssisə İşçiləri İttifaqının Azərbaycan Respublika Komitəsi, Bakı şəhəri ali məktəb tələbələrinin II ümumşəhər elmi konfransında iştirak edir. Həmin konfransda Azərbaycan SSR EA-nın akademikləri, professorları iştirak

edirdilər. Konfrans qarşısında tələbələr bölmə rəhbərlərinin nəzarəti altında arxiv materiallarından, bədii ədəbiyyatdan və müxtəlif elmi məcmuələrdən istifadə edərək seçilən mövzular ətrafında mükəmməl məruzələr hazırlamışdılar. Konfransda 78 məruzə oxunur. Həmin mövzular arasında yalnız F.Şuşinskinin "Vaqif dövlət xadimi kimi" mövzusu I mükafata layiq görülür. Bu məqalə sonralar müəllifin ilk mətbu yazısı olur.

Tələbəlik illərindən Firidun bəy öz fenomen yaddaşını ictimai elmlərin dərindən mənimsənilməsinə sərf edirdi. O hələ I kursdan tarix, fəlsəfə, ədəbiyyat, xüsusilə, klassik və aşıq ədəbiyyatını öyrənməklə yanaşı, H.Heynenin təbirincə desək, "incəsənətin son sözü" olan muğamların yaranması, ifaçıları haqqında maraqlı məlumatlar toplayırdı. O, ölkəmizin şəhərlərini, obalarını qarış-qarış gəzib unudulmuş muğam ifacıları haqqında qələmə alacaq yazılarına yeni-yeni materiallar yığırdı.

F.Şuşinski üçün aşkarlanması mümkün olmayan heç nə yox idi. O, nəyin bahasına olur-olsun, öz inadkarlığı nəticəsində günlərlə, aylarla, bəzən də illərlə axtarışlar aparmağa özündə güc tapırdı. F.Şuşinski məqsədinə nail olmaq üçün çox zaman çətin və bəzən də həyatı bahasına başa gələcək ağır maneələri keçməkdən belə, ehtiyat etmirdi. Məhz bu cür "tərsliyin" nəticəsi idi ki, universitetdə oxuyan zaman onlara mühazirə deyən tarixçi-professordan Azərbaycanın dövlət xadimi Nəriman Nərimanovun unudulmasının səbəbini soruşur. Nəriman Nərimanovun adının çəkilməsi qəti qadağan olunduğu vaxtda F.Şuşinskinin bu sualı professoru çıxılmaz vəziyyətə salır. Tələbənin verdiyi suala nəinki mühazirə deyən professor, hətta universitetdə müraciət olunan hər bir şəxs cavab verməkdən boyun qaçırırdı. Sualına cavab tapmayan 25 yaşlı tələbə 1950-ci il noyabrın 25-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi M.C.Bağırova məktub yazmaq qərarına gəlir.

Doğma Qarabağının tarixini ciddi şəkildə öyrənmək məqsədi ilə Firudin Şuşinski arxivlərdə çox vaxt keçirirdi. 1948-ci ildə Səməd Vurğun ona "Vaqif və Qarabağ" mövzusunda material hazırlamağı tapşırdı. Bu məqalə F.Şuşinskinin ilk nəşr olunmuş əsəri idi.

Firidun Şuşinski o illərdə kəskin tənqid olunmasına baxmayaraq, Nəriman Nərimanovun tərcümeyi-halı ilə də daim maraqlanırdı.

1968-ci ildə Firudin Şuşinskinin doğulduğu Şuşanın tarixinə və məşhur şəxsiyyətlərinə həsr olunmuş "Şuşa" kitabı nəşr olundu. 70-ci illərdə, F.Şuşinski Azərbaycan xalq musiqiçilərinin tərcümeyi-hallarının öyrənilməsi ilə məşğul olurdu. Bir-birinin ardınca Cabbar Qaryağdıoğlu və Seyid Şuşinski haqqında kitabları nəşr olundu. 1979-cu ildə onun "Azərbaycan xalq musiqiçiləri" kitabı Moskvada işıq üzü gördü. 2007-ci ildə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin təşəbbüsü ilə F.Şuşinskinin topladığı materiallar əsasında tarzən Mirzə Sadıqın həyat və yaradıcılığına həsr olunmuş "Sadıqcan" kitabı nəşr olundu.



***Rasim Hacıyev,***
***alim***

Rasim Hacı oğlu Hacıyev 1926-cı il may ayının 10-da Şuşanın Malıbəyli kəndində anadan olmuşdur. İlk təhsilini Malıbəyli kənd məktəbində almışdır. 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1947-ci ildə R.Hacıyev Tibb İnstitutunu əla qiymətlərlə başa vuraraq 3 il respublikanın müxtəlif tibb müəssisələrində çalışır. Rayonlarda həkimlərə daha çox ehtiyac olduğundan o, Salyana dermatovenerolog göndərilir.

1950-ci ildə müsabiqə yolu ilə Moskva Mərkəzi Dəri-Zöhrəvi Elmi-Tədqiqat İnstitutunun ordinaturasına qəbul olunur. Bu elm ocağında dünyanın ən məşhur mütəxəssislərindən olan Ovçinnikov, Rezontul, Maşgilleyson kimi tibb korifeylərindən təcrübə üsullarını öyrənir.

Rasim Hacıyev Moskvada professor İ.M.Porudaminskinin rəhbərliyi altında dissertasiya mövzusu götürür. 1954-cü ildə “Kişi qonoreyasının müalicəsində streptomitsinin təsiri” adlı namizədlik dissertasiyasını uğurla müdafiə edib, tibb elmləri namizədi elmi dərəcəsi alıb. Elə həmin ildən R.Hacıyev Azərbaycan Elmi-Tədqiqat İnstitutunda dəri-zöhrəvi xəstəlikləri üzrə baş elmi işçi vəzifəsində çalışmağa başlayıb.

1950-ci illərdə gənc alim Azərbaycan Dövlət Tibb İnstitutunda dəri-zöhrəvi xəstəlikləri kafedrasının assistenti vəzifəsinə təyin olunub, pedaqoji fəaliyyətə başlayıb. R.Hacıyevin elmi məqalələri, xüsusilə də, Moskva tibb jurnallarında çıxan əsərləri elmi dairələrdə yüksək dəyərləndirilirdi. Tibb elminin görkəmli nümayəndələri olan İ.M.Porudaminski və V.N.Obçinnikov kimi alimlər öz keçmiş

tələbələri, indi isə gənc və məşhur alim Rasim Hacıyevin mətbuatda dərc edilən elmi çıxışlarından geniş bəhs etmişlər.

1966-cı ildə alim doktorluq dissertasiyasını müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsi almışdır. Dəri xəstəliklərində radioaktiv fosforun tətbiqinə aid doktorluq dissertasiyasını da bu mövzuya həsr etmişdir: "Dermatologiyada radioaktiv R-32 izotopunun tətbiqi". Elə həmin ildə, yəni, 1966-cı ildə R.Hacıyev alimlik dərəcəsinə layiq görülüb. 1970-ci ildə alim "Əvəzsiz xidmətinə görə" V.İ.Leninin 100 illiyinə yubiley medalı ilə təltif olunub. 1981-ci ildə tibb elmindəki nailiyyətlərinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olunur.

Rasim Hacıyev 1955-ci ildə N.Nərimanov adma Azərbaycan Dövlət Tibb İnstitutunun dəri-zöhrəvi xəstəlikləri kafedrasında əvvəlcə assistent, daha sonra, 1964-cü ildə dosent, 1965-cü ildən 1992-ci ilədək 27 il həmin kafedranın müdiri vəzifəsində çalışmışdır. O, dermatologiya-zöhrəvi xəstəliklərə aid 150-dən çox sanballı elmi əsərin müəllifidir. Alimin elmi fəaliyyəti, əsasən, qonoreya və siflisin müalicəsi probleminə, həmçinin zöhrəvi və yoluxucu dəri xəstəlikləri ilə mübarizə işi məsələsinə həsr edilmişdir. Bu problemlərin dərindən öyrənilməsi nəticəsində siflisin və qonoreyanm müalicə müddəti xeyli qısaldılmışdır. Onun tədqiqatlarında pemfiqus, qırmızı qurdeşənəyi, eksema, nevrodermit, dəri vərəmi, psoriaz kimi ağır dermotozlarm yeni metodlarla müalicə edilməsi mühüm yer tutur. Professorun nəzəri və təcrübi əhəmiyyəti olan bir çox elmi-tədqiqatları dermato-veneralogiyaya aid üçcildlik dərslikdə öz əksini tapmış, moskvalı həmkarları V.Suxarev və M.Zilberqlə birgə yazdıqları "Zöhrəvi xəstəliklər" və "Dəri xəstəliklərinin şüa ilə müalicəsi" monoqrafiyasında ümumiləşdirilmişdir. Onun elmi əsərləri Yuqoslaviya, Macarıstan, İsveçrə, Rusiya, Türkiyə və digər xarici ölkələrdə dərc olunmuş və biblioqrafik məlumat kitabçalarına salınmışdır.

Professor Rasim Hacıyev bu illər ərzində 14 tibb elmləri namizədi və 4 doktor hazırlamışdır. Özündə 22 dispanseri (onlardan 4-ü Bakıda, qalanları isə respublikanın müxtəlif rayonlarmdadır)

birləşdirən nadir dermatologiya-zöhrəvi məktəb yaratmışdır. Burda onun 370-dən çox tələbəsi çalışır.

O, Azərbaycan Dövlət Tibb Universitetinin professoru, dermatologiya-zöhrəvi elmi cəmiyyətinin prezidenti, Azərbaycan Cəhiyyə Nazirliyinin baş mütəxəssisi, Türkiyə Zöhrəvi Cəmiyyətinin fəxri üzvü olmuşdur.

Görkəmli professor, tibb elmləri doktoru Rasim Hacı oğlu Hacıyev 1999-cu il noyabr ayının 23-də vəfat etmişdir.



***Əbülfət Əliyev, müğənni, xalq artisti.***

Əbülfət Əsəd oğlu Əliyev 1926-cı il yanvar ayının 30-da Şuşada anadan olmuşdur. O, Agdam rayon Müəllimlər Evində Xan Şuşinskinin rəhbərlik etdiyi muğam sinfində oxumağa başlamış (1938-1939), sonra rayon pionerlər evində Məşədi Nəriman Mehrəliyevin tar dərnəyinə getmiş, xanəndə Mehralı oğlu Bahadırdan muğam sənətinin sirlərini öyrənmişdir.

Böyük Vətən müharibəsi illərində gənc müğənni tarzən Məşədi Nəriman Mehrəliyev və kamançaçalan Elman Bədəlovla çağırış məntəqələrində, qospitallarda, kənd təsərrüfatı zəhmətkeşləri qarşısında çıxış etmiş, Ağdam Dövlət Dram Teatrının səhnəsində epizodik rollarda oynamış, tamaşalara yazılmış mahnıları ifa etmişdir.

Uşaq bədii özfəaliyyət kollektivlərinin Bakıda təşkil edilən respublika olimpiadasının (1944) qalibi olmuşdur. 1945-ci ildə o, respublika radiosuna və M. Maqomayev adma Azərbaycan Dövlət Filarmoniyasına solist qəbul edilmişdir.

Əbülfət Əliyev məlahətli, xoş tembrli, rəvan, axıcı səsi, özünəməxsus yaradıcılıq üslubu olan sənətkar idi. Onun ifa tərzinə incə lirizm, emosionallıq, səlis və orijinal üslub xasdır. İstedadlı

xanəndə, xüsusilə, muğam (“Rast”, “Şur”, “Zabul”, “Humayun”, “Çahargah”, “Rahab” və s.), təsnif və mahnıların arasında milli vokal sənətinə məxsus müxtəlif vasitələrdən (guşə, zəngulə və s.) bacarıqla istifadə edirdi. Müğənninin repertuarında 400-ə qədər xalq və bəstəkar mahnısı vardı. O, həm də bəstəkar idi, bir neçə təsnif və mahnının müəllifi idi (“Tel oynasın”, “Aşiqəm”, “Xal yanağında”, “Qaşı, gözü qara qız”, “Ay qız” və s.). Müğənni 1956-1962-ci illərdə M.F.Axundzadə adma Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, Məcnun, Kərəm (“Leyli və Məcnun”, “Əsli və Kərəm” – Üzeyir Hacıbəyli), Şah İsmayıl (“Şah İsmayıl” – M. Maqomayev) partiyalarını ifa etmişdir. O, SSRİ-nin bir çox şəhərt ərində, Qvineya, Qana, İran, İraq, Suriya, Livan, Misir Ərəb Respublikası, Almaniya Demokratik Respublikası, Polşa Respublikası, Hiçeriya, Somali, Hindistan kimi ölkələrdə qastrol səfərlərində olmuş, Moskvada keçirilən “Xalqların musiqi mədəniyyəti: Ənənə və novatorluq” adlı VII Ümumdünya musiqi konqresində iştirak etmiş, yüksək ifaçılıq bacarığına görə YUNESKO-nun döş nişanına və diplomuna layiq görülmüşdür (1971).

Əbülfət Əliyev 1990-cı il dekabrın 27-də vəfat etmiş və Bakıda II Fəxri xiyabanda dəfn olunmuşdur. 1994-cü ildə Müslüm Magomayev adma Azərbaycan Dövlət Filarmoniyasında xatirə gecəsi keçirilmişdir.



***Firuzə Məmmədova,***
***ictimai xadim***

1927-ci ildə Şuşa şəhərində anadan olub. Ağdamda Müəllimlər İnstitutunu və ikillik partiya məktəbini bitirib. Bir neçə il maarif sahəsində işləyən F.Məmmədova sonralar partiya işində çalışıb.

1962-ci ilin mart mdan 1963-cü ilə qədər Qubadlı rayonu Zəngilan rayonuna birləşənə kimi Qubadlı rayon Partiya Komitəsinin birinci katibi olub.



***Tamilla Ağamirova,***
***teatr və kino aktrisası***

Əslən şuşalı olan Tamilla Mirsüca qızı Ağamitova 1928-ci il may ayının 21-də Bakıda anadan olmuşdur. T.Ağamirova tanınmış inqilabçı Mirsüca Ağamirovun qızı, Moskva Romen Musiqili Dram Teatrının bədii rəhbəri, SSRİ xalq artisti Nikolay Alekseyeviç Sliçenkonun həyat yoldaşıdır.

Tamilla Ağamirova 1950-ci ildə Bakı Teatr İnstitutunu bitirdikdən sonra Azərbaycan SSR Mədəniyyət Nazirliyinin xətti ilə Rusiyaya göndərilmiş, Moskva Bədaye Akademik Teatrının nəzdindəki məktəb-studiyada bir il təcrübə keçmişdir. Musiqili dram janrına olan həvəsi və məhəbbəti onu “Romen” Musiqili Dram Qaraçı Teatrına aparıb-çıxarmış (1952),

teatrın bədii şurası gənc aktrisanı ciddi sınaqdan keçirdikdən sonra işə qəbul etmişdir.

Tamilla Ağamirova teatrın əsas və aparıcı aktrisalarından və baş rolların ifaçılarından olmuş, rus və xarici ölkə klassiklərinin əsərlərində əllidən artıq rol oynamışdır. O, on bir filmdə baş rolda çəkilmiş, Altisidora ("Don Kixot", 1957), Səmayə ("Onun böyük ürəyi"1958), Zulfa ("Əsl dost", 1959), Alagöz ("Koroğlu", 1960), Kubalı qız ("Kuba novellası", 1962) Musiqi müəllimi ("Yenilməz batalyon", 1965) obrazlarını yüksək sənətkarlıqla yaratmışdır.

Görkəmli aktrisa ictimai fəaliyyətlə də məşğul olmuşdur. O, Təhlükəsizlik, Müdafiə və Hüquq Mühafizəsi Akademiyasının professoru, "Maski" fondunun vitse-prezitenti, Beynəlxalq Teatr Akademiyasının fəxri magistridir. Mixail Lomonosov mükafatı laureatıdır. "Dostluq", "Mixail Lomonosov", "Böyük Pyotr", I dərəcəli Böyük Yekaterina", "Xeyirxahlığa və ədalətə görə" ordenlərinə və "İncəsənətə xidmət" gümüş ordeninə layiq görülmüşdür.

Tamilla Ağamirova 2021-ci il avqust 31-də (93 yaşında) vəfat edib.



***Cahid Quliyev,***
***fəlsəfə elmlər doktoru***

Cahid Suleyman oğlu Quliyev 1928-ci ildə Şuşanın Malıbəyli kəndində anadan olub. O, 1944-cü ildə Ağdam Pedaqoji Məktəbini, 1946-cı ildə Ağdam İkiillik Müəllimlər İnstitutunu, 1951-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin fəlsəfə şöbəsini bitirmişdir.

Cahid Quliyev 1951-1991-ci illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda müəllim-assistent, baş müəllim, dosent, dekan, kafedra müdiri vəzifələrində işləmişdir. Fəlsəfədə insan, şəxsiyyət, cəmiyyətin və şəxsiyyətin qarşılıqlı münasibəti, xüsusilə, humanist məsələlər görkəmli alimin məşğul olduğu sahələr idi. Professor cəmiyyət və şəxsiyyət barədə iyirmidən artıq kitab və kitabça müəllifidir. "Cəmiyyət, insan, dünyagörüşü" (1968), "Şəxsiyyət və cəmiyyət" (1969), "Sovet adamının mənəvi siması" (1976), "Kollektiv və şəxsiyyət" (1981), "İki dünyanın həyat tər zi" (1985) ki mi bir çox də yər li el mi-təd qi qat əsər lə ri təkcə mütəxəssislər tərəfindən yox, eyni zamanda çoxsaylı oxucular tərəfindən də yüksək qiymətləndirilmişdir. "Şəxsiyyət və cəmiyyət", "Kollektiv və şəxsiyyət" kitabları isə 1982-ci ildə ilin ən yaxşı elmi-populyar əsərləri kimi Ümumittifaq "Bilik" Cəmiyyətinin diplomuna layiq görülmüşdür.

Görkəmli alim "Azərbaycan sovet incəsənətində humanizm" adlı sanballı əsərində humanizmi estetik bir kateqoriya kimi göstərmiş, dəyərli ümumiləşdirmələr apararaq tədqiq etdiyi problemlərlə bağlı çox ciddi və mühüm müddəalar irəli sürmüşdür. Cahid Quliyev yaradıcılığının böyük bir hissəsini iki dahiyə-Üzeyir bəy Hacıbəyliyə və Səməd Vurğuna həsr etmişdir. Dahi bəstəkara həsr etdiyi "Böyük humanist" (1981) və "Səməd Vurğun yaradıcılığında vətənpərvərlik və beynəlmiləlçilik" (1959), "Səməd Vurğun yaradıcılığında estetik məsələlər" (1966), "Səməd Vurğun" (1986), "Odur ki, bağlıyam sana..." (1986, rus dilində) əsərlərində hər iki sənətkarın yaradıcılıqlarının fəlsəfi mahiyyətini açmışdır.

Cahid Quliyevin müəlliflərindən biri olduğu "Tarixi materializm" (1967) və "Dialektik materializm" (1970) adlı metodik vəsaitlərdə fəlsəfənin tədrisi metodikasının aktual məsələləri işıqlandırılır. Professor iyirmiyə yaxın doktorluq və namizədlik dissertasiyasına rəhbərlik etmiş və onlarca filosof hazırlamışdır.
Cahid Quliyev uzun illər respublika "Bilik" cəmiyyətində fəlsəfənin təbliği üzrə elmi-metodik şuranın sədri olmuşdur. "Şərəf nişanı" ordeni və Lenin yubiley medalı ilə təltif edilmişdir.

Görkəmli alim Cahid Suleyman oğlu Quliyevi991-ci ildə dünyasını dəyişib.



***Cahid Camal, rəssam***

Cahid Şəmil oğlu Mirzəyev 1928-ci ildə Şuşada anadan olmuşdur. O, Əzim Əzimzadə adma Bakı Rəssamlıq Texnukumunun (1946) və İ.M.Seçenov adma Moskva Dövlət Bədii Yaradıcılıq İnstitutunun teatr dekorativ rəssamlıq şöbəsini (1952) bitirmişdir. Böyük teatrda, V.V.Mayakovski adma teatrda, Moskva vilayəti Elektrostal Xalq Opera Teatrında işləmiş, burada bir çox tamaşalara bədii tərtibat vermiş, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Azərbaycan Pavilyonunda bəzi bəzək işlərinin müəllifi olmuşdur.

1962-ci ildə rəssam Ulan-Bator Pedaqoji İnstitutuna rəsm üzrə metodist-məsləhətci vəzifəsinə dəvət olunmuşdur. Monqolustanda işlədiyi dövrdə (1962-1964) bu diyara aid 850 tabloya imza atan gənc rəssamı Moskva Mərkəzi İncəsənət İşçiləri Evində ikiillik yaradıcılıq fəaliyyətinin yekunu kimi “Müasir Monqolustan” adlı sərgisi açılmış (1964) və burda yüzlərlə əsəri (“Qara dəvələr”, “Güləşçilər”, “Üzən atlar”, “Səhrada döyüş”, “Usta qadın”, “Kinooperator Seren”, “Partizan Myaqmar” və s.) nümayiş etdirilmişdir. Milli mövzulara da daim müraciət edən istedadlı fırça ustasının bir çox əsərləri (Əbdürrəhim bəy Haqverdiyevin və Cəlil Məmmədquluzadənin portretləri, “Qarabağ əfsanəsi”, “Qarabağ çobanları”, “Natəvan” “Muğam”, “Azərbaycan xalq çalğı alətləri”, “Muğam ritmləri”, “Heyratı”, “Trio”, milli rəqslərə aid “Turacı”, “Qaytağı”, “Uzundərə”, “On dörd nömrə”, “Ləzginka” silsilə tabloları, səhəng, satıl, sərpuş, kasa, sapılca, aftafa və sair məişət əşyaları) müxtəlif sərgi salonlarının bəzəyinə çevrilmişdir.

İstedadlı rəssam kitab tərtibatı ilə də məşğul olmuş, "Molla Nəsrəddinin lətifələri" (1956), "Koroğlu dastanı" (1956) kitablarına, müxtəlif qəzet və jurnallara illüstrasiyalar çəkmişdir. O, Moskvanın "Burevestnik" idman cəmiyyətində at idmanı yarışlarında birinci yeri tutaraq birinci dərəcəli idmançı adma və Moskva Şəhər İdman Komitəsinin Fəxri fərmanına layiq görülmüşdür.

Mahir fırça ustasının Moskvada Gənclərin və Tələbələrin VI Ümumdünya Festivalında (1957), gənc rəssamların I, II, III və IV sərgilərində, Şərq Mədəniyyəti Muzeyində əsərləri nümayiş etdirilmiş, İtaliyada, Monqolustanda, Belorusiyada, Qazaxıstanda, Moldaviyada, Azərbaycanda və başqa ölkələrdə fərdi sərgisi açılmışdır.

Cahid Camal 1960-cı ildən başlayaraq Moskva Memarlıq İnstitutunda, Moskva Gənc Tətbiqi İncəsənət Məktəbində, Moskva Dövlət Toxuculuq İnstitutunda müəllim vəzifəsində çalışmışdır. Monqolustan-Sovet Dostluq Cəmiyyətinin üzvü olmuş (1967-ci ildən), Monqolustan Xalq Respublikasının yaradılmasının 50 və 60 illiyi münasibəti ilə müxtəlif medallarla təltif edilmişdir.

Cahid Camal Moskvada vəfat etmişdir.

***Nəriman Tahirov,***
***alim***



Əslən şuşalı olan Nəriman Cəfər oğlu Tahirov 1928-ci il fevral ayının 24-də Türkmənistanın Aşqabad şəhərində anadan olmuşdur.

0,1973-cü ildə texnika elmləri doktoru, 1974-cü ildə professor elmi adını almış və 1983-cü ildə isə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

M. Əzizbəyov adma Azərbaycan Sənaye İnstitutunu bitirmiş (1952), əmək fəaliyyətinə neft ekspedisiyasında başlamışdır. 1953-cü ildə aspiranturaya daxil olmuş, 1957-ci ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır. 1960-cı ildə işlədiyi ekspedisiyanın bazası əsasında yaradılmış neftli layın fiziki kimyası laboratoriyasının rəhbəri təyin edilmişdir.

Gənc alim neft-qaz layının fizikası, fiziki kimyası, neft-qaz məhsuldarlığının ikinci, üçüncü metodla artırılmasının təcrübi yollarla müxtəlif kimyəvi maddələrlə çay sularının izolə edilməsini yüksək termobarin sistemdə maye və qazların makroskopik parametrlərinin məhsuldar laylar üçün öyrənilməsi, alınmış təbii-fiziki qanunauyğunluqları neft-qaz, qazoksidenat laylarının məhsuldarlığın artırılmasına müvəffəqiyyətlə tətbiq etməyi bacaran yeganə alim olmuşdur.

O, SSRİ Elmlər Akademiyasının neft-qaz yataqlarının işlənilməsi problemləri üzrə elmi şuranın, Azərbaycan SSR Elmlər Akademiyasının neft-qaz çıxarma problemləri şurasının "Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri" jurnalının redaksiya şurasının elmi dərəcə verən xüsusiləşdirilmiş bir neçə elmi şuranın, SSRİ Ali Attestasiya Komissiyası Ali Ekspert Komissiyasının üzvü "Seriya nauk o zemle" jurnalının redaktor müavini olmuşdur.

Nəriman Tahirov Azərbaycan SSR Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda çalışmış,

onlarca elmi kadr hazırlamışdır. Üç yüzdən çox elmi məqalə, yeddi monoqrafiya müəllifidir. On bir orden və medalla təltif edilmişdir. Bir çox xarici ölkələrdə elmi ezamiyyətdə olmuşdur.

1992-ci il sentyabr ayının 23-də Amerika Birləşmiş Ştatlarının Los-Anceles şəhərində rəhmətə getmiş, Bakıya gətirilərək burada dəfn olunmuşdur.



***Vahid Hacıyev, akademik***

Vahid Hacıyev 1928-ci il fevralın 14-də Azərbaycanın dilbər guşəsi olan Şuşa şəhərində anadan olmuşdur. Ailəsi ilə birlikdə Tərtər rayonuna köçən Vahid Hacıyev burada 1943-cü ildə orta məktəbi bitirmişdir. O, 1943-1947-ci illərdə Gəncə şəhərində S.Ağamalıoğlu adına Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsində ali təhsil almışdır. İnstitutu bitirdikdən sonra gənc mütəxəssis Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində geobotanik kimi fəaliyyətə başlamışdır. O, burada geobotanikanın nəzəri və praktiki məsələləri ilə, o cümlədən, Azərbaycan otlaqların pasportlaşdırılmasının praktiki sahələri ilə məşğul olur.

Elmi tədqiqatlara olan sonsuz marağı onu 1949-cu ildə Leninqrad şəhərindəki SSRİ Elmlər Akademiyasının V.L.Komarov adma Botanika İnstitunun aspiranturasına gətirib-çıxarır.

O, böyük həvəs və inadla özünün geobotanikaya dair biliyini dərinləşdirərək məşhur florist, biologiya elmləri doktoru, professor Y. Q. Bobrovun elmi rəhbərliyi altında Azərbaycanın flora və bitki örtüyünə dair eksperimental tədqiqatlar aparır və 1952-ci ildə "Azərbaycanın quraqlığa davamlı paxlalı yem bitkiləri və onlardan qış otlaqlarında istifadə imkanları" mövzusunda namizədlik dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək Azərbaycana qayıdır.

Əmək fəaliyyətinə 1952-ci ildən Azərbaycan Elmlər Akademiyasının Botanika İnstitutunda baş elmi işçi kimi başlayan Vahid Hacıyev 1957-1958-ci illərdə Botanika bağında direktor əvəzi vəzifəsində çalışmışdır, Həmin illərdə o, yüksək dağ çəmənlərinin flora və bitki örtüyünə daha çox diqqət yetirirdi. Azərbaycanın yüksək dağ çəmənlərinin geobotaniki tədqiqatının çox səthi və aşağı səviyyədə olduğunu dərk edərək V. Hacıyev Azərbaycanda geobotanika elminin məhz bu sahəsini əsaslı surətdə öyrənməyi və inkişaf etdirməyi qət edir. Gərgin elmi axtarışlar öz bəhrəsini verir. 1966-cı ildə o, dərin elmi tədqiqatları və çalışqanlığı sayəsində biologiya elmləri doktoru alimlik dərəcəsini almaq üçün "Böyük Qafqazın yüksək dağ bitkiçiliyi (Azərbaycan SSR daxilində), onun dinamikası və təsərrüfat əhəmiyyəti" mövzusunda müvəffəqiyyətlə dissertasiya müdafiə edir.

V.Hacıyev 1957-1972-ci illər ərzində və 1978-1988-ci illərdə Azərbaycan SSR EA-nın Botanika İnstitutunun elmi işlər üzrə direktor müavini, 1972-1973-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat Yemçilik, Çəmənçilik və Otlaqlar İnstitutunun direktoru olmuşdur. O, 1972-ci ildən ömrünün sonunadək Azərbaycan SSR Elmlər Akademiyasının Botanika İnstitutunda "Geobotanika" şöbəsinin müdiri, 1988-2008-ci illərdə isə direktoru vəzifələrində çalışmışdır.

V.Hacıyev tərəfindən 1979-cu və 1987-ci illərdə müxtəlif miqyaslarda "Azərbaycan bitki örtüyü" xəritələri tərtib edilmişdir.

Elmi fəaliyyətinə görə V. Hacıyev 1970-ci ildə professor elmi adını almışdır. O, 1983-cü ildə Azərbaycan SSR Elm 1 ər Akademiyasının müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü (akademiki) seçilmişdir.

Vahid Hacıyevin xidmətləri yüksək qiymətləndirilərək dövlət tərəfindən “Şərəf nişanı” ordeni, “Əmək veteranı” medalı və Azərbaycan Respublikası Ali Sovetinin Fəxri fərmanlarına, eləcə də XTNS-nin 1 qızıl, 2 gümüş medalına layiq görülmüşdür. 2004-cü il fevralın 14-də isə respublikamızın Prezidenti İlham Əliyev bir sıra görkəmli elm xadimlərinin sırasında akademik V.Hacıyevin də “Şöhrət” ordeni ilə təltif edilməsi barədə sərəncam imzalamışdır.

Vahid Hacıyevin çoxillik ardıcıl və məqsədyönlü elmi fəaliyyəti, əsasən, Böyük və Kiçik Qafqazın, eləcə də Azərbaycanın yüksək dağ çəmənlərinin hərtərəfli və dəqiq geobotaniki tədqiqini əhatə etməklə Azərbaycanda bu elm sahəsinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Vahid Hacıyev geobotanikanm ən müxtəlif sahələrinə, o cümlədən, rayonlaşdırma, xəritələşdirmə, təsnifat, bitki ehtiyatları və onların qorunması məsələlərinə öz əsərlərində geniş yer ayırmışdır. O, botanikanın digər sahələrindən – floranın sistematikası, bitki örtüyünün, faydalı bitki ehtiyatlarının, nadir və nəsli kəsilməkdə olan bitki növlərinin öyrənilməsi problemləri ilə də davamlı məşğul olmuşdur.

Vahid Hacıyevin elmi nəticələri respublikamızda və xarici ölkələrdə nəşr edilmiş 350-dən artıq elmi əsərdə, o cümlədən, 10 monoqrafiyada öz əksini tapmışdır. Alimin rəhbərliyi altında 5 doktorluq və 39 namizədlik dissertasiyası müdafiə olunmuşdur. O, ölkəmizin hüdudlarından kənarda keçirilən beynəlxalq elmi konfrans və simpoziumlarda məruzələri ilə Azərbaycan elmini layiqincə təmsil etmişdir.

Vahid Hacıyev Azərbaycanda elmi kadr potensialının gücləndirilməsi naminə gənc mütəxəssislərin hazırlanması üçün gərgin əmək sərf etmişdir. O, Azərbaycan Botaniklər Cəmiyyətinin sədri kimi də fəaliyyət göstərmişdir.

Vahid Cəlal oğlu Hacıyev 2008-ci il aprel aynın 7-də ömrünün 81-ci ilində vəfat etmişdir.



***Aydın Qaradağlı,***
***diktor***

Əslən şuşalı olan Aydın Çingiz oğlu Qaradağlı 1929-cu il avqustun 20-də Qubada anadan olub. 1944-cü ildə orta məktəbi, 1945-ci ildə Xəzər Gəmiçilik Məktəbini (Azərbaycan Dövlət Dəniz Akademiyasını) bitirib.

1946-cı il dekabr ayının 18-də Azərbaycan dövlət radiosuna diktor vəzifəsinə işə qəbul olunub.

1948-ci ildə M.F.Axundov adma Azərbaycan Dövlət Teatr Məktəbini (aktyor ixtisası ilə), 1949-cu ildə Moskvada Ümumittifaq diktorluq kurslarını bitirib. 1951-1954-cü illər (1951 – Gürcüstan SSR, 1952-1954 Rumıniya) Sovet Ordusunda xidmət edib. 1955-ci ildə Gültəkin xanım Cabbarlı ilə ailə həyatı qurub. 1956-cı ildə Xanım, 1959-cu ildə Aygül adlı qızları, 1966-cı ildə isə Vüqar adlı oğlu anadan olur. 1961-1966-cı illərdə M.A.Əliyev adma Azərbaycan Dövlət İncəsənət İnstitutunda oxuyub. 1964-cü ildə Azərbaycan SSR-in əməkdar artisti (diktorlar arasında ilk dəfə) fəxri adma layiq görülüb. 1966-1968-ci illərdə dövlət radiosunun baş rejissoru, 1970-ci ildə isə Proqram Baş Redaksiyasının baş redaktoru vəzifələrində çalışıb.

Azərbaycan radiosunun "Qızıl fond"unda Aydın Qaradağlının ifasında dünya klassiklərinin, o cümlədən, Nizami, Füzuli, Natəvan, Cəfər Cabbarlı, Məhəmmədhöseyn Şəhriyarın və digər klassiklərin, habelə Səməd Vurğunun, Süleyman Röstəmin, Rəsul Rzanın, Höseyn Arifin əsərlərinin səs yazması qorunub saxlanılır.

Aydın Qaradağlı 1980-ci il yanvarın 28-də dönyasını dəyiş-mişdir.



***Cəlal Allahverdiyev, professor***

Cəlal Eyvaz oğlu Allahverdiyev 1945-ci ildə Bakı şəhərində 1 saylı orta məktəbi bitirmiş, lakin Şuşada oxuduğu illər öçön qiymət cədvəli olmadığına görə attestatını ala bilməmişdir. 1946-cı ildə Şuşa şəhərində məktəbi "əla" qiymətlərlə bitirmiş və qızıl medala təqdim edilmişdir. Lakin maarif nazirliyində riyaziyyat fənnindən "əla" qiymətinin "yaxşı" ilə əvəz olunması ona gömöş medal verilməsinə səbəb olmuşdur.

Cəlal Allahverdiyev 1951-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmişdir və akademik Mstislav Keldışm rəhbərliyi ilə Moskva Dövlət Universitetinin aspirantı olmuş, 1957-ci ildə "Öz-özönə qoşma olmayan tənliklərin bəzi siniflərinin məxsusi və birləşmiş funksiyalar sisteminin tamlığı haqqında" adlı namizədlik dissertasiyasını mödafiə etmişdir. 1968-ci ildə SSRİ EA Tətbiqi Riyaziyyat İnstitutunda "Spektral parametrdən rasional asılı öz-özönə qoşma olmayan operatorların məxsusi qiymətləri və məxsusi elementləri haqqında" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. SSRİ AAK tərəfindən ona 1969-cu ildə professor elmi adı verilmişdir.

Onun ən məşhur elmi nəticəsi "Allahverdiyev teoremi" adı altında bir çox kitablara, o cümlədən, funksional analiz dərsliklərinə salınmışdır.

Cəlal Allahverdiyevin Milli Aviasiya Akademiyasının elmi məqalələr jurnalında tələbələri ilə birgə dərc edilmiş bir sıra əsərlərində kompüterlərin iş prinsiplərinin nəzəri əsaslarının araşdırılması, təkmilləşdirilməsi, bir çox dillərdə, o cümlədən, Azərbaycan dilində kompüterlə ünsiyyət mexanizmlərinin işlənib-

hazırlanması və Azərbaycan dilinin qrammatikasının təkmilləşdirilməsi, Azərbaycan dilinin formal qrammatikasının yaradılması istiqamətində fundamental məsələlər araşdırılmış və mühüm elmi nəticələr alınmış, deduktiv maşında qeyri-səlis çoxluqların təsviri və deduktiv nəticə alınmasının uyğun mexanizmi verilmişdir.

Cəlal Allahverdiyev 1957-1960-cı illərdə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsində əvvəlcə müəllim, sonra isə baş müəllim işləmişdir. 1960-cı ildə Azərbaycan SSR EA-da yeni yaradılmış Hesablama Mərkəzində şöbə müdiri, sonra isə elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1960-cı ildən AMEA Kibernetika İnstitutunun "İdarəetmənin riyazi məsələləri" laboratoriyasının müdiri olmuşdur. 1969-1970-ci illərdə Azərbaycan SSR EA Kibernetika İnstitutunda elmi işlər üzrə direktor müavini, 1970-1988-ci illərdə həmin institutda direktor vəzifəsində çalışmışdır. 1988-1994-cü illərdə Azərbaycan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru işləmişdir. 1994-cü ildən bu universitetin tətbiqi riyaziyyat və kibernetika fakültəsinin "Əməliyyatlar tədqiqi və riyazi modelləşdirmə" kafedrasının müdiri işləmişdir.

1975-ci ildə ABŞ, 1976-cı ildə isə Böyük Brit aniyanm bir sıra universitetlərində mühazirələr oxumuşdur. 1996-cı ildə Hindistan, 1997-ci ildə isə Argentinada keçirilmiş məktəblilərin Beynəlxalq riyaziyyat olimpiadasında Azərbaycan komandasının rəhbəri olmuşdur. 1998-2000-ci illərdə İstanbul Universitetində çalışmışdır. Azərbaycan Sovet Ensiklopediyasının elmi redaksiya şurasının üzvü olmuşdur.

Akademik, böyük alim Cəlal Allahverdiyev 2017-ci il yanvarın 19-da 88 yaşında Bakı şəhərində dünyasını dəyişmişdir.

*Çinqiz Sadıqov,*
*pianoçu, xalq artisti.*



Çinqiz Hacı oğlu Sadıqov 1929-cu il aprel ayının 5-də Şuşada anadan olmuşdur.

O, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını və P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının aspiranturasını (professor Qoldenveyzerin sinfini) bitirmişdir.

Azərbaycan musiqisinin gözəl interpretatoru Çinqiz Sadıqov səhnə fəaliyyətinə 1953-cu ildə M. Maqomayev adma Azərbaycan Dövlət Filarmoniyasında başlamışdır. Pedaqojı fəaliyyətlə də məşğul olmuş, 1971-ci ildən Bakıdakı 16 nömrəli uşaq musiqi məktəbinin direktoru vəzifəsində çalışmışdır. Sonra müəllimlik fəaliyyətini Yəmən Xalq Demokratik Respublikasının paytaxtı Ədən şəhərindəki Zərif Sənətlər İnstitutunda davam etdirmişdir. İnstitutun açılmasında bilavasitə iştirak etmiş, mədəniyyət üzrə ekspert, sonra İXDR Mədəniyyət Nazirliyinin xahişi ilə nazirlikdə məsləhətçi işləmişdir. Gənc pianoçu akkomnaniatorluq fəaliyyəti ilə yanaşı, tez-tez konsertlərdə çıxış etmiş, klassik rus, sovet və xarici ölkə bəstəkarlarının əsərlərini ifa etmişdir. Bülbül, Rəşid Behbudov, Hacı Məmmədov, Şövkət Ələkbərova, Lütfiyar İmanov, Müslim Maqomayev, Fidan və Xuraman Qasımovaları royalda müşayiət etmiş və onların ifalarında xalq mahnılarının uğurlu interpretasiyasında böyük əməyi olmuşdur.

Azərbaycan xalq mahnılarının mahir ifaçılarından olan Çingiz Sadıqov hər dəfə yeni fikir, əhval-ruhiyyə aşılamaq, böyük ifadəlilik, yüksək musiqi mədəniyyəti, ifaçı müğənnini əvəzsiz duyma qabiliyyətinə görə onu ən yaxşı konsertmeyster, akkompaniatorlardan biri saymaq olardı. Onun sənətkarlığının spesifik xüsusiyyətlərindən bəhs edərkən musiqiçinin gözəl texnikası, parlaq artistlik temperamenti ilə yanaşı, onun ifasının

təbiiliyini və aydınlığını da xüsusilə qeyd etmək lazımdır. Məlum ştamp nümunələri ifası ona yaddır. Xüsusi improvizə qabiliyyətinə, hər hansı musiqi nömrəsini duyma bacarığına malik olması pianoçuya dəfələrlə ifa edilmiş musiqini yeni səpkidə səsləndirməyə, onu yeni rənglərlə zənginləşdirməyə əsas verir.

Zəngin yaradıcılıq təcrübəsi, Azərbaycan mədəniyyətini əsaslı şəkildə bilməsi bədii rəhbəri olduğu konsert-təşkilatında "Azkonsert"də uğurlu fəaliyyət göstərməsi üçün ona imkan verir. Çingiz Sadıqov istedadlı ifaçı gənclərin üzə çıxarılmasında və püxtələşməsində, onların ustalığının artırılmasında mühüm iş görür. O, Bakı, Sumqayıt, Gəncə musiqi məktəblərini ifaçı pianoçuların respublika müsabiqəsinin əsas təşəbbüskarlarından və təşkilatçılarından biri olub. Dəfələrlə Azərbaycan incəsənətini xarici ölkələrdə layiqincə təmsil etmişdir. Həmişə axtarışda olan sənətkar özünüifadə üçün müxtəlif musiqi formalarından istifadə edirdi. Azərbaycan xalq mahnılarını, həmçinin klassik və müasir müəlliflərin əsərlərini yeni redaksiyada işləyirdi.

Çingiz Sadıqov filmoqrafiyasma "Onu bağışlamaq olarmı?" (1959), "Rəşid Behbudov" (2000), "Gülağa Məmmədov" (2002), "Çingiz Sadıqov" (2006), "Memar" (2006), "Hər şey olduğu kimi", "Beşinci film" və sair daxildir.

1994-cu ildən San-Fransisko şəhərində yaşayan Çingiz Sadıqov Amerika Birləşmiş Ştatlarının qırxa yaxın şəhərində, o cümlədən, Kanadada konsert vermişdir. O, 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Azərbaycanın görkəmli musiqiçisi, istedadlı pianoçu Çingiz Sadıxov 2017-ci il dekabrin 30-da Amerikada vəfat etmiş, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən, vətənə gətirilərək II Fəxri xiyabanda dəfn olunmuşdur.

## *Toğrul Nərimanbəyov, monumentalçı rəssam*



Toğrul Fərman oğlu Nərimanbəyov əslən şuşalı idi. O, 1930-cu il avqust ayının 7-də Bakıda anadan olub. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini (1950) və Litva Dövlət Rəssamlıq İnstitutunu (1955) bitirmişdir.

Toğrul Nərimanbəyov təbiət, portret, mənzərə və natürmort janrlarında monumental boyakarlıq, illüstrasiya və teatr rəssamlığı sahələrində fəaliyyət göstərmişdir.

Yaradıcılığının ali dövründə tematik kompozisiyalar (“Yaylaqdan eniş”, “Baltik balıqları”, “Xəzər üzərində şəfəq”, “İşığın gələcəyi uğrunda”, “Fırtınadan güclü”, “Səadət”, “Həyat naminə”, “Tarla düşərgəsində”, “Tretyakov qalereyası” (Moskva), portret (“Polyak qızı”, “S. Bəhlulzadə”) və natürmortlar (“Natürmort Narlar”, “Narlar”, “Narlar və armudlar”) Şərq Xalqları İncəsənəti Muzeyi üçün əsərlər yaratmışdır. Rəssam yaradıcılığında realist təsvir metoduna əsaslanır, bədii forma axtarışlarında dünya incəsənətinin mütərəqqi ənənələrindən istifadə edir, rənglərin şərtilik və dekorativlik əlamətlərinə üstünlük verir (“Göyçay bağlarında”, “Musiqiçilər”, “Bolluq”, “Buzovnada bayram şənliyi”, “Qələbə bayramı”, “Bahar bayramı”, “Bağda” və sair tabloları) obrazlı ümumiləşdirmə, rənglərin dekorativliyi və emosional təsiri ilə fərqlənir. Xarici ölkə xalqlarının həyatından (“Hindistan”, 1972-1974) və zəhmət adamlarının əməyindən (“Məhsul bayramı”, 1975) bəhs edən tablolar seriyası çəkmişdir. Onun yaradıcılığında monumental boyakarlıq mühüm yer tutur (A.Şaiq adına Azərbaycan Uşaq Teatrının foyesindəki panno, Bakıdakı “Moskva” mehmanxanasının divar rəsmləri), “Nəsimi” xoreoqrafik poemasına, “Qobustan kölgələri”, F.Qarayev, “Min bir gecə” baletinə (Fikrət Əmirov) verdiyi bədii tərtibat Azərbaycan teatr rəssamlığının qiymətli nümunələrindəndir. 1952-ci ildən SSRİ-nin

bir çox şəhərlərində, həmçinin xarici ölkələrdə, o cümlədən, Polşa, Çexoslovakiya, Hindistan, Kuba, Almaniya Federativ Respublikası və sair ölkələrdə fərdi sərgisi olmuşdur.

Toğrul Nərimanbəyov bir çox orden və medallarla təltif olunmuş, o cümlədən, 1967-ci ildə Azərbaycan SSR və SSRİ Xalq rəssamı adını almış, SSRİ Rəssamlar İttifaqına üzv seçilmişdir. 1974-cü ildə F.Əmirovun "Nəsimi haqqında poema", "Min bir gecə" baletlərinin tərtibatına görə SSRİ Dövlət mükafatına (1980) layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali mükafatları olan "İstiqlal" və "Şərəf" ordenləri ilə təltif edilmişdir.

2013-cü il iyun ayının 2-də Fransada səfərdə olarkən vəfat etmiş və Kann şəhərində dəfn olunmuşdur.

***Sabir Şəfiyev,***
***pedaqoq***



Sabir Əli oğlu Şəfiyev 1930-cu ildə Şuşada anadan olsa da, Şamaxı şəhərinə köçdüklərinə görə orta məktəbi orda bitirmişdir.

ADPİ-nin tarix fakültəsini qurtararaq Göylər kəndində müəllim, sonra Azərbaycan LGKİ Mərkəzi Komitəsində təlimatçı, Naxçıvan Vilayət Komsomol Komitəsinin II və I katibi, Ağsu və Şamaxı rayon partiya komitələrinin birinci katibi vəzifələrində çalışmışdır.

1970-ci ildən elmi fəaliyyətə başlayan Sabir Şəfiyev bir müddət ADPİ-də çalışmış, dissertasiya müdafiə edərək alimlik dərəcəsi almışdır.

1997-ci ildən ömrünün sonuna qədər M. F. Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunda dosent, kafedra müdiri vəzifələrində işləmişdir. O, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Sabir Şəfiyev 24 monoqrafiya, dərslik və dərs vəsaiti, 150-dən çox elmi-publisistik məqalə yazmışdır.

Sabir Əli oğlu Şəfiyev 2010-cu ildə dünyasını dəyişmişdir.

***Qaçay Hüseynov,***
***pəhləvan***



Tarixən Şuşada pəhləvanlar da çox olub. Bu pəhləvanlardan biri də Azərbaycanın məşhur pəhləvanı Qaçay Hüseynov idi.

Qaçay Balaca oğlu Hüseynov 1930-cu il may ayının 5-də Şuşada anadan olub. Uşaqlıq illərindən idmana həvəsi olan Qaçay Hüseynov güləş və ağırlıqqaldırmada özünü sınamağa başlayır. Az keçmir ki, fiziki cəhətdən inkişaf etmiş pəhləvanın sorağı qonşu obalara və dost xalqlara da ge dib-ça tır.

Qaçay Hüseynov Şuşa rayon Mədəniyyət Şöbəsinin nəzdində fəaliyyət göstərən "Şuşa bahadırları" kollektivinin rəhbəri kimi tanınmış pəhləvan olub. Onu Qarabağda hamı sevirdi. Respublikamızı qarış-qarış gəzərək el sənətini ustalıqla nümayiş etdirirdi.

Pəhləvanın uğurları, şan-şöhrəti hər tərəfə yayılıb. Təkcə Azərbaycanda deyil, respublikamızın hüdudlarından uzaqlarda dəfələrlə çıxışlar edib, bu el sənətini nümayiş etdirib, uğurlar qazanıb.

Pəhləvanın övladları da qeyri-adi gücə malik olublar. Oğlanları Təvəkkül və Allah verdi Hüseynovlar da ataları ilə bərabər bu ənənəni davam etdiriblər.

1986-cı il noyabrın 23-də Şuşada dünyasını dəyişən Qaçay Hüseynovun övladları təəssüf ki, atalarının məzarını ziyarət edə bilmirdilər...Nəhayət, 2020-ci il noyabrın 8-də Ermənistan qoşunları Şuşada darmadağın edildi və şəhər azad olundu. İndi şöhrətli pəhləvanımızın ruhu azad və şaddır.



***Aida Tağızadə, musiqişünas-alim***

Aida Zeynal qızı Tağızadə 1934-cü il fevralın 5-də Şuşa şəhərində anadan olmuşdur.

Aida xanım ziyalı ailəsində boya-başa çatdığı üçün çox gözəl təlim-tərbiyə və təhsil almış, sonralar sənətşünaslıq elmləri namizədi, professor və Əməkdar incəsənət xadimi səviyyəsinə qədər yüksəlmişdir. Onun atası Zeynal Tağızadə dilşünas, filologiya elmləri doktoru olmuş, anası Sayalı Hacıyeva isə pedaqoji və tibb institutlarını bitirmişdir. Aida xanımın sənətin bütün növlərinə olan məhəbbətinin təməli məhz ailədə qoyulmuşdur. Lakin o, musiqişünaslığı özünə peşə seçmişdir.

O, A.Zeynallı adına Musiqi Texnikumunu bitirdikdən sonra konservatoriyada fortepiano üzrə ifaçılıq şöbəsində oxumuşdur. İki ildən sonra isə musiqişünaslığa üstünlük verərək bu şöbədə də təhsilini başa vurmuşdur.

Aida xanım 1958-ci ildən Bakı Musiqi Akademiyasında (BMA-da) fəaliyyət göstərir. Azərbaycan simfonik musiqisinin təşəkkülü və inkişafında böyük səy göstərən, hərtərəfli inkişaf etmiş böyük nəzəriyyəçi, dövrümüzün görkəmli bəstəkarı Cövdət Hacıyevə həsr olunmuş monoqrafiyasında (“İşıq”, 1979) müəllif Cövdət Hacıyevin Azərbaycan simfonik musiqisinin ümumi inkişafı fonunda özünəməxsus üslubunu araşdırmaq məqsədini izləyir. Kitabda onun beş simfoniyası, “Sülh uğrunda” simfonik poeması, kamera-instrumental musiqisi və fortepiano üçün “Musiqi lövhələri” yüksək peşəkar səviyyədə təhlil olunur.

Aida xanımın 1985-ci ildə “Yazıçı” nəşriyyatında çap olunmuş növbəti kitabı bəstəkar Soltan Hacıbəyovun yaradıcılığına həsr edilmişdir. Maraqlıdır ki, 1969-cu ildə müdafiə etdiyi namizədlik dissertasiyası da istedadlı sənətkarımızın əsərlərinin təhlili ilə

bağlıdır. Həmin monoqrafiyada bəstəkarın "Gülşən" baleti, simfonik janrda yazılan əsərləri, onun üslubu üçün səciyyəvi bir çox xüsusiyyətlər yüksək səviyyədə araşdırılmışdır.

A.Tağızadə müxtəlif qəzet və jurnallarda çap olunmuş 100-ə yaxın məqalənin müəllifidir. Məqalələrin əsas mövzuları Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov və sair böyük xalq sənətkarlarmn yaradıcılığı, bədii üslublarının özəllikləri, yeni əsərlərin təhlilidir. Peşəkar ifaçılıq sənətinə diqqət yetirən və dəyər verən Aida Tağızadə yazılarında Müslüm Maqomayev, Fidan və Xuraman Qasımova bacıları, Sərvər Qəniyev, Elmira Səfərova, Fəridə Quliyeva, Aida Abdullayeva kimi sənətkarların yaradıcılıq portretlərinə yer vermişdir.

O, "XX əsr Azərbaycan musiqisi" məqalələr toplusunun tərtibçisi və elmi redaktoru olmuşdur. 1994-cü ildə çap olunan toplunun birinci cildində milli musiqi mədəniyyətinin tarixi mərhələləri bədii estetik planda araşdırılmış və Azərbaycan bəstəkarlarının üslub problemlərinin analitik izahı verilmişdir.

Aida xanım 1996-2007-ci illərdə fəaliyyətini Türkiyənin Ankara Bilkənd universitetində davam etdirmişdir. Bu illərdə o, Azərbaycan və onun musiqi həyatı ilə əlaqələrini kəsməmiş, "XX əsr Azərbaycan musiqisi" məqalələr toplusunun II cildini hazırlamışdır. Üzeyir Hacıbəylinin 110 illiyinə həsr olunmuş həmin kit ab 1997-ci ildə işıq üzü görmüşdür. Dahi bəstəkarın yaradıcılığını əhatə edən bu kitabda onun zəngin irsi, tarixi missiyası bədii-estetik, tarixi-mədəni kontekstdə işiqlandırılmışdır.

Aida xanımın Azərbaycan bəstəkarlarının yaradıcılığına həsr olunmuş kitab və broşürləri Azərbaycan musiqişünaslığına bir töhfədir. Bu sırada dövrümüzün görkəmli bəstəkarları C.Hacıyevin, Hacıbəylilər sülaləsinin nümayəndəsi Soltan Hacıbəyovun, müasir musiqi sənətinin görkəmli nümayəndəsi A.Əlizadənin yaradıcılıqlarına həsr etdiyi monoqrafiyalar parlaq nümunələrdir...

***Eldar Əzimzadə,***
***hakim, idman xadimi.***



Eldar Əzimzadə 1934-cü il mayın 25-də Şuşada anadan olub. Yeniyetmə yaşlarında İçərişəhərin məhəllələrində yaşıdları ilə top qovan Eldar komandada hücumçu kimi oynayırdı. Texnikası və qol vurmaq bacarığı ilə yoldaşlarından fərqlənirdi. Günlərin birində oyundan sonra istirahət edərkən idman ustası, "Neftçi"(Bakı) klubunun əsas müdafiəçilərindən biri olmuş Naum Naumtsev ona yaxınlaşaraq Andreyev adma zavodun futbol komandasının məşqçisi olduğunu və Eldarı öz komandasında görmək istədiyini bildirib. Gənc Eldar futbola belə başlayır.

1952-ci ildə 18 yaşlı Eldar Azərbaycanın gənclərdən ibarət milli komandasının tərkibində Daşkənddə keçirilən SSRİ birinciliyində iştirak edir. 1957-ci ildə o, Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda təhsilini bitirdikdən sonra ali məktəbdə qalaraq futbol müəllimi işləyir. O zaman kafedrada Tofiq Bəhramov, Şamil Rzayev, Boris Zayonts kimi tanınmış mütəxəssislər çalışırdılar. Eldar da təcrübəli müəllimlərin biliklərindən bəhrələnirdi. Həmin ilin sentyabrında Bakı birinciliyi uğrunda yeniyetmələrdən ibarət "Dinamo" və "Spartak" komandalarının qarşılaşmasının hakimi gəlib-çıxmadığı üçün futbol federasiyasının məsul işçisi Boris Zayonts Eldardan oyuna hakimlik etməsini xahiş edir və beləcə onun hakimlik fəaliyyəti başlayır.

1961-ci ildə SSRİ Futbol Federasiyasının Hakimlər Kollegiyası tərəfindən Azərbaycanın bir qrup hakimi -B.Zayonts, T.Bəhramov, T.Vəliyev, Y.Qriqoryev, N.Məmmədzadə ilə yanaşı, E.Əzimzadəyə də ölkə çempionatının oyunlarını idarə etmək təklif olunur. Gənc Eldar Ümumittifaq yarışlarına referi kimi ilk dəfə Qroznının Terek və Riqanın "Dauqava" komandaları arasında keçirilən oyunda çıxır.

Təcrübəli hakimlər Teymur Vəliyev, Yuri Qriqoryev həmin oyunda E.Əzimzadənin köməkçiləri olmuşlar. Futbol icmalçısı, idman ustası Aleksey Feontyev "Futbol həftəliyi"ndə həmin oyun barədə belə yazmışdı: ***"SSRI-nin bacarıqlı futbol hakimləri sırasına daha bir hakim, bakılı Eldar Əzimzadə də daxil oldu. "***

Bundan sonra E.Əzimzadə SSRİ çempionatının güclülər dəstəsinin (o zaman "A" qrupu adlanırdı) oyunlarında baş hakim kimi birinci dəfə 1967-ci il sentyabrın 25-də Moskvada "Torpedo" və "Zarya" komandaları arasındakı oyunu idarə edib. Həmin oyuna nəzarət edən nüfuzlu komissiya E. Əzimzadənin hakimliyinə belə rəy vermişdi: ***"Oyun "yaxşı" qiymətə layiqdir. E.Əzimzadə güclülər dəstəsində növbəti görüşlərə tövsiyə edilməlidir".*** İlin sonunda həmyerlimiz Ümumittifaq dərəcəli hakim adına layiq görüldü.

1968-ci il mövsümündə bir neçə oyunu idarə etdikdən sonra bakılı referini çempionatın ən məsul matçlarından sayılan "Dinamo", "Kiyev", "Torpedo" qarşılaşması gözləyirdi. Həmin qarşılaşma haqqında təəssüratlarını Eldar Əzimzadə "Məhəbbətim mənim – futbol" adlı kitabında oxuculara belə nəql edir:

***"Bu xəbəri eşidəndə qulaqlarıma inanmadım. Çünki bu, çox prinsipial oyun idi. Mən, köməkçilərim Rauf Adıgözəlov və Əliskəndər Nağıbəyov Ukrayna paytaxtına gəldik. Oyunun inspektoru Nikolay Latışev bizi gözləyirdi. 95 min tamaşaçı ilə bərabər, stadiona Ukrayna KP MK-nın birinci katibi Şelest və onun komandası da təşrif buyurmuşdu. Belə halda dizlərin necə əsməsin? Meydana çıxanda yenə də rəhmətlik anamın mənə bağışladığı Quranı öpüb cibimə qoydum. Bu həyəcanlı dəqiqələrdə onunköməyinə ümidim böyük idi. Oyun çox gərgin keçirdi. 35-ci dəqiqədə Streltsov hesabı açdı. Birinci hissə torpedoçuların xeyrinə qurtardı. Fasilədən sonra dinamoçular nəinki bu topun əvəzini çıxdılar, hətta 88-ci dəqiqədə qələbə topunu da vurdular. "***

1974-cü il həmyerl imiz üçün ən uğurlu ill ərdən biri olub. SSRİ birinciliyi oyunlarında "yaxşı" və "əla" qiymətlərlə hakimi ik etdiyi

üçün ilin sonunda onun adı ölkənin on ən yaxşı hakimi siyahısına daxil edildi.

***"Ertəsi gün "Sovetski sport" və digər mərkəzi qəzetlər məni bərk tənqid etdilər. Etiraf etməliyəm ki, bu, ədalətli tənqid idi. Çünki kiyevli I. Sabo kobud oynayırdı. Hətta bir epizodda fit çalınandan sonra özünü çox intizamsız apardı. O, topu götürüb rəqibin üzünə vurdu. Bu hərəkətinə görə Sabo meydandan qovulmalı idi. Mən isə ona sarı vərəqə göstərməklə kifayətləndim ".***

Belə səhvlərə görə hakimlər də cəzalanırlar. Altı ay müddətinə hakimlikdən kənarlaşdırılandan sonra E.Əzimzadə yenidən SSRİ çempionatının birinci və güclülər dəstələrinin oyunlarını idarə etməyə başladı.

1976-cı ilin fevralında E.Əzimzadə ilk dəfə beynəlxalq futbol oyununa hakimlik etmək üçün dəvət alıb. İranda 12 ölkənin gənclərdən ibarət milli komandasının iştirakı ilə beynəlxalq turnir təşkil olunmuşdu. İran turnirindən sonra həmyerlimiz UEFA kuboku uğranda Rumıniyanın ACA komandası ilə Yuqoslaviyanın Srvena Zvezda klubu arasındakı oyunu idarə edib. Bu oyunda ona tanınmış hakimlər-kaunaslı K.Andzyülis və riqalı M.Rubenis kömək ediblər. Gözlənildiyi kimi, təcrübəli Yuqoslaviya futbolçuları böyük hesabla qalib gəlmişdilər. Həmin oyundan sonra bakılı hakim UEFA turniri çərçivəsində İstanbulun Qalatasaray və İngiltərənin Aston Villa komandalarının görüşünü idarə etmək üçün Türkiyədən dəvət alır. 1977-ci ildə Tunisdə yeniyetmələrdən ibarət milli komandalar arasında keçirilən birinci dünya çempionatında SSRİ-ni azərbaycanlı hakim Eldar Əzimzadə təmsil edib. Orda mərkəzi oyunlardan birini Tunis-İspaniya görüşünü (1:1) idarə etdikdən sonra həmyerlimiz beynəlxalq dərəcəli hakim normasını ödəyib. Həmin il SSRİ birinciliyinin güclülər dəstəsində 100-dən artıq matça hakimlik etdiyinə görə E.Əzimzadə SSRİ Futbol Federasiyasının qızıl medalına layiq görülüb və o, dördüncü dəfə ölkənin on ən yaxşı hakimi siyahısına daxil olub.

İldən-ilə Eldar Əzimzadənin idarə etdiyi beynəlxalq oyunların sayı artır. 1978-ci il onun üçün çox sevindirici olur. FİFA-ya göndərilən SSRİ-nin yeddi ən yaxşı hakiminin siyahısında onun adı

dördüncü idi. Bu isə ona dünya və Avropa çempionatlarının seçmə oyunlarına hakimlik etmək hüququ verirdi. Həmin il E.Əzimzadə Danimarka-Portuqaliya görüşünü idarə edib. Bu, onun milli komandalar səviyyəsində idarə etdiyi ilk rəsmi oyun idi.

Oyun zamanı belə bir hadisə baş verib. Görüşün ortalarında tribunadan meydançaya daş atılıb. E.Əzimzadə oyunu dayandırıb, matçın komissarını meydana dəvət edərək deyib ki, qoy stadionda elan edilsin, əgər bir də meydana daş atılsa, o, görüşü dayandırıb yerli komandaya məğlubiyyət verəcək. Bundan sonra azarkeşlər özlərini intizamlı aparıblar.

1979-cu ildə həm SSRİ çempionatının məsul görüşlərində, həm də UEFA turnirləri çərçivəsində keçirilən prinsipial matçlarda yüksək səviyyədə hakimlik etdiyi üçün E.Əzimzadəyə təkcə qalib komandaların deyil, həm də məğlub olmuş klubların rəhbərləri tərəfindən təşəkkürlər edilərək xatirə hədiyyələri təqdim olunub. Buna misal olaraq Barselona – İpsviç və Torino – Ştutqart matçr armı göstərmək olar. Bu oyunları yüksək səviyyədə idarə etdiyinə görə FİFA 1979-cu ildə E.Əzimzadəyə beynəlxalq dərəcəli hakim adını verib.

Nəhayət, 1979-cu ildə futbol mövsümünün yekunlarına görə Sovet İttifaqının 1 nömrəli hakimi seçilən Eldar Əzimzadəyə Moskva Yay Olimpiya oyunlarının futbol turnirinə hakimlik etmək həvalə olunur. Olimpiada ərəfəsində bakılı hakim yarışları idarə edəcək referilərin Almaniyanın Dyusburq şəhərində keçirilən seminarında iştirak edir. Bundan əlavə, o, Avro-80 seçmə oyunları çərçivəsində Belçika – Şotlandiya, habelə Olimpiya turnirinin seçmə matçı olan Çexoslovakiya- Polşa görüşlərini də idarə etməli olub. Yeri gəlmişkən, bir hadisəni də xatırladaq. Praqa matçı ərəfəsində ürəyində ağrı hiss edən Eldar müəll im bunu heç kimə bildirməyib. Yalnız Bakıya qayıtdıqdan sonra ailə üzvlərinin təkidi ilə çağırılan həkimlər onun ürəyinin ciddi xəstə olduğunu müəyyənləşdiriblər. İki-üç aylıq müalicədən sonra E.Əzimzadənin səhhəti yaxşılaşıb və o, hakimliyini davam etdirib.

1980-ci ildə Moskvada təşkil olunan XXII Yay Olimpiya Oyunları çərçivəsində keçirilən futbol yarışlarının birinci turunda

İspaniya-Əlcəzair görüşünü idarə edən həmyerlimizin köməkçiləri Milçenko və Stupar olublar. Ümumittifaq hakimlər kollegiyasının sədri Nikolay Latışev bu xəbəri eşidəndə FİFA-nm Avropa Hakimlər Komitəsinin sədri Zaypertdən təəccüblə soruşur: ***"Nə üçün məhz Əzimzadə?"*** O isə belə cavab ver ir: ***"Mən Eldara inanıram. O, çox yaxşı hakimdir".*** Qrup oyunları Sankt-Peterburqda, Kiyev və Minsk şəhərlərində keçirilirdi. Yarımfinal və final matçları isə Moskvada oynanılıb. Finala iki gün qalmış FİFA-nm o zamankı baş katibi Yozef Blatter həmyerlimizi mehmanxanada görüb, onu həlledici oyuna baş hakim təyin olunması münasibəti ilə təbrik edib. Final matçının hakimlik məsələsi müzakirə olunarkən Zaypert qeyd edib ki, finalda iki sosialist ölkəsinin komandaları qarşılaşacaqlar. Ona görə də həlledici görüşün hakimliyi Eldar Əzimzadəyə həvalə olunur. Köməkçiləri isə italiyalı Latanzi və isveçli Erikson olur.

1980-ci il avquslun 2-də XXII Yay Olimpiya Oyunl arının futbol turnirinin final matçı Moskvanın mərkəzi stadionunda 85 min tamaşaçının iştirakı ilə keçirildi. Turnirin sayca 32-ci, ən axırıncı matçında yarışların ən güclü komandaları – Çexoslovakiya və Al-maniya Demokratik Respublikası qarşılaşdılar. İlk dəfə idi ki, belə bir möhtəşəm turnirin final görüşünü Sovet hakimi idarə edirdi. Həmyerlimiz çətin imtahan qarşısında idi.

Oyun gözlənildiyi kimi, çox gərgin keçir. Birinci hissədə qol vurulmur. Fasilədən sonra mübarizə daha sərt şəkil alır. Görüşün qurtarmasına yarım saat qalmış qarşılıqlı kobud oyuna görə hakim alman Ştaynbaxı və çex Bergeri meydandan çıxarır. 77-ci dəqiqədə Çexoslovakiya komandası sol cinahdan sürəti ə hücuma keçir və Sloboda hesabı açır – 1: 0. Bu oyunun yeganə qolu olur. Çex futbolçuları ilk dəfə Olimpiya çempionu olurlar. Mətbuat konfransında hər iki komandanın məşqçiləri belə bir ümumi fikir söyləyirlər ki, meydanda ən yaxşı təsir bağışlayan oyunun hakimi idi.

Axşam "Sport" mehmanxanasında olimpiya oyunlarının iştirakçıları üçün verilən ziyafətdə FİFA prezidenti Joao Avelanj və BOK sədri Huan Antonio Samaranç final görüşünü əla idarə etdiyi

üçün Eldar Əzimzadəyə xüsusi medal və diplom təqdim edirlər. Oyunun komissarı Zaypert isə hər üç hakimə “əla” qiymət verdiyini elan edir.

Olimpiya oyunları başa çatdıqdan sonra SSRİ çempionatı və ölkə kuboku uğrundakı oyunları da yüksək səviyyədə idarə etdiyi üçün Eldar Əzimzadə mövsümün sonunda ikinci dəfə ölkənin bir nömrəli futbol hakimi seçilir.

1982- ci ildə FİFA-nın prezidenti Joao Avelanjın şərəfinə Meksikada yeniyetmələrin beynəlxalq turniri keçirilirdi. Turnirin hakimlər korpusuna Sovet İttifaqından yalnız Eldar Əzimzadə daxil edilmişdi. Finala SSRİ-nin milli komandası çıxdığı üçün təbii ki, E.Əzimzadə həmin matça hakimlik edə bilməzdi. O, üçüncü yer uğranda Meksika-Avstraliya komandalarının oyununa hakimlik etdi və qarşılaşmanı qüsursuz başa çatdırdı. Həmin il xüsusilə yaddaqalan oldu. İlin sonunda o, üçüncü dəfə SSRİ-nin ən yaxşı hakimi elan edildi.

1983- cü ildə Azərbaycan SSR Bədən Tərbiyəsi və İdman Komitəsinin futbol şöbəsinə rəis təyin olunan E.Əzimzadə 49 yaşında sonuncu dəfə güclülər dəstəsində “Torpedo” və “Jalgiris” komandalarının oyununu idarə etdi. O zamankı qaydaya görə, güclülər dəstəsində oyunlara 50 yaşına çatmamış adamlar hakimlik edə bilərdilər. Eldar Əzimzadənin hakimliklə vida matçı isə birinci dəstənin komandaları olan “Kolos” və “Kayrat” futbolçuları arasındakı görüş oldu. Tofiq Bəhramovdan sonra futbol üzrə beynəlxalq dərəcəli hakim adına layiq görülmüş ikinci azərbaycanlı hakim Eldar Əzimzadə futbol dairələrində həqiqətən yüksək nüfuza malik, ədalətli, prinsipial və qərəzsiz referi idi. Onun idarə etdiyi oyunların şahidi olanlar qürur hissi keçirir və həmin günləri iftixarla yad edirlər.

1994-cü ildə Azərbaycanın idman ictimaiyyəti Eldar Əzimzadənin 60 illik yubileyini təntənə ilə qeyd etdi. Bakı komandaları arasında futzal turniri təşkil edildi və yubilyar yarışın baş hakimi oldu.

Eldar Əzimzadə 2003-cü il yanvarın 20-də vəfat edib.



***Qədir Rüstəmov, xalq artisti, müğənni.***

Əslən şuşalı olan Qədir Rüstəmov 1935-ci il noyabr ayının 20-də Ağdam şəhərində anadan olmuşdur. O, ilk olaraq Ağdam Yeddiillik Musiqi Məktəbində təhsil almışdır.

1960-cı ildə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində, daha sonralar-1988-ci ildə yenidən Ağdam Musiqi Məktəbində təhsil almış, Ü.Hacıbəyli adına Ağdam Orta İxtisas Texnikumunda oxumuşdur.

Təhsil müddətində ustad sənətkarlardan muğamın incəliklərini mənimsəmiş, xanəndəlik sənətinin sirlərinə dərindən yiyələnmişdir.

Gənc yaşlarından mahir muğam ifaçıları mühitində yetkin xanəndə kimi formalaşan Qədir Rüstəmov nadir istedadı, məlahətli səsi və özünəməxsus ifa tərzi sayəsində az vaxt ərzində tanınaraq geniş dinləyici auditoriyasının böyük məhəbbətini qazanmışdır.

Onun ifasında bir çox unudulmuş xalq mahnıları (məsələn, “Sona bülbüllər”, “Neçin gəlməz”, “Apardı sellər Saranı”, “Laçın”, “Ay dili-dili” və s.) mahir muğam ustasının ifasında səslənən bir sıra muğam dəstgahları, o cümlədən, “Çahargah”, “Rast” musiqi mədəniyyətimizin qızıl fonduna daxil olmuşdur.

Qədir Rüstəmov Üzeyir bəyə həsr olunmuş “Uzun ömrün akkordları” (1981) filmində klassik muğam ifaçısı Cabbar Qaryağdıoğlunun obrazını ustalıqla yaratmışdır.

Tanınmış xanəndə 1988-ci ildə Azərbaycan Respublikasının əməkdar artist i, 1992-ci ildə isə xalq art isti adını almış, həmçinin “Şöhrət” ordeni ilə təlt if edilmiş (1997) və Azərt baycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

Xalqın sevimlisi Qədir Rüstəmov 2011-ci il dekabr ayının 14-də Türkiyədə rəhmətə getmişdir



***Nailə Mehdibəyova, diktor***

Nailə Baxış qızı Mehdibəyova 1935-ci ildə Bakı şəhərində dünyaya göz açmışdır. Orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Universitetinə qəbul olunmuşdur. Universitetin kimya fakültəsini tamamlayandan sonra bir müddət Azərbaycan Dövlət Televiziyasında diktor işləmişdir. Sonra Moskva şəhərinə köçüb SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində bələdçi kimi çalışmışdır.

Az sonra Moskva şəhərindəki 77 nömrəli orta məktəbdə kimya fənnindən dərs deyib, göstərdiyi bilik, bacarıq, çalışqanlığa görə məktəbə direktor təyin olunub.

Nailə xanım Şamil Budaqovla ailə qurub. Lalə və Aliyə adlı qız la rı var.

***Rafiq Hüseynov,***
***diktor***



Rafiq Əyyub oğlu Hüseynov 1946-cı il avqust ayının 4-də Şuşa şəhərində anadan olub.

17 yaşında Azərbaycan Televiziyasında çalışdıqdan sonra 1966-cı ildə təcrübəli diktor kimi fəaliyyətə başlayıb. Getdikcə püxtələşən gənc diktor bir çox televiziya diktorlarının yetişdirilməsində səmərəli əmək sərf edib. İctimai-siyasi, mədəni-bədii mətnlərin mahir ifaçısı idi.

2016- cı ildə Azərbaycan Milli Kino Günü münasibətilə Azərbaycan Kinematoqrafçılar İttifaqının təsis etdiyi illik mükafata layiq görülmüşdür. Televiziya diktoru Roza Tağıyevanın həyat yoldaşı olmuşdur. Leyli Hüseynlinin atasıdır.

2017- ci il oktyabrın 26-da Almaniyanın Düsseldorf şəhərində dünyasını dəyişib. Noyabr 2-də cənazəsi Almaniyadan Bakıya gətirilib. Noyabrın 3-də Rəşid Behbudov adma Azərbaycan Dövlət Mahnı Teatrında təşkil edilən vida mərasimindən sonra Yasamal qəbiristanlığında dəfn olunmuşdur.



***Niyazi Rəsulov, alim***

Niyazi Şahid oğlu Rəsulov 1948-ci il yanvar ayının 9-da Şuşa rayonunun Malıbəyli kəndində anadan olmuşdur. O, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin kimya fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir.

Bir müddət universitetdə kiçik elmi işçi və Ç.İldırım adına Azərbaycan Politexnik İstitutunda assistent vəzifələrində işləmişdir (1970-1976). İnstitutun aspiranturasını bitirmiş, 1974-cü ildə "Tsikloheksilvinilketonu homo və birgəpolimerləşməsi sahəsində tədqiqatlar" mövzusunda namizədlik dissertasiyası müdafiyə edərək kimya elməri namizədi elmi dərəcəsi almışdır.

Niyazi Rəsulov Ç. İldırım adına Azərbaycan Politexnik İnstitutunun Gəncə filialında baş müəllim, dosent (1976-1981), Azərbaycan Texnologiya İnstitutunda kimya kafedrasının müdiri (1981-1990) və H. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun rektoru (1990-1993), D. Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun professoru (1993-1995) vəzifələrində çalışmışdır.

Niyazi Rəsulov 1995-ci ildə Türkiyə Cümhuriyyəti tərəfindən Ankaraya dəvət almış, ömrünün axırına qədər Qazi Universitetində professor vəzifəsində işləməsi ilə bərabər, bir sıra strateji layihələrin rəhbəri və müşaviri olmuşdur. Görkəmli alim səksənə yaxın elmi məqalə, dərs vəsaiti, monoqrafiya, iki kitab və ondan artıq müəlliflik şəhadətnaməsinin müəllifidir.

O, 2020-ci il dekabr ayının 11-də Bakıda vəfat etmiş və orada dəfn olunmuşdur.



***Nadir Əlişov,***
***akademik***

Nadir İsmayıl oğlu Əlişov 1948-ci il iyul ayının 17-də Şuşada anadan olmuşdur. O, 1971-ci ildə M. Əzizbəyov adma Azərbaycan Neft və Kimya İnstitutunun istehsal proseslərinin avtomatlaşdırılması fakültəsini avtomatika və teleme-xanıka ixtisası üzrə fərqlənmə dip-lomu ilə başa vurmuşdur.

Həmin il o, Azərbaycan SSR Elmlər Akademiyasının aspiranturasına daxil olmuş, sonra Ukrayna SSR Elmlər Akademiyası Kibernetika İnstitutunun informatika və hesablama texnikası üzrə məqsədli aspiranturasına göndərilmiş, 1975-ci ildə oranı bitirmişdir (elmi rəhbəri akademik Boris Nikolayeviç Malinovski).

Elmi işi xüsusi eksperimental qurğularla əlaqədar olduğu üçün üç il Kiyev şəhərindəki İ.O.Paton adma Elektrik Qaynaqları İnstitutunda işləmiş, M-180 idarəedici maşının bazasında mürəkkəb elmi-texniki eksperimentlərin avtomatlaşdırılması üzrə elmi axtarışlarını davam etdirərək bu maşını tədqiq edənlərdən biri və məsul icraçı kimi xalq təsərrüfatı və hərbi əhəmiyyəti böyük olan bir sıra informasiya sistemlərinin işlənilib-hazırlanmasının rəhbəri olmuşdur.

“Elmi təcrübələrin avtomatlaşdırılması”mövzusunda namizədlik dissertasiyası müdafiə edəndən sonra Ukrayna SSR Elmlər Akademiyasının Prezidenti B.Y.Patonun xüsusi göstərişi ilə Kibernetika İnstitutunda saxlanılmış, elmi fəaliyyətini burada davam etdirmişdir.

1980-cı ildən o, bu fərdi kompüter və kompüter şəbəkələrinin əsasında onların tədqiqi ilə məşğul olmuş, Ukrayna və Rusiyanın görkəmli alimləri ilə birlikdə orjınal olaraq ilk sovet idarəedici mikroelektron maşını (müasir fərdi elektron maşınının sələfi)

yaratmış, müasir və perspektiv elmi-texniki informasiyalar sistemlərini işləyib-hazırlamış, həmin vaxt fərdi elektron-hesablama maşınlarının yerli şəbəkələri laboratoriyasının müdiri seçılmisdir. Nadir Əlişovun müasir intellektual bölgü sistemlərinin nəzəriyyəsinə və tətbiqi aspektlərinə həsr edilmiş "Fərdi elektron hesablama maşınları şəbəkəsi əsasında məlumat idarəedici sistemlərin quruluşunun nəzəriyyə və prinsipləri" mövzusundaki doktorluq dissertasiyası akademiyanın elmi şurası tərəfindən son illərdə müdafiyə edilmiş ən yaxşı elmi işlərin biri kimi qiymətləndirilmişdir.

Professor analoji dünya tətqiqatları arasında lider mövqe tutan üç elmi istiqamətin nəzəri-tətbiqi əsasını işləyib-hazırlamışdır:

- ***dünya praktikasında ilk dəfə olaraq nəzəriyyə yaratmış və müasir kompüter sistemlərində və şəbəkələrində verilmiş informasiya massivlərinin çatdırılması vaxtının optimallaşdırılmasının tətbiqi məsələlərini həll etmişdir;***
- ***danışa bilən mikrokompüterlərin bazasında bütün internet ehtiyatlarına, o cümlədən, audio və video informasiyasına faktiki olaraq pulsuz daxil edilməklə rabitənin mobil operatorlarını əvəz edərək yaxın gələcəkdə meqapolislərdə onların xidmətindən tədricən imtina etməyə imkan verən arxitektura, müvafiq vasitələr və texnologiyalar təklif etmişdir. işləyib-hazırladığı nəzəriyyələrin və texnologiyaların xarici ölkələrdə analoqu yoxdur;***
- ***açılmayan şıfrələrin bazasında bütün informasiya növlərinin qorunması üçün nəzəri baza müvafiq aparat-proqram vasitələri yaratmışdır, yəni, qorunmayan kanallarla, o cümlədən, internet vasitəsi ilə heç bir yolla məlumatların (danışığın, audio-video mətnlərini və s.) şifrəsini açmamaq zəmanəti ilə istənilən informasiyanı ötürmək və qəbul etmək olar.***

Bu işlərin nəticələri patentlərlə qorunur və həmçinin dünyada analoqu yoxdur.

Akademik Nadir Əlişov Ukrayna Milli Elmlər Akademiyası V.M.Qluşkov adma Kibernetika İnstitutunun aparıcı elmi işçisi, akademiyanın Kiyev Rasional Şöbəsinin rəhbəri, 1998-cı ildən milli aviasiya, milli yeyinti sənaye universitetlərinin, həmçinin Çerkassk

Dövlət Universitetinin professorudur. Dəfələrlə Almaniya, Çin, Bolqaristan, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və sair ölkələrdə ezamiyyətdə olmuş, elmi məruzələrlə çıxış etmişdir. İki yüzə qədər məqalə, onlarla patent, monoqrafiya, ali məktəblər üçün dərs vəsaiti və dərslikləri, “Fərdi kompüter şəbəkəsi” kitabının müəllifi və “Fərdi kompüterlərə aid məlumat kitabı”nm müəlliflərindən biridir.

Nadir Əlişov eyni zamanda Ukrayna Azərbaycan İctimayi-Mədəni Mərkəzinin, Türkdilli Xalqlar Cəmiyyətinin Şərq Xalqları Assosiasiyası Millətlər Şurasının sədri olmuşdur.

Ukrayna Respublikası Təhsil və Elm Nazirliyinin və Kiyev şəhər merinin Fəxri fərmanları ilə təltif edilmişdir. N.H.Ostrovski adma Ukrayna gənclər və SSRİ Nazirlər Soveti mükafatları laureatı adını almışdır (1980-1982).

Görkəmi i alim Nadir İsmayıl oğlu Əlişov 2021-ci il mart m 16-da Kiyev şəhərində vəfat etmiş və Kiyev şəhəri müsəlman məzarlığında dəfn olunmuşdur.

# *Klassik şuşalıların müasirləri*

***Hörmətli oxucular, Şuşaya bəşəri dəyərlər gətirən və onu Azərbaycanın mədəniyyət beşiyinə çevirən təbii ki, həyatın bir çox sahələrində onun ad-san qazanmış klassik sakinləridir. Yuxarıda təqdim etdiyimiz şəxsiyyətlərin həyat-fəaliyyətləri ilə tanışlıq bunu aydın göstərir. Özünüz də gördünüz ki, onların arasında elə nadir şəxsiyyətlər var ki, nəinki Azərbaycanda, həm də bütün dünyada tanınıb və sevilib.***

***Şuşalılar, əsasən, mədəniyyət və musiqi ifaçılığı sahəsində şöhrət qazanmaqla bərabər, elmin, texnikanın, diplomatiyanın, dövlət idarəertməsinin, incəsənətin müxtəlif sahələrində tanınıblar. Dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arşın mal alan " və "O olmasın, bu olsun " kinokomediyaları dünyanın 70-dən çox ölkəsində nümayiş etdirilib və milyonlarla tamaşaçının rəğbətini qazanıb. Görkəmli müğənnimiz Rəşid Behbudov dünyanın altmış ölkəsində ecazkar səsi, yüksək peşəkar ifası ilə milyonlarla əcnəbi dinləyicisini və tamaşaçısını heyrətə gətirib. Argentinada öz heyranlıqlarının bir salonda yerləşməyəcəyini hiss edən müğənni 40-50 min tamaşaçı tutan stadionda çıxış etmişdi. Hindistanda konsert zamanı istedadlı müğənnimizin gözəl ifasından vəcdə gələn yüksək vəzifəli dövlət adamları qol götürüb, onun qarşısında oynamışlar. Şöhrətli bəstəkarımız Fikrət Əmirovun "Min bir gecə" baleti dünyanın teatr səhnələrində gur anşlaqla qarşılanmışdır. Belə misallar çox çəkə bilərik, biz ancaq kiçik bir xatırlatma etdik.***

***Fəxrlə deyə bilərik ki, Şuşanın keçmiş şöhrətli nəsillərinin layiqli davamçıları olub və bu gün də var. Necə deyərlər, "ot kökü üstdə bitib. " Onların bəzilərinin şöhrəti təkcə Azərbaycanla məhdudlaşmayaraq vətən sərhədlərindən uzaqlarda da yayılıb.***

***Azərbaycanın adını və Bayrağını yüksəklərə ucaldan müasir şuşalılar elmin müxtəlif sahələrində, texnika və texnologiya sahəsində, teatr və muğam ifaçılığı, nəsr və poeziya, hətta kibernetika və kosmonavtika kimi mürəkkəb bir sahədə xarüqələr***

***yaradırlar. Şuşalı alimimizin ixtira etdiyi mürəkkəb cihazlar hazırda kosmosa uçan hava gəmilərində istifadə olunur. Kompüterlərin hazırlanmasında şuşalı alimlərin elmi nailiyyətlərindən istifadə olunmaqdadır.***

***Artıq bir ildən çoxdur ki, daim həsrətlə andığımız gözəl Şuşamız iyirmi səkkiz illik işğaldan azad edilib. Bu tarixi Zəfər şuşalılara yeni güc, qüvvət və təpər gətirib. Şübhəsiz ki, onlar da iddialı düşmənlərimizə cavab olaraq dünya arenasında Şuşa haqqında yeni əsərlər yaradacaq, onun sırf Azərbaycan şəhəri olmasını bir daha isbat edəcəklər. Ümumiyyətlə, bu məsələdə şuşalılar dünyanın hansı guşəsində olsalar, bizim hamımızla bərabər 2020-ci ildə bizə möcüzə yaşadan, müqəddəs torpaqlarımızın azad olunmasına rəhbərlik edən, ölkəmizi xoşbəxt gələcəyə aparan Azərbaycan Prezidenti, Ali Baş Komandanımız cənab ilham Əliyevin köməkçiləri olacaqlar.***

***Biz görkəmli şuşalılarla məmnunluqla fəxr edirik. Ancaq burada bilərəkdən adlarını çəkmədik. Çünki aşağıda hazırda həyatın müxtəlif sahələrində ad və iz qoyan şuşalıların bir neçəsini sizlərə təqdim edirik. Buyurun, tanış olun.***



***Məryəm Əlizadə,***
***sənətşünas-alim***

Məryəm Əlizadə 1950-ci il aprelin 14-də Bakı şəhərində anadan olmuşdur. Əslən şuşalıdır, professor Əbdül Əlizadənin bacısıdır.

Bakıda 31 saylı orta məktəbi bitirdikdən sonra M. A. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsində təhsil almışdır (1967-1972).

Əmək fəaliyyətinə Azərbaycan SSR EA Memarlıq və İncəsənət İnstitutunun Teatr və Kino şöbəsində baş laborant kimi başlamışdır (1972-1975). Bakı Kitabxanaçılıq Texnikumunda müəllimlik etmiş (1976-1978), M.A.Əliyev adma Azərbaycan Dövlət İncəsənət İnstitutuna dəyişilmiş, teatr tarixi kafedrasında müəllim (1978-1985), baş müəllim (1985), sonra isə dosent və professor vəzifələrində çalışmışdır.

Ədəbi fəaliyyətə 1972-ci ildən "Qobustan" toplusunda teatr tənqidi barədə dərc olunan məqalələrlə başlamış, bundan sonra dövri mətbuatda teatr tənqidinə və teatrşünaslığa dair məqalələrlə müntəzəm çıxış etmişdir. "Əhməd Ağdamski" və "Həbib bəy Mahmudbəyov" elmi-ədəbi oçerkləri "Unudulmaz səhnə ustaları" kitabında (1981, Yazıçı) dərc olunmuşdur.

Məryəm Əlizadə Azərbaycan Yazıçılar İttifaqı dramaturgiya şurasının sədri, M.Əzizbəyov adma Azərbaycan Dövlət Akademik Dram teatrında bədii şuranın (1987-ci ildən) və Azərbaycan SSR Teatr Xadimləri İttifaqı idarə heyətinin üzvüdür (1988-ci ildən).

"SSRİ və Yunan Teatr Əlaqələri. Ənənə və novatorluq" simpoziumunda (Afina – 1986, oktyabr) Sovet nümayəndə heyətinin tərkibində Yunanıstanda olmuşdur.



***Kamal Abdulla,***
***alim, ictimai xadim.***

Kamal Mehdi oğlu Abdullayev 4 dekabr 1950-ci ildə Bakıda anadan olub. O, əslən şuşalıdır. Azərbaycanın dünya miqyasında tanınmış alimi, yazıçısı və ictimai xadimidir. Filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikasının Xalq yazıçısı və Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Birinci dərəcəli dövlət müşaviridir.

Kamal Abdulla orta məktəbi bitirdikdən sonra 1968-1973-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil alıb. Universitet illərindən sonra həyatını elmə bağlamaq üçün SSRİ Elmlər Akademiyasının Dilçilik İnstitutunun "Türk dilləri" şöbəsinin əyani təhsil üzrə aspirantı olub. O, 1977-ci ilin yanvar ayında Moskvada "Sintaktik paralelizm" ("Kitabi-Dədə Qorqud" dastanlarının dili üzrə) adlı namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi alıb.

1977-1984-cü illərdə əmək fəaliyyətinə başlayaraq Azərbaycan SSR Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun "Türk dillərinin müqayisəli tədqiqi" şöbəsində kiçik elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışıb. Elmi axtarışlarını davam etdirərək 1984-cü ildə Bakıda "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" adlı doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib. Tanınmış alim uzun illər Azərbaycan Xarici Dillər İnstitutunda və M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunda rəhbər vəzifələrdə çalışıb. Ancaq onun fəaliyyət dairəsi daha da genişlənib. 1988-1990-ci illərdə Azərbaycan Mədəniyyət

Fondunun (Hazırda Azərbaycan Yaradıcılıq Fondu) sədrinin birinci müavini, 1990-cı ildən Fondun İdarə Heyətinin sədri seçilib, 1994-1995-ci illərdə Türkiyənin Bursa şəhərində Uludağ Universitetinin "Türk dili və ədəbiyyatı" bölümünün professoru kimi fəaliyyət göstərib.

Kamal Abdulla 2000-ci ilin may ayında M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun rektoru təyin edilib.

Həmin ilin iyun ayında Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamı ilə yeni təşkil olunmuş Bakı Slavyan Universitetinin rektoru vəzifəsinə göndərilib. 2011-2014-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının humanitar və ictimai elmlər bölməsinin akademik-katibi vəzifəsində çalışıb.

Azərbaycanın ictimai-siyasi həyatında xidmətləri olan Kamal Abdulla 2014-cü ilin fevral ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri təyin edilib. Həmin il noyabrın 19-da Prezidentin Sərəncamı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü təyin edilib. 28 noyabr 2014-cü il tarixində isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının ilk iclasında bu qurumun Himayəçilik Şurasının sədri seçilib. 2017-ci ildən Azərbaycan Dillər Universitetinin rektorudur.

Akademik Kamal Abdulla ali məktəblər üçün bir neçə dərsliyin müəllifi və həmmüəllifidir. Onun elmi əsərləri Azərbaycan və rus dillərinin problemlərinə həsr olunub və elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. "Azərbaycan dilində sadə cümlə sintaksisinin nəzəri problemləri", "Azərbaycan dili sintaksisinin nəzəri problemləri", "Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər", "Azərbaycanca danışaq" və digər elmi əsərləri bu qəbildəndir. Alimin bu əsərləri Parisdə, Buxarestdə, Budapeştdə və Abu-Dabidə çap olunub. Bunlarla bərabər görkəmli alim ədəbiyyatşünaslığa, ədəbi tənqidə və esseistikaya həsr olunmuş elmi məqalələri də qələmə alıb.

"Əvvəl-axır yazılanlar", "Yolun əvvəli və axırı", "300

azərbaycanlı" kitablarında dünya ədəbiyyatının problematik aspektlərindən bəhs edilir, qədim və müasir ədəbi prosesin görünməyən tərəflərini işıqlandırılır. Ölkəmizin gərgin ictimai-siyasi həyatında fəal iştirak edən, səmərəli elmi axtarışlar aparan Kamal Abdulla bütün bunlarla bərabər məhsuldar bir yazıçı kimi parlaq bədii əsərlər də yaradıb. Onun bədii əsərləri pyesləri, hekayələri, romanları, esseləri və şeirləri Azərbaycanda və xarici ölkələrdə çap olunur. Pyesləri Azərbaycan, Gürcüstan, Estoniya teatrlarında səhnəyə qoyulub.

Kamal Abdulla "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox...", "Sirlərin sərgüzəşti", "Tarixsiz gündəlik" romanlarının, şeirlər və hekayələr toplularının müəllifidir. Onun dram əsərlərindən ibarət Azərbaycan, rus, türk dillərində bir neçə kitabı çap olunub.

Göründüyü kimi, Azərbaycanın geniş ictimai-siyasi həyatında, ədəbi-bədii diapozonda məhsuldar əmək sərf edən alim və yazıçının əməyi çox böyükdür və bu, Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən daim yüksək qiymətləndirilir. 1999-cu ilin dekabr ayında Azərbaycan xalqının mühüm tarix və mədəniyyət abidələrindən olan "Kitabi-Dədə Qorqud" dastanının tədqiqindəki xidmətlərinə görə Kamal Abdullayevə Ümummilli liderimiz Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" adı verilib. 3 dekabr 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Respublikasında təhsil sahəsində səmərəli fəaliyyətinə görə ("Şöhrət" ordeninə layiq görülüb.

24 may 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə "Xalq yazıçısı" fəxri adı verilib. 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycan Respublikasında elm və təhsilin inkişafında böyük xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif edilib.

Görkəmli alim və yazıçı Kamal Abdulla Rusiyanın, Bolqarıstanın, Çexiyanın, Türkiyənin, Macarıstanın və daha bir neçə ölkənin ali dövlət mükafatları ilə də təltif olunub.



***Bayram Səfərov, dövlət məmuru***

2015-ci ildə Cəfər Cabbarlı mükafatı almış, 2015-ci il dekabrın 23-də TÜRKSOY-un "Haldun Taner" mükafatına layiq görülmüşdür.

Bayram Əsəd oğlu Səfərov 1951-ci ildə Şuşada anadan olub. İxtisasca iqtisadçıdır. Şuşa rayon İstehlak Cəmiyyətinin sədri, Şuşa rayon İcra Hakimiyyəti başçısının müavini vəzifələrində işləyib.

Son illər "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətində ("AZAL") rəhbər vəzifədə çalışıb. 2009-cu il fevral ayının 27-də Prezident İlham Əliyevin Sərəncamı ilə Şuşa rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

2009-cu il iyunun 5-dən Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri vəzifəsində işləyib.



***Vasif Quliyev,***
***yazıçı-publisist***

1954-cü il yanvarın 17-də Şuşanın Malıbəyli kəndində dünyaya gəlib. 1971-ci ildə Xan kəndi şəhər N. Gəncəvi adına 4 nömrəli orta məktəbi bitirib. Xan kəndi Elektrotexnika Zavodunda və Bakı Soyuducular Zavodunda çilingər işləyib. 1974-1976-cı illərdə Moskvada hərbi xidmət keçib. Ordudan tərxis edildikdən sonra Azərbaycan Dövlət Universitetinin hazırlıq şöbəsində oxuyub, 1977-ci ildə isə universitetin jurnalistika fakültəsinə qəbul edilib. 1982-ci ildə universiteti bitirdikdən sonra Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, sonra "Pioner" (indiki "Günəş") jurnalında jurnalistlik fəaliyyətini davam etdirib.

1973-cü ildən mətbuatda çıxış etməyə başlayıb. İlk qələm təcrübələri "Şuşa" rayon qəzetində dərc olunub. Vasif Quliyev o zaman nəşr olunan "Kommunist", "Sovet kəndi", "Azərbaycan müəllimi", "Ədəbiyyat və incəsənət", "Azərbaycan gəncləri", "Bakı", rusca çıxan "Bakinski raboçi", "Vışka", "Molodyoj Azerbaydjana" qəzetlərində, "Ulduz", "Qobustan", "Mədəni-maarif", "Azərbaycan təbiəti" kimi ədəbi, elmi-populyar jurnallarda çap olunub.

Tanınmış naşir V. Quliyev 1992-ci ildə "Şuşa" nəşriyyatını açaraq ona rəhbərlik edib. O, nəşriyyatda çap olunan 500-dən çox kitabın redaktoru, tərcüməçisi və rəyçisidir. Həmin kitabların əksəriyyəti Azərbaycanın, xüsusilə, Qarabağın tarixinə, ədəbiyyatına və etnoqrafiyasına həsr olunub. A. Ziyadxanovun "Azərbaycan", M.A.Dağlının "Səslən, tarım", N. Şeyxzamanlmm "Azərbaycan istiqlal mücadiləsi xatirələri", N. Nərimanovun "Hacı Zeynalabdin Tağıyev", Mir Möhsün Nəvvabın "1905-1906-cı illər erməni-müsəlman davası", A. Əliverdibəyovun "Rəsmli musiqi tarixi", İlya Çavçavadzenin "Erməni alimləri və fəryad edən

daşlar”, O. Kaçaznuninin “Daşnaksütyuna bir iş qalmadı”, Ç. Qacarın “Köhnə Şuşa” və digər sanballı əsərlər bu qəbildəndir.

Yazıçı Vasif Quliyevin qələmə aldığı “Ucalığa gedən yol”, “Maarif fədaisi”, “Enək İsa bulağına”, “Əgər şuşalısansa...”, “Vətən bağı al-əlvandır...”, “Dünənə uzanan cığır”, “Ən yaxın dost”, “Ötən günlərimi qaytaraydılar...”, “Mənim babam kim olub?”, “Biz gedəsiyik, dünya qal ası”, “180 yaşl ı Şuşa məktəbi”, “Yad et məni”, “İgidlərin sayı çoxdur bu yerdə”, “Mehmandarovlar”, “Bülbülcan” və bir sıra publisistik əsərləri oxucular tərəfindən maraqla qarşılanıb. İstedadlı yazıçı V. Quliyev Azərbaycan Jurnalistlər İttifaqının “Qızıl qələm” mükafatına, “Tərəqqi” və “Azərbaycan Cümhuriyyətinin 100 illiyi” medallarına layiq görülüb, bir neçə Fəxri fərmanla təltif olunub. Yazıçı Vasif Quliyev hazırda “Şuşa” nəşriyyatının direktoru və “Şuşa” qəzetinin redaktoru, “Günəş” jurnalının baş redaktoru vəzifələrində çalışır. Vasif Quliyev Azərbaycan Jurnalistlər və Yazıçılar İttifaqının üzvüdür.



***Şamil Süleymanlı,***
***xalq artisti, aktyor.***

Şamil Süleymanov 1955-ci il may ayının 11-də Bakıda anadan olub. M.A.Əliyev adma Azərbaycan Dövlət İncəsənət İnstitutunu bitirib. “Azərbaycanfilm” kinostudiyasında işləyib və bir çox filmlərdə çəkilib.

Ş.Süleymanovun ilk əlamətdar rolu “Ömrün səhifələri” kinoalmanaxında “Baladadaşın ilk məhəbbəti” qısametrajlı filmində Baladadaş rolu olub. Aktyorun dediyinə görə, o, foto sınaqdan belə, keçməyib. Aktyor bu rolla bağlı bunları deyir:

***“Abşeron bağlarında böyüdüyüm üçün bu obraz mənə tanış idi. Hekayənin hər misrasını bilirdim. Fikrət Əliyev məni seçdi,***

***bədii şuranı razı sala bildi və Baladadaş roluna təsdiq olundum. Çəkiliş zamanı anladım ki, Stanislavski məktəbi kinoda aktyora kömək etmir, bunun üçün sadəcə olaraq imkan yoxdur. Amma kinoya aşiq oldum. ilk verilişdə Elçin ekrana baxırdı, mən də ona... Mənim Baladadaşa nə verdiyim tamaşaçılara məlumdur. Baladadaş isə məni indi də Baladadaş kimi tanıdır. Ekranlarda Şamil adlı bir neçə obrazım olsa da, Həccə gedəndə mənə Hacı Baladadaş deyirdilər. ”***

2016-cı il iyulun 29-da Azərbaycan kinematoqrafiyasmm inkişafında xidmətlərinə görə Azərbaycanın xalq artisti fəxri adma layiq görülmüşdür.

Şamil Süleymanlı bir çox filmlərdə (39 sayda) çəkilmişdir. Onlardan “Baladadaşın ilk məhəbbəti” – Baladadaş, “Tütək səsi”- Cümrü, “Bağçada rahat yer” (1978) – Qəzənfər, “Diplom işi” (film,1979) – Mahmud, “Yuxu”(film,2001), “Üzeyir ömrü”(1981), “Sübhün səfiri”(2012) və s.



***Vüsalə Fətəliyeva,***
***filoloq, ictimai xadim.***

Vüsalə Mustafa qızı Fətəliyeva 1956-ci il martın 6-da Şuşa şəhərində anadan olub. O, Qarabağ müsavat təşkilatının rəhbərlərindən biri, repressiya qurbanı olan Adışirin Adıgözəl oğli Fətəliyevin nəvəsidir.

Vüsalə xanım Şuşa şəhər 1 nömrəli orta məktəbdə təhsil alıb, həmçinin Şüşa musiqi məktəbinin fortepiano sinfini bitirib.

1973-1978-ci illərdə Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universitetində) filologiya ixtisası üzrə ali təhsil alıb.

Vüsalə Fətəliyeva Şuşada M.M.Nəvvab adına Şuşa Musiqi Məktəbinin direktor müavini, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa filialının baş müəllimi vəzifəsində çalışmışdır.

1992-ci ildən Bakıda məskunlaşan Vüsalə xanım Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodiki İdarəsində, Təhsil Problemləri İnstitutunda, Bakı Baş Təhsil İdarəsində məsul vəzifələrdə çalışmışdır. 12 ildən artıqdır ki, Şuşa rayon İcra Hakimiyyəti başçısının müavini vəzifəsində işləyir.

Vüsalə Fətəliyeva uzun illər YAP Şuşa rayon Qadınlar Şurasının sədri vəzifəsini icra etmişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif olunmuşdur.

***Səadət Qarabağlı, jurnalist***



1957-ci il dekabrın 30-da Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda dünyaya gəlib. Əslən şuşal ıdır. XVIII əsrdə böyük bir sülalənin banisi olmuş Məşədi Ocaqverdinin nəslindəndir.

Musiqi texnikumunu və Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 1979-cu ildən Üzeyir Hacıbəylinin ev-muzeyində fonoteka müdiri kimi əmək fəaliyyətinə başlayıb. Sonra orada tənəzzöh (ekskursiya) rəhbəri, kiçik elmi işçi, ekskursiya və kütləvi işlər şöbəsinin müdiri, elmi katib və muzeyin direktoru vəzifələrində çalışıb. Hazırda Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında musiqi hissə müdiri vəzifəsində işləyir.

Publisistik fəaliyyətə 1978-ci ildən başlayıb. Üzeyirbəyşünas kimi isə ilk məqaləsi 1980-ci ildə “Ədəbiyyat və incəsənət” qəzetində dərc edilib. Bundan sonra respublikanın mərkəzi dövri mətbuatında Üzeyir bəyin həyatı, yaradıcılığı və s. mövzularda müntəzəm olaraq 800-dən çox məqaləsi çap olunub, televiziya və radio kanallarında çıxışlar edib.

Səadət xanım ölkəmizdə və xaricdə keçirilən konfranslarda Üzeyir bəyin həyatı və yaradıcılığı barədə məruzələr və çıxışlar edib. Dahi bəstəkarın yaradıcılıq irsinin nəşrində və təbliğində böyük xidmətlər göstərən Səadət Qarabağlı 1996-cı ildə çap olunmuş "Üzeyir Hacıbəyov" ensiklopediyasının müəlliflərindən biridir. Şöhrətli bəstəkarın "Arazbarı" (redaktoru İsmayıl Hacıbəyov) simfonik əsərinin, "Aşıqsayağı" triosunun partituralarını nəşr etdirib. "Üzeyir bəy Hacıbəyovun publisistikasında musiqi məsələləri" (I və II nəşrlər), "Şöhrət tacı" (tərtibçilər Ramazan Xəlilov və Səadət Qarabağlı), "Üzeyirbaycan", "Üzeyir bəy Hacıbəyov və Molla Nəsrəddin" (tərtibçilər Səadət Qarabağlı və Tahir Aydınoğlu), "Barı-Naxçıvanın 100 yaşlı bəstəkarı" kitablarının, "Ustadı xatırlarkən" SD-nin (hazırlayanlar: Səadət Qarabağlı və Gülbəniz Hüseynli) müəllifidir.

Səadət xanım Azərbaycan televiziyasında "Azərbaycanın musiqi mədəniyyəti tarixi" proqramının aparıcısı və müəllifi kimi də tanınıb. O, SSRİ Mədəniyyət Nazirliyinin döş nişanına (1985), Azərbaycan SSR Mədəniyyət Nazirliyinin təşəkkürnamələrinə, KİV DDF Həmkarlar İttifaqının "Nurlu qələm ustası" və Azərbaycan-Finlandiya Assosiasiyasının "Gümüş arzu" mükafatlarına layiq görülüb. "Üzeyirbaycan" kitabı "Vektor" Beynəlxalq Elm Mərkəzinin "İlin kitabı" beynəlxalq mükafatı ilə təltif edilib.

Səadət Qarabağlı Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

***Şəlalə Həsənova,***
***jurnalist***



Şəlalə Arif qızı Həsənova 1958-ci il martın 3-də Bakı şəhərində anadan olub. O, 1980-cı ildə BDU-nin filologiya fakültəsini bitirmişdir. Filologiya üzrə fəlsəfə doktorudur.

Şəlalə Həsənova ilk tarixçi və şərqşünas alimilərimizdən olan şuşalı Şamil Əliyevin nəvəsidir. O, babasının şərəfli elm və yaradıcılıq yolunu davam etdirir.

Professor Şəlalə Həsənova Bakı Slavyan Universitetinin jurnalistika kafedrasının müdiridir.

O, həmçinin erməni yalanlarını ifşa edən 10 sənədli filmin yaradıcısı, görkəmli PR mütəxəssisidir. 1979-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, əməkdar jurnalistdir. İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək İctimai Birliyinin təsisçisi və rəhbəri, “Humay” mükafatı laureatıdır. Şəlalə xanım “Literaturnıy Azerbaydjan” jurnalının redaksiya heyətinin üzvüdür.

Şəlalə Həsənova bir çox fəxri ad və mükafatlarla təltif olunmuşdur:

Əməkdar jurnalist fəxri adı – Azərbaycan Respublikası Prezidentinin 253 N-lı sərəncamı ilə (14 dekabr 2016); “Humay” mükafatı -Yazıçılar Birliyinin təqdimatı ilə ən yaxşı elmi-tədqiqat əsərinə görə (1996); Fərdi təqaüd – Yazıçılar Birliyinin Prezident fondundan (2015); Diplom – QHT-lərə Dövlət Dəstəyi Şurasının keçirdiyi Filmlər Festivalında “Qafqaza erməni köçü xronikası” filminə görə (2017); Fəxri fərman – Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi və Müəllif Hüquqları Agentliyi tərəfindən “Yaradıcılıq və innovasiya sahəsində nailiyyətlərə görə”(2018); Medal – Rövşən Mustafayev adına Beynəlxalq fond tərəfindən “Azərbaycan həqiqətlərini ictimaiyyətə düzgün çatdırılmasına görə” (2018); Təşəkkümamə – Nyu-York şəhəri Bruklin rayonunun

başçısı Eric L. Adams tərəfindən Azərbaycan mədəniyyəti və tarixini Amerika ictimaiyyətinə tanıtdırdığına görə; (ABŞ, 2018);"Yılm en iyi PR uzmanı" – "Türkiye-Azerbaycan kardeşlik ödülleri"müsabiqəsi, (Türkiyə, 2019).

Şəlalə Həsənova bir neçə sayt yaratmışdır ki, bu saytlar özəlliyi ilə fərqlidir:

www.west-land . az (2009-cu il)

www.erevangalqa500.com (2011-ci il)

www.realmap.az (2019-cu il)

2009-cu ildə onun yaratdığı www.west-land.az saytı İnternet məkanına daxil ediləndən sonra rusdilli internetdə ilk dəfə olaraq "Zapadniy Azərbaycan" ölkəmizdə məna yükünü daşıyan anlayışda açıqlandı. Ondan öncə "Google"də Azərbaycan yalnız "İranda əyalət" kimi göstərilirdi. Bu sayt Ermənistanda azərbaycanlılara qarşı soyqırımı kəndlər üzrə demoqrafik statistika əsasında isbatlayan ilk online informasiya məhsulu oldu.

2011-ci ildə yaratdığı www.erevangala500.com saytı unikal kitabxanası, sənədləri və layihələri ilə seçilir. Onlardan ən önəmlisi erməni xislətini ifşa edən "Vizantiya i armyane" layihəsidir.

2019-cu ildə hazırladığı www.realmap.az saytının unikallığı interaktiv xəritəsindədir. Bu xəritədə Ermənistanın ərazisində 400 əzəli Azərbaycan kəndinə virtual həyat verilmiş, hər kənd xəritədə açıldıqda onun haqqında məlumat verilir və əhalinin sayının azalması azərbaycanlılara qarşı törədilmiş soyqırım faktını təsdiqləyir.

Şəlalə xanımın tədqiqatçılığı sayəsində çəkilən filmlərin özünəməxsusluğu ondadır ki, hər birində erməni falsifikasiyaları yalnız Qərb, Rusiya, erməni alimlərinin dəlilləri əsasında ifşa edilir və Ermənistanın əzəli azəri-türk ərazilərində yaradılmasını isbat edir.

Aşağıda göstərilən bir neçə filmin ABŞ, Macarıstan, Latviya, Rusiya, Ukrayna, Gürcüstanda geniş təqdimatı keçirilmişdir:

- 500 yaşlı İrəvanın qopardılmış ürəyi (2011);
- Qafqazda olmayan ölkə – Ermənistan (2012);

- “Ararat “YOX” deyir” (2014);
- “Kesabda erməni oyunu” (2014)
- Erməniləşdirilmiş Azərbaycan xalçaları (2014)
- “Amerikalı ekspertlər qondarma “erməni soyqırımı” haqqında (2014);
- “Ermənilərin Qafqaza köçü xronikası” (2015);
- “İlk xristian ölkəsinin izi ilə””(2016);
- “İrəvanda azərbaycançılığm izi ilə” (2016);
- “İrsimizə atəş açmayın” (2017).

Şəlalə Həsənova 200-ə yaxın elmi və publisistik məqalənin və dörd kitabın müəllifidir.

Kitabları:

- Mühacirət irsimizdən səhifələr, Bakı, 1996
- Mühacirət irsimizin “Yurd Bilgisi”, Bakı, 2014
- Jurnalistlər üçün Public Relations, Bakı, 2017
- “PR terminləri ensiklopediyası” 2019

***Firəngiz Mütəllimova,***
***teatr aktrisası***



Firəngiz Bəhər qızı Mütəllimova 1959-cu il mayın 1-də Ağcabədi rayonunda doğulub. Əslən şuşalıdır. 1976-cı ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsinə daxil olub və 1980-ci ildə oranı bitirib. Həmin il Azərbaycan Akademik Milli Dram Teatrına aktrisa götürülüb. Elə ilk gündən ona məsul rollar tapşırılıb və istedadının dəyərli çalarları üzə çıxıb.

Teatrda səmərəli fəaliyyət göstərən Firəngiz Mütəllimova paralel olaraq televiziya tamaşalarında da iştirak edib.

Üçillik fasilədən sonra aktrisa 1996-cı ildən yenidən Akademik teatrın truppasına qəbul olunub. Qısa müddətdə repertuardakı tamaşaların bir neçəsinə daxil edilib, təzə əsərlərdə rollar oynayıb. Gözəl ("Qılınc və qələm", Məmməd Səid Ordubadi), Aynur ("Büllur sarayda", İlyas Əfəndiyev), Mələk ("Bizim qəribə taleyimiz", İlyas Əfəndiyev), Gülnaz ("Mahnı dağlarda qaldı", İlyas Əfəndiyev), Gülruh ("Şeyx Xiyabani", İlyas Əfəndiyev), Gülnaz ("Tənha iydə ağacı", İlyas Əfəndiyev), Azadə xanım ("Dəlilər və ağıllılar", İlyas Əfəndiyev), Sonya ("Sizi deyib gəlmişəm", Anar), Firəngiz ("Təhminə və Zaur", Anar), Anna ("Həyatın dibində", Maksim Qorki), Reya ("Böyük Romul", F. Dürrenmatt), Tereza ("Biganələr oteli", Rüstəm İbrahimbəyov), Əsmər ("Günah", R. Əlizadə), Nisə xanım ("Lənkəran xanının vəziri", Mirzə Fətəli Axundzadə), Maral ("Sənsiz", Şıxəli Qurbanov), Nədidə ("Qanlı Nigar", Sadıq Şəndil), Aysulu ("Sokratı anma gecəsi", Çingiz Aytmatov və M. Şahanov), Arvad ("Mənim ərim dəlidir" ("Diaqnoz D"), Gülzar ("Poçt şöbəsində xəyal", Elçin), Sevər ("Bu dünyanın adamları", Hidayət Orucov), Həvva ("Varlı qadın", Əli Əmirli), Raisa ("Mesenat", Əli Əmirli), Nigar ("Qanlı Nigar", Sadıq Şəndil), Kərbəlayi Fatmanisə ("Almaz", Cəfər Cabbarlı) və s.

Firəngiz Mütəllimova Azərbaycan Dövlət Televiziyasında hazırlanmış iyirmidən çox teletamaşada müxtəlif səpkili rollar ifa etmişdir. Onlardan Gülnar ("Səni axtarıram", "Bağışla", "Səndən xəbərsiz", Aslan Qəhrəmanov), Mərcan ("Evləri köndələn yar", Anar), Ana və qız ("Unutmaq olmur"), Nazan ("Yad qızı", Orxan Kamal), Almaz ("Topal Teymur", Hüseyn Cavid), Almaz ("Göz həkimi", İslam Səfərli), Günay ("Səninlə və sənsiz", Marat Haqverdiyev) və s. rolların bədii estetik keyfiyyətlərini xüsusi qeyd etmək olar.

Aktrisa "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmiş "Qaçaq Nəbi" (Sərvinaz), "Qocalar, qocalar" (Feyli), "Bəyin oğurlanması" (Telli), "İşarəni dənizdən gözləyin" (Sona) bədii filmlərində, "Mənim ağ şəhərim" (Ana), "Şərəf" (Mila xanım) telefilmlərində aparıcı rollar oynayıb.

Firəngiz Mütəllimovaya 1986-cı ildə Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, 1991-ci ildə Azərbaycan Respublikasının əməkdar artisti və 2000-ci ildə Azərbaycan Respublikasının xalq artisti fəxri adları verilib. ADMİU-nun dosentidir.

2012-2018-ci illərdə Prezident təqaüdünə, 2017-ci ildə Cəfər Cabbarlı mükafatına, 2019-cu ildə isə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür.

***Gülşən Lətif, yazıçı, tərcüməçi, hüquqşünas.***



Gülşən Lətif qızı Kazımova 1961-ci il noyabrın 8-də Bakı şəhərində anadan olmuşdur.

O, məşhur şuşalı Kazımovlar nəslindəndir. 1978-ci ildə Bakı şəhəri 193 saylı məktəbi bitirmiş və həmin ildə SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutuna daxil olmuşdur. 1983-cü ildə institutun ingilis dili fakultəsini fərqlənmə diplomu ilə bitirmişdir. 2001-ci ildə isə Amsterdam universitetinin Avropa bilikləri və hüquq (2001) fakültələrini bitirərək incəsənət masteri (doktorantus) dərəcəsi almışdır. Bir müddət (1983-1985) Bakıdakı 212 nömrəli orta məktəbdə və Bakı Maliyyə-Kredit Texnikumunda müəllim işləmişdir. 1994-cü ildən Niderland Krallığında yaşamış, holland ictimaiyyəti arasında və mətbuatında xüsusi yer tutaraq burdakı Azərbaycan diasporunun görkəmli nümayəndəsi kimi tanınmışdır. 1998-2001-ci illərdə Amsterdam, Haaqa və Harlem şəhərlərində ingilis və rus dillərində müəllimlik etmişdir. O, Avropadakı azərbaycanlı qadınların cəmiyyətə inteqrasiyasına, hüquq və azadlıqlarının qorunmasına yardım göstərmək məqsədilə "Ana Vətən" Avropa Azərbaycanlı Qadın Təşkilatının təsisçisi və rəhbəri olmuş (2004), insan hüquqlarının müdafiəsi üzrə böyük və faydalı işlər aparmış, eyni zamanda Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında mühüm xidmət göstərmişdir. Gülşən Lətif Azərbaycan Yazıçılar Birliyinin və Niderland Yazıçılar İttifaqının üzvüdür.

Bədii yaradıcılığa ötən əsrin doxsanıncı illərində başlayan gənc ədib "Nəslimizin qızları", "Azər və Aida" romanlarının, onlarca hekayənin müəllifi idi. İstedadlı yazıçı əsərlərində müasirlərinin

taleyini qloballaşan dünyanın müstəvisində ustalıqla təsvir edir, zəngin axtarışlarını, nigarançılıqlarını, duyğu və həyəcanlarını qələmə alırdı. Onun qəhrəmanlarını sevgidə sədaqət, doğma torpağa məhəbbət, qədim mədəniyyətə – keçmişə hörmət kimi duyğular birləşdirirdi.

Gülşən Lətifin "Azər və Aida" romanı nəşr olunandan sonrakı beş ildə ən çox oxunan kitablar siyahısına daxil edilmiş (2006), "Nəslimizin qızları" kitabına görə isə o, Rusiyada keçirilən Beynəlxalq ədəbiyyat müsabiqəsinin qalibi olmuşdur (2009). "Ədəbi tanışlıqlar" Beynəlxalq almanaxın redaksiya heyətinin üzvü seçilmişdi. Haaqada Azərbaycan səfirliyində Gülşən xanımım böyük yaradıcılıq gecəsi keçirilmişdir. 2014-cü ildə onun əsəri əri Azərbaycan, rus, holl and və ingilis dillərində çap edilmişdir.Yüksək yaradıcılıq qabilliyyətinə malik olan bu xanım Avropada Azərbaycan diasporunun tanınmış və fəal nümayəndəsi kimi 2011-ci ildə "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" adma layiq görülmüşdür.

2015-ci il yanvar ayının 1-də Niderl and Krall ığı Haaqa şəhərində vəfat etmiş və Bakıya gətirilərək Xırdalanda dəfn olunmuşdur.



***Ramiz Qəmbərov,***
***Azərbaycanın Milli Qəhrəmanı***

Ramiz Bulud oğlu Qəmbərov 1962-ci il iyu lun 2-də Şuşa şəhərində anadan olmuşdur.

1979-cu ildə H. Hacıyev adma Şuşa şəhər orta məktəbini bitirmişdir. 1980-ci ildə hərbi xidmətə çağırılmış, 1982-ci ildə ordudan tərxis olunaraq Şuşaya qayıtmışdır.

1986-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna daxil olmuşdur. Amma təhsilini başa çatdıra bilməmişdir. Erməni təcavüzkarlarının başladığı Qarabağ müharibəsi minlərlə qeyrətli Azərbaycan oğulları kimi Ramizi də torpaqlarımızın müdafiəsinə qalxmağa məcbur etmişdir.

Ramiz 1988-ci ildən xalq hərəkatına qoşulmuşdur. O, 1992-ci ildə könüllü özünümüdafiə batalyonu yaratmış və bu batalyonun komandiri olmuşdur. Onun taboru Şuşa şəhərinin, Kərkicahan, Kosalar, Nəbilər, Qaybalı, Malıbəyli, Quşçular, Göytala kəndlərinin müdafiəsində mərdliklə vuruşmuşdur.

1992-ci il aprelin 29-da erməni işğalçıları Kosalar və Kərkicahan kəndləri yaxınlığındakı postlara hücum edən zaman Ramiz Qəmbərovun taboru döyüşə atılmış və bu döyüşdə cəsur komandir ağır yaralanmışdır. Bir gün sonra, 1992-ci il aprelin 30-da o, dünyasını dəyişmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Ramiz Bulud oğlu Qəmbərov ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adma layiq görülmüşdür.

Ramiz Qəmbərov Şuşa şəhərində dəfn edilmişdir. Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır.

*Aygün Məcidova, pedaqoq*



Aygün Əbülfət qızı Məcidova 1964-cü il dekabrın 2-də Füzuli şəhərində anadan olmuşdur. Pedaqoqdur. "Qabaqcıl təhsil işçisi (2006), pedaqoji elmlər üzrə fəlsəfə doktoru (2008), "Azərbaycan Respublikasının əməkdar müəllimidir (2010). S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini (1987), Təhsil Problemləri İnstitutunun aspiranturasını (2008) bitirmiş, Azərbaycan Dövlət Pedaqoji Universitetinin ibtidai təhsil pedaqogikası və metodikası ixtisası üzrə tam yenidən hazırlanma kursunda (1998-1999) oxumuşdur. Pedaqoji fəaliyyətə Abşeron rayonunun Novxanı kənd məktəbində başlamış, sonra Bakıdakı 175 nömrəli orta məktəbdə işləmişdir.

Gənc müəllim təhsil sistemində gedən islahatlarla bağlı bir sıra seminar, treninq, kurs, dərsliklər üzrə keçirilən tender, konfransların iştirakçısı olmuş (1998-2004), sertifikatlar almış, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və UNİSEF-in "Fəal interaktiv Təhsil Texnologiyası" üzrə məşqçi sertifikatlaşdırma proqramını bitirmiş, məşqçi-sertifikatı qazanaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin UNİSEF-lə birgə hazırladığı layihələrin iştirakçısı olmuşdur.

Aygün Məcidova "İbtidai siniflərin riyaziyyat təlimi prosesində ədəd anlayışının öyrədilməsi yolları" adlı namizədlik dissertasiyası müdafiə etmişdir (2008). Bir sıra elmi jurnallarda on beşdən çox məqaləsi dərc edilmiş, birinci siniflər üçün ana dili dərsliyinin, iş

dəftəri və müəllimlər üçün metodik vəsaitin, hüsnxəttin müəllifi və ikinci siniflər üçün “Azərbaycan dili” dərslik komplekt vəsaitinin müəlliflərinin biridir. Ümumiyyətlə, otuz beşdən çox kitabın müəllifi və həmmüəllifidir. “İlin ən yaxşı müəllimi” müsabiqəsinin qalibi kimi Azərbaycan Respublikası Prezidentinin mükafatını almış (2008), Azərbaycan müəllimlərinin XIII qurultayının nümayəndəsi (2009) olmuşdur.

Hazırda (1998-ci ildən) Bakı Avropa Litseyində ibtidai sinif müəllimi və direktor müavini, N. Tusi adma Azərbaycan Dövlət Pedaqoji Universitetində “İbtidai riyazi təhsilin metodikası” kafedrasında (2007-ci ildən) çalışır.

***Azad Məmmədov, aktyor***



Azad Əşrəf oğlu Məmmədov 1964-cü il dekabrın 24-də Şuşada anadan olmuşdur.

1980-1984-cü illərdə Mir Möhsün Nəvvab adma Şuşa Musiqi Texnikumunun kamança sinfində təhsil alıb, sonradan burada müəllim kimi fəaliyyət göstərib. 1988-1993-cü illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin özfəaliyyət teatr kollektivinin rəhbəri fakültəsində qiyabi təhsil alıb.

1990-cı ildən Şuşa Dövlət Musiqili Dram Teatrında aktyor, 1994-cü ildən isə həm də direktor müavini kimi fəaliyyət göstərir.

“Nəğmədir, gülüşdür hər dərdə məlhəm” adlı konsert-tamaşada həm aktyor, həm də musiqiçi kimi çıxış edib. Teatrda hazırlanan aşağıdakı tamaşaların musiqi tərtibatçısı olub: C. Cabbarlı “Aydın”, S. S. Axundov “Tamahkar”, Ə. Haqverdiyev “Dağılan tifaq”, C. Məmmədquluzadə “Kamança”, H. Mirələmov “Güllələnmiş

heykəllərin fəryadı", İ. Əfəndiyev "Sən həmişə mənimləsən", N. Qənbər "Meymunun dəfni".

1994-cü ildə keçirilən "Him-cim" pantomim festivalında R. Şahsuvarovun "Üç nöqtə, vergül, nida, sual" pantomim tamaşasındakı Bala ördək (mim), 1999-cu ildə keçirilən "Milli klassika" festivalında M. F. Axundovun "Hekayəti Müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli şah cadükuni məşhur" tamaşasındakı Hatəmxan ağa, 2005-ci ildə keçirilən "Boş məkanın dolğunluğu" teatr festivalında kişi ("Musiqili məktublar", F.Mustafa) və Nikita İvanıç ("Qu quşunun nəğməsi", A. P. Çexov) rollarını oynayıb.

2002-ci ildə Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl dərviş" mükafatını ("Əyri oturaq, düz danışaq" tamaşasının yaradıcı heyəti ilə birlikdə) alıb.

2005-ci ildən Prezident mükafatçısıdır. 2013-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adma layiq görülmüşdür.

*Elmir Vəlizadə, mühəndis*



Elmir Tofiq oğlu Vəlizadə 1964-cü il dekabrın 25-də Mingəçevir şəhərində anadan olmuşdur. Mühəndisdir. M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu mühəndis-sistem texniki ixtisası üzrə qiyabi yolla bitirmişdir (1989). Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuş (1983-1985) və ali təhsilini başa vurduqdan sonra təyinatla institutun hesablama mərkəzinə göndərilmişdir. Burda işləməklə yanaşı, hesablama maşınları və proqramlaşdırma kafedrasında pedaqoji fəaliyyət göstərmiş (1989-1991), süni intellekt və ekspert sistemləri mövzusunda elmi-tədqiqat işləri aparmışdır. Bir müddət (1991-1998) Azərbaycan Respublikası Prezident Aparatında birinci dərəcəli mütəxəssis kimi çalışan gənc kadr sonra Prezidentin İcra Aparatının İnformasiya Resursları və Texnologiyaları Mərkəzinin rəhbəri (1998-2005) və İnformasiya Resursları və Texnologiyaları Şöbəsinin müdiri (2005-2007) vəzifələrində işləmişdir. 2007-ci ildən Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini idi.

Elmir Vəlizadə informasiya texnologiyalarının tətbiqi, informasiya sistemlərinin yaradılması və istismarı, həmçinin bu sahənin inkişafı məsələləri ilə məşğul olmuş, proqram təminatının Azərbaycan dilinə tərcüməsi ilə bağlı ölkəmizdə ilk dəfə həyata keçirilən işlərə rəhbərlik etmişdir. Respublikada və xarici ölkələrdə keçirilən bir çox Beynəlxalq konfransların iştirakçısı olmuş, məruzələrlə çıxış etmişdir. Bir neçə elmi məqalənin və metodiki vəsaitin müəllifidir. Müxtəlif Fəxri fərmanlarla təltif edilmişdir.

***Hikmət Sabiroğlu,***
***jurnalist***



1966-cı il yanvarın 1-də Şuşada doğulub.

1983-cü ildə şəhər 4 nömrəli orta məktəbini, 1991-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib.

"Azadlıq" qəzetində (müxbir, informasiya və siyasət şöbələrinin müdiri, redaktor müavini), "Avropa" qəzetində (baş redaktor müavini), "III Sektor" jurnalında çalışıb.

2006- cı ildən "Media forum" saytında baş redaktor müavini olub. Hazırda Novator.az saytının baş redaktor müavinidir.

2007- ci ildə çapdan çıxmış "Qarabağ söhbətləri" kitabının müəllifidir. Hikmət Sabiroğlu "Qarabağ söhbətləri"ndə Qarabağın azad və abad günlərindəki yaşantılarını, uşaqlıq və yeniyetməlik çağlarının xatirələrini, Qarabağ müharibəsi, 1980-1990-cı illərdə milli azadlıq hərəkatı dövründə şahidi olduğu hadisələri qələmə alıb.



***Nəriman Bağırov, gömrük xidməti polkovniki***

Nəriman Zakir oğlu Bağırov 1966-cı il mayın 16-da Bakı şəhərində anadan olmuşdur. Gömrük xidməti polkovnikidir. S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini (1990) və Azərbaycan Dövlət İqtisad Universitetinin xarici iqtisadi əlaqələrinin təşkili və dövlət tənzimləmə fakültəsini (1996) bitirmişdir. 1984-1986-cı illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuşdur. Əmək fəaliyyətinə Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunda baş la- borant kimi başlamış (1989-1990), "Universal" bankda proq- ramçı (1990-1991), "Biruni" (1991-1992) və "Fortuna" (19921993) kiçik müəssisələrində baş menecer, "İlkbank" kommersiya bankında ekspert (1993-1995), Azərbaycan Respublikası Milli Məclisi Aparatının iqtisadi qanunvericilik şöbəsində məsləhətçi (1995-1998) vəzifələrində işləmişdir. 1998-ci ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində çalışır.

Nəriman Bağırov bir çox Fəxri fərman və döş nişanları ilə təltif edilmişdir.

***Dilquşa Mirçəyeva,***
***texnika elmləri namizədi***



Dilquşa Ramzey qızı Mirzəyeva 1967-ci il noyabrın 10-da Bakı şəhərində anadan olmuşdur. Texnika elmləri namizədidir. (2002). S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tətbiqi-riyaziyyat fakültəsini (1989) və Azərbaycan Milli Elmlər Akademiyasının "Neft və qaz yataqlarının işlənilməsi və istismarı" ixtisası üzrə aspiranturasını bitirmişdir. Gənc alim bircins mayenin relaksasiyası süzülməsinə dair düz və tərs məsələlər üzrə tədqiqatlar aparmış və bu tədqiqatlar vasitəsi ilə bir sıra xətti relaksasiyalı süzülmə modelləri üçün bəzi düz və tərs məsələlərin riyazi qoyuluşlarının adekvat olmadığını göstərmişdir. Bu məsələlər həm relaksasiya effektlərinin layın işlənmə göstəricilərinə təsirinin qiymətləndirilməsində, həm də lay parametrlərinin hidrodinamik üsullarla təyin olunmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda onların adekvat riyazi qoyuluşlarını vermişdir. Relaksasiyalı süzülmə modelləri üçün düz və tərs məsələlərin zamana görə yüksək tərtibli bir diferensial tənliyə görə deyil, aşağı tərtibli diferensial tənliklər sistemi üçün, yaxud zamana görə birinci tərtibli inteqro-diferensial tənlik vasitəsilə təzyiqin və süzülmə sürətinin relaksasiyası nəzərə alınmaqla özlü-elastiki mayenin elastiki məsaməli mühitdə süzülməsi modeli, elastiki mayenin relaksasiyası sıxılan və sürüşkən məsaməli mühitlərdə Darsi qanunu ilə süzülməsi modeli və ideal qazın sürüşkən məsaməli mühitlərdə süzülməsi modeli üçün konkret məsələlər qoyulmuş və həll edilmişdir. Özlü-elastiki mayenin elastiki layda süzülməsi və

elastiki mayenin relaksasiyalı sıxılan layda Darsi qanunu ilə süzülməsi modelləri üçün həm laboratoriya, həm də mədən şəraitində quyudibi təzyiqin bərpası məlumatlarına əsasən layın süzülmə və relaksasiyalı parametrlərinin tapılmasına imkan verən düsturlar alınmışdır. Tədqiq olunan süzülmə modelləri üçün çoxsaylı hesabatlarla neft layının işlənmə dinamikasına relaksasiya effektlərinin təsiri öyrənilmişdir.

Dilquşa Mirzəyeva 2003-cü ildən AMEA-nm Geologiya İnstitutunda ardıcıl olaraq kiçik, böyük, aparıcı elmi işçi vəzifələrində işləmişdir. 2004-cü ildən Bakı Dövlət Universitetinin tətbiqi-riyaziyyat fakültəsində müəllim, Geologiya İnstitutunun nəzdindəki D.01.081 Dissertasiya Şurasının elmi katibi vəzifələrində çalışır. On dörd elmi əsərin müəllifidir.

***Anar Kərimov, musiqiçi, polkovnik.***



Anar Elman oğlu Kərimov 1970-ci il iyunun 2-də Bakı şəhərində anadan olub. O, məşhur aktyor, şuşalı Mustafa Süleymanovun nəvəsidir. 1989-cu ildə A.Zeynallı adma Bakı Orta İxtisas Musiqi məktəbini bitirmişdir. Sonra isə təhsilini Ü.Hacıbəyli adma Bakı Musiqi Akademiyasında davam etdirmişdir. 1994-cü ildə isə həmin akademiyanın müəllim, simli alətlər və dirijorluq fakültəsini bitirmişdir. Həmin ildən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrində əvvəl hərbi dirijor (1994-1996) , sonra isə rəis (1996-2014) vəzifələrində xidmət etmişdir. 2014-cü ildən Şəxsi Heyət Baş İdarəsi Hərbi Orkestr Xidmətinin rəis müavinidir.Elə həmin il o, palkovnik rütbəsinə

layiq görülmüşdür. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimidir.

Anar Kərimov Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin 15, 20, 25, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90, 95 illiyi yubiley medalı, "Qüsursuz xidmətə görə" I, II, III dərəcəli və "Hərbi xidmətdə fərqləndiyinə görə" medalları ilə təltif edilmişdir.



***Elşad Məmmədov, əməkdar mədəniyyət işçisi, montaj rejissoru.***

Elşad Rasim oğlu Məmmədov 1971-ci il iyun ayının 3-də Tərtər şəhərində anadan olmuşdur. O, sadə bir şuşalı ailəsindəndir.

1993-cü ildə Azərbaycan Texniki Universitetinin radiotexnika fakültəsini radioyayım və televiziya ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində başlamış, mühəndis vəzifəsində çalışmışdır (1994-2005).

İşlədiyi müddət ərzində Azərbaycanın yüzlərlə tarixi şəxsiyyəti, tanınmış elm və sənət adamları haqqında, Qarabağın, Bakının tarixinə aid onlarla sənədli və bədii televiziya filminin hazırlanmasında iştirak etmişdir.

Elşad Məmmədov hazırda (2005-ci ildən) İctimai Televiziya və Radio Yayımları Şirkətində montaj rejissoru vəzifəsində çalışır.



***Murad Adıgözəlzadə, pianoçu***

Murad Zöhrab oğlu Adıgözəlzadə 1973-cü il noyabrın 10-da Bakı şəhərində anadan olmuşdur. Pianoçudur. Bülbül adına Bakı Orta İxtisas Musiqi Məktəbini (1991), Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını (1996) və Almaniyada Münxen Musiqi Akademiyasının aspiranturasını bitirmişdir.

Murad Adıgözəlzadə Çexoslovakiyada, Almaniyada və sair ölkələrdə keçirilmiş Beynəlxalq müsabiqələrin iştirakçısı olmuş, Moskvada, Türkiyədə, Almaniyada geniş konsert proqramları ilə çıxış etmişdir. Gənc pianoçu 1996-cı ildə "İlin ən yaxşı musiqiçisi və pianoçusu" adını qazanmışdır.



***Naina İbrahimova, teatr və kino aktrisası***

Naina Ağəli qızı İbrahimova 1973-cü il noyabrın 27-də Bakı şəhərində anadan olmuşdur. O xalq rəssamı Ağəli İbrahimovun qızıdır. 1989-cu ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin skripka sinfini, 1993-cü ildə isə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmişdir. Eyni zamanda 1996-cı ildə Futurologiya İnstitutunun qadın geyimləri dizayneri, 2004-cü ildə isə Azərbaycan Dövlət

Mədəniyyət və İncəsənət Universitetinin aktyor sənətkarlığı fakültələrini bitirmişdir.

Naina İbrahimova səhnə fəaliyyətinə 1995-ci ildə S.Vurğun adına Döv 1 ət Rus Dram Teatrında başl amışdır. Onun ilk səhnə tamaşası S.Vurğun adına Dövlət Rus Dram Teatrında olmuşdur. Bir sıra obrazları – Nisə xanım ("Lənkəran xanını vəziri"), Şirin ("Fərhad və Şirin"), Betti ("Təhlükəli döngə"), Vaselisa ("Gözəl Vaselisa"), Şahzadə Permelad ("Şelqunçik") və sair yaratmışdır. Bir çox teleseriala çəkilmişdir.2010-cu ildə Naina İbrahimova Azərbaycan Respublikasının əməkdar artisti adını almışdır.

O, həmçinin dəfələrlə Fəxri fərmanlara, diplomlara, digər mükafatlara layiq görülmüşdür.



***Tahir Imanov,***
***KVN çempionu***

Əslən şuşalı olan Tahir Qorxmaz oğlu İmanov 1974-cü il dekabrın 12-də Bakı şəhərində anadan olub. Bəstəkar Süleyman Ələsgərovun nəvəsidir.

1981-1991-ci illərdə Bakı şəhəri 189 say 1 ı məkl əbdə təhsil alıb. 1991-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olunub və 1996-cı ildə həmin universiteti bitirib. İxtisasca iqtisadçıdır. 1991 -2001-ci illərdə "Parni iz Baku" KVN komandasının üzvü olub. 1992-ci ildə KVN çempionu, 1995-ci ildə KVN "Yay kubokunun" sahibi və 2000-ci il KVN "Əsrin çempionu" olmuşdur.

2001-ci ildə "Planet Pami iz Baku" KVN teatrını yaradıb. Hazırda həmin teatrın bədii rəhbəri, rejissoru və aktyorudur. Azərbaycan mədəniyyətinin inkişafında layiqli xidmətləri var.

Azərbaycanın əməkdar artisti Tahir İmanov AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Qorxmaz İmanovun oğludur.

***Cabir imanov,***
***KVN çempionu***



Əslən Şuşadan olan Cabir Qorxmaz oğl u İmanov 1976-cı il iyunun 22-də Bakı şəhərində anadan olub. Bəstəkar Süleyman Ələsgərovun nəvəsidir.

1983-1993-cü illərdə Bakı şəhəri 189 saylı məktəbdə oxuyub.

1993-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olunub və 1997-ci ildə həmin ali təhsil ocağını bitirib. 1997-1998-ci illərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında həqiqi hərbi xidmət keçib. 1999-cu ildə Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olunub və 2003-cü ildə universiteti bitirib. İxtisasları: iqtisadçı, hüquqşünas.

1999-2018-ci illərdə DİO-da müxtəlif vəzifələrdə işləyib.

1992-2001-ci illərdə "Parni iz Baku" KVN komandasının üzvü olub 1992-ci ildə KVN çempionu, 1995-ci ildə KVN "Yay kuboku"nun sahibi və 2000-ci ildə KVN "Əsrin çemı pionu" olmuşdur.

2001-ci ildən "Planet Parni iz Baku" KVN teatrının aktyorudur. 14 sentyabr 2015-ci ildə Azərbaycanın əməkdar artisti fəxri adma layiq görülmüşdür.

Ailəlidir, üç övladı var. AMEA-nın müxbir üzvü, İspaniya Kral Akademiyasının üzvü, professor, iqtisad elmləri doktoru Qorxmaz İmanovun oğludur. Azərbaycanın əməkdar artisti, aktyor Tahir İmanovun qardaşıdır.



***Şahin Növrəsli,***
***pianoçu***

Şahin Növrəs oğlu Növrəsli 1977-ci il fevralın 10-da Bakıda anadan olub. XIX əsrdə yaşamış Azərbaycan şairi Mirzə Ələsgər Növrəsin kötücəsidir.

Musiqi ilə çox erkən yaşlarından məşğul olmağa başlayıb və on bir yaşındaykən Azərbaycan Dövlət Filarmoniyasında simfonik orkestrin solisti kimi çıxış edib. O, təhsilini Bülbül adma Orta İxtisas Musiqi Məktəbində davam etdirmiş, oxuduğu illər ərzində klassik musiqi ilə dərindən və ciddi məşğul olmuşdur.

18 yaşında Ş.Növrəsli Raxmaninovun İkinci Konserti ilə çıxış edərək münsiflər heyətinin ən yüksək qiymətinə layiq görülmüşdür. Bakı Musiqi Akademiyasında oxuyarkən özünü tamamilə klassik və caz musiqisinə həsr etmişdir. Həmin vaxtdan daimi qastrollar, turlar, beynəlxalq festivallar onun həyatının ayrılmaz hissəsi olub.

Şahin daim böyük həvəs və zəhmətlə yeni layihələr üzərində işləyir. Neytn Pek, Aleksandr Maşin, Nurlan və Arslan Növrəslilərin iştirakı ilə caz triosu və xalq çalğı alətlərinin sintezi nəticəsində yaranan "Əbədi yol" adlı layihə məhz belə gərgin əməyin sayəsində ərsəyə gəlmişdir. Daha bir layihə isə caz sol o proyekt və klassik sol o proyekt "Clâj amu"-dur (Proqram Mosart və Bax kimi klassik bəstəkarların əsərləri əsasında tərtib olunmuşdur). O, həmçinin Keni Viler, Uday Mazumdar, Alison Miler, Neytn Pek, Aleks Pek, Mat Zebroski, Cef Lederer, Con Vikan, Sa ş a Ma ş in və başqa tanınmış musiqiçilərlə çıxışlar etmiş və albomlar yazdırmışdır.

Şahin Növrəsli konsertlərlə çıxış etdiyi Türkiyə, Fransa, Rusiya, Azərbaycan və digər ölkələrin universitetlərində və məktəblərində ustad dərsləri ("Master klass") verir.

Şahin Növrəslini "Dünya cazının yeni ulduzu" adlandırırlar... Qısa müddət ərzində Şahin caz musiqisinin məğzini və onun çoxobrazlı imkanlarını o qədər dərindən başa düşmüşdür ki, onun ABŞ və Avropada beynəlxalq festivallarda çıxışları bu sahənin ən mahir bilicilərini və professionalları heyrətə salmışdır. Rusiyanın paytaxtındakı çıxışı ərəfəsində Moskva cazmenləri onu bu cür təntənəli epitetlərlə qiymətləndirmişlər: ***"'Dahi həmvətəni Vaqif Mustafazadənin davamçısı", "'Dünya cazının yeni ulduzu".*** Artıq müasir dövrdə Şahini Azərbaycan cazının vizit kartı adlandırmaq olar. Ona Azərbaycan muğamının melodiyaları ilə ənənəvi caz ritmlərini əlverişli sintez etmək müyəssər olmuşdur. O öz musiqisində iki böyük mədəniyyəti – Qərb və Şərq mədəniyyətini birləşdirə bilmişdir.

Ekzotik melodiyalarin sakit-sakit fırlanaraq toxunuşu, iti harmoniya, şıltaq Şərq ritmləri və elə oradaca dönüş super sürətli qaynar amerikan cazına yönəlir – bu Şahin Növrəslinin musiqisidir. Beləliklə, Şahin cazmen, bəstəkar və pianoçu kimi fəaliyyət göstərir.

Şahin Növrəslinin üç qardaşı var: Nurlan, Arslan və Tərlan. Hər üç qardaş Şahin kimi istedadlı və yaradıcı gənclərdir.

***Adil Bağırov,***
***siyasi elmlər doktoru***



Adil Toğrul oğlu Bağırov 1978-ci il aprelin 23-də Bakı şəhərində anadan olmuşdur. O, yüksək vəzifələrdə çalışan tanınmış çekist Adil Bağırovun nəvəsidir. Adil Bağırov orta təhsilini Moskvada almışdır.
Toeel proqramı üzrə keçirilən test sınaqlarından uğurla keçdiyinə görə Amerika Birləşmiş Ştatlarına dəvət edilmiş, əvvəlcə Miçiqan, sonra isə Kaliforniya ştatındakı Cənubi Kaliforniya Universitetinin beynəlxalq münasibətlər və biznesin təşkili ixtisası üzrə təhsil alıbdır. 2011-ci ildə isə Moskva Dövl ət Beynəlxalq Münasibətlər İnstitutunda "Rusiya-Amerika münasibətlərində və dünya siyasətində neft-qaz faktoru" mövzusunda dissertasiya müdafiə edərək siyası elmlər doktoru alimlik dərəcəsi alıb. Tələbəykən həmçinin ARKO neft şirkətində analitik şərhçi kimi fəaliyyət göstərərək SSRİ haqqında məlumatlar toplayıb, şirkət rəhbərliyinə təqdim etmişdir. Universiteti bitirdikdən sonra Los Anjeles şəhərində internet kompaniyasında işləmiş, həm keçmiş iqtidar, həm də ayrı-ayrı şirkətlərin sifarişi ilə W səhifələr açmış və digər internet xidmətləri göstərmişdir. O, həmçinin Azərbaycanın dostu, general Brent Skolkroft haqqında da W səhifələr açmışdır.

2002-ci ildə Adil Bağırov Amerika Birləşmiş Ştatları konqresində işləmək üçün dəvət almış, Konqresin Kurt Yeldonun Müstəqil Dövlətlər Birliyi ölkələri üzrə məsləhətçisi təyin olunmuşdur. "Qloballaşma və beynəlxalq münasibətlərdə internet faktoru" ilk elmi tədqiqatları böyük reaksiyaya səbəb olmuşdur. O, müasir

texnologiyaların qloballaşmada oynadığı rolu araşdırmış, elmi işini uğurla müdafiə etmişdir.

Adil Bağırov internet məkanında Azərbaycan həqiqətlərini bütün dünyaya yayan ilk azərbaycanlı kimi dövri mətbuatda və beynəlxalq konfranslarda müntəzəm olaraq çıxış etmiş və dünya ictimaiyyətinin diqqətini müasir dövrün actual problemlərinə, o cümlədən, Ermənistan-Azərbayçan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etməyə çalışıb. Onun Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti, iqtisadiyyatı haqqında yığcam, bitkin məlumatları yerləşdirdiyi "Virtual Azərbaycan" Web saytı 1995-ci ildən internetin yaddaşında saxlanılır. 2011-ci il iyulun 4-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Vaşinqtonda enerji məsələlərilə bağlı yaradılmış "LRİ Conğultinq" şirkətinin portnyoru və Azərbaycan-Amerika Şurasında Beynəlxalq Araşdırmalar Mərkəzinin beynəlxalq münasibətlər üzrə vitse-prezidenti – beynəlxalq ekspertidir.

Adil Bağırovun "Qloballaşma və beynəlxalq münasibətlərdə internet faktoru" monoqrafiyası 2003-cü ildə Rusiya Elmlər Akademiyasının "İqtisadiyyat" yayım evi tərəfindən çap olunmuşdur. Hazırda ABŞ-m Oqayo ştatının Deyton şəhər təhsil şurasının başçısı vəzifəsində çalışır.

*Nəsimi Əhmədov,*
*iqtisad üzrə fəlsəfə doktoru.*



Nəsimi Vaqif oğlu Əhmədov 1978-ci il iyunun 6-da Şuşa şəhərində anadan olmuşdur. O, şuşada tanınmış Əhmədovlar nəslindən olan Vadif müəllimin oğludur.
1995-ci ildə orta məktəbi fərqlənmə attestatı ilə bitirmişdir. 1999-cu ildə Azərbaycan Kooperasiya Universitetinin iqtisadiyyat fakültəsini Beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə bakalavr , 2001-ci ildə isə magistratura pillələrini fərqlənmə diplomu ilə bitirmişdir. Nəsimi Əhmədov 2004-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun aspiranturasını bitirərək elmlər namizəti adma layiq görülmüşdür. Tələbəykən ictimai işlərdə çalışmış, universitetin tələbə həmkarlar təşkilatının sədri və Elmi Şurasının üzvü olmuşdur. Əmək fəaliyyətinə akademiyanın İqtisadiyyat İnstitutunda kiçik elmi işçi kimi başlamış (2002), hərbi xidmətini başa vurduqdan (2007) sonra əvvəlki iş yerinə qayıtmışdır. 2013-cü ildə “Abşeron iqtisadi rayonunda mineral-xammal sərvətlərindən səmərəli istifadə istiqamətləri” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 2009-2011-ci illərdə “Gəncə-Qazax və Quba-Xaçmaz iqtisadi rayonlarının davamlı inkişaf planı əsasında investisiya xəritəsinin hazırlanması” layihəsində regional iqtisadiyyat üzrə eksperti olmuş, 2014-cü ildə “Şəki-Zaqatala iqtisadi rayonunun 2014-2020-ci illər üçün Davamlı İnkişaf Proqramının hazırlanması” üzrə layihənin yerinə yetirilməsində tədqiqatçı kimi iştirak etmiş, Bakı Dövlət Universitetinin “Beynəlxalq münasibətlər və iqtisadiyyat” fakültəsində mühazirələr oxumuşdur (2012-2014). Hazırda AMEA İqtisadiyyat İnstitutunun

"Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri" şöbəsində böyük elmi işçi vəzifəsində çalışır.

Nəsimi Əhmədov 30-dan çox məqalə və tezisin, 2 kollektiv monoqrafiyanın müəllifidir. Bir sıra beynəlxalq elmi konfranslarda iştirak etmiş, Rusiya, Belorus, Ukrayna, Qazaxıstan və Türkiyədə elmi əsərləri nəşr edilmişdir. "Xidmətdə fərqlənmə" döş nişanına (2007), Bakıda keçirilən "Gənc alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası" çərçivəsində elmi-innovativ ideyalar müsabiqəsində diploma (2012) və Qazaxıstanın Alma-Ata şəhərində keçirilən I Beynəlxalq Afro-Avrasiya Araşdırmaları Konqresində "Azərbaycanın neft emalı sənayesində texnoloji inkişaf və səmərəlilik" mövzusunda elmi məruzəyə görə mükafata layiq görülmüşdür.

***Nurlan Növrəsli,***
***əməkdar artist***



Nurlan Növrəs oğlu Növrəsli 1984-cü il iyulun 16-da Bakı şəhərində anadan olub.

Mirzə Ələsgər Növrəsin kötücəsidir. 1993-2002-ci illərdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin kaman və xanəndəlik sinfində təhsil alıb. 2006-cı ildə Bakı Musiqi Akademiyasının "solo oxuma" fakültəsini bitirib.

Musiqi məktəbləri arasında keçirilən VII respublika müsabiqəsinin laureatı olmuşdur.

O, Space telekanalının təqdim etdiyi "Azəri Star-2004" musiqi-televiziya müsabiqəsində ilk dəfə iştirak etdiyi dövrdə geniş tamaşaçı kütləsi tərəfindən tanınmışdır. Bu müsabiqədə İlhamə Quliyeva və Faiq Sücəddinov kimi tanınmış sənətkarların xüsusi rəğbətini qazanmış və yarışın finalçısı olmuşdur.

Nurlan Növrəsli 2006-cı ildə Qazaxıstanda keçirilən "Cahan dala" IX Populyar musiqi və mahnı müsabiqəsinin laureatı, I yerin

qalibidir. O, ilk klipini “Sən ki” adlı mahnısına 2006-cı ildə çəkdirmişdir. Mahnının musiqisi qardaşı Şahin Növrəsliyə, sözləri Ziya Fazilə aiddir. Klipin rejissoru Samir Fərzəlibəyovdur. O, mütamadi olaraq Azərbaycan Dövlət Televiziyasının önəmli rəsmi gecələrində və tədbirlərində iştirak edir. Nurlan həmçinin Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə Azərbaycan Mədəniyyəti günlərində Azərbaycanı təmsil etmişdir.

Nurlan Növrəsli istedadlı müğənni olmaqla bərabər, həm də gözəl kaman və skripka ustasıdır.

2016-cı il sentyabrın 19-da Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının əməkdar artisti fəxri adma layiq görülüb.




***Arslan Növrəsli,***
***targən***

Arslan Növrəs oğlu Növrəsli şair Mirzə Ələsgər Növrəsin kötücələrindən biridir. O, 1981-ci il aprelin 24-də Bakı şəhərində anadan olub. Dünya üzrə ilk dəfə tarda caz ifa edir. Tar virt uozu və caz qrupunun rəhbəri Arslan Növrəsli karyerasını alətin çoxşaxəliliyini nümayiş etdirməyə həsr etmiş azərbaycanlı musiqiçidir. O, tarda musiqinin bütün janrlarını ifa edir: klassik, muğam, caz, xalq musiqisi və s.

Arslan Növrəsli Azərbaycan Milli Konservatoriyasının magistraturasını fərqlənmə diplomu ilə bitirib.

2007-2020-ci illərdə müxtəlif xarici ölkələrdə keçirilən festivallarda və 2010-cu ildə Londonda keçirilən Beynəlxalq Azərbaycan İncəsənət Festivalında 100 gün iştirak edib. O, bir çox “Tar layihələri”ni solo ifa edib. Onlardan biri də Londonda “Arslan

Növrəslinin tarın kəşfi" əsəridir. Demək olar ki, o, tarda harmonik caz standartlarını ifa edən ilk musiqiçidir. O, caz qruplarında və simfonik orkestrlərdə Joan Rodgers C.B. Burçin Savigne, Andrea Bocelli, Jeffrey Lloyd-Roberts, Shlomo Mintz kimi tanınmış musiqiçilərlə öz istedadını nümayiş etdirib. Arslan Novrəsli London, Kiyev, Moskva, Bakı, Cenevrə, İstanbul və bir çox başqa ölkə və şəhərlərdə solo konsertlər verib. O, dünyanın müxtəlif ölkələrində keçirilən caz, klassik və xalq festivallarının iştirakçısı və laureatı olub. "Baku Jazz Festival 2014"-"Cazda ilk dəfə" adlanan növbəti uğurlu layihələrdən biridir. Bu, həm də musiqi tarixində ilk tar-caz solo konsert layihəsi idi.

2015-ci ilin may ayında Heydər Əliyev Fondunun və Azərbaycanın YUNESKO-dakı nümayəndəliyinin Parisdəki mənzil-qərargahı yanında daimi nümayəndəliyinin təşkilatçılığı ilə "Azərbaycan cazının yeni nəsli" adlı konsert proqramı olmuşdur. Orada Arslan tar cazını təqdim etdi. O, daim tamaşaları yaradıcılığın nəzəri və eksperimental aspekti ilə birləşdirir. Onun elmi məqalələri mətbuatda dərc olunur. Onun müxtəlif bəstəkarların tar üçün çoxlu transkripsiyaları da var. "Musiqi parçaları toplusu" adlı 8 əsərdən ibarət kitabı 2016-cı ilin dekabr ayında işıq üzü görüb. Bundan başqa, A.Növrəsli bir sıra müsabiqələrdə münsiflər heyətinin üzvü kimi yüksək təcrübə qazanıb.

Sovet dövründə Azərbaycanın möhtəşəm müsiqi aləti olan tara qarşı yönələn fikirlərlə tarı bir musiqi aləti kimi sıradan çıxarmaq və bununla da milli mədəniyyətimizi unutdurmağa çalışan bolşevik rejiminin ideoloqları gənc şairlərə tar əleyhinə şeirlər yazmağa şərait yaradırdılar. O dövrdə məhv olmağa məruz qalan tarın bu gün nə möcüzələr yaratdığının şahidi oluruq. Arslanın tar ifasının hər növ musiqiyə uzlaşdırılması bu gün M.Müşfiqin "Oxu tar" harayı qəlbində vətən sevgisi olan hər bir insanı riqqətə gətirərək deyir ki, səndə istənilən musiqi növünü dinləndirməyə qadirik:

**Oxu, tar! Mən səndə istənən havanı çala da bilərəm.**
**Mən səndən bu günün zövqünü ala da bilərəm.**
**Sən bu gün silahsan əlimdə,**
**Səni mən hansı bir hədəfə**

**İstəsəm, çevirə bilərəm.**
**Qəlblərdə gizlənən keçmişi.**
**Bir yeni nəğmənin əliylə çevirə bilərəm!**
**Oxu, tar! Oxu, tar! Oxu, tar!**



***Tərlan Növrəsli, sənətşünas, şair.***

Tərlan Növrəs oğlu Növrəsli 1978-ci il yanvarın 22-də Bakı şəhərində anadan olub. Tərlan da digər Növrəslilər kimi şair Mirzə Ələsgər Növrəsin kötücəsidir.

O, Azərbaycan İqtisad Universitetini bitirib. Sənətşünaslıq üzrə fəlsəfə doktoru (2010), turizm biznesi üzrə dosent vəzifəsində çalışır. O, həmçinin məzmunlu şeirləri ilə sevilən şairdir. 1992-1994-ci illərdə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi nəzdində, Turizm Peşə Məktəbində (N 68) subbakalavr təhsili almışdır. 1995-1999 illərdə Bakı Əmtəə- şünaslıq Kommersiya İnstitutunun bakalavr təhsilini başa vırmış, 1999-2001-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasını fərqlənmə diplomu ilə bitirmişdir. 2002-2003 illərdə Türkiyə – İzmir, Ege Universiteti, Türk Dünyası Araşdırmaları İnstitutlarında təkmilləşdirmə kursları keçmişdir (türk dilində). 2011-ci ildən etibarən Azərbaycan Turizm və Menecment Universitetində işləyir. 2017-ci ildə ATMU-nun “Turizm biznesi” kafedrasında dosent vəzifəsini icra edir. 2018-ci ildə ATMU-da elmlər doktoru proqramı üzrə fəaliyyətini davam etdirməkdədir.

Tərlan Növrəsli artıq məzmunlu şeirləri ilə sevilib-seçilən şairdir. İlk şeir kitabı “Sərab” 2009-cu ildə Türkiyədə çap edilmişdir. Minə yaxın romantik, fəlsəfi şeirlərin, romanların, poemaların, elmi məqalələrin, dərs vəsaitlərin, proqramların, tədris-metodik işlərin, elmi əsərlərin müəllifidir. Onun Qarabağın hər

guşəsindən xəbər verən yüz on romantik şeiri toplanmış "Qarabağıma gəl" kitabı qürurvericidir.

Şair şeirlərində İslam, türkçülük, insanlıq və vətənpərvərliyi birləşdirir və öz axıcılığı ilə insanın ruhunu oxşayır. Şeirlərin hər sətri insanı Qarabağın gözəlliyinə çağırır:

**Gəl! Mənim Şuşama gəl...**
**Gəl! Turşsu yaylağıma gəl...**
**Gəl! İsa bulağıma gəl...**
**Gəl! Obama, ocağıma gəl...**
**Gəl! Evimə, qucağıma gəl...**
**Gəl! Tərlanlar oylağıma gəl...**
**Gəl... gəl... gəl... yenə də gəl, mənim Qarabağıma gəl!**

## ŞUŞA QARABAĞDIR, QARABAĞ AZƏRBAYCANDIR!

Azərbaycanın qədim və möhtəşəm şəhərləri sırasında Şuşanın özünəməxsus yeri var. Bu şəhər digərlərindən özəl gözəllikləri, zəngin təbii şəraiti və milli koloriti ilə fərqlənir. Bu şəhər-qala sərt dağlıq yerdə Pənahəli xanın iradəsi və hünəri nəticəsində bərqərar edilmişdir. Dərin dərələrin, sıldırım qayaların, narahat dağlıq relyefin yaratdığı çətinliklərə baxmayaraq, Pənahəli xan dəvət etdiyi mühəndis və arxitektorların köməyi ilə bütün çətinliklərin öhdəsindən gəldi və 1752-ci ildə həm gözəl, həm də etibarlı müdafiə şəhər-qalasını inşa etdirdi. O, bünövrə daşı qoyulan gündən qaynar bir həyatın məskəni, Qarabağın baş şəhəri olmuşdur. Qarabağlılar, eləcə də bütün Azərbaycan xalqı daim Şuşa ilə fəxr edib və indi də onun barəsində fəxarətlə danışırlar. Şuşa müxtəlif dövrlərdə "Şərqin incisi", "Zaqafqaziyanın konservatoriyası", "Azərbaycanın mədəniyyət beşiyi" adlandırılmışdır. Şuşa yarandığı dövrdən XX əsrin sonuna qədər Bakı və Tiflislə yanaşı, mədəniyyət mərkəzi kimi tanınmışdı. Ona görə ki, bu şəhərin mədəniyyəti dünyaya yayılmış, bəşəriyyətin mədəniyyət xəzinəsinə qiymətli incilər bəxş etmişdir. İngilis, rus, türk, fransız, alman və bir çox ölkələrin böyük mütəfəkkirləri Şuşa və şuşalılar barədə yüksək fikirlər söyləmişlər. Bu kiçik şəhər-qala yarandığı 270 ildə saysız-hesabsız dövlət, hərb, musiqi, teatr, elm, maarif, ədəbiyyat xadimləri və tanınmış sənətkar-lar yetişdirmişdir. Təkcə bir faktı qeyd etmək lazımdır ki, şuşalı alimlərin kəşflərindən müasir kibernetikada və kosmik gəmilərin hazırlanmasında, eləcə də radiotexnika və neft yataqlarının işlənməsində istifadə olunur. Eyni zamanda mobil rabitə əməliyyatlarında, elektron cihazların, rəngli televizorların funksiyalarının yaradılmasında şuşalı fiziklərin kəşfləri önəmli yer tutur. Əhalisi cəmi 20-25 min nəfər civarında olan bu şəhərdən yüzlərlə istedadlı adamın yetişməsi özü nadir göstərici hesab oluna bilər. Dünyanın hansısa ölkəsində ikinci belə bir şəhərin olması haqqında məlumatımız yoxdur.

Təxmini hesablamalara görə, Şuşada anadan olan hər üç-dörd nəfərdən biri xüsusi istedada və qabiliyyətə malikdir. Bütün bunların həqiqət olduğuna inanmaq üçün heç olmasa Şuşada bircə dəfə olmaq bəs edər. Ermənistan silahlı qüvvələri 1992-ci ildə Azərbaycanın bu gözəl şəhərini işğal edərək onun abidələrini 28 il müddətində dağıntılara məruz qoysa da, ağuşunda olduğu meşələrin, dağların, bulaqların, seyrangahların mənzərəsini dəyişə bilməyib. Bir faktı da qeyd edək ki, dünyaya yalan məlumatlar yayan ermənilər Şuşanın, guya, onların şəhəri olması kimi cəfəng məlumatlar vermişlər. Əgər həqiqətən də, onların şəhəri idisə, onda oranı işğal edəndə niyə qədim və müasir abidəl əri məhv etdi1ər? 28 il ərzində niyə oranı abadlaşdırmadılar? Nə üçün azərbaycanlılara məxsus dini və mədəni obyektləri dağıdıb yandırdılar? Ümumiyyətlə, ermənilərin Şuşada törətdikləri vandallıqlara aid yüzlərlə fakt gətirmək olar. Ancaq Şuşa Azərbaycan ordusu tərəfindən azad olunandan sonra şəhər sürətlə abadlaşdırılır və əvvəlki görkəminə qaytarılır. Bu və digər mötəbər faktlar göstərir ki, Şuşa Azərbaycan şəhəridir.

Beləliklə, hörmətli oxucular, sizi möcüzələr şəhəri olan Şuşaya dəvət edirik. Burada Şuşanın zəngin tarixinin, dəyərli abidələrinin, şuşalıların qonaqpərvərliyinin, yüksək mədəniyyət sahibi olmalarının şahidi olacaqsız!

# ШУША – ЭТО КАРАБАХ, КАРАБАХ – ЭТО АЗЕРБАЙДЖАН!

Среди древних и великих городов Азербайджана Шуша занимает особое место. Этот город отличается от других исторических городов Азербайджана своеобразной красотой, изумительной, богатой, природой и неповторимым национальным колоритом. Город-крепость Шуша был заложен в суровой горной местности по воле и решению Панах- Али хана и возведен благодаря его упорству и настойчивости. Несмотря на трудности, которые создавала природа- глубокие овраги, отвесные скалы, сложнейший горный рельеф- Панах-Али хан с помощью зодчих и строителей, приглашенных именитых архитекторов преодолел все трудности, справился с поставленной перед собой задачей и в 1752 году воздвиг среди гор красивый и хорошо обороняемый гор од-крепость. Этот город-крепость с самых первых дней своего существования жил самой активной и полнокровной жизнью, и по сути стал главным городом, своего рода столицей Карабаха. Жители Карабаха и весь азербайджанский народ во все времена гордились Шушой и упоминали этот город с особой любовью. Шушу называли "Жемчужиной Востока", "Консерваторией Кавказа", "Колыбелью азербайджанской культуры".

До конца XX века Шуша, наряду с Баку и Тифлисом была известна как крупный культурный центр. Эта слава была заслуженной, т.к. культурные достижения этого города были известны во всем мире и явились значительным вкладом в сокровищницу мирового искусства. Выдающиеся представители науки и культуры из Англии, Турции, Франции, Германии, России и других стран высоко отзывались Шуше и ее жителях – шушинцах.

Этот небольшой город-крепость за 270 лет своего существования стал родиной многих государственных деятелей и военачальников, видных просветителей, деятелей науки культуры и искусства- музыкантов, писателей, поэтов. Один лишь факт- научные открытия учёных-шушинцев нашли

применение в современной кибернетике, строительстве космических ракет, в радиотехнике и разработке нефтяных месторождений. В операциях современной мобильной связи, в создании электронных приборов, функций современного телевидения открытия ученых-физиков из Шуши также занимают видное место.

Из этого замечательного города, численность населения которого составляет всего 20-25 тыс. человек, вышли сотни талантливых деятелей культуры и искусства, что само по себе является редким и серьезным показателем, и данных о втором подобном городе-феномене в мире не имеется.

По самым приблизительным подсчетам, в Шуше из каждых 3-4 жителей один наделен особым талантом. Чтобы убедиться в правдивости приведенных выше фактов, достаточно побывать в Шуше один лишь раз.

В 1992 году армянские вооруженные формирования, захватив этот прекрасный азербайджанский город в течение 28 лет целенап—равленно разрушали его. Однако, несмотря на все свои усилия оккупанты не могли уничтожить, даже частично изменить чарующую природу здешних мест – гор, лесов, родников. Необходимо отметить еще один факт – армянские СМИ, распространяя по всему миру нелепую, подчас откровенно лживую информацию, утверждали, что Шуша является исконно армянским городом.

Отсюда закономерный, вполне логичный вопрос- если Шуша действительно является армянским городом, то почему здесь в период оккупации разрушались древние и современные памятники культуры? Почему за 28 лет оккупации эти земли не благо—устраивались? Почему были сожжены религиозные и культурные объекты, принадлежавшие азербайджанцам?

Свидетельств армянского вандализма можно привести великое множество .

Однако, несмотря на все пережитые трагические события, освобожденная доблестной азербайджанской армией Шуша быстро восстанавливается, благоустраивается и возрождает свой былой исторический облик. Это является самым

очевидным свидетельством того, что Шуша- именно азербайджанский город. Итак, дорогие читатели, мы приглашаем вас в волшебный, сказочный город под названием Шуша. Здесь вы познакомитесь с богатой историей Шуши, станете свидетелями радушия, гостеприимства и высокой культуры шушинцев.

## SHUSHA IS KARABAKH, KARABAKH IS AZERBAIJAN

Shusha holds a special place among the ancient and great cities of Azerbaijan. This city differs from other historical cities of Azerbaijan and is notable for its unique beauty, rich nature, and authentic national color scheme. The fortress-city Shusha was founded in a harsh mountainous area by the will and decision of Panahali khan and was built thanks to his persistence and urgency.

Despite the difficulties that nature created, such as deep ravines, sheer cliffs, the most difficult mountainous relief – Panahali khan, with the help of constructors and builders invited eminent architects and overcame all difficulties, succeeding his task and raising a beautiful and well-defended fortress-city among the mountains in 1752.

From the very first days of its existence, this fortress-city lived the most active and full-blooded life, and in fact became the main city and cultural capital of Karabakh. The inhabitants of Karabakh and all of Azerbaijani people were always proud of Shusha and spoke about this city with special love. Shusha was called the "Pearl of the East", "Conservatory of the Caucasus", "Cradle of Azerbaijani culture".

Until the end of the XX century, Shusha, along with Baku and Tbilisi, were known as major cultural centers. This fame was well-deserved, because the cultural achievements of this city were known throughout the world and became a significant contribution to the treasury of the world art. Outstanding representatives of science and culture from England, Turkey, France, Germany, Russia and other countries praised Shusha and its residents – the people of Shusha.

This small fortress-city over the 270 years of its existence has become the birthplace of many statesmen and military leaders, prominent enlighteners, outstanding figures of science, culture and art – musicians, writers and poets. Just one fact – the scientific discoveries of scientists from Shusha have found application in

modern cybernetics, the construction of space rockets, in radio engineering and the development of oil fields. In the operations of modern mobile communications, in the creation of electronic devices, the functions of modern television, the discoveries of physicists from Shushi also occupy a prominent role.

Hundreds of talented figures of culture and art have come out of this wonderful city, with a population of only 20-25 thousand people, which in itself is a rare and serious indicator, and there is no data about existence of the second similar city-phenomenon in the world.

According to the most approximate estimates, in Shusha, one of every 3-4 residents has a special talent. In order to be convinced in the veracity of the facts given above, it is enough to visit Shusha only once.

In 1992, the Armenian armed formations, had captured this beautiful Azerbaijani city and purposefully ruined it for 28 years. However, despite all their efforts the invaders could not destroy, even partially change the enchanting nature of the local places – mountains, forests, springs. One more fact should be noted – the Armenian media, spreading absurd, sometimes openly false information all over the world, claimed that Shusha was a primordial Armenian city. This assertion raises a legitimate and quite logical question – if Shusha is really an Armenian city, then why were ancient and modern cultural monuments destroyed here during the period of  occupation? Why have these lands not been landscaped for 28 years of occupation? Why were religious and cultural objects belonging to Azerbaijanis burned? Evidences of Armenian vandalism can be cited in great number.

However, despite all the tragic events, Shusha was liberated by the valiant Azerbaijani army, and now it is quickly restored, improved and revives its former historical appearance. This is the most obvious evidence that Shusha is an Azerbaijani city.

So, dear readers, we invite you to a magical, magnificent city called Shusha. Here you will get acquainted with the rich history of Shushà, become witnesses of cordiality, hospitality and high culture of Shushà people.

# M Ü N D Ə R İ C A T

Şərqin gözəli


Əziz Şuşa, sən azadsan! .......... 3
Mədəniyyətimizin beşiyi Şuşanın yaranma tarixi .......... 7
Şuşa sənətkarlar şəhəridir .......... 14
Şuşanın mədəniyyət abidələri .......... 19
Şuşa – Azərbaycan musiqisinin məbədi .......... 22
Şuşanın dövlət və ictimai xadimləri .......... 28

Şuşanın görkəmli şəxsiyyətləri

Pənahəli xan Cavanşir .......... 33
Molla Pənah Vaqif .......... 49
İbrahimxəlil xan Cavanşir .......... 52
Mehdiqulu xan Cavanşir .......... 67
Mirzə Adıgözəl bəy .......... 72
Ağabəy im ağa .......... 74
Qasım bəy Zakir .......... 84
Cəfərqulu xan Cavanşir (Nəva) .......... 85
Abbas Mirzə .......... 86
Fərhad bəy .......... 95
Məşədi Ocaqverdi (Ocaqverdiuşağı) .......... 96
Gövhər ağa Cavanşir .......... 100
Bəhmən Mirzə Qacar .......... 104
Mirzə Məmmədqulu bəy Qayıbov .......... 107
Xarrat Qulu .......... 108
Əsəd bəy Cavanşir .......... 110
Xurşudbanu Natəvan .......... 111
Seyid Hüseyn Ağamirov .......... 121
Mir Möhsün Nəvvab .......... 122
Hacı Hüsü .......... 123
Abdulla bəy Asi .......... 124
Fatma xanım Kəminə .......... 125
Hacı Abbas Agah .......... 126
Mirzə Rəhim Fəna .......... 127

Sadıqcan ........ 129
Həsənəli xan Qaradaği ........ 130
Cəmil bəy Xazalanski ........ 131
Əmir Kazım Mirzə Qacar ........ 131
Nəcəf bəy Vəzirov ........ 133
Məşədi İsi ........ 134
Səməd bəy Mehmandarov ........ 137
Mehdiquluxan Vəfa ........ 138
Əli bəy Novruzov ........ 139
Cabbar Qaryağdıoğlu ........ 140
Bəhram bəy Axundov ........ 141
Əmənulla Mirzə Qacar ........ 142
Firidun bəy Köçərli ........ 143
Keçəçioğlu Məhəmməd ........ 146
Haşım bəy Vəzirov ........ 147
Əhməd bəy Ağaoğlu ........ 150
Malıbəyli Həmid ........ 153
Darab Mirzə Qacar ........ 155
Əbdürrəhim bəy Haqverdiyev ........ 156
Çarıqçı Bahadır ........ 157
Əbülfət Vəli ........ 158
Əmir bəy Nərimanbəyov ........ 162
Həmidə xanım Cavanşir ........ 162
Məcid Behbudov ........ 166
Hüseyn bəy Mahmudbəyov ........ 167
Məşədi Cəmil ........ 168
Ərdəşir Mirzə ........ 169
Bədəl bəy Bədəlbəyli ........ 170
Süleyman Sani Axundov ........ 171
İldırım xan Şərifov ........ 172
Əliş bəy Vəliyev ........ 173
Əliş bəy Gülməmmədov ........ 175
Məşədi Abbas Rzayev ........ 175
Cavad bəy Məlik-Yeqanov ........ 178
Qəmər bəyim Şeyda ........ 179

Ələsgər bəy Bəylərbəyov ........................................................ 180
Zülfüqar Hacıbəyov.................................................................. 181
Üzeyir Hacıbəyli........................................................................ 183
Həsən bəy Fətəlibəyov ............................................................ 193
Hidayət bəy Tarverdiyev .......................................................... 194
Cəmil bəy Vəzirəv..................................................................... 195
Cəlil Məmmədzadə.................................................................... 196
Mirhəsən Vəzirə v ..................................................................... 198
Seyid Şuşinski............................................................................ 199
Həbib bəy Köçərli...................................................................... 203
Bəhram Mirzəyev ...................................................................... 206
Cahangir bəy Nəsirbəyov ......................................................... 211
Əmir bəy Aslanov...................................................................... 213
Həsən İxfa Əlizadə .................................................................... 214
Əli Zülalov.................................................................................. 215
Bahadır Vəlibəyov..................................................................... 217
Hüseyn bəy Mamayev ............................................................... 219
Cəlil Xudiyev.............................................................................. 219
Nəzirə Qacar .............................................................................. 221
Mirzə Ələsgər Növrəs................................................................ 222
Hüsü Hacıyev ............................................................................ 224
Cəmil bəy Musayev................................................................... 224
Baba bəy Behbud....................................................................... 225
Bülbül ........................................................................................ 229
Əmir Hacıyev ............................................................................ 230
Əyyub bəy Köçərli..................................................................... 231
Əli Yusifzadə.............................................................................. 232
Yaqub Quliyev............................................................................ 238
Xan Şuşinski .............................................................................. 238
Hüseyn Baykara......................................................................... 239
Məhbubə Paşayeva ................................................................... 244
Mehdi Usmiyev ......................................................................... 246
Bəylər Ağayev ........................................................................... 247
Lətif Kərimov ............................................................................ 247
Əliş Həsənov.............................................................................. 248

Hətəm Quliyev........................................................................ 249
İsfəndiyar Vəlixanlı .................................................................. 250
Məhərrəm Əlizadə .................................................................. 251
Məmmədəli Məhərrəmov .......................................................... 252
Əmir Rüstəmov........................................................................ 252
Ələsgər Rizvan ........................................................................ 253
Süleyman Vəzirov .................................................................... 255
Səttar Əsədov.......................................................................... 261
Sürəyya Qacar.......................................................................... 265
Ənvər Tutayuq ........................................................................ 266
Əsəd bəy Rüstəmbəyov .......................................................... 267
Ənvər Həsənov ........................................................................ 268
Şamil Əliyev ............................................................................ 269
Ənvər Behbudov...................................................................... 272
Niyazi Hacıbəyov .................................................................... 273
Tahirə Tahirova ........................................................................ 275
Çingiz Hacıbəyov .................................................................... 277
Bəbir Məmmədzadə.................................................................. 278
Barat Şəkinskaya .................................................................... 279
Validə Tutayuq ........................................................................ 282
Cavanşir Məmmədov................................................................ 283
Əkbər Ağayev.......................................................................... 286
Rəşid Behbudov........................................................................ 288
Cəlal Qaryağdı.......................................................................... 289
Xəlil Məmmədov...................................................................... 290
Azad Şəmsiyev ........................................................................ 291
Alim Yusifzadə.......................................................................... 292
Məhluqə Sadıqova .................................................................... 293
Mehdi Məmmədov .................................................................... 294
Əli Fərzəliyev .......................................................................... 298
Soltan Hacıbəyov...................................................................... 300
Əşrəf Abbasov .......................................................................... 305
Adil Babayev ............................................................................ 306
Saleh bəy Qarabağlı.................................................................. 307
Naib Şirinov.............................................................................. 309

Fikrət Əmirov ........................................................................ 311
Lətif İmanov ........................................................................ 313
Nazim Axundov........................................................................ 316
Teymur Əliyev........................................................................ 318
Süleyman Ələsgərov........................................................................ 319
Firudin Şuşinski........................................................................ 321
Rasim Hacıyev........................................................................ 324
Əbülfət Əliyev ........................................................................ 326
Firuzə Məmmədova........................................................................ 328
Tamilla Ağamirova........................................................................ 328
Cahid Quliyev........................................................................ 329
Cahid Camal ........................................................................ 331
Nəriman Tahirov........................................................................ 333
Vahid Hacıyev ........................................................................ 334
Aydın Qaradağlı ........................................................................ 337
Cəlal Allahverdiyev........................................................................ 338
Çingiz Sadıqov ........................................................................ 340
Toğrul Nərimanbəyov ........................................................................ 342
Sabir Şəfiyev........................................................................ 344
Qaçay Hüseynov........................................................................ 345
Aida Tağızadə........................................................................ 346
Eldar Əzimzadə ........................................................................ 348
Qədir Rüstəmov........................................................................ 354
Nailə Mehdibəyova........................................................................ 355
Rafiq Hüseynov ........................................................................ 356
Niyazi Rəsulov ........................................................................ 357
Nadir Əlişov ........................................................................ 358

Klassik şuşalıların müasirləri

Məryəm Əlizadə ........................................................................ 363
Kamal Abdulla........................................................................ 364
Bayram Səfərov ........................................................................ 367
Vasif Quliyev........................................................................ 368
Şamil Süleymanlı........................................................................ 369
Vüsalə Fətəliyeva ........................................................................ 370

Səadət Qarabağlı ........................................................ 371
Şəlalə Həsənova ........................................................ 373
Firəngiz Mütəllimova ................................................ 376
Gülşən Lətif ................................................................ 378
Ramiz Qəmbərov ........................................................ 380
Aygün Məcidəva ........................................................ 381
Azad Məmmədov ........................................................ 382
Elmir Vəlizadə ............................................................ 385
Hikmət Sabiroğlu ........................................................ 385
Nəriman Bağırov ........................................................ 386
Dilquşa Mirzəyeva ...................................................... 387
Anar Kərimov ............................................................ 388
Elşad Məmmədov ...................................................... 389
Murad Adıgözəlzadə .................................................. 390
Naina İbrahimova ........................................................ 390
Tahir İmanov .............................................................. 391
Cabir İmanov .............................................................. 392
Şahin Növrəsli ............................................................ 393
Adil Bağırov ................................................................ 395
Nəsimi Əhmədov ........................................................ 397
Nurlan Növrəsli .......................................................... 398
Arslan Növrəsli .......................................................... 399
Tərlan Növrəsli .......................................................... 401
Şuşa Qarabağdır, Qarabağ Azərbaycandır! .............. 403
Шуша – это Карабах, Карабах – это Азербайджан. . . . 405
Shusha is Karabakh, Karabakh is Azerbaijan ............ 407